# İnzibati-ərazi vahidləri


## İnzibati-ərazi vahidləri haqqında ümumi məlumat

## Bakı şəhəri

- Ümumi məlumat
- Tarix
- Əcnəbi səyyahlar Bakı haqqında
- Xəzər dənizi
- Şirvanşahlar sarayı
- Qız qalası
- Qobustan
- Neft Daşları
- Atəşgah
- Muzeylər, kitabxanalar və teatrlar

## Azərbaycanın digər rayon və şəhərləri

- Abşeron rayonu
- Ağcabədi rayonu
- Ağdam rayonu
- Ağdaş rayonu
- Ağdərə rayonu
- Ağstafa rayonu
- Ağsu rayonu
- Astara rayonu
- Balakən rayonu
- Bərdə rayonu
- Beyləqan rayonu
- Biləsuvar rayonu
- Cəbrayıl rayonu
- Cəlilabad rayonu
- Daşkəsən rayonu
- Füzuli rayonu
- Gəncə şəhəri
- Gədəbəy rayonu
- Goranboy rayonu
- Göyçay rayonu
- Göygöl rayonu
- Hacıqabul rayonu
- Xaçmaz rayonu
- Xankəndi şəhəri
- Xızı rayonu
- Xocalı rayonu
- Xocavənd rayonu

**İmişli rayonu**
**İsmayıllı rayonu**
**Kəlbəcər rayonu**
**Kürdəmir rayonu**
**Qax rayonu**
**Qazax rayonu**
**Qəbələ rayonu**
**Qobustan rayonu**
**Quba rayonu**
**Qubadlı rayonu**
**Qusar rayonu**
**Laçın rayonu**
**Lerik rayonu**
**Lənkəran rayonu**
**Masallı rayonu**
**Mingəçevir şəhəri**
**Naftalan şəhəri**
**Neftçala rayonu**
**Oğuz rayonu**
**Saatlı rayonu**
**Sabirabad rayonu**
**Salyan rayonu**
**Samux rayonu**
**Siyəzən rayonu**
**Sumqayıt şəhəri**
**Şabran rayonu**
**Şamaxı rayonu**
**Şəki rayonu**
**Şəmkir rayonu**
**Şirvan şəhəri**
**Şuşa rayonu**
**Tərtər rayonu**
**Tovuz rayonu**
**Ucar rayonu**
**Yardımlı rayonu**
**Yevlax rayonu**
**Zaqatala rayonu**
**Zəngilan rayonu**
**Zərdab rayonu**
**Naxçıvan Muxtar Respublikası**
**Ümumi məlumat**
**Tarixi**
**Əhalisi**

**Təbiəti**
**Relyefi**
**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**
**Mədəniyyəti və tarixi abidələri**
**Naxçıvan Muxtar Respublikasının rayon və şəhərləri**
**Naxçıvan şəhəri**
**Babək rayonu**
**Culfa rayonu**
**Kəngərli rayonu**
**Ordubad rayonu**
**Sədərək rayonu**
**Şahbuz rayonu**
**Şərur rayonu**

# İnzibati-ərazi vahidləri haqqında ümumi məlumat

Azərbaycan xalqının inkişafında mühüm rol oynamış ölkənin inzibati ərazi quruluşu onun ərazi bölgüsünün coğrafi əsasını təşkil edir. Azərbaycanın yaşayış məntəqələrinin yaranması qədim zamanlardan başlayaraq mürəkkəb tarixi dövr keçmişdir. Hər bir tarixi dövrdə məskunlaşma sisteminin təşəkkülü, yüksəlməsi və tənəzzülü prosesləri baş vermiş və bunun üçün konkret iqtisadi-siyasi zəmin yaranmışdır. Mövcud olan sosial-iqtisadi münasibətlərin dəyişməsi ilə birgə dövlətin inzibati ərazi quruluşu da dəyişmişdir. Hakimiyyətə gələn sinif özünə xas olan dövlət quruluşunu və ona uyğun inzibati ərazi bölgüsünü yaratmışdır.

Azərbaycanda ictimai quruluş dövlətlər, əmirliklər, bəylərbəyiklər, xanlıqlar, sultanlıqlar, vilayətlər, əyalətlər, quberniyalar, qəzalar, dairələr, mahallar və rayonlardan ibarət olmaqla bir neçə dəfə köklü surətdə dəyişmişdir. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində bir çox xırda xanlıqlar və sultanlıqlar digərləri ilə birləşmişdi. Azərbaycanı öz təsir dairəsinə salmaq uğrunda aparılan rəqabət nəticəsində 1801-1828-ci illər ərzində Azərbaycan bir sıra imperiyaların təcavüzlərinə məruz qalmışdır.

1801-1804-cü illərdə Gəncə, Qarabağ, Şəki və Şirvan xanlıqları, habelə Borçalı, Qazax, Şəmsəddil və Tabasaran sultanlıqları və Car-Balakən camaatlığı Rusiya imperiyası tərəfindən işğal edildi. Gəncə şəhərinin adı dəyişdirilərək Yelizavetpol adlandırıldı. 1805-1806-cı illərdə Azərbaycanın Dərbənd, Qarabağ və Quba xanlıqları Rusiyaya ilhaq edildi.

1813-cü ildə Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsi əsasında Azərbaycan İran ilə Rusiya arasında bölünərək İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Araz çayından şimal hissəsində yerləşən Azərbaycan torpaqları Rusiyanın tərkibinə verildi.

1827-ci ildə Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları da Rusiyanın tərkibinə daxil edildi.

XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqları 6 əyalətə (Bakı, Quba, Şəki, Şirvan, Qarabağ, Talış), 2 dairəyə (Yelizavetpol, Car-Balakən) və 2 distansiyaya (Qazax, Şəmşəddil) bölünmüşdü. İrəvan və Naxçıvan xanlıqlarının ərazisində isə Rusiya çarı I Nikolayın fərmanı ilə 21 mart 1828-ci ildə "Erməni vilayəti" yaradılmışdı. 1840-cı ildə "Erməni vilayəti" buraxılmış, əvəzində təşkil edilən İrəvan qəzası Gürcü-İmereti quberniyasının tərkibinə daxil edilmişdi. 1 yanvar 1841-ci ildən Zaqafqaziyada inzibati islahat qanununa (10.04.1840) müvafiq olaraq bu bölgələr Gürcü – İmereti quberniyasına (mərkəzi - Tiflis) və mərkəzi Şamaxı olmaqla Kaspi (Xəzər) vilayətinə bölündü. Kaspi vilayətinə Şamaxı, Şuşa, Şəki (Nuxa), Lənkəran, Bakı, Quba, Dərbənd qəzaları daxil idi. Azərbaycanın Yelizavetpol (Qazax və Şəmşəddil qəzaları daxil olmaqla), Balakən (keçmiş Car-Balakən dairəsi) və Naxçıvan (Ordubad dairəsi ilə birlikdə) torpaqları Gürcü-İmereti quberniyasının tərkibinə daxil edilmişdi.

1846-cı ildə Zaqafqaziya Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Şamaxı quberniyası Şamaxı, Şuşa, Şəki, Bakı və Lənkəran qəzalarından ibarət idi. Quba qəzası Dərbənd quberniyasının tərkibinə daxil oldu, Yelizavetpol qəzası isə Tiflis quberniyasında qaldı. Car-Balakən yenidən ayrı dairə kimi yarandı. 1849-cu ildə İrəvan, Aleksandropol (keçmiş Gümrü), Naxçıvan, Ordubad

və Novo-Bayazet (Göyçə gölü hövzəsi) qəzalarından ibarət İrəvan quberniyası təşkil edildi. Şamaxı zəlzələsi ilə əlaqədar olaraq (1859) bu quberniyanın mərkəzi Bakıya köçürüldü və o, "Bakı quberniyası" adlandırıldı. 1860-cı ildə Dərbənd quberniyası ləğv olundu. Quba qəzası Bakı quberniyasının tərkibinə daxil edildi. Car-Balakən dairəsi Zaqatala dairəsinə çevrildi. 1868-ci ildə Yelizavetpol quberniyası yaradıldı. Yelizavetpol quberniyasına Qazax, Şəki (Nuxa), Şuşa, Zəngəzur qəzaları daxil idi. Bakı quberniyasına 6 qəza (Bakı, Quba, Lənkəran, Şamaxı, Göyçay və Cavad) daxil idi. 1870-ci ildə İrəvan quberniyasının tərkibində yeni Şərur-Dərələyəz qəzası yaradıldı. 1874-cü ildə Şəki (Nuxa) qəzasının cənub hissəsindən Ərəş qəzası ayrıldı. 1 iyul 1883-cü ildə Cəbrayıl və Cavanşir qəzaları yaradıldı. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Bakı, Gəncə (ruslar onun adını dəyişib "Yelizavetpol" qoymuşdular. 10 avqust 1918-ci ildə Gəncənin adı yenidən özünə qaytarıldı) və Zaqatala dairəsinə bölündü. Bununla birlikdə, Gəncə quberniyasının tərkibində müvəqqəti Qarabağ general-qubernatorluğu yaradıldı. Onun tərkibinə Şuşa, Cavanşir, Zəngəzur və Qaryagin 30 avqust 1918-ci ildən Cəbrayıl qəzaları daxil oldu. Bakı quberniyasına Bakı, Göyçay, Cavad, Quba, Lənkəran, Şamaxı qəzaları, Gəncə quberniyasına Ərəş, Gəncə, Qazax, Şəki (Nuxa) qəzaları daxil edildi. Zaqatala dairəsində qəza bölgüsü yox idi. Ona Car, Balakən, Əliabad, Muxax, Almalı, Qax sahələri daxil idi. 1919-cu ildə Qazax qəzasından Tovuz qəzası ayrıldı, cənub-qərbdə isə Qubadlı qəzası yaradıldı. 22 aprel 1920-ci ildə Gəncə qəzasından Şamxor qəzası ayrıldı.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakı və Gəncə quberniyaları ləğv edildi, Zaqatala dairəsi Zaqatala qəzasına çevrildi. Ərəş və Cavad qəzaları "Ağdaş" və "Salyan" adlandırıldı.




1921-ci ildə Azərbaycan SSR-də 17 qəza (Ağdaş, Bakı, Göyçay, Gəncə, Cəbrayıl-Qaryagin, Tovuz, Qazax, Zaqatala, Quba, Lənkəran, Şəki (Nuxa), Salyan, Şuşa, Şamaxı, Şamxor, Qubadlı, Zəngəzur) vardı, 1922 - ci ildə Zəngəzur qəzası ləğv edildi və Qubadlı, Cavanşir və Şamxor qəzaları yaradıldı. Naxçıvan vilayətində Şərur-Dərələyəz və Naxçıvan qəzaları təşkil edildi.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Cavanşir, Qubadlı, Şuşa və Tovuz qəzaları ləğv edildi, yeni Ağdam və Kürdüstan qəzaları təşkil edildi. Naxçıvan vilayətində hər iki qəza ləğv

olundu. Bu dəyişikliklər nəticəsində respublikanın tərkibinə 15 qəza (Ağdam, Ağdaş, Bakı, Gəncə, Göyçay, Cəbrayıl, Zaqatala, Qazax, Kürdüstan, Quba, Lənkəran, Nuxa, Salyan, Şamxor, Şamaxı) Naxçıvan vilayəti və Dağlıq Qarabağ Muxtar Vilayəti daxil oldu. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 9 fevral 1924-cü il qərarı ilə Naxçıvan vilayəti Naxçıvan Muxtar Respublikasına çevrildi. 1926-cı ildə qəzaları möhkəmləndirmək məqsədi ilə Şamxor və Ağdaş qəzaları ləğv edildi. VI Ümumazərbaycan Sovetlər qurultayının (8 aprel 1929-cu il) qərarı ilə respublika ərazisində dairələr (Bakı, Quba, Lənkəran, Şirvan, Gəncə, Qarabağ, Zaqatala-Nuxa, Muğan) təşkil edildi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 25 yanvar 1930-cu il qərarı ilə Zaqatala və Nuxa dairələri yenidən bərpa edildi və Qarabağ dairəsinin tərkibindən ayrılmış müstəqil Kürdüstan dairəsi yaradıldı.

1930-cu ildə Azərbaycan SSR-də 10 dairə (Bakı, Gəncə, Zaqatala, Qarabağ (Ağdam), Quba, Kürdüstan, Lənkəran, Muğan (Salyan), Şəki (Nuxa), Şirvan (Göyçay))mövcud idi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 30 avqust 1930-cu il tarixli qərarı ilə respublika ərazisi 63 rayona bölündü. 1931-ci ilin fevralında bəzi rayonlar ləğv edilərək yeniləri yarandı, bununla əlaqədar onların sayı 47-yə endi. (Hacıkənd, Əliabad, Ağsu, Göynük, Çuxurabad, Qaraməryəm, Qarasu, Qubadlı, Mərəzə, Tərtər və Xəzri rayonları ləğv edilmiş, Hil, Gəncə, İsmayıllı, Nuxa və Şaumyan rayonları yaradılmışdır. "1931-ci ilin oktyabrında Petropavlovsk kəndi "Sabirabad şəhəri" adlandırılır.

1933-cü ilin martında yenidən Qubadlı rayonu, 1934-cü ilin yanvarında Tərtər, 5 fevral 1935-ci ildə Yevlax və Zərdab rayonları təşkil edildi. 1937-ci ildə respublika rayonları şəbəkəsi Azərbaycan SSR Konstitusiyasında qanunla möhkəmləndirildi. 1938-1939-cu illərdə Azərbaycanın inzibati-ərazi bölgüsündə əsaslı dəyişikliklər edildi. 1938-ci ilin iyulunda Qaradonlu rayonunun adı dəyişdirilərək "İmişli" edildi, Hil - "Qusar", Zuvand-"Lerik", Biləsuvar-"Puşkin", Nərimanov-"Xanlar", Veryaduz-"Yardımlı" adlandırıldı. 1938-ci ildə Annino kəndi "Şamxor şəhəri", Goranboy kəndi "Qasım İsmayılov qəsəbəsi", Yelenendorf kəndi "Xanlar şəhəri", Zubovka kəndi "Əli Bayramlı" şəhəri adlandırıldı. 1939-cu ilin yanvarında Ağstafa, Qazıməmməd, Xıllı, Ucar rayonları yaradıldı. 1939-cu ilin sentyabrında Dağlıq Qarabağ Muxtar Vilayətinin Dizaq və Corabert rayonları "Hadrut" və "Mardakert" rayonları adlandırıldı. 1939-cu ilin noyabrında Jdanov və İsmayıllı rayonları yaradıldı. 1939-cu ildə Hacıqabul şəhəri "Qazıməmməd" adlandırıldı.

1940-cı ilin yanvar-fevral aylarında Siyəzən və Neftçala rayonları təşkil edildi. 1943-cü ilin oktyabrında Mərəzə, Xaldan və Xudat rayonları yaradıldı. 1949-cu ilin yanvarında Naxçıvan Muxtar Respublikasının Əbrəqunis rayonu ləğv edildi. 1949-cu ilin avqustunda Tərtər rayonu "Mir-Bəşir" rayonu adlandırıldı. 22 noyabr 1949-cu ildə Sumqayıt, 4 fevral 1954-cü ildə Mingəçevir şəhərləri yaradıldı. 1954-cü ilin yanvarında Samux rayonu ləğv edildi.

1956-cı ilin aprelində Dəstəfur rayonu "Daşkəsən" rayonu adlandırıldı. 1956-cı ilin dekabrında Xızı, 1959-cu ilin sentyabrında Mərəzə rayonları ləğv olundu. 1959-cu ilin aprelində Qaryagin rayonu "Füzuli" rayonu adlandırıldı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 4 dekabr 1959-cu il fərmanı ilə Ağstafa, Qazıməmməd, Qonaqkənd, Mərəzə, Neftçala, Səfərəliyev, Siyəzən, Xudat rayonları ləğv edildi.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 4 yanvar 1963-cü il fərmanı ilə Ağcabədi, Əli Bayramlı, Ağsu, Balakən, Daşkəsən, Cəbrayıl, Dəvəçi, Yevlax, Jdanov, Zərdab, Qax, Qubadlı, Qutqaşen, Mir-Bəşir, Nuxa, Puşkin, Saatlı, Tovuz, Xaçmaz rayonları, Naxçıvan MSSR-də Ordubad və Şahbuz rayonları, DQMV-də Şuşa rayonu ləğv edildi. Lakin bir ildən sonra - 1964-cü ilin iyulunda Cəbrayıl, Qasım İsmayılov, Qubadlı, Puşkin rayonları, 1965-ci ilin yanvarında isə (bu vaxt N. S. Xruşşov artıq hakimiyyətdən uzaqlaşdırılmışdı) 1963-cü ildə ləğv edilmiş bütün rayonlar bərpa olundu. 1967-ci ilin iyulunda Astraxanbazar rayonu Cəlilabad, 1968-ci ilin sentyabrında Nuxa rayonu Şəki rayonu adlandırıldı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 may 1978-ci il fərmanı ilə DQMV-nin Stepanakert rayonu Əsgəran rayonu, 23 oktyabr 1978-ci il fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonu Babək rayonu adlandırıldı.

1989-1991-ci illərdə SSRİ-nin dağılması prosesi ilə başlayan xalqın uzun sürən azadlıq hərəkatları nəticəsində 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi.

18.03.1989-cu ildə Jdanov rayonunu və Jdanov şəhəri müvafiq olaraq Beyləqan rayonu və Beyləqan şəhəri adlandırıldı.

30.12.1989-cu ildə Kirovabad şəhərinin tarixi adı bərpa edilərək Gəncə şəhəri adlandırıldı.

05.01.1990-cı ildə Bakı şəhərinin Şaumyan rayonu Xətai rayonu adlandırıldı.

18.04.1990-cı ildə Bakı şəhərinin Orconikidze rayonu Suraxanı rayonu adlandırıldı.

21.04.1990-cı ildə Xocalı kəndi şəhər statusuna aid edildi. Həmin tarixdə ərazisi Abşeron və Şamaxı rayonlarından verilməklə, mərkəzi Xızı qəsəbəsi olmaqla Xızı rayonu, ərazisi Əli Bayramlı şəhərindən, o cümlədən Sabirabad və Şamaxı rayonlarından verilməklə, mərkəzi Hacıqabul şəhəri olmaqla Hacıqabul rayonu, ərazisi Qazax rayonundan verilməklə, mərkəzi Ağstafa şəhəri olmaqla Ağstafa rayonu və ərazisi Şamaxı rayonundan verilməklə, mərkəzi Mərəzə qəsəbəsi olmaqla Qobustan rayonu yaradıldı.

06.06.1990-cı ildə Gədəbəy qəsəbəsi, 24.07.1990-cı ildə isə Qubadlı qəsəbəsi şəhər statusuna aid edildi.

05.02.1991-ci ildə Azərbaycan SSR-in adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı.

07.02.1991-ci ildə Qasım İsmayılov, Qutqaşen, Mirbəşir, Puşkin, Şamxor, Vartaşen, Naxçıvan MR İliç rayonlarının, habelə eyni adlı rayon mərkəzlərinin və Gəncə şəhəri Gəncə rayonunun tarixi adları bərpa edilərək müvafiq olaraq Goranboy, Qəbələ, Tərtər, Biləsuvar, Şəmkir, Oğuz, Şərur və Kəpəz rayonu adlandırıldı. Həmçinin Şaumyan rayonu ləğv edildi və onun ərazisi Goranboy rayonuna verildi.

25.05.1991-ci ildə Xızı kəndi qəsəbə statusuna aid edildi.

26.11.1991-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildi. Bunun nəticəsində DQMV-nin tərkibində olan Əsgəran və Hadrut rayonları ləğv edilərək, ərazisi Əsgəran rayonundan verilməklə, mərkəzi Xocalı şəhəri olmaqla Xocalı rayonu yaradıldı. Stepanakert şəhərinin, habelə Mardakert və Martuni rayonlarının və onların mərkəzlərinin tarixi adları bərpa edilərək, müvafiq olaraq Xankəndi, Ağdərə və Xocavənd adlandırıldı. Ləğv edilmiş Hadrut rayonunun ərazisi Xocavənd rayonuna verildi.

Xankəndi şəhəri Respublika tabeli şəhərlər, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları isə Respublika tabeli rayonlar kateqoriyasına aid edildi.

29.11 1991-ci ildə rayon tabeli Lənkəran, Şəki və Yevlax rayonları Respublika tabeli şəhərlər kateqoriyasına aid edildi.

18.02.1992-ci ildə ərazisi Xanlar rayonundan verilməklə, mərkəzi Səfərəliyev qəsəbəsi olmaqla Samux rayonu yaradıldı.

02.04.1992-ci ildə ərazisi Dəvəçi rayonundan verilməklə, mərkəzi Siyəzən şəhəri olmaqla Siyəzən rayonu yaradıldı.

29.04.1992-ci ildə Bakı şəhərinin Kirov, Lenin, 26 Bakı komissarları və Oktyabr rayonu müvafiq olaraq Binəqədi, Sabunçu, Səbail və Yasamal rayonu adlandırıldı.

13.10.1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi Ağdam, Kəlbəcər və Tərtər rayonlarına verildi.

1992-1993-cü illərdə Ermənistan Respublikası tərəfindən Azərbaycanın Xankəndi şəhəri və Ağdam, Ağdərə, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Laçın, Qubadlı, Şuşa və Zəngilan rayonlarının əraziləri işğal olunaraq zəbt edildi.

04.12.2001-ci ildə Naxçıvan MR Babək rayonunun Əliabad kəndi Naxçıvan şəhərinin inzibati tərkibinə verildi və 15.03.2002-ci ildə həmin kənd qəsəbə statusuna aid edildi.

01.03.2003-cü ildə Naxçıvan MR Sədərək rayonunun mərkəzi Sədərək qəsəbəsi kənd statusuna aid edilərək, Sədərək rayonunun mərkəzi Sədərək kəndindən Heydərabad qəsəbəsinə keçirildi.

19.03.2004-cü ildə Naxçıvan MR Babək və Şərur (Qıvraq kəndinə qəsəbə statusu verilməklə) rayonlarından verilməklə, mərkəzi Qıvraq qəsəbəsi olmaqla Kəngərli rayonu yaradıldı.

02.10.2006-cı ildə Abşeron rayonunun mərkəzi olan Xırdalan qəsəbəsi şəhər statusuna aid edildi.

23.10.2007-ci ildə Füzuli rayonunun Horadiz qəsəbəsi şəhər statusuna aid edildi.

07.12.2007-cı ildə Naxçıvan MR Şahbuz qəsəbəsi şəhər statusuna aid edildi.

25.04.2008-ci ildə Əli Bayramlı şəhəri Şirvan şəhəri, Qobustan rayonunun mərkəzi olan Mərəzə qəsəbəsi (Mərəzə qəsəbəsinə şəhər statusu verilməklə) Qobustan şəhəri, o cümlədən Xanlar rayonu və rayon mərkəzi olan Xanlar şəhəri müvafiq olaraq Göygöl rayonu və Göygöl şəhəri adlandırıldı. Həmçinin Xızı rayonunun mərkəzi Xızı qəsəbəsi şəhər statusuna aid edilmişdir.

13.06.2008-ci ildə Lerik, Samux və Yardımlı qəsəbələri şəhər statusuna aid edildi.

09.06.2009-cu ildə Naxçıvan MR Babək rayonunun Bulqan, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Tumbul kəndləri Naxçıvan şəhərinin inzibati tərkibinə verilmişdir.

02.04.2010-cu ildə Dəvəçi rayonu və Dəvəçi şəhəri müvafiq olaraq Şabran adlandırıldı.

07.05.2010-cu ildə Bakı şəhərinin Əzizbəyov rayonu Xəzər rayonu adlandırıldı.

21.12.2012-ci ildə Bakı şəhərinin Xəzər rayonunun inzibati-ərazi bölgüsünə dəyişiklik edilərək Pirallahı rayonu yaradılmışdır.

05 12. 2023-cü il tarixli Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanunu № 1043-VIQ ilə Ağdam, Kəlbəcər və Tərtər rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilərək mərkəzi Ağdərə şəhəri olmaqla Ağdərə rayonu yaradılmışdır.

## Ümumi məlumat

| | |
|---|---|
| **Ərazi, km** | **86.6** |
| **Əhalinin sayı, neçə min (2024-cü ilin əvvəlində)** | **10180,8** |
| **Əhalinin sıxlığı, km$^2$** | **118** |
| **Paytaxt** | **Bakı** |
| **Rəsmi dil** | **Azərbaycan** |
| **Pul vahidi** | **Manat** |
| **Muxtar respublika** | **1** |
| **Rayonlar** | **67** |
| **Şəhərlər** | **79** |
| **Şəhər rayonları** | **12** |
| **Qəsəbələr** | **262** |
| **Kənd ərazi dairələri** | **1724** |
| **Kənd yaşayış məntəqələri** | **4246** |

**Böyük şəhərlərin əhalisi (min nəfərlə)**
**(1 yanvar, 2024)**

| | |
|---|---|
| **Bakı** | 2344,9 |
| **Gəncə** | 330,7 |
| **Sumqayıt** | 427, 0 |
| **Mingəçevir** | 102,9 |
| **Naxçıvan** | 97,2 |
| **Şirvan** | 88,0 |

| | |
|---|---|
| **Şəki** | 67,8 |
| **Xankəndi** | 4,4 |
| **Yevlax** | 129,2 |
| **Lənkəran** | 227,5 |

**Respublika tabeliyində olan şəhərlər**

Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Şəki, Xankəndi, Şuşa, Yevlax, Lənkəran, Naftalan

**Kənd rayonları**

Abşeron, Ağcabədi, Ağdam, Ağdaş, Ağdərə, Ağstafa, Ağsu, Astara, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Daşkəsən, Fizuli, Gədəbəy, Goranboy, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, Xızı, Xocalı, Xocavənd, İmişli, İsmayıllı, Kəlbəcər, Kürdəmir, Qax, Qazax, Qəbələ, Qobustan, Quba, Qubadlı, Qusar, Laçın, Lerik, Lənkəran, Masallı, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Salyan, Samux, Siyəzən, Şabran, Şamaxı, Şəki, Şəmkir, Şuşa, Tərtər, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Zəngilan, Zərdab

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları**

Naxçıvan şəhəri, Babək rayonu, Culfa rayonu, Kəngərli rayonu, Ordubad rayonu, Sədərək rayonu, Şahbuz rayonu, Şərur rayonu

# Bakı şəhəri

## Ümumi məlumat

**Yaranma tarixi – III əsr**

**Ərazisi – 2,14 min kv. km**

**Əhalinin sayı – 2344,9 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv.km – 1117 nəfər (1 yanvar 2024-cü il)**

**Bakı şəhəri Azərbaycanın paytaxtıdır.**

## Bakı şəhərinin rayonları

| | | |
|---|---|---|
| Binəqədi | 24.11.1931 | 24.11.1934-cü ildən 29.04.1992-ci ilədək Kirov rayonu adlanmışdır. |
| Xətai | 03.11.1934 | 03.11.1934-cü ildən 05.01.1990-cı ilədək Şaumyan rayonu adlanmışdır. |
| Xəzər | 03.11.1934 | 03.11.1934-cü ildən 23.06.1966-cı ilədək Artyom rayonu, 07.05.2010-cu ilədək Əzizbəyov rayonu adlanmışdır. |
| Qaradağ | 24.11.1931 | 24.11.1931-ci ildən 27.03.1933-cü ilədək Puta-Şubanı rayonu, 26.07.1957-ci ilədək Molotov rayonu, 15.03.1963-cü ilədək Qaradağ rayonu, 23.06.1966-cı ilədək Əzizbəyov rayonu adlanmışdır. |
| Nərimanov | 24.11.1931 | 24.11.1931-ci ildən 26.07.1957-ci ilədək Keşlə rayonu adlanmışdır. |
| Nəsimi | 13.06.1969 | - |
| Nizami | 21.11.1980 | - |
| Pirallahı | 21.12.2012 | Xəzər rayonunun inzibati-ərazi bölgüsünə dəyişiklik edilərək yaradılmışdır. |
| Sabunçu | 24.11.1931 | 24.11.1931-ci ildən 29.04.1992-ci ilədək Lenin rayonu adlanmışdır. |
| Səbail | 24.11.1931 | 24.11.1931-ci ildən 16.09.1931-ci ilədək Bayıl rayonu, 15.11.1961-ci ilədək Stalin rayonu, 29.04.1992-ci ilədək 26 Bakı Komissarlan rayonu adlanmışdır. |

| | | |
|---|---|---|
| Suraxanı | 03.11.1934 | 03.11.1934-cü ildən 18.04.1990-cı ilədək Orconikidze rayonu adlanmışdır. |
| Yasamal | 24.11.1931 | 24.11.1931-ci ildən 29.04.1992-ci ilədək Oktyabr rayonu adlanmışdır. |

**Bakı şəhərinin ərazisi, əhalisinin sayı və sıxlığı**

| Şəhər və rayon | Ərazi, min kv.km | Əhalinin sayı | | 01.01.2024-cü il tarixə əhalinin sıxlığı |
|---|---|---|---|---|
| | | 2009-cu il siyahıya alınması üzrə | 01.01.2024-cü il vəziyyətinə | |
| **Bakı şəhəri** | 2,14 | 2045,8 | 2344,9 | 1117 |
| **O cümlədən rayonlar** | | | | |
| Binəqədi rayonu | 0,17 | 238,5 | 307,9 | 2368 |
| Qaradağ rayonu | 1,08 | 107,4 | 117,0 | 108 |
| Xəzər rayonu | 0,37 | 151,2 | 205,5 | 555 |
| Səbail rayonu | 0,03 | 90,2 | 101,8 | 3393 |
| Sabunçu rayonu | 0,24 | 220,5 | 330,6 | 1378 |
| Suraxanı rayonu | 0,12 | 196,6 | 208,2 | 1735 |
| Nərimanov rayonu | 0,02 | 161.2 | 180,7 | 9035 |
| Nəsimi rayonu | 0,01 | 208,1 | 219,2 | 21920 |
| Nizami rayonu | 0,02 | 177,8 | 185,3 | 9265 |
| Pirallahı rayonu | 0,03 | 17,5 | 18,8 | 627 |
| Xətai rayonu | 0,03 | 244,9 | 276,1 | 9203 |
| Yasamal rayonu | 0,02 | 231,9 | 193,8 | 9690 |

# Tarix

Bakının tarixi çox qədimlərə gedib çıxır, amma onun yaranmasının dəqiq vaxtı hələ də məlum deyil. Şəhərin yerləşdiyi Abşeron yarımadasının əlverişli coğrafi mövqeyə, rahat buxtaya, mülayim, quru iqlimə, məhsuldar torpağa, yeraltı sərvətlərə malik olması ta qədimlərdən burada insan məskənlərinin meydana gəlməsinə şərait yaradıb. Müasir Bakının cənub-şərqində, Xəzər dənizinin yaxınlığında Qobustan rayonu yerləşir. Burada geniş bir sahədə çoxsaylı heyvan sürüləri otlayırmış, ətrafdakı dağ qayalarında onların təsvirləri cızılıb. VIII minilliyə aid bu rəsmlərdə həmin ərazidə yaşayan qədim insanların müxtəlif ov səhnələri, mərasimlər və ayinlər əksini tapıb.

Qobustanda, Böyükdaş dağının ətəyində tapılmış, b.e-nın 80-90-cı illərinə aid diqqətəlayiq latın yazısında deyilir: «İmperator Domisian Sezar Avqust Hermanik, Lusi Yuliy Maksim, XII «İldırımsürətli» legionun senturion vaxtıdır».

Ehtimal ki, Bakı ətrafındakı Ramana və ya Romana kəndinin adı da eramızın I əsrində Roma qoşunlarının Abşeronda olmasından xəbər verir. Roma qoşunlarının Qobustanda yerləşməsi yaxınlıqda yaşayış məntəqəsinin və ya şəhərin olduğuna dəlalət edir. Həmin vaxt Roma qoşunlarının istiqamət aldığı bu şəhər Bakı da ola bilərdi.




Bakıda və onun ətrafında aparılan arxeoloji qazıntılar burada bizim eradan əvvvələrədək də yaşayışın olduğunu göstərir. 1888-ci ildə keçmiş Aleksandr Nevski kilsəsinin özülünün altında aparılan qazıntılar zamanı köhnə müsəlman məzarlığından zərdüştiliyə qədəki arxaik qəbirlərin tapılması da şəhərin qədim mənşəyə malik olmasını sübut edir. Özül yerindən tapılan daş qutu qəbirlər biri-birinin üstündə yerləşməklə, bir neçə cərgə təşkil edir. Böyük təndiri xatırladan məzarda aşkar olunan altı-yeddi insan skeleti isə, oturaq vəziyyətdədir. Skeletlər üzərində kiçik, saxsıdan olan əyri-üyrü piyalələr var. Bu, icmanın qohum tayfalardan ibarət olduğu dövrdən bəri əsrlərin dərinliyindən bizə qədər gəlib çatan ailə məzarıdır.

Bakı, onun nefti, «yanan torpaq» hələ qədimdən onun hüdudlarından kənarda da məşhur idi. Orta əsrlər Bakısı ilə bağlı yazılı mənbələrdə daim onun ətrafındakı «yanan atəş»dən danışılır. Bu barədə ilk söz açanlardan biri bizanslı Paniyli Priskdir, V əsrin əvvəllərində Qafqaz Albaniyasının şəhərini təsvir edərkən, o, «sualtı qayadan qalxan od»dan söz açır. Ərəb tarixçisi əl-Balazuri həmçinin 754-cü ildə Şirvanın neftindən və duzundan danışır. IX əsrdən etibarən bölgədə islam dininın yayılması ilə bağlı Bakı ərəb coğrafiyaçılarının və tarixçilərinin yazılı mənbələrində kiçik, amma inkişaf etmiş feodal şəhəri kimi xatırlanır. Hər dəfə də qeyd olunur ki, Bakıda ağ və tünd-boz neft mənbələri var. Neft üçün bütün Yaxın Şərq ölkələrindən bura karvanlar gəlirdi. Bakıya slavyan, xəzər, Bizans, Çin, İraq, Suriya, Keniya, Venesiya, İran və Hindistan tacirləri səfər edirdilər. Ticarət yollarının kəsişməsində yerləşən Bakı daim bölgədəki maraqları uğrunda mübarizə aparan yadelli işğalçıların diqqət mərkəzində idi.

IX əsrin ikinci yarısında Abbasilər xilafətinin zəifləməsi və xilafətə tabe olan ölkələrdə mərkəzi hakimiyyətdən uzaqlaşma meyllərinin güclənməsi bir sıra müstəqil dövlətlərin yaranması ilə nəticələndi. Onlardan biri də Şirvanşahlar dövləti idi. Orta əsrlər Bakısı, Şamaxı ilə birgə Şirvanın əsas şəhərlərindən birinə çevrildi. X əsrdə Şirvanşahlar dövlətinin tədricən bölgədəki hadisələrin mərkəzinə çevrilməsi ilə şəhər, həqiqətən də, inkişaf etdi. Məhz bu vaxt Bakıda ilk dəfə qala divarların tikintisinə başlanıldı. Bərpa işləri zamanı divarlardan tapılan daş yazı da bunu sübut edir, orada qeyd olunur ki, divarlar II Mənuçöhrün (1120-1160) zamanında tikilib.

Şirvanşahlar dövlətinin sonrakı inkişafı II Mənuçöhrün oğlu I Axsitanın hakimiyyəti dövrünə təsadüf edir. O, səlcuqların və köçəri qıpçaqların hücumlarını uğurla dəf edirdi. Onun zamanında Bakı limanında qüdrətli donanma yaradılmışdı. Beləliklə, o, 1175-ci ildə 73 gəmiylə Bakı ətrafına hücum edən rusların basqınının qarşısını almışdı. 1191-ci ildə Şirvanşah I Axsitan öz iqamətgahını Şamaxıdan Bakıya köçürdü. İlk dəfə Bakı Şirvanşahlar dövlətinin baş şəhəri oldu.

Şirvanşahların Abşeron yarımadasında güclənməsi böyük tikinti işlərinin həyata keçirilməsi ilə müşayət olunurdu. Bir çox qala və minarələr, mədrəsə və qüllələr, karvansaralar və hamamlar, məscidlər və yaşayış evləri bu dövrdə tikilib. Həmin zamanın günümüzədək gəlib çıxan ən erkən tikili 1078-1079-cu illərdə Bakı qalasında ucaldılmış Məhəmməd məscididir. Həmin dövrün tikililəri arasında qüllələr və qalalar xüsusi yer tutur - feodallar üçün onlar daxili mübarizədə etibarlı dayaq və hucümlar zamanı sığınacaq yeri idi. Qala divarlarının, Bakı qalasının möhkəmləndirilməsinə xüsusi diqqət ayırılırdı. Bakının dəniz istiqamətindən müdafiəsi üçün 1232-35-ci illərdə Bakı buxtasında qala tikildi - bu hazırda suyun altında qalan Səbail qalasıydı.



XII əsrdə bütün ölkə monqol əsarəti altına düşdü. 1230-cu illərdə uzun sürən mühasirədən sonra Bakı da monqollara təslim oldu. Şəhər müqavimət göstərdiyi üçün «cəzalandırılaraq», amansızcasına dağıdıldı və talan edildi. Neft hasilatı və ticarət tənəzzülə uğradı. Yerli hakimlər şəhər həyatını yenidən canlandırmağa çalışırdılar. Xüsusən də, Sultan Məhəmməd Olcaytunun (1304-16) qədim qaladakı Cümə-məscidinin divarlarına oyulmuş fərmanı buna sübutdur. Fərmana əsasən, ticarəti dirçəltmək və iqtisadiyyatı bərpa etmək üçün bəzi vergilər ləğv olunurdu.

XIV əsrin əvvəlində ticarət, xüsusən də, dəniz ticarəti yenidən canlandı. Bakı limanına Genuyadan və Venesiyadan olan italiyalı tacirlərin gəmiləri yan alırdılar. Bakı Qızıl Orda, Moskva knyazlığı və Avropa ölkələri ilə ticarət aparırdı. Buradan neft, xalça və digər mallar xaricə çıxarılırdı. Eyni zamanda Həştərxana və Mərkəzi Asiyaya da əmtəə aparılırdı. XIV əsrin birinci yarısında Bakının iqtisadi və siyasi rolunun yüksəlməsi ilə bağlı Xəzər dənizini tez-tez Bakı dənizi adlandırırdılar. Məsələn, 1375-ci ilin xəritəsində dənizin adı bu cür qeyd olunur. Bakı qalasında qorunan memarlıq abidələri - Buxara

karvansarası (XIV əsr), Multanı karvansarası (XIV əsr) və digərləri - Bakının Orta Asiya və Hindistanla geniş əlaqələrindən xəbər verir.

XV əsrdə Bakının iqtisadi və siyasi əhəmiyyətinin artması nəticəsində Şirvanşah Xəlilullah (1417-62) Şirvanşahların iqamətgahını Şamaxıdan Bakıya köçürdü. Şəhərdə böyük tikinti işləri həyata keçirilməyə başladı. Bu zaman Şirvanşahlar sarayı kompleksi - Azərbaycan memarlığının Şirvan-Abşeron qolunun nəhəng abidəsi tikildi. Ticarət, incəsənət, sənətkarlıq inkişaf edirdi. Moskva knyazlığı ilə diplomatik əlaqələr qurulurdu.

1501-ci ildə Səfəvilər sülaləsindən olan Şah İsmayıl Xətai Şirvana hücum etdi və Bakını mühasirəyə aldı. Bu vaxt şəhərin əzəmətli divarları bir tərəfdən dənizlə hüdudlanır, qurudan isə, enli xəndək xətti ilə müdafiə olunurdu. Mühasirədə olan bakılılar istehkamlarının alınmazlığına inanıb, mətanətlə döyüşürdülər. Şəhərin hakimi Qazi bəy olmayanda onun müdafiəsinə arvadı rəhbərlik edirdi. O, yanına təslim olma təklifi ilə gəlmiş Şah İsmayıl elçilərini asmağı əmr etmişdi. İsmayıl mühasirədəkilərin təslim olmaq istəmədiklərini görüb, lağım atmağı və divardakı böyük daşı partlatmağı buyurdu. Şəhər daha üç gün dözdülər, sonra səfəvi qoşunları çoxlu sakinləri öldürərək, istehkamın müdafiəsini yardılar. Bundan sonra müqavimətin faydasızlığını görən 70 nəfər əllərində Quran, boyunlarında qılınqc və çiyinlərində kəfənlə İsmayılın yanına gəldilər və ona tabe olduqlarına bildirdilər. İsmayıl dərhal istehkamı aldı. Şirvanşahların xəzinəsindən xeyli qızıl və daş-qaş çıxarıldı. Şah İsmayılın bu səfəri Şirvanşahlar dövlətinə böyük zərbə vursa da, dövlət 1538-ci ilədək mövcudluğuna davam etdi. 1538-ci ildə Səfəvi hökmdarı Şah Təhmasib Şirvanşahların hakimiyyətinə son qoydu və Bakı da daxil olmaqla bütün Şirvanı Səfəvilər dövlətinə birləşdirdi.

XVI əsrin ikinci yarısı və XVII əsrin əvvəli Səfəvilər dövləti ilə Osmanlı Türkiyəsi arasındakı müharibələrlə yadda qaldı. Bu dövrdə Bakı əldən-ələ keçirdi. 1578-ci ildə Osmanlı ordusu şəhəri aldı. 1580-ci ildə Səfəvilər Osmanlı qoşunlarını dağıtdılar, amma 1684-cü ildə osmanlılar yenidən Bakını tutdular.

1590-cı ildə Səfəvi şahı I Abbas türklərlə ağır şərtlərlə sülh bağlamalı oldu. Bu razılaşmaya əsasən, onlar Azərbaycanın şimal və cənub bölgələrini ələ keçirdilər. I Şah Abbas osmanılarla müharibədə yaranan fasilədən istifadə edib, ordunu möhkəmləndirdi və yenidən müharibəyə başladı. 1607-ci ildə Bakı yenə Səfəvilərin hakimiyyətinə keçdi. 1612-ci ildə İstanbulda imzalanan müqaviləyə əsasən, Səfəvilər bütün Azərbaycanı və qonşu bölgələri əldə etdilər.

Mərkəzi hakimiyyətin möhkəmlənməsi, dağıdıcı müharibələrə və feodal dağınıqlığına son qoyulması XVII əsrin 40-cı illərində şəhər həyatının tərəqqisinə təkan verdi. Səfəvilər dövründə Bakıda mis pullar buraxılırdı, xalçaçılıq, eyni zamanda neft hasilatı, neft və duz ticarəti inkişaf edirdi. XVII-XVIII əsrlərdə şəhərdə tikilən binalar memarlığın və daş üzərində oyma sənətinin yüksəlişindən xəbər verirdi. Bu zaman Bakı ikinci dəfə qala divarları yla yeniləndi.

XVII əsrdə Abşerona Don və Volqa kazaklarının basqınları müşahidə olunur. 1660-cı ildə Stepan Razinin kazakları Xəzərin Bakı sahillərinə hücum etdilər və Maştağa kəndini dağıtdılar. Rəvayətə görə, o özü Sabunçu qəsəbəsi yaxınlığında mağarada yaşayır və quldur hücumlarını da oradan təşkil edirdi.

XVII əsrdən etibarən, zəngin təbii ehtiyatlar və şəhərin mühüm strateji əhəmiyyəti Rusiyanın diqqətini özünə çəkdi. I Pyotr Xəzərin qərb və cənub sərhədlərini tutmağa və türklərlə iranlıları oradan sıxışdıraraq Xəzərə sahiblənməyə çalışırdı. Xəzəryanı ərazilərin ələ keçirilməsi üçün o, xüsusi hərbi-dəniz ekspediyası yaratdı. 1723-cü ilin iyun ayının sonunda Həştərxandan yeddi gəmidən ibarət eskadra general-mayor Matyuşkinin rəhbərliyi ilə şəhərə göndərildi. 1723-cü ilin iyunun 26-da uzunsürən mühasirəyə alınan və top atəşinə tutulan Bakı ruslara təslim oldu. Pyotrun fərmanı ilə şəhər komendantı knyaz Baryatyanskinin rəhbərliyi altında Bakı qarnizonunda iki əsgər alayı (2382 nəfər) saxlanıldı.

Bölgədə möhkəmlənmək arzusunda olan I Pyotr Bakıya xristianların, xüsusən də ermənilərin yerləşdirilməsi üçün fəal siyasət yürüdürdü. Ölümündən bir qədər əvvəl, 1724-cü ilin noyabrın 10-da I Pyotr erməni xalqının dörd deputatını qəbul etdi, onlar «ermənilərə yardım göstərilməsini və onların Xəzəryanı əyalətlərdə məskunlaşmalarına imkan verilməsini» xahiş edirdilər. Elə həmin gün I Pyotr erməni patriarxı İsayanın və bütün erməni xalqının Gilanda, Mazandaranda və Bakıda yerləşmələrinə imkan verən fəxri fərman imzaladı. General Matyuşkinə və briqadir Levaşevə «hər yolla ermənilərin Gilanda, Mazandaranda, Bakıda, Dərbənddə və digər bölgələrdə yerləşdirməyə, farsların (azərbaycanlıların) isə, fürsət düşən kimi sıxışdırmağa çalışmaq» (Butkovun məlumatı) tapşırılırdı. Beləliklə, Bakıda ermənilərin yerləşdirilməsi əsasən həmin dövrə təsadüf edir. 1724-cü ildə Bakıda gəmiçilik işlərində çalışmağa göndərilən 5 min nəfər Kazan tatarları, çeremisin, çuvaşın da Bakıda yerləşdirilməsinə başlandı.

1725-ci ildə Pyotrun ölümündən sonra Xəzəryanı torpaqlar ruslara ağır yük olmağa başladı. İşğal olunmuş torpaqların saxlanması üçün böyük orduya ehtiyac vardı, məsrəflər isə, gəlirlərdən çox idi. 1730-cı ildə bu vəziyyət bir qədər də pisləşdi, İranda istedadlı sərkərdə Nadir şah güclənməyə başlayırdı. Nadir şahın Şirvandakı uğurları 1735-ci ilin martın 10-da rusları Gəncə ətrafında saziş bağlamağa vadar etdi, bu sazişə əsasən, rus qoşunları Bakıdan çıxarılmalı idi. Bakı yenidən İranın hakimiyyəti altına keçdi.



Nadir şah 1747-ci ildə saray çevrilişi nəticəsində öldürüldükdən sonra onun imperiyası dağıldı. Azərbaycan ərazisində bir sıra müstəqil xanlıqlar yarandı, Bakı xanlığı onların ən mühümləri arasında yer alırdı. Hakimiyyəti ələ alan Mirzə Məhəmməd xan (1747-1768) bu xanlığın başına keçdi. İyirmi illik hakimiyyəti dövründə Mirzə Məhəmməd xan iqtisadiyyatın bərpasına və ticarətin inkişafına yardım göstərdi. O, admiral idi, yük nəqli və hərbi məqsədlər üçün gəmiçiliyə rəhbərlik edirdi.

Ondan sonra oğlu Məlik Məhəmməd xan Bakı xanlığının başına keçdi. Ayrı-ayrı xanlar arasında feodal müharibələri dayanmırdı. Bakı xanı da bu mübarizəyə qoşulmuşdu və qohumu, tabe olduğu Quba xanı Fətəli xanın tərəfində döyüşürdü. 1784-cü ildə Məlik Məhəmməd xan Bakı xanlığının taxt-tacını oğlu II Mirzə Məhəmməd xana (gələcəkdə məşhur Azərbaycan tarixçisi olacaq Abbasqulu ağa Bakıxanovun atasına) ötürərək öldü. Sonrakı illər də xanlar arasında daxili müharibələrlə keçirdi. Bakı xanlığında daxili müharibələr əsasən böyük gəlirlər gətirən neft mədənləri uğrunda aparılırdı.

Bu mərhələdə iqtisadiyyat müəyyən qədər canlansa da, XVIII əsrin sonlarında İran hökmdarı, ölkəsinin bütün əyalətlərini və Azərbaycanın cənubunu özünə tabe dən Ağa Məhəmməd xan Qacarın dağıdıcı hücumları nəticəsində Azərbaycana böyük ziyan dəydi. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar Bakını ələ keçirib, viran qoydu, amma tezliklə onun ordusu Şirvanı tərk etdi.

Ağa Məhəmməd xan Qacarın gücləndiyini görən çar hökuməti Azərbaycanın Rusiyaya tabe olunması üçün siyasət yürütməyə başladı. 1796-cı ilin yazında II Yekaterinanın əmri ilə general Zubovun rəhbərliyi altında çar qoşunlarının Qafqaza yürüşü başladı. Şəhərin ələ keçirilməsi üçün 6 min nəfərlik qoşun göndərən Zubovun ilk tələbindən sonra Bakı təslim oldu. 1796-cı ilin iyunun 13-də Xəzər donanması Bakı buxtasına daxil oldu və rus qoşunları qarnizonu Bakıda yerləşdirildi. P. D. Sisyanov şəhərin komendantı təyin olundu. Amma II Yekaterinanın ölümündən sonra onun oğlu I Pavel rus qoşunlarının yürüşünü dayandırmağı və onları Rusiyaya geri qaytarmağı əmr etdi. 1797-ci ilin martında çar qoşunları Bakını tərk etdilər. 1801-ci ildə I Pavelin ölümündən sonra onun hakimiyyətə gələn oğlu I Aleksandr yenidən Xəzəryanı ərazilərin, xüsusilə də işğalına xüsusi maraq nümayiş etdirdi. Rus-İran müharibələri (1804-1813) onun planlarını daha da tezləşdirdi. Knyaz Sisyanov Qafqazdakı qoşunların baş komandanı təyin olundu.

1803-cü ildə Sisyanov Bakı xanı ilə şəhərin güzəştə gedilməsi barədə razılaşma əldə etdi. Xan hətta Rusiyanın təbəəliyini qəbul etdi, amma tezliklə razılaşma pozuldu. 1806-cı ilin əvvəllərində böyük ordu ilə gələn Sisyanov Bakının iki verstliyində general Zavalişinin donanması ilə birləşdi. Yenidən Bakı xanı ilə şəhərin təslim olunması ilə bağlı danışıqlara başladı. Təslim olmaqdan imtina edən şəhər dəniz donanmasının atəşlərinə məruz qaldı, bundan sonra Bakı xanı Hüseynqulu xan şəhəri təslim etməyə razılaşdı. 1806-cı ilin fevralın 10-da Bakı xanı Hüseynqulu xanı əyanlarının müşayiəti ilə şəhərin açarlarını Sisyanova vermək üçün şəhərdən çıxdı. Açarları qəbul edərkən Sisyanovla knyaz Elizbar Erstov şahın əyanları tərəfindən qəfil öldürüldülər. Sisyanovun meyiti yerindəcə istehkamdan çıxan bakılılar tərəfindən doğranıldı. Bundan sonra onun başı İran şahı Fətəli şaha göndərildi, meyiti isə, qətlin baş verdiyi Şamaxı darvazaları önündə basdırıldı. Sisyanovun ölümündən xəbər tutan rus qoşunları geri çəkildilər. Amma bu qətl şəhərin işğalını yalnız tezləşdirdi. 1806-cı il oktyabrın 3-də general Bulqakovun qoşunları Bakını döyüşsüz ələ keçirdilər və Bakı xanlığı Rusiyaya birləşdirildi. Bakı xanı Hüseynqulu xan İrana qaçdı.

Rusiya və İran arasında 1813-cü ildə imzalanmış Gülüstan müqaviləsi həm də Bakı xanlığının Rusiyaya birləşdirilməsini rəsmiləşdirdi. Amma razılaşma bütün Rusiya-İran narazılıqlarını həll etmədi.

Bakının keçmiş xanı da şəhərə qayıtmaq ümidlərini üzməmişdi. 1826-cı ilin iyulunda İran ordusu Şimali Azərbaycana daxil olanda Hüseynqulu xanın rəhbərliyi altında dəstə də Bakıya doğru istiqamət aldı və şəhərin mühasirəsində iştirak etdi. Bakının və ətraf kəndlərin sakinləri ruslar əleyhinə üsyan qaldıraraq, ona fəal şəkildə yardım edirdilər. Amma İran ordusunun məğlubiyyəti, eyni zamanda rus ordusunun Bakı xanının əleyhinə atdıqları addımlar onu 1826-cı ildə İrana dönməyə məcbur etdi. Sonuncu Rusiya-İran müharibəsinin bitməsi ilə 1828-ci ildə Türkmənçay müqaviləsi imzalandı, bu sənədə əsasən, Azərbaycan Araz çayı vasitəsilə Rusiya ilə İran arasında bölündü. Müqavilə rəsmən torpaqların, o cümlədən Bakının Rusiya tərəfindən işğalını təsdiqlədi. Bu, milli faciə idi, amma müqavilə bölgədə müharibələrin bitməsinə və onun gələcək inkişafına yardım göstərdi.

Bu zaman Bakının sərhədləri qala divarları ilə əhatə olunmuş İçəri Şəhərlə məhdudlaşırdı, burada üç yüz ev və üç min sakin vardı. Yalnız Rusiya-İran müharibəsindən sonra şəhər tədricən böyüməyə başladı.

Rusiya Bakı xanlığını ələ keçirildikdən sonra Bakı xanının əmlakı və onun mülkü müsadirə olundu. Azərbaycanda hərbi-inzibati idarəetmə tətbiq edildi: xanlıqlar əyalət və mahallara bölündü. Onlara çar zabitləri olan komendantlar rəhbərlik edirdilər. 1841-ci il yanvarın 1-dən qüvvəyə minən qanuna görə, komendant üsul-idarəsi ləğv olundu və ümumilikdə Zaqafqaziyada Ümumrusiyadakına bənzər idarəetmə sistemi tətbiq edirdi. Bakı şəhəri Kaspi vilayətinin Bakı uyezdinin mərkəzi oldu. 1846-cı ildə Qafqazda canişinliyin təsdiq olunması ilə ölkə yeni inzibati-ərazilərə bölündü. Bu bölgüyə əsasən, Bakı uyezdi yeni yaranmış Şamaxı quberniyasının tərkibinə daxil edildi.


*V. Vereşşagin. Bakının mənzərəsi, 1872.*

Şamaxıda baş verən dağıdıcı zəlzələdən sonra, 1859-cu ildə mərkəz Bakıya köçürüldü və quberniya Bakı quberniyası adlanmağa başladı. Şəhərdə dövlət müəssisələri yarandı. Nəticədə, Bakı inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu və XIX əsrin ikinci yarısında öz sosial-iqtisadi göstəricilərinə görə Azərbaycanın digər şəhərləri arasında birinci yerə keçdi.



Şəhərin inkişafında neft hasilatı mühüm əhəmiyyət kəsb edirdi. Rusiyanın iqtisadiyyatının neftə ehtiyacı artmışdı. Bakı Rusiya sənayesinin inkişafına cəlb olunmuşdu. Neft quyularına nəzarət edən çar hökuməti ilkin dövrlərdə onları müəyyən müddətə ayrı-ayrı şəxslərə icarəyə verirdi. Amma artıq 60-cı illərdə məlum oldu ki, neft yataqlarının icarə sistemi keçmişin

yarasız qalıqlarından biridir və bu sənaye sahəsinin inkişafı üçün neft işinin təşkilinə ehtiyac var. 1872-ci ildə yeni qaydalar təsdiq olundu. Bu qaydalara əsasən, dövlətin icarə hesabında olan neft mənbələri hərracdan fərdi şəxslərə ötürüldü. İcarə sisteminin ləğvi bütün neft işində həlledici dönüş yaratdı. Bu neft ehtirası yalnız Klondaikdəki qızıl ehtirası ilə müqayisə edilə bilər. Bakıdakı neft yataqlarının qızğın istismarı başladı və əcnəbi neft şirkətlərinin kapital axını təmin olundu. Qısa müddət ərzində Bakıda İsveç, İngiltərə, Fransa, Belçika, Almaniya və Amerika firmalarının nümayəndəlikləri yaradıldı. Onlardan ən məşhurları - Nobel və Rotşild qardaşlarının firmaları idi. 1873-ci ildən etibarən Bakının «Qara Şəhər» adı ilə məşhurlaşan «neft kəməri» formalaşmağa başladı. Bundan bir qədər sonra Bakının «neft kəndlərini» - Suraxanı, Bibiheybət, Balaxanı və Sabunçunu əhatə edən Bakı sənaye rayonu yarandı. 1848-ci ildə dünyada ilk neft quyusu burada qazılmışdı, nefti nəql etmək üçün ilk tankerlər burada tikilmişdi (1880-1885), Bakı-Batumi neft kəməri çəkilmişdi (1897-1907). Neftə və onun hasilatına həsr edilmiş ilk dövri nəşr - «Neftyanoye delo» jurnalı da (1899-1920) məhz Bakıda işıq üzü görmüşdü. XX əsrin əvvəllərində dünyada çıxarılan bütün neftin, demək olar ki, yarısı Bakıda hasil edilirdi.

Neft sənayesi ilə yanaşı təsərrüfatın digər sahələri də inkişaf etməyə başladı. Sement, mexanika və pivə zavodları, elektrik stansiyaları, tökmə karxana, tekstil və tütün fabrikləri, buxarla işləyən dəyirmanlar, banklar açıldı. Ticarət və gəmiçilik firmalarının nümayəndəlikləri yaradıldı. Onlar arasında «Qafqaz və Merkuri» də vardı.

Həmin vaxt Rusiyanın dəniz nəqliyyatı vasitəsi ilə həyata keçirilən daşımaların 40%-i Xəzər dənizi ilə aparılırdı. 1883-cü ildə Bakını Tiflislə birləşdirən dəmiryolu açıldı, 1892-ci ildə şəhərdə ilk konka işə düşdü, 1900-cü ildə isə Rusiyanın mərkəzi quberniyalarına və daha sonra Avropaya çıxışı olan Bakı-Petrovsk (indiki Mahaçqala) dəmiryolu çəkildi. 1868-1879-cu illərdə Bakı, Tiflis və Krasnovodsk arasında ilk teleqraf xətləri çəkildi, 1886-cı ildə isə Bakıda ilk telefon stansiyası tikildi. 1917-ci ildə şəhər bu gün də fasiləsiz işləyən Şollar kəməri vasitəsilə su ilə təmin olundu.

Bakı həm də mədəni sahədə inkişaf edirdi. 1873-cü ildə Azərbaycanın ilk milli teatrı yaradıldı. 1875-ci ildə ilk qəzet nəşr olundu. 1894-cü ildə Nəriman Nərimanov ilk milli kitabxananın əsasını qoydu. 1908-ci ildə Şərqdə ilk opera "Leyli və Məcnun" tamaşaya qoyuldu. Nəşriyyat işi inkişaf etdi, mətbəələr açıldı, Azərbaycan və rus dillərində qəzetlər («Bakı», «Kaspi», «Bakinski raboçiy», «Hümmət», «Yoldaş»), o cümlədən broşuralar, kitablar və jurnallar nəşr olunmağa başladı.

Abşeron yarımadasındakı bu şəhər Rusiyada və ümumiyyətlə Avropada görünməmiş sürətlə inkişaf edirdi. Rusiyanın bütün guşələrindən, xarici ölkələrdən müxtəlif millətlərin iş və səadət axtaran nümayəndələri Bakıya axışırdı. Artıq 1883-cü ildə Bakı əhalisinin sayı 45 min nəfəri keçmişdi, 1913-cü ildə isə bu rəqəm 200 minə çatırdı. Şəhərin ətrafı abadlaşdırılır, qeyri-adi möhtəşəmliyi ilə seçilən memarlıq abidələrinin sayı artırdı. Onların arasında dəmiryolu vağzalı; Bakı şəhər duması; «realnı» məktəb (İqtisadiyyat Universitetinin binası); «İsmailiyyə» (Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti) və s. Eyni zamanda şəhər yaşıllaşdırılırdı, şəhər hamamı kompleksi ilə birgə Dənizkənarı bulvar,

bağlar: Mixaylovski (indiki «İçərişəhər» metro stansiyası), Mariyinski (Molokan bağı), Nobel bağı (Nizami parkı) salınırdı.

Beləliklə, XIX əsrin axırlarında müşahidə olunan iqtisadi yüksəliş Bakını Rusiyanın ən iri mərkəzlərindən birinə, Qafqazda ən böyük və əhəmiyyətli şəhərə çevirdi. XX əsrin əvvəllərində Bakı davamlı inkişaf edirdi, amma zaman-zaman böhranlar bu inkişafı ləngidirdi. Neftin qiymətinin düşməsi istər-istəməz maaşların azalması, əmək şəraitinin pisləşməsi və işsizliyin artması ilə nəticələndi. Ağır iqtisadi vəziyyət 1901-ci ildə bir sıra fəhlə tətillərinə səbəb oldu. Bunlardan ən böyüyü Bakı fəhlələrinin 1903-cü ilin iyulundakı ümumi xarakter alan tətilidir.

1904-cü ilin dekabrın 12-də "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" bütün sənaye işçilərini ümumi tətilə çağırdı. Nobel, Rotşild, Mantaşev və Mirzəyevin mədənlərində iş dayandı, Bibiheybət, Qara və Ağ şəhərin, Balaxanı-Sabunçu sənaye rayonunun fəhlələri də tətilə qoşuldular. İlk gündən bu böyük etiraz 40-a yaxın firmanın fəhlə və qulluqçunu öz sıralarında birləşdirdi. Dekabrın 30-da «Elektrik qüvvəsi» zavodunda fəhlələrin böyük kütləsinin əhatəsində Rusiya fəhlə hərəkatının tarixində «Mazut konstitusiyası» adı ilə məşhurlaşan ilk kollektiv müqavilə imzalandı. Bakı fəhlələrinin böyük uğuru olan bu müqavilə onların maddi vəziyyətlərini yaxşılaşdırdı. 1905-ci il xalq kütlələrinin sosial və milli əsarətə qarşı istibdadla mübarizəsində kulminasiya mərhələsi oldu. Bakı fəhlələrinin yanvar ayındakı etirazları dekabrdakı ümumi tətilin davamı idi. İstibdadın xalq hərəkatı ilə mübarizə formalarından biri millərarası qarşıdurmaya təhrik etmək idi. Bunlardan biri 1905-ci ilin fevralında Bakıda təşkil olundu. Ehtirasları qızışdırmaq üçün çar hökuməti azərbaycanlı və erməni burjuaziyası arasındakı müəyyən ziddiyyətlərdən istifadə edirdi. Polis və qoşunlar yüzlərlə insanın ölümünə səbəb olan qanlı mübarizəyə müdaxilə etmirdi. 1905-ci ilin fevralında Bakıda və Bakı quberniyasında hərbi vəziyyət tətbiq olundu. Amma bir il sonra, yayda inqilabi fəallığın yeni mərhələsi başlandı. Fəhlə etirazlarının qarşısını almaq üçün avqustun 22-də mühasirə vəziyyəti elan olundu. Çar hökuməti tətilçilərə qarşı qoşun yeritdi, təqiblər başladı. Şəhərdə polis terroru tüğyan edirdi. Eyni zamanda hökumət neft sənayeçiləri ilə fəhlələr arasında münasibətləri nizama salmağa çalışırdı. Bakının və ona bitişik neft sənayesi rayonlarının idarəsi üçün 1906-cı il 28 oktyabr fərmanı ilə Bakı qradonaçalnikliyi yaradıldı. Buraya birbaşa imperatorun təyin etdiyi qradonaçalnik rəhbərlik edirdi və o, qubernator səlahiyyətlərinə malik idi. 1906-cı ilin dekabrında Bakıda və Bakı quberniyasında hərbi vəziyyət fövqəladə vəziyyətlə əvəzləndi və müvəqqəti general-qubernator vəzifəsi ləğv olundu.

1914-cü ildə başlayan Birinci dünya müharibəsi Bakı neft rayonunun da iş üsulunu pozdu. İşsizlik kəskin şəkildə artdı, zəhmətkeşlərin vəziyyəti pisləşdi. Ölkədə inqilabi hərəkat genişlənirdi. 1917-ci ilin fevralında Rusiyada çar hökuməti devrildi. Yeni şəraitdə Azərbaycanda hakim vəziyyətə «Müsavat» partiyası nəzarət etməyə başladı. Yarandığı 1911-ci ildən bu təşkilat millətlərin öz müqəddəratını təyin etməsi prinsipinin müdafiəçisi idi. 1917-ci il oktyabrın sonunda Bakıda "Müsavat" partiyasının birinci qurultayı işə başladı, burada qurumun qarşıdakı mübarizə taktika və strategiyası müəyyən olundu. Partiyanın lideri M.Ə.Rəsulzadə idi.

Müvəqqəti hökumətin devrilməsindən və Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsindən sonra, 1917-ci ilin noyabrın 2-də Bakıda Bakı Sovetinin genişlənmiş konfransı keçirildi. Burada bolşeviklər bu orqanı şəhərdə ali hakimiyyət adlandırmağa və Sovet hakimiyyətinin qurulduğunu elan etməyə nail oldular. Amma Bakı Sovetinin hakimiyyəti Bakı kəndlərinin hüdudlarını aşmırdı. Zaqafqaziyanın qalan hissəsini Zaqafqaziya komissarlığı idarə edirdi. Sonradan bu qurum Zaqafqaziya federasiyası şəklini alacaqdı.

1918-ci ilin martında Bakı Soveti Bakıda türk məhəllələrinin silahsız dinc əhalisinə qarşı soyqırım törətdi, bu qırğın zamanı on min nəfərə yaxın şəhər sakini öldürüldü. Müsavatçılara qarşı mübarizə adı altında bolşevik və erməni dəstələri dinc azərbaycanlı əhalinin məhvinə başladı. Azərbaycan məhəllələri havadan və sudan atəşə tutulurdu. Şəhərin müsəlman əhalisinə divan tutulmasına Bakının İnqilabi Müdafiə Komitəsinin rəhbəri S.Şaumyan başçılıq edirdi. Qırmızı Ordunun Bakıdakı qərargahının rəhbəri çar ordusunun polkovniki, daşnak partiyasının üzvü Z.Avetisyan idi. Martın 30-dan aprelin 2-dək Bakıda, sonra isə uyezdlərdə davam edən qarışıqlıq Azərbaycan xalqına qarşı törədilmiş soyqırımdan başqa bir şey deyildi. Bu səbəbdən də Bakıda sovet hakimiyyəti uzun sürmədi və elə 1918-ci ildə də rüsvayçılıqla səhnədən getdi.

Zaqafqaziya Federasiyasının dağılmasından sonra, 1918-ci il mayın 28-də Müsavat Partiyası başda olmaqla Azərbaycan Demokratik Respublikası elan edildi. Bu, bütün müsəlman Şərqində ilk respublika idi. Yaranan vəziyyət üzündən Azərbaycanın ilk hökuməti iclaslarını Bakıda deyil, Tiflisdə keçirirdi. Sonra hökumət Gəncəyə köçdü. Bu vaxt Bakı əvvəlcə Bakı kommunasının, sonra isə daşnaklardan və menşeviklərdən ibarət Sentrokaspi Diktaturasının əlində idi. Türkiyə gənc Azərbaycan Respublikasının köməyinə gəldi. Onun 15 minlik Qafqaz İslam Ordusunun tərkibində türklərlə yanaşı general Şıxlinskinin rəhbərliyi ilə yeni yaranmış azərbaycanlı hissələri də döyüşürdülər. Qafqaz İslam Ordusu döyüşə-döyüşə bütün Azərbaycan ərazisindən keçərək, 1918-ci il sentyabrın 15-də ona qarşı duran çoxminlik ordunun müqavimətini qıraraq, Bakıya daxil oldu. Bakı Azərbaycan Demokratik Respublikasının paytaxtı elan edildi və 1918-ci il sentyabrın 17-də F.Xoyskinin rəhbərliyi ilə hökumət Bakıya köçdü. Dövlət hakimiyyətinin yeni orqanları yaranmağa başladı. 1918-ci il dekabrın 7-də Azərbaycan Respublikasının parlamenti iclasını keçirdi.

Birinci dünya müharibəsində məğlubiyyətə uğrayan Türkiyə Mudros barışığının şərtlərinə görə, noyabrın ortalarında qoşunlarını Azərbaycan sərhədlərindən çıxarmaq məcburiyyətində qalmışdı. Həmin razılığın şərtlərinə görə, ingilis qoşunları buraya çağırıldı. 1918-ci il noyabrın 17-də özünü Bakının hərbi qubernatoru elan etmiş general V.Tomsonun başçılığı ilə 5 min əsgər Bakıya girdi. Tomsonun əmri ilə «hərbi vəziyyət o vaxtadək davam edəcəkdi ki, vətəndaş hakimiyyəti qoşunları ictimai asayişin mühafizəsindən azad edəcək qədər güclü olsun». Gənc respublika sınaqlardan uğurla çıxırdı və onun qarşısında mədəni, ictimai və iqtisadi tərəqqiyə geniş yol açılmışdı. 1919-cu ilin aprelində Tomson məhdudiyyətləri götürüldü, bu məhdudiyyətlərə əsasən, hərbi nazirlik Gəncədə yerləşirdi. Azərbaycan qoşunları təntənə ilə Bakıya daxil oldular. 1919-cu il avqustun sonunda ingilis qoşunlarının Bakıdan

kütləvi çıxarılmasına başlandı. Beləliklə, dövlət aparatının istisnasız olaraq bütün qurumları tamamən Azərbaycan hökumətinin tabeliyinə keçdi.

Azərbaycan Demokratik Respublikası cəmi iki il mövcud oldu və Rusiya tərəfindən devrildi. 1920-ci il aprelin 27-də XI Qırmızı Ordu Azərbaycan sərhədlərini keçərək, Bakıya doğru istiqamət aldı. Eyni vaxtda Sovet Rusiyası Azərbaycan Respublikasına hakimiyyətin təslim olunması ilə bağlı ultimatum təqdim etdi. Aprelin 28-də XI Qırmızı Ordu Azərbaycanın paytaxtına daxil oldu. Xain müdaxilə və dövlət çevrilişi «fəhlə kəndli sosialist inqilabı» elan edildi. Qırmızı Ordunun ilk işi neftin qapılarını Rusiyanın üzünə açmaq oldu. Yalnız 1920-ci il aprelin 30-dan mayın 2-dək, başqa sözlə, Bakıda Sovet hakimiyyətinin qurulmasından dərhal sonra 12 gəmi ilə 1,3 mln. pud neft Rusiyaya göndərildi. Artıq həmin ilin mayında nəql olunan neftin və neft məhsullarının miqdarı 15 mln. puda, iyunda - 21,2 mln. puda qədər artırıldı.

Gürcüstanda və Ermənistanda Sovet hakimiyyətinin qurulmasından sonra, 1922-ci ilin martında Zaqafqaziya Respublikalarının Federativ İttifaqı imzalandı və tezliklə bu ittifaq Zaqavqaziya Federativ Respublikasına çevrildi. Həmin ilin dekabrında Zaqafqaziya Respublikası Ukrayna, Belorusiya və Rusiya Federasiya ilə birliklə SSRİ-ni yaratdılar. Azərbaycanın yeni, 1936-cı ildə qəbul olunan Konstitusiyasına əsasən, Azərbaycan, Gürcüstan və Ermənistan SSRİ tərkibində müstəqil respublikalara çevrildilər.

Sovet hakimiyyəti qurulandan sonra da Bakının inkişafı davam etdi. Rusiya Bakı neft rayonunu özünə daha sıx bağlamaq üçün Azərbaycana «müsəlman Şərqində nümunəvi sovet respublikası» statusunun verilməsi istiqamətində tədbirlər həyata keçirirdi. Bu sırada Bakı fəhlələrinin, xüsusilə də neft sahəsində çalışanların həyat-məişət şəraitinin yaxşılaşdırılması və eyni zamanda paytaxt şəhərsalma problemlərinin həlli də daxil idi. 1924-1937-ci illərdə Bakının baş planının üç variantı işlənib hazırlanmışdı. Bu ərəfədə şəhərin mərkəzi-tarixi hissəsində və onun ətrafında geniş quruculuq işləri aparılırdı, yeni yaşayış massivləri: M. Məmmədyarovun, P. Montinin, S. Razinin və s. adını daşıyan qəsəbələr tikilirdi. 1926-cı ildə Bakını şəhəryanı fəhlə qəsəbələri ilə birləşdirən SSRİ-də ilk elektrik dəmiryolu tikildi. Həmin illərdə Bakının yaşıllaşdırılması işləri də həyata keçirilirdi. Minlərlə bakılının iştirak etdiyi çoxsaylı məcburi iməciliklərdə həm şəhərin tarixi hissələrində, həm də yeni rayonlarda bağlar və parklar salınırdı.

Sadə bakılıların fədakar ruh yüksəkliyi və əməyi nəticəsində əldə olunan bu nailiyyətlərlə yanaşı, Stalin repressiyasının günahsız qurbanlarını xatırlamaq da vacibdir. Azərbaycanın yeni yaranan ziyalı təbəqəsi içərisində itkilər xüsusən böyük idi, onların bir hissəsi sürgün edilmiş, digər qismi güllələnmişdi.

İkinci dünya müharibəsinin başlanması ilə Bakı yenidən beynəlxalq aləmin diqqət mərkəzinə çevrildi. 1939-cu ildə biri-birinə hücum etməmək barədə sovet-alman paktının bağlanmasından sonra SSRİ Almaniyanı neftlə təchiz etməyə başladı. Fransa və İngiltərə 1930-40-cı illərdə Bakını bombalamağı və Bakı neft sənayesi rayonunu ələ keçirməyi planlaşdırırdılar. Fransız generallarının fikrincə, belə əməliyyat Sovet İttifaqının iqtisadi qüdrətini zəiflədər və sovet quruluşunun iflasına səbəb ola bilərdi. İngiltərənin də analoji planları vardı. Britaniya Kral Hərbi Hava Qüvvələrinin qərargahı ehtimal edirdi ki, «üç bombardmançı eskadrilya 6 həftədən 3 ay müddətinədək fəaliyyət göstərməklə neft mədənlərini

sıradan çıxara bilər». Amma almanların qərbdən güclü hücumu müttəfiqləri Bakı ilə bağlı planları təxirə salmağa vadar etdi.

Faşizmin uğurla darmadağın edilməsində Bakının böyük əməyi vardı. Müharibə zamanı Bakının neft ehtiyatları ölkənin neft ehtiyatlarının 75 faizini təşkil edirdi. Təyyarə yanacağının 90 faizi Bakı neftindən ibarət idi. Neftə artan ehtiyacları nəzərə alan şəhər neftçiləri 1941-ci ildə neft hasilatını rekord səviyyəyə - 23.482 milyon tona çatdırdılar. Əvvəllər heç vaxt Bakıda bu qədər neft çıxarılmamışdı və hələ də bu rekord keçilməyib.

Alman qoşunları Qafqaza hücum edəndə Hitler Bakının ələ keçirilməsi tarixini 1942-ci il sentyabrın 25-nə təyin etmişdi. Bakı üzərində alman kəşfiyyatçı təyyarəçiləri görünməyə başladılar, onlardan biri şəhər yaxınlığında vuruldu. 1942-ci ilin payızında, şəhərin düşmən əlinə keçmə təhlükəsi olduğundan, Bakı neft mədənlərində 764 quyu qapadılmışdı, onlar məhvə hazır vəziyyətdə idi. 81 qazma qurğusu komplekti işçi heyətlə birlikdə Türkmənistana göndərilmişdi. Eyni zamanda Bakıda quyuların bərpası və istismarı işləri davam edirdi, şəhər cəbhənin neftlə təmin etmək vəzifəsini üzərinə götürmüşdü. Minlərlə neftçi cəbhəyə vuruşmağa gedirdi, mədənlərdə onların yerlərini qadınlar tuturdular. Hərbi texnikanın, döyüş sursatlarının böyük bir hissəsi Bakıda istehsal olunurdu. İran vasitəsilə SSRİ-nin müttəfiqlər tərəfindən hərbi və humanitar yardımla təmini üçün Bakı mühüm nəqliyyat qovşağı idi. Müharibə illəri ərzində arxa cəbhə şəhəri kimi, Bakı 440 min yaralını qəbul etmişdi.

Şəhərdə müharibədən sonra da inkişaf gedirdi. 1949-cu ildə Neft Daşları tikilməyə başladı. Bu, dünyada açıq dənizdə yataqların mənimsənilməsi sahəsində ilk təcrübə idi. Müharibədən sonrakı mərhələnin ilk illərindən yaşayış evlərinin və ictimai binaların tikintisi davam etdirildi. Azərbaycanın klassik memarları M. Hüseynovun, S. Dadaşovun, H. Məcidovun, E. Qasımzadənin, Q. Əlizadənin, Q. Ələsgərovun və başqalarının istedadı və ustalığı sayəsində Bakının mərkəzi və onun gənc rayonları yeni memarlıq tikililəri ilə zənginləşirdi.

Bakı keçmiş ittifaqın böyük, əhəmiyyətli sənaye mərkəzlərindən birinə çevrilirdi. Neft hasilatı, neft emalı və neft maşınqayırması ilə yanaşı, intensiv şəkildə elektronika, cihazqayırma, yüngül sənaye və yeyinti sənayesi inkişaf edirdi. Qısa müddət ərzində Bakıda məişət kondisionerləri zavodu, cihazqayırma zavodu, EHM zavodu, şampan şərabı zavodu, dərin özüllər zavodu və s. kimi böyük müəssisələr tikilirdi. Bu müəssisələrin rəqabətədözümlü məhsulları təkcə Sovet İttifaqının daxili bazarını deyil, həm də bir sıra əcnəbi bazarları da fəth etmişdi.

Bakı keçmiş SSRİ-nin mühüm nəqliyyat qovşağı idi. Həmin illər yük dövriyyəsinin həcminə görə o, bütün ittifaq respublikalarının şəhərləri arasında üçüncü yeri tuturdu. Bakı dəniz ticarət limanı mühüm əhəmiyyət daşıyırdı. Bu liman tək Xəzər dənizinin deyil, ittifaqın bir çox digər limanlarının arasında da ən nəhəngi idi. Mühüm hadisələrdən biri də Bakıda 1967-ci ildə Yaxın Şərqdə ilk metropolitenin açılması idi.

Bakı iri təhsil və mədəniyyət mərkəzinə çevrilirdi. Azərbaycanın bütün böyük ali təhsil müəssisələri paytaxtda yerləşirdi. Onlarla teatr, mədəniyyət evləri burada fəaliyyət göstərirdi, dünya və ittifaq əhəmiyyətli ictimai, elmi, peşəkar forumlar bu şəhərdə keçirilirdi.

80-ci illərin ortalarında başlanan yenidənqurma hərəkatı bütün ölkəni, o cümlədən Bakını uzunmüddətli xaosa və qeyri-stabilliyə bürüdü. SSRİ ərazisində çoxlu sayda qanlı beynəlxalq münaqişə ocaqları yarandı. Onlardan biri də hələ də həll olunmayan Qarabağ münaqişəsi idi. Münaqişə erməni millətçilərinin ərazi iddiaları nəticəsində yarandı. 1988-ci ildə Azərbaycanın Dağlıq Qarabağ vilayətinin Ermənistana birləşdirilməsi tələbləri ortaya çıxdı. Eyni zamanda bütün azərbaycanlı əhali - 200 min nəfərdən çox insan Ermənistandan çıxarıldı və onların böyük bir hissəsi Bakıda məskunlaşdı. Azərbaycanda ölkənin ərazi bütövlüyünün müdafiəsi ilə bağlı hərəkat başladı. SSRİ rəhbərliyinin erməni millətçilərinin iddialarının qarşısını almaq istəməməsi bu mübarizəni milli azadlıq hərəkatına çevrildi. Sovet hökumətinin yürütdüyü siyasətə etiraz olaraq, 1988-ci il noyabrın 17-də Bakıda Lenin adına mərkəzi meydanda (hazırkı Azadlıq meydanında) milli müstəqillik naminə fasiləsiz mitinqlər başladı. Bu tarix bu gün Milli Dirçəliş günü kimi qeyd olunur. Noyabrın 25-də Bakıda xüsusi vəziyyətin elan olunmasına baxmayaraq, mitinqlər dekabrın 5-dək davam etdi. Həmin gün qoşunlar meydanı aksiya iştirakçılarından təmizlədilər. Amma Azərbaycanda milli hərəkat davam edirdi.

Müstəqillik meyllərinin qarşısını almaq və SSRİ-nin dağılmasına yol verməmək üçün sovet rəhbərliyi 1990-cı il yanvarın 20-də Bakıda görünməmiş amansızlıqla və həyasızlıqla cəza aksiyası həyata keçirdi, şəhərin silahsız əhalisinə dəhşətli divan tutuldu. Yanvarın 19-dan 20-nə keçən gecə Bakıya qoşun yeridildi. Hərbi hissələrin və birləşmələrin şəhərə yeridilməsi atışma ilə müşayiət olundu, nəticədə Bakının dinc, silahsız sakinləri - gənclər, qocalar, uşaqlar qurban getdilər. Onlardan bəziləri çağırılmamış ordunun şəhərə girməsinə etiraz edirdisə, digərləri təsadüfən qoşunların yolunun üstünə çıxmışdılar. Tanklar yaxınlıqdan keçən «Təcili yardım» maşınlarını, yolun kənarında dayanan avtomobilləri əzirdilər, yaralılara aman vermirdilər, yerindəcə təxirəsalınmaz yardım göstərən tibb işçilərinə güllə atırdılar. Ölüm insanları öz mənzillərində, evlərin həyətində, avtobuslarda və iş yerlərində haqlayırdı. Nəticədə, 131 nəfər şəhid oldu, 744 nəfər yaralandı. 1990-cı ilin Yanvar faciəsi Azərbaycan xalqının milli şüurunda əbədi olaraq hüznlü xatirə kimi yaşayacaq. Amma bu faciə eyni zamanda Azərbaycanın XX əsr tarixində, onun milli müstəqillik uğrunda mübarizəsində dönüş yaratdı.



SSRİ dağıldıqdan sonra Azərbaycanın Ali Şurası «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası barədə» bəyannamə qəbul etdi. Bəyannaməyə əsasən, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi elan edildi. Bakı XX tarixdə ikinci dəfə müstəqil dövlətin paytaxtı oldu.

1991-ci ildə müstəqilliyini elan etmiş Azərbaycanın bütün bölgələri kimi, Bakı da plan iqtisadiyyatının dağılması və keçid dövrü ilə bağlı bir sıra mürəkkəb problemlərlə üzləşdi. Qonşu Ermənistanın müstəqil Azərbaycanın ərazisinin beşdə birini işğal etməsi bir sıra ağır çətinliklər yaratmışdı. Ən mürəkkəb məsələlər ev-eşiyini tərk etməli olmuş milyon nəfərdən çox qaçqının məişət və mənzil problemlərinin həlli ilə bağlı idi. Erməni təcavüzünün Azərbaycan iqtisadiyyatına vurduğu ciddi zərbə islahatların həyata keçirilməsini ləngidir, makroiqtisadi göstəricilərə təsir göstərir və ölkənin gələcək iqtisadiyyatının qurulmasına əngəl törədir.

1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı respublikada daxili siyasi vəziyyəti stabilləşdirməyə və dövlətin gələcək inkişafı üçün iri beynəlxalq neft şirkətlərinin sərmayələrinin cəlb etməyə imkan verdi. Bu qəbildən olan ən mühüm hadisələrdən biri 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» adı altında məşhur olan nəhəng neft müqaviləsinin imzalanması idi. Bu, respublikanın müstəqilliyinin möhkəmləndirilməsi, şəhər təsərrüfatının və Bakıda quruculuğun inkişafı və s. ilə bağlı bir sıra konkret vəzifələrin realizəsinə yardım etdi.

Fəal inkişaf edən Azərbaycanın paytaxtı, bölgənin ən böyük siyasi və iqtisadi mərkəzlərindən birinə çevrilməklə artıq bu gün mühüm əhəmiyyət kəsb etməkdədir.

Bakılılar həmişə, ən çətin anlarda belə gələcəyə inamları və böyük nikbinlikləri ilə fərqləniblər. Bu gün, bizim gənc respublikamız müstəqil inkişaf yoluna qədəm qoyarkən, biz inanırıq ki, Bakı gücü-gündən ucalaraq, dünyanın məşhur paytaxt şəhərləri arasında öz keçmişinə, bu gününə və gələcəyinə layiq yer tutacaq.

## Əcnəbi səyyahlar Bakı haqqında

Əcnəbi tarixçi, alim, coğrafiyaşünas, diplomat, səyyah və tacirlərin Azərbaycan şəhərləri və sənətkarlığı, ticarəti, ticarət yolları haqqında verdiyi məlumatlar böyük əhəmiyyət daşıyır.

Son orta əsrlərdə Azərbaycana gəlmiş və Bakı haqqında gördüklərini yazmış Avropa səyyahlarını xronoloji ardıcıllıqla izləmək yerinə düşərdi.

XIV əsrin birinci yarısında Şərqdə katolikliyi yaymaq məqsədilə fransız missioneri rahib Juirden Katalani Azərbaycana da gəlir. O, qeydlərində Bakını və onun neft mənbələrini də xatırlayaraq Bakı neftinin müalicəvi xassələrini göstərir.

Saksoniyalı Adam Oleari (1599-1671) (rus, türk, ərəb və fars dillərini bilirdi) Moskvaya (1633-34) və Səfəvilər dövlətinə (1635-39) göndərilən Qolşteyn səfirliklərinin (Gilan ipəyini ixrac etmək məqsədilə) tərkibinə daxil edilmişdi. Səfəvi sarayına yola düşən Qolşteyn səfirliyi əvvəlcə Moskvaya gəlmiş, sonra 1636-38-ci illərdə - İsfahana getmişdi. Qayıdarkən alman elçilərinin yolu Azərbaycandan düşmüşdü. Adam Aleariy Azərbaycanın Bakı, Dərbənd, Niyazabad, Şamaxı, Cavad, Ərdəbil, Zəncan, Qəzvin, Sultaniyyə, Astara, Lənkəran, Qızılağac kimi yaşayış məntəqələrində olmuş, tarixi keçmişimizə, xalqımızın həyat tərzinə aid material toplamışdı.

Məşhur alman səyyahı, görkəmli alim - coğrafiyaşünas Adam Olearinin "Səyahətnamə" kitabı ilk dəfə 1647-ci ildə yol xatirələri kimi nəşr olunmuşdu. 1656-cı ildə isə əsərin elmi mətni hazırlanmış, müəllifin Moskva və Azərbaycan haqqında qeydləri də oraya əlavə olunmuşdu. Əsər üçüncü dəfə 1663-cü ildə, dördüncü dəfə isə 1696-cı ildə Hamburqda nəşr olunmuşdu.

Adam Oleari öz "Səyahətnamə"sinə Azərbaycan şəhərləri, sənətkarlıq və ticarət həyatı, ictimai münasibətlər, əkinçilik, əhalinin məişəti, adət və ənənələri haqqında maraqlı məlumatlar daxil etmişdir. O, Azərbaycanı, özəlliklə də Bakını gəzmiş, şəhərdən keçən karvan yolları, karvansaralar, pirlər, tarixi yerlər haqqında, müxtəlif tayfalar, etnik qruplar, bir qisim yarımköçəri həyat tərzi keçirən əhali, onların məşğuliyyəti, müxtəlif peşə sahələri barədə çox qiymətli məlumat toplamışdı. A. Olearinin “Səyahətnamə”si XVII əsrin ortalarında, Bakıda ticarət və sənətkarlıq sahələri, əhalinin həyat tərzi və dövlət quruluşu haqqında dəyərli elmi məlumat verən qaynaqlar içərisində xüsusi yer tutur. Məsələn, xalq müdrikliyinin qoruyucusu olan Dədə Qorqudun qəbirini Dərbənddə Oleariyə nümayiş etdirmişlər. İndiki Qafqaz və İran azərbaycanlılarında onun haqqında dastanlar yoxdur. Bu dövr dastanlarının əsas qəhrəmanı Qazan xandır. Onun xanımı Burla xatun da xatırlanır. Sonralar bu adlar yalnız "Kitabi-Dədə Qorqud" əsərində rast gəlinir. Həmin əsərin yeganə əlyazması Drezdendə saxlanılmış və hal-hazırda Türkiyədə nəşr edilmişdir. Yalnız burada və bir də Olearinin əsərində Burla xatunun adına təsadüf olunur. A. Oleari onun qəbirinin Urmiyədə olduğunu qeyd edir. Dədə Qorqudun qəbrinin Dərbənddə olmasını Olearidən başqa Osmanlı səyyahı Övliya Çələbi də qeyd edir.

Bakı haqqında 1618-ci ildə yazmış italyan səyyahı Piyetro Della Valle Bakını (Ptolemeyə görə) Kaysi çayının mənsəbində olan Albana şəhəri ilə eyniləşdirmişdir. Əsərin 1796-cı ildə Hamburqda nəşr olunmuş

variantı rus dilinə tərcümə edilmişdir (əlyazması şəklində saxlanılır). Deməliyik ki, 1663-cü ildə alman dilində nəşr olunmuş nüsxəsini P. Barsov rus dilinə tərcümə edərək, 1870-ci ildə Moskvada çap etdirmişdir. Fikrimizcə, əsərin bu nəşri daha mükəmməldir.

XVII əsrdə Azərbaycan şəhərləri, o cümlədən Bakı haqqında məlumat verən digər səyyah Jan Şarden (1643-1713) olmuşdu. Bu fransız zərgəri 1664-cü ildə Lion taciri Rezenlə birlikdə (almaz almaq üçün) Hindistana göndərilmişdi. Şarden səyahət etdiyi ölkələrdə gördüklərini 10 hissədən ibarət olan "Səyahətlər" adlı əsərində qələmə almışdır. Əsərin IV-V hissələrində o, Azərbaycan, xüsusilə Bakı haqqında xeyli maraqlı müşahidələrini qələmə almışdır. Şarden Bakıda sənətkarlıq, elm və incəsənətin inkişafı haqqında da məlumat vermişdi.

Katolik ruhani Kubero don Pedro 1670-79-cu illərdə dünya səyahəti zamanı Qafqazda olmuş, iki ay Şamaxıda qalmış, sonra Bakı, Ərdəbil, Qəzvin, İsfahan, Şiraz, Bəndər-Abbas şəhərlərinə səfər etmişdir. Dərbənddən Şamaxıya, oradan Ərdəbilə, daha sonra Qəzvinə gedən Kubero gördüyü yerləri, xüsusilə Bakı şəhərini ətraflı təsvir edir. Kuberonun əsərləri ilk dəfə 1680-cı ildə Madriddə, italyan dilinə tərcüməsi isə 1683-cü ildə Napoli şəhərində çap edilmişdir.

XVII əsrin fransız missionerlərindən rahib Villotun da qeydləri çox maraqlıdır. O, 1689-cu ildə Azərbaycana gəlmiş, Gəncədən keçib Şamaxıya və oradan da İrana getmişdir. O, yazılarında Bakının neft və duz hasilatından bəhs etmiş, Abşerondakı kəndlərin sayı haqqında məlumat vermişdi.

1573-cü ildə Bakıda olmuş ingilis taciri Dekat Ceffri Abşeronda çoxlu neft hasil edilməsindən danışır.

1580-ci ildə ingilis taciri Xristofor Berrou Abşeron kəndlərinin məişətinə dair bir sıra məlumatlar verməklə yanaşı, Bakıda ona edilən qonaqpərvərlikdən də bəhs edir.

XVI əsrdə Avropa tacirlərinin Şərq ölkələri ilə ticarət əlaqələrinin canlanması Volqa-Xəzər yolu adlandırılan dəniz ticarət yolunun mənimsənilməsinə şərait yaratdı. 1561-63 cü illərdə İngiltərədən tacir Cenkinson Azərbaycana gələrək bir sıra şəhərləri gəzir. O, Bakının coğrafiyası haqqında dəyərli məlumatlar verir.

Alman alimi Enqelbert Kempfer (1651-1716) 1683-84-cü illərdə İsveç səfirliyinin katibi kimi Rusiya, Azərbaycan və İranda olmuşdur. Avropaya qayıtmayan alim, Rafael dü Manın təklifi ilə İran körfəzində olan Holland donanmasında qulluğa girmiş, on il ərzində müxtəlif Şərq ölkələrində olmuşdur. 1683 cü ildə Bakıda olmuş Kempfer şəhəri olduqca ətraflı və dəqiq təsvir etmişdir. O həmçinin Bakının neft və duz mədənləri, Abşeronda yanar qazın çıxması, Bakı və Abşeronun iqtisadiyyatı, sosial həyatı, memarlıq və məişətinə dair bir sıra dəyərli məlumatlar vermişdir. Kempfer 1693-cü ildə vətəninə qayıtmış, 1712-ci ildə öz əsərlərini 5 cilddə (latın dilində) nəşr etdirmişdi.

E. Kempferin əsərlərində Azərbaycan haqqında geniş məlumat verilir. Onun əsərinin ikinci hissəsində Abşeron, Bakı, neft quyuları haqqında məlumatlar xüsusilə maraqlıdır. E. Kempfer Kaspi (Xəzər) dənizinin xüsusiyyətləri, Xəzərətrafı yerlərin bitki və heyvanat aləmi, təsərrüfatı, eləcə də Qafqaz dağlarının relyefi haqqında ətraflı məlumat verir. Qeyd etmək lazımdır ki, Kempfer əbədi odu ilk təsvir

edən tədqiqatçılardandır. Onun əsərində verilən şəkil və qravüralar, Abşeron yarımadasının xəritəsi, Şamaxının, Bakının görüntüləri xüsusilə əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, Bakının V. M. Sısoyevin "Bakı keçmişdə və indi" kitabında verilən təsviri E. Kempferin əsərindən götürülmüşdür. F. Minorski, İ. Petruşevski, S. Aşurbəylinin tədqiqatlarında E. Kempfer yaradıcılığına istinad edilmişdir. 1824-ci ildə Bakıda olmuş Kazan universitetinin professoru İ. Berezin onun təsvirlərini sanki təsdiqləyərək yazırdı: "Bakı qalası, doğrudan da iki cərgə hasar arasına alınmışdı. Dəniz tərəfdə isə divar yalnız bir cərgədir."

Rafael dü Man (1613-1696) 1644-45-ci illərdə İranda İsfahanda yaşamışdı. O, Şah sarayında böyük etibar qazanmış, tərcüməçi kimi bütün xarici qonaqlarla görüşlərdə iştirak etmişdir. Dü Man xarici səyyahların əsərlərinə düzəlişlər verir, onlara ölkə həyatı ilə yaxından tanış olmağa imkan yaradırdı. O, Bakıya səyahət etmiş və şəhər haqqında qiymətli məlumatlar vermişdir. Akademik V. V. Bartold qeyd edir ki, Rafael dü Man əsərlərində "Qərb sivilizasiyasının" təkəbbürlü bir avropalı nümayəndəsi rolunda çıxış etmişdir. Lakin F. Minorski bu əsərin o dövr haqqında ilk mənbə kimi böyük əhəmiyyətə malik olduğunu qeyd etmişdi.

Qemeli Kareri (hüquqşünas) Avropa ölkələrində - İtaliya, Fransa, İngiltərə, Belçika, Hollandiya, Almaniya, Portuqaliya, İspaniyaya səfərlərindən sonra 1689-cu ildə İtaliyaya qayıtmış, 1693-98-ci illərdə Şərqə səyahətə çıxmışdır. O, Malta, Kipr, Fələstin, Trabzon, Gürcüstan, Azərbaycan, İranda olmuşdur. Qemeli Karerinin əsərində Cənubi Qafqaz haqqında ətraflı məlumat verilir. Onun Bakı haqqında verdiyi məlumatlar mühüm əhəmiyyətə malikdir.

1830-cu ildə Bakıda olmuş alman akademiki E. Lens yerli əhalidən eşitmiş olduğu məlumatları ümumiləşdirərək belə yazırdı: "Xeyli müddət əvvəl dəniz indikinə nisbətən 20 verst uzaqlıqda idi. O zaman Nargin adaları da qurunun ayrılmaz hissələri idi. Sonra dəniz səthi qalxaraq xeyli qabağa gəlmiş və sahil indiki görkəmini almışdır". E. Lens Böyük Zirə (Nargin) adasının qayalıqlarında Zığ bumuna gedən arabalar haqqında da yazmışdı. Sonralar A. Bakıxanov "Gülüstani-İrəm" əsərində yazırdı: "Bakı qəzasının Bilgəh, Zirə, Bibiheybət və başqa kəndlərində, habelə bir neçə adada qayalıqlar üstündə dənizin içərilərinə tərəf gedən araba çarxlarının izləri görünür."

Jan Teveno (1633 - 67) 19 yaşında ikən Avropaya səyahət etdikdən sonra Şərqə getmişdir. 1663-cü ildə Şərqə ikinci səyahəti zamanı Teveno İsfahana gəlmişdir. Oradan Azərbaycana gedən J. Teveno xəstələnmiş, 1667-ci ilin noyabrında vəfat etmişdir. Fransız dilində tərtib edilmiş Tevenonun qeydləri üç hissədən ibarətdir. J. Teveno türk (Azərbaycan) dilini bilirdi. Bakı şəhərində olan səyyah çap etdirdiyi əsərində Azərbaycanın bir çox şəhərləri kimi, Bakı haqqında da qiymətli məlumatlar vermişdi.

Bakı şəhərinin tarix və mədəniyyətinin araşdırılması və öyrənilməsində rus alim və şərqşünaslarının da əməyi böyük olmuşdur. Rusiya Elmlər Akademiyasından elmi ekspedisiya ilə İranı və Azərbaycanı öyrənmək üçün 1770-ci ildə göndərilmiş S. Qmelin Bakıda olmuş və şəhəri ətraflı təsvir etmişdir.

XVI-XVII əsrlərdə Azərbaycan dövlətinə səyahət etmiş, müşahidə və qeydlər edən orta əsr Avropa səyyahlarının fikirlərinə akademik V.V.Bartoldun münasibəti maraqlıdır. O yazır: "Orta əsr avropalı

səyyahlar Şərqə gələrkən yerli əhali ilə müqayisədə özlərini daha mədəni hiss etdiklərindən heç söhbət gedə bilməz, çünki orta əsrlərdə Avropa mədəniyyəti Asiyadakından aşağı idi. Yalnız XV əsrdə Şərqə ziyarət edən və orada uzun müddət yaşayan səyyah İosofat Barbaro yazır ki, Avropaya dönərkən daha mədəni mühitə düşmüşdür. Bu ilk avropalı idi ki, Şərqdən Qərbə qayıdarkən özünü daha mədəni mühitdə hiss etmişdir. Düzdür, Rafael dü-Man farslara bir qədər üstünlük verir, lakin bu, aşağıdakı şəkildə ifadə olunur: "əgər Şərqin bütün xalqlarını kor saysaq, farsları birgözlü hesab etmək mümkündür".

XVII əsr mənbələrindən Evliya Çələbinin əsərini xüsusilə qeyd etmək lazımdır. Evliya Çələbi ibn Dərviş Məhəmməd Zilli (1611-82-ci illər) yaxşı təhsil almış, Sultan IV Muradın sarayında qulluq etmişdir. O, səfirlik üzvü və xüsusi məsələlər üzrə müşavir kimi Yaxın və Orta Şərq ölkələrində olmuş, öz səyahət xatirələri əsasında "Səyahətnamə" (10 cildlik) əsərini yazmışdır. Əsərin II cildində - 1647-ci ildə Azərbaycanda olarkən ölkənin mədəni, iqtisadi həyatına aid gördüklərini təsvir etmişdir. Çələbi 1647 ci ildə səfərdə olduğu dövrün şəhər və kəndlərindən ətraflı bəhs etmişdir. E. Çələbi o dövrdə Bakının iqtisadiyyatına, sosial həyatına, siyasi hadisələrinə dair məlumat verir, Abşeronda çıxarılan neftin müxtəlif növlərindən, becərilən kənd təsərrüfatı bitkilərindən, oranın satışından, ixracat mallarından ətraflı danışır, şəhərin qala divarlar;nı və zahiri görünüşünü təsvir edir.

Evliya Çələbi "Səyahətnamə" adlı əsərində Bakının qala divarlarında 70 yarımdairəvi bürc, 600-dən artıq mazğal olduğunu xəbər verir. Müəllifin məlumatına görə, divarlar qaya üstündə tikilmişdir. Yeri gəlmişkən qeyd etməliyik ki, qala divarının qaya üstündə tikildiyini aparılan arxeoloji qazıntılar da təsdiq etmişdir. E. Çələbinin əsərində bakılılar haqqında dəyərli etnoqrafik xarakterli məlumatlara da rast gəlinir.

Fransız yazıçısı Aleksandr Düma 1858-59-cu illər ərzində Qafqaz-da, eləcə də Azərbaycanda olmuşdu. Onun "Qafqaz səfəri" adlı əsasən etnoqrafik səpkidə yazdığı əsəri 1861-ci ildə Tiflisdə rus dilində çap edilmişdi. Aleksandr Düma Bak;nı və ətraf kəndlərini gəzmiş, xeyli maraqlı məlumatlar toplamışdı. Onun hətta Parisə qayıdarkən bəzi həşəratlardan qorunmaq üçün Bakı və ətraf yerlərdə istifadə edilən birəotundan bir kisə, qonaq qaldığı yerlərdən aldığı hədiyyələrdən - yağış keçirməyən mahuddan bir neçə dəst, əllə işlənmiş tayı-bərabəri olmayan yəhər, xəncər, kəmər, geyimlər və s. apardığı da məlumdur.

Ticarət və diplomatik məqsədlərlə Azərbaycana gəlmiş İtalyan səyyahları Marko Polo (XIII əsr), Barbara Kontarini, Ancolello və Donato da Lezenin (XV əsr) yol qeydlərində də Abşeronda neft hasilatına və Bakı şəhərində ticarətə dair qısa məlumatlar vardır. Bakı şəhəri, onun strateji mövqeyə malik olması, Xəzər dənizində yerləşən adalar və bu ərazidəki təsərrüfat həyatı haqqında rus alimləri və hərbi mütəxəssisləri xeyli məlumat vermişlər. Xalqımızın orta əsr həyatı ilə tanış olmaq üçün əvəzedilməz və son dərəcə qiymətli olan əcnəbi mənbələri tədqiq etmək, lazımi məlumat toplamaq və bunun əsasında tariximizin qaranlıq səhifələrini aydınlaşdırmaq mühüm əhəmiyyətə malikdir. Bu mənbələrin ölkəmizin paytaxtı haqqında verdiyi məlumat əvəzsizdir.

***Kamil Fərhadoğlu. Bakı. İçərişəhər. Bakı, “Ş-Q” & “ÇİNAR-ÇAP”, 2006, səh. 30-35.***

## Xəzər dənizi

Böyüklüyünə və bəzi fiziki-coğrafi əlamətlərinə görə Xəzər dənizdir. Lakin dünyanın başqa iri su hövzələri ilə bilavasitə əlaqəsi olmadığına görə göl də adlanar. Bu baxımdan Xəzər dünyada ən böyük göldür. Xəzər var-dövlətdir, bərəkətdir. O, öz qoynunda xalq təsərrüfatı üçün əhəmiyyət kəsb edən zəngin xəzinədir. Xəzərin sahəsi 380 min kv. km-dir. Sahil xəttinin ümumi uzunluğu (perimetri) 6380 km-dir. Ən uzun sahəsinin uzunluğu 1205 km, eni 554 km, ən dərin yeri 1025 m-dir. Xəzərin səviyyəsi Ümumdünya okean səthindən 28 m aşağıdadır. Xəzərdə çoxlu adalar var ( Pirallahı, Çilov, Plita, Zorya, Muğandaşı, Kürdaşı, Qarasu və s.). Xəzər - əhəmiyyətli nəqliyyat yoludur, ətraf mühitin və havanın təmizliyinin zaminidir, landşaftın ölməz abidəsidir, qiymətsiz təbii yataqlara malikdir. Xəzərin əsas sərvəti neft və qazdır. 1994-cü ilin sentyabr ayında qərb dövlətlərinin konsertləri ilə bağlanan müqavilə havayı yerdən "əsrin müqaviləsi" adlanmır. Aparılan tədqiqatlar göstərir ki, Xəzər dünyada böyük neft anbarıdır. Hal-hazırda Azərbaycanda hasil olunan neftin 67 %-i, qazın 95 %-i Xəzərdən çıxır. Xəzər nadir və qiymətli balıqlarla da məşhurdur. Xəzər həm də möcüzələr yeridir. Dənizin 100 m dərinliyindən metal bünövrələrin üstündə 100-dən çox süni adacıqlar təşkil olunub estakadalar düzəldilmişdir. Estakadaların ümumi uzunluğu 400 km-dən çoxdur. Estakadaların üstündə çoxmərtəbəli yaşayış evləri və ictimai binaları olan "Neft daşları" şəhəri yaradıldı. Xəzərin qumlu çimərlikləri hamının sevimli yeridir. Xəzərin zümrüd suyu, "qızıl" qumu, ultrabənövşəyi günəş şüaları yay aylarında çoxlarını cəlb edir.



# Şirvanşahlar sarayı

## Ümumi məlumat

Şirvanşahlar saray ansamblı - Azərbaycan memarlığının Şirvan-Abşeron qolunun iri abidəsidir.

XV əsrdə Bakının iqtisadi və siyasi əhəmiyyətinin artması nəticəsində Şirvanşah Xəlilullah iqamətgahı Şamaxıdan Xəzər dənizində əsas liman şəhəri və möhkəmlənmiş istehkam olan Bakıya köçürdü. Səbayel qəsrinin batması ilə bağlı yeni saray təhlükəsiz yerdə, Bakı təpəsinin hündürlüyündə tikildi. Ansambl vahid memarlıq ideyasına əsasən tikilmirdi, o, relyefə əsasən, üç səviyyədə ucaldılan bir neçə tikili sırasından ibarətdir: sarayın əsas binası (1420-ci illər), Divanxana (1450-ci illər), sərdabə-türbələr (1435), minarəli şah məscidi (1441), Seyid Yəhya Bakuvi məqbərəsi (1450-ci illər) və Keyqubad məscidinin qalıqları. Saray tikililərinə şərq tərəfdən portal - Murad qapıları (1585), ovdan və hamam qalıqları aiddir. Bəzi məlumatlara görə, saray binasından şimal-şərqə doğru əvvəllər şah tövlələri yerləşirmiş, hazırda burada yaşayış evləri mövcuddur. Divanxanadan şimalda yaşayış evlərindən birində qədim divarların özülü görünür, bu hörgü sarayın fasadının hörgüsünə başlayır. Görünür, bu saray ansamblına daxil olan binalarının hörgülərinin qalıqlarıdır.

1964-cü ildə kompleks muzey-qoruq elan edilib və dövlət mühafizəsinə götürülüb.

1. Saray
2. Divanxana
3. Şirvanşahlar türbəsi
4. Minarəli saray məscidi
5. Hamam
6. Seyid Yəhya Bakuvi məqbərəsi
7. Şərq portalı

## Saray

Şirvanşahlar Sarayı Ansamblı vahid arxitektura ideyası əsasında qurulmayıb. Amma onun bənnaları hər bir binanın təyinatını, onların ölçüsünü nəzərə alaraq, arxitektura mənzərəsinin yarada bildilər.



Ansamblın əsas binası - saraydır. O, bütün saray tikililəri arasında ən qədimidir və arxitektura tarixçilərinin qənaətlərinə görə, on ilə ucaldılıb. Bu, həm həcminə, həm də tutduğu əraziyə görə kompleksin ən böyük binasıdır. Onu 1411-ci ildə Şirvanşah I İbrahimin - Teymurləngin müttəfiqinin əmri ilə ucaltmağa başlayıblar, ölümündən sonra bu işə onun oğlu Şirvanşah I Xəlilullahın dövründə işlər davam etdirilib.

Sarayın ikimərtəbəli binasında 50 fərqli ölçüdə və çevrədə otaqlar mövcuddur, onları üç dolama pilləkən birləşdirir. Böyük şişbucaq portal həyətdən birbaşa hündürdəki ikinci mərtəbənin günbəzlə örtülmüş səkkizbucaqlı dəhlizə aparır. Onun ardınca kiçik, yenə səkkizguşəli vestibül gəlir və bu vestibül onu sarayın digər otaqları ilə birləşdirir. Səkkizguşəli otaqdakı oyuqların çat-çat çıxıntıları aşağı mərtəbə ilə danışıq əlaqəsi sazlamaq məqsədi güdürdü. İkinci mərtəbədəki 25 otaqdan yalnız 16-da günümüzədək qorunub saxlanılıb. Binanın 27 otaqdan ibarət aşağı mərtəbəsi qulluqçular və təsərrüfat ehtiyatlarının saxlanması üçün nəzərdə tutulubmuş. O, günümüzə XV əsrdə - tikildiyi vaxtda olduğu kimi gəlib çatıb.

Ön həyətə ünvanlanan fasadın ciddi forması digər həyətlərdəki binaların zəngin traktovkasından fərqlənir. Lakonik formalar, divarların hamar səthində günəş tonları, üst pəncərələrin bəzəkli şəbəkəsi, pəncərə-yarıqlar binaya bənzərsiz ifadəlilik verir. Birinci mərtəbədəki otaqların qazıntısı göstərdi ki, saray qayanın üzərində tikilib, əvvəllər - saray inşa edilənədək - onun altında hansısa tikili olub və onun divarlarının özülünün üzərində sarayın bünövrəsi qoyulub.

Şirvanşahlar sarayı muzey-qoruq elan edilənədək çox hadisələrin şahidi olub. Məsələn, 1501-ci ildə Səfəvilər Bakını alarkən saray boşaldılıb. Şirvanşahların bütün sərvətləri - silahlar, əsləhələr, zinət əşyaları, xalılar, bahalı parçalar, Sara kitabxanasındakı nadir kitablar, gümüş əşyalar və qızılları Səfəvilər özləri ilə Təbrizə apardılar. Amma 1514-cü ildə türk sultanı I Səlimin və Səfəvilərin qoşunları arasında Çaldıran döyüşündən sonra Şirvanşahlar Sarayının sərvətləri türklərə çatdı. Bu gün də onların bir hissəsi Türkiyənin, İranın, İngiltərənin, Fransanın, Rusiyanın, Macarıstanın muzeylərinin kolleksiyalarını bəzəyir. Məsələn, İstanbul muzeyində I Xəlilullahın 1428-ci ildə hazırlanmış zirehi, onun oğlu varis Fərrux Yasarın iki dəbilqəsi saxlanılır. Sarayın bəzi xalıları Londonun Viktor və Albert muzeyində, saray kitabxanasının qədim foliantları isə Tehranın, Vatikanın və Peterburqun böyük kitabxanalarında saxlanılır.

Türk səyyahı Övliya Çələbi «Yol qeydləri» kitabında bildirir ki, türk sərkərdəsi Mustafa Lələ paşa, 1585-ci ildə fəth etdiyi Bakını tərk edərkən, «bir gözəl tikilinin damını, günbəzini, pəncərə çərçivələrini özü ilə aparıb və onu sultana hədiyyə edib, sultan isə onlardan «Sultaniyyə Qəsri Humayun» bağında hamını öz gözəl görkəmi ilə heyrətə salan şahanə qəsr tikdirib». Ola bilər ki, sözügedən kaşıyla örtülmüş günbəz Şirvanşahlar Sarayının damından götürülüb.

Şirvanşahlar Sarayı 1723-cü ildə rus eskadrasının dənizdən hücumu zamanı, şəhərin fars işğalından azad edilməsi və 1806-cı ildə Bakını rus qoşunlarını işğal etməsi zamanı da zərər çəkib. Bakı Rusiya imperiyasının tərkibinə daxil ediləndən sonra saray çar hərbi idarəsinə verildi, yüz il müddətində saray onların imtiyazında qaldı. İkinci mərtəbədə yerləşən şah mənzilləri əsgər kazarmalarına, onun altındakı otaqlar isə tövləyə, artilleriya anbarlarına çevrildi; kim isə məqbərənin portalındakı daş yazını yaşıl boya ilə korladı, şah məscidi isə az qala qarnizon kilsəsinə çevriləcəkdi. Hərbçilər sarayı qismən təmir etdilər və eyni zamanda saray tikililərini artilleriya anbarlarına çevirməklə böyük dəyişikliklər etdilər. «Yenidənqurma» zamanı günbəzlər dağıdıldı və birinci və ikinci mərtəbədə otaqları bir-birindən ayıran divarların bir hissəsi götürüldü. Günbəzlərin, şişbucaq və xaçşəkilli taxtapuşların qalıqları məhv edildi və

hamar, tirdən düzəldilmiş örtüklərlə əvəzləndi. Bəzi pəncərə yerləri dolduruldu, daşdan kəsilmiş şəbəkələr dağıdıldı. Sarayın şimal fasadının ikinci mərtəbəsində giriş düzəldildi, divarda böyük keçid yarıldı və atların sürdüyü ikitəkərli arabalar küçədən birbaşa sarayın ikinci mərtəbəsinə keçirdilər. Qübbələrin və günbəzlərin mavi şilənmiş mozaik suvağı məhv edildi. Sarayın divarlarında güllə yerləri hələ də qalır - əsgərlər burada atıcılıq məşqləri edirdilər.

XIX əsrin sonunda hərbi intendantlıq qeyri-ixtiyari bütün ansamblın xilaskarı rolunu oyandı. Aleksandr Nevski kilsəsinin tikilməsi üçün yer seçərkən Şirvanşahlar Sarayı gözaltılanmışdı. Yalnız hərbiçilər üçün başqa yer tapılmadığından, memarlıq abidəsi tamamilə məhv olmaq təhlükəsindən qurtuldu.

1920-ci ildə XI Qırmızı ordunun şəhəri istila etməsi ilə burada sarayda yenidən tövlələr, artilleriya anbarları, əsgər kazarmaları, lazaret yarandı.

Ətrafda hər yer baxımsız və bərbad idi. Bu səbəbdən də görkəmli Azərbaycan tarixçiləri və arxeoloqları orta əsrlərə məxsus bu nadir abidəni qorumaq üçün Azərbaycan İnqilab Komitəsinin rəhbərliyinə xüsusi məktub ünvanladılar. Yalnız bundan sonra kompleksdə təmizləmə-bərpa işləri başladı. 20-ci illərin sonlarında sarayın soyuq, rütubətli, damı deşilmiş otaqları Azərbaycan Tarix Muzeyinə verildi, 1920-30-cu illərdə muzey burada yerləşirdi.

Sarayın ciddi bərpa işlərinə ehtiyacı var. Saray kompleksinin 20-ci, 30-cu və ya 50-ci illərdəki bərpası kor-koranə, qeyri-peşəkarcasına və sistemsiz şəkildə aparılıb. 1992-ci ildən sarayda yeni bərpa işləri aparılır.

**Divanxana**

Divanxana Şirvanşahlar sarayının əsas binasına yaxın yerləşir. Bu tikili kiçik həyətin içərisində yerləşən, üç tərəfdən arkada qalereyası ilə əhatələnən kiçik, zərif binadır. Divanxana həm içəridən, həm



də çöldən daş günbəzlə örtülmüş səkkizguşəli zaldan ibarətdir. Vestibülün düzbucaqlı binası ona bitişik yerləşir. Vestibül arkada qalereyasına çıxışla zala və zalın döşəməsi altındakı səkkizguşəli kameraya birləşir. Bu kameranın altında zirzəmiyə enən ikinci belə kamera var, şimal tərəfdən yer səthi bərabərində olan çıxıntı zirzəmiyə qapı rolunu oynayır. İkinci kameranın yerləşdiyi qayada 5 metr dərinliyi olan quyunun ağzı görünür. Bu iki kameranın təyinatı da bütövlükdə divanxananın özünün təyinatı kimi anlaşılmaz qalır.

Əsas girişin hündür, biçimli portalı ornamentlə və qeyri-adi dərəcədə zərif və gözəl yazı ilə bəzədilib. Ornament əncir və üzüm yarpaqlarının hörülməsindən ibarətdir. Bundan əlavə, portal iki medalyonla bəzədilib, onların içərisində ərəb dilində, kufi qrafikası ilə yazılar var. İlk baxışdan adama elə gəlir ki, bu sadəcə, bəzəkdir.

Divanxananın arxitektura kompozisiyası və planlaşdırılması orijinaldır və digər Şərq ölkələrində onun analoqu yoxdur. Divanxananın tikintisi başa çatmayıb, kapitel və sütunlar sırasının bəzək işlərinin tamamlanmaması və digər detallar bundan xəbər verir. Ola bilsin, tikinti 1500-1501-ci ilin hadisələri ilə bağlı dayandırılıb. Üslub xüsusiyyətləri və bəzək işlərinin qismən yarımçıq qalması Divanxananın XV əsrin sonuna aid etməyə əsas verir.

Divanxananın təyinatı ilə bağlı fərqli versiyalar var. Bəziləri hesab edir ki, burada məhkəmə qurulurmuş və dəyirmi çıxıntısı olan günbəzli zalda daş döşəmənin ortasında hökm icra olunurmuş. Ölüm hökmündən sonra çıxıntının üzərində cəllad caninin başını kəsirmiş, onun bədəni isə yeraltı kanallar vasitəsi ilə dənizə axıdılırmış.

Başqa ehtimala görə, divanxana mühakimə, qəbul və dövlət şurası üçün nəzərdə tutulubmuş və ya bura mavzoley imiş. XIII-XV əsrlərdə maliyyə idarəsinin rəhbəri divanın sahibi idi. Divanxana Şirvanşahlar yanında sahibi-divanın, onun məmurlarının iş otağı, xəzinə ola bilərdi. Səkkizguşəli zalın mərkəzində kameranı örtən günbəzdəki müəmmalı çıxıntı, göründüyü kimi, sonradan, güman ki, 1501-ci ildə Səfəvilər şəhəri ələ keçirib, xəzinəni axtararkən qoyulub. Məlumatlara görə, pavilyonun günbəzində Səfəvilər xeyli qızıl və daş-qaş tapıbmışlar.

Mavzoley barədə versiya da inandırıcı görünür. İkikameralı zirzəminin və giriş portalında Qurandan surənin («Allah dünyanın iqamətgahına çağırır və istəyənləri düz yola aparır... Bu, cənnət yoludur və orada onlar əbədi yaşayacaqlar») yazılması da bunu təsdiq edir. Maraqlıdır ki, xalq rəvayətlərində Divanxana nəzəriyyəsi, xüsusən süd quyusu adlanan quyu ilə zirzəmi kamerası pir sayılırmış, süddən kəsilən qadınlar burada şəfa tapırmışlar. Görünür, Divanxananın və sarayın ərazisi islamaqədərki vaxtlarda müqəddəs ziyarətgah olub.

**Türbə**

Şirvanşahların ailə sərdabəsi düzbucaqlı formadadır və altıguşəli günbəzlə tamamlanır. Günbəz çöldən parlaq ulduzlarla bəzədilib. Keçmişdə günbəzin dərinliyinin səthinə mavi şirlənmiş kərpiclər qoyulmuşdu. 1733-cü ildə Bakıda olan səyyah İ. Lerxin qeydləri də bunu təsdiq edir: «Taxtapuş (sərdabə) mavi rəngli daşlarla bəzədilib».

Giriş qapısındakı yazı binanın təyinatından xəbər verir: «Böyük sultan, böyük Şirvanşah, Allahın peyğəmbərinin adaşı, dinin himayəçisi, I Xəlilullah səkkiz yüz qırx doqquzuncu (1435-1436) bu işıqlı sərdabəni anası və oğlu üçün tikməyi əmr etdi». girin qapısında arkanın oxu üzərində 12 dəfə Əli adı yazılmış altıguşəli xonçalar yerləşdirilib. Portalın hündürlüyünü Qurandan Allahı öyən surə bəzəyir.

Portalın yan hissələrində damcıyabənzər iki medalyonda memarın adı - Əli yazılıb. Hər medalyonda eyni yazı iki dəfə - düzünə və əksinə istiqamətdə təkrarlanır. Memar şah sərdabəsində öz adını böyük ustalıq və sənətkarlıqla cizib, uzun illər bu ad gizli qalıb və yalnız 1945-ci ildə Azərbaycanlı alimlər onu oxuya biliblər.

Binanın mərkəzi günbəzli dəfn otağı təşkil edir. Bəzi mənbələrdə deyilir ki, 1501-ci ildə Şirvanşah Fərrux Yasarın ölümündən sonra Şah İsmayılın qoşunları Bakı qalasının tuturlar və sərdabədəki mərhumların qalıqlarını oda atırlar. 1945-ci ildə çalışan arxeoloqların işi bu versiyanı təkzib etdi. Sərdabənin taxta döşəməsi altından 5 qəbir olan sərdabə aşkarlandı, onların üzəri daş piltələrlə örtülmüşdü. Məlum oldu ki, qəbirlərdən 3-də yaşlılar, 2-də isə uşaqlar dəfn olunub. Sərdabədəki tədqiqat zamanı daha bir neçə qəbir tapıldı. Onların ümumi sayı 14-də çatırdı. Bunlar Şirvanşahların ailə üzvlərinin məzarları idi. Qəbirlər tam vəziyyətdə idilər, amma qəbirüstü daşları yox idi.

Arxeoloji işlər nəticəsində yazıda qeyd olunduğu kimi, qəbirin Bikə xanıma - Şirvanşah I Xəlilullahın anasına, oğluna və digər ailə üzvlərinə aid olduğu təsdiqləndi.

Qəbrin təmizlənməsi zamanı həndəsi ornamentlərin izləri olan medalyonlu materiya qalıqları aşkarlandı. Onların üzərində ərəbcə yazılar döyülmüşdü. Bundan başqa tapılan əşyalar arasında bir neçə mavi muncuq, firuzə və altı ədəd yaqutla bəzənmiş qızıl sancaq, qızıl sırğalar tapıldı. Hazırda bütün bunlar Azərbaycan Tarix Muzeyinin Fondunda yerləşir.

**Minarəli saray məscidi**

Saray məscidi kompleksin aşağı həyətində yerləşib. Binanın şimal-şərq küncündə ucalan şaquli minarə onun iki azca iti günbəzlə yekunlaşan prizma şəkilli həcmlərinin lakonikliyinə kölgə salır. Məsciddə iki ibadətgah var, böyüyü kişilər, kiçiyi qadınlar üçün nəzərdə tutulub. Bundan əlavə daş dolama pilləkənlərin qalxdığı kiçik yardımçı otaqlar da var. Bu tikililərin hamısı düzbucaqlı plana daxildirlər, burada yalnız qadın ibadətgahı cüzi çıxıntı ilə fərqlənir.

Məscidə üç yol aparır. Şimal - əsas yol portalda xüsusi qabardılıb. Portalın hər iki tərəfindən yarımpərgar formasında oyuqlar var, bunlar ayaqqabı üçün nəzərdə tutulub. Çünki müsəlman qanununa görə, məscidə ayaqqabı ilə və dəstəmaz almadan keçmək olmaz. Dəstəmaz prosesi həyətin şimal hissəsində, aşağı həyətə portal keçidinin arxasındakı quyu və kiçik hovuz olan meydanda həyata keçirilirdi.



Şərqdən, qonşu həyət tərəfdən məscidə ikinci, daha sahə portalın açdığı yol var, qərbdəki keçid isə heç nə ilə seçilmir.

Məscidin mərkəzi zalının yuxarı künclərində uzun boğazları içəri, zala meyllənən dörd böyük gil bardaq hörülüb. Bu bir tərəfdən, gözəl rezonans verir, digər tərəfdən, bu, antiseysmik konstruktiv-inşaat üslubudur və binaya möhkəmlik verir - üt hissənin yüngülləşdirilməsi sayəsində ağırlıq mərkəzi azalır.

Məscidin mərkəzi zalının cənub divarının dirəyində sadə bəzədilmiş mehrab yerləşir, onun dərin olmayan taxçası şiş uclü yargünmbəzlə örtülüb. Məsciddə müxtəlif formalı və təyinatlı taxçalar var. Onlar canamazların, çıraqların, Quranların, təsbehlərin qoyulması üçün nəzərdə tutulub.

Pəncərələr daş hasara - şəbəkəyə alınıb. Bu, sadə arxitekturalı binaya xüsusi gözəllik verir.

Məscidin minarəsi 22 metrdir. Minarənin stalaktit qurşağındakı yazıda deyilir: «... böyük sultan I Xəlilullah bu minarəni ucaltmağı əmr etdi. Allah onun hakimiyyətini və idarəsi günlərini artırsın. Səkkiz yüz qırx beşinci il» (1441-1442).

Minarənin eyvanı (şərəfə) əvvəlcə daşdan idi, amma 1723-də Bakı rus qoşunlarının hücumuna məruz qalanda mərmi minarənin bir hissəsini dağıtdı. Sonralar, bizim dövrümüzdə eyvanı bərpa edərək, onu dəmirlə əvəzlədilər.

**Hamam**

Saray hamamı kompleksin ən aşağı meydançasındadır. O, 1939-cu ildə aşkar edildi. Arxeoloji qazıntılar nəticəsində 26 otaqdan ibarət böyük hamam üzə çıxdı, onun üzəri torpaqla örtülmüş və burada bağ salınmışdı. 1953-cü ildə hamam hissə-hissə təmizləndi və 1961-ci ildən mühafizə olunmağa başladı. Hamamın divar qalıqlarının əsasında demək olar ki, onun ərazisi günbəzlərlə örtülübmüş, günbəzlərdəki yarıqlardan içəri işıq düşürmüş. Qışda isti, yayda sərin olması üçün onu yerin altında tikiblər. Belə sistem Bakı və Abşeronun hamamları üçün səciyyəvidir.



Saray hamamının planı iki böyük kvadrat binadan ibarətdir, dörd pilon (naxışlı sütun) onları xırda hissələrə ayırır. Bir qrup otaqlar - «çöl» və ya «bayır» - geyinib-soyunmaq üçün nəzərdə tutulub, «içəri» hissə isə çimmək üçünmüş. Çimmək üçün olan hissəyə isti və soyuq su üçün hovuzlar qoşulurmuş. İsti su saxlanan hovuzda onun qızdırılması üçün içərisində od yandırılan xüsusi kamera yerləşirmiş. Hamamı qatılaşdırılmış, sarı daş formasında bərkimiş, şam kimi yanan ağ neftlə qalayırmışlar. Qızdırılma sistemi buxar kanalları vasitəsi ilə çimərlik hissəsinin döşəməsinin altı ilə gedirdi. Çimərlik bölməsindən gələn isti hava geyinib-soyunma otağını qızdırırdı.

Səyyah İ. Lerx 1733-cü ildə olarkən, hamam barədə yazırdı: "O, həm çöldən, həm də içəridən yaxşı bəzədilib". Ovdan-su anbarından gələn su divarın yanında hamamın qazanxanasına - «külxana»ya tökülürdü və sonra onlar üçün xüsusi kanallar qurulmuş keramik borulara bölüşdürülürdü. Ovdana torpağın altındakı qaya massivində çapılan pilləkənlərə aparan şiş uclu oyuqdan keçmək olardı, pilləkən 70-ci pillədə, böyük su anbarının yanında bitirdi. Bura su yeraltı kəhrizdən gəlirdi. Tikinti işləri zamanı qərb qala divarının yaxınlığında 10 metr dərinlikdə, dağlardan ovdana və Şirvanşahlar sarayına tərəf gələn qədim şəlalə aşkarlandı. Görünür, saray və hamam həmin su kəməri vasitəsilə təchiz olunurdu.

Otaqlar çox idi: geyinib-soyunma otağı, çimərlik, «xəlvəti» - təklikdə çimmək üçün guşə. Hamamın otaqlarında dairə formasında kiçik hovuzlar və ayaqqabı üçün oyuqlar vardı. Kənardakı, bərpa olunmuş günbəzli hissədə günümüzədək yaxşı qalmış kaşı haşiyələr var.

**Şərq portalı**

Tək dayanan Şərq darvazaları portalı saray tikililəri ansamblına aiddir, onu çox zaman «Murad qapıları» adlandırırlar. O, istehkamın divarlarında bütün kompleks tikililərindən sonra - XVI əsrdə Bakının türklər tərəfindən işğalı zamanı inşa edilib. Darvazalar sultan III Muradın şəninə adlandırılıb.

Öz icra tərzinə və bədii kompozisiyasına görə şərq portalı Divanxananın və məqbərənin üslubunu tamamlayır. Amma burada inşaat sənətinin enişinin əlamətləri sezilir, daş aşağı keyfiyyətlidir, Azərbaycan ornament sənətinin düzümü pozulub.



Portalın qurucusu memar, usta Əmir şah Vayankuhi - Təbriz ətrafındakı şəhərlərindən birinin sakinidir. Portalın yuxarı hissəsi ərəb dilində yazı ilə bəzədilib: «Bu ali binanı qurmağı əmr etdi, ədalətli və böyük sultanın - Muradın hakimiyyəti günlərində, Ulu Rəcəb baba Bakuvi, hicri 994-cü ildə (1585-86-cı illər)». Yazının hər iki tərəfində bitki ornamentli xonçalar əks olunub. Portalın aşağı hissəsində stalaktitin yarımgünbəz formasında əmələ gətirdiyi dərin oyuq var. Bura sarayın digər portallarından fərqli olaraq, geniş, darvazaya bənzər çatma qapı yeri var. Mümkündür ki, bu tikili günümüzədək gəlib çatmayan və ya tikilməyən binaya giriş imiş. Yazı mətni də buna işarə edir, orada darvazadan deyil, «imarət»dən danışılır.

Memar ansamblın vəhdətini qorumağa çalışıb, amma yenə də həmin hərbi əməliyyatlarla zəngin dövrün arxitekturasındakı tənəzzülün təsirindən qaça bilməyib.

**Seyid Yəhya Bakuvi sərdabəsi**

Saray kompleksinin cənub hissəsində yerləşən Seyid Yəhya Bakuvi məqbərəsi xalq arasında «dərviş məqbərəsi» kimi tanınır.

Tarixçilərin məlumatına görə, Bakuvi Şirvanşah Xəlilullahın saray alimi olub. Şamaxıda doğulub. Sufi, «xəlvəti» təriqətinə rəhbərlik edən Şeyx Sədrəddinin tərəfdarlarından olub. Şeyx Sədrəddinin ölümündən sonra Bakuvi Bakıya köçüb. Ayrı-ayrı tarixçilərin məlumatlarına görə, o, 868-ci (1464) vəfat edib və saray kompleksi ərazisində dəfn olunub. Günümüzədək Seyid Yəhya Bakuvi fəlsəfə, astronomiya və riyaziyyatın öyrənilməsi sahəsində dəyərli mənbələr olan 15 əsəri («Həqiqət axtaranların sirri», «İlhamın sirri», «İşarələrin simvolik mənaları», «Səmənilər şəcərəsinə izahlar», «Ruhların sirri» və s.) gəlib çıxıb, onlar sufi-mistik xarakter daşıyır və Türkiyənin İstanbul, Konya və Manisa şəhərlərində saxlanılır.



Sufizm - islamda mistik-asketik istiqamətdir, VIII əsrdən məlumdur. Sufilər Allahla fərdi vəhdətə və hətta daxili nurlanma yolu ilə ona birləşməyə, onda əriməyə can atırdılar, bu müəyyən asketik təmrinlərlə müşayiət olunurdu.

Məqbərə səkkizguşəli formaya malikdir və səkkizguşəli çadırla örtülüb. O, yerüstü və yeraltı hissələrdən ibarətdir. Məqbərənin üst hissəsi dini ayinlər üçün nəzərdə tutulurdu, aşağı hissədə qəbirüstü sərdabə yerləşirdi. Daxildən məqbərə bəzədilmişdi və ona rəngli suvaq çəkilmişdi.

Məqbərə yonulmuş və bir-birinə sıx hörülmüş enli və ensiz daşlar sırasından tikilib.

Məqbərənin kənarlarında - cənubda, şərqdə və qərbdə - üç kiçik daş hasarlı - şəbəkəli çatma pəncərələr var. Məqbərə Şirvan-Abşeron memarlıq məktəbinin həlqələrindən biridir.

Məqbərə Key Qubad məscidi adı ilə tanınan qədim məscidin yananda tikilib. Seyid Yəhya Bakuvi məhz bu məsciddə çalışıb, dua edib, dərs deyib. Bu məscid XIV əsrdə Şirvanşah Key Qubadın hakimiyyəti illərində tikilib və onun adı ilə adlandırılıb. Amma 1918-ci ildə məscid yanğın zamanı yanıb və hazırda yalnız onun bünövrəsi qalır. Yəqin ki, bu məscid daha qədim məscidin yerində tikilib.

## Qız qalası

Abşeronun qalalarından ən böyüyü və əzəmətlisi Bakıda, İçəri şəhərdə olan Qız Qalasıdır. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr, divarlarının qalınlığı dib tərəfdə 5 metr, yuxarı tərəfdə isə 4 metr olan Qız qalası silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən dayaq dəstəyinə oxşar iri bir tikilidən ibarətdir. Bu tikilidən nə məqsədlə istifadə olunduğu hələ bu günə qədər müəyyən edilməmişdir. Qala səkkiz mərtəbəyə bölünmüş, hər mərtəbənin ayrıca daş tağtavanı və ya günbəzi olmuşdur. Bu mərtəbələr divarın içində tikilmiş daş pilləkən vasitəsilə bir-birilə birləşir. Mərtəbələrdə divardan bayıra çıxarılmış saxsı boruları olan dərinliklər vardır. Ehtimal ki, bu borular çirkab atmaq üçün qoyulmuşdur. Qalanın daxilində olan quyu, görünür, oraya sığınanları və qalanın müdafiəçilərini su ilə təmin edirmiş. Pilləkən olan tərəfin fasadında qoyulmuş yarıq şəkilli pəncərələr mərtəbələri işıqlandırmağa xidmət edirmiş. Onlar, başqa yerlərdə olduğu kimi, içəriyə doğru genişlənərək mazğala-oxşar bir şəkil alırsa da, hər halda müdafiə məqsədi daşıdığı şübhəlidir. Ehtimal ki, qalanın müdafiəçiləri hücum edənlərə ancaq qalanın yuxarı meydançasından atəş açır və qalaya yaxınlaşan düşmənin başına ağır şeylər yağdırırmışlar. Bu məqsədlə qalanın yuxarı hissəsi maşikullalarla qurtarmalı idi. Təəssüf ki, onlar zamanəmizə qədər qalmamışdır. İndi qalanın üst meydançasının yanlarında enli hasar vardır. Akademik Qmelinin (XVIII əsr) çəkdiyi şəkildə qalanın yuxarı hissəsi qismən dağınıq halda göstərilir. Bu şəklə inanmamaq üçün əldə heç bir əsas yoxdur. Deməli, qalanın yuxarı hissəsi yenidən bərpa edilmişdir. Lakin onun nə zaman və kim tərəfindən bərpa edildiyi hələ bəlli deyildir. Qala divarlarının xarici görünüşü də diqqəti cəlb edir. Fasadın hörgüsü müəyyən hündürlüyədək Bakı tikintiləri üçün tamamilə xarakter şəkildə olub, demək olar ki, hamardır və daşları düz sıralarla düzülmüşdür. Qalanın yuxarı hissəsində isə bu sıralar növbə ilə gah irəli çıxır, gah da girinti əmələ gətirir. Belə bir sual ortaya çıxır: görəsən, hörgünün bu şəkildə olmasının səbəbi nədir? Memar buradan yalnız bir dekorativ üsul işlədərək, fasadı kölgələrlə bir qədər cazibədar etmək üçünmü bu böyük divar kütləsinin yeknəsəqliyini pozmağa çalışmış və ya başqa bir məqsəd güdmüşdür? Ola bilsin ki, burada da o zamanlar hər yerdə geniş tətbiq edilən kərpic hörgüsü üsulu təkrar olunmuşdur. Doğrudan da, üfüqi sıralar belə aydın bir şəkildə gözə çarpmasaydı divar çox yeknəsəq görünər və ümumi təəssürat xeyli zəif olardı. Fasadın qapı yerinin üstündə iri bir daş üzərində kufi xətlə yazılmış bir kitabə vardır. Burada “Davudun oğlu, Məsudun qalası” sözləri yazılmışdır. Bu kitabə qalanın XII əsrin birinci yarısında səlcuq soltanı Məsud tərəfindən tikdirildiyini düşünməyə imkan verir. Qız qalası haqqında xalq arasında müxtəlif əfsanələr vardır. Bunlardan ən çox yayılanı yerli hökmdarın, özünü qalanın yuxarı meydançasından suya atmış qızının faciəli ölümündən danışan əfsanədir.



## Qobustan

Abşeron yarımadasının qərbində və cənubi-qərbində, Bakının 60 km-də yerləşən, Böyük Qafqazın (qıraq) cənubi-şərq qollarının alçaq dağlıq və dağətəyi rayonudur. Qobustanın adı "Qobu" sözündən götürülmüşdür. Ona görə də Qobustan qobular və yarğanlar diyarı sayılır.

Ən böyük hündürlük burada 1047 m-dir. Palçıqlı, dərə-təpəli, palçıqlı-gilli relyefə malikdir. Cənubunda palçıqlı yanardağlar mövcuddur. Burada əsasən yarımsəhra landşaftları hökm sürür. Qış otlaqları da var. Qobustanın dağlarında Azərbaycan xalqının əcdadlarının maddi və mənəvi mədəniyyətini əks etdirən 6 mindən çox qədim rəsmlər tapılmışdır. Bundan başqa qədim yaşayış məntəqələri - 20 mağaralar və dayanacaqlar, 40 kurqan qazıntıları və 100 mindən çox maddi mədəniyyət əşyaları aşkar olunmuşdur. Ən qədim rəsmlər mezozoy erasına aid olduğu sayılır, ancaq burada bu eradan əvvəl də yaşayışın olması istisna edilmir. Elə buna görə də Qobustan mədəniyyətin beşiklərindən biri sayılır.



Qobustan tarixi abidələrinin öyrənilməsi 1939-1940-cı illərdən başlayaraq, bu günə qədər də davam edir. Qobustanın abidələr məcmusu nadir rəsmlər kolleksiyası kimi, arxeoloji materiallar və ibtidai insanların yaşayış tərzini əks etdirən bir material kimi dünya miqyasına malikdir. Azərbaycan xalqının teatr incəsənəti və incəsənətin başqa növləri öz başlanğıcını məhz Qobustan abidələr kolleksiyasından götürür. Qalaüstü cizgilərə Qobustandan şimala tərəf Xəzərin sahili boyunca Bakıya və Abşeron yarımadasının uzaqlarına qədər təsadüf olunur. Belə sayılır ki, rəsmlərin bir hissəsi Qobustanda tropik klimat olanda həkk olunmuşdur, flora və fauna ilə zəngin olan düzənlik olmuşdur. Suyun və qidanın bol olması diri təbiətin müxtəlifliyinə səbəb olmuşdur. Qayalar üzərində qazıma üsulu ilə insanlar, müxtəlif heyvanlar təsvir olunmuşdur. Balıqların qaya üzərində həkk olunması bizim eradan əvvəl X-IX əsrlərə aid hesab olunur. Balıq obrazı dini məbədlərə aid olunur. Belə ki, balıq obrazları Abşeronda evlərin fasadında həkk olunarmış və bu da köhnə ənənə sayılarmış. Əgər yuxuda balıq görsən, deməli bu varlanmaq rəmzidir. Ümumiyyətlə balığa pərəstiş Abşeronda çox qədimdən olub.

Qobustanın qayaüstü təsvirləri müxtəlif dövrlərə aiddir və bizim eradan əvvəl X-VIII əsrlərə aid hesab edilir. Böyük bir tarixi vaxtı əhatə etdiyinə görə Qobustan qayaüstü təsvirləri başqa qayaüstü



kolleksiyalardan daha üstündür. Qobustan üçün kişi və qadın rəsmləri əsasən öz yerini tutur. İnsanlar bəzən öz təbii böyüklüyündə çəkilmişdir. Kişilər ovçu geyimində, silahlı, böyük boylu, inkişaf etmiş əzələli təsvir olunmuşdur. Bəzi qadınların bədəni döydürülmüş şəkillərlə bəzədilmişdir. Bu cür təsvirlər tropik ölkələrə və Okeaniyaya xas olan əlamətdir. İnsanların kölgə təsvirlərinin əvəzinə öküzlərin öz təbii böyüklüyündə kontur tətili təsvirləri yaradılır. Bunların bəzilərinin uzunluğu 240 sm, hündürlüyü 140 sm olur. İri və nisbətən xırda vəhşi

öküzlərin kontur təsvirləri və silahlı kişilərin təsvirləri bizim eradan əvvəl VII-IV əsrlərə aid olunur. O dövrlərdə ovçuluq insanların həyatında mühüm yer tuturdu. Ceyranların, maralların, vəhşi keçilərin, atların, qabanların, şirlərin çoxsaylı rəsmləri bizim eradan əvvəl, VI-III əsrlərə aiddir. Qədim rəsmlərdən başqa Qobustanda, Böyük-daş dağının ətəyində latınca yazılmış sözlər aşkar edilmişdir. Bu yazı bizim eradan əvvəl I əsrə (84-96-cı illər) aiddir və Bakının yaxınlığında Roma qoşunlarının olmasından bəhs edir: Qaya üzərində latın dilində yazılmış bu kitabədən məlum olur ki, imperator Domisianın dövründə bizim eradan əvvəl 81-96-cı illərdə 12-ci Roma legionu Azərbaycanda olmuşdur. Bu yazı Azərbaycan tarixinin az öyrənilmiş dövrünü müəyyən qədər işıqlandırır. IV əsrin ikinci yarısının latın avtoru Yevtropi yazır ki, Domisian Azərbaycana dörd dəfə hərbi əməliyyat yürüşü təşkil etmişdir. Bu yürüşlərindən birində həmin legion öz sərkərdəsilə birlikdə məhv edilmişdir. Belə qənaətə gəlmək olar ki, bu latın yazısı Abşeronun yerli əhalisinin məhv etdiyi 12-ci legionundan bəhs edir. I əsrdə Roma qoşunlarının Abşeronda olmasını Abşeron kəndinin birinin Ramana adlanması da təsdiq edir. VIII əsrdə Bar Ebrey tərəfindən də Kiçik Asiyada Ramana şəhərinin mövcud olmasından danışılır. Bütün bunları nəzərə alaraq demək olar ki, Bakı yaxınlığında olan Qobustanda vaxtilə istilaçı Roma qoşunları yerləşdirilibmiş. Bundan başqa Qobustanda XII-XIV əsrlərə aid olan ərəb əlifbası ilə həkk olunmuş yazılara da təsadüf olunur. Azərbaycanın qədim mədəniyyətini təbliğ etmək məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 9 sentyabr 1966-cı il 503 saylı qərarına əsasən Qobustan qoruğu təşkil edilmişdir. Ərazisi 4400 hektardır. Qoruq Mədəniyyət və Turizm Nazirliyinin nəzdindədir. Qobustan qoruğu dünyada tarixi-bədii bir qoruq kimi məşhurdur. Bu qoruğun əsas fəaliyyətlərindən biri də qayaüstü yazıların, rəsmlərin, kurqanların, yaşayış məntəqələrinin qorunmasını, öyrənilməsini, təbliğ olunmasını təşkil etməkdir. Çünki bütün bu abidələr Mezolit, Neolit və daha sonrakı dövrlərə aid olmaqla bərabər Azərbaycan xalqının əcdadlarından, tarixindən, mədəniyyət və incəsənətindən xəbər verirlər. Qobustan qoruğuna hər il minlərlə yerli və xarici qonaqlar baş çəkirlər. Qobustan qoruğuna bizim ölkənin və xarici ölkələrin elm və mədəniyyət xadimlərinin marağı ildən-ilə artır.

## Neft Daşları

Neft Daşları şəhər tipli qəsəbədir və Bakının Pirallahı rayonunun ərazisinə daxildir. Xəzər dənizi səthindən azca görünən "Qara qayaların" ətrafında tikilmişdir. Abşeron yarımadasının 42 km-də cənubi-şərqdə yerləşən bu qəsəbə dənizin dibinə bərkidilmiş metal dirəklərin üstündəki estakadada dəniz səthindən bir neçə metr hündürlükdə tikilmişdir. 1949-cu il noyabrın 7-də Azərbaycan neftçiləri dünyada ilk dəfə olaraq, dənizin dibindən sənaye məqsədilə karbohidrogenləri əldə etməklə öz tarixində yeni səhifə açdılar. Həmin gün Neft Daşları yatağının 942 m dərinliyindən Xəzər nefti fəvvarə vurdu. Qeyd etmək lazımdır ki, hələ XIX-cu əsrin əvvəllərində (1798-1830-cu illər) Xəzərdən (Bibi-Heybət) ilk neft alınmışdır. Ancaq sənaye istehsalı yalnız 1925-ci ildə başlamışdır. Belə ki, Bakı buxtasında dənizin bir neçə metr dərinliyində və ağac dirəklərin üstündə yerləşən cəmi bir quyu qazılmışdı. Sonralar Abşeron yarımadasının sahil zonasında neft və qaz ehtiyatları olan Pirallahı-Dəniz, Gürzən-dəniz, Banka-dargin yataqları işlənməyə başlamışdır. Düzdür, bu yataqları yalnız şərti olaraq, dəniz yataqları adlandırmaq olar, çünki öz başlanğıcını bunlar qurudan götürürlər. Neft Daşlarının (Bakının 110 km-də) isə quru ilə heç bir əlaqəsi yoxdur. Neft Daşlarının yerində olan daşlı, qayalı sahəni ram etmək cəhdi ilk dəfə 1948-ci il noyabrın 14-də hava şəraiti pis olan bir gündə olmuşdur. Bortunda görkəmli Azərbaycan geoloqu Ə. Əliyev və buruq üzrə mütəxəssis, 1947-ci ildə yaranmış "Azneftkəşfiyyat" - təşkilatının rəhbəri S. Orucov olan kiçik bir gəmi ("Pobeda") adacıqlara yaxınlaşdı və mütəxəssislər kiçik bir adaya düşdülər. Onlar burada ilk burğu qurğusunu və burğuçular briqadası üçün cəmi 14 kv. m olan evcik tikdilər. Sosialist Əməyi Qəhrəmanı Mixail Kaveroçkin 1949-cu il noyabrın 7-də neft verən ilk quyunu həmin bu sahədə qazımışdır. Qeyd etmək lazımdır ki, Neft Daşlarını fəth edənlərin bir çoxu 1951-ci ildə birinci dərəcəli SSRİ Dövlət mükafatına layiq görüldülər. 1951-ci il fevralın 18-də Neft Daşlarının nefti ilə doldurulmuş ilk tanker boşaldılmaq üçün Dübəndi limanına yan verdi. Bir neçə aydan sonra isə dənizin 20-25 metr dərinliyində estakadalar və burğu, texnoloji sahələr tikilməyə başlandı. Elektrostansiyaların, nasos-kompressor kompleksinin, köməkçi sexlərin, neftçilər üçün yaşayış 5-9 mərtəbəli evlərin ümumi sahəsi 1960-cı ilin əvvəllərində 70 min kv metr idi. Beləliklə, Neft Daşları dəniz möcüzə - şəhərinə çevrildi. 60-cı illərin axırında özünəməxsus "küçə" vəzifəsini yerinə yetirən estakadaların ümumi uzunluğu 200 km-dən çox idi. Neft Daşları ilə Bakını radiotelefon rabitəsi birləşdirir. İnsanları, qida məhsullarını və başqa əşyaların daşınmasında Mİ-8 vertolyotundan istifadə olunur. 2000-dən çox əhalisi olan Neft Daşları Azərbaycanın ən şərq yaşayış məntəqəsidir. 1949-cu ildən burada 1940 quyu qazılmışdır, 160 mln ton neft, 12.3 mlrd kub. metr qaz əldə edilmişdir. Hər gün Neft Daşlarında 5-6 yeni quyu qazılır və bunların hərəsinin ilk dövrdə sutkada 15-16 ton neft verməyə imkanı var. Bu göstərici "Çıraq-1" stasionar platforması ilə müqayisədə (sutkada 2 min ton) əlbəttə çox deyil. Ancaq yaddan



çıxarmaq lazım deyil ki, Azərbaycanda neft sənayesinin inkişafına məhz Neft Daşları təkan verdi. Bunun nəticəsində bu gün Azərbaycanda 1994-2003-cü illərdə bağlanmış 23 iri neft sazişlərinin həyata keçirilməsi uğrunda dünyanın 14 ölkəsi, 33 xarici neft kompaniyaları işləyir. Qeyd etmək lazımdır ki, Azəri, Çıraq, neft ehtiyatı 640 mln ton, qaz 100 mlrd. m kub, qaz kondensatı 100-150 mln ton olan Günəşli, təbii qaz ehtiyatı 100 mln ton olan karbohidrogen struktur bloku D-222 sazişlərində “Lukoyl” da iştirak edir. Azərbaycanın “ARDNŞ” və Rusiyanın “Lukoyl” arasında əlaqələrin daha da genişlənməsi üçün 1999-cu ildə Bakıda memorandum imzalanmışdır. Ancaq bunların hamısı Neft Daşlarından başlamışdır. Ola bilsin, bir neçə vaxtdan sonra bu estakadalar, neft yataqları, neft buruqları artıq olmasın. Ancaq neft Bakısının bir rəmzi kimi, insanların ağlı və şücaəti kimi Xəzərin əfsanəvi Neft Daşları insanların yaddaşında əbədi qalacaqdır.

## Atəşgah

Bakı yaxınlığındakı ən maraqlı və özünəməxsus tarixi memarlıq abidələrindən biri də atəşpərəst hindlilərın «Atəşgah» adlanan köhnə məbədidir. O, dənizdən azacıq aralı, Abşeron yarımadasındakı Suraxanı kəndinin cənub-şərq qurtaracağında yerləşir. Hücrələr və ibadətgah XVII-XIX əsrlər ərzində müxtəlif vaxtlarda tikilmişdir. Hücrələr XVIII əsrin sonlarında ümumi hasara alınmışdır. «Atəşgah» Bakıda yaşayan, üzvlərinin əksəriyyəti Şimali Hindistandan çıxmış və sikhlər kastasına mənsub olan hind icması tərəfindən inşa edilmişdir.



Karvansaranı xatırladan bütün tikili planda qapalı beşguşə formasında olub, vaxtilə zəvvarlara xidmət üçün istifadə edilən 24 hücrədən və bir otaqdan ibarətdir. Qapalı beşguşəli divarların əmələ gətirdiyi həyətin ortasında rotonda şəklində ibadətgah var. Onun ortasındakı quyudan məbədin günbəzinin dörd küncü üzərimdə də yanan qaz (metan) çıxardı. Məbəd özü hər tərəfdən açıq olan dördbucaqlı tikilidən ibarətdir. Məbədin şimal divarındakı tağın üstündə hind dilində kitabə quraşdırılmışdır. Binanın dörd küncündə yanar qazın daxil olduğu dörd kvadrat kərpic boru var. Hücrələr pəncərəsizdir. Hücrələrin girişi üzərində hind dilində kitabələr həkk olunmuşdur. İyirmi belə kitabədən biri farscadır. Məbədin şimal-şərq tərəfdən yaxınlığında, hal-hazırda tamamilə daşla doldurulmuş dördkünc çala var. Vaxtilə burada ölmüş hindlilərin cəsədləri «müqəddəs od»da yandırılırdı. Cənub-şərq tərəfdə isə yenə də daşla doldurulmuş su quyusu var. Suraxanı «Atəşgah»ı məbədin özündən, hind guşənişinlərinin hücrələrindən və zəvvarlar üçün otaqlardan ibarət idi. Atəşgahı bu abidəni sifariş vermiş hindlilərin planı üzrə yerli ustalar tikmişlər. Ehtimal ki, Suraxanıda müqəddəs oda sitayişə gələn atəşpərəst zərdüştilərin ibadətgahı olmuşdur.

Suraxanıda oda sitayiş XV əsrdən sonra Hindistanla iqtisadi və mədəni əlaqələrin inkişafı ilə əlaqədar yenidən başlamışdır.

Atəşgahdakı kitabələrin oxunması Suraxanı atəşpərəstlərinin hind mənşəli olmasını, eləcə də, hücrələrdən, karvansaradan və ibadətgahdan ibarət olan Atəşgahın ən yüksək tərəqqiyə çatdığı XVIII əsr ərzində müxtəlif vaxtlarda tikildiyini dəqiq müəyyənləşdirir. Hücrələr XVIII əsrin sonlarında ümumi hasara alınmışdır. Məbəd bu günədək həmin şəkildə qalmışdır.

## Muzeylər, kitabxanalar və teatrlar

**Muzeylər**

Azərbaycan Tarixi Muzeyi

Məmməd Səid Ordubadinin Xatirə Muzeyi

Nizami adına Dövlət Azərbaycan Ədəbiyyatı Muzeyi

Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi

Səməd Vurğunun ev-muzeyi

R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi

Nəriman Nərimanovun Xatirə Muzeyi

Cəlil Məmmədquluzadənin ev-muzeyi

Hüseyn Cavidin ev-muzeyi

Cəfər Cabbarlının ev-muzeyi

**Kitabxanalar**

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası

M. F. Axundov adına Milli Kitabxana

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası

Respublika Elmi-Texniki Kitabxanası

Azərbaycan Dövlət Respublika Elmi-Tibbi Kitabxanası

Respublika Elmi-Pedaqoji Kitabxanası

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Elmi Kitabxanası

F. Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanası

C. Cabbarlı adına Respublika Gənclər Kitabxanası

Tibb Universitetinin Əsaslı Kitabxanası

**Teatrlar**

Azərbaycan Opera və Balet Teatrı

Azərbaycan Dram Teatrı

Rus Dram Teatrı

Azərbaycan Kukla Teatrı

Azərbaycan Gənc Tamaşaçılar Teatrı

Azərbaycan Dövlət Musiqili Komediya Teatrı

Bakı Dövlət Sirki

# Azərbaycanın digər rayon və şəhərləri

## Abşeron rayonu

**Yaranma tarixi - 04.01.1963**
**Ərazisi – 1,97 min kv. km**
**Əhalinin sayı – 432,8 min nəfər (1 yanvar 2024-cü il)**
**Əhalinin sıxlığı – 1 kv. km 205 nəfər (1 yanvar 2024-cü il)**
**Şəhərlərin sayı – 1**
**Kəndlərin sayı - 8**
**Qəsəbələrin sayı – 8**
**Abşeron rayonu ilə Bakı arasında olan məsafə - 5 km**




**Əhalinin sayı**

**(1 yanvar 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Abşeron rayonu** | 189794 | 100,0 | 95235 | 51,2 | 94559 | 49,8 |
| şəhər əhalisi | 157410 | 82,94 | 78803 | 82,75 | 78607 | 83,13 |
| kənd əhalisi | 32384 | 17,06 | 16432 | 17,25 | 15952 | 16,87 |

**Ümumi məlumat**

Abşeron rayonu yarımadanın qərbində yerləşir. Mərkəzi Xırdalan şəhəridir. Xırdalan qəsəbəsi 30-40-cı illərdə Binəqədi, 50-ci illərin birinci yarısında Maştağa, 50-60-cı illərdə yenidən Binəqədi rayonunun tabeliyinə verilmiş, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 4 yanvar 1963-cü il tarixli fərmanı əsasında yaradılmış Abşeron rayonunun mərkəzi kimi fəaliyyət göstərmişdir.

Xırdalan 1936-cı ildə şəhər tipli qəsəbə olmuş və Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2 oktyabr 2006-cı il tarixli Qanun əsasında Xırdalana şəhər statusu verilmişdir.

Rayona Xırdalan şəhəri, Qobu, Digah, Güzdək, Aşağı Güzdək, Saray, Hökməli, Ceyranbatan, Mehdiabad qəsəbələri və Masazır, Məmmədli, Novxanı, Goradil, Fatmayı, Pirəkəşkül, Qobustan kəndləri daxildir.

Abşeron rayonu Böyük Qafqazın cənub-şərq hissəsindədir. Relyefində quru dərələr, yarğanlar, təpələr və çökəkliklər əsas yer tutur. Ərazinin Xəzərsahili hissəsi okean səviyyəsindən 28 *m*-dək aşağıdır. Rayonun ərazisində, əsasən, Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Çoxlu palçıq vulkanları var. Ən məşhuru "Yanar-dağ" rayonun Məmmədli kəndi yaxınlığındadır. İqlimi düzən sahələrdə mülayim isti və quru subtropik, dağlıq ərazilərdə isə mülayimdir. Şimal külələri (xəzri) hava şəraitini kəskin dəyişdirir. Orta temperatur yanvarda dağlarda -4,5°C-dən düzənlikdə 2,5°C-dək, iyulda isə müvafiq olaraq 19°C-dən 26°C-dəkdir. İllik yağıntı 110-550 *mm*-dir. Çay şəbəkəsi seyrəkdir (Sumqayıt, Ceyrankeçməz və s.). Abşeron yarımadasının ən iri su hövzəsi - Ceyranbatan su anbarı bu rayonun ərazisindədir. Şor göllər mövcuddur. Ən irisi Masazır gölüdür. Boz-qonur, şorakətvarı boz-qonur, şabalıdı, dağ-şabalıdı və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra və quru çöl tiplidir. Heyvanları: yenot, çölsiçanı və s. Sürünənlər çoxdur. Quşları: kəklik, göyərçin, qaraqarın bağrı-qara və s.

Abşeron, əsasən, kənd təsərrüfatı rayonudur. Heyvandarlıq (xüsusilə maldarlıq, qoyunçuluq, quşçuluq), bağçılıq (əsasən, zeytun) və tərəvəzçilik sahələri inkişaf etdirilmişdir. Respublikada yeganə Dəvəçilik Dövlət Təsərrüfatı (Qobu Damazlıq Təsərrüfatı) Abşeron rayonundadır. Müxtəlif sənaye müəssisələri ("Azbentonit", "Mətanət-A" şirkəti və s.) var.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda kütləvi informasiya vasitəsi kimi «Abşeron» qəzeti fəaliyyət göstərir. «Abşeron» qəzeti 1962-ci ilin may ayından Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin rayonlararası qəzeti kimi Abşeron və Dəvəçi (indiki Xızı və Siyəzən rayonlarının əraziləri də daxil olmaqla) rayonlarının ərazilərinin sosial-siyasi və iqtisadi həyatını işıqlandırmaq məqsədilə təsis olunmuşdur. 1964-cü ilin mayından «Abşeron» qəzeti Azərbaycan KP Abşeron Rayon Komitəsinin və rayon XDS-nin orqanı kimi fəaliyyətini yalnız Abşeron rayonunun ictimai-siyasi həyatının işıqlandırılması ilə 1991-ci ilin sonlarınadək davam etdirmişdir. 1992-1994 - cü illərdə «Abşeron» qəzeti Abşeron rayon XDS-nin orqanı kimi fəaliyyət göstərmiş, 1994-cü ildən həmin qəzetin nəşri müvəqqəti dayandırılmışdır.

1997-ci ilin avqustunda «Abşeron» qəzetinin nəşri bərpa olunmuş və o, 1998-ci ilin yanvarından Abşeron Rayon İcra Hakimiyyətinin qəzeti kimi müntəzəm olaraq çıxır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Bakı-Quba magistral avtomobil yolunun 11-26-cı kilometri (15 km) rayonun Xırdalan, Saray və Ceyranbatan qəsəbələrindən, Bakı-Şamaxı magistral avtomobil yolunun 12-35-ci kilometri (23 km) rayon ərazisindən, yəni Hökməli, Aşağı Güzdək və Pirəkeşkül yaşayış məntəqələrindən keçir.

Bakı-Moskva dəmir yolunun 8 kilometri rayonun Xırdalan və Aşağı Güzdək qəsəbələrinin ərazisindən keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Güzdək qəsəbəsi ərazisində XIX əsrə aid dörd ədəd «Dəvəlik» adlanan təsərrüfat tikilisi mövcuddur. Teymur Həmidova, Məlik və Məmməd Rzayevlərə məxsus həmin tikililər təsərrüfat məqsədilə istifadə olunmasa da qorunub saxlanılır.

XIX əsrdə Görədildə həmin kəndin sakini Hacı Qurbanın tikdirdiyi Əbdürrəhman məscidi, Digahlı Mir Qohum ağanın tikdirdiyi məscid, XVIII əsrdə Xırdalan kənd icması tərəfindən tikilmiş məscid, Məmmədlidə XVIII əsrdə Qaradağlılar nəsli tərəfindən inşa edilmiş məscid, XIX əsrdə Məmmədli kəndində Şahsevənlər tərəfindən tikilmiş məscid, Novxanıda XIX əsrdə Hacı Səfəralının ibadət və dini tədris məqsədilə tikilmiş məscid-mədrəsə, həmin kənddə XVII əsrdə Şahsultan Hüseyn adlı şəxs tərəfindən tikilmiş məscid, Fatmayıda XIX əsrdə tikilərək kənd ağsaqqalı Əlbattinin adı verilmiş məscid, XVII əsrdə tikilmiş Hacı Heybət məscidi, XVIII əsrdə tikilmiş Salam məscidi, Saray kəndindəki XIX əsrə aid Hacı Bədəl məscidi mövcuddur ki, bunların da əksəriyyəti son onillikdə bərpa olunaraq dini mərasimlərin keçirilməsinə xidmət edir.

Rayon ərazisində orta əsrlər üçün mədəni həyat tərzinin göstəricisi olan ictimai hamamların bir neçəsi qorunub saxlanılmışdır. O cümlədən, XIX əsrdə Qobuda Hacı Kazım tərəfindən, Xırdalanda Məşədi İmam Baxış tərəfindən inşa edilmiş hamamların tikililəri qalmaqdadır.

Qədim Abşeron kəndlərində su ilə təminatda çox mühüm rol oynamış ovdanlar Güzdək və Xırdalan yaşayış məntəqələrinin ərazisində indiyədək qalmaqdadır.

Rayonun ərazisində digər tarixi abidələr, o cümlədən, Fatmayıda, Digahda, Masazırda, Hökməlidə və Sarayda XIII-XVIII əsrlərə aid türbələrin və s. qalıqları mövcuddur.

Xırdalan şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucalmışdır.

## Ağcabədi rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi -1,76 min kv. km**

**Əhalinin sayı - 136,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 77 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 44**

**Qəsəbələrin sayı – 1**

**Ağcabədi rayonu ilə Bakı arasında olan məsafə - 263 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Ağcabədi rayonu** | 121707 | 100,0 | 61684 | 51,3 | 60023 | 49,7 |
| şəhər əhalisi | 46624 | 38,31 | 23240 | 37,68 | 23384 | 38,96 |
| kənd əhalisi | 75083 | 61,69 | 38444 | 62,32 | 36639 | 61,04 |

### Ümumi məlumat

Ağcabədi rayonu 1930-cu ildə təşkil olunub, 1963-cü ildə ləğv olunub, Ağdam rayonunun tabeliyinə verilmiş, 1965-ci ildə isə yenidən müstəqil rayon olmuşdur. Ağcabədi rayonu Kür-Araz ovalığının Mil və Qarabağ düzlərindədir. Mərkəzi Ağcabədi şəhəridir.

Rayona Ağcabədi şəhəri, Hindarx qəsəbəsi və Sarvanlar, Kürdlər, Minəxorlu, Qaravəlli, Gələbədin, Avşar, Muğanlı, Şahsevən, Köyük, Təzəkənd, Xocavənd, Salmanbəyli, Aşağı Avşar, Hindarx, İmamqulu-bəyli, Mirzəhaqverdili, Sarıcalı, Taynaq, Poladlı, Böyük Kəhrizli, Bala Kəhrizli, Şərəfxanlı, Şotlanlı, Şənlik, Hüsülü, Rəncbərlər, Boyat, Hacılar, Qaraxanlı, Hacıbədəlli, Pərioğullar, Ağabəyli, Qaradolaq, Mehrablı, Kəbirli, Aran, Yeni Qaradolaq, Nəcəf-qulubəyli, Qiyaməddinli, Şahsevən-Təzəkənd, Arazbarı, Şahmalılar, Biləyən, Cəfərbəyli, Yuxarı Qiyaməddinli kəndləri daxildir.

Rayonun relyefi düzənlikdir, şimal-şərqdən cənub-qərbə doğru tədricən yüksəlir. Ərazisinin səthi Antropogen sisteminin kontinental-allüvial və dəniz çöküntülərindən təşkil olunmuşdur. Gil yatağı vardır. İqlimi mülayim isti, quru subtropikdir.

Orta temperatur yanvarda 1,2-1,7°C, iyulda isə 25-26°C-dir. İllik yağıntı 300-500 *mm-dir*. Çay şəbəkəsi seyrəkdir. Şimal-şərq sərhədi ilə Kür çayı, mərkəzi hissədən Qarqar çayı axır. Rayonun ərazisindən Yuxarı Qarabağ kanalı keçir. Ərazisində şor sulu göl var. Boz-çəmən, boz, çəmən-boz

torpaqları yayılmışdır. Mərkəzi hissədə şor və şorakət torpaq sahələrinə təsadüf olunur. Bitkiləri çöl və yarımsəhra tiplidir. Kür çayı sahilində kolluqlar və seyrəlmiş Tuqay meşələri vardır. Heyvanları: ceyran, canavar, çöldonuzu, çaqqal, tülkü, bataqlıq qunduzu, porsuq, boz dovşan, Kiçik Asiya qum siçanı və s. Quşları: turac, göyərçin, qaraqarın bağrıqara, qır-qovul və s. Ağgöl Milli Parkı Ağcabədi rayonu ərazisindədir. Burada 15 növ heyvan, 20 növ balıq və 40 növ bitki qeydə alınmışdır.

Ağcabədi, əsasən, kənd təsərrüfatı rayonudur. Meyvəçilik, pambıqçılıq, taxılçılıq, ipəkçilik, heyvandarlıq və s. inkişaf etmişdir. Rayonda "Pambıq" ATSC, avtomobil təmiri zavodu və s. müəssisələr var.

Ağcabədi Azərbaycan Respublikasında 1939-1962-ci illərdə şəhər tipli olmuşdur. Ağcabədi rayonunun mərkəzi, aeroport, Ağdam dəmir yolu stansiyasından 45 km, Bakıdan 374 km aralı, Qarqar çayının hər iki sahilində Mil və Qarabağ düzlərindədir.

Adının mənası iri məskən (ağca-iri, badi-məskən, qəsəbə) olan Ağcabədi rayonu Azərbaycan Respublikasının qədim yaşayış məskənlərindən biridir. Bu qədimliyi sübut edən maddi əlamətlərdən olan eneolit, tunc, antik dövrünə və orta əsrlərə aid yaşayış yerlərinin qalıqları - Kamiltəpə, Nərgiztəpə, Qaraköbər, Yantəpə, Qalatəpə və Gavur arxı diqqəti cəlb edir. Tarixçilər bu təpələri Misir ehramları ilə müqayisə edərək qeyd edirlər ki, hətta Gavur arxının Makedoniyalı İsgəndər tərəfindən təmir olunması güman olunduğu halda, XVI əsrdə Teymurləng tərəfindən tam təmir olunması tarixi faktdır.

Rayonda orta əsrlərə aid daşdan yonulmuş formalı başdaşılarına qəbiristanlıqlarda rast gəlmək olur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda 1932-ci ildən «Aran» qəzeti nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Mingəçevir-Biləsuvar avtomobil yolu, 55-102 km, III kateqoriya, ümumi uzunluğu 48 km;

Ağdam-Hindarx-Ağcabədi avtomobil yolu 25-48 km, III kateqoriya, ümumi uzunluğu 24 km;

Tərtər-Hindarx avtomobil yolu 38-41 km, III kateqoriya, ümumi uzunluğu 4 km;

Ucar-Zərdab-Ağcabədi avtomobil yolu 54-73 km, III kateqoriya, ümumi uzunluğu 20 km;

Yevlax-Ağcabədi avtomobil yolu 44-71 km, IV kateqoriya, ümumi uzunluğu 27.5 km;

Ağcabədi Təyyarə limanına gedən yol, III kateqoriya, ümumi uzunluğu 1 km.

Cəmi 124.5 km.

Rayon ərazisindəki İmişli (Vərəqə)-Ağcabədi dəmir yolunun uzunluğu 62 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Ağcabədi rayonunun ərazisində tarixi, memarlıq və incəsənət abidələri mövcuddur. Belə ki, rayonda eneolit, tunc, antik dövr və orta əsrlərə aid yaşayış yerlərinin qalıqları mövcuddur.

Eneolit dövrünün qalıqları: qəbiristanlıq təpə kurqanı və yaşayış yeri, Kiçik yaşayış yeri (Boyad kəndi), Yastıtəpə yaşayış yeri (Hindarx kəndi), Əhənglitəpə, Keşaltıtəpə, Cəfərqulutəpə, Hüsülütəpə (Hacılar kəndi), Kamiltəpə yaşayış yeri, Şaxtəpə yaşayış yeri (Yeni Qaradolaq kəndi), Sutəpə yaşayış yeri, Canavartəpə (Taynaq kəndi), I və II Mirvaritəpə, Qətiltəpə, Əbiltəpə I və Əbiltəpə II, Məhəmmədtəpə (İmamqulubəyli kəndi), Ağtəpə (Taynaq kəndi).

Tunc dövrünün qalıqları: Kültəpə, Sarıbaştəpə, Üçtəpə, Şaxtəpə (Ağcabədi şəhəri), Qışaltıtəpə, Qəbiristanlıq təpə, Qalatəpə (Boyad kəndi), Yolaşantəpə (Gələbədin kəndi), Qazantəpə kurqanı, Görüştəpə kurqanı, Qəbiristanlıq təpə kurqanı, Qasımtəpə kurqanı, Quştəpə kurqanı, Adsız kurqanlar, Hüseynbəy kurqanı (Hindarx kəndi), Sümüklü təpə (Cəfərbəyli kəndi), Yantəpə yaşayış yeri, Sutəpə yaşayış yeri (Taynaq kəndi), Böyüktəpə yaşayış yeri (Bilağan kəndi), Gültəpə (Qaraxanlı kəndi).

Antik dövrün qalıqları: yaşayış yeri (e. ə. V-II minilliklər, Təzəkənd kəndi), yaşayış yeri (e. ə. I minillik, Arazbar kəndi), yaşayış yeri (e. ə. I minillik, Qiyaməddinli kəndi), yaşayış yeri (Hüsülü kəndi), Səngərtəpə yaşayış yeri (Sarıcalı kəndi), Törətəpə yaşayış yeri (Şənlik kəndi).

Orta əsrlərin qalıqları: böyük qəbiristanlıq (Hacılar kəndi).

Yerli əhəmiyyətli arxeoloji abidələr: Solaxaytəpə kurqanı (XVIII əsrin 40-cı illəri, Boyad kəndi), Xımılı təpələri yaşayış yeri (İmanqulubəyli kəndi).

Memarlıq abidələri: yerli əhəmiyyətli Məscid (XX əsr, Ağcabədi şəhəri), Böyük Vətən Müharibəsində həlak olmuş ağcabədililərin Xatirə abidəsi (XX əsr, Ağcabədi şəhəri).

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Ermənistanın təcavüzü nəticəsində Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində yüzlərlə ev, 1 məktəb binası, 1 kənd mədəniyyət evi, 1 kitabxana yandırılaraq məhv edilmişdir.

## Ağdam rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,15 min kv. km**

**Əhalinin sayı - 179,8 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 165 nəfər (1 yanvar 2024-cü il)**

**Yaşayış məntəqələrinin sayı - 138**

**Şəhər - 1**

**Kəndlərin sayı - 119**

**Qəsəbələrin sayı – 14**

**Ağdam Bakı arasında olan məsafə - 362 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-ci il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Ağdam rayonu** | 175577 | 100,0 | 85689 | 47,5 | 89888 | 52,5 |
| şəhər əhalisi | 39707 | 22,62 | 19127 | 22,32 | 20580 | 22,90 |
| kənd əhalisi | 135870 | 77,38 | 66562 | 77,68 | 69308 | 77,10 |

### Ümumi məlumat

Qarabağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının cənub-qərbindədir. Mərkəzi Ağdam şəhəridir.

Rayona Ağdam şəhəri və Şotlanlı, Şurabad, Umudlu, Qasımlı, Qurdlar, Şelli, Poladlı, Şıxbabalı, Muğanlı, Papravənd, Qarapirimli, Sarıcalı, Qullar, Qaradağlı, Gülablı, Abdal, Novruzlu, Kəngərli, Şirvanlı, Qaraqaşlı, Yusifcanlı, Göytəpə, Cəvahirli, Kosalılar, Abdınlı, Qaraşlar, Bəşirlər, Sarıcalı, Dadaşlı, Həsənxanlı, Kökəltmə Birliyi, Qazançı, Açarlı, Qarazeynallı, Ballıqaya, Quzanlı, İmamqulubəyli, Çullu, Eyvazlı, Üçoğlan, Alıbəyli, Kiçikli, Ballar, Baharlı, Ortaqışlaq, Böyükbəyli, Qarabağlı, Rzalar, Evoğlu, Zəngişalı, Mahrızlı, Əfətli, Hacıməmmədli, İsalar, Küdürlü, Hacıturalı, Qəhrəmanbəyli, Məmmədbağırlı, Çəmənli, Şükürağalı, Xındırıstan, Sarıçoban, Paşabəyli, Baharı, Bəybabalar, Baş Qərvənd, Orta Qərvənd, Ayaq Qərvənd, Çıraqlı, Əhmədağalı, Mirəşəlli, Kolqışlaq, Yusifli, Kəbləhüseyinli, Birinci Yüzbaşılı, İkinci Yüzbaşılı, Seyidli, Sarıhacılı, Bozpapaqlar, Qiyaslı, Keştazlı, Ətyeməzli, Əlimədətli, Əliağalı, Qalayçılar, Xaçındərbətli, Mollalar, Kürdlər, Cinli, Maqsudlu,

Eyvazxanbəyli, Şişpapaqlar, Tərnöyüt, Talışlar, Çullu, Təpəməhlə, Şahbulaq, Tükəzbanlı, Salahsəmədlər, Xıdırlı, Əhmədavar, Çuxurməhlə, Güllücə, İlxıçılar, Suma, Tağıbəyli, Boyəhmədli, Qızıl Kəngərli, Salahlı Kəngərli, Mollalar, Sofulu, Bağbanlar, Saybalı, İsmayılbəyli, Muğanlı, Pirzadlı, Şıxlar, Nəmirli, Təzəkənd, Manıklı, Mərzili kəndləri daxildir.

Ağdam rayonunun relyefi, əsasən, düzənlik, qismən dağlıqdır. Düzənlik hissədə Antropogen və Neogen, dağlıq hissədə isə Tabaşir və Yura çöküntüləri yayılmışdır. Əhəngdaşı və s. tikinti materialı (sement xammalı, çınqıl, qum) yataqları vardır. İqlimi, əsasən, mülayim isti, quru subtropikdir. Orta temperatur yanvarda -0,2°C-dən 1,8°C-yədək, iyulda isə 23°C-dən 26°C-yədəkdir. İllik yağıntı 300-550 *mm*-dir. Rayonun ərazisindən Xaçın və Qarqar çayları axır. Şabalıdı və açıq şabalıdı, dağ tünd şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitkiləri, əsasən, kol, quru çöl və yarımsəhra (ağot, yovşan, qarağan və s.) tiplidir.

Heyvanları: çaqqal, canavar, tülkü və s. Quşları: kəklik, turac və s. Gəmiricilər çoxdur.

Ağdam rayonunda taxılçılıq, üzümçülük, pambıqçılıq, heyvandarlıq və baramaçılıq inkişaf etmişdir.

Dağlıq Qarabağ hadisələri başlayandan Ağdam burada cərəyan edən hadisələrin episentri olmuşdur.

Mövcud dövlətini qədim Azərbaycan torpaqları üzərində qurmuş Ermənistan Azərbaycanın yeni bir ərazisini - Dağlıq Qarabağı işğal etmək məqsədi ilə 1988-ci ilin fevralından başladığı müharibəyə ilk olaraq məhz Ağdam rayonu cəlb olunmuş, hadisələrin ilk günlərindən ən böyük ağırlıqlar Ağdam rayonunun, onun əhalisinin üzərinə düşmüşdür.

1988-ci ilin son aylarında Ermənistandan öz ata-baba yurd yuvalarından, daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətindən doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirdi.

1992-ci ildə Dağlıq Qarabağı bütünlüklə işğal edən Ermənistan bədnam rus ordusuna arxalanaraq bununla kifayətlənməyərək Dağlıq Qarabağın ətraf rayonlarına da hücum etdi. Xüsusən Ağdama olan hücumların ardı-arası kəsilmirdi. 1993-cü ilin may ayının 11-dən etibarən qızışan bu hücum əməliyyatları həmin il iyul ayının 23-də Ağdamın süqutu ilə başa çatdı. Bundan sonra 1994-cü il mayın 12-dək davam edən hərbi təcavüz nəticəsində ermənilər Ağdam rayonunun 846,7 kvadrat km-i, yəni ümumi ərazisinin 77,4 %-ni işğal etməyə nail oldu.

İşğal edilmiş Ağdam şəhəri və 87 kənd oxşarı olmayan bir vəhşiliklə darmadağın edilərək yerlə yeksan olundu.

Ağdamın müdafiəsi üzrə döyüşlərdə 5 min nəfərdən çox azərbaycanlı həlak oldu, minlərlə insan fiziki şikəstlik qazandı, rayonun 126 min nəfərdən çox əhalisi öz doğma ev-eşiyindən qovularaq məcburi köçkünə çevrildi.

2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə imzaladıqları bəyanata əsasən noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

«Ağdam» qəzetinin ilk nömrəsi 1930-cu ildə işıq üzü görmüşdür. «Ağdam» qəzeti əvvəlcə «Kolxoz sədası», «Kolxozçu», 1934-cü ildən 1990-cı ilə kimi «Lenin yolu», 1990-cı ildən isə «Ağdam» adı ilə nəşr olunur.

«Ağdam» qəzetinin redaksiyası 1993-cü ilin iyulundan Ağdam şəhərinin işğalından sonra əvvəlcə Mingəçevir, sonra Bərdə şəhərində, indi isə Ağdam rayonunun Quzanlı kəndində yerləşir.

Təsisçisi Ağdam rayon İcra Hakimiyyəti Aparatı və qəzetin jurnalist kollektividir.

«Qeyrət qalası» qəzeti 2004-cü ilin yanvarından işıq üzü görür.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Hazırda Bakı–Yevlax–Ağdam–Xankəndi magistralının Bərdə–Ağdam hissəsinin tikintisi artıq yekunlaşmaq üzrədir. Başlanğıcını Bərdə şəhərindən götürən Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 44,5 kilometr təşkil edir. Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Ağdam-Füzuli avtomobil yolunun inşası sürətlə davam etdirilir. Uzunluğu 64,8 km, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla tikilir. Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir.

Bununla yanaşı, Vətən müharibəsindən sonra başlanan tarixi Bərdə–Ağdam dəmir yolu xəttində də yenidənqurma işləri sürətlə aparılıb. Artıq uzunluğu 47,1 kilometr olan yolun 90 faiz layihələndirilməsi yerinə yetirilib. Uzunölçülü relslər 100 faiz quraşdırılıb, 128 mühəndis qurğusunun tikintisi başa çatdırılıb. Ümumilikdə tikinti işlərinin 70 faizi tamamlanıb.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Ağdam rayonunun ərazisində qədim tarixə malik olan çoxlu memarlıq və incəsənət abidələri vardır.

Ağdam şəhərinin şimal-şərqində yerləşən Üzərlik Təpə abidəsi, rayonun Xaçındərbənd kəndindəki Qutlu Sarı Musa oğlu Kümbəzi (1314-cü il), Kəngərli kəndindəki Türbə və Daş abidələr (XIV əsr), Papravənd kəndindəki Türbələr, Məscid (XVIII əsr), Xanoğlu türbəsi (XVII əsr), Qarabağ xanı Pənahəli xanın Ağdam şəhərindəki imarəti (XVIII əsr), Natəvan və onun oğlunun türbəsi (XIX əsr), Şahbulaq qalası və s. tarixi memarlıq abidələri bu ərazinin qədim Azərbaycan torpağı olduğunu təsdiq edir. Tariximizin sirdaşı, ünvanı olan bu abidələr Ağdamın keçmişinin qaranlıqlarına işıq saçır, dünənimizdən bu günümüzə soraq verir.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Erməni işğalı nəticəsində rayonun ərazisində mövcud olan çoxlu sayda tarixi, mədəni və dini abidələr vəhşicəsinə dağıdılmışdır. Rayonun Xaçındərbənd kəndindəki 1314-cü ildə tikilmiş Qutlu Sarı Musa oğlu Kümbəzi, Kəngərli kəndindəki XIV əsrə aid Türbə və Daş abidələr, Papravənd kəndində XVIII əsrə aid

Kümbəz və Məscid, Ağdamda İmarət deyilən yerdə XVIII əsrə aid abidələr, o cümlədən Xan qızı Natəvanın və onun oğlunun Türbələri, Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara vəhşicəsinə dağıdılmışdır. Bundan əlavə, dini ibadətgahlardan rayonun Papravənd kəndində yerləşən Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim və digər ziyarətgahlar darmadağın edilmişdir. Ağdam şəhərinin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan Məscid və onun minarələri də vəhşicəsinə dağıdılmışdır.

## Ağdaş rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi -1,02 min kv. km**

**Əhalinin sayı - 107,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 105 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər – 1**

**Kəndlərin sayı - 71**

**Qəsəbələrin sayı – 2**

**Ağdaş rayonu ilə Bakı arasında olan məsafə - 249 km**

**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Ağdaş rayonu** | 98599 | 100,0 | 48836 | 49,9 | 49763 | 51,1 |
| şəhər əhalisi | 32804 | 33,27 | 15823 | 32,40 | 16981 | 34,12 |
| kənd əhalisi | 65795 | 66,73 | 33013 | 67,60 | 32782 | 65,88 |

**Ümumi məlumat**

Şirvan düzünün şimal-qərbində, Acınohur ön dağlığının cənubundadır. Mərkəzi Ağdaş şəhəridir.

Rayona Ağdaş şəhəri, Ləki, Türyançay qəsəbələri və Birinci Aral, İkinci Aral, Ərəbocağı, Mürsəl, Şıxlı, Qarasuqumlaq, Aşağı Nemətabad, Yuxarı Nemətabad, Yenikənd, Qəribli, Yeniarx, Qobuüstü, Hacılar, Məşəd, Əmirarx, Binələr, Davudlu, Orta Ləki, Yuxarı Ləki, Aşağı Ləki, Hapıtlı, Ovçulu, Abad, Qaradeyin, Eymur, Ərəbşəki, Ağcaqovaq, Pirəzə, Qaraoğlan, Ağzıbir, Kotavan, Xınaxlı, Nemətabad, Cüvə, Kükəl, Ərəb, Hüşün, Xosrov, Sadavat, Şəmsabad, Tofiqi, Əmirmahmud, Qarağan Saatlı, Yuxarı Qəsil, Bulaqotağı, Qarağan Sədi, Qarağan Şıxlar, Orta Qəsil, Aşağı Qəsil, Qulbəndə, Şordəhnə, Bəylik, Nehrəxəlil, Kotanarx, Cardam, Aşağı Zeynəddin, Tatlar, Yeniarx, Gürcuva, Pirəyir, Qaradağlı, Cücük, Malay, Qolqəti, Korarx, Cüvə, Dəhnəxəlil, Aşağı Ağcayazı, Yuxarı Ağcayazı, Qoşaqovaq, Şəkili, Pirkəkə, Yenicə, Güvəkənd, Müvəqqəti kəndləri daxildir.

Səthi, əsasən, düzənlik, şimal hissədə dağlıqdır. Düzənlik hissədə Antropogen, dağlıq hissədə isə Neogen çöküntüləri yayılmışdır. Gil çıxarılır. İqlimi mülayim isti, quru subtropikdir. Orta temperatur yanvarda 1,2-1,4°C, iyulda isə 25-27°C-dir. İllik yağıntı 300-450 *mm*-dir. Rayonun ərazisindən Türyan

çayı, cənub-qərb sərhədi boyu Kür çayı axır. Baş Şirvan kollektoru Ağdaş rayonu ərazisindən başlanır. Türyan çayında su qovşağı yaradılmışdır. Rayonda, əsasən, boz-çəmən torpaqları yayılmışdır. Bitkiləri, əsasən, çöl və yarımsəhra tiplidir. Kür çayı sahilində tuqay meşələri, rayonun şimal hissəsində (Türyançay qoruğunda) ardıc və saqqız ağaclarından ibarət seyrək arid meşələr vardır. Heyvanları: canavar, tülkü, çöldonuzu və s. Quşları: kəklik, turac, qırqovul, kərkəs və s. Sürünənlərdən gürzə, kələz və s. məskunlaşmışdır.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir, əkinçilik, meyvəçilik və heyvandarlıq inkişaf etmişdir. "Ağdaş-Pambıq" ATSC, qida məhsulları kombinatı, "Orelay" şirniyyat firması, "FA kom BİCA" MMC, Kükəl kərpic istehsalı zavodu, "Damla" un fabriki, "Arşınmalçı" tikiş-trikotaj müəssisəsi və s. yaradılmışdır.

Əlverişli təbii şəraiti olan Ağdaş ərazisində insanlar lap qədim zamanlardan məskunlaşmışlar. Qədim yunan müəllifi Strabon (e. ə. I əsr) qeydlərində bu ərazilərdə insanların məskunlaşdığı, təsərrüfat fəaliyyəti ilə məşğul olmaları, Türyançay çayının orta və aşağı axarında yaşayan əhalinin bu çaydan təsərrüfat və gəmiçilik məqsədilə geniş istifadə etdiklərini yazırdı.

Təbii iqlim və torpaq şəraiti burada lap qədimlərdən əkinçilik və maldarlığın inkişafı üçün əlverişli imkan yaratdığından bu ərazilərdə əkinçilik mədəniyyəti yüksək inkişaf etmişdi. Ona görə də tarixən bu yerlərdə yüksək keyfiyyətli taxıl becərilmiş, meyvə yetişdirilmiş, ipəkçilik, sonralar isə pambıqçılıq geniş yayılmışdı.

Orta əsrlərin son dövrlərində Ərəş adlanan bu ərazi Şirvan bəylərbəyiliyinin tabeliyində idi. Buranı «Sultan» titulu daşıyan feodal hakimlər idarə edirdilər. Sonralar Səfəvi-Osmanlı müharibələrində əldən-ələ keçən Ərəş sultanlığı xeyli zəiflədi və 18-ci əsrin 50-ci illərində Şəki xanlığının vassalına çevrildi.

1795-ci ildə isə Sultanlıq ləğv edilərək Şəki xanlığına qatıldı.

Çarizmin 1873-cü ildə Qafqazda həyata keçirdiyi inzibati islahata əsasən Yelizavetpol quberniyasının tərkibində Ərəş qəzası yaradıldı. Qəzanın ərazisi 3212,5 kv. km. əhalisi isə 52371 nəfər idi.

Ərəş qəzası 1929-cu ildə ləğv edilmiş, 1930-cu ildən Ağdaş rayonu yaradılmışdır

Rayonun mərkəzi XVI əsrdə salınmış, 1900-cü ildən şəhər statusu daşıyan Ağdaş şəhəridir.

Rayonun ərazisində orta əsrlərə aid tarixi abidələr, qala və müdafiə tikililərinin qalıqları mövcuddur. Bunlardan ən mühümü XVIII əsrə aid edilən Surxay qalasıdır. Bu qala Türyançay dərəsi ilə Göyçay dərəsi arasında Ərəb kəndi yaxınlığında yerləşir.

Ağdaş rayonunun əlverişli coğrafi mövqeyi və təbii şəraiti hələ XIX əsrin sonlarında burada texniki bitkilərin əkilib-becərilməsinə və onların dünya bazarına çıxarılmasına imkan vermişdi. 1883-cü ildən Bakı-tiflis dəmir yolu çəkildikdən sonra onsuz da əhəmiyyətli ticarət yollarının üstündə yerləşən Ağdaşda emal müəssisələri qurulmağa başladı. Məhsul tədarükü və xarici bazarlara daşınması, ticarətin və iqtisadiyyatın inkişafına səbəb oldu.

1887-ci ildə Poznan şirkətinin Lodz kontorunun müdiri Ramendik Ağdaşa gələrək burada pambıq alıcı məntəqələri açmış, pambığın ilkin emalı və qablaşdırılması üçün 4 ədəd kotton-çin dəzgahı və bir

press qurmuşdu. Artıq 1897-ci ildə Ağdaşda kotton-çin maşınlarından ibarət 7 zavod fəaliyyət göstərirdi. Beləliklə, XIX əsrin ikinci yarısından başlayaraq Avropanın qabaqcıl toxuculuq mərkəzləri ilə əlaqə saxlayan Ağdaş XIX əsrin sonunda bütün Qafqazda pambıq istehsalı, emalı və satışının mərkəzinə çevrilmişdi. Qafqaz pambıqçılarının I Qurultayının 1904-cü ildə Ağdaşda çağırılması da bunu sübut edir.

1888-ci ildə Ağdaş bazarında 3100 pud pambıq satılmışdırsa, 1892-ci ildə bu rəqəm 28000 puda çatmışdı.

XIX əsrin 70-ci illərində fəaliyyət göstərən Ağdaş bazarında pambıqdan başqa digər ənənəvi məhsullar da satılırdı. XX əsrin əvvəllərində «Qafqaz» qəzeti yazırdı ki, «Ağdaş xaricə, Marsel və İtaliyaya göndərilən həm bütün xam ipəyi, həm də baramanı özündə cəmləşdirən mərkəzdir».

1886-cı ildə Ləkidə tikilmiş biyan kökü emalı zavodunda istehsal olunan lakritsa boyası Amerika və Fransaya ixrac edilirdi.

Ağdaşda meyvəçilik də yüksək inkişaf etmişdi. 1900-cü ildə Ləki dəmiryol stansiyası vasitəsi ilə 69745 pud qoz-fındıq, 71017 pud digər müxtəlif meyvələr tədarük edilərək xarici bazarlara daşınmışdı.

Ağdaşda iqtisadiyyatın inkişafı ilə yanaşı onun maarif və mədəniyyəti də inkişaf edirdi.

Azərbaycanda açılan ilk dünyəvi təhsil ocaqlarından biri də 25 oktyabr 1882-ci ildə Ağdaşda görkəmli maarifçi Süleyman Qayıbov tərəfindən əsası qoyulan «Rus-tatar» məktəbi olmuşdur. O dövrdə Azərbaycanda fəaliyyət göstərən bu tipli 3 məktəbdən birinin məhz Ağdaşda açılması heç də təsadüfi deyildir. Çünki ondan əvvəl Ağdaşda yaxşı təhsil bazasına malik 20-yə qədər mədrəsə fəaliyyət göstərirdi. XX əsrin əvvəlində Ağdaşda «Nəşri-Maarif» cəmiyyəti, qiraətxana, «Səadət» qızlar məktəbi, «Darülirfan», «Rüşdiyyə» kimi tədris ocaqları fəaliyyət göstərirdi. Bu məktəbdə Muxtar Əfəndizadə, Hədiyyə xanım Məmmədzadə, Həsən Əfəndiyev kimi maarifçi ziyalılar çalışırdılar. Məhz belə maarifçilik bazası üzərində sonralar Ağdaşda təhsilin səviyyəsi yüksək xətlə inkişaf etmişdir. Rayonda Pedaqoji məktəb, Tibb məktəbi, Kənd Təsərrüfatı texnikumu, Peşə məktəbləri açılmış, bəziləri bu gün də fəaliyyət göstərir. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev Ağdaş şəhər 3 nömrəli beynəlmiləl orta məktəbin 120 illik yubileyi münasibətilə kollektivə göndərdiyi təbrik məktubunda (29. XI. 2002) Ağdaş təhsilinə yüksək qiymət vermişdir.

Ağdaş mədəniyyəti və incəsənəti dərin köklərə malikdir. 10 aprel 1908-ci ildə Zülfüqar Hacıbəyovun yaxından iştirakı ilə Rəşid bəy Əfəndiyevin «Qan ocağı» adlı əsəri ilə fəaliyyətə başlayan Ağdaş teatrı rayonun mədəni həyatında böyük rol oynamışdır. 1940-cı ildə bu rayondan deputat seçilmiş görkəmli Azərbaycan şairi S. Vurğunun təşəbbüsü ilə Ağdaş teatrına Dövlət Dram Teatrı statusu verilmiş, teatrın səhnəsində «Leyli və Məcnun», «Əsli və Kərəm», «O olmasın, bu olsun,» «Arşın mal alan» kimi klassik əsərlər oynanılmışdır. 1960-cı ildən teatr Xalq Teatrı kimi fəaliyyət göstərir.

1936-cı ildə Əhməd Ağdamskinin rəhbərliyi altında Ağdaşda ilk 7 illik musiqi məktəbi açılır. Həbib Əliyev, Munis Şərifov, Ramiz Hacıyev kimi tanınmış musiqiçilər bu məktəbin məzunları olmuşlar.

Beləliklə əlverişli təbii-coğrafi şəraitə malik olan Ağdaş fədakar və istedadlı insanların fəaliyyəti nəticəsində inkişaf edərək böyük bir tarixi yol keçmişdir. Bu zaman özünün sosial-iqtisadi və mədəni

inkişafının ən yüksək səviyyəsinə Azərbaycanın hər yerində olduğu kimi ümummilli liderimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi keçən əsrin 70-ci illərində çatmışdır. Fərəhli haldır ki, müasir Ağdaş dövlət müstəqilliyimizin yaratdığı imkandan bəhrələnərək ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu ardıcıl həyata keçirən hörmətli prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında bu gün də sürətlə inkişaf edərək çiçəklənir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Ağdaşda qəzet 1932-ci ildən çıxmağa başlamışdır. Əvvəllər «Pambıqçı», «Pambıq uğrunda mübarizə», «Yeni həyat», «Əmək» adları ilə çıxan ictimai-siyasi qəzet 2003-cü ildən «Ağdaş» adı ilə nəşr olunur. Qəzetin təsisçisi Ağdaş Rayon İcra hakimiyyətidir

**Avtomobil, dəmir yolları haqda məlumat**

Bakı-Tiflis dəmir yolu xətti Ağdaş rayonunun Ləki qəsəbəsindən keçir.

Qəsəbə ərazisindən keçən dəmir yolu xətti 1883-cü il mayın 8-də istifadəyə verilmişdir. Dəmir yolunun Ağdaş rayonu ərazisindən keçən hissəsinin uzunluğu 25 km-dir.

***Respublika əhəmiyyətli avtomobil yolları:***

1. Bakı-Qazax avtomobil yolu - 38 km 2. Ağdaş-Ləki avtomobil yolu - 10 km 3. Ələt-Kürdəmir-Yevlax avtomobil yolu - 22 km 4. Ağdaş-Zarağan avtomobil yolu - 10 km

Cəmi avtomobil yolu - 80 km

***Yerli əhəmiyyətli yollar:***

Cəmi - 295 km

**Tarixi və memarlıq abidələri haqda məlumat**

1. Tarix-diyarşünaslıq muzeyinin binası, XIX əsr, memarlıq abidəsi, 1 və 2-ci mərtəbələr. 2. Musiqi məktəbinin və kitabxananın binası, 1904-cü il, memarlıq abidəsi. 3. Hacı Məhəmməd Ağa məscidi, XIX əsr, memarlıq abidəsi. 4. Yaşayış evi, 1910-cu il, memarlıq abidəsi (Gigiyena və Epidemiologiya mərkəzi). 5. Yaşayış evi, 1930-cu il, memarlıq abidəsi (Maliyyə idarəsinin binası). 6. Yaşayış evi, XIX əsr, memarlıq abidəsi 7. Yaşayış evi, XIX əsr, memarlıq abidəsi 8. Qarabəy Karvansaray, XIX əsr, memarlıq abidəsi 9. Hamam, XIX əsr, memarlıq abidəsi 10. Hacı Osman məscidi, XIX əsr, memarlıq abidəsi 11. Qızılbaşlar məscidi, XIX əsr, memarlıq abidəsi 12. Hacı Bədəl Əfəndi məscidi, XIX əsr, memarlıq abidəsi 13. Hacı İsmayıl Ağa məscidi, XIX əsr, memarlıq abidəsi 14. Türbə, 1902-ci il, Bulaqotağı kəndi, memarlıq abidəsi 15. Surxay qalası, XVIII əsr, memarlıq abidəsi 16. Şəhərgah, orta əsr, arxeoloji abidə 17. 1941-1945-ci illər müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidələri (Ağdaş şəhəri və Şəmsabad kəndi). 18. M. Şeyxzadənin ev muzeyi (xatirə abidəsi).

Ağdaş şəhərində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Ağdərə rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Sahəsi - 1.705 km²**

**Əhalinin sayı – 12 min 100 nəfər qeydiyyatdadır (1 aprel 2024-cı il)**

**Şəhər – 1**

**Kəndlərin sayı - 57**

**Qəsəbələrin sayı – 1**

**Ağdərə rayonu ilə Bakı arasında olan məsafə - 357.5 km**

**Ümumi məlumat**

Ağdərə rayonu — Azərbaycan Respublikasında inzibati – ərazi vahidi. Mərkəzi Ağdərə şəhəridir. SSRİ dövründə yaradılmış və Azərbaycan müstəqillik əldə etdikdən sonra ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) tərkibinə daxil idi. Rayon 13 oktyabr 1992-ci il tarixində Azərbaycan Respublikası Milli Məclisinin 327 saylı qərarı ilə ləğv edilmişdi. 2023-cü ildə rayonun yenidən yaradılması ilə bağlı qanun layihəsi Milli Məclisin müzakirəsinə təklif edilmişdir. 5 dekabr 2023-cü ildə ayrılaraq yenidən müstəqil rayon olmuşdur. 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunmuşdur. Qanuna əsasən Mardakert rayonunun adı dəyişdirilərək Ağdərə rayonu adlandırılmış və respublika tabeli rayonların sırasına daxil edilmişdi.

Rayona Ağdərə şəhəri, Şıxarx qəsəbəsi, Ağabəyyalı, Aşağı Oratağ, Dəmirli, Qasapet, Baş Güneypəyə, Canyataq, Gülyataq, Çardaqlı, Lüləsaz, Meqrelalay, Çaylı, Suqovuşan, Təpəkənd, Çərəktar, Çıldıran, Dəvədaşı, Mehmana, Dovşanlı, Bazarkənd, Hayad, Heyvalı, Yayıcı, Həsənqaya, Çiləbürt, Göyarx, Maralyansarov, Həsənriz, Xatınbəyli, İmarət Qərvənd, Çapar, Zardaxaç, Kiçik Qarabəy, Kolatağ, Damğalı, Qızılqaya, Yuxarı Oratağ, Qızıloba, Seysulan, Yarımca, Qozlu, Qozlukörpü, Məlikli, Qazançı, Narınclar, Orta Güneypəyə, Sırxavənd, Ballıqaya, Bəşirlər, Qaraşlar, Talış, Ulu Qarabəy, Umudlu, Zəylik, Vəngli, Çormanlı, Şahmansurlu, Yeni Qaralar kəndləri daxildir.

1993-cü il iyulun 7-də ermənilər Xankəndidən 62 kilometr şimalda yerləşən və ümumi ərazisi 1705 kvadratkilometr olan, həmçinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olan beş inzibati rayondan biri - Ağdərə rayonu və onun kəndlərini işğal etmişdilər. İşğala qədər Ağdərənin 14 kəndində (Sırxavənd, Bəşirlər, Qaraşlar, Qaralar, Baş Güneypəyə, Orta Güney, Xatınbəyli, Manikli, Tellibinə, Narınclar, Çərəktar, İmarət-Qərvənd, Umudlu, Yeni Qaralar) və Gəncxana sovxoz qəsəbəsində 14 mindən çox azərbaycanlı yaşayıb və işğal zamanı rayonun bütün əhalisi öz doğma yurdlarından məcburi köçkün düşərək Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmışdılar. 2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Silahlı Qüvvələrinin antiterror tədbirləri nəticəsində Ağdərə Azərbaycan

nəzarətinə qayıdıb. Prezident İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.

Aparılan tədqiqatlardan məlum olur ki, Ağdərənin ilkin adı «İsfahancıq», XIX əsrdə «Hunaşin» və ya «Xonaşen» adlandırılıb. XIX əsrdə Qarabağ düzünün 36- min desyatin hissəsini əhatə edən Xonaşen ərazisi maldar ellər üçün qışlaq yeri idi. Xonaşen toponimi «hun» və «şen» sözlərindən ibarətdir. Vizantiya tarixçisi Feofan yazır ki, 624-cü ildə Vizantiya çarı İrakli Albaniyada «Hun ölkəsi» adlı yerdə xəzərlərlə görüşmüşdü.

Güman etmək olar ki, «Hun ölkəsi» adlı həmin yer məhz Xonaşendir. Məkrli niyyət sahibləri olan erməni «tədqiqatçıları» «şen» sözünün erməni dilinə məxsusluğunu əldə rəhbər tutaraq ərazinin ermənilərə aid olduğunu iddia edirlər. Lakin araşdırmalardan məlum olur ki, «şen» sözü qədim türk mənşəlidir. Belə ki, XIII əsrə aid «Türk-ərəb lüğəti»ndə «şen» sözünün, «məskun», «əhali yaşayan yer», «əhalisi sıx olan yer» mənasında olduğu göstərilmişdir. L.Z. Budaqovun, İ.M. Dyakonovun, M. Kaşkarinin, H.A. Abelovun tədqiqatlarında göstərilir ki, «şen» sözü sırf türk-müsəlman sözüdür və bu söz «yaşayış yeri», «kiçik məntəqə», «məhəllə», «abad yer» mənasındadır (Abbasbəyli A. Qafqaz geostrategiya məkanında. Bakı, “Azərnəşr”, 2003, 236 s., s. 109.) Ağdərə oronimi «ağ» («kiçik», «qısa», «dayaz») və «dərə» («çay yatağı», «iki dağ arası», «dərin çuxur») sözlərindən düzəlib, «kiçik çay yatağı», «dayaz çuxur» deməkdir. Bu toponimə Azərbaycanın müxtəlif yerlərində rast gəlmək mümkündür.

Əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarət olan Ağdərə bölgəsi zəngin faydalı qazıntı yataqları ilə də seçilir. Bölgədə Qızılbulaq və Canyataq-Gülyataq qızıl yataqları, Mehmana qurğşun və sink yatağı, Dəmirli mis yatağı və digər faydalı qazıntı yataqları vardır. Ağdərə Qarabağın mühüm kənd təsərrüfatı rayonlarındandır, iqtisadiyyatında üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tutur. Əsas çayları Tərtər çayı və Xaçınçaydır. Tərtər çayı üzərində 1976-cı ildə Sərsəng su qovşağı yaradılıb.

**Avtomobil, dəmir yolları haqda məlumat**

2024-cü ildə Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb. Suqovuşan-Kəlbəcər avtomobil yolunun 9-cu km-dən ayrılan və 33.5 km uzunluğa malik Ağdərə-Ağdam avtomobil yolunun hərəkət hissəsinin eni 9 metrdir. Torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Ağdərə rayonu üzrə ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri müəyyənləşib.

Nazirlər Kabineti bununla bağlı “Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” və “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı”na dəyişiklik edib.

***"Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nda Ağdərə rayonu üzrə aşağıdakı memarlıq abidələri yer alıb***: Xanabert qalası (Vəngli kəndi), Müqəddəs Yaqub kilsəsi (635-ci il Kolatağ kəndi), Alban məbədi (614-cü il Kolatağ kəndi), Qala (Çapar kəndi), Alban məbədi (XII əsr Çıldıran kəndi), Qırmızı məbəd (XIII əsr Çıldıran kəndi), Alban məbədi (X əsr Çormanlı kəndi), Alban kilsəsi (XI əsr Çormanlı kəndi), "Xatırvank" məbədi (1204-cü il Qozlu kəndi), Alban məbədi (698-ci il Yayıçı kəndi), Alban məbədi (672-ci il Yayıçı kəndi), Məbəd (1283-cü il Həsənriz kəndi), Alban məbədi (500-cü il Həsənriz kəndi).

***Ağdərə rayonunda ölkə əhəmiyyətli arxeoloji abidələr isə aşağıdakılardır:***

Dovşanlı nekropolu (son tunc—ilk dəmir dövrü Dovşanlı kəndi), Balıqaya nekropolu (son tunc—ilk dəmir dövrü Sırxavənd kəndinin şərqində).

***"Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"nda Ağdərə rayonu üzrə memarlıq abidələri aşağıdakılardır:*** Qala qalıqları (XII əsr Çardaqlı kəndinin 8 kilometrliyində), Hatəm Məlik Qalası (Qasapet kəndinin 5 kilometrliyində), Ürəkvənd monastırı (V-XIII əsrlər Talış kəndinin qərbində), Kilsə (Çiləbürt kəndi), Qala (Çiləbürt kəndi), Cermud qalası (Çiləbürt kəndi), Qala (1284-cü il Vəngli kəndi), Məbəd (XIII əsr Vəngli kəndi), Məbəd (Çapar kəndi), Məbəd (Ballıqaya kəndi), Məbəd (1251-ci il Bazarkənd kəndi), Kilsə (1668-ci il Dovşanlı kəndi), Kilsə (XVII əsr Dəvədaşı kəndi), Qırmızı məbəd (XVII əsr Qozlu kəndi), Alban məbədi (718-ci il Qasapet kəndi), Kilsə (1894-cü il Qasapet kəndi), Cerabert qalası (Qasapet kəndi), Kilsə (1883-cü il Kiçik Qarabəy kəndi), Məbəd (1881-ci il Kiçik Qarabəy kəndi), Məbəd (Kiçik Qarabəy kəndi), Körpü (Suqovuşan kəndi), Məbəd (Çapar kəndi), Alban məbədi (713-cü il Çaylı kəndi, keçmiş Dəstəgül kəndinin ərazisində), Müqəddəs Yelisey monastrı (V-XIII əsrlər Suqovuşan kəndi), Kilsə (1898-ci il Suqovuşan kəndi).

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Rayonun Dovşanlı kəndindən 9 km Cənub-Şərqdə Xaçın çayının sağ sahilində ilk tunc dövrünə aid Xaçınçay kurqanları aşkar edilmişdir. Kurqanların hündürlüyü təxminən 1-2,5 metr, diametri 10-20 metrdir. Buradakı dəfn adəti biri-birindən fərqlənirdi. Kurqanlardan qızıl bəzək əşyaları, arxaik tipli xəncərlər, daş toppuz, dəvəgözündən bıçaq və bir ədəd bütöv saxsı qab tapılmışdır. Memarlıq abidələrindən Vəngli kəndindəki məşhur Gəncəsər alban məbədi, Kolatağ kəndində müqəddəs İako məbədi (635-ci il), Talış kəndi yaxınlığında Urek məbədi (XII əsr), Tərtər çayının yuxarı axarında məbəd (XIII əsr), Hatəm Məlik qalası, bir çox qədim məbədlər və tarixən salınmış körpülər, eləcə də bütün abidələr Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb. Albaniyada xristianlığın yayılmasında böyük xidmətləri olmuş apostol Yeliseyin xatirəsinə tikilən məbədlərdən biri də Ağdərə şəhərindəki Müqəddəs Yelisey monastır kompleksidir. Dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, uca bir dağın zirvəsində tikilən və qala divarları ilə əhatə olunan monastır kompleksinin əsası V əsrdə qoyulub. Ağdərədə İslam istiqamətli bir sıra abidələr də mövcud olub. Rayon mərkəzindən 10 kilometr aralıda yerləşən "Ulduz

təpə” piri bölgədə tanınan ziyarət yerlərindən olub. Ermənilərin bu abidə və məbədlərdə qriqoryanlaşdırma işləri aparıblar.

## Ağstafa rayonu

**Yaranma tarixi - 24.04.1990**

**Ərazisi - 1,50 min kv. km**

**Əhalinin sayı – 86,3 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 58 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 29**

**Qəsəbələrin sayı – 9**

**Ağstafa rayonu ilə Bakı arasında olan məsafə - 461 km**




**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Ağstafa rayonu** | 80222 | 100,0 | 39273 | 49,1 | 40949 | 51,9 |
| şəhər əhalisi | 20147 | 25,11 | 9841 | 25,06 | 10306 | 25,17 |
| kənd əhalisi | 60075 | 74,89 | 29432 | 79,94 | 30643 | 74,83 |

**Ümumi məlumat**

Ağstafa rayonu 1939-cu ildə təşkil olunmuş, 1959-cu ildə ləğv edilib ərazisi Qazax rayonuna verilmiş, 1990-cı ildə yenidən bərpa olunmuşdur. Respublikanın şimal-qərb hissəsində, Kiçik Qafqazla Qabırrı yaylası arasında, Gəncə-Qazax maili düzənliyində və Ceyrançöl ön-dağlığında yerləşir. Mərkəzi Ağstafa şəhəridir.

Rayona Ağstafa şəhəri, Saloğlu, Vurğun, Böyük Kəsik, Soyuq Bulaq, Soyuq Bulaqlar, Həzi Aslanov, Qarayazı, Poylu, Ceyrançöl, Şəkərli qəsəbələri və Poylu, Qıraq Kəsəmən, Dağ Kəsəmən, Köçəsgər, Aşağı Kəsəmən, Zəlimxan, Tatlı, Köhnəqışlaq, Yaradullu, Düzqışlaq, Kolayır, Pirili, Kolxəlfəli, Muğanlı, Sadıqlı, Köçvəlli, Xətai, Yenigün, Aşağı Göycəli, Qaçaq Kərəm, Eynallı, Göycəli, Böyük kəsik, Qırıqlı, Xılxına, Mollacəfərli, Həsənsu, Qarahəsənli kəndləri daxildir.

Səthi, əsasən, düzənlikdir (Gəncə-Qazax və Qarayazı düzləri), cənub-qərb və şimal-şərq hissələri alçaq dağlıqdır. Tabaşir, Paleogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: mişar daşı, bentonit gili, çınqıl, qum, sement xammalı və s. İqlimi mülayim isti, quru subtropikdir. Qışı quraq keçir. Orta temperatur yanvarda -5°C-dən 0°C-yədək, iyulda 18-25°C-dir. İllik yağıntı 350-700 *mm*-dir. Rayonun ərazisindən Kür çayı keçir. Ağstafa və Həsənsu çaylarının aşağı axınları Ağstafa rayonu

ərazisindədir. Əsasən, dağ şabalıdı, dağ boz-qəhvəyi, şabalıdı, açıq şabalıdı dağ-meşə torpaqları yayılmışdır. Yovşanlı-şoran-otulu yarımsəhra və çöl bitkiləri, Kür çayı sahilində Tuqay meşələri vardır. Heyvanları: ayı, canavar, tülkü, çöldonuzu, boz dovşan, çölsiçanı və s. Quşları: qırqovul, turac, kəklik, göyərçin və s. Qarayazı Dövlət qoruğu Ağstafa rayonu ərazisindədir. Ağstafa, əsasən, kənd təsərrüfatı rayonudur. Aparıcı sahələri heyvandarlıq və əkinçilikdir.

Tədqiqatçıların fikrincə Azərbaycanın təbii-coğrafi mühiti, relyefi, ən azı üç milyon il bundan əvvəl formalaşıb və ən qədim insanın yaranması, formalaşması üçün əlverişli şərait olubdur. Ərazidən tapılan qədim paleolit abidələri bu bölgənin insanın əmələ gəlməsi regionlarından olmasını təsdiqləyir. Töyrətəpə, Şomutəpə, Qarğalar təpəsi və s. bu kimi qədim yaşayış məskənlərində aparılmış arxeoloji araşdırmalar e. ə. VI-V minilliyi əhatə edən bir dövrdə əkinçiliyin, maldarlığın inkişaf etməsini, oturaq həyat tərzinin formalaşmasını və misdən soyuq döymə üsulla müxtəlif əşya və bəzəklərin düzəldiyini aşkar etmişdir.

Hazırda rayonun Aşağı Göyçəli kəndi ərazisində neolit-tunc dövrünü əhatə edən Töyrətəpə yaşayış yeri, Dağ Kəsəmən kəndi ərazisində tunc-ilk dəmir dövrünə aid olan qədim yaşayış yeri və qəbiristanlıq (Çoban daşı) kimi dünya əhəmiyyətli abidələr mövcuddur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Yerli Radio Verilişləri redaksiyası fəaliyyət göstərir. «Ağstafa» qəzeti mütəmadi olaraq hər ay çap olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Ağstafa rayonu ərazisində respublika əhəmiyyətli və yerli əhəmiyyətli avtomobil yolları mövcuddur ki, onların ümumi uzunluğunun cəmi 231 km-dir. Bundan başqa rayon ərazisində 66,2 km uzunluğunda dəmir yolu da mövcuddur.

Rayon ərazisində olan respublika əhəmiyyətli avtomobil yollarının cəmi uzunluğu 112 km-dir. Bunlardan, II kateqoriyalı Bakı-Qazax yolu 21 km, II kateqoriyalı Poylu-Sadıqlı yolu 40 km, II kateqoriyalı Tovuz - Ceyrançöl-Ağstafa yolu 49 km və II kateqoriyalı Qazax şəhərinə giriş yolu 2 km-dir.

Rayon ərazisində IV kateqoriyaya aid olan avtomobil yollarının uzunluğunun cəmi 119 km-dir.

Bundan başqa, Ağstafa rayonu ərazisində olan Qardabani - Böyük Kəsik - Tatlı - Tovuz dəmir yolunun uzunluğu 58,7 km və Ağstafa stansiyası - Yeni Poylu - Qazax dəmir yolu xəttinin uzunluğu isə 7,5 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

***Daş dövrünə aid olan abidələr:***

1. Paleolit düşərgəsi yaşayış yeri (paleolit) - Köçəsgər kəndi 2. Açıq paleolit düşərgəsi (paleolit) - Tatlı kəndi 3. Töyrətəpə yaşayış yeri (neolit - tunc dövrü) - Aşağı Göyçəli kəndi 4. I Şomutəpə yaşayış

yeri (neolit) - Ağstafa şəhəri 5. Qarğalar təpəsi yaşayış yeri (neolit) - Qırılı kəndi 6. Arzamastəpə yaşayış yeri (neolit) - Vurğun qəsəbəsi 7. Molla Nağı təpəsi (daş dövrü - eneolit) - Köçəsgər kəndi 8. Kiçik təpə yaşayış yeri (daş, eneolit və tunc) - Aşağı Göyçəli kəndi 9. Çəpiş təpəsi yaşayış yeri (eneolit - tunc) - Həsənsu çayının ətrafı 10. Çinlitəpə yaşayış yeri (eneolit) - Tatlı kəndi

***Tunc dövrünə aid olan abidələr:***

1. Qədim yaşayış yeri və qəbiristanlıq (çoban daşı) (tunc - ilk dəmir dövrü) - Dağkəsəmən kəndi 2. Cantəpə yaşayış yeri (tunc) - Ağstafa şəhəri 3. Sarı qaznaq qəbiristanlığı (tunc) - Köçəsgər kəndi 4. Alcaqtəpə yaşayış yeri (tunc-dəmir) - Tatlı kəndi 5. Alcaqtəpə yaşayış yeri (tunc) - Tatlı kəndi 6. Qabaqtəpə yaşayış yeri (tunc-dəmir) - Pirili kəndi 7. Yastıtəpə yaşayış yeri (son tunc) - Ağstafa şəhəri 8. Durnatəpə yaşayış yeri (son tunc - ilk dəmir) - Köçəsgər kəndi 9. Böyüktəpə yaşayış yeri (son tunc - ilk dəmir) - Köçəsgər kəndi 10. Hasarlıtəpə yaşayış yeri (son tunc - dəmir) - Yuxarı Göyçəli kəndi 11. Sarıtəpə yaşayış yeri (son tunc - dəmir) - Yuxarı Göyçəli kəndi 12. Qoşatəpə yaşayış yeri (son tunc - dəmir) - Yuxarı Göyçəli kəndi 13. Hasarlıqala qədim yaşayış yeri (son tunc - dəmir) - Tatlı kəndi 14. II Şomutəpə yaşayış yeri (tunc - ilk dəmir) - Yuxarı Göyçəli kəndi 15. Nadir bəy təpəsi yaşayış yeri (son tunc) - Həsənsu kəndi 16. Ağalıq təpəsi yaşayış yeri (son tunc - ilk dəmir) - Ağstafa-Qazax şose yolu 17. Arançı təpəsi yaşayış yeri (son tunc - dəmir) – Ağstafa - Dağkəsəmən yolu 18. Dəyirmantəpə yaşayış yeri (son tunc - ilk orta əsr) - Dağkəsəmən yolu 19. Ağtəpə yaşayış yeri (son tunc - antik dövr) - Aşağı Göyçəli kəndi 20. Maraltəpə yaşayış yeri (son tunc - antik) - Aşağı Göyçəli kəndi 21. Şiş Quzey piri (dəmir dövrü) - Köçəsgər kəndi 22. Nekropol (antik dövr) - Pirili kəndi

***Orta əsrlərə aid olan abidələr:***

1. Tatlı Alban məbədi (ilk orta əsrlər) - Yuxarı Göyçəli və Tatlı kəndləri arasında 2. Haça dağ iri tikilisi (orta əsrlər) - Köçəsgər kəndi 3. Yaşayış yeri (IV-VII əsrlər) - Dağkəsəmən kəndi 4. Kəhriz (XIX əsr) - Kolxəlfəli kəndi

Ağstafa şəhərində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Ağsu rayonu




**Yaranma tarixi - 08.10.1943**
**Ərazisi - 1,02 min kv. km**
**Əhalinin sayı - 80,6 min nəfər (1 yanvar, 2024-cı il)**
**Əhalinin sıxlığı – 1 kv. km 79 nəfər (1 yanvar 2024-cı il)**
**Şəhər – 1**
**Kəndlərin sayı – 79**
**Ağsu rayonu ilə Bakı arasında olan məsafə - 162 km**

**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Ağsu rayonu** | 70536 | 100,0 | 35017 | 49,9 | 35519 | 51,1 |
| şəhər əhalisi | 19710 | 27,94 | 9803 | 27,99 | 9907 | 27,89 |
| kənd əhalisi | 50826 | 72,06 | 25214 | 72,01 | 25612 | 72,11 |

**Ümumi məlumat**

1963-cü ildə ləğv edilib Kürdəmir rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Ağsu rayonu inzibati ərazi cəhətdən Ağsu şəhəri və 78 kənddən ibarətdir. Əvvəllər şəhər tipli qəsəbə olan Ağsu 1967-ci ildən şəhər adlanır.

Tarixən Şirvan ərazisinə daxil olan Ağsu rayonu Bakı şəhərindən 162 km qərbdə, Bakı-Qazax şose yolunun üstündə yerləşir. Ağsu rayonu qərbdən və şimal-qərbdən İsmayıllı, şimal-qərbdən və şərqdən Şamaxı, cənubdan isə Kürdəmir və Hacıqabul rayonlarının torpaqları ilə həmsərhəddir. Mərkəzi Ağsu şəhəridir.

Rayona Ağsu şəhəri və Bico, Keçdiməz, Qəşəd, Ləngəbiz, Gəgəli, Ərəbmehdibəy, Dədəli, Qasımbəyli, Mustafalı, Xəlilli, Rəhimli, Qaradağ, Şahbəyli, Bozavand, Ağarx, Qarabağlı, Ərəbuşağı, Ağalar-bəyli, Maşadqanlı, Çaparlı, Qiyaslı, Rəhimağalı, Daşdəmirbəyli, Ağabəyli, Kəndoba, Cəfərli, Cəlayir, Hacıuşağı, Abasxanlı, Qaraqoyunlu, Musabəyli, Dəllər, Muradlı, Təklə, Hacısəmədli, İlxıçı, Növcü, Qaravəlli, Məlikçobanlı, Çiyni, Bəyimli, Hacıqədirli, Göydəlləkli, Padar, Küllülü, Kəlağaylı, Yenilik, Gursulu, Kövlüc, Yenikənd, Gəndəxan, Hinqar, Girdə, Elabad, Nuran, Zərqava, Nüydi, Sanqalan, Xasıdərə, Quzey, Qırlar, Kalva, Suraxanı, Xatman, Dilman, Pirhəsənli, Qaraqaşlı, Ülgüc, Navahı, Qaraməm-mədli, Padarqışlaq, Axundlu, Hacıman, Aratlı-Curuğlu, Ərəbsarvan, Gürcuvan, Nəmirli, Kəndaxan kəndləri daxildir.

Rayonun relyefi şimalda və şimal-şərqdə dağlıq (Niyaldağ, Hinqar, Ləngəbiz silsilələri və s.), cənubda ovalıqdır (Şirvan düzü). Dağlıq ərazilərdə Paleogen və Neogen, düzənlikdə isə Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı vardır. İqlimi mülayim isti quru subtropikdir. Orta temperatur yanvarda -4°C-dən l,5°C-yədək, iyulda isə 15-27°C-dir. İllik yağıntı 340-800 *mm*-dir. Ağsu və Girdiman

çayları rayonun ərazisindən axır. Yuxarı Şirvan kanalı rayonun cənubundan keçir. Torpaqları karbonatlı qəhvəyi dağ-meşə, dağ boz-qəhvəyi, açıq şabalıdı, boz və çəmən-boz tiplidir. Dağlıq sahədə meşə və kolluqlar var. Heyvanları: ayı, çöldonuzu, çaqqal, porsuq, canavar, tülkü və s. Quşları: kəklik, turac, çalağan və s. Sürünənlərdən gürzə, kələz və s.

Ağsu, əsasən, kənd təsərrüfatı rayonudur. Heyvandarlıq və taxılçılıq inkişaf etmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda ilk dəfə 1954-cü ildə «Yeni həyat» qəzeti nəşrə başlamışdır. 1961-ci ildə rayonlararası «İrəli» qəzeti buraxılmışdır. 1966-cı ildə Ağsu rayonunun partiya və sovet təşkilatlarının orqanı olan «Birlik» qəzeti təsis edilmişdir. 2003-cü ilin yanvarından isə Ağsu Rayon İcra Hakimiyyətinin orqanı olan «Ağsu» qəzeti buraxılmışdır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Ağsu rayonunun ərazisindən dəmir yolu keçmir. Respublika əhəmiyyətli Bakı-Qazax magistral avtomobil yolunun 38 kilometri, Ağsu-Kürdəmir magistral avtomobil yolunun 18 kilometri rayonun ərazisindən keçir. Hər iki magistral avtomobil yolu ikinci kateqoriyaya aid olan yollardır.

Ağsu rayonunun mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Qədim qəbiristanlıq, məbəd və yaşayış yeri, antik dövr, Ağsu rayonu Nüydü kəndi;
Cavanşir yaşayış yeri, ilk orta əsrlər, Ağsu şəhərindən 3 km şərqdə;
Yeni Şamaxı qalıqları, orta əsrlər, Ağsu şəhərindən 5 km aralı;
Qırlartəpə yaşayış yeri, eneolit - antik dövrü, Qırlar kəndi;
Qədim qəbiristanlıq, I əsr, Qırlar kəndinin yaxınlığında;
Xaraba şəhər yeri, XVI-XVIII əsrlər, Ülgüc kəndinin yaxınlığında;
Xanyurdu kurqanı, Tunc dövrü, Ərəbuşağı kəndi;
Qaraçıbulaq, e. ə. III-I əsrlər, Nuran kəndindən şərqdə;
Qaraçuxa nekropolu, son Tunc - İlk dəmir dövrü, Nuran kəndindən şərqdə;
Xəzinə dağı, orta əsrlər, Padar kəndinin yanında;
Nekropol, I-III əsrlər, Xasıdərə kəndindən şərqdə;
Şeyx Dursun Türbəsi, 1457-ci il, Ağsu şəhəri;
Pir Bəxtiyar Türbəsi, XX əsr, Ağsu şəhəri;
Ağ günbəz türbəsi, 1897-ci il, Qaraqoyunlu kəndi;
Qırmızı günbəz türbəsi, 1909-cu il, Qaraqoyunlu kəndi;
Bilal Əfəndi məscidi, XIX əsr, Padar kəndi;
Məsci, XX əs, Padar kəndi;
Şeyx Əmirəhməd türbəsi, 1722-ci il, Xəlilli kəndi.

## Astara rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 0,62 min kv. km**

**Əhalinin sayı - 111,9 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 180 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 89**

**Qəsəbələrin sayı – 2**

**Astara rayonu ilə Bakı arasında olan məsafə - 313 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Astara rayonu** | 96230 | 100,0 | 47752 | 49,9 | 48478 | 51,1 |
| şəhər əhalisi | 22112 | 22,98 | 10855 | 22,73 | 11257 | 23,22 |
| kənd əhalisi | 74118 | 77,02 | 36897 | 77,27 | 37221 | 76,78 |

**Ümumi məlumat**

Rayon 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna birləşdirilmiş, 1965-ci ildə ayrılaraq yenidən müstəqil rayon olmuşdur. Rayon cənub-qərbdən və cənub-şərqdən İranla həmsərhəddir. Mərkəzi Astara şəhəridir.

Rayona Astara şəhəri, Kijəbə qəsəbəsi və Oyakəran, Tüləküvan, Burzubənd, Noyabud, Ovala, Xıçaso, Şəmətük, Sipiyaəlfətik, Vənəşikəş, Suparibağ, Məscidməhəllə, Qapıçıməhlə, Rudəkənar, Seləkəran, Ərçivan, Səncərədi, Artupa, Alaşa, Şuvaş, Züngüləş, Şuvi, Sərək, Vəznəş, Siyətük, Səlivə, Deqadi, Səkəşam, Təngərud, Maşxan, Pensər, Telman, Şiyəkəran, Şahağac, Kokolos, Gülyatan, Bala Şahağac, Qamışovka, Siyəkü, Lələkəpeştə, Vaqo, Liəzi, Sıqalonu, Sihəkəran, Binabəy, Şıxaməhlə, Siyakeş, Şaqlazüzə, Həsin, Güləşə, Rinə, Taxtakəran, Qanqalaş, Lobir, Vaqadi, Miki, Giləparqo, Çuvaş, Viləşə, Bili, Marzəsə, Bio, Asxanakəran, Balbau, Azaru, Bur-sut, Motalayataq, Əkbərməhlə, Şıxımpeştə, Anbabu, Vələparqo, Dəstor, Hamoşam, Kilinbi, Kamlakan, Toradi, Rıvadila, Rıqlaba, Pəlikəş, Lomin, Vavada, Dolu, Sipiyət, Şəvqo, Avyarud, Sım, Şümrüd, Dürriyə, Diqo, Çükəş, Sipiyəpart kəndləri daxildir.

Relyefi qərbdə dağlıq (Talış silsilələri), şimal-şərqdə düzənlikdir (Lənkəran ovalığı). Dağlıq hissədə bəzi zirvələrin hünd. 2000 *m-ə* yaxındır.

Xəzər sahilində dar zolaqda Antropogen, dağlıq və dağətəyi yerlərdə isə Paleogen çöküntüləri yayılmışdır. Mineral bulaqlar (Ağ körpü, İstisu, Sım, Bi, Toradi, Şeyx Nəsrullah bulaqları və s.) var. İqlimi yayı quraq keçən mülayim istidir. Rayonun düzənlik və dağətəyi hissəsi respublikanın rütubətli subtropik zonasına daxildir. Orta temperatur yanvarda -l,5°C-dən 4°C-yədək, iyulda 15-25°C-dir. İllik yağıntı 1200-1750 *mm*-dir. Ərazidən Təngərud çayı, İran İslam Respublikası ilə dövlət sərhədi boyu isə Astara çayı axır. Qleyli-podzollu sarı, qonur dağ-meşə, çimli dağ-çəmən və s. tipli torpaqlar yayılmışdır. Rayon ərazisinin çox hissəsi (37,4 min *ha)* meşələrlə örtülüdür. Burada relikt şabalıdyarpaq palıd, dəmirağac, ipək akasiya, azat, həmçinin palıd, vələs, fıstıq, qoz, qızılgöz, cökə və s. bitir. Hirkan Milli Parkının çox hissəsi Astara rayonundadır. Heyvanları: bəbir, vaşaq, ayı, meşə pişiyi, oxlu kirpi, daşlıq dələsi, porsuq, çaqqal, tülkü, canavar, çöldonuzu və s. Quşları: qırqovul, vağ, qaz, ördək, göyərçin, kəklik, çöltoyuğu və s.

Tarixi faktlar təsdiq edir ki, Astara şəhəri Azərbaycanın Talış mahalının qədim və inkişaf etmiş məntəqələrindən biri olmuşdur. Astara şəhərinin adı qədim dünya alimlərinin kitablarında, səyyahların qeydlərində, coğrafiyaşünasların xatirələrində öz əksini tapmış, bu məntəqə barədə müəyyən maraqlı məlumatlar verilmişdir.

Qədim dünyanın görkəmli riyaziyyatçısı, astronomu və coğrafiyaşünası İsgəndəriyyəli Klavdi Ptolomey eramızın 90-160-cı illərində yaşayaraq qədim tədqiqatçılardan biri olmuş və II-əsrə aid Xəzər dənizinin xəritəsini tərtib etmiş, onun sahillərində yerləşən coğrafi adlar, obyektlər və yaşayış məntəqələri barədə ümumi qayda ilə dəqiq məlumat vermişdir. K. Ptolomey bu xəritədə Albaniyanın ona məlum olan bir çox şəhər və kəndlərin adlarını çəkmiş və Astaranın adı yunanca «Astarata» kimi qeyd olunmuşdur.

Qədim dünyanın digər alimi Strabon özünün «Tarixi hadisələr» barədəki qeydlərində «Astara» adının olmasını göstərərək, «dənizin ləpələrinin dağların ətəklərini yuması və öpməsi» barədə fikirlər söyləmişdir. İngilis taciri Antoni Cenkinson İngiltərə ilə Buxara arasında ticarət əlaqələrini yaratmaq məqsədi ilə 1959-cu ildə Xəzər dənizi sahillərində olmuşdur. 1562-ci ildə Londona qayıdaraq öz səfərləri haqqında «Rusiya-Tatarıstan təsviri» adlı əsərini nəşr etdirmiş və həmin əsərdə dərc edilmiş xatirədə Xəzər dənizi ətrafındakı yaşayış məntəqələrinin adlarını vermişdir. O, bu xatirədə Astaranın yunanca «Stara» kimi göstərmişdir.

Astara bir qədim yaşayış məntəqəsi olmaqla, tarixi İpək yolu onun ərazisindən keçmiş, Orta, Ön, Kiçik Asiya, Çin, Hindistan və Ərəb dünyası ilə geniş əlaqələr qurulmuşdur. Astara şəhərinin cənub-qərb hissəsində yerləşən Qapıçıməhəllə kəndinin ərazisində Astara çayının kənarında çox qədim tarixə malik olmaqla karvansara - ribat mövcud olmuşdur. Həmin karvansaranın qalıqları aşkar edilmiş və onun VII əsrə aid olması müəyyən olunmuşdur.

Müxtəlif Şərq ölkələrini, eləcə də Azərbaycanı gəzib dolaşmış Alman səyyahı Hans Şilberqer (1394 - 1427) Astaranın beynəlxalq ticarət əlaqələri barədə konkret məlumat vermişdir. Səyyah qeyd etmişdir ki,

Astarada çoxlu ipək istehsal olunur, bu ipəyin ən yaxşı növü Dəməşq, Bursa, Kaşan və Venetsiya kimi sənətkarlar mərkəzlərinə ixrac olunur. Bu yerlərdə həmin ipəkdən yaxşı məxmər parçalar toxunur.

Orta əsrlərdə Astaranın əyalət paytaxtı, dini, mədəni və ticarət mərkəzi olması barədə məlumatlar da maraqlıdır. Astara şəhərində dulusçuluq və saxsıbişirmə mədəniyyəti də geniş inkişaf etmişdir. Hələ XIII əsrin axırları, XIV əsrin əvvəllərində Astaranın Maşxan məntəqəsində pul « sikkə zərbxanası mövcud olmuşdur. Rus alimi A. M. Markov Dərbənd, Şamaxı və Təbriz, eyni zamanda Astarada zərb olunan sikkə pullarını dərindən öyrənərək, öz əsərlərində bu barədə geniş məlumatlar vermişdir. Alim sübut etmişdir ki, pulların üzərində adları yazılan şəhərlər, xüsusən də Astara şəhəri elə indiki Astara şəhəridir. Müxtəlif dövrlərdə hökmranlıq etmiş Hülakilər, Cəlarilər, Teymurilər, onların varisləri və başqaları Astara zərbxanasında pul kəsmişlər. Əmir Teymurun və ondan sonrakı dövrlərdə üzərində «Zərbe Astara» (Astarada zərb olunmuşdur) sözləri yazılan sikkələr bilavasitə bizim Astarada zərb olunan pullar olmuşdur. Bunu Avropa alimləri də öz əsərlərində sübut etmişlər. Hal hazırda həmin sikkələrin 16 nümunəsi Tacikistan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda mühafizə edilir.

Astara 1747-ci ilə kimi Talış mahalının paytaxtı olmuş, sonralar Astara hakimi Qaraxan paytaxtı Lənkərana köçürmüşdür. Paytaxt Lənkərana köçürülərkən bir çox mühüm qədim tikinti və memarlıq obyektləri, istehkamları da söküntüyə məruz qalmışdır.

Dövrün tanınmış alimlərindən biri olmuş məşhur alman səyyahı Adam Oleari (1599-1671) Astarada olmuş, astaralılar barədə müəyyən maraqlı məlumatlar vermişdir. 1638-ci ildə Novruz bayramı vaxtı Astarada olan səyyah yazır ki, Astara vilayəti Xəzər dənizi sahilində yerləşir. Burada adam yoğunluğunda üzüm tənəkləri vardır. Bu faktı vaxtı ilə qədim tarixçi Strabon da xəbər vermişdir. Strabonun verdiyi bu xəbərə görə o vaxtlar Hikaniya adlanan bu yerlərdə bir kiçik tənək bir səbət üzüm verərmiş. Bütün bunlar Astara torpaqlarının yüksək məhsuldarlığa malik olduğuna sübutdur.

Tanınmış Macar şərqşünas və səyyahı Armin Vanberinin (1832-1913) 1885-ci ildə Budapeştdə nəşr etdirdiyi «Türk elləri» adlı kitabın böyük bir fəsli Azərbaycana həsr olunmuş, Astarada gəzib dolaşdığını bildirmiş, burada yaşayan xalqın gözəl folklor nümunələrinə malik olmasını qeyd etmişdir.

Tanınmış fransız alimi, arxeoloqu və səyyahı Jak De Morqan (1856-1934) Astarada olmuş, bu torpağın yeraltı və yerüstü sərvətlərinə heyranlığını gizlətməmiş və Astara haqqında belə yazmışdır: «Astara qədim rus şəhəridir. İranla-Azərbaycan arasında gömrükxana rolunu oynayır, həm də özünün keçmiş xüsusiyyətlərini saxlayır. İndi isə sadəcə gömrükxanadır. Hazırda Astara Azərbaycandan Ərdəbilə-irana karvanların və dənizdən yolların gəmilərin çıxış məskənidir». Məşhur fransız səyyahı, yazıçı Aleksandr Düma da Astara haqqında maraqlı məlumatlar vermişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonun ictimai-siyasi qəzeti olan "Astara" 1932-ci ildən nəşr olunur.

Azərbaycan Yazıçılar Birliyinin jurnalı olan "Alov" 2000-ci ildən nəşr olunur və rayonda yalılır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonda Astara və Qamışovka dəmir yolu stansiyası vardır. Bakı-Astara dəmir yolunun Astaraya aid olan hissəsi 19 km, avtomobil yolunun uzunluğu isə 31 km olmaqla Respublika əhəmiyyətlidir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Astara rayonunun çox qədim tarixə malik olan daşınmaz tarix və mədəniyyət abidələri vardır. Bu qədim tarixə malik olan maddi-mədəniyyət nümunələri haqqında çoxlu əfsanələr, rəvayətlər yaranmış, xalqın inancında və yaddaşında indi də qalmaqdadır.

Həmin abidələrdən 102 ədədi Respublika Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikası ərazisində Dövlət Mühafizəsinə götürülmüş daşınmaz tarix və Mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü»nə daxil edilib uçota alınmış və rəsmi inventar nömrəsi verilmişdir. Dərəcəsinə görə həmin abidələrdən ölkə əhəmiyyətli 26 arxeoloji, yerli əhəmiyyətli 48 memarlıq abidəsi, 2 ədəd bağ - park monumental xatirə abidəsi, 21 yerli əhəmiyyətli arxeoloji abidə, 5 ədəd dekorativ-tətbiqi sənət nümunəsi, xalq daş - heykəltəraşlıq nümunəsinə ayrılmışdır. Bu abidələrdən ən qədim nümunələri olan - e. ə. II minilliyin sonu I minilliyin əvvəllərinə aid olan Əzərrüd kəndindəki «Daş qutu nekropolu», Miki kəndindəki «Miki dolmen nekropolu», bizim e. ə. V-I əsrlərə aid Rüədıla kəndindəki «Xolobin daş qutu nekropolu», tunc və antik dövrə aid Siyakü kəndindəki I və II - Siyakü yaşayış yerləri, tunc dövrünə aid «Baba Cabbar kurqanı», «Təngərüd kurqanı», «Seyidcamal kurqanı», «Vaqo» kurqanları, «Baba Hümmət kurqanı», «Bi yaylağı kurqanı» 4 ədəd Siyakü kurqanları, Artupa kəndindəki Axicəbəl kurqanı, Alaşa kəndindəki 3 ədəd kurqan, Lovayn kurqanı, Binəbəy kəndindəki «Binəbəy kurqanları», dəmir dövrünə aid Koraoba kəndindəki «Koraoba daş qutu nekropolu» və s. göstərmək olar.

Rayonun İranla sərhəd kəndləri olan və hazırda əhali yaşamayan Anbaran, Baxçalar, Armudu, Çayağzı, Unuz, Təngöv, Növüştərü, Dilmədi, Siyov və başqa qədim yaşayış məntəqələrində yüzlərlə arxeoloji cəhətdən tədqiq olunmamış maddi-mədəniyyət nümunələri vardır.

Astara rayonunda ən maraqlı abidə hazırda Tarix-Diyarşünaslıq muzeyində saxlanılan daş insan heykəlidir. Bu daş heykəlin 2000 ildən çox yaşı olması barədə Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət institutunun mütəxəssisləri muzeyə rəsmi rəy təqdim etmişlər.

Astara rayon Tarix-Diyarşünaslıq muzeyində 8 mindən çox eksponat vardır. Muzeydə daş, dəmir, tunc dövrlərinə aid eksponatlara rast gəlmək olar. Əsasən IX-XII əsrlərə aid mis sikkələr Şirvanşahlara, Abbasi xəlifələrinə aid digər sikkələr muzeyin bəzəyidir. Daş parçası üzərində Maral təsvirinin 2000-3500 il yaşı vardır. Astara memarlıq abidələri ilə zəngindir. Bunlardan Şahağac kəndindəki XII-əsrə aid türbə, Burzubənd kəndindəki Şeyx Məhəmməd Zalani türbəsi diqqəti cəlb edir.

Şindan qalası Bi yaxınlığındakı Qala - Kafu, Alaşa kəndinin qərbində yerləşən Divankə qalası, Təngərüd kəndindəki Yekdəst qalası, Hamuşam kəndində gəlin qayaları mədəni irsimizdən qalan yadigarlardandır. Şindan qalası və Qala - Kafu Astaranın dağlıq ərazisinin ən uca zirvəsində yerləşir.

Şindan qalası daş və kərpicdən hörülmüşdür. Qalaya şimal tərəfdən ancaq bir yol vardır. Gözətçi və sərkərdənin müşahidəsi üçün düzəldilmiş xüsusi yerlər maraq doğurur. Qalanın dəniz səviyyəsindən 2000 metrə yüksəklikdə olması onun yadelli işğalçılardan mühafizə məqsədi ilə tikildiyini söyləməyə əsas verir. Yerli xalqda olan inanca görə Şindan qalası Babəkin qalalarından biridir. Ona görə də bu gün Astarada «Şindan» qalasının adı ilə bağlı mehmanxana, ticarət mərkəzi, rəqs qrupu, musiqi ansamblı, el aşığı qrupu və sair vardır. Azərbaycanın qədim guşələrindən biri kimi Astara əsrlər boyu müharibə meydanı olmuşdur. Heç də təsadüfi deyildir ki, 1638-ci ildə Astarada olmuş məşhur alman səyyahı Adam Oleari yazırdı: «Astaralılar həmişə silahı hazır saxlayırlar».

Rayonun Ərçivan kəndində 1499-cu ildə əsası qoyulmuş Məhəmməd Hənəfiyə məscidi Şah İsmayıl Xətai tərəfindən ziyarət edilmişdir. Həmin kənddə XIX əsrə aid Kərbəlayı Həmid Abdulla hamamı, Pensər kəndində Məşədi Abutalıb hamamı, Hacı Teymur və Hacı Canbaxış məscidləri diqqəti cəlb edir.

Astarada IX-XIII əsrlərin yadigarı, Azərbaycan xalqının qədim mədəniyyətini və tarixini özündə əks etdirən Şeyx Məhəmməd Zalani, Şeyx Məhəmməd Dilimi, Şeyx Nəsrulla, Baba Rəsul, Baba Cəbrayıl, Baba Misi, Baba Məhəmməd, Seyid Camal, Sultan Əhməd İbn Kərim, Seyid Kərim, Qırx Övliya, Xudavənd Xatun, Gəzəndaş və başqa onlarla ziyəratgahlar, pirlər, ocaqlar vardır. Maşxan kəndindəki Seyid Əhmədin məzar daşının XIV əsrə aid olması tanınmış tarixçi Məşədi Xanım Nemətova tərəfindən 1956-cı ildə tədqiq edilmişdir. O, məzar daşının üzərində bu ifadələrin yazılmasını müəyyən etmişdir. «Fələyin dərzisi elə bir köynək tikməmişdir ki, onu hamı axıra qədər geyə bilsin».

Astara rayonunun mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Balakən rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 0,94 min kv. km**

**Əhalinin sayı - 100,7 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 107 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər – 1**

**Kəndlərin sayı - 57**

**Qəsəbələrin sayı – 1**

**Balakən rayonu ilə Bakı arasında olan məsafə - 394 km**

## Əhalinin sayı

**(1 yanvar, 2009-ci il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Balakən rayonu** | 89827 | 100,0 | 44012 | 49,9 | 45815 | 51,1 |
| şəhər əhalisi | 10316 | 11,48 | 4807 | 10,92 | 5509 | 12,02 |
| kənd əhalisi | 79511 | 88,52 | 39205 | 89,08 | 40306 | 87,98 |

**Ümumi məlumat**

Azərbaycanın şimal-qərbində, Böyük Qafqazın yamaclarında, Alazan-Həftəran vadisində yerləşən Balakən rayonu təbii ehtiyatlarının zənginliyinə, iqtisadi potensialına və mədəni irsinə görə respublikanın görkəmli rayonlarından biridir. Şimaldan Rusiya Federasiyası (Dağıstan MR) ilə, şimal-qərb və cənub-qərbdən Gürcüstan Respublikası ilə, şərqdən isə Zaqatala rayonu ilə həmsərhəddir. İnzibati vahid kimi 1930-cu ildə təşkil edilmiş, 1954-cü ildə şəhər tipli qəsəbə, 1968-ci ildə şəhər statusu almışdır. Əhalinin 68%-ni azərbaycanlılar, 29%-ni avarlar, 2%-ni ingiloylar, 1 %-ni başqa millətlər təşkil edir. Mərkəzi Balakən şəhəridir.

Rayona Balakən şəhəri, Qabaqçöl qəsəbəsi və Yeni Şərif, İtitala, Şərif, Hənifə, Murtuztala, Əyritala, Roçəhməd, Məlikzadə, Böyüktala, Cincartala, Gülüzənbinə, Göyəmtala, Qazma, Bedağar, Cillik, Öküzovtala, Şambulbinə, Darvazbinə, Qaysa, Abjit, Katex, Beretbinə, Kortala, Qarahacılı, Biçiqarbinə, Qullar, Acılıqbinə, Mahamalar, Solban, Qasbinə, Qaracabinə, Meşəşambul, Qazbölük, Gərəkli, Poştbinə, Mazımçay, Çor-Çorbinə, Püştətala, Mollaçıbinə, Qamıştala, Qaravəlili, Qadaşbinə, Pirgah, Sarıbulaq,

Kilsəbuqov, Ağkilsə, Çədərovtala, Talalar, Hetovlar, Bayrambinə, Tülü, Mazımüstü, Mazımqarışan, Xalatala, Göyrücük, Şambul, İsaqlıgirmə kəndləri daxildir.

Rayonun relyefi şimal-şərqdə dağlıq, cənub-qərbdə düzənlikdir. Baş Qafqaz silsiləsinin suayırıcında (Rusiya Federasiyası ilə sərhəd boyunca) Quton (3648 ra), Tinov-Rosso (3385 *m)* və s. zirvələri var.

Düzənlik hissədə Antropogen, dağlıq hissədə isə Yura və Tabaşir çöküntüləri yayılmışdır. Polimetal və gil yataqları var. İqlimi mülayim isti və yarımrütubətli subtropikdir. Yüksək dağlıq yerlərdə soyuq və rütubətlidir. Orta temperatur yanvarda -7,8°C-dən -l,5°C-yədək, iyulda 10,5-24,5°C-dir. İllik yağıntı 600-1400 *mm*-dir. Çay şəbəkəsi (Balakən, Mazım, Katex, Qanıx) sıxdır. Əsasən, qonur dağ-meşə, allüvial çəmən-meşə və allüvial çəmən torpaqları yayılmışdır. Rayonun şimal və şimal-şərq hissəsində meşələr (palıd, fıstıq, vələs və s.) geniş yer tutur. Yüksək dağlıq yerlərdə sub-alp və alp çəmənləri yayılmışdır. Heyvanları: dağkeçisi (tur), maral, cüyür, qonur ayı, köpgər (qarapaça), çöldonuzu, meşə və daşlıq dələsi, süleysin və s. Quşları: qartal, şahin, qırqovul və s. Zaqatala qoruğunun çox hissəsi Balakən rayonu ərazisindədir.

Alimlərin apardıqları tədqiqatlar, müəyyən dövrlərdə aparılan arxeoloji qazıntılar zamanı tapılan əşyalar, bu günə kimi qalmış bəzi tikili abidələr və kurqanlar deməyə əsas verir ki, Balakən - qədim yaşayış məskənlərindən biridir.

Yazılı qaynaqların verdiyi məlumatlara görə Balakən Qədim Albaniya dövlətinin ərazisinə daxil olmuşdur. E.ə. 65-ci ildə Roma və Alban qoşunları arasında Alazan (Qanıx) çayı sahilində baş verən döyüşlərdə iştirak edən qədim yunan tarixçisi Plutarx yazırdı ki, bu yerlərin əhalisi sakit təbiətli, məğrur, döyüşdə cəsurdurlar. Bu gün də Hetovlar (Hetləri xatırladan), Hunbulçay (Hunları xatırladan), İngiloylar (Qelləri xatırladan) və s. toponimlərin tədqiqi sübut edir ki, ən qədim zamanlardan başlayaraq, türkdilli tayfalar bu bölgənin daimi sakinləri olmuşlar.

Dağlar qoynunda yerləşən Balakən Azərbaycanın ən gözəl guşələrindən biri olmaqla məftunedici təbiəti, zəngin flora-faunası ilə seçilir. Nadir təbiəti ilə tanınan Zaqatala Dövlət Qoruğunun böyük hissəsini Balakən dağları əhatə edir. Təbiətin möcüzələrindən olan Katex şəlaləsi də bu bölgədə yerləşir.

1918-ci il mayın 28-də Azərbaycanın İstiqlalı elan olundu. Balakəndə əhali bu xəbəri azad və xoşbəxt günlərin sorağı kimi qarşıladı. Lakin həmin dövrün siyasi durumu çox mürəkkəb idi. Bu dövrdə Vətənin, doğulduğu torpağın təəssübünü çəkən ziyalı və qabaqcıl adamlara ehtiyac var idi. Düşmən qüvvələrin qarşısına cəsarətlə çıxan belə adamlardan biri də balakənli, Qori Seminariyasında dahi bəstəkar Üzeyir Hacıbəyovla birgə oxumuş, onunla qohum olmuş Həmzət bəy Xəlilov idi. O, Zaqafqaziya Seymi dağıldıqdan sonra başçılıq etdiyi azərbaycanlılardan ibarət süvari dəstələrini Tiflisdən Balakənə gətirmiş və Azərbaycan Demokratik Respublikasının yeni yaranan ordusunun tərkibində bu ərazinin sərhədlərinin mühafizəsində, amanlığın qorunmasında fəal iştirak etmişdir.

Balakən oğulları II Dünya müharibəsində də cəsur, igid olduqlarını nümayiş etdirmişlər. Alman faşizminə qarşı müharibəyə gedən 6882 nəfərdən 2315 nəfəri döyüşlərdə həlak olmuşdur. Döyüş meydanında göstərdikləri şücaətə görə yüzlərlə iştirakçı dövlət orden və medalları ilə təltif edilmişdir.

Qarabağ uğrunda döyüşlərdə də Balakən 152 şəhid vermişdir. 82 vətənpərvər gənc isə ailəsinə əlil kimi qayıtmışdır.

Müharibədən sonrakı illərdə balakənlilərin əmək cəbhəsində qazandıqları uğurlar böyük olmuşdur. Maraqlı faktdır ki, Balakən rayonu nəhəng SSRİ məkanında bəlkə də yeganə rayondur ki, 19 nəfər o dövrün ən yüksək dövlət təltifinə, Sosialist Əməyi Qəhrəmanı adına layiq görünmüşlər.

Balakənin iqtisadi, sosial və mədəni həyatında baş verən böyük dəyişikliklər ötən əsrin 70-80-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikaya başçılıq etdiyi illərə təsadüf edir. Dahi rəhbərin gördüyü böyük işlərlə yanaşı nəsillərin yaddaşında qalacaq ən böyük hədiyyəsi isə bu bölgə üçün mühüm əhəmiyyət kəsb edən Bakı-Balakən dəmir yolunun istifadəyə verilməsidir.

Balakən iqtisadiyyatında aqrar sektor aparıcı sahədir. Tütünçülük, meyvəçilik, baramaçılıq və qarğıdalıçılıq Balakən əməkçilərini şöhrətləndirən sahələrdir. Bununla yanaşı, heyvandarlıq məhsulları istehsalı, tərəvəzçilik, taxılçılıq, eləcə də ənənəvi olmayan üzümçülük və balıqçılıq sahələri də inkişaf etdirilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 80-ci ildönümü münasibəti ilə burada «Heydər bağı» salınmışdır. Bir çox rayon tədbirləri və təntənəli mərasimlər dahi öndərin büstü önündə keçirilir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Balakəndə rayon İcra hakimiyyətinin və redaksiyanın jurnalist kollektivinin təsisçisi olduğu «Balakən» qəzeti nəşr edilir.

1935-ci ildən işıq üzü görən qəzet əvvəl «İrəli», sonra «Şən həyat» adları altında dərc olunmuşdur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Balakən rayonunun ərazisindən keçən Respublika əhəmiyyətli, III dərəcəli yolun uzunluğu 48 km-dir. Bu yolun 45 km-nə asfalt, 3 km-nə isə qara örtük döşənmişdir.

Yerli əhəmiyyətli yolların ümumi uzunluğu 395,6 km-dir. Bu yollar III, IV və V dərəcəlidir.

Balakən dəmiryol stansiyası IV dərəcəlidir. Rayonun mərkəzindən dəmiryol stansiyasına məsafə 4 km-dir. Balakən-Zaqatala dəmiryol xəttinin uzunluğu 25 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Azərbaycanın ucqar şimal-qərbində Böyük Qafqazın cənub yamaclarında yerləşən Balakən rayonu maddi-mədəniyyət abidələri ilə zəngindir.

Balakən bölgəsinin keçmişini və bu gününü araşdırmaq, öz tarixi keçmişimizlə bağlı abidələrimizi qoruyub gələcək nəsillərə çatdırmaq hər birimizin insanlıq borcudur.

Rayonda 2 ölkə əhəmiyyətli, 15 yerli əhəmiyyətli, 7 arxeoloji, 1 xatirə abidəsi vardır.

***Ölkə əhəmiyyətli abidələr:***

1. Pəri qalası (XII-XIII əsrlər).

Pəri qalası Gərəkli kəndində Hunbul çayının yatağı istiqamətində, dağ keçidinin qarşısında tikilən möhtəşəm qaladır.

2. Minarəli məscid (XVIII-XIX əsrlər).

Minarəli məscid təkcə Şəki-Balakən zonasında deyil, Azərbaycanda olan ən böyük və ən hündür minarəli məscidlərdən biridir. Məscidin sahəsi 1025 kvadrat m-dir. Məscidin əsas binasından ayrı tikilmiş minarənin hündürlüyü 45-m-ə çatır.

***Ölkə əhəmiyyətli arxeoloji abidələr:***

1. Köhnə qəbiristanlıq (XI-XII əsrlər).

Köhnə qəbiristanlıq Salban kəndində Mirzalovların şəxsi həyətlərində yerləşir.

2. Noxo mağarası (Dəmir dövrü).

Qubek dağında yerləşir. Həmin mağaradan gizlənmək məqsədi ilə istifadə olunmuşdur.

3. Xarabalıq yaşayış yeri (V-VIII əsrlər, Mahamalar kəndi).

Balakən çayının yatağında yerləşir.

4. Pir (V-VIII əsrlər, Salban kəndi).
5. Küpqəbirləri nekropolu (E. ə. II-I əsrlər, Mahamalar kəndi).
6. Yeraltı su anbarı - Qullar kəndi.
7. Şəhərgah - orta əsrlər. Katex kəndi.

***Yerli əhəmiyyətli abidələr:***

1. Qala divarları - XIX əsr. Mahamalar kəndi. 2. Məscid - XVIII əsr. Mahamalar kəndi. 3. Qala - XIX əsr. Mahamalar kəndi. 4. Məbəd - 1780-ci il. Qullar kəndi 5. Zaqatala qalasının qalıqları - XIV əsr. Katex kəndi. 6. Dördbucaqlı qala - XVII əsr. Katex kəndi. 7. Məscid - XIV əsr. Katex kəndi. 8. Məbəd - Katex kəndi. 9. Məbəd - Katex kəndi. 10. Türbə - XIV əsr. Tülü kəndi. 11. Məscid - 1910-cu il. İtitala kəndi. 12. Məscid - Kortala kəndi. 13. Məbəd - XIV əsr. Hənifə kəndi. 14. Məscid - XIV əsr. Xalatala kəndi. 15. Məbəd - Mazımçay kəndi.

Xatirə abidəsi - Böyük Vətən müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi.

Yeni qeydə alınmış abidələr: Nur kilsə - V-VII əsrlər. Abidənin uzunluğu 15 m, giriş hissəsinin hündürlüyü 7,6 m-dir. Bu hissə iki tərəfli və altıbucaq şəkillidir. Binanın eni isə 6 m-dir.

Nur kilsə Hətovlar kəndində yerləşir.

Darvaz məbədi. Abidənin divarları bişmiş qırmızı kərpicdən tikilib. Kərpicin eni 30-35 sm, uzunluğu 35 - 36 sm, qalınlığı isə 5-6 sm-dir. Məbədin üstü mükəmməl bir sənətkarlıqla kərpiclə kümbəz şəklində hörülüb. Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Bərdə rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 0,95 min kv. km**

**Əhalinin sayı - 156,9 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 165 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 110**

**Bərdə rayonu ilə Bakı arasında olan məsafə - 314 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-ci il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Bərdə rayonu** | 141646 | 100,0 | 70689 | 50,0 | 70957 | 50,0 |
| şəhər əhalisi | 37807 | 26,69 | 18364 | 25,98 | 19443 | 27,40 |
| kənd əhalisi | 103839 | 73,31 | 52325 | 74,02 | 51514 | 72,60 |

**Ümumi məlumat**

Qarabağ düzündədir. Mərkəzi Bərdə şəhəridir.

Rayona Bərdə şəhəri və Ərəblər, Güloğlular, Şorəlli, Qaraqoyunlu, Qaradağlı, Divanlı, Cəyirli, Gərənə, Şatırlı, Kürdborakı, Qazaxlar, Nəzirli, Yeni Daşkənd, Mehdixanlı, Tağılar, Seyid Yusifli, Qayalı, Həsənaqaya, Saatlı, Qəhrəmanlı, Mirzəcəfərli, Mollagüllər, Əyricə, Yeni Əyricə, Kərimbəyli, Nəcəfqulubəyli, Mirzalıbəyli, Qaraməmmədli, Məmmədli, Mustafaağalı, Mollalı, Məşədiibişli, Lənbəran, Qazaxlar, Xəsili, Mollaisalar, Kolayır, Mollaməmmədli, Gülgəzli, Sərkərlar, Otuzikilər, Hacıəhmədli, Bayramlı, Xanərəb, Şərəfli, Qurdlar, Kətəlparaq, Piyadalar, Şirvanlı, Dəymədağlı, Uğurbəyli, Qullar, Hüseynbəyli, Xanxanımlı, Kələntərli, Dərğalar, Əliyanlı, Muğanlı, Qasımbəyli, Alaçadırlı, Alpout, Qarayusifli, Tumaslı, Lək, Arabaçılar, Hacılar, Qaradırnaq, Qaratəpə, Mehdili, Qaradəmirçi, Türkmən, Həsənli, Köbərkənd, Hacıbəyli, Çumalar, Təhlə, Çələbilər, Nifçi, Böyük Göyüşlü, Bala Göyüşlü, Soğanverdilər, Bəcirəvan, Zümürxaç, İmamqulubəyli, Cəmənli, Umudalılar, Cimcimli, Hacıalılı, Hacıalılı, Mirasəfli, Qarahacı, Samuxlu, Vəliuşağı, Bala Qacar, Böyük Qacar, Körpüsındıran, Birinci Qaradəmirçi, İkinci Qaradəmirçi, Hüseynalılar, Xanağahlı, Mirzəxan-Qaraqoyunlu, Qafarlı, Hacılı, Əmirli, Şahvəlilər, Qazıqurdalı, Yerli Ağalı, Nəzirli, Bala Ərəblər kəndləri daxildir.

Rayonun ərazisi Qarabağ düzünün mərkəzi hissəsindədir. Səthi az meyilli və dalğalı düzənlikdən ibarətdir. Antropogen sisteminin çöküntüləri ilə örtülüdür. Gil, çınqıl və qum yataqları var. Rayonun Muğanlı kəndində "Muğanlı suyu" adlanan müalicə əhəmiyyətli təbii bulaq mövcuddur. İqlimi mülayim isti, quru subtropikdir. Qışı quraq keçir. Orta temperatur yanvarda 1,2-1,8°C, iyulda 25,6-26,5°C-dir. İllik yağıntı 250-350 *mm*-dir. Rayon ərazisindən Tərtər və Xaçın çayları, şimal-şərq sərhədi boyu isə Kür çayı axır. Əsasən, boz və boz-çəmən torpaqları yayılmışdır. Təbii bitki örtüyü, əsasən, quru çöl və yarımsəhra tiplidir. Kür çayı sahilində seyrək Tuqay meşələri (ümumi sah. 7,3 min *ha)* var. Heyvanları: tülkü, canavar, çöldonuzu, boz dovşan, süleysin və s. Quşları: turac, qırqovul, qaz, ördək və s. Rayon ərazisində Bərdə yasaqlığı var.

Bərdə inkişaf etmiş kənd təsərrüfatı rayonudur. Bu-rada əkinçilik və maldarlıq əsas yer tutur.

Rayonda "Qarabağ-Pambıq" ASC, "Yağ-Pendir" ASC, "Fərid" inşaat firması, mini makaron fabriki və s. müəssisələr fəaliyyət göstərir.

Bərdə şəhəri təkcə Azərbaycanın deyil, bütövlükdə Yaxın Şərqin ən qədim yaşayış mərkəzlərindəndir. Bunu arxeoloji qazıntılar zamanı tapılmış materiallar, o cümlədən Makedoniyalı İsgəndər, Arakilər və Roma imperatoru Avqust dövrünə aid pullar sübut edir. Əldə edilmiş mənbələr Bərdənin hələ e. ə. mövcud olan ölkələrlə əlaqəsi olduğunu göstərir.

Ərəb tarixçisi Belazüri (IX əsr) Bərdənin Sasani hökmdarı I Qubadın (483-531), İran tarixçisi Həmdullah Qəzvini (XIV əsr) Makedoniyalı İsgəndərin (e.ə. 336-323) dövründə salındığını bildirmişdir. Movses Kalankatlının məlumatına görə, Bərdə Alban hökmdarı II Vaçe dövründə Firuzun (459-484) göstərişi ilə salınmışdır. Bu dövrdə Bərdənin adı «Firuzabad» olmuşdur. «Kitabı-dədə Qorqud» dastanında Bərdədən bəhs olunur.

Sasanilər dövründə Bərdə canişinliyinin mərkəzi olmuşdur. I Qubadın dövründə Bərdənin ətrafına divar çəkilmişdir. X əsrdə Albaniyanın paytaxtı olmuş, 552-ci ildə Alban kilsəsinin də mərkəzi Bərdəyə köçürülmüşdür.

Bərdə 628-ci ildə Xəzərilər, 639-cu ildə İran feodalları tərəfindən işğal olunmuşdur. Alban hökmdarı Cavanşir işğalçıları Bərdədən qova bilmişdir.

Xəlifə Osmanın dövründə (644-656) Ərəb qoşunları Bərdəni tutmuşdur. VI-VII əsrlərdə Bərdədə 100 min nəfər əhali yaşamışdır. XIII əsrdə Bərdədə pul kəsilmişdir.

Bərdə 752-ci ildə Aran vilayətinin mərkəzi olmuşdur. VIII-IX əsrlərdə Bərdə mühüm ticarət, mədəniyyət mərkəzinə çevrilmişdir. Məşhur «Əl-Kürkiy» bazarı Bərdə darvazasının yaxınlığında yerləşirdi.

IX əsrin 90-cı illərinə qədər Bərdə Sasanilər dövlətinin tərkibində olmuşdur. Bərdə həm də Xürrəmilər hərəkatının əsas güc mənbələrindən biri idi.

Yaxın və orta Şərqdə sənətkarlıq və ticarət mərkəzi kimi tanınmış Bərdəyə 944-cü ildə ruslar yürüş etmişlər. Rusların irəli sürdüyü şərtlərə uyğun olaraq bir gün ərzində şəhəri tərk etməyən bərdəlilərə divan tutulmuşdur. Ruslar 20 min bərdəlini qılıncdan keçirmişdir. Ərazidə taun yayılmış, buna görə də rus

qoşunu şəhəri tərk etməli olmuşdur. Rusların talanlarından sonra uzun müddət Bərdə özünə gələ bilməmişdir.

Səddadilər sülaləsindən olan Fəzlin (985-1030) Bərdəni 993-cü ildə öz dövlətinə daxil etmişdir. Bərdə XI əsrdə səlcuqların, XII əsrdə Eldəgizlərin hakimiyyətinə tabe idi.

Monqolların hücumu zamanı Bərdə yenidən dağılmış, Elxanilər dövründə bərpa olunmuşdur. Əmir Teymurun yürüşündə Bərdə yenidən viran qalmışdır. Xanlıqlar dövründə Bərdə Qarabağ xanlığının tərkibində olmuşdur.

Onun tarixini də çox zaman əcnəbilər yazmışlar. Bir çox maddi mədəniyyət nümunələri günümüzə qədər gəlib çatmasa da, hər halda, yaşanmış tarixin izləri itib batmamışdır və onlar zəngin bir keçmişdən soraq verir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Bərdə» və «Xan Çinar» qəzetləri nəşr olunur. «Bərdə» qəzetinin ilk nömrəsi 1932-ci ildə «Qızıl Bərdə» adı ilə çıxmışdır. Sonralar, sovet hakimiyyəti illərində «Bərdə pambıqçısı», «Stalin yolu», «Kommunizm yolu» və s. adlarla nəşr edilmişdir. Qəzet rayon İcra Hakimiyyəti aparatının və jurnalist kollektivinin təsisçiliyi ilə çıxır.

«Xan-Çinar» özəl qəzetdir və bir neçə ildir ki, nəşr olunur.

Rayonda 1964-cü ildən yerli radio verilişləri redaksiyası fəaliyyət göstərir. Burada daha çox gündəlik məlumatlar, informasiyalar səsləndirilir.

Respublika televiziyasının verilişlərini yayımlamaq üçün rayonda teleötürücü güllə fəaliyyət göstərir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən 405.8 km uzunluğunda avtomobil yolları keçir. Onun 87 kilometri dövlət əhəmiyyətlidir. Dövlət əhəmiyyətli yolların 80 kilometri III, 7 kilometri IV kateqoriyalıdır.

Yerli əhəmiyyətli yollar 318.7 kilometrdir. Onlardan 93.9 kilometri III, 135.2 kilometri IV, 89.7 kilometri V kateqoriyalıdır.

Rayon ərazisindən keçən dəmir yollarının uzunluğu 17 kilometrdir. Onlar hamısı ikinci dərəcəli yollardır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Bərdə rayonu ərazisində, şəhərdə 1322-ci ildə tikilmiş Bərdə türbəsi, VI əsrə aid köhnə şəhər divarlarının (torpaq) qalıqları, XVIII əsrə aid İbrahim məscidi və qəbiristanlıq, Tərtər çayı üzərində VII-IX əsrlərə aid körpü, XIV əsrə aid Axsadan baba türbəsi, Güloğlular kəndində XVIII əsrə aid səkkizguşəli türbə vardır. Bunlar dövlət mühafizəsindədir. Ərazidə bunlardan əlavə, 1905-ci ildə tikilmiş cümə məscidi (Bərdə şəhərində), Şirvanlı kəndində XIX əsrə aid hamam, Uğurbəyli məscidi (XIX əsr), Bəhmən Mirzə Qacar məqbərəsi (1880) və s. tarixi və memarlıq abidələri var. Respublikamızın dövlət müstəqilliyi

illərində, xüsusilə 2000-ci ildən başlayaraq rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür. Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Beyləqan rayonu




**Yaranma tarixi - 24.11.1939**

**Ərazisi - 1,13 min kv. km**

**Əhalinin sayı - 101,6 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 90 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 25**

**Qəsəbələrin sayı – 16**

**Beyləqan rayonu ilə Bakı arasında olan məsafə - 265 km**

## Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Beyləqan rayonu** | 86192 | 100,0 | 43201 | 51,1 | 42991 | 49,9 |
| şəhər əhalisi | 36340 | 42,16 | 18201 | 42,13 | 18139 | 42,19 |
| kənd əhalisi | 49852 | 57,84 | 25000 | 57,87 | 24852 | 57,81 |

### Ümumi məlumat

Mil düzü rayonları qrupuna daxil olan Beyləqan rayonu 24 noyabr 1939-cu ildə yaranmış və Jdanov rayonu adlandırılmışdır.

Azərbaycan SSR Ali Sovetinin 19 mart 1989-cu il tarixli qərarı ilə rayonun adı dəyişdirilərək Beyləqan rayonu adlandırılmışdır. Rayonun ərazisi Azərbaycan Respublikasının Ağcabədi, Zərdab, Füzuli, İmişli rayonları ilə, habelə İran İslam Respublikası ilə həmsərhəddir. Mərkəzi Beyləqan şəhəridir.

Rayona Beyləqan şəhəri, Şəfəq, Bahar, Milabad, Örənqala, Baharabad, Yuxarı Aran, Mayak, Sarısu qəsəbələri və Qəhrəmanlı, Araz, Yeni Mil, Günəş, Şərq, Bolsulu, Türklər, Mil, Birinci Şahsevən, Dünyamalılar, Yuxarı Kəbirli, Əhmədli, Aşıqalılar, Bünyadlı, Gödəklər, Təzəkənd, Kəbirli, Yuxarı Çəmənli, Qaradağlı, İkinci Şahsevən, Əlinəzərli, Orta Əlinəzərli, Birinci Aşıqlı, İkinci Aşıqlı, Eyvazalılar, Tatalılar, İmamverdili, Vətağa, Qaralılar, Xaçınabad, Aşağı Çəmənli, Əmirzeyidli, Allahyarlı kəndləri daxildir.

Beyləqan rayonu Mil düzünün cənub-qərbindədir. Ərazisinin şimal-şərq hissəsi okean səviyyəsindən alçaqdadır. Əsasən, Antropogen çöküntülərindən təşkil olunmuşdur. Faydalı qazıntıları: çınqıl, qum və s.

Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi üstünlük təşkil edir. Orta temperatur yanvarda 1,8°C, iyulda 26°C-dir. İllik yağıntı 300 *mm*-dir. Rayonun şimal-şərq sərhədindən Kür çayı, cənub-şərq sərhədindən Araz çayı axır. Ərazidə, əsasən, boz və çəmən-boz torpaqlar yayılmışdır. Yovşanlı və yovşanlı-şoranotlu yarımsəhra bitkiləri geniş sahə tutur. Heyvanları: ceyran, çöldonuzu, canavar, tülkü, boz dovşan və s. Quşları: turac, qaraqarın bağrıqara, göyərçin və s.

İqtisadiyyatının əsasını bitkiçilik və heyvandarlıq təşkil edir. "Beyləqan-Pambıq" və "Beyləqan-Taxıl" ASC-ləri, "Ənvər-Bərəkət" MMC, Yol İstehsalat İdarəsi, subartezian quyuların istismarı idarəsi, suvarma qovşağı, poçtamt, rayon paylayıcı elektrik şəbəkəsi, "Aran-Qala" LTD firması, "Büllur" spirtsiz içkilər müəssisəsi və s. fəaliyyət göstərir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda kütləvi informasiya vasitələrindən olan yerli televiziya fəaliyyət göstərir.

Hazırda rayonda yerli informasiya vasitəsi kimi «Mil» qəzeti fəaliyyət göstərir. Bu qəzet 2003-cü ilin iyulunda təsis edilmişdir.Qəzetin təsisçisi Beyləqan rayon İcra hakimiyyətidir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Beyləqan rayonu ərazisindən uzunluğu 37 km olan Bakı-Mincivan dəmir yolu xətti keçir. Dəmir yolu xəttinin üzərində Beyləqan rayonunun inzibati ərazi bölgüsünə daxil olan Daşburun və Xalac dəmir yolu stansiyaları yerləşir.

Beyləqan rayonunun ərazisindən ümumi uzunluğu 103 km olan dövlət əhəmiyyətli avtomobil yolları, o cümlədən 34 km uzunluğunda Mingəçevir-Bəhrəmtəpə-Biləsuvar avtomobil yolu, 37 km uzunluğunda Bəhrəmtəpə-Həkəri-Mincivan avtomobil yolu, 32 km uzunluğunda isə Yuxarı Qarabağ kanalı-Beyləqan - Daşburun avtomobil yolu keçir.

Rayonun ərazisindən keçən dövlət əhəmiyyətli yollar üçüncü kateqoriyalı yollardır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Beyləqan rayonunda bir neçə tarixi abidələr mövcuddur. Bunlar Həzrəti Cərgiz Peyğəmbər ziyarətgahı, orta əsrlər dövrünü əhatə edən qədim Beyləqan şəhər xarabalığı (Örənqala) və Soltanbud təpəsidir.

Həzrəti Cərgiz Peyğəmbər ziyarətgahı XVII-XVIII əsrlərdə tikilmişdir. Hal-hazırda bu ziyarətgah respublikamızın bütün bölgələrindən, eləcə də Gürcüstandan və Dağıstandan gələn müsəlmanların inam və səcdə yeridir.

Beyləqan xarabalığı Örənqala tarixi abidəsi rayondan 18 km aralıda yerləşən Kəbirli kəndinin yaxınlığındadır. Burada qədim Beyləqan şəhəri mövcud olmuşdur. Tarixi məlumatlara görə əsası V əsrdə qoyulmuş Beyləqan şəhəri dövrünün ən iri ticarət və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bu şəhər XIII əsrdə monqol-tatarların işğalına məruz qalaraq tamamilə dağılmışdır. XIV əsrdə Əmir Teymur

tərəfindən şəhərin yenidən inşasına başlansa da, onun ölümü ilə əlaqədar olaraq başlanmış işlər yarımçıq qalmışdır. XVI əsrdən bəri şəhər xarabalığa çevrilmiş və bir daha bərpa olunmamışdır.

Bundan əlavə, rayon Mədəniyyət şöbəsinin mühafizəsində olan aşağıdakı tarixi, memarlıq və incəsənət abidələri mövcuddur: Saray təpəsi, Soltanbud qəbiristanlığı, Seyid Əminə türbəsi, Əminə Xatın məscidi, Kərbəlayı Seyid Ağa türbəsi, Gəray Əsədovun ev muzeyi, Böyük Vətən Müharibəsi iştirakçılarının xatirə kompleksi, Sevil Qazıyevanın ev muzeyi və büstü, Sovet İttifaqı Qəhrəmanı G. Əsədovun xatirəsinə ucaldılmış abidə, Türklər məscidi, Əmək birliyi abidəsi, M. Beyləqaninin heykəli, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun büstü.

Rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Beyləqan rayonunun mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Biləsuvar rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,36 min kv. km**

**Əhalinin sayı – 106,5 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 78 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 25**

**Biləsuvar rayonu ilə Bakı arasında olan məsafə - 182 km**

### Əhalinin sayı

**(1 yanvar, 2011-ci il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Biləsuvar rayonu** | 87508 | 100,0 | 43630 | 50,0 | 43878 | 50,0 |
| şəhər əhalisi | 20119 | 22,99 | 10055 | 23,05 | 10064 | 22,94 |
| kənd əhalisi | 67389 | 77,01 | 33575 | 76,95 | 33814 | 77,06 |

### Ümumi məlumat

Biləsuvar rayonu (1938-91 illərdə Puşkin rayonu) - Azərbaycan Respublikasında inzibati rayon. Muğan düzündədir. Cənub-qərbdən İran İslam Respublikası ilə həmsərhəddir. Mərkəzi Biləsuvar şəhəridir. 1963-cü ildə ərazisi Cəlilabad rayonu ilə birləşdirilmiş, 1964-cü ildən isə yenidən müstəqil rayon olmuşdur. SSRİ dövləti dağıldıqdan sonra 1991-ci ildən onun tarixi adı özünə qaytarılaraq Biləsuvar adlandırılmışdır.

Ərazisi şimaldan İmişli rayonu ilə 53 km, şimal-qərbdən Saatlı rayonu ilə 23 km, Sabirabad rayonu ilə 20 km, şərqdən Salyan rayonu ilə 23 km, Neftçala rayonu ilə 4 km, cənubdan Cəlilabad rayonu ilə 54 km, qərbdən isə İran İslam Respublikası ilə 64 km məsafədə həmsərhəd olmaqla, ümumi sərhəd dairəsinin uzunluğu 241 km-dir.

Biləsuvar beynəlxalq gömrük keçid məntəqəsi rayon ərazisində yerləşir. Rayonun ərazisi 1358 kvadrat kilometrdir.

Rayona Biləsuvar şəhəri və Ağalıkənd, Ovçubərə, Yuxarı Ağalı, Əmənkənd, Yuxarı Cürəli, Təzəkənd, Əsgərabad, Aşağı Cürəli, Muğan, Çaylı, Nəsimi, Nərimankənd, Səmədabad, Arazbarı, İsmətli,

Ağayrı, Günəşli, Çinarlı, Aranlı, Bağbanlar, Zəhmətabad, Xırmandalı, Əliabad, Dərvişli, Bəydili kəndləri daxildir.

Relyefi düzənlikdir. Ərazisinin çox hissəsi okean səviyyəsindən aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temperatur yanvarda 2,4°C, iyulda 26°C-dir. İllik yağıntı 321 *mm*-dir. Şabalıdı, açıq şabalıdı, boz-çəmən, allüvial-çəmən, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü səhra və yarımsəhra tiplidir. Heyvanları: ceyran, Kiçik Asiya qumsiçanı, qırmızıquyruq siçan və s.

Biləsuvar rayonu Azərbaycan Respublikasının zəngin tarixi keçmişi olan ərazilərdən biridir.

Azərbaycan Sovet Ensiklopediyasının ikinci cildində Biləsuvar rayonu haqqında verilmiş məlumatda qeyd edilir ki, «Biləsuvar - Azərbaycanda şəhər tipli orta əsr yaşayış məntəqəsidir. İran tarixçisi Həmdullah Qəzvininin məlumatına görə Biləsuvar X əsrdə Büveyhi əmiri Biləsuvar saldırmışdır». XIV əsr feodal çəkişmələri nəticəsində tənəzzülə uğrayan Biləsuvar şəhəri 1828-ci il Türkmənçay müqaviləsinə əsasən iki hissəyə bölünmüşdür. Rusiya imperiyası daxilində qalan hissəsinin əhalisi 1914-cü ildə Rusiya imperiyası cənub sərhədlərini keçilməz etdikdən sonra sərhəddən 20-40 km kənarda ruslar üçün salınmış yaşayış məntəqələrinə və digər ərazilərə köçürülmüşdür. Nəticədə vaxtilə Rusiyadan köçürülmüş əhalinin məskunlaşdığı Puşkin qəsəbəsi mərkəz olmaqla 1930-cu ildə Biləsuvar rayonu təşkil edilmişdir. 1938-ci ildə Biləsuvar adı dəyişdirilərək Puşkin rayonu adlandırılmışdır.

Sabir Nəsiroğlu adlı müəllifdən şərq aləminin tarixini və mədəniyyətini öyrənən «Həmşəhri» cəmiyyəti tərəfindən nəşr olunmuş «Sehrli diyarın sirri»« adlı qısaldılmış tarixi monoqrafiyasında və «Həməşəradan gələn səslər» kitabında Biləsuvarın tarixi ilə bağlı maraqlı məlumatlar çoxdur. Müəllif tarixi mənbələrə istinad edərək yazır ki, Muğanda xəzərlər, massagetlər və s. tayfalarla yanaşı bilyər və suvarlar da yaşamışdır. O, belə bir nəticəyə gəlir ki, Biləsuvar iki tayfanın - bilyər və suvarların cəmlənib düşmən qarşısında qəhrəmancasına vuruşduğu yer mənasını verir. Daha sonra müəllif qeyd edir ki, «Atlı əsgərlərin və çaparların keçid yeri» toponimi Biləsuvarın toponiminə uyğun gəlir.

Biləsuvar toponimin «Belə», «Su», «Var» sözlərindən yarandığını qeyd edənlər də var. Yerli əhali də bu fikrə daha çox üstünlük verir.

Bu gün Biləsuvar müstəqil Azərbaycanın inkişaf etmiş yaşayış məntəqələrindən sayılır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayon İcra Hakimiyyətinin orqanı olan «Məhsul» qəzeti 1931-ci ildən çap olunur. Bu qəzet 1950-ci ilədək «Qırmızı pambıqçı», 1962-ci ilədək «Yeni Muğan» adları ilə çıxmışdır.

Rayon ərazisində 1 teleqüllə və 1 radio-telefon qülləsi var.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Biləsuvar rayonu ərazisindən üç istiqamətdə respublika əhəmiyyətli avtomobil yolları keçir. Bunlar aşağıdakılardır:

1. Uzunluğu 19,5 km olan II kateqoriyalı Biləsuvar-İran sərhədinə giriş avtomobil yolu. 2. Uzunluğu 28 km olan II kateqoriyalı Biləsuvar-Astara avtomobil yolu. 3. Uzunluğu 57 km olan III kateqoriyalı stansiya Mingəçevir-Biləsuvar avtomobil yolu.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonda 1 memarlıq, 12 arxeoloji tarixi və memarlıq abidələri var. Bunlar keçmiş Biləsuvar yaşayış məntəqəsi ərazisində «Şəhriyar qalası» memarlıq abidəsindən, həmçinin Bədilli kəndi ərazisində tunc dövrünə aid 7 Kurqan təpəsi, Təzəkənd kəndi ərazisində tunc dövrünə aid 2 Kurqan (qoşatəpə), dəmir dövrünə aid «Torpağay təpə», Dərvişli kəndi ərazisində dəmir dövrünə aid «Seyid altı təpə» kurqanı, Yuxarı Ağalı kəndi ərazisində «Ceyran təpə» kurqanı, Əmənkənd kəndi ərazisində tunc dövrünə aid «Şəhriyar təpə» kurqanı, Şəhriyar kəndində orta əsrlərə aid Ağdam qalası, yenə həmin ərazidə orta əsrlərin əvvəllərinə aid «Çöl Ağdam şəhərciyi» və «İçəri Ağdam yaşayış ərazisində» arxeoloji abidələrindən ibarətdir.

Rayon mərkəzi Biləsuvar şəhərində və Xırmandalı kəndində 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində həlak olmuş əsgərlərin xatirə abidələri, həmçinin rayon mərkəzindəki H. Əliyev adına İdman və Sağlamlıq Kompleksi ərazisində Qarabağ uğrunda həlak olmuş şəhidlərə və 20 Yanvar şəhidlərinə Xatirə kompleksi və Dərvişli kəndində 20 Yanvar şəhidlərinə Xatirə kompleksi abidələri ucaldılmışdır.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Cəbrayıl rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,05 min kv. km**

**Əhalinin sayı – 73,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 70 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 92**

**Cəbrayıl rayonu ilə Bakı arasında olan məsafə - 338 km**

**Əhalinin sayı**

**(1 yanvar, 2009-ci il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Cəbrayıl rayonu** | 70585 | 100,0 | 34685 | 49,6 | 35900 | 51,4 |
| şəhər əhalisi | 11376 | 16,12 | 5570 | 16,06 | 5806 | 16,17 |
| kənd əhalisi | 59209 | 83,88 | 29115 | 83,94 | 30094 | 83,83 |

**Ümumi məlumat**

Kiçik Qafqazın cənub-şərq ətəklərində yerləşib, Araz çayının sol sahilində cənub cənub-şərq tərəfdən İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonu ilə həmsərhəddir. Mərkəzi Cəbrayıl şəhəridir.

Rayona Cəbrayıl şəhəri, Qumlaq, Xələfli qəsəbələri və Yarəhmədli, Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, İmambağı, Horovlu, Çapand, Safarşa, Çərəkən, Papı, Əfəndilər, Balyand, Qaracallı, Doşulu, Süleymanlı, Daşkəsən, Qışlaq, Quycaq, Şəybəy, Nüzgar, Şahvəlli, Niyazqullar, Tinli, Qovşudlu, Hacı İsaqlı, Qoşabulaq, Şükürbəyli, Şıxalıağalı, Mahmudlu, Fuğanlı, Dəcəl, Əmirvarlı, Sarıcalı, Məzrə, Yuxarı Məzrə, Soltanlı, Yanarxac, Alıkeyxalı, Maşanlı, Həsənli, Mehdili, Çaxırlı, Minbaşılı, Sədi, Ağtəpə, Kavdar, Mirək, Hüseynallar, Hacılı, Tulus, Dağ Tumas, Qaraağac, Sofulu, Çələbilər, Dağ Maşanlı, Qazanzəmi, Söyüdlü, Aşağı Maralyan, Yuxarı Maralyan, Karxulu, Cəfərabad, İsaqlı, Qalacıq, Hovuslu, Sirik, Aşağı Sirik, Şıxlar, Mollahəsənli, Əsgər-xanlı, Xələfli, Qərər, Kürdlər, Nüsüs, Tatar, Qumlaq, Məstalıbəyli, Xudafərin, Göyərçin Veysəlli, Böyük Mərcanlı, Çocuq Mərcanlı, Yuxarı Mərcanlı,

Xanağabulaq, Çullu, Dərzili, Daş Veysəlli, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Quşçular, Həsənqayalı kəndləri daxildir.

Səthi, əsasən, maili düzənlik (İncəçöl, Gəyan çölü), şimalda alçaq dağlıqdır (Qarabağ silsiləsinin cənub-şərq ətəkləri). Dağlıq hissədə Tabaşir, düzənlik hissədə Neogen və Antropogen çöküntüləri yayılmışdır. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temperatur yanvarda 0-2°C, iyulda 24-25°C-dir. İllik yağıntı 400-500 *mm*-dir. Çayları (İncəçay, Çaxmaqçay və s.) qısa və müvəqqəti axarlıdır, İran İslam Respublikası ilə sərhədindən Araz çayı axır. Dağ-şabalıdı, şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yarımsəhra, dağ-kserofit bitki örtüyü üstündür. Heyvanları: canavar, tülkü, süleysin, çölsiçanı və s.

İqtisadiyyatında üzümçülük, heyvandarlıq və taxılçılıq əsas yer tutur.

Cəbrayıl rayonunun adı rayonun mərkəzi olan Cəbrayıl şəhərinin adından götürülmüşdür. Cəbrayıl şəhərinin adı isə həmin yaşayış məntəqəsinin əsasını qoymuş Cəbrayıl adlı şəxsin adı ilə bağlıdır. Digər mənbə və məlumata görə Cəbrayıl toponimi İslamda və monoteist dinlərdə Allahın ən yaxını olan Cəbrayıl adlı mələyin adı ilə əlaqədardır. Cəbrayıl sözü ərəbcə «Allahın qulu» deməkdir.

Bu versiya onunla bağlıdır ki, «Araz çayı» üzərində tikilmiş «Xudafərin» körpülərindən biri e. ə. V əsrdə tikilmiş və körpülərin adının «Xudafərin» qoyulması («Allaha eşq olsun», «Allaha afərin») islamçılıqla bağlı olmuşdur. Bu isə Cəbrayıl rayonunun adını Cəbrayıl mələyinin adı ilə bağlamağa əsas verir. Məhz bu səbəbdən Həzrət İmam Əli Cəbrayılda olan «Dül-dül» ocağını ziyarət etməyə gəlmiş və onun atlarının izi həmin ziyarətgahda qalmışdır.

Keçmiş Cəbrayıl adlanan ərazidə «Azıx» mağarası yerləşirdi ki, həmin mağarada 1,5 milyon il əvvəl insan yaşadığı sübut olunmuş və bütün Avropada insan sivilizasiyasının buradan başlandığı güman edilir. Həmin mağarada tapılmış insan qalıqları onu deməyə əsas verir ki, Cəbrayıl rayonunun tarixi ilk insan yarandığı tarixə təsadüf edir və bu da Cəbrayıl rayonunun adının Cəbrayıl mələyinin adı ilə bağlamağa bir daha əsas verir.

XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Cəbrayıl kəndinə «Qraxdın» da deyirmişlər. Bu, deyilənlərə görə, 1831-ci ildə rayonun Daşkəsən kəndində «Karantin» idarəsinin yaradılması və həmin idarənin Cəbrayıl kəndinə köçürülməsi ilə bağlıdır. Yerli əhali «Karantin» sözünü «Qraxdın» kimi tələffüz etmişdir. Bəzi mənbələrə görə isə «Qraxdın» sözü XVIII əsrdə Nadir şahın hakimiyyəti dövründə Azərbaycana köçmüş Cəlair türk qəbiləsinə mənsub olan Qıraqlı-Qıraxlı nəslinin adı ilə əlaqədardır.

Cəbrayıl rayonunun ərazisi qədimdə burada mövcud olmuş Çarlığın, Midiya və Əhəmənilər dövlətlərinin (e. ə. VII-IV əsrlər), sonralar isə Albaniya dövlətinin tərkibində olmuşdur. Albaniya dövlətinin mövcudluğu zamanı rayonun ərazisi Pazkank, Əhristan və Dizaq adları ilə həmin dövlətin tərkibində olmuşdur. III-V əsrlərdə Dizaq mahalı Sasanilər tərəfindən işğal olunmuşdur. Xalq həyəcanından qorxan Sasanilər nəhayət Albaniyaya müstəqillik verdilər. VII əsrin ortalarında Cəbrayıl rayonunun ərazisi də Əmavilər xilafətinin tərkibinə qatıldı. Həm Babəkə qədər, həm onun dövründə, həm də ondan sonra ərəb istilaçılarına qarşı mübarizənin dayaq məntəqələrindən biri Cəbrayıl ərazisi

olmuşdur. X-XI əsrlərdə (971-1086-cı illər) bu ərazilər Şəddadilər dövlətinin, XIII-XIV əsrlərdə Humanilər dövlətinin, XIV əsrdən (1387-ci ildən) Teymurilər, XV əsrdən (1412 - ci ildən) Qaraqoyunlu dövlətinin, həmin əsrin 1478-ci ilindən Ağqoyunlu dövlətinin, 1502-ci ilin əvvəlindən Səfəvilər dövlətinin, XVIII əsrin II yarısından və XIX əsrin əvvəllərində Qarabağ xanlığının tərkibində olmuşdur.

1841-ci ildə Cəbrayıl ərazisi Mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildə isə Şuşa qəzasının tabeliyinə verilmişdir. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tərkibindən çıxarılaraq Yelizavetpol quberniyasının tərkibində Cəbrayıl qəzası yaradılıb. Bu vaxt qəzanın ərazisi 6,63 min kvadrat km, əhalisi 66360 nəfər olmaqla indiki Cəbrayıl, Füzuli, Xocavənd, Qubadlı və Zəngilan rayonlarının ərazisini əhatə edib. 1905-1918-ci illərdə qəza Qaryagın qəzası adlandırılıb.

XVIII əsrin axırlarında Cəbrayılda həftəbazarı yaradılıb. 1840-cı ildən başlayaraq burada rus pulları işləyib. Qəzada 5 ipək fabriki olub.

1876-cı ildə Cəbrayılda rus məktəbi, 1912-ci ildə isə qızlar məktəbi açılıb.

XIX-XX əsrin əvvəllərində Rusiya-İran dəmir yolu xəttinin Cəbrayıl ərazisindən keçən hissəsi çəkilib.

18 avqust 1993-cü il tarixdə erməni işğalçıları şəhəri mühasirəyə almışdı. Cəbrayıl fədailərinin və Zəngilan rayonundan köməyə gələn özünümüdafiə qüvvələrinin şiddətli müqavimətinə baxmayaraq Cəbrayıl şəhəri 1993-cü il 23 avqust tarixində Ermənistan tərəfindən işğal olunmuşdu. Birinci Qarabağ müharibəsi gedişində Cəbrayıl rayonu ümumilikdə 400 nəfərə yaxın şəhid vermişdir.

1994-cü il Horadiz əməliyyatı zamanı şəhər mərkəzinə və Xudafərin körpüsü istiqamətində milli ordu irəliləsə də, Cəbrayılın yalnız Cocuq Mərcanlı kəndi azad olundu.

2 aprel 2016-cı ilin aprelində Cocuq Mərcanlı kəndi əzazisində yerləşən Lələ təpə yüksəkliyi dördgünlük müharibə zamanı Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Cəbrayıl şəhəri və rayonun 90 kəndi işğaldan azad edilmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Xudafərin» qəzeti nəşr olunurdu.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən Bakı-Naxçıvan dəmir yolu (52 km), Əli-Bayramlı - Zəngilan avtomobil yolları (60 km) keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Cəbrayıl rayonu tarixi memarlıq və dini abidələrlə zəngindir. Tarixi memarlıq abidələrinə Cəbrayıl şəhərindəki Sultan Məcid hamanını, Xudyarlı kəndindəki Dairəvi və səkkizguşəli türbələri (XIX əsr),

Şıxlar kəndində Dairəvi türbəni (XIV əsr), Xudafərin körpülərini (erkən orta əsrlər), Diri Dağındakı Qız qalasını, Dağtumas kəndindəki Başıkəsik kümbəzi, Gordubaba dağındakı məzarı, dini abidələrə «Hacı Qaraman», «Cəbrayıl ata», «Dül-dül», «Mazannənə» ziyarətgahlarını misal göstərmək olar.

Rayon ərazisində qədim arxeoloji abidələr də mövcuddur. Dağtumas kəndi yaxınlığındakı «Divlər sarayı», Mahmudlu kəndi yaxınlığındakı «Canqulu» və «Qumtəpə» kurqanları, Tatar kəndi yaxınlığındakı Siklop tikililərini, Cəbrayıl şəhəri yaxınlığındakı «Ağoğlan»ı, Dağtumas kəndi yaxınlığındakı «Tumas ata»nı misal göstərmək olar.

***Rayonun dini abidələri haqqında məlumat***

1. Hacı Qaraman ziyarətgahı. Çələbilərin (Çələbi sözü dini və dünyəvi termin olub hakimiyyətlərin, şahzadələrin ləqəbi kimi işlənib, Allahı sevən, yazıçı, şair, bilici mənalarını verir) XIII əsrin birinci yarısında - Monqol yürüşləri dövründə Kiçik Asiyadan (əsasən Türkiyə ərazilərindən) məşhur Qaraman tayfasının (Qaraqoyunlu hökmdarı Qara Yusifin sərkərdəsi Qaraman, Qarabağ hakimi Əmir Yaəhməd, I Şah Abbasın Şamaxıya hakim təyin etdiyi Zülfüqar Xan da Qaraman tayfasından idilər) tərkibində Azərbaycana gəlmələri tarixdən məlumdur. Çələbilərin adlı-sanlı başçılarından olan Hacı Qaraman XIII-XIV əsrlərdə Cəbrayıl ərazisinə gəlmiş, əvvəlcə Niftalılar və Nüsüs kəndləri arasındakı yerdə özünə məskən salmış, sonralar Çələbilər kəndinə köçmüşdür. Ona görə də Hacı Qaramanın dəfn edildiyi məzar sonralar «Ocaq» kimi müqəddəsləşdirilmişdir. Çələbilər kəndindəki məscid isə Məhəmməd ibn Hacı Qaraman Əhmədli tərəfindən Hicri 1088-ci ildə (Miladi 1678) inşa edilmişdir. Hacı Qaramanın adı məşhur oğuz türk tayfasından olan Qaraman tayfasının adından götürülmüşdür. Cəbrayılda Əli Çələbi adı ilə məşhur olan bu şəxs Cəbrayıl rayonunun dağlar qoynunda yerləşən Sirik kəndində 1928-ci ildə anadan olmuşdur. Ömrünün sonunadək həmin kənddə xalqa ağsaqqallıq etmiş, təməli qoyulan xeyirxah işlərin duaçısı, hüzuruna pənah gətirənlərin yardımçısı olmuşdur.

2. Cəbrayıl ata ziyarətgahı - Cəbrayıl kəndinin şimalında Ata adlı məqbərə (uzunluğu 4,5 m, eni 2,4 m, hündürlüyü 1,8 m). Cəbrayıl ata ümumi qəbiristanlıqda deyil, o dövrün adətinə uyğun olaraq ona məxsus torpaqların tam yuxarı başında, Alpaşa dağının hündür və tamaşalı bir yerində ayrıca dəfn edilmişdir. Rayon əhalisi tərəfindən ziyarətgah kimi qəbul edilir.

3. Qara daş ziyarətgahı - Cəbrayıl mərkəzində olan «Qara daş» səmadan gələn daş olduğu üçün əhali tərəfindən ziyarətgah kimi qəbul edilir.

4. Ağoğlan, Qurbantəpə ziyarətgahları - Cəbrayıl rayonunun yaxınlığında Ağoğlan abidəsi bütpərəstlik dövründən qalma abidədir. Mənbələrdə göstərilir ki, qeyri-bərabər döyüşdə öldürülən gözəl bir oğlan dəfn edilmişdir. İslam dini meydana gəldikdən sonra Ağoğlan abidəsi müsəlman ziyarətgahına çevrilmişdir. Ağoğlan kimi sonralardan pirə çevrilmiş yerlərdə Cəbrayıl rayonu ərazisində çox rast gəlinir. Məsələn, Cəbrayıl rayonunun Cənubunda Qurban təpə adlanan pir Qafqaz Albaniyası əhalisinin hələ Günəşə, Aya sitayiş etdikləri ilk tunc dövrünün sonlarının nişanəsidir. Yerli əhali təzə il gəlsin və məhsul bol olsun deyə bu təpədə qurbanlar kəsir, bişirdiyi xörəyin suyundan gündoğan tərəfə səpir, sonra

xörəyi yeyir və Günəşə sitayiş etməklə kütləvi şadlıq edirdilər. Sonralar bu köhnə inam saxlanıldı, hətta XIX əsrin ortalarından başlayaraq Cəbrayıl qəzasının başqa yerlərindən köçüb gedən Hacılı tayfasının bir hissəsi bu pirin yaxınlığında məskunlaşdı, onların saldıqları kənd Qurbantəpə kəndi adlandırıldı.

5. Məzannənə, Mərmərnənə ziyartəgahı - professor M. Seyidovun verdiyi məlumata görə nənə qədim türkdilli tayfalarda Allahın anasının adı olmuşdur. Professor Z. İ. Yampolski Məzannənə abidəsi barədə göstərir ki, o sinfi cəmiyyətə keçid dövrünə qadınların ictimai istehsalda birinci dərəcəli rol oynadığı Madərşahlıq zamanının yadigarıdır və sonralar İslam dininə uyğunlaşdırılaraq «Ocaq» hesab edilmişdir. Həmin abidənin yaxınlığında indiyə qədər nişanələri qalan köhnə yaşayış məskəni Mazanənə kəndi adlanmışdır. Bu kəndin ətrafında qədim qəbiristanlıqda Əziz ibn Seyid Əl-məhəmməd sözləri olan qəbrin sinə daşında və başqa qəbirlərin üstündə yazılan hicri 750, 760 və 809-cu illər təsdiq edir ki, bu yerlərin ən qədim sakinləri azərbaycanlılar olmuşlar. Yerli əhali Hasanlı kəndi yaxınlığındakı Mərmərnənə abidəsində dəfn olunan qadını Mazannənənin anası hesab edir.

6. Tumas ata abidəsi - Cəbrayıl rayonunun Dağtumas kəndi yaxınlığındakı dağda olan Tumas - ata abidəsi də bütpərəstlik dövrünün yadigarıdır. Dağtumas kəndinin sakinləri Tumas-atanı öz əcdadları hesab edir və müqəddəs ocaq kimi sitayiş edirlər.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

| **Dağıdılmış yaşayış məntəqələri, obyektlər, zəbt olunmuş əkin və meşə sahələri** | **Sayı (həcmi, ölçüsü)** | **Dəymiş ziyanın həcmi (mln ABŞ dolları ilə)** |
|---|---|---|
| Şəhər | 1 ədəd (7,4 min nəfər) | |
| Kəndlər | 90 ədəd (44,4 min nəfər) | |
| Yaşayış evləri | 13000 ədəd / 1100 min kv. m | 220,0 |
| İctimai binalar | | 161,3 |
| Təhsil müəssisələri (orta məktəb, TPM, uşaq bağçaları musiqi məktəbləri və s.) | 91 ədəd/14500 şagird yeri | 90,0 |
| Səhiyyə obyektləri | 77 ədəd/510 çarpayı | 60,0 |
| Mədəniyyət obyektləri | 149 ədəd | 75,3 |
| Sənaye obyektləri | 8 ədəd | 68,4 |
| Kənd təsərrüfatı obyektləri | 44 ədəd | 151,0 |
| Tarixi-dini abidələr | 134 ədəd | 12,0 |

| | | |
|---|---|---|
| Avtomobil yolları (respublika əhəmiyyətli) | 30 km | 20,0 |
| Körpülər | 56 ədəd | 4,0 |
| Su kəmərləri (artezian quyuları) | 60 km/142 ədəd | 19,0 |
| Elektrik xətləri (elektrik avadanlıqları) | 281 km/1460 ədəd /61870 km | 18,0 |
| Meşə sahələri | 4480 ha | 15,1 |
| Əkin və otlaq sahələri | 58585 ha | 15,0 |
| Fərdi əmlak (mənzil-məişət əşyaları) | | 171,9 |
| Nəqliyyat vasitələri, maşın-mexanizmlər, avadanlıqlar (şəxsi-ictimai) | | |
| Mal-qara (iri buynuzlu) | 2023 baş | 1,0 |
| Qoyun keçi (davarlar) | 5583 baş | 1,8 |
| Meyvə ağacları (şəxsi-ictimai) | 1077 ha/99 ha | 14,0 |
| Tikinti müəssisələri | 11 ədəd | 37,0 |
| Mühəndis infrastrukturları (kəndarası yollar, suvarma şəbəkələri, nasos qurğuları, kəhriz, qaz kəmərləri və s.) | | 72,0 |
| Cəmi dəymiş ziyan (mln. ABŞ ) dolları ilə. | | 1392,8 |

## Cəlilabad rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,44 min kv. km**

**Əhalinin sayı – 217,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 151 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 2**

**Kəndlərin sayı – 118**

**Cəlilabad rayonu ilə Bakı arasında olan məsafə - 210 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Cəlilabad rayonu** | 192320 | 100,0 | 94962 | 48,2 | 97358 | 51,8 |
| şəhər əhalisi | 55910 | 29, 07 | 27589 | 29,05 | 28321 | 29,09 |
| kənd əhalisi | 136410 | 70,93 | 67373 | 70,95 | 69037 | 70,91 |

### Ümumi məlumat

Cəlilabad rayonu 8 avqust 1930-cu ildə təşkil edilmiş, 2 iyul 1967-ci ilədək Astraxanbazar adlanmışdır. Rayon şimaldan Biləsuvar, şərqdən Neftçala, cənubdan Masallı, cənub-qərbdən Yardımlı rayonları, qərbdən isə İran İslam Respublikası ilə həmsərhəddir. Rayonun mərkəzi Cəlilabad şəhəri Bakı-Astara avtomobil yolunun 210 kilometrliyində yerləşir. Mərkəzi Cəlilabad şəhəridir.

Rayona Cəlilabad, Göytəpə şəhərləri və Alar, Privolnoye, Uzuntəpə, Şiləvəngə, Adnalı, Abışabad, Şabanlı, Qasımbəyli, Hacıməmmədli, Mirtəhməzli, Təklə, Abazallı, Babalı, Boyxanlı, Məlikqasımlı, Şötüklü, Novruzallı, Məşədilər, Dostallı, Yusublu, Gövüzbulaq, Zəhmətabad, Şorbaçı, Mədətli, Məmmədrzalı, Ləkin, Buravar, Badamağac, Musalı, Şatırlı, Əsədli, Kazımabad, Maşlıq, Üçtəpə, Təzəkənd, Cəfərxanlı, Xanəgah, Pərdili, Mikayıllı, Qarğılı, Gülməmmədli, Şükürlü, Məmmədcanlı, Ətcələr, Astanlı, Suluçeşmə, Çünəxanlı, Zopun, Cəfərli, Fərzili, Abdullu, Həsənli, Məşədhüseynli, Cəlayir, Mirzəli, Lallar, Kürdlər, Xanılı, Porsava, Dövlətalıbəyli, Mollalı, Əliabad, Sərhədabad, Məşədvəlli, Komanlı, Bəcirəvan, Şıxlar, Həziabad, Alaşar, Cəngan, Fərəcullalı, Tahirli, Ağusəm, Soltankənd, Ləzran, Çinar, Qarakazımlı, Sarxanlı, Dələli, Moranlı, Qarazəncir, Sabirabad, Ocaqlı, Əliqasımlı, Bədirli, Babaxanlı, Ağ-daş, Hacıcavadlı, Çünzəli, Kövüzbulaq, Vənlik, Badamağac, Darılıq,

Ağbulaq, Axtaxana, Oğrubulaq, Fətullaqışlaq, Hamarqışlaq, Allahverənli, Qarağac, İncilli, Qamışlıgöl, Albalan, Xəlilabad, Xəlilli, Seyidbazar, Hasıllı, Hacıismayıllı, Sadatlı, İnilli, Edişə, Günəşli, İcarə, Zərbəli, Təzəkənd, Muğan, Söyüdlü kəndləri daxildir.

Səthi, əsasən, düzənlik (Muğan düzü, qismən Lənkəran ovalığı), cənub-qərbdə alçaq dağlıqdır. Şərqdə bəzi yerlər okean səviyyəsindən aşağıdır. Antropogen, dağlıq hissədə Paleogen və Neogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti iqlimə malikdir. Orta temperatur yanvarda 1-3°C, iyulda 25-30°C-dir. İllik yağıntı 400-600 *mm*-dir. Çayları müvəqqəti axarlıdır. Allüvial-çəmən, şabalıdı, qəhvəyi dağ-meşə və s. torpaqlar yayılmışdır. Yarımsəhra, çöl, dağ-kserofit bitkiləri inkişaf etmişdir. Meşələr var. Heyvanları: çöldonuzu, süleysin, qum siçanı, canavar, tülkü və s. Quş (bəzgək, dovdaq və s.) qışlaqları var.

İqtisadiyyatında üzümçülük, taxılçılıq və heyvandarlıq mühüm yer tutur. Sənaye müəssisələrinin çoxu Cəlilabad şəhərindədir.

Cəlilabad rayonu Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Rayon ərazisində mövcud olmuş Həməşərə şəhəri eradan əvvəlki II minilliyə aiddir. Qədim mənbələrdə şəhərin 3 metr hündürlüyündə möhtəşəm qala ilə əhatə olunduğu göstərilmişdir. Ərəblərin Azərbaycan hücumundan sonra Həməşərə şəhəri dağılmış və sonrakı dövrlərdə Hasıllı şəhəri məşhurlaşmışdır. XIX əsrin 30-cu illərində rusların Azərbaycana köçürülməsi nəticəsində azərbaycanlılarla rusların birgə məskunlaşdığı Astraxanbazar şəhəri əyalətin mərkəzinə çevrilmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda televiziya ötürücü stansiyası və yerli radio fəaliyyət göstərir.

Rayon İcra Hakimiyyətinin orqanı olan «Yeni gün» qəzeti 1932-ci ildən çıxır.

Jurnalist kollektivinin təsisçiliyi ilə 2003-cü ildən «Sözün işığı» və 2004-cü ildən «Münasibət» qəzetləri nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

III kateqoriyalı Bakı - Astara şosesinin uzunluğu 210 km, dəmir yolu xəttinin uzunluğu isə 235 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonda 50 tarixi-arxeoloji abidə mövcuddur. Onlardan eneolit dövrünə aid Əlikömtəpə və Mişarçay yaşayış yerləri, eramızdan əvvəl IV minilliyə aid Qurudərə yaşayış yeri, tunc dövrünə aid Yedditəpə kurqanları, eramızdan əvvəl III minilliyə aid Cinlitəpə yaşayış yeri, qədim Muğan və Bəcirəvan şəhərlərinin qalıqları, Qazan köşkü, Bəcirəvan kurqanları, Pirhəsən, Pirəxəncər, Zərdüşt daxmaları kimi tarixi abidələr vardır.

Rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayonun mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Daşkəsən rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,05 min kv. km**

**Əhalinin sayı – 33,3 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı - 1 kv. km 32 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 43**

**Qəsəbələrin sayı – 5**

**Daşkəsən rayonu ilə Bakı arasında olan məsafə - 397 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Daşkəsən rayonu** | 32694 | 100,0 | 16487 | 50,0 | 16207 | 50,0 |
| şəhər əhalisi | 14213 | 43,47 | 7011 | 42,52 | 7202 | 44,44 |
| kənd əhalisi | 18481 | 56,53 | 9476 | 57,48 | 9005 | 55,56 |

### Ümumi məlumat

Daşkəsən rayonu (1956-cı ilədək Dəstəfur rayonu) - Azərbaycan SSR-də inzibati rayon 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Göygöl rayonuna verilmiş, 1965-ci ildə isə yenidən bərpa olunmuşdur. Cənub-qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir. Mərkəzi Daşkəsən şəhəridir.

Rayona Daşkəsən şəhəri, Alunitdağ, Yuxarı Daşkəsən, Daşkəsən, Quşçu qəsəbələri və Aşağı Daşkəsən, Çıraqlı, Zinzahal, Almalı, Kollu, Yolqullar, Suqovuşan, Dəstəfur, Qıyıqlı, Şahvələdli, Qaraqullar, Qaratağlar, Alaxançallı, Şahkərəm, Zağalı, Xoşbulaq, Qazaxyolçular, Əhmədli, Dardərə, Mollahəsənli, Qabaqtəpə, Rəsullu, Pirverdilər, Təzəkənd, Güneykənd, Tapan, Astaf, Gəlinqaya, Dəvrallı, Əmirvar, Qazaxlı, Əmirvar-Əhmədli, Gurbulaq, Zəylik, Quytul, Çovdar, Çaykənd, Quşçu, Bayan, Çanaqçı, Zivlan, Muşavaq, Kəmərqaya, Quşçu Körpüsü kəndləri daxildir.

Daşkəsən rayonu Kiçik Qafqazda, Murovdağ və Şahdağ silsilələrinin şimal yamacları və Başkənd-Dəstəfur çökəkliyindədir. Ən hünd. zirvələri: Hinaldağ (3367 *m*), Qoşqar d. (3361 *m)* və s. Səthi kanyonvari dərələrlə kəsilmişdir. Yura və Tabaşir çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: dəmir filizi, kobalt, alunit, qızıl, mərmər və s. Mineral bulaqları var. İqlimi orta dağlıq zonada qışı quraq keçən

mülayim isti, yüksək dağlıqda soyuq və rütubətlidir. Yayı nisbətən sərin keçir. Orta temperatur yanvarda -12°C-dən -2°C-yədək, iyulda 6-18°C-dir. İllik yağıntı 500-900 *mm*-dir. Çayları (Qoşqar, Şəmkir, Gəncə) Kür hövzəsinə aiddir. Qoşqar çayı üzərində su anbarı yaradılmışdır. Əsasən, çimli dağ-çəmən və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyü alp və subalp çəmənlərindən, enliyarpaqlı dağ meşələrindən (palıd, fıstıq, vələs və s.), kollu və seyrək meşəli çəmənlərdən ibarətdir. Heyvanları: qayakeçisi, cüyür, meşə dələsi və s. Quşları: kəklik, ular, tetra quşu, göyərçin və s.

Rayonda heyvandarlıq və kartofçuluq üstünlük təşkil edir.

Daşkəsən rayonu mühüm mədən-filiz sənayesi rayonlarındandır. Dəmir filizi (Daşkəsən dəmir və kobalt yatağı), alunit (Zəylik), mərmər və s. çıxarılır. Rayonda "Daşkəsən Filizsaflaşdırma" ASC, "Alunit" İstehsalat sahəsi, "Mərmər karxanası" MMC var.

Daşkəsən dağları uzun illər yaylaq yeri kimi istifadə edilib. Cənub Qafqazın ən gözəl yaylaqlarından biri Daşkəsəndə, xüsusilə Xoşbulaqdadır. Xoşbulaq yaylağına Daş dövrünün insanları gəlib müxtəlif sahələrdə, əsasən ovçuluqla məşğul olublar. E. ə. III minillikdə maldar əhali Xoşbulaq yaylağına qalxıblar, o zamandan bu ənənə davam etməkdədir.

Daşkəsən yaylaqları dəniz səviyyəsindən 2 min metr yüksəkdə olduğu üçün bura bir çox maldar tayfalar köçüb və onlar müxtəlif ətraf hücumlardan qorunmaq üçün siklop tipli qalaçalar tikib. Elə həmin tarixdən də Daşkəsən rayonu ərazisindən daimi yaşayış məskəni kimi istifadə edilib.

Daşkəsən qədim yaşayış məskənlərində 1959-1960-cı illərdə aparılan arxeoloji qazıntılar zamanı tapılan sayı-hesabı bilinməyən kurqan tipli dəfn abidələri göstərir ki, bu ərazilər yaylaq kimi yerli əhali tərəfindən istifadə edilib. Bu əraziyə isə yay vaxtında, yalnız bir ərazidən - şimal-şərq tərəfdən, Kür çayı vadisindən gəlmək mümkündür.

İslamiyyətə qədər yerli əhali xristian olub və İslamlaşdırma siyasəti dağlıq ərazidə ləng getdiyi üçün Daşkəsən dağlarında Alban-Xristian məbədləri də olduqca çoxluq təşkil edir.

Orta əsrlərdə Daşkəsən rayonu ərazisində mədən işi ilə məşğul olunmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Yerli Radio Verilişləri redaksiyası 1958-ci ildən fəaliyyət göstərir. Rayonda fəaliyyət göstərən digər kütləvi informasiya vasitəsi 1933-cü ildə Daşkəsən rayon Partiya Komitəsinin orqanı kimi fəaliyyətə başlamış «Daşkəsən» qəzetidir. 1991-ci ildən sonra qəzet müstəqil ictimai-siyasi qəzet kimi nəşr etdirilir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Dövlət əhəmiyyətli avtomobil yolu, Gəncə-Daşkəsən - 37,4 km - IV dərəcəli yoldur. Şəmkir rayonunun Albaşlı kəndində yerləşən «Albaşlı» stansiyasından Daşkəsən rayonunun Quşçu-körpü dəmir yolu stansiyasına qədər olan dəmir yolunun uzunluğu - 35 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Daşkəsən rayonunun ərazisində mövcud olan tarixi və mədəni abidələrdən Bayan kəndində Çiçarvənd məbədi (XV əsr), Quşqaraçayı üzərində bir tağlı körpü (XIX əsr), Gurbulaq kəndində «Dikdaş qalaçası» (qədim daş dövrü), «Ərkinaz qalaçası» (dəmir dövrü), Əmirvar kəndində «Göyçəlilər yurdu» qalaçası (dəmir dövrü), «Qara inək» mağarası (XV əsr), Xoşbulaq kəndində «Molla Abdulla bulağı» qalaçası (tunc dövrü), Zağalı kəndində Kurqanlar və Daş qəbir sandıqlar 120 ədəd (tunc dövrü), Zəylik kəndində Alban məbədi (XV əsr), Əhmədli kəndində Türbə, Dəstəfur kəndində Gəncə çay üzərində bir tağlı körpü (Daş dövrü), Alban məbədi (XV əsr), Qabaqtəpə kəndində Alban məbədi (XV əsr), «Gəlinqaya» abidəsi hündürlüyü 5 metr (XV əsr) olmaqla mühafizə olunur.

Rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Füzuli rayonu

**Yaranma tarixi - 04.01.1963**

**Ərazisi - 1,39 min kv. km**

**Əhalinin sayı – 130,8 nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 95 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 2**

**Qəsəbə - 16**

**Kəndlərin sayı - 82**

**Füzuli rayonu ilə Bakı arasında olan məsafə - 310 km**




### Əhalinin sayı

### (2009-cu il əhalinin siyahıyaalınmasının məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Füzuli rayonu** | 115495 | 100,0 | 56723 | 49,0 | 58772 | 51,0 |
| şəhər əhalisi | 27601 | 23,90 | 13387 | 23,60 | 14214 | 24,18 |
| kənd əhalisi | 87894 | 76,10 | 43336 | 76,40 | 44558 | 75,82 |

**Ümumi məlumat**

Respublikamızın iri yaşayış məntəqələrindən olan Füzuli rayonu 1827-ci ildə yaranmışdır. Həmin vaxtdan formalaşmış və Qarabulaq adlanan yaşayış məntəqəsinin əsasında 1930-cu ildə rayon təşkil olunmuş və Qaryagin rayonu adlandırılmışdır. Rayonun mərkəzi Qaryagin qəsəbəsi olmaqla Qozluçayboyu, Köndələnboyu, Arazboyu və Füzuli - Ağdam magistral yolunun hər iki ətrafında olan kəndləri əhatə etmişdir.

1959-cu ildə böyük şair Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişilmiş və Füzuli rayonu adlandırılmışdır. Cənub-şərqdə İran İslam Respublikası ilə həmsərhəddir. Mərkəzi Füzuli şəhəridir.

Rayona Füzuli, Horadiz şəhərləri, 16 qəsəbə və Əhmədbəyli, Bala Bəhmənli, Araz-Zərgər, Araz Dilağarda, Birinci Mahmudlu, İkinci Mahmudlu, Əhmədalılar, Qazaxlar, Mirzənağılı, Aşağı Kürdmahmudlu, Yuxarı Kürdmahmudlu, Alxanlı, Böyük Bəhmənli, Kərimbəyli, Arayatlı, Babı, Mollaməhərrəmli, Horadiz, Aşağı Seyidəhmədli, Şükürbəyli, Yuxarı Seyidəhmədli, Qorqan, Şəkərcik, Şıxlı, Gecəgözlü, Üçüncü Mahmudlu, Aşağı Veysəlli, Yuxarı Veysəlli, Saracıq, Yuxarı Rəfədinli,

Gorazıllı, Qaradağlı, Yuxarı Güzlək, Xatınbulaq, Qacar, Divanalılar, Qaraxanbəyli, Merdinli, Qoçəhmədli, Arış, Mollavəli, Dədəli, İşıqlı, Qarğabazar, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Qaraməmmədli, Dilağarda, Qobu Dilağarda, Qərvənd, Yuxarı Əbdürrəhmanlı, Kürdlər, Aşağı Əbdürrəhmanlı, Dördçinar, Seyidmahmudlu, Ələsgərli, Hüseynbəyli, Pirəhmədli, Musabəyli, Mandılı, Aşağı Güzlək, Aşağı Rəfədinli, Üçbulaq, Cuvarlı, Xələfşə, Çimən, Yuxarı Aybasanlı, Dövlətyarlı, Aşağı Yağlıvənd, Qarakollu, Govşatlı, Hacılı, Mirzəcamallı, Zərgər kəndləri daxildir.

Səthi çox yerdə Araz çayına tərəf alçalan maili düzənlik, qərbdə alçaq dağlıqdır (Qarabağ silsiləsinin cənub-şərq ətəkləri). Əsasən, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temperatur yanvarda 0-1 °C, iyulda 24-25°C-dir. İllik yağıntı 400-600 *mm*-dir.

Çayları (Köndələnçay, Quruçay, Qozluçay) rayonun İran İslam Respublikası ilə sərhədindən axan Araz hövzəsinə aiddir. Boz və çəmən-boz, şabalıdı, dağ boz-qəhvəyi və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra tiplidir. Heyvanları: canavar, çaqqal, tülkü, çöl donuzu, oxlu kirpi və s. Quşları: turac, qırqovul, göyərçin və s.

Füzuli rayonu 1970-ci ildən böyük inkişaf yolu keçmiş, tərəqqi etmiş, sənaye və müasir kənd təsərrüfatı rayonuna çevrilmişdir. Erməni işğalına qədər rayonda pambıqtəmizləmə, yağ-pendir və dəmir-beton məmulatı zavodları, taxıl məhsulları kombinatı, toxuculuq fabriki, daş karxanası, üzüm emalı müəssisəsi, 100-dən çox iri müəssisə və təşkilat, dram teatrı, mədəniyyət evi, kütləvi kitabxana, mərkəzi rayon xəstəxanası və s. var.

Erməni silahlı qüvvələri tərəfindən işğal edilməmişdən əvvəl rayonun kənd təsərrüfatında əsas sahələr üzümçülük, taxılçılıq, ipəkçilik və heyvandarlıq olmuşdur. 15 kolxoz və 26 sovxoz var idi. Kənd təsərrüfatına yararlı torpaqlar 85 min hektar idi. 50,9 min hektar otlaq sahələri var idi. Rayonda Araz çayı üzərində Köndələn su anbarı tikilmiş, suvarma kanalları çəkilmişdir. Suvarılan torpaqlar 24 min hektardır. 1980-ci ilədək pambıqçılığa geniş yer verilmişdi. Sonralar rayonun təsərrüfatları üzümçülük üzrə ixtisaslaşmışdı. 17,4 min hektarda üzüm bağları salınmışdı. Üzümçülükdə ən yüksək məhsuldarlıq 1985-ci ildə olmuş, 120 min ton üzüm yığılmışdır.

İşğaldan əvvəl təsərrüfatlarda 17600 baş qaramal, 70000 baş qoyun və keçi saxlanılırdı.

1997-ci ildən başlayaraq rayonda işğaldan azad olunmuş ərazidə yeni iqtisadi islahat həyata keçirilməyə başlanmış, torpaq kəndlilərə paylanmışdır.

Bundan başqa həmin müddətdə xeyli xidmət, mədəniyyət obyektləri, inzibati binalar bərpa olunmuşdur.

Bərpa və quruculuq işləri davam etdirilir.

Füzuli tarix və memarlıq abidələri ilə zəngin bir rayondur. Memarlıq abidələrindən XIII əsr Əhmədalılar türbəsi, XIII əsr Babi türbəsi, Aşağı Veysəlli məscidi, Qarğabazar kəndində XVII əsr Hacı Qiyasəddin məscidi, XVII əsr Karvansaray, XVIII əsr türbə, Qoçəhmədli kəndində XVIII əsr məscidi və s. vardır.

Rayon 23 avqust 1993-cü ildə tam işğal olunmuşdu. 1994-cü ilin yanvarında rayonun 22 yaşayış məntəqəsi ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuşdur. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Füzuli şəhəri və rayonun işğal altında olan 53 kəndi işğaldan azad edilmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda ilk dəfə «Qızıl Araz» adlı qəzet 1931-ci ildə dərc olunmuşdur. Həmin qəzet 1966-cı ildən sonra «Araz» adı ilə dərc olunmuş, Füzuli rayon partiya komitəsinin və rayon XDS-nin orqanı kimi fəaliyyət göstərmişdir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən Bakı-Naxçıvan dəmir yol xətti keçir. Rayon ərazisində dəmir yol xəttinin uzunluğu 36 km-dir və dördüncü kateqoriyaya aiddir.

Bakı-Naxçıvan magistral yolu Füzuli rayonu ərazisindən keçir. Hazırda işğaldan azad olunmuş ərazidə respublika əhəmiyyətli 110 km uzunluğunda avtomobil yolu vardır və həmin yollar üçüncü kateqoriyalı sayılır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Qarğabazar kəndində XVII əsr karvansarayı;

Qarğabazar kəndində XVII əsr məscid binası;

Qarğabazar kəndində XVIII əsr Cəlil türbəsi;

Aşağı Veysəlli kəndində XIII əsr Mirəli türbəsi;

Qoçəhmədli kəndində XVIII əsr məscid binası;

Qoçəhmədli kəndində XVIII əsr yaşayış binası;

Horadiz kəndində XIX əsr məscid binası;

Horadiz kəndində XIX əsr İmamzadə türbəsi;

Füzuli şəhərində XIX əsr məscid binası;

Aşağı Aybasandı kəndində XVIII əsr İbrahim türbəsi;

Qacar kəndində XIX əsr məscid binası;

Böyük Pirəhmədli kəndində XIX əsr məscid binası;

Merdinli kəndində XIX əsr məscid binası;

Saracıq və Gorazıllı kəndlərindəki XIX əsr körpüləri (Alı körpüsü, Kərəm körpüsü);

Aşağı Veysəlli kəndində abidə kimi XII əsr qəbiristanlığı;

Babi kəndində XIII əsr Şeyx Babi Yaqub türbəsi;

Əhmədalılar kəndində XIII əsr Arqalı türbəsi;

Böyük Bəhmənli kəndində XIX əsr məscid binası.

İşğal dövründə (1993-2020) tarixi abidələr erməni işğalçıları tərəfindən dağıdılmışdır.

## Gəncə şəhəri




**Yaranma tarixi – b.e.ə V əsr**

**Ərazisi - 0,11 min kv. km**

**Əhalinin sayı – 330,7 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 3006 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı - 7**

**Gəncə ilə Bakı arasında olan məsafə - 375 km**

**Əhalinin sayı**

**(2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Gəncə şəhəri** | 313249 | 100,0 | 151277 | 48,0 | 161972 | 52,0 |

### Ümumi məlumat

Gəncə şəhəri Azərbaycanın ikinci böyük şəhəridir. Şəhər Gəncə çayı, Kür çayının cənubunda kənd təsərrüfatı cəhətdən zəngin bir ərazidə yerləşir. Qədim mədəniyyətin beşiyi, Nizaminin ana yurdu olan Gəncə şəhəri cənubi şərqdə Kiçik Qafqazın ətəyində, Gəncə-Qazax düzənliyində, Gəncəçay çayının hər iki sahilində yerləşir. Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatının inkişafında əvəzedilməz rol oynayan bu şəhər turistlərin burdan keçərkən ayaq saxlayıb xarici elm adamlarıyla söhbət, müzakirələr aparmaqdan zövq aldığı bu cazibədar məkan karvan yollarının kəsişdiyi bir ərazidə yerləşir. Əgər şəhərin sahib olduğu zəngin tarixə nəzər salarsaq hər oxuduğumuz sətirdə bizi qədimə götürəcək nümunələrin şahidi olacaq və onun gözəlliyini və nəfəsini öz üzərimizdə hiss edəcəyik.

Gəncənin bir şəhər kimi formalaşması haqqında müxtəlif fərziyyələr mövcuddur. Bəzi alimlər şəhərin yaranmasını e. ə., əksəriyyəti isə orta əsrlərin başlanğıcına aid edirlər.

Şəhərin tarixi haqqında danışarkən bu şəhərin sosial-iqtisadi və mədəniyyət mərkəzi olduğunu qeyd etməmək mümkün deyil. Gəncə də ölkəmizin digər şəhərləri (Qəbələ, Naxçıvan, Şəki, Şamaxı) kimi gözəl coğrafi mənzərəyə sahib olan yaşayış məskəni olub tədricən şəhər kimi formalaşmışdır.

Comərd Qəssab Məqbərəsi Gəncənin tarixi vəsiqəsi sayıla bilər. Comərd Qəssab dördüncü xəlifə Əli ibn Abutalıb (656-661) hakimiyyəti dövründə yaşamış və özünün qanun tərəfdarı olması və düzlük, doğruluğu ilə seçilmişdir. Şəhər əhlinin bütlərə inandığı bir dövrdə o, gizlicə olaraq islamı qəbul etmişdi.

1940-cı illərdə aparılan arxeoloji qazıntılar burada e. ə aid yaşayış məskənləri aşkar etmişlər. Gəncə adının, toponiminin yaranması haqqında müxtəlif fərziyyələr mövcuddur. Toponim (“Chanza- Ərəb dilində “Ganca”-Gürcü dilində) Pəhləvi sözü kimi qəbul edilir və xəzinə, bar-məhsul anbarı mənasına gəlir. Bütün bu nəticələr elmi cəhətdən əsassızdır. Şərhçinin sözlərinə əsaslanarsaq bu sözün Azərbaycan dilinə uyğun olduğunu qeyd edə bilərik. Digər mənbəyə əsaslanarsaq o, bu adın Gancak tayfalarının adıyla bağlı olduğunu iddia edir. Orta Asiya tarixçiləri təsdiq etmişlər ki, həqiqətən də Gəncə adını tayfanın adından götürmüşdür.

VII əsrin birinci yarısında Gəncə iranlılar tərəfindən, ikinci yarısında isə ərəblər tərəfindən dağıdılmışdır. VII əsrin axırlarında isə Gəncə ərəblərlə xəzərlərin döyüş meydanına çevrilmişdir. Bütün bu hadisələrin VII əsrin əvvəllərində və ümumiyyətlə VII əsr boyunca baş verdiyi “Dərbəndnamə” əsərində təsvir edilib. Azərbaycanın ərazisi aramsız olaraq bir birinin ardınca olan hücumlara məruz qalmış və əlbəttə ki bunun bariz nəticəsi olaraq Gəncə şəhəri də bu basqınlardan ziyan görmüş və dağıntılara məruz qalmışdır.

Aran xanlığının mərkəzi olan Bərdədən sonra Gəncə beynəlxalq ticarətdə mühüm rollardan birini oynamış və karvanların tez-tez keçdiyi və qaldığı yerlərdən biri olmuşdur. O zamanlarda pul vahidi olaraq Ərəb dinarları və dirhəmlər istifadə edilirdi.



X əsrdən, Bərdənin paytaxt statusunu itirdiyi dövrdən etibarən Gəncə şəhəri ölkənin sosial-iqtisadi və mədəni həyatında vacib rol oynamağa başladı. Şəhərin həyatında ticarət və incəsənət vacib faktorlardan birinə çevrildi. Burda incəsənətin inkişafı üçün hər cür şərait mövcud idi. Dəmir, mis, alüminium və digər mədənlər Gəncə şəhərinin ətrafında fəaliyyət göstərir və yerli sənətkarları xammalla təchiz edirdilər. Gəncə paytaxt olma yolunda xüsusi diqqəti hərbi qüvvəsinin gücləndirilməsinə yönəltmişdi. Həmçinin bu dövrdə qala divarları tikilmiş və onun ətrafında xəndək qazılaraq şəhərin mühafizəsi gücləndirilmişdi.

Gəncə qalasının qalıqları zamanın əzəmətli tikililərindən biri olmuşdur. Qalanın bir küncündə yerləşən bürc digərindən təqribən 600 metr aralı yerləşir. Bu divar Gəncəçayının sahili boyunca davam edir. Vaxtilə təbii sərhəd olan bu çay indi dağılmış vəziyyətdə olan qala divarlarının tədricən sökülməsinə səbəb olur.



IX-X əsrlərdə Ərəb xəlifətinin zəiflədiyi bir dövrdə Azərbaycanda Şirvanşahlar, Şəddadilər, Salarilər və Rəvvadilər müstəqil feodal dövlətləri yaranmağa başladı. X əsrin ortalarında Gəncə şəhəri Salarilərin hakimiyyəti altında olmuşdur. Daha sonra isə Şəddadilərin paytaxt şəhəri olmuşdur.

I Fəzlunun(895-1030) hökmranlığı dövründə Gəncə ən güclü dövrlərini yaşamışdır. Şəddadilər dövründə qala, saraylar, körpülər və karvansaraylar inşa edilmiş və

burda pul kəsilməyə başlanmışdır. Şəhəri əhatə edən yeni və daha davamlı qala inşa edildi. 1063-cü ildə dəmirçi İbrahim məşhur Gəncə darvazalarını tikdi. Gəncənin geniş bir mərkəzə çevrildiyi bir dövrdə onun ərazisi də həmçinin böyüyərək genişləndi. Yeni ticari və sənaye zonaları tikilməyə başladı. İpək və ipək məmulatları nəinki yerli həmçinin xarici alıcıların da rəğbətini qazandı. Gəncə həm də dini mərkəz sayıla bilərdi. Belə ki, Alban katolikosu mərkəzi Bərdədən Gəncəyə köçmüşdü. Qətran Təbrizi o dövrləri belə qələmə almışdı: “İndi Gəncə sanki cənnəti xatırladır”. XI əsrin ortalarında Azərbaycan Səlcuqların işğalına məruz qalmışdı. Təbrizi tutduqdan sonra I Toğrul (1038-1068) 1054-cü ildə qoşunlarını Gəncə istiqamətində hərəkət etdirdi. Gəncə hakimi Şavir I Toğrulun vassalı olmağa öz razılığını verdi. Şavir I Toğrula bahalı hədiyyə verərək onun şərəfinə xütbə oxutdurdu.

Səlcuqların aramsız basqınları XI əsrin ortalarında Şəddadi hökmdarı III Fəzlun göstərilən müqavimətin yetərsiz olduğunu görərək gec də olsa təslim olmağa qərar verdi və münasib bir şəraiti gözləyərək yenidən hakimiyyətə gəldi. 1086-cı ildə Səlcuq hökmdarı Məlik şah (1072-1092) öz ordu başçısını, Buğanı Gəncəyə göndərdi. Yerli camaatın güclü müqavimətinə baxmayaraq Səlcuqlar şəhərin zəbtinə nail oldular. Döyüşdə Gəncə hökmdarı III Fəzlunu əsir götürdülər və bununla da 100 ildən artıq hakimiyyətdə olan Şəddadilər sülaləsinin hökmranlığına son verildi. Məlik şah Gəncə hakimi kimi öz oğlu olan Qiyas əd-din Taparı təyin etdi. Qiyas əd-din Məhəmməd Tapar (1105-1117) sultan seçildikdən sonra belə Gəncənin Səlcuq hökmdarı olaraq qaldı.

XII əsrin birinci yarısında Gəncə bir neçə dəfə gürcülərin basqınlarına məruz qalmış, buna cavab olaraq Səlcuq ordusu Gürcüstana soxularaq oraları talan etmişdir.



Gəncə ilə əlaqəli digər bir hadisə isə bu dövrlərdə(25 Sentyabr 1139-cu ildə) burda baş vermiş güclü zəlzələdir. Kirakos Gandzaketsi yazırdı “Dağların başını bulud və duman bürümüşdü və Gəncə qorxulu, dəhşətli zəlzələyə qərq olmuşdu. Gəncə dağılmışdı və...”. Zəlzələnin nəticəsi olaraq Kəpəz dağı uçmuş və dağın ətəyindən keçən çayın qarşısını kəsərək hamımızın yaxşı bildiyi bir gölün yaranmasıyla nəticələndi. Bu, Göy göl idi. Hal-hazırda bu göl mövcud olmasıyla bərabər Azərbaycanın ən mənzərəli , gözəl təbiətli məkanlarından biri kimi tanınır. Lakin müəllif bu zəlzələ nəticəsində yaranmış öz gözəlliyi və valehediciliyi ilə seçilən digər gölləri - Maral göl, Ceyran göl, Ördək göl, Zalugölü, Ağgöl, Qaragöl, Şamlıgöl kimi təbiətimizin inciləri olan bu gölləri qeyd etməyi unutmuşdur.

Şəhərin məruz qaldığı dağıntılar səbəbiylə zəiflədiyi bir dövrdə qonşu Gürcü feodalları fürsətdən istifadə edərək bura basqınlar etmiş və Gəncəni çapıb, talamış, Gəncənin göz bəbəyi olan Gəncə Darvazalarını oğurlayıb aparmışlar. Azərbaycan tarixinin nümunəsi olan bu abidənin qalıqları qeyri sərfəli şəraitin mövcudluğu və nəzarətsizlik ucbatından hal hazırda Gürcüstanın Respublikasının kilsəsi olan Gelat kilsəsinin həyətində yerləşir.

Uzun sürən daxili feodal çəkişmələrinin nəticəsində Səlcuq dövləti xeyli zəiflədi. Səlcuq dövləti yerli feodalların güclənməsi üçün şərait yaradaraq yeni xırda dövlətlərin yaranmasına təkan verdi. Onlardan

biri Şəmsəddin Atabəy tərəfindən yaradılmış Atabəylər dövləti idi. Gəncə Arranda yerləşən bu dövlətin bir hissəsinə çevrildi. XII-XIII əsrlərin əvvəllərini Gəncə üçün çiçəklənmə dövrü adlandırmaq düzgün olardı. Atabəylər dövlətinin ikinci mərkəzi, paytaxtı olan Gəncə istehsal etdiyi məhsullarla nəinki ölkə daxilində, həm də ölkə xaricində böyük şöhrət qazanmış və "Arran şəhərlərinin anası" səviyyəsinə qədər ucalmışdı. Gəncə ipəyi istehsal edən müəssisə qonşu ölkələr və Orta Şərq bazarlarında böyük rəğbət qazanmışdı.



Gəncədə kənd təsərrüfatı, əkinçilik və malqaraçılıq incəsənətlə paralel olaraq geniş miqyasda inkişaf edirdi. Müəllifi naməlum olan "Əcaib əd-dünya" əsərində Arranın paytaxt şəhəri olan varlı və inkişaf etmiş Gəncə şəhərinin hündür və möhkəm qala divarlarıyla əhatə olunduğu qeyd edilir. Bütün Gəncə yaşıllığa qərq olmuşdu. Burda müxtəlif növ meyvələr mövcud idi. Atlas, parçalar, pambıq, ipək və digər məhsullar müxtəlif şəhərlərə ixrac edilirdi. Yerli əhali cəsur və hərbi cəhətdən qüvvətli idi.

Bu dövrlərdə Gəncə Azərbaycanın mədəniyyətinin inkişafında vacib rol oynamışdır. Dünya şöhrətli elm və incəsənət əsərlərinə sahib şair və alimlər bu şəhərdə yaşayıb yaratmışlar.

Məhsəti Gəncəvi yaradıcılığını qeyd etmək yerinə düşərdi. O zamanının istedadlı, qabiliyyətli şairəsi olub, xalqın və hakimiyyətin rəğbətini qazanmışdır. Azərbaycanın dünya şöhrətli ixtiraçı və qeyri adi istedada sahib şairi Nizami Gəncəvi bu dövrlərdə yaşayıb yaratmışdır. Onun Xəmsəsi dünya ədəbiyyatı xəzinəsinin nadir incilərdən biridir. J. E. Bertels Nizami haqqında demişdir: "O, sahib olduğu fitri istedad və füsunkar ruhu ilə əbədi olaraq bəşəriyyətin məhəbbətini qazanmışdır".

XIII əsrin əvvəllərində Azərbaycan monqolların basqınlarına məruz qaldı. Onlar hər yerdə ciddi müqavimətə rast gəlirdilər. Onların Azərbaycana ilk basqını (1220) zamanı düşmənə layiqli müqavimət göstərilmiş və Gəncə təslim olmamışdı.

1225-ci ildə Cəlaləddinin başçılığı altında davam edən basqınlardan sonra, bir birinin ardınca Azərbaycan şəhərləri talanmağa başladı. Bunların arasında Gəncə şəhəri də var idi. Aramsız olaraq sürən basqınların nəticəsində Atabəylər dövləti süquta uğradı. Cəlaləddinin hökmranlığı dövründə yerli əhaliyə qarşı amansız davranılmış və vergilər olduqca yüksəldilmişdi. Bütün bunlar 1231-ci ildə Gəncə əhlinin xarici işğalçılara qarşı qaldırdığı üsyanla nəticələndi. Üsyan yatırıldıqdan sonra üsyanın başçısı Bəndər usta və onun 30 tərəfdaşı həbs edilmiş, daha sonra isə edam edilmişdilər. 1231-ci ildə Gəncə şəhərini mühasirəyə alan monqollar yerli əhalinin güclü müqavimətinə rast gəldilər. Lakin bütün bunlara baxmayaraq işğalçılar Gəncəni zəbt edərək şəhəri darmadağın etmiş və yerli əhalini olmazın işgəncələrə düçar qılmışdılar. Uzun müddət şəhər bərpa edilməmişdi. Gəncənin bərpa edilməsinə yalnız 1235-ci ildən başlanmışdı.

XIII əsrin ortalarında Azərbaycan Xilafətin tərkibinə daxil oldu. XIII əsrin 80-ci illərində Azərbaycan Əmir Teymurun hücumlarına məruz qaldı. Azərbaycan Teymurla Toxtamış arasında gedən münaqişənin

mübarizə meydanına çevrildi. Teymurun Gürcüstana etdiyi basqınlar zamanı Gəncə hərbi baza rolunu oynadı. Teymurun Azərbaycana yürüşü fəlakətlə nəticələndi.

XVI əsrin əvvəllərində Səfəvilər dövləti yarandı. Gəncə Şah İsmayıl Xətai tərəfindən qurulan bu dövlətin bəylərbəyiliyindən biri idi. Sultan Şahverdinin Gəncə bəylərbəyiliyinə hökmdar təyin edilməsindən sonra Gəncə və Qarabağda uzun müddətli Qacar tayfasına mənsub yeni Ziyadoğulları sülalənin nümayəndələrinin hökmranlığı dövrü başladı.

Transqafqaz məkanında ticarət sahəsində yenidən aparıcı yerlərdən birini tutan Gəncə Rusiya və Yaxın Şərqdəki və Avropadakı ölkələrlə sıx ticarət əlaqələri yaratmışdı. Tarixi mənbələrdən birinə əsaslanarsaq, o dövrlərdə Gəncənin 225000 əhalisi var idi.

Müvəqqəti olaraq hərbi fəaliyyətlərin azalması və ticari əlaqələrin genişlənməsi Gəncənin və digər şəhərlərin iqtisadiyyatının dirçəlməsinə və inkişafına gətirib çıxartdı. Bu dövrlərdə burda olan türk səyyahı olan Övliya Çələbi Gəncədə hər birinin bağçası olan 6000 dən çox evin olduğu haqqında öz xatirələrində qeyd edirdi. Xüsusilə o, Gəncədə ipək sənayesinin inkişafını qeyd edirdi. 1723-cü ildə də Osmanlılar Gəncəni mühasirəyə almış, lakin oranı tutmağa nail ola bilməmişdilər.

İran ordusunun başında duran Nadir şah Azərbaycandan türklərin və rusların çıxarılmasını və bu ərazilərin İranın əsarəti altında olmasını qarşısına məqsəd qoymuşdu. 1735-ci ildə Gəncə yaxınlığında İran və Rusiya arasında bağlanan müqaviləyə əsasən Rusiya hökuməti hərbi qüvvələrini Xəzəryanı ərazilərdən geri çəkdi.

Nadir şahın yürütdüyü siyasət əhalinin tamamilə viranına və kasıbçılığın artmasına gətirib çıxartdı. 1747-ci ildə Nadir şahın öldürülməsi nəticəsində müstəqil feodal dövlətlərin – xanlıqların yaranmasıyla başa çatdı. XVIII əsrin ortalarında Gəncə xanlığı yarandı. Ziyadoğlulları sülaləsinin nümayəndəsi olan, uzun müddət Gəncəni idarə edən Şahverdi xan(1740-1756) Gəncənin xanı oldu. XVIII əsrin 80-ci illərində Cavad xanın hakimiyyəti dövründə Gəncə gücləndi. O, müstəqil xarici siyasətə üstünlük verirdi. Gəncə xanlığının özünün pul vahidi mövcud idi.

Bu dövrdə Rusiya imperiyası yeni ölkə və dövlətləri tutmaq siyasətini yeridirdi. Buna görə də Rusiya strateji və iqtisadi cəhətdən əlverişli mövqedə yerləşən Azərbaycana xüsusi bir maraq göstərirdi. Gəncə xanlığının yerləşdiyi yerin əlverişli mövqeyini nəzərə alan Rusiya ilk olaraq buranı zəbt etmək, daha sonra isə ondan hərbi baza kimi istifadə edərək, digər xanlıqlara hücum etmək xəttini tutmuşdu. Rus hərbçiləri Gəncəni İranın şimal əyalətlərinə aparan yolun açarı hesab edirdilər. General Sisyanov dəfələrlə Gəncə xanı Cavad xana könüllü surətdə təslim olmağı təklifini göndərmiş və hər dəfə də rədd cavabını almışdı.




1803-cü ildə o, Tiflisdən keçərək ordusunu Gəncə istiqamətinə yönəltmiş, dekabr ayında isə Gəncə qalasına yaxınlaşmışdı. Qalanın tutulmasının çətin bir proses olduğunu bilən ordu başçısı xüsusi hazırlıqlardan sonra 1804-cü il yanvar ayının 3-ü səhər saat 5-də qalaya hücum əmri verdi. Amansız

keçən döyüşdən sonra onlar şəhəri tutmağa nail oldular. Cavad xan öldürüldü. Gəncənin adı dəyişdirilərək Yelizavetpol (Rusiya imperatoru Aleksandrın arvadı Yelizavetanın şərəfinə) adlandırıldı.

1805-ci ildən rəsmi olaraq komendant idarə üsulunun tətbiqinə başlnadı. O dövrdən etibarən bütün ordu, mülki və maliyyə strukturları birbaşa komendanta tabe idilər. 1806-cı ildə Gəncədə yerli məhkəmə yaradıldı.

Gəncə şəhərində əhalinin üzərində nəzarətin gücləndirilməsi məqsədilə 1824-cü ildə burda polis şöbəsi yaradıldı. Bu şöbə və onun fəaliyyəti yerli əhali arasında ciddi narazılıqlara səbəb oldu. Komendant sistemi 1840-cı ildə ləğv edildi. Daha sonra Gəncə Gürcüstanın İmeretin əyalətinin tərkibinə qatıldı.

Yelizavetpol quberniyası 1868-ci ildə quruldu və Gəncə quberniyanın mərkəzi oldu.

Gəncə şəhərinin əlverişli mövqedə - Bakı-Tiflis karvan yollarının kəsişdiyi bir yerdə yerləşməsi ona Qafqazdan da o tərəfə, Şərqin böyük ticarət mərkəzləri ilə ticari əlaqələrinin yaratmasına imkan yaratdı.

XIX əsrin birinci yarısında Gəncədə mədəniyyətin dirçəlişi müşahidə edilirdi.

Əsrlər boyu mədrəsə və dini məktəblərdə təhsil proqramlarının olmamasına baxmayaraq şagirdlər klassik Şərq ədəbiyyatı ilə tanış idilər. Əslində, Gəncədə tanınmış şair və müəllim olan Mirzə Şəfi Vazeh məktəb üçün hazırlanan dərsliyin ilk müəllifi olmuşdur.

XIX əsrin birinci yarısında Gəncədə xüsusi məktəblər fəaliyyət göstərməyə başladı və 1860-cı ildə artıq 198 nəfər burda təhsil almışdı. 60-cı illərin ortalarında Gəncədə artıq 981 şagird təhsil almışdı.

Gəncə həmçinin elmin inkişafında da əvəzedilməz rol oynamışdır. İlk təhsilini Gəncədə mədrəsədə almış Mirzə Cəfər Topçubaşov 1877-ci ildə İran səfirliyinin tərkibində Sankt-Peterburga getmiş, daha sonralar Peterburq Universitetinin professoru kimi Rus Arxeoloji Cəmiyyətinin Numizmatika şöbəsinin yaradıcılarından biri olmuş və ömrünün axırına qədər (1784 - 1869) bu şöbənin şərq bölməsinə başçılıq etmişdir.

Gəncədə yaşayıb yaratmış şairlər arasında Mirzə Mehdi Nəci, Molla Abdulla, Hacı Abbas, Xaki və digərlərini qeyd etmək olar. Mirzə Şəfi Vazeh( 1794-1852 ) Azərbaycanda maarifçiliyin inkişafında mühüm rol oynamış incəsənət nümayəndələrindən biridir.

Gəncədə milli teatr olmayıb. Bunun əvəzində burda milli oyunlar, şəbəkə, cürbəcür sərgilər fəaliyyət göstərmişdir. Gəncədə bir neçə kitabxana fəaliyyət göstərirdi. Onların fondu əsasən dərsliklərdən ibarət idi.

Kapitalizm boyunca geniş inkişafa nail olunmuş, ustaların sifarişiylə deyil, birbaşa bazar üçün hazırlaya bildikləri sənət şöbələri fəaliyyət göstərirdi. Sənətkarlıq öz əvvəlki əhəmiyyətini qoruyaraq Gəncə əhalisinin əsas məşğuliyyətlərindən biri olaraq qalırdı

Gəncə zadəganları istehsal sahələrinə və açılan yeni müəssisələrə kapital qoymağa başlamışdılar. Xüsusilə şərab hazırlama, konyak istehsalı, səməni şəkəri sahələri intensiv inkişaf edirdi.

Gəncədəki ticarət müəssisələri tədricən "Forer Qardaşları", "Qomel Qardaşları", "Yelizavetpol", "Konkordia", "Pobeda", "P. və E. Əmirxanov qardaşları", "E. Franke və İ. Polonskiy", birləşmiş səhmdar şirkət olan "Cənub toxucuları" kimi ticarət cəmiyyətləri tərəfindən özəlləşdirilməyə başlanmışdı.

Meyvə şirəsi hazırlayan fabrik inkişaf edir, meyvə istehsal sənayesi Gəncədə mühüm rol oynamışdı. 1906-cı ildə "səməni şəkərinin istehsalı və emalı ilə məşğul olan Qafqaz cəmiyyəti" birləşmiş səhmdar cəmiyyətinin sahib olduğu fabrik əsas müəssisələrdən birinə çevrildi. Cəmiyyət İngilis və Amerikan kapitalının əsasında quruldu.

Təmizlənmiş pambıq istehsalının inkişafı birbaşa olaraq əyalətdəki pambıq sənayesinin illik artımına səbəb oldu. 1900-cü ildə 2 pambıqtəmizləmə zavodu burda fəaliyyət göstərirdi. 1911-ci ildə əyalətdə 24 mövcud pambıq təmizləyən zavoddan 5-i Gəncədə yerləşirdi. Bu zavodlardan hər birində illik ortalama olaraq 100 pud təmizlənmiş pambıq istehsal edilirdi.

Geniş pambıqtəmizləmə zavodlarında istehsal edilən yüz minlərlə pud təmizlənmiş pambıq Moskva və digər şəhərlərə göndərilirdi. 1919-cu ildə təmizlənmiş pambığın istehsalı ilə məşğul olan digər birləşmiş səhmdar cəmiyyət olan "Yelizavetpol kənd təsərrüfatı və istehsal ticarəti" yaradıldı.

Gəncədə XIX əsrin 50-ci illərində qurulmuş tütün fabriki fəaliyyət göstərirdi. Kərpic zavodları da istehsalatda əhəmiyyətli yerlərdən birini tuturdu. İstehsal yalnız yerli əhalinin tələblərini deyil, həmçinin əyalətin rayon və kəndlərinin tələbatını ödəyirdi.

1883-cü ildə şəhərin iqtisadiyyatının inkişafına səbəb olan Bakı–Tiflis dəmiryolu fəaliyyətə başladı. Bu dəmiryolu vasitəsilə bütün Qafqaz ölkələrinə yerli kənd təsərrüfatı və istehsal məhsullarının göndərilməsi mümkün oldu. Bütün bunlarla yanaşı Gəncə şəhərinin Bakı ,Şuşa, Tiflis və İrəvan şəhərləri ilə əlaqələri dəmiryolu vasitəsilə daha da sıxlaşdı. İstehsal məhsulları vaqon və çənlərdə bu xətt vasitəsilə yuxarıda qeyd etdiyimiz şəhərlərə göndərilirdi.

Kapitalizmin inkişafının nəticəsi olaraq şəhərdə geniş miqyasda Bank-kredit sistemi yarandı. 1896-cı ildə Azov-Don ticarət bankının filialı, 1905-ci ildə ilk və 1907-ci ildə ikinci qarışıq ticarət-kredit cəmiyyətləri, 1912-ci ildə Tiflis ticarət bankının şöbəsi, 1913-cü ildə Volgodonsk ticarət bankı agentliyi və uzun sürən danışıqlardan sonra 1916-cı ildə Dövlət Yelizavetpol bankı açıldı.

Kapitalizmin inkişafı Gəncə şəhərinin mədəniyyətinin inkişafına müsbət təsir göstərdi. Bu özünü təhsilin inkişafında da göstərirdi. Bu dövrlərdə Gəncədə müxtəlif məktəblər (bura məscidlərin nəzdində fəaliyyət göstərən dini məktəblər-mədrəsələr də daxildir) fəaliyyət göstərirdi. 1883-cü ildə Gəncədə "Müqəddəs Nina adına Xeyriyyə Cəmiyyəti"nin nəzdində ilk qadın orta məktəbi fəaliyyət göstərməyə başladı. 1924-cü ildə isə şəhərdə pedaqoji seminariya açıldı. Seminariyanın ilk ilində bura 18 nəfər (onların əksəriyyəti varlı ailələrdən idi) qəbul edildi.

1918-ci il iyunun 16-dan sentyabrın 16-dək Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncədə fəaliyyət göstərmişdir. 1920-ci ilin aprelində bolşeviklərin AXC-ni süquta uğratmasından bir çox Gəncəlilər (hətta varlı olmayanlar da) İran və Türkiyəyə üz tutaraq buranı tərk etdilər. Və təxminən 70 ilə

yaxın öz doğmaları və ana vətənlərindən uzaq qalmaq məcburiyyətində qaldılar. Yalnız 1991-ci ildə Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra onlar yenidən vətənə qovuşmaq imkanı əldə etdilər.



Sovet hakimiyyətinin ilk dövrlərində su təchizatı məsələsi aktuallıq qazandı. Şəhərin təşəbbüsü ilə su hövzələri quraşdırıldı. Yeni su borularının quraşdırılmasından öncə köhnə borular və hövzələr təmir edildi. 1936-cı ildə tikilən su kəməri şəhər əhlinin su ehtiyacını ödədi. 1939-1940-cı illərdə Gəncədə yeni su kəmərlərinin tikintisi başladı və ikinci dünya müharibəsindən sonra ağır keçən bir neçə ilə tamamlandı.

1920-ci ildə Gəncədə 14 ibtidai və 4 tam məktəb fəaliyyət göstərirdi. 1923-cü il yanvarın birinə olan məlumata əsasən 2.794 məktəbli Gəncənin ibtidai məktəblərində təhsil alırdı. 1928-29-cu illərdə Gəncə ibtidai təhsil sistemi burda mövcud uşaqların 95 %-ini əhatə edirdi.

1931-ci ildə Hidromeliorasiya İnstitutu, Bakıdakı 2 kənd təsərrüfatı məktəbi Gəncəyə köçürülmüş və 1933-cü ildə onlar birləşdirilərək 6 fakültəli Kənd Təsərrüfatı İnstitutu yaradılmışdır. Bundan başqa yaxın illərdə Gəncədə həmçinin ikiillik pedaqoji institut, Gəncə musiqi texnikumu, tibb texnikumu fəaliyyət göstərmişdir. İllər keçdikcə Gəncədəki mədəniyyət mərkəzlərinin sayı artır. 1940-cı ilə olan məlumatlara görə burda 9 kitabxana, 13 klub, 7 oxu zalı mövcud idi. Milli təhsilin inkişafında əlbəttə ki, mühüm yerlərdən birini 1920-ci ildə Gəncə şəhərində yaradılmış Nəşriyyat evi tutur. "Qırmızı Gəncə", "Yeni Gəncə", "Qızıl Gəncə", "Gəncə bolşevik " qəzetləriylə yanaşı, burda həm də bir sıra jurnallar çap edilirdi.

1946-1950-ci illərdə Gəncəni də repressiya və həbslər dalğası bürümüşdü. II Dünya müharibəsində 25.643 Gəncəli cəbhəyə yollanmışdır. Gəncəli kiçik leytenant olan İsrafil Məmmədov Sovet İttifaqı qəhrəmanları arasında ilk azərbaycanlıdır.

Gəncədə tərkibində müxtəlif növ dəzgahların mövcud olduğu toxuculuq kombinatı tikildi. Kombinatda 83 min oxlu (milli) 20480 toxucu dəzgahı yerləşdirildi. Gəncədəki elektrik problemi şəhərdən 50 km aralıda yerləşən Mingəçevir su elektrik anbarının tikilməsiylə öz həllini tapdı. 1954-cü ildə isə Gəncədə yüksək cərəyanlı yarımstansiyanın tikintisi başlandı. 1950-ci illərdə ağır sənaye inkişafı sahəsində aparılan nəzərə çarpan işlər aparılırdı. Bu dövrdə yüksək potensiala malik Alüminium zavodu (Transqafqaz məkanında ən böyük) inşa edildi.

Gəncədə həmçinin ərzaq istehsal sənayesi də inkişaf etmişdi. Bu illərdə Gəncədə ət istehsalı zavodu, şərab zavodu, süd məmulatları fabriki, çörəkçi və şirniyyat fabriki və digər müəssisələr fəaliyyət göstərməyə başladı. 1970-ci illərdə xalça-paltar fabrikinin ikinci bölməsi istifadəyə verildi.

Bu gün Gəncə inkişaf etmiş ağır sənayesi, yüngül sənaye və ərzaq sənayesinə görə Bakı və Sumqayıtdan sonra ölkənin ən böyük sənaye mərkəzlərindən biridir. Gəncədəki 22 istehsal müəssisəsində 400 müxtəlif adda məhsul və istehlakçı malları istehsal edilir.

Yenidənqurma və keçən müharibə dövründə Gəncə mühüm dəyişikliklərə məruz qalmışdır. Gəncədə yeni binaların, dövlət binalarının tikilməsi nəticəsində şəhərin küçə və meydanları çox gözəl və cazibədar bir hala gəlmişdir.

Hazırda Gəncənin ərazisi 100 km²-dən artıq olub, əhalisinin sayı isə 313 min nəfərdən ibarətdir. Quru Qobu ərazisində "Gülüstan" mikrorayonu və "Yeni Gəncə" rayonun qurulması Gəncənin tutduğu ərazinin genişlənməsi şəhərin gələcək inkişafı üçün bir əlverişli şərait yaratmışdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

«Alternativ-TV» MMC 15 mart 2002-ci il tarixindən etibarən test şəklində ilk dəfə efirə çıxmışdır və 18 aprel 2002-ci il tarixindən 6 saatlıq efir rejiminə keçmişdir.

Gəncə şəhərində fəaliyyət göstərən digər kütləvi informasiya vasitələri haqqında məlumat:

«Kəpəz - TV» - 1993-cü ildən fəaliyyət göstərir. Gəncə və ətraf rayonları əhatə edir.

Gəncə şəhəri İcra hakimiyyətinin orqanı olan «Gəncənin səsi» qəzeti 1920-ci ildən nəşr olunur.

YAP Gəncə təşkilatının orqanı olan «Yeni Gəncə» qəzeti 1993-cü ildən nəşr olunur.

Müstəqil ictimai siyasi qəzet olan «Gəncəbasar» qəzeti 2003-cü ildən nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Gəncə şəhərinin ərazisindən 10 km uzunluğunda I kateqoriyalı dəmir yolu, 7 km uzunluğunda avtomobil yolları keçir

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Müasir Gəncənin 7 km Şimalında yerləşən Qədim Gəncənin möhtəşəm memarlıq abidələrindən biri də «İmamzadə» türbəsidir. Bunu yerli əhali «Pir», «Göy İmam», «Göy kümbəz» deyə adlandırır. 6-7 metr hündürlüyündə olan bu türbə 4 bucaqlı şəkildədir. Türbə xaricdən rəngli naxışlarla bəzənmişdir. Onun diqqəti cəlb edən kümbəz hissəsi vardır. Gövdənin hündürlüyü 2,5 metr, xarici və daxili diametri 4 metrə yaxındır. Türbənin xarici hissəsinin mərkəzi yerində ərəb dilində yazılmış kitabə vardır.

Kitabədə yazılmışdır: «Odur əbədi: bu şərəfli cənnət bağçası 120 il babasının « ona salam olsun - hicrətindən sonra vəfat etmiş İmam Məhəmməd Bağır oğlu - ona salam olsun - Mövlana İbrahimin türbəsidir». Bu kitabədən məlum olur ki, İmamzadə türbəsi VIII əsrdə inşa edilmişdir.

Hələ sovetlər dövründə «İmamzadə» türbəsi Azərbaycan xalqının müqəddəs yeri olmuş və hakimiyyət tərəfindən hər cür yasağa baxmayaraq, xüsusən III İmam Hüseynin qətl günü olan «Aşurə» günündə bu məbədi minlərlə insan ziyarət edirdi.

Ölkə müstəqillik əldə etdikdən sonra məbəddə və ətraf sahədə əsaslı təmir abadlıq işləri aparılmış, məbədə gedən yollar asfalt örtüyü ilə örtülmüş, ziyarətə gələnlər üçün hər cür şərait yaradılmışdır.

«Cömərdi « qəssab» - Bütpərəstliyə qarşı mübariz, İslam dinini Azərbaycanda ilk qəbul edənlərdən biri, mərd, xeyirxah, əliaçıqlığı ilə şəhər sakinlərinin böyük hörmətini qazanan bu insan 664-cü ildə

şəhərin müdafiəsi zamanı qəhrəmancasına həlak olmuş, bu insanın məzarı üzərində qədirbilən şəhər əhalisi tərəfindən türbə ucaldılmışdır.

Dairəvi formada tikilmiş bu abidə bişmiş kərpiclə hörülmüşdür. Divarın qalınlığı 80 sm olmuşdur.

Əfsuslar olsun ki, sovetlər dövründə abidə heç bir lüzum olmadığı halda tamamilə sökülmüş və abidənin yerindən istilik xətti çəkilmişdir. Son illər şəhərdə aparılan quruculuq işləri çərçivəsində şəhərin başqa tarixi abidələri ilə bərabər «Comərdi-qəssab» məbədi öz tarixi təməli üzərində tamamilə yenidən bərpa edilib və sakinlərin ziyarət yerinə çevrilmişdir.

«Alban-məbədi» - XVII əsrin tarixi abidəsidir, 7 sütundan ibarətdir, dam örtüyü daşdandır və üstündə 8 guşəli baxış qülləsi yerləşir.

«Nizami məqbərəsi» - Dünya ədəbiyyatının korifeylərindən biri olan, Azərbaycan xalqının dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin məqbərəsi indiki Gəncə şəhərinin 7 km şərqində «Şıx düzü» deyilən yerdə inşa edilmişdir.

Şeyx Nizaminin məzarı əsrlər boyu təkcə yerli əhalinin deyil, həm də Gəncəyə yolu düşən insanların müqəddəs bildiyi yer olmuşdur.

Lakin bunlara baxmayaraq son dövrlərə qədər ulu Nizaminin qəbrinin üstündə tarixi keçmişdən xəbər verən, memarlıq quruluşunda tikilmiş, xarici görkəmi, səliqəli olan abidə olmamışdır. Yalnız 1940-cı ildə türbədə aparılmış qazıntı zamanı üstündə «Bu nurlu qəbir Şeyxlər Şeyxi Abu-Mühəmməd, İbn-İlyas, İbn Yusif, İbn Zəki Nizaməddin, Müəyyəddinindir» sözləri yazılmış qəbirüstü daş tapıldıqdan sonra məqbərənin tikintisi tamamlanmış və 1947-ci ildə Nizaminin anadan olmasının 800-illiyi münasibəti ilə hündürlüyü 15,2 metr olan abidənin açılışı olmuşdur.

1980-ci ildə respublika rəhbəri Heydər Əliyev cənablarının şəxsi təşəbbüsü və təkidi ilə abidənin müasir arxitekturanın tələblərinə uyğun, daha böyük zövqlə yenidən əsaslı bərpa edilməsi qərara alınmış və bu nəhəng iş 1991-ci ildə böyük mütəfəkkirin anadan olmasının 850 illiyi təntənələrində qurtarmışdır.

Məqbərə kompleksi Azərbaycanın XII əsr memarlıq üslubunda tikilmiş və milli-bədii cizgilərini özündə cəmləşdirmişdir.

Layihənin müəllifi əməkdar arxitektor, şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü Fərman İmamquliyev, heykəltəraş əməkdar rəssam Qorxmaz Sücaəddinovdur.

Gəncə şəhərinin ölkə və yerli əhəmiyyətli tarixi və memarlıq abidələri əsasən şəhərin Nizami rayonu ərazisində yerləşir. Bunlardan ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri aşağıdakılardır:

- Şah Abbas karvansarayı (XVII əsr);
- Uğurlu xan karvansarayı (XVIII əsr);
- Çökək hamam (XVII əsr);
- Cümə məscidi (XVII əsr);
- Cümə məscidinin minarələri (XIX əsr);
- Gəncə qalasının divar qalığı (XVI əsr);
- Cavad xanın dəftərxanası (XVIII əsr);

- Albanlar məbədi (XVII əsr);
- Zərrabi məscidi (XVIII əsr);
- Xan bağı (XIX əsr);

**Yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri**

- Tarix diyarşünaslıq muzeyinin binası (XIX əsr);
- Şahsevənlər məscidi (XIX əsr);
- Yelizavetpol general « qubernatorluğunun binası (XIX əsr);
- Avropa tipli hamam (XIX əsr);
- Realnı məktəbin binası (XIX əsr);
- 7 sütunlu Alban məbədi (XVIII əsr);
- Qazaxlar məscidi (XIX əsr);
- Xəlfəli məscidi (XIX əsr);
- Aleksandr Nevski kilsəsi (XIX əsr);
- Hüseyniyə məscidi (XIX əsr);
- Bala Bağban məscidi (XIX əsr);
- Qırıxlı məscidi (XIX əsr);
- İmamlı məscidi (XVIII əsr);
- Ozan məscidi (XVIII əsr);
- Şərəfxanlı qadın mədrəsəsi (XIX əsr);
- Qızlar gimnaziyası (XIX əsr);
- Milli Bankın binası (XIX əsr);
- Yelizavetpol mətbəə binası (XIX əsr);
- Qızıl Hacılı məscidi (XIX əsr).

Son dövrlərdə Gənc şəhərində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində xeyli işlər görülmüşdür.

Şəhərin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Gədəbəy rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,23 min kv. km**

**Əhalinin sayı – 101,0 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 82 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 108**

**Gədəbəy rayonu ilə Bakı arasında olan məsafə - 444 km**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Gədəbəy rayonu** | 93719 | 100,0 | 46610 | 49,9 | 47109 | 51,1 |
| şəhər əhalisi | 10146 | 10,85 | 4906 | 10,53 | 5240 | 11,12 |
| kənd əhalisi | 83573 | 89,17 | 41704 | 89,47 | 41869 | 88,88 |

### Ümumi məlumat

Qərb və cənub-qərb tərəfdən 123 km məsafədə Ermənistan Respublikası ilə, şimal tərəfdən Azərbaycan Respublikasının Tovuz, şimal-şərq və şərq tərəfdən Şəmkir və Daşkəsən rayonları ilə həmsərhəddir. Mərkəzi Gədəbəy şəhəridir. Gədəbəy şəhəri 1935-ci ildən 1990-cı istədək şəhər tipli qəsəbə, 1990-cı ildən isə şəhər adlanır. Rayonda 40 inzibati ərazi vahidi var.

Rayona Gədəbəy şəhəri və Qoşabulaq, Totuxlu, Pərizamanlı, Samanlıq, Moruxlu, Nərimankənd, Çanaqçı, Slavyanka, Maarif, Zəhmətkənd, Qarabulaq, Xar-xar, Soyuqbulaq, Ərtəpə, Pirbulaq, Söyüdlü, Arıqdam, Qaradağ, Daşbulaq, Düzyurd, Talakənd, Dəyərqarabulaq, Musayal, Miskinli, Plankənd, Qalakənd, Çalburun, Çaldaş, Səbətkeçməz, Əlinağılar, Arısu, Gərgər, Yenikənd, Qarıkənd, Dəyirmandağ, Quru-dərə, Köhnəkənd, Sarıköynək, Hacıələkbərli, Şəkərbəy, Heydərli, Gödək-dərə, Sarıhəsənli, Yaqublu, Qasımağalı, Əmiraslanlı, Kiçik Qaramurad, Leşgər, Parakənd, Qarovultomba, Daryurd, Cəfərli, Nağılar, İnəkboğan, Köhnəqışlaq, Kərimli, Qasımlı, Anqıran, Əyrivəng, Böyük Qaramurad, Qurudərə, Ataxal, Toplar, Poladlı, Kələman, Emir, Höriknaz, Qozqaralı, Qaraməmmədli, Kəsəmən, Qıziltorpaq, Novosaratovka, Novoivanovka, Çobankənd, Yenikənd, Mutudərə, Qasımağalı, Dördlər, Cücənli, İsalı, Arabaçı, Fərzalı, Mormor, Zamanlı, Düzrəsullu, Təkyemişan, Rəhimli, Hüseynqulular, Gərməşeyli, Göyəmli, Çayrəsullu, Bəydəmirli, Turşsu, Kollu, Şınıx, Hacılar, Sonalar, Əyridərə, Qaravəllilər, Məmmədcəfərli, Rəmə, Tərs yer, Günəşli, Əliismayıllı, Hacıalılar, Şahdağ, Göyəlli kəndləri daxildir.

Kiçik Qafqazın orta və yüksək dağlıq qurşaqlarında yerləşir. Ərazisi Şahdağ silsiləsinin şimal yamacını, Başkənd-Dəstəfur çökəkliyinin və Şəmkir dağ massivinin bir hissəsini əhatə edir. Ən yüksək zirvələri: Qoşabulaq (3549 *m*), Qocadağ (3317 *m*), Qaraarxac (3063 *m*) və s. Rayonda Yura, Tabaşir,

Paleogen və Antropogen çöküntüləri yayılmışdır. Qara və ağ mərmər, mis, qızıl, firuzə yataqları var. Yayı quraq keçən mülayim isti, qışı quraq keçən soyuq iqlim üstündür. Orta temperatur yanvarda -10°C-dən -2°C-yədək, iyulda 10-20°C-dir. İllik yağıntı 600-900 *mm*-dir. Çay şəbəkəsi sıxdır. Axınca, Zəyəm və Şəmkir çaylarının yuxarı axını rayon ərazisindədir. Qonur dağ-meşə, çimli dağ-çəmən və s. torpaqlar yayılmışdır. Orta dağlıqda kollu və seyrək meşəli çəmənliklər, enliyarpaq meşələr (palıd, fıstıq, vələs), yüksək dağlıqda subalp və alp çəmənlikləri geniş yer tutur. Heyvanları: qayakeçisi, cüyür, qonur ayı, canavar və s. Quşları: tetra, ular, qartal və s. Qızılca Dövlət Təbiət Yasaqlığı yaradılmışdır.

Gədəbəy, əsasən, kənd təsərrüfatı rayonudur. İqtisadiyyatında kartofçuluq, heyvandarlıq və taxılçılıq əsas yer tutur. Rayonda kərpic, əhəng istehsal olunur, mineral və süfrə suları qablaşdırılır. Un və şirniyyat istehsalı, plastik qapı-pəncərə sexləri var. Asfalt zavodu var.

Gədəbəy rayonu Azərbaycanın ən qədim insan yaşayış məskənlərindən biridir. Ərazidə olan tarixi mədəniyyət abidələri e. ə. XII-VII əsrləri əhatə edən Xocalı-Gədəbəy mədəniyyətinin bir hissəsi kimi tariximizə daxil olmuşdur.

XIX əsrin ortalarında Gədəbəy rayonu ərazisində mis filizi yataqları kəşf edilmiş və 1855-1856-cı illərdə yerli sahibkarlar tərəfindən misəritmə zavodu tikilmişdir. Daha sonra həmin zavod Almaniyanın "Siemens" şirkəti tərəfindən alınaraq, 1865-ci ildə yenidən qurulmuşdur. "Siemens" şirkəti tərəfindən 1883-cü ildə Qalakənd misəritmə zavodu tikilmiş, Gədəbəy-Qalakənd arasında dar dəmir yolu çəkilmişdir. 1883-cü ildə Qalakənd kəndində Çar Rusiyası ərazisində ilk Su Elektrik Stansiyası tikilmiş, Qalakənd misəritmə zavodunda elektroliz üsulu ilə mis əridilmişdir.

Həmin dövrdə alman alimləri tərəfindən Gədəbəy rayonu ərazisində arxeoloji qazıntı işləri aparılmışdır. Arxeoloji qazıntının nəticələri Almaniyanın "Folker Şpis" elmi nəşriyyatı tərəfindən "Qalakənd" adlı elmi əsər şəklində Berlində çap edilmişdir. Əsər Berlin Dövlət muzeyində saxlanılır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda Gədəbəy Rayon İcra hakimiyyətinin orqanı olan “Tərəqqi” qəzeti 1930-cu ildən çıxır. 1965-ci ilədək qəzet “Qızıl Gədəbəy”, “Sosializm qələbəsi”, “Ulduz” adları ilə çıxmışdır. 1930-cu ildən 1991-ci ilədək qəzet Azərbaycan KP Gədəbəy Rayon Komitəsinin və Rayon Xalq Deputatları Sovetinin orqanı olmuşdur. Hazırda ayda bir dəfə nəşr olunur.

Rayonun bütün ərazisində televiziya verilişləri yayımlanır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonda nəqliyyat avtomobil yolları vasitəsilə həyata keçirilir. Avtomobil yollarının ümumi uzunluğu 380 km-dir. Rayonun daxili yollarının III kateqoriyalı 97 km-i respublika əhəmiyyətli, 283 km-i isə yerli əhəmiyyətlidir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayon ərazisində 1 dünya əhəmiyyətli, 79 ölkə əhəmiyyətli arxeoloji abidə və 18 memarlıq abidəsi qorunur.

Memarlıq abidələrindən Söyüdlü kəndində (Şəmkir çayı üzərində) “Qız qalası” (“Namərdqala”, IX əsr), “Mahrasa” (məbəd), Qalakənd kəndində qala (“Koroğlu” qalası, XVI əsr), Böyük Qaramurad kəndində məbəd (XVII əsr) tarixi memarlıq abidələri daha məşhurdur.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Goranboy rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,70 min kv. km**

**Əhalinin sayı - 101,8 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 60 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 2**

**Kəndlərin sayı - 79**

**Qəsəbələrin sayı – 6**

**Goranboy rayonu ilə Bakı arasında olan məsafə - 317 km.**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Goranboy rayonu** | 94244 | 100,0 | 46848 | 49,8 | 47396 | 51,2 |
| şəhər əhalisi | 20160 | 21,39 | 9945 | 21,23 | 10215 | 21,55 |
| kənd əhalisi | 74084 | 78,61 | 36903 | 78,77 | 37181 | 78,45 |

**Ümumi məlumat**

Goranboy rayonu ilk dəfə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 8 avqust 1930-cu il tarixli qərarı ilə inzibati ərazi bölgüsü və rayonların yaradılması ilə əlaqədar Goranboy kəndi mərkəz olmaqla yaradılmışdır. Respublika İcraiyyə Komitəsinin 8 sentyabr 1938-ci il tarixli qərarı ilə Goranboy rayonunun adı dəyişdirilərək Qasım İsmayılov adlandırılmışdır. Azərbaycan Respublikası Ali Sovetinin 12 fevral 1991-ci il tarixli qərarı ilə eyni ərazidə iki rayonun mövcudluğu lüzumsuz sayılmış, Şaumyan (kənd) rayonu ləğv edilərək rayonun keçmiş adı özünə qaytarılmaqla Goranboy rayonu yaradılmışdır. Kiçik Qafqazın şimal-şərq yamacında və Gəncə-Qazax düzənliyində yerləşir. Mərkəzi Goranboy şəhəridir.

Rayona Goranboy, Dəliməmmədli şəhərləri, Qızılhacılı, Qazanbulaq, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Goran, Kürəkçay qəsəbələri və Şahməmmədli, Qarasüleymanlı, Baxçakürd, Xan Qərvənd, Qaraçinar, Yenikənd, Qaxtut, Quşçular, Hazırəhmədli, Başirli, Göynüyən, Qarasuçu, Muzdurlar, Yolpaq, Əhmədabad, Rəhimli, Veyisli, Faxralı, Alpout, Qurbanzadə, Boluslu, Məşədiqaralar, Nərimanlı, Zeynallı, Eyvazlılar, Goranlı, Qazançı, Zeyvə, Gürzallar, Qaramusalı, Həmənli, Nizami, Balakürd, Ballıqaya,

Qaraqucaq, Şəfibəyli, Hacallı, Qaradağlı, Sadıqlı, Qırıxlı, Qarapirimli, Gülməmmədli, Səfikürd, Sarovlu, Meşəli, Nadirkənd, Buzluq, Başqışlaq, Börü, Əzizbəyov, Səmədabad, Xəsədərli, Ağamalıoğlu, Rus Borisi, Borsunlu, Xoylu, Azad, Kələk, Şıxlar, Todan, Tapqaraqoyunlu, Qasımbəyli, Şəfəq, Erkəc, Tatarlı, Qazaxlar, Gülüstan, Balıqaya, Yəhərçi Qazaxlar, Yalqulular, Dəyirmanlar, Xınalı, Qaşaltı, Qaraqoyunlu, Mənəşli, Abbasqulular, Qaraqoyunlu, Tap, Yeni Yol, Təklə, Əlirzalı kəndləri daxildir.

Səthi şimal-şərqdə düzənlik, cənub-qərbdə isə dağlıqdır, ayrı-ayrı yerlərdə qobu və dərələrlə kəsilmişdir. Dağlıq sahədə Paleogen və Neogen, düzənlikdə isə Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, əhəngdaşı və gil. Dünyada yeganə müalicəvi neft yatağı (Naftalan) buradadır. İqlimi mülayim isti və quru subtropikdir. Orta temperatur yanvarda - l,5°C-dən - l°C-yədək, iyulda 22°C-dən 26,5°C-yədəkdir. İllik yağıntı 300-600 *mm*-dir. Çayları (Kürək, Goran, Korçay) Kür hövzəsinə aiddir. Şabalıdı, dağ boz-qəhvəyi torpaqları var. Əsas bitki örtüyü yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra tiplidir. Meşəliklər var. Heyvanları: canavar, tülkü, boz dovşan, çölsiçanı və s. Quşları: turac, bəzgək, dovdaq və s. Korçay yasaqlığının bir hissəsi rayonun ərazisindədir.

İqtisadiyyatında pambıqçılıq, taxılçılıq, heyvandarlıq, meyvəçilik, üzümçülük, tərəvəzçilik və bostançılıq əsas yer tutur. Boya fabriki, məişət avadanlıqları zavodu, günəbaxan yağı emalı zavodu və s. sənaye müəssisələri var.

«Goranboy» sözünü alimlər müxtəlif cür izah edirlər. Həqiqətə yaxın olan isə «Goranboy» sözünün Strabonun 17 kitabdan ibarət «Coğrafiya» əsərində göstərilən müxtəlif dilli 26 tayfadan biri olan «gel», «ger» tayfasının adı ilə bağlanmışdır. Yəni Goranın (Gelan, Geran) gel, ger tayfasının yaşadığı, məskunlaşdığı yer, ərazi mənasında işlədiyini bildirirlər.

Rayonun qədim tarixə malik olduğunu, burada e.ə. yaşayışın mövcudluğunu e.ə. II minilliyin ikinci yarısı - I minilliyin əvvəlinə aid olan Səfikürd, Borsunlu, tunc və dəmir dövrünə aid edilən Osmantəpə kurqanlarında, e.ə. VI-VII əsrlərə aid Goran adlı qədim yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi mədəniyyət nümunələri sübut edir. Goranboyun kənd tipli yaşayış yerləri ilk orta əsr (V-VII) və orta əsrlərə (VIII-XIII) aiddir. İlk orta əsr (V-VII) kənd tipli yaşayış yerlərinə Saxsılı təpə, Qoş təpə, orta əsr yaşayış yerlərinə isə 1-ci və 2-ci Kərpicli yaşayış yerləri, Həmənli və Mollavələdli yaşayış yerləri daxildir. İlk orta əsrlərə məxsus şəhər tipli yaşayış məntəqələrinə 1-ci və 2-ci Kürəkçay və Gülüstan feodal qəsri daxildir.

Rayonun ərazisində II-V əsrlərə aid olan Şətəl şəhəri XIII əsrdə monqolların Azərbaycana hücumu zamanı tamamilə dağıdılmışdır.

1805-ci il mayın 14-də Rusiya ilə Qarabağ xanlığı arasında bağlanmış Kürəkçay müqaviləsi rayonun ərazisindən keçən Kürəkçay çayının sahilində, 1813-cü il oktyabrın 13-də Rusiya ilə İran arasında bağlanmış Gülüstan müqaviləsi isə rayonun Gülüstan kəndində imzalanmışdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonun ictimai-siyasi qəzeti olan «Mübariz» ayda 3 dəfə çap olunur. «Gülüstan» ədəbi məclisinin nəşri olan «Gülüstan» toplusu ayda bir dəfə nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Bakı-Gürcüstan dəmir yolunun 42 km-i, Bakı-Qazax-Gürcüstan avtomobil yolunun isə 43 km-i rayonun ərazisindən keçir. Ümumiyyətlə rayonun ərazisində 146 km asfalt-beton örtüklü ikinci dərəcəli respublika əhəmiyyətli, 633 km isə yerli əhəmiyyətli yollardır. Ondan 110 km-i qara çınqıl, 115 km-i çınqıl, 408 km-i isə qrunt yollarından ibarətdir

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonun ərazisində ilk orta əsrlərə məxsus 1-ci Kürəkçay (Hazırəhmədli kəndi) qalası, orta əsrlərdə inşa edilmiş 2 Kürəkçay qalası (Qaradağlı kəndi), Gülüstan feodal qəsri və Şətəl qalası kimi tarixi abidələr mövcuddur. VII-XIX əsrlərə aid Arran memarlıq üslubunda tikilmiş, VII-XIII əsrlərə aid Mollavələdli, XIII - XIV əsrlərə aid Borsunlu, Səfikürd kəndində Xudu baba, XVIII-XIX əsrlərə aid Rəhimli türbələri (Mirzə Adıgözəlov türbələri), XVIII-XIX əsrlərə aid Qızılhacılı məscidi, Borsunlu məscidi, Bosunlu yeraltı hamamı kimi memarlıq abidələri vardır.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Göyçay rayonu

**Yaranma tarixi - 08.08.1930**
**Ərazisi - 0,74 min kv. km**
**Əhalinin sayı - 118,6 min nəfər (1 yanvar, 2024-cü il)**
**Əhalinin sıxlığı – 1 kv. km 160 nəfər (1 yanvar 2024-cü il)**
**Şəhər - 1**
**Kəndlərin sayı – 55**
**Göyçay rayonu ilə Bakı arasında olan məsafə - 226 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Göyçay rayonu** | 109018 | 100,0 | 54040 | 49,1 | 54978 | 51,9 |
| şəhər əhalisi | 35746 | 32,79 | 17461 | 32,31 | 18285 | 33,26 |
| kənd əhalisi | 73272 | 67, 21 | 36579 | 67,69 | 36693 | 66,74 |

**Ümumi məlumat**

Göyçay rayonu Azərbaycan Respublikasının mərkəzində, Şirvan düzünün şimal hissəsində Böyük Qafqaz dağlarının ətəklərində yerləşir. Rayon şimaldan cənuba təxminən 25 km, şərqdən qərbə isə 40 km uzanaraq 736 kvadrat kilometr sahəni əhatə edir. Rayonun tərkibinə 1 şəhər, 55 kənd daxildir. Bakı-Qazax magistral yolunun 216 kilometrliyində, Ucar dəmir yolu stansiyasından 18 km məsafədə yerləşir. Göyçay rayonu şimal şərqdən İsmayıllı, cənub şərqdən Kürdəmir, cənubdan Ucar və qərbdən Ağdaş rayonu ilə həmsərhəddir. Mərkəzi Göyçay şəhəridir.

Rayona Göyçay şəhəri və Potu, Ulaşlı-Şıxlı, Hüngütlü, Kürd, Yeniarx, Hacıağabəyli, Xalidli, Müskürlü, Qəbələ-Müskürlü, Mallı-Şıxlı, Ərəbşahverdi, Şəhadət, Qarabağlar, Mirzəhüseynli, Birinci Ərəbcəbirli, İkinci Ərəbcəbirli, Çərəkə, Cəyirli, Qubadlı-Şıxlı, Kürdəmiş, Türkmən, Qızılağac, Şəkili, Mollahacılı, Məlikkənd, Şıxbəy, Şıxmir, Kürdşaban, Yenikənd, Çaxırlı, Ləkçılpaq, Qaraman, Yalman, Mırtı, Alıkənd, Qaraxıdır, Şəkər, Veysəlli, Alpout, Bəydövül, İncə, Aşağı Qaraməryəm, Dövranlı, Alxasova, Şahsoltanlı, Yekəxana, Qaraməryəm, Qarayazı, Bığır, Qarabaqqal, Cəyirli, Hacalıkənd, Çayarxı, Cırkürd, Çərəcə kəndləri daxildir.

Göyçay əsl türk mənşəli söz olub sahilində yerləşdiyi Göyçay çayının adından götürülmüşdür. Çayın suyu həddindən artıq şəffaf olduğuna və göy (mavi) rəngə çaldığına görə belə adlandırılmışdır.

Göyçay şəhəri təxminən XX əsrin 30-cu illərində salınmağa başlanmışdır. XIX əsrin 50-ci illərində Şamaxıda baş verən zəlzələdən zərər çəkən əhalinin bir hissəsi bura köçmüş və bununla əlaqədar olaraq yaşayış məntəqəsi genişlənməyə başlanmışdır. Çar hökumətinin Qafqazda inzibati islahatına əsasən 1867-ci ilin dekabrında Bakı Quberniyasının tərkibində Göyçay qəzası yaradıldı. Göyçay məntəqəsi 1916-cı ildə şəhər adlandırılmışdır. Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar 1930-cu ildə Göyçay rayonu təşkil edilmişdir.

Rayonun səthi, əsasən, düzənlikdir. Şimal və şərq kənarları alçaq dağlıqdır (Acınohur öndağlığı). Pliosen və Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi üstündür. Orta temperatur yanvarda 1,9°C, iyulda 26,5°C-dir. İllik yağıntı 400-600 *mm*-dir. Əsas çayı Göyçaydır. Yuxarı Şirvan kanalı rayonun ərazisindən keçir. Boz-çəmən, dağ boz-qəhvəyi, şabalıdı, açıq-şabalıdı və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, efemerli-yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra, dağlıq kserofit (quraqlığa davamlı) bitki qruplarından ibarətdir. Seyrək püstə-ardıc meşələri, arid kolluqlar var. Heyvanları: canavar, tülkü, boz dovşan, çöl siçanı və s.

Rayon iki geoloji rayona - dağlıq və düzənliyə ayrılır. Dağlıq zonaya Bozdağ Qaraməryəm tirəsini, düzənliklərə isə rayonun qalan ərazisini aid etmək olar. Ərazi geoloji quruluşuna görə Kaynozoy erasının üçüncü dövrünə, düzənlik sahəsi isə həmin eranın IV dövrünə aiddir. Ərazisinin bəzi sahələri isə müasir çöküntülərlə örtülmüşdür. Ümumiyyətlə rayon ərazisinin bütün səthini gil, gilliсəli torpaqlar, bəzən qum kimi çöküntülər 10-15 sm qalınlığında qat kimi örtülür.

Göyçay çayı dərəsinin və Cəyirli kəndinin yaxınlığında çaydaşı, çınqıl, qum çıxarılaraq tikintilərdə istifadə edilir. Bundan başqa rayonun Qarabaqqal kəndinin ərazisində zəngin gil yataqları vardır ki, bundan da yüksək keyfiyyətli kərpic hazırlanır.

Göyçay rayonunun iqlimi yayı quru keçən mülayim-isti yarımsəhra və quru subtropik iqlim tipinə aiddir. Bu iqlim tipi zəif nəmliyi, mülayim qışı və isti-quru yayı ilə səciyyələnir. İllik yağıntının miqdarı 400-600 mm-dir.

Rayonda kənd təsərrüfatının əsasını taxılçılıq, pambıqçılıq, heyvandarlıq, baramaçılıq və meyvəçilik təşkil edir.

Kənd təsərrüfatına yararlı torpaqlar 44171 hektardır, bundan 24403 hektarı suvarılan torpaqlardır. Kənd təsərrüfatına yararlı torpaqların 23478 hektarı əkin, 4700 hektarı bağ, 16686 hektarı örüş torpaqlarıdır. Rayon ərazisindən torpaqların 28078 hektarı xüsusi mülkiyyətdə, 35397 hektarı bələdiyyə mülkiyyətində, 4777 hektarı isə dövlət mülkiyyətindədir.

Göyçay rayonu 1970-80-ci illərdə daha sürətlə inkişaf etmiş, üzümçülük, baramaçılıq, heyvandarlıq və meyvəçilik sahəsində yüksək nəticələr əldə etmişdir.

Həmin illərdə rayonda nar emalı zavodu, pambıq əyrici fabriki, süd zavodu, çörək zavodu, üzüm emalı müəssisəsi tikilib istifadəyə verilmiş, iki tikinti tresti və dörd tikinti-quraşdırma idarəsi yaradılmışdır.

Göyçay torpağı respublikanın tarixinə tanınmış ictimai xadimlər, yazıçı-sənətkarlar və incəsənət işçiləri bəxş etmişdir.

Həbibi, Qantəmir, Rəsul Rza, Əli Kərim, Ənvər Məmmədxanlı, İsgəndər Coşqun, Anar Rzayev, Əli Səmədli, İbrahim Göyçaylı kimi yazıçı və şairlərimiz belə adamlardandır.

Göyçay rayonunda onlarla elmlər doktoru, professor, elmlər namizədi, alim yetişmişdir.

Göyçay rayonunda Azərbaycan xalqının tarixi keçmişini əks etdirən bir sıra abidələr vardır.

Bunlardan rayonun Ərəb Cəbirli kəndi ərazisində XII-XIV əsrdə inşa edilmiş Ərəb xilafəti dövrünə aid «Surxay» qalasını, İncə və Ərəbcəbirli kəndi ərazisində tapılmış bizim e. ə. II əsrə aid küp qəbirlərinin qalıqlarını, XIX əsrin axırlarında inşa edilmiş yer hamamını və 4 məscidi göstərmək olar.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göyçaylılar yaxından iştirak etmişlər.

Ermənistan silahlı birləşmələrinə qarşı döyüşlərdə göyçaylılar 163 şəhid vermiş, 44 nəfər itkin düşmüş, 106 nəfər şikəst olmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev cənabları Azərbaycan KP MK-nın birinci katibi işlədiyi müddətdə 3 dəfə Göyçay rayonunda olmuş, hər gəlişi zamanı rayon üçün qlobal problemlərin həllinə dair müvafiq tapşırıqlar vermiş və həmin problemlər həll edilmişdir.

Heydər Əliyev 1972-ci ildə rayonda olarkən Göyçay şəhərinin sakinlərini sel sularından mühafizə etmək məqsədi ilə şəhəri ikiyə bölən Arvan çayının qarşısında bənd tikilməsini xahiş etmişdir. Onun tapşırığına əsasən qısa müddətdə şəhərin şimal hissəsində, Arvan dərəsinin qarşısında bənd inşa edilmiş və həmin bənd 25 ildən artıqdır ki, şəhəri sel sularından etibarlı mühafizə edir. Ulu öndərimiz 1978-ci ildə rayonda olarkən Törə və Çərmədil dağlarında əkinə yararlı torpaqların suvarma suyu ilə təminatı probleminin həll edilməsi üçün lazımi göstəriş vermiş və qısa müddət ərzində 800 hektar torpaq sahəsi rayonun əkin dövriyyəsinə daxil edilmişdir.

1982-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Göyçay rayonunda olarkən rayon sakinləri həyətyanı torpaq sahələrində becərdikləri nar məhsulunun dövlət tərəfindən qəbulu, tədarükü və emalı üçün rayonda yeni müəssisə yaradılmasını xahiş etmiş və həmin ildə də Heydər Əliyevin sərəncamı ilə rayonda nar emalı zavodunun tikintisinə başlanmış və qısa müddət ərzində istifadəyə verilməsi təmin olunmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda 1930-cu ildən "Göyçay" qəzeti fəaliyyət göstərir. Qəzet ayda bir dəfə dərc olunur.

Rayon radio verilişləri redaksiyası 1974-cü ildən fəaliyyət göstərir. Verilişlər həftədə 2 gün, hər veriliş 30 dəqiqə vaxt müddətində verilir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Göyçay rayonu Ucar dəmir yolu stansiyasından 18 km məsafədə yerləşir.

Rayonun ərazisindən aşağıdakı avtomobil yolları keçir:

Bakı-Qazax yolu - uzunluğu - 45 km. II kateqoriyalı; Müsüslü stansiyasına giriş avtomobil yolu - 21 km. III kateqoriyalı; Bərgüşad stansiyasına giriş avtomobil yolu - 16 km. III kateqoriyalı; Ucar stansiyasına giriş avtomobil yolu - 15 km. III kateqoriyalı.

**Rayonda 4 yerdə yerli əhəmiyyətli tarixi və mədəniyyət abidələri var:**

1. Göyçay şəhərində 1903-cü ildə tikilmiş Yuxarı Məscid; 2. Göyçay şəhərində 1903-cü ildə tikilmiş yeraltı hamam; 3. Rayonun Alpout kəndində XIX əsrə aid Hacı Cəlil Məscidi; 4. Rayonun Qaraman kəndində XIX əsrə aid Məscid.

***Rayonun memarlıq abidələri:***

1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində həlak olmuş göyçaylıların xatirə abidəsi; 2. Şəhadət, Çərəkə, Xəlitli, Alpout, Yeniarx, Məlikkənd, Müskürlü, Malı-Şıxlı, Qaraməryəm, Ləkçırldaq və Çayarxı kəndlərində 1941-1945-ci illərdə həlak olanların xatirə abidələri; 3. Qarabağ müharibəsində həlak olmuş göyçaylı şəhidlərin xatirə kompleksi; 4. 1918-ci il 31 mart ermənilərin azərbaycanlılara qarşı soyqırımını əks etdirən xatirə kompleksi. Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür. Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Göygöl rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 0,92 min kv. km**

**Əhalinin sayı – 64,8 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 70 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 38**

**Qəsəbələrin sayı – 6**

**Göygöl rayonu ilə Bakı arasında olan məsafə - 364 km**

**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Göygöl rayonu** | 57191 | 100,0 | 28599 | 50,0 | 28592 | 50,0 |
| şəhər əhalisi | 23241 | 40,64 | 11598 | 40,55 | 11643 | 40,72 |
| kənd əhalisi | 33950 | 59,36 | 17001 | 59,45 | 16949 | 59,28 |

**Ümumi məlumat**

Göygöl rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuş və ilk dəfə Nərimanov rayonu adlandırılmışdır.

Rayonun mərkəzi Göygöl şəhərinin əsası qədim Xanlıqlar kəndinin xarabalıqları yerində 22 avqust 1819-cu ildə alman kolonistləri tərəfindən qoyularaq «Yelenendorf» adlandırılmışdır. 1938-ci ildə Nərimanov rayonu Göygöl rayonu, rayonun mərkəzi «Yelenendorf» isə Xanlar şəhəri adlandırılmışdır. 8 may 2008-ci il tarixindən etibarən Xanlar rayonunun adı dəyişdirilərək Göygöl adlandırılmışdır. Göygöl rayonu Kiçik Qafqazın şimal-şərq yamacındadır. Mərkəzi Göygöl şəhəridir.

Rayona Göygöl şəhəri, Xanlar, Qızılqaya, Hacıməlik, Firuzabad, Aşağı Zurnabad qəsəbələri və Aşıqlı, Köşkü, Sarısu, Qarabulaq, Çaylı, Pənahlılar, Dozular, Xəqani, Balçılı, Nadil, Qırıqlı, Cümşüdlü, Haçaqaya, Sərkar, Qızılca, Danayeri, Yalqışlaq, Tülallar, Çaykənd, Yeni Zod, Göyçəkənd, Mixaylovka, Toğana, Əzgilli, Quşqara, Üçtəpə, Səmədli, Bəhrəmbağ, Əlmədədli, Topalhəsənli, Şəhriyar, Kərəmli, Üçbulaq, Quşçu, Mollacəlilli, Zurnabad, Gəncə, Yeni Qızılca, Qızılca stansiyası, Ağsu, Xasobağı kəndləri daxildir.

Rayonun şimal hissəsi Gəncə-Qazax düzənliyindədir. Ərazisinin ən yüksək nöqtəsi Murovdağ silsiləsində Gamış dağıdır (3724 *m).* Yura, Tabaşir, Neogen, Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: kükürd kolçedanı, bentonit, kvarsit və s. İqlimi mülayim isti, cənubda soyuqdur. Qışı quraq keçir. Orta temperatur yanvarda -10°C-dən l°C-yədək, iyulda 10-25°C-dir. İllik yağıntı 250-900 *mm*-dir. Çayları (Gəncə, Qoşqar, Kürəkçay və s.) Kür hövzəsinə aiddir. Kəpəz dağı, Göygöl, Maralgöl, Zəligöl, Aynagöl və s. rayonun ərazisindədir. Şabalıdı, dağ-tünd şabalıdı, çimli dağçəmən və s. torpaqlar yayılmışdır. Bitki örtüyü şimalda yarımsəhra tiplidir. Cənubda, dağlıq sahələrdə dağ çölləri, fıstıq meşələri, subalp və alp çəmənləri var. Heyvanları: ayı, vaşaq, qumsiçanı, ilan və s. Rayon ərazisində Göygöl Dövlət Təbiət Qoruğu yerləşir.

Rayonun iqtisadiyyatında üzümçülük və heyvandarlıq mühüm yer tutur. Mədən sənayesi, çınqıl zavodları, istehsalat və məişət xidməti kombinatları, şərab zavodu və s. sənaye müəssisələri var.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Göy-göl» qəzeti redaksiyası, regional informasiya mərkəzi yerləşir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən Gəncə-Kəlbəcər, Gəncə-Daşkəsən magistral avtomobil yolları, Böyük İpək yolu keçir. Rayon mərkəzindən 15 km məsafədə Gəncə dəmir yolu stansiyası, 12 km məsafədə isə Gəncə hava limanı yerləşir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayon ərazisində 30 yerli əhəmiyyətli tarixi və memarlıq incəsənət abidələri vardır. Bunlardan 8-i kurqan, Nekropol və Açıq düşərgədir. Digərləri isə qədimdə tikilmiş bina və körpüləridir.

Göygöl şəhərində 1854-cü ildə tikilmiş «Lüteran» adlanan alman kilsəsi, XVI əsrə aid iki gözlü körpü, 1896-cı ildə tikilmiş üç gözlü körpü, XII əsrə aid Ağ körpü, XIX əsrdə almanlar tərəfindən tikilmiş 9 memarlıq incəsənət abidələri, Zuranbad kəndində XII əsrə aid Qala, keçmiş Sarıqaya kəndində XVI əsrə aid Türbə, Dozular kəndində XVI əsrə aid bir gözlü körpü, Topalhəsənli kəndində tarixi məlum olmayan iki tağlı daş körpü, Şəhriyar kəndində 1674-cü ildə tikilmiş Qabriyel kilsəsi, Çaykənd kəndində tarixi məlum olmayan Anahid məbədi və Müqəddəs Məryəm kilsəsi, Yeni-Zod kəndindən 300 m məsafədə Alban kilsəsi, 3 km məsafədə Alban məbədi, Üçbulaq və Balçılı kəndlərinin ərazisində tarixi məlum olmayan «Qız-qalası», Köşkü kəndində dəmir dövrünə aid kurqan, Quşqara və Balçılı kəndlərinin ərazisində Tunc dövrünün axırı, Dəmir dövrünün əvvəlinə aid qəbirlər vardır.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Hacıqabul rayonu

**Yaranma tarixi - 24.04.1990**
**Ərazisi - 1,60 min kv. km**
**Əhalinin sayı - 75,9 min nəfər (1 yanvar, 2024-cü il)**
**Əhalinin sıxlığı – 1 kv. km 47 nəfər (1 yanvar 2024-cü il)**
**Şəhər - 1**
**Kəndlərin sayı - 25**
**Qəsəbələrin sayı – 5**
**Hacıqabul rayonu ilə Bakı arasında olan məsafə - 113 km**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Hacıqabul rayonu** | 65837 | 100,0 | 32382 | 49,8 | 33455 | 50,2 |
| şəhər əhalisi | 33890 | 51,48 | 16466 | 50,85 | 17424 | 52,08 |
| kənd əhalisi | 31947 | 48,52 | 15916 | 49,15 | 16031 | 47,92 |

**Ümumi məlumat**

Hacıqabul rayonu 1990-cı ildə Qazıməmməd rayonunun ərazisində yaradılmışdır.

Qazıməmməd rayonu 24 yanvar 1939-cu ildə yaradılmışdır. 4 dekabr 1959-cu ildə ləğv edilib Əli Bayramlı rayonuna verilmişdir.

Hacıqabul rayonu Şirvan düzündə, Kür çayının sol sahilində yerləşir. Ağsu, Kürdəmir, Şamaxı, Qobustan, Abşeron, Salyan, Sabirabad rayonları və Şirvan şəhəri ilə həmsərhəddir. Mərkəzi Hacıqabul şəhəridir.

Rayona Hacıqabul şəhəri, Balıqçı, Muğan, Padar, Navahı, Pirsaat qəsəbələri və Qarasu, Abdulyan, Kolanı, Talış, Atbulaq, Qızılburun, Navahı, Rəncbər, Qubalıbaloğlan, Pirsaatçay, Birinci Udullu, İkinci Udullu, Qubalı, Tağılı, Birinci Paşalı, İkinci Paşalı, Şorbaçı, Ağacanlı, Bürvənd, Ələtli, Axtaçı-Şirvan, Birinci Meyniman, İkinci Meyniman, Meyniman, Kürdçü kəndləri daxildir.

Şirvan düzənliyinin və Böyük Hərmi silsiləsinin cənub-şərq hissəsini əhatə edir. Ərazisinin ovalıq hissəsi dəniz səviyyəsindən aşağıda yerləşir. Neogen və Antropogen çöküntüləri yayılmışdır. Palçıq vulkanları var. Faydalı qazıntıları: neft, qaz, gil, gəc. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur yanvarda 2°C, iyulda 26°C-dir. İllik yağıntı 250-370 *mm*-dir. Ərazidən Kür və Pirsaat çayları axır. Hacıqabul gölü rayonun ərazisindədir. Boz-qonur, boz-çəmən, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü yarım-səhra tiplidir. Ceyran, qırmızıquyruq qumsiçanı, gürzə, turac, göyərçin və s. məskunlaşmışdır.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq inkişaf etmişdir. Quşçuluq SC, Qubanın SAF şirkətinin filialı, Kür Su

Kəmərləri İstehsalat İstismar İdarəsi və onun təmizləyici qurğuları, dəmiryol qovşağı və s. müəssisələr var.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayon İcra Hakimiyyətinin orqanı olan «Hacıqabul» qəzeti işıq üzü görür.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən Bakı-Tbilisi dəmir yolu xətti keçir. Uzunluğu 58 km-dir.

Böyük İpək Yolunun 82 km-i rayonun ərazisindən keçir. Bu yollar I və II kateqoriyalı yollardır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayon ərazisində XI-XIV əsrlərə aid Pir Hüseyn Xanəgahı yerləşir. Pir Hüseyn xanəgahı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 22. 01. 2004-cü il tarixli müvafiq əmrinə əsasən tarix-memarlıq qoruğu elan edilmişdir.

Pir Hüseyn xanəgahının Azərbaycan tarixində və memarlığında böyük əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən ölkə əhəmiyyətli memarlıq abidəsi kimi dövlət tərəfindən mühafizəyə götürülmüşdür. Hacıqabul rayonunun ərazisində yerləşən Pir Hüseyn Xanəgahına daxil olan tikililərin inşasına XI əsrin əvvəllərində başlanmışdır. Tikililəri əhatə edən qala divarının XIII əsrdə inşa olunması ehtimal olunur. XIV əsr tarixçisi Vəssaf 1318-ci ildə Qızıl Orda xanı Özbəkin döyüşçüləri tərəfindən xanəgahdan qarət olunmuş qızıl külçələrin, bəzək əşyalarının, qiymətli xəzlərin və başqa dəyərli əmlakın geri qaytarılması haqqında öz sərkərdələrinə əmr verdiyi haqqında məlumat verir.

Sovet dövrünün ilk illərində Pir Hüseyn türbəsindən aparılmış kaşılar Sankt-Peterburq Ermitajında və Gürcüstan dövlət muzeyində saxlanılır.

Xanəgahın yaxınlığında qədim qəbiristanlığın hal-hazırda mövcud olması bu ərazidə vaxtı ilə böyük yaşayış yerinin olduğunu sübut edir.

Pir Hüseyn xanəgahında ilkin bərpa işlərinə 1981-ci ildə başlanmış və abidələrin bir hissəsi qismən bərpa olunmuşdur. 2003-cü ildə abidədə yaranmış qəza vəziyyətini nəzərə alaraq Mədəniyyət Nazirliyi Hacıqabul Rayon İcra Hakimiyyəti ilə birlikdə Pir Hüseyn xanəgahının bərpasına başlamışlar.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Xaçmaz rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi – 1,06 min kv. km**

**Əhalinin sayı – 174,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 165 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 2**

**Kəndlərin sayı - 137**

**Qəsəbələrin sayı – 12**

**Xaçmaz rayonu ilə Bakı arasında olan məsafə - 157 km**

### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Xaçmaz rayonu** | 159245 | 100,0 | 78753 | 49,1 | 80492 | 50,9 |
| şəhər əhalisi | 62622 | 39,32 | 30479 | 38,70 | 32143 | 39,93 |
| kənd əhalisi | 96623 | 60,68 | 48274 | 61,30 | 48349 | 60,07 |

**Ümumi məlumat**

Xaçmaz rayonu Azərbaycanın qədim yaşayış məskəni olmaqla 1930-cu ildə yaradılmışdır. Xaçmaz 1936 - 37-ci illərdə şəhər tipli qəsəbə kimi fəaliyyət göstərmişdir. 1963-cü ildə Xaçmaz rayonu ləğv edilib, ərazisi Quba və Qusar rayonlarına verilmişdir. 1965-ci ildə rayon yenidən bərpa edilmişdir. Şimal-qərbdə Rusiya Federasiyası ilə həmsərhəddir, şimal-şərqdə Xəzər dənizi ilə əhatələnmişdir. Mərkəzi Xaçmaz şəhəridir.

Rayona Xaçmaz, Xudat şəhərləri, Şollar, Müqtədir, Aşağı Ləgər, Şimal, Dalğalı, Meşəli, Samurçay, Günəşli, Turist, Sahillər, Arzu, Yeni Həyat qəsəbələri və Vələmir, Qaraçı, Qaraqurdlu, Hacıqurbanoba, Cığatay, Gülalan, Çaxmaqlı, Laman, Qaraqaşlı, Əbilyataq, Qarabağlı, Ağçay, Qarğalıq, Çarxı, Xanlıqoba, Qalağan, Hacılar, Ərəb, Keymərəz, Sayad, İlxıçı, Yergüc, Padar, Armudpadar, Üçgün-qışlaq, Bayoba, Hacıəlibəy, Müşkür, Köhnə Xaçmaz, Müzəffəroba, Müşfiq, Xaspoladoba, Əzizli, Gəncəli, Babalı, Qımılqışlaq, Mollabürhanlı, Çuxuroba, Maşıoba, Mirzəmməd-qışlaq, Qadaşoba, Ağarəhimoba, Şıxlar, Hacıisaoba, Uzunoba, Məcidoba, Yataqoba, Qırmızı Xutor, Şərifoba, Baraxum, Tikanlıoba, Xəzərli, Alekseyevka, Ködəkli, Əhmədoba, Hacıəhmədoba, Qaracallı, Hacıqazma, Aşağızeyd, Çılqır, Alıc-qışlaq,

Qaracıq, Qədiməlı-qışlaq, Şıxhaput, Nərəcan, Ağtala, Çiləgir, Mürşüdoba, Sabiroba, Məncəroba, Hülövlü, Qaradağ-buduq, Qarabağlı, Rəhimoba, Ustacallı, Qobuqıraq, Canaxır, Mehrəliqışlaq, Bəyqışlaq, Mürsəlqışlaq, Susayqışlaq, Pərdiqıran, Çaxçaxlı, Maqsudkənd, Şollar, Dədəli, Bostançı, Nağıoba, Hacıəbdürəhimoba, Sabiroba, Kiçik Baraxum, Ləcət, Moruqoba, Tağaroba, Yalama, Zeyxuroba, Ortaoba, Ukuroba, Düztahiroba, Yaquboba, Zuxuloba, Səlimoba, Qusarçay, Palçıqoba, Çinartala, Manafoba, Ağaşirinoba, Qıraqlı, Həsənqala, Ağaverdi-oba, Balaqusarqışlaq, Pirquluoba, Qoçaqqazma, Hacıməmmədoba, Yeni-Sudur, Həbibkənd, Nabran, Tel, Köhnə Xudat, Seyidlər, Digahoba, İdrisoba, Fərzəlioba, Xuray, Aşağıoba, Aslanoba, Niyazoba, Böyük İlxıçı, Kiçik İlxıçı, Sərkarlı, Suxtaqala-qışlaq, Ağyazıbuduq, Qaraçaycək, Qaracıq-Zeyd, Seyidlikənd-yeri, Palıdlı kəndləri daxildir.

Xaçmaz rayonu Samur-Dəvəçi ovalığında yerləşir. Səthi hamar və sahilyanı sahədə okean səviyyəsindən 28 *m*-ədək aşağıdır. Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: çınqıl, qum və s. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur yanvarda 1-2°C, iyulda 23-24°C-dir. İllik yağıntı 300-400 *mm*-dir. Çayları (Samur, Qusar, Qudyal, Qaraçay, Vəlvələ) Xəzər hövzəsinə aiddir. Rayonun qərbindən Samur-Abşeron kanalı keçir. Torpaqları çəmən-meşə, şabalıdı və açıq-şabalıdıdır. Çəmən və kolluqlar yayılmışdır. Düzənlik meşələri var. Çöl-donuzu, yenot, qırqovul, kəklik və s. məskunlaşmışdır. Sahil suları balıqla (külmə, kilkə, şamayı və s.) zəngindir.

Xaçmaz, əsasən, kənd təsərrüfatı rayonudur. İqtisadiyyatında tərəvəzçilik, meyvəçilik, taxılçılıq və heyvandarlıq mühüm yer tutur. Konserv zavodu, ilkin üzüm emalı zavodları, çörək kombinatı, qida məhsulları kombinatı, yem istehsalı zavodu, kondensator zavodu və s. fəaliyyət göstərir.

Rayon ərazisində Sərkərtəpə, Dəyirmantəpə, Canaxır, Xaspoladoba kurqanları, XV əsrə aid Şıxlar kəndində Şeyx Yusif məscidi və türbəsi, XV-XVI əsrə aid Qaraqurdlu kəndində Şah Abbas məscid-mədrəsəsi mövcuddur. Niyazabad limanı XVI əsrdən Azərbaycanın qonşu ölkələrlə əlaqələrin yaradılmasında mühüm rol oynamışdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Xaçmaz» teleradio verilişləri şirkəti 1994-cü ildən fəaliyyət göstərir.

Xaçmazda 1932-ci ildən fəaliyyətdə olan «Dostluq» qəzeti son illərin iqtisadi çətinlikləri nəticəsində fəaliyyətini dayandırmışdı. 1999-cu ildən «Dostluq» qəzetinin bazasında «Xaçmaz» qəzeti fəaliyyətə başlamışdır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Xaçmaz rayonunun ərazisində həm dəmiryol, həm də geniş avtomobil yolları şəbəkəsi vardır. Rayon ərazisindən keçən dəmir yolunun uzunluğu 55 kilometrdir.

Rayon ərazisində həmçinin 114 km respublika əhəmiyyətli, 403 km yerli əhəmiyyətli avtomobil yolları mövcuddur.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonda 63 tarix-mədəniyyət abidəsi mövcuddur. Bunlardan tunc dövrünə aid 3 yaşayış yerini (Sərkərtəpə, Mollabürhan, Həsənqala), 4 kurqanı və s. göstərmək olar.

Xaçmaz şəhərindəki «Heydər Əliyev adına mədəniyyət və istirahət parkı», Şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksi, 100 il mövcud olan Xaçmaz dəmir yolu vağzalı, Xaçmaz və Xudat şəhər mədəniyyət evləri, Xudat şəhər parkı rayonun görkəmli yerlərindəndir. Rayonun Yalama-Nabran istirahət zonasına hər il 10 minlərlə insan istirahətə gəlir.

Xaçmaz rayonunda Azərbaycanın tarixi şəxsiyyətlərindən olan Şah İsmayıl Xətainin, Nəriman Nərimanovun, Xurşudbanu Natəvanın, Nizami Gəncəvinin, Səməd Vurğunun, Nəsirəddin Tusinin abidələri, 1941-1945-ci il Böyük Vətən müharibəsində həlak olanların, 31 mart Azərbaycanlıların soyqırımı xatirəsinə abidə ucaldılmış, Azərbaycanın Milli Qəhrəmanı Yavər Şahbazovun büstü qoyulmuşdur.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Xankəndi şəhəri

**Yaranma tarixi – XVIII əsr**

**Sahəsi – 8,8 km²**

**Əhalinin sayı – 4,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 440 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı - 1**

**Xankəndi ilə Bakı arasında olan məsafə - 329 km km**




### Ümumi məlumat

Xankəndi Qarqar çayının sahilində, Qarabağ silsiləsinin şərq ətəyində, Bakıdan 329 km aralıda yerləşir. İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan qəsəbəsi daxildir. Xankəndi şəhəri şimaldan Kəlbəcər, Tərtər, Ağdərə, Ağdam, cənubdan Şuşa, şərqdən Xocavənd, qərbdən Laçın, mərkəzdən isə Xocalı və Əsgəran rayonları ilə əhatə olunmuşdur.



Arxiv sənədlərinə görə şəhər XVIII əsrin axırlarında Qarabağ xanlarının istirahəti üçün yaşayış məskəni kimi salınmışdır. Xanların fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində salınır. İlk illər yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında “Xanın kəndi” kimi tanınır. Qısa bir müddətdən sonra isə Xankəndi adını alır. Xankəndi Qarabağ xanlarının istirahət mərkəzi kimi salınsa da, XX əsrdə o, Azərbaycanın yeni sənaye və mədəniyyət mərkəzi kimi inkişaf etməyə başlayır. Bu zaman bu işə daima Azərbaycanın ümumi respublika resurslarından böyük dəstək verilir.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Sovetlərinin 07.07.1923-cü il tarixli Dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılarkən, həmin Vilayətin mərkəzi Xankəndi şəhəri olmuşdur. 18.09.1923-cü ildə isə Qarabağ Vilayət Partiya Komitəsinin qərarı ilə Xankəndi şəhərinin adı dəyişdirilərək Stepanakert şəhəri adlandırılmışdır.

Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin 15.05.1978-ci il tarixli, 837-IX nömrəli Fərmanı ilə Stepanakert rayonunun mərkəzi Stepanakert şəhərindən Əsgəran fəhlə qəsəbəsinə keçirilmiş və Stepanakert rayonu Əsgəran rayonu adlandırılmışdır.

Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin 21.04.1990-cı il tarixli, 1783-XI nömrəli Fərmanına əsasən Stepanakert şəhərinin Kərkicahan yaşayış massivi şəhər tipli qəsəbələr kateqoriyasına aid edilmiş və Stepanakert Şəhər Sovetinin tərkibində Kərkicahan Qəsəbə Soveti yaradılmışdır.

"Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən isə şəhərin tarixi adı qaytarılaraq Stepanakert şəhəri Xankəndi şəhəri adlandırılmışdır. Xankəndi şəhəri erməni silahlı qüvvələri tərəfindən 28.12.1991-ci ildə işğal olunmuşdur.

19-20 sentyabr 2023-cü ildə Azərbaycan ordusunun keçirdiyi lokal xarakterli antiterror əməliyyatının nəticəsində 29 sentyabrdan Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırmışdır. 8 noyabr 2023-cü ildə şəhərdə İkinci Qarabağ Müharibəsində əldə olunmuş qələbəyə həsr olunmuş təntənəli hərbi parad keçirilmişdir.




Azərbaycan öz imkanları hesabına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa-yenidənqurma işləri aparır. "Böyük Qayıdış" proqramı çərçivəsində artıq minlərlə keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdıb. Azərbaycan Prezidentinin 28 noyabr 2023-cü il tarixli sərəncamına əsasən Xankəndi şəhərində Qarabağ Universiteti yaradılıb.

İqlimi əsasən mülayimdir. Dağlıq ərazidə yerləşdiyi üçün qışda ərazi soyuq, yayda isə sərin keçir. Orta temperatur qışda -10°C və yuxarı, yayda 30°C və yuxarıdır.

Xankəndi Azərbaycanın inkişaf etmiş sənaye mərkəzlərindən biri olmuşdur. Yüngül və yeyinti sənayesi inkişaf etmişdir.

Xankəndi və onun ətrafında bir çox qiymətli bitki növləri yetişir: adi şabalıd, hirkanənciri, hirkan şümşəsi — pırkal, təkdənli buğda, uzunyarpaq tozbaş səhləb, vələsyarpaq azat və s.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

SSRİ dönəmində şəhərdə üç qəzet (Qarabağ, Xankəndi və Komsomolçu gənclər) fəaliyyət göstərirdi. 1978-ci ildə Xankəndi Gənc Jurnalistləri Evi də açılmışdır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Azərbaycan Respublikası Prezidentinin tapşırıq və sərəncamları əsasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturu layihələrinin icrası uğurla davam etdirilir. Bu istiqamətdə mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də

inşası davam etdirilən Xankəndi-Şuşa-Laçın avtomobil yoludur. Avtomobil yolunun ümumi uzunluğu 34 kilometrdir. İkinci texniki dərəcəli yolda torpaq yatağının eni 15 metr, hərəkət zolağının hər birinin eni isə 3,75 metrdir.

Ağdam–Xankəndi dəmir yolu Yevlax–Xankəndi xəttinin bir hissəsidir və 1979-cu ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə inşa edilib. Ermənistanın işğalı nəticəsində digər sahələrdə olduğu kimi, dəmir yolu infrastrukturuna da ciddi ziyan dəyib. Mövcud dəmir yolu xətti dağıdılıb, yollar, stansiyalar, ərazidəki hərəkət vasitələri (vaqonlar, lokomotivlər) və digər qurğu və avadanlıqlar tamamilə məhv edilib. Bununla da Yevlax–Xankəndi dəmir yolunun fəaliyyəti dayandırılıb, bu xəttin Ağdam, Əsgəran və Xankəndi stansiyaları uzun illər işğal altında qalıb.

Hal-hazırda Ağdam-Xankəndi dəmir yolunun yenidən qurulması layihəsi hazırlanır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Xankəndində Qara Hüseyn, Məcidli, Alış, Yaşıl, Siyafur, İmam Əli, Xarrat usta Qulu, Ərminavan, Əyridam, Çaykənarı, Səmirabad, Sarı, Biləndərli, Yurdyer, Böyük, Mirzələr, Kiçik adlı ümumi sayı 17 olan məscid xidmət göstərib. Şəhər yaxınlığındakı qəbiristanlıqlarda 17 türbə, Mömінə Xatın və Otludərə məbədləri kimi möhtəşəm memarlıq abidələri, eyni zamanda, Seyid Məhəmməd, Kərki, Qala piri, Xəlifə İbrahim Vəlullah ocağı, Böyük Pir ziyarətgahı kimi iman gətirilən inanc yerləri olub.

Mərkəzşəhər, Seyid Məhəmməd, Mahallı, Məcidli, Saatlı, Yazarlarar, Tarzənlər, Ağa, Xanbağı, Böyükbazar, Tacirlər, Yuxarı, Dağ, Aşağı, Baiqar və Üçyol Qurdları məhəllələri Xankəndi şəhərində ilk salınan 15 əsas məhəllə sayılır. Məşədi Əsədulla, Qayabaşı, Zəngəzurlular, Ozan, Qala, Təzə, Çaparxanlı, Xərratlar, Orta, Zadəganlar, Qarqar, Cüdürxan, Alakeşlər, Allahgərək, Kotanqaya, Böyük, Kiçik, Biləndərlilər, Qabıcıq-Hökmavar, Qoyqəşəm, Poylu və Şingədan kimi məhəllələr isə sonradan salınıb. Ümumiyyətlə, Xankəndi şəhərində yerləşən məhəllə adları içərisində heç bir erməni adına və ya toponiminə rast gəlinmir.

1917-ci ildə Rusiya imperiyasında baş verən Oktyabr inqilabından sonra Cənubi Qafqazda cərəyan edən mürəkkəb proseslər Xankəndindən də yan keçmədi. Tarixi Azərbaycan dövləti olan İrəvan xanlığı torpaqlarında ruslar tərəfindən məskunlaşdırılan ermənilər illər sonra bölgəni mənimsəyib Ermənistan dövlətini yaratdılar. Bu hadisədən ruhlanan erməni millətçiləri Naxçıvan, Zəngəzur, Qarabağ və ümumilikdə bütün Azərbaycan torpaqlarına qarşı ərazi iddiası sürməyə başladılar. Həmin dövrlərdə cərəyan edən mürəkkəb siyasi proseslər zamanı erməni hərbi birləşmələri bölgədə azərbaycanlıların yaşadığı şəhər və kəndlərə hücum edib, dinc insanları öldürürdülər. Lakin 1918-1920-ci illərdə müstəqil Azərbaycan Cümhuriyyətinin apardığı siyasət və Azərbaycan Ordusunun qətiyyəti nəticəsində qismən erməni millətçilərinin Qarabağ və Xankəndi iddialarını dəf etmək mümkün oldu. Təəssüf ki, cümhuriyyətin süqutundan dərhal sonra ermənilərin Xankəndində məskunlaşdırılması sürətlə artmağa davam etdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra müxtəlif şəhərlərdən Xankəndinə köçürülən ermənilərin sayının sürətlə artması bölgədə yeni yaşayış evlərinin yaranmasına zərurət yaradırdı. Məhz bu problem ermənilərin Xankəndi şəhərində apardığı "yenidən qurulma" siyasətinin işə düşməsinə səbəb oldu. Bu faciəvi "yenidən qurulma" planı zamanı Xankəndi şəhərində yerləşən azərbaycanlılara məxsus qədim memarlıq abidələri, yaşayış evləri və inzibati binalar "köhnəliyin" əlaməti kimi dəyərləndirilərək kütləvi şəkildə söküldü. Şəhərin bəzəyi sayılan 37 məhəllə sökülərək ləğv edildi. Eyni zamanda, bütün tarixi-mədəniyyət abidələri, 15 məscid, 17 türbə, 5 ziyarətgah, 2 məbəd, 15 məhəllə və qəbiristanlıqlar xüsusi vəhşiliklə dağıdıldı.

Qədim abidələr sökülərək yerində yeni üçmərtəbəli, beşmərtəbəli yaşayış evləri tikildi. Azərbaycanın mədəni irsinin xarabalıqları üzərində yeni parklar, restoranlar, qastronomlar, erməni separatçılarının liderlərinin şərəfinə monumental heykəllər, qurğular inşa edildi. Xankəndi şəhərində məhdud sayda XVIII - XIX əsrə aid yaşayış evləri və inzibati binalar qalsa da, onların xarici interyerləri dəyişdirilərək tanınmaz hala salındı.

## Xızı rayonu




**Yaranma tarixi – 24.04.1990**

**Ərazisi - 1,67 min kv. km**

**Əhalinin sayı - 16,7 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 10 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər – 1**

**Kəndlərin sayı - 25**

**Qəsəbələrin sayı – 3**

**Xızı rayonu ilə Bakı arasında olan məsafə - 104 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Xızı rayonu** | 14731 | 100,0 | 7210 | 49,1 | 7521 | 51,9 |
| şəhər əhalisi | 7471 | 50,72 | 3681 | 51,05 | 3790 | 50,39 |
| kənd əhalisi | 7260 | 49,28 | 3529 | 48,95 | 3731 | 49,61 |

**Ümumi məlumat**

Xızı rayonu 1928-ci ilə kimi Bakı sovetinin tərkibində olmuş sonra müstəqil rayon kimi fəaliyyətə başlamışdır. Rayonun 72 kəndi, 24 minə yaxın əhalisi olmuşdur. Sonradan rayonlaşmalarla əlaqədar 1940-cı illərdə Siyəzən rayonu təşkil olunanda rayonun Giləzi, Ağ Siyəzən, Zərgərli və s. sovetlikləri Siyəzən rayonunun tərkibinə daxil olmuşdur. Həmin dövrdən 60 kənd, 53 kolxoz, 14 sovetlik olmuşdur. Əhalisi isə 14647 nəfər idi. Rayon 1956-cı ilə qədər fəaliyyət göstərib. 1956-cı ilin axırında Sumqayıta birləşib. 1963-cü ildə Abşeron rayonu təşkil olunub. Xızı zonası həmin rayonun tərkibinə daxil edilib.

1990-cı ilin avqustunda Xızı rayonu yenidən bərpa olundu. Mərkəzi Xızı şəhəridir. Xızı rayonu Böyük Qafqazın şimal-şərq yamacında, Samur-Dəvəçi düzənliyindədir. Şərqdə Xəzər dənizi ilə əhatələnmişdir.

Rayona Xızı şəhəri, Altıağac, Giləzi, Şurabad, Yaşma, qəsəbələri və Sitalçay, Yeni Yaşma, Safbulaq, Yarımca, Qızılqazma, Məşədi Həsən, Türkoba, Ağdərə, Tudar, Baxışlı, Bəyəhmədyurd, Güney-qışlaq, Vərdağ, Qarabulaq, Dizəvər, Qasımkənd, Əmbizlər, Yuxarı Əngilan, Tıxlı, Əngilan, Təzəkənd, Qars, Fındığan, Xələnc kəndləri daxildir.

Relyefi alçaq dağlıq və düzənlikdən ibarətdir. Rayonun ən yüksək nöqtəsi Dübrar (2205 *m)* dağıdır. Ərazinin Xəzərsahili hissəsi dəniz səviyyəsindən 28 *m*-ədək aşağıdır. Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. İqlimi düzən yerlərdə mülayim isti, quru subtropikdir. Dağlıq yerlərdə iqlim mülayimləşir. Orta temperatur yanvarda dağlıq yerlərdə -4,5°C-dən, düzənlikdə 2,5°C-yədək, iyulda isə müvafiq olaraq 19°C-dən 26°C-yədəkdir. İllik yağıntı 110-550 *mm*-dir. Çayları: Ataçay, Sumqayıt və s. Şorakətvarı boz-qonur, şabalıdı və açıq şabalıdı, dağ şabalıdı, dağ tünd şabalıdı və s. torpaqlar yayılmışdır. Bitkiləri, əsasən, yarımsəhra və quru çöl tiplidir. Ərazisinin şimal-qərbində dağ çəmənləri və dağ meşələri vardır. Heyvanları: ayı, çöldonuzu, yenot, çölsiçanı və s. Quşları: kəklik, göyərçin, qaraqarın bağrıqara və s. Sürünənlər çoxdur. Altıağac Milli Parkı yaradılmışdır.

Xızı, əsasən, kənd təsərrüfatı rayonudur. Heyvandarlıq və əkinçilik inkişaf etmişdir.

Azərbaycanın gözəl mənzərəli guşələrindən olan, uca dağların və yaşıl ormanların qoynunda yerləşən Xızı Bərmək mahalı çox əsrlik zəngin enişli və yoxuşlu yola bənzər bir tarixə malikdir. Bərmək həm dağ, həm mahal, həm də tayfa adıdır.

Xızı ilə əlaqədar olaraq bir çox mənbələr, o cümlədən ərəb mənbələri Xızıda yaşayanları «əhli Xizon», yəni Xızı əhalisi adlandırır. Orta əsr tarixçiləri Xızı əhalisini eyni zamanda Bərməklilər, onun ərazisini Bərmək mahalı adlandırırlar. Tarixçilərdən başqa ədəbiyyatşünasların da tədqiqatlarında Xızı haqqında verilən məlumatlara rast gəlirik. Görkəmli folklorşünas alim, professor Məmmədhüseyn Təhmasibin «Xalq dastanları» adlı monoqrafiyasında, Qafqaz dastanı olan «Nərd» dastanında (bu dastanın mövcudluğu e. ə. XIII əsrə təsadüf edilir) Xızı və Xızıqala haqqında məlumat verilir. Xızının əhalisi və onların xarakteri haqqında verilən məlumatlardan aydın olur ki, hal-hazırda yaşayan Xızı əhalisi heç bir yerdən köçürülən əhali olmamış, məskunlaşmış yerli əhali olmuşdur.

Xızı adının mənşəyi və lüğəti mənası da yerli xalqın xarakterinə görə öz əksini tapmışdır. Xızının lüğəti mənası tez duran, tez oyanan, tez qalxan, məcazi mənası zirək, cəld deməkdir. Bu ad da Xızının yerləşdiyi relyeflə əlaqədardır. Günəş çıxan kimi Xızının və ətrafdakı kəndlərin üzərinə düşür.

Tarixi faktlara nəzər saldıqda, tarixçilərdən mənbələr içərisində A. Bakıxanovun «Gülüstani İrəm» əsərinin adını xüsusilə çəkmək lazımdır. Onun əsərində Quba xanlığının «Xızı Bərmək» mahalı haqqında dəyərli məlumatlar verilir. Tarixçi Qiyasəddin Qeybullayevin «Azərbaycanın etnik tarixinə dair» monoqrafiyasında və digər əsərlərində 644-cü ildə aran dövlətinə xizonşahlıq (Xızı şahlığı) Xızı məmləkəti arasında bağlanan müqavilədən bəhs olunur. Ərəblərin Xizonşahlığa gəlmələri haqda maraqlı materiallara akademik Ziya Bünyadovun «Azərbaycan VII-IX əsrlərdə» adlı monoqrafiyasında rast gəlmək olur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

1990-cı ildən fəaliyyətə başlamış «Dağlar yurdu» rayon qəzeti nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Azərbaycan Respublikasını Rusiya dövləti ilə birləşdirən magistral avtomobil yolunun 52-79-cu km-i Xızı rayonu ərazisinə mənsubdur ki, bunun da 52-65-ci km-i birinci dərəcəli, 66-79-cu km-i 2-ci dərəcəlidir. Bundan başqa, Giləzi qəsəbəsini rayon mərkəzi Xızı qəsəbəsi ilə birləşdirən 31 km-lik yol 2-ci dərəcəli dövlət əhəmiyyətlidir.

M-2 Ağdərə-Altıağac-Xızı 110 km-lik avtomobil yolu 3-cü dərəcəli, digər kəndlərarası yollar 4-cü dərəcəli yollardır. Rayon ərazisindən keçən dəmir yolunun uzunluğu təxminən 27 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Memarlıq abidələri: 1923-cü ildə Xızı rayonunda inşa edilmiş hamam (memarı Məstan və Soltan qardaşları).

Rayon ərazisində görkəmli şəxslərin şərəfinə qoyulmuş abidələr:

1. Cəfər Cabbarlının heykəli (memarı Cəlal Qaryağdı) 1999-cu il Xızı. 2. Mikayıl Müşfiqin büstü. (xeyriyyəçi xızılı polkovnik Əbülhəsən Əhmədovun şəxsi təşəbbüsü ilə 1985-ci ildə Sayadlar kəndində qoyulmuşdur).

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Xocalı rayonu




**Yaranma tarixi – 26.11.1991**

**Ərazisi - 1,00 min kv. km**

**Əhalinin sayı - 15,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 17 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 50**

**Qəsəbələrin sayı – 1**

**Xocalı rayonu ilə Bakı arasında olan məsafə - 375 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Xocalı rayonu** | 26047 | 100,0 | 12751 | 49,8 | 13296 | 50,2 |
| şəhər əhalisi | 7711 | 29,60 | 3794 | 29,75 | 3917 | 29,46 |
| kənd əhalisi | 18336 | 70,40 | 8957 | 70,25 | 93,79 | 70,54 |

**Ümumi məlumat**

Xocalı rayonu 1991-ci il noyabr ayının 26-da Əsgəran rayonunun bazasında yaradılmışdır. Rayonun ərazisi 1991-1992-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Kiçik Qafqazda, Qarabağ silsiləsinin şimal-şərq yamacındadır. Mərkəzi Xocalı şəhəridir. Xocalı rayonu 1992-ci ilin 26 fevral tarixindən Ermənistan tərəfindən işğal olunub. 2020-ci il 27-sentyabr- 9 noyabr tarixində Azərbaycan ordusunun hərbi əməliyyatları nəticəsində Xocalı rayonunun 9 kəndi işğaldan azad edilmişdir. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində Xocalı şəhəri azad olunmuşdur. Yevlax rayonunda keçirilən danışıqların nəticəsində Xocalı rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının nəzarətinə keçib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Rayona Xocalı şəhəri, Əsgəran qəsəbələri və Xocalı, Cəmilli, Meşəli, Dağyurd, Seyidbəyli, Ballıca, Xanyurdu, Mehdibəyli, Harov, Dağdağan, Daşbulaq, Qayabaşı, Badara, Xanyeri, Suncinka, Qarabulaq, Dəmirçilər, Mədədkənd, Baharlı, Qızıloba, Haçmaç, Aşağı Yemişcan, Cəmilli, Kosalar, Başkənd, Cavadlar, Yalobakənd, Canhəsən, Naxçıvanlı, Pircamal, Aranzəmin, Ağbulaq, Dəhrəz, Təzəbinə,

Sərdarkənd, Qışlaq, Şəlvə, Xanabad, Ağgədik, Aşağı Qılıçbağ, Almalı, Qarakötük, Pirlər, Farux, Daşbaşı, Çanaqçı, Sığnaq, Şuşikənd, Muxtar, Daşkənd kəndləri daxildir.

Ərazisinin səthi dağlıq, mərkəzi hissədə isə düzənlikdir (Xankəndi çökəkliyi). Ən yüksək nöqtələri Qızqala (2843 *m),* Qırxqız (2827 *m)* dağlarıdır. Ərazidə Yura, Tabaşir, dağarası çökəkliklərdə və dağətəyi düzənliklərdə Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: gil, qum, çınqıl, gillicə, mərmər və s. Yüksək əraziləri istisna olmaqla iqlimi mülayim istidir. Dağ-meşə, dağ-çəmən torpaqları yayılmışdır. Qarqar, Badara çayları rayon ərazisindən keçir. Meşələri vələs, palıd, fıstıq, cökə, ağcaqayın, göyrüş, qarağac və s. ilə zəngindir. Yüksək dağlıq sahələrdə subalp və alp çəmənlikləri yayılmışdır. Heyvanları: ayı, qaban, vaşaq, canavar, meşə pişiyi, tülkü, dovşan, cüyür, dağkeçisi və s. Quşları: kəklik, turac, qırqovul, göyərçin, qartal, quzğun və s.

Xocalı, əsasən, kənd təsərrüfatı rayonudur. Heyvandarlıq, üzümçülük, taxılçılıq, tərəvəzçilik, meyvəçilik inkişaf etmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

"Xocalının səsi" rayon qəzeti 1991-ci ildən nəşr edilir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən uzunluğu 32 km olan birinci kateqoriyalı şose yolu və Bakı-Xankəndi dəmir yolu keçirdi

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Xocalı ərazisi ən qədim memarlıq və ilk mədəniyyət abidələri ilə zəngindir. Memarlıq abidələrindən türbə (XIV əsr), dairəvi türbə (1356-1357-ci illər), ətrafında son tunc və ilk dəmir dövrünə aid nekropol, kurqan çölü və s. var.

Xocalı qəbiristanlığı - son tunc və ilk dəmir dövrünə (e. ə. VIII-VII əsrlər) aid arxeoloji abidə. XIX əsrdə aşkar edilmişdir. Daş qutu və kurqanlardan ibarətdir. Burada müxtəlif tipli saxsı qablar, silahlar (qılınc, xəncər, nizə və ox ucluğu, balta-təbərzin), qızıl, tunc, balıqqulağı, əqiq, şüşə, pasta və s.-dən hazırlanan bəzək əşyaları, tunc əmək alətləri və at əsləhətləri aşkar edilmişdir. Burada çoxlu sayda «Qoç və yəhər» şəkilli qəbir daşları, müqəddəs ziyarətgahlar Seyid Cəlalın ocağı, Cahan nənənin ocağı və s. var.

Xocalı şəhəri və Əsgəran qəsəbəsi arasında Qarqar çayının sağ və sol sahillərində XVIII əsrə aid «Əsgəran qalası» mövcuddur. Qalanı Qarabağ xanı Pənahəli xan tikdirmişdir. İki istehkamdan ibarətdir. Sağ sahildəki qala bürcü ikiqat daş divarlardan ibarətdir. Sol sahildəki qala dördkünc bürclüdür. Divarların qalınlığı 2-3 m-dir. 1810-cu ildə Rusiya ilə İran arasında sülh danışıqları «Əsgəran qalası»nda aparılmışdır.

Rayonun Kərkicahan qəsəbəsində 3 qəbiristanlıq var. Burada 1400-cü illərə aid yazısı olan qəbirlər, «kilsəli» deyilən yerdə Alban kilsəsi, qəbirlər, 800 il əvvələ təsadüf edilən müsəlman qəbiristanlığının qalıqları, Alban pir-ocaqları və s. var.

Rayonun Kosalar kəndi ərazisində «Məhəmməd ağanın otağı»tarixi abidə, «Darılı Piri», «Ələm ağacı» ziyarətgahları və daş qəbirlər var.

Rayonun Meşəli kəndi ərazisində - Meydan yaylağında - müqəddəs ziyarətgah «seyid qəbri» (ermənilər tərəfindən dağıdıldı), «Yeddi kilsə» (Alban kilsəsi) vardı. Bundan əlavə 4 yerdə Alban kilsəsi mövcud idi.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Ermənistanının işğalı nəticəsində Xocalı rayonunun tarixi, mədəni, dini abidələri, şəhər və kəndləri, iqtisadi bazaları və s. dağıdılmışdır. Xocalı şəhərinin ən qədim tarixi abidələri, qəbiristanlıqlar, Kərkicahan qəsəbəsi, Kosalar, Cəmilli və Meşəli kəndlərindəki qəbiristanlıqlar, dini abidələr, məsələn, Meşəlidəki «Seyid qəbri» və s. 1 şəhər, 1 qəsəbə, 8 kənd, 2495 yaşayış evi, 31 sənaye obyekti, 15 kənd təsərrüfatı obyekti, 20 təhsil müəssisəsi. 14 səhiyyə müəssisəsi. 56 mədəniyyət, 5 rabitə obyekti və s. dağıdılmışdır.

## Xocavənd rayonu




**Yaranma tarixi - 26.11.1991**

**Ərazisi - 1,46 min kv. km**

**Əhalinin sayı - 12,3 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 8 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 80**

**Qəsəbələrin sayı – 2**

**Xocavənd rayonu ilə Bakı arasında olan məsafə - 334 km**

### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Xocavənd rayonu** | 41599 | 100,0 | 20243 | 49,7 | 21356 | 51,3 |
| şəhər əhalisi | 9437 | 22,69 | 4600 | 22,72 | 4837 | 22,65 |
| kənd əhalisi | 32162 | 77,31 | 15643 | 77,28 | 16519 | 77,35 |

**Ümumi məlumat**

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli 279 - XII saylı Qanununa əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilmişdir. Bu Qanunla Martuni şəhəri Xocavənd şəhəri və Martuni rayonu Xocavənd rayonu adlandırılıbdır. Hadrut rayonu isə ləğv edilərək Xocavənd rayonunun tərkibinə verilmişdir. Xocavənd rayonu Kiçik Qafqazda Qarabağ silsiləsinin cənub-şərq hissəsində yerləşir. Mərkəzi Xocavənd şəhəridir.

Xocavənd rayonu 2 oktyabr 1992-ci il tarixində Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi işğaldan azad edilmişdir.

Rayona Xocavənd şəhəri, Hadrut, Qırmızı Bazar qəsəbələri və Əmiranlar, Heşan, Axullu, Dolanlar, Binə, Qaradağlı, Böyük Tağlar, Salakətin, Kuropatkino, Arpadüzü, Muğanlı, Cəmiyyət, Ağkənd, Xanoba, Xocavənd, Kiş, Tağaser, Qırmızıqaya, Edişə, Çinarlı, Dağdöşü, Qaçbəyli, Şəhər, Şıx Dursun, Mavas, Azıx, Zoğalbulaq, Aragül, Daşbaşı, Mülküdərə, Cilən, Bünyadlı, Gavahın, Ağbulaq, Binədərəsi, Sor,

Qarqar, Zavadıx, Xərxan, Bulutan, Xırmancıq, Məlikcanlı, Güneyxırman, Güneyçartar, Quzeyxırman, Quzeyçartar, Qağartsi, Qarıtəpə, Dərəkənd, Şahyeri, Qarakənd, Yemişcan, Günəşli, Quşçular, Kəndxurd, Müşkapat, Quzumkənd, Qarazəmi, Tuğ, Susanlıq, Ataqut, Ağdam, Köhnə Tağlar, Ağcakənd, Mirikənd, Avdur, Çaylaqqala, Arpagədik, Petrosaşen, Çıraquz, Məmməddərə, Hünərli, Yenikənd, Çörəkli, Edilli, Düdükçü, Ağbulaq, Sos, Cütcü, Tağavard, Çağadüz, Zərdanaşen, Xətai, kəndləri daxildir.

Səthi alçaq dağlıq, şərqdə maili düzənlikdir. Əsasən, Yura, Tabaşir, Antropogen çöküntülərindən ibarətdir. Mərmər yatağı var. İqlimi çox yerdə yayı quraq keçən mülayim istidir. Orta temperatur yanvarda -2°C-dən -l°C-yədək, iyulda 24-26°C-dir. İllik yağıntı 400-500 *mm*-dir. Çayları (Köndələnçay, Qozluçay, Quruçay və s.) Araz hövzəsinə aiddir. Şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyündə yarımsəhra və quru çöl bitkiləri üstündür. Kolluqlar və enliyarpaqlı meşələr var. Heyvanları: tülkü, çaqqal, dovşan, çölsiçanı və s. Quşları: kəklik, göyərçin və s.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən 35 km Ağdam-Xocavənd-Füzuli, 45 km Xocavənd-Xankəndi, 60 km Xocavənd-Şuşa, 33 km Xocavənd-Bakı II və III dərəcəli yollar keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonun ərazisində Qarabağın Quru çay vadisində rayonun Salaketin kəndinin yaxınlığında 1,5 milyon yaşı olan «Azıx» mağarası, Tuğ kəndi ərazisində yerləşən I-VIII əsrlərə aid olan «Rtiş» qalası, Ərgünəş dağının güney yamacında, sıldırım qayalar üzərində «Ərgünəş» qalası, XIX əsrə aid şair, tarixçi Mir Mehdi Xəzani türbəsi, Düdükçü kəndi ətrafında XIII əsrə aid olan «Rzaqulu bəy» türbəsi, Azərbaycan xalqına məxsus olan «Aşıqlı Qoşa» kümbəzi (Xocavənd kəndi ərazisində), Böyük Tağlar kəndində «Alban» məbədi (1241-ci il), Tuğ kəndində «Qırmızı» məbəd (X əsr) var.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Rayonun Tuğ kəndinin 5 km-də V əsrə aid Alban kilsəsi, Tuğ kəndi ərazisində XII-XVII əsrlərə aid Alban kilsələri, I-V əsrlərə aid «Alban» qəbiristanlıqları, Salaketin kəndi ərazisində yerləşən «Dəmrov» ocağı, «Dağdağan» ocağı, Xocavənd kəndi ərazisində yerləşən «Cicim» ocağı, Qaradağlı kəndi ərazisində qədim «Alban» qəbiristanlığı, Bəhrəmli kəndi ərazisində yerləşən «Bəhmənli» piri, Muğanlı kəndində yerləşən «Seyid Rza» kümbəzi, Qaradağlı kəndi ərazisində «Yel» piri erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdılmışdır.

## İmişli rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,89 min kv. km**

**Əhalinin sayı – 131,6 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 70 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 48**

**Qəsəbələrin sayı – 2**

**İmişli rayonu ilə Bakı arasında olan məsafə - 230 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **İmişlı rayonu** | 114183 | 100,0 | 56412 | 49,8 | 57771 | 50,2 |
| şəhər əhalisi | 36613 | 32,07 | 17957 | 31,83 | 18656 | 32,29 |
| kənd əhalisi | 77570 | 67,93 | 38455 | 68,17 | 39115 | 67,71 |

**Ümumi məlumat**

1938-ci ilədək Qaradonlu rayonu adlandırılan İmişli rayonu Kür-Araz ovalığında Muğan və Mil düzləri ərazisində yerləşir. Cənubda İran İslam Respublikası ilə həmsərhəddir. Mərkəzi İmişli şəhəridir.

1930-cu ilin avqust ayında Qaradonlu rayonu yaradılmışdır. Hələ Çar Rusiyası dövründə təsis edilmiş olan Qaradonlu uyezdi (qəzası) əvvəllər Salyan qəzasına, sonralar isə Cavad qəzasına tabe olmuşdur. Qaradonlu rayonun qədim tarixə malik kəndlərindəndir. Kəndin karvan və ticarət yollarının üstündə, Araz çayı sahilində yerləşməsi, bol suyu, münbit torpaqları ərazisinin abadlaşdırılmasına, kənd təsərrüfatı istehsalının, xüsusilə də əkinçiliyin yüksək inkişafına səbəb olmuşdur. Hələ oktyabr inqilabından xeyli əvvəl bu ərazilərdə geniş meliorasiya işləri aparılmış, irriqasiya qurğuları tikilmiş və suvarılan intensiv əkinçilik təşkil olunmuşdur. 1906-cı ildə Qaradonluda ilk məktəb fəaliyyətə başlamış, kənddə o dövr üçün nümunəvi sayılan yaşayış evləri, mehmanxanalar, dəyirmanlar, dükanlar mövcud olmuşdur. Qaradonlu rayonu təşkil edildikdən sonra burada inzibati binalar, xəstəxana, bir çox digər sosial obyektlər tikilmiş, 1933-cü ildə Qaradonlu Maşın-Traktor stansiyası yaradılmışdır.

Ələt-Mincivan dəmir yolunun çəkilişi rayon mərkəzinin dəmir yoluna yaxın əraziyə köçürülməsi zərurətini yaratmış və bu məqsəd üçün İmişli kəndi ilə Qaradonlu dəmir yolu stansiyası arasındakı ərazidə bişmiş kərpicdən 2 mərtəbəli inzibati bina inşa edilmiş, rayon mərkəzi bu əraziyə köçürülmüş, rayon isə İmişli rayonu adlandırılmışdır. O zamanlar həmin ərazi meşə və kolluqlarla örtülü olmuş, yeni məskunlaşmış əhali əraziləri təmizləyərək yeni binalar tikmiş, küçələr salmışlar. İmişli kəndi rayon mərkəzi kimi sürətlə böyüməyə başlamış, burada çoxlu inzibati binalar tikilmiş, kəndin görkəmi tamamilə dəyişdirilmişdir.

1944-cü ildə İmişli kəndinə şəhər tipli qəsəbə, 1960-cı ildə isə şəhər statusu verilmişdir. 1959-cu ildə hazırkı Bəhrəmtəpə ərazisində Araz çayı üzərində o dövr üçün unikal sayılan Bəhrəmtəpə hidroqovşağı inşa olunmuşdur. Mənbəyini buradan götürən Baş Muğan və Əzizbəyov kanalları təkcə İmişli rayonunu deyil, Saatlı, Sabirabad və Biləsuvar əkinlərini də su ilə təmin edir. Həmin dövrlərdə qəsəbə ərazisində qum-çınqıl karxanası, dəmir-beton məmulatları zavodu istifadəyə verilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə - 1970 - 1980-ci illərdə respublikanın digər bölgələri kimi İmişli rayonunun, xüsusilə rayon mərkəzinin siması başdan-başa dəyişmiş, hazırda abad şəhərlərdən birinə çevrilmişdir. Bu dövrdə İmişli rayonu ərazisindəki torpaqlarda geniş miqyaslı meliorasiya işləri aparılmış, suvarma şəbəkələri yenidən qurulmuş, 10 min hektarlarla yeni suvarılan torpaqlar istifadəyə verilmiş, kənd təsərrüfatı məhsulları istehsalı sürətlə inkişaf etmişdir.

Rayona İmişli şəhəri, Bəhrəmtəpə, Vətəgə qəsəbələri və Aranlı, Hacırüstəmli, Qızılkənd, Qaradonlu, Çahar, Gövhərli, Məzrəli, Xubyarlı, Çaxırlı, Soltanmuradlı, Ölcələr, Qaralar, Muradallı, Otuziki, Nurulu, Qulubəyli, Xəlfəli, Kürdmahmudlu, Hacıalmuradlı, Murğuzallı, Xoşçobanlı, Qaraqaşlı, Mürsəlli, Bəcirəvan, Ağcüyür, Qarəvəlli, Mirili, Qaralar, Cavadxanlı, Rəsullu, Yalavac, Məhəmmədli, Göbəktala, Şahverdili, Qaragüvəndikli, Sarxanlı, Boşçallar, Əliqulular, Muradxanlı, Ağamalılar, Oruclu, Cəfərli, Hacımustafalı, Məmmədli, Əliyetməzli, Telişli, Allahmədətli, Ağaməmmədli, Becar kəndləri daxildir.

Səthi şimal-şərqə doğru alçalan düzənlikdir. Ərazisinin çox hissəsi okean səviyyəsindən aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, çınqıl, qum. Yayı quraq keçən mülayim isti, yarımsəhra və quru çöl iqlimi var. Orta temperatur yanvarda 1,6°C, iyulda 26,l°C-dir. İllik yağıntı 300 *mm*-dir. Rayonun şimal sərhədi boyu Kür, mərkəzi hissəsindən Araz çayı axır. Sarısu gölünün çox hissəsi İmişli rayonu ərazisindədir. Boz-çəmən, qismən boz və çəmən-boz torpaqları yayılmışdır. Əsas bitki örtüyü yarımsəhra tiplidir (yovşan, şoranotu və s.). Heyvanları: çöldonuzu, canavar, tülkü, boz dovşan, ceyran, qumsiçanı və s. Quşları: qırqovul, turac, sultan toyuğu, bəzgək, dovdaq və s.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı və sənaye təşkil edir. Taxılçılıq, pambıqçılıq, heyvandarlıq, quşçuluq və s. inkişaf etmişdir. Rayonda Muradxanlı neft-mədən idarəsi, pambıq emalı zavodu, şəkər zavodu, ət və yağ-pendir kombinatları, "İmişli broyler" MMC, asfalt, dəmir-beton məmulatları və çınqıl zavodları və s. var.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda ilk qəzet 1932-ci ildə «Qaradonlu kolxozçusu» adı ilə çıxmışdır. 1938-ci ildə rayon mərkəzinin İmişliyə köçməsi ilə əlaqədar qəzetin adı dəyişdirilmiş və 1962-ci ilədək «İmişli kolxozçusu» adlandırılmışdır. 1962-ci ildə Azərbaycan KP MK-nın qərarı ilə rayon qəzetləri ləğv edilmiş və İmişli, Beyləqan, Füzuli rayonlarını əhatə edən «Yüksəliş» qəzeti təsis olunmuş, Beyləqanda nəşrə başlamışdır. 1966-cı ildə yenidən «Qızıl ulduz» adlı yerli qəzet təsis olunmuş, həmin qəzet 1990-cı ildən «Xalq sözü» adı ilə çıxır.

2003-cü ildən İmişli şəhərində Respublika Yazıçılar Birliyinin Aran bölməsi təsis olunmuş və bölmənin aylıq orqanı olan «Aran» jurnalı nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

İmişli rayonu ərazisindən keçən dövlət əhəmiyyətli avtomobil yollarının uzunluğu 140 km-dir. Qazıməmməd-Qaratəpə-Bəhrəmtəpə şosesinin 30 km-i, Ağsu-Kürdəmir-İmişli-Bəhrəmtəpə şosesinin 51 km-i, Mingəçevir-Bəhrəmtəpə-Biləsuvar şosesinin 26 km-i İmişli rayonu ərazisindən keçir. Bundan əlavə rayon ərazisindən 10 km uzunluğunda İmişli-Qaradonlu şosesi və 10 km uzunluğunda İmişli şəhəri ətrafında dolama yolu mövcuddur. Yerli əhəmiyyətli yolların uzunluğu 185 km-dir.

Rayon ərazisində 44 km uzunluğunda dəmir yolu mövcuddur. Bakı-Mincivan dəmir yolunun 32 km-i İmişli rayonu ərazisindən keçir. Bundan əlavə 3 dəmir yolu stansiyası, İmişli şəhərində isə dəmir yoluna xidmət edən Lokomotiv deposu, Vaqon təmiri deposu, 7 saylı rabitə və işarəvermə distansiyası, mülki qurğular distansiyası, hərbiləşdirilmiş mühafizə dəstəsi fəaliyyət göstərir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

İmişli rayonu ərazisi ölkəmizin qədim yaşayış məntəqələrindən hesab olunur. Ərazinin coğrafi-iqlim şəraiti, münbit torpaqları, geniş otlaqları ta qədimdən bu ərazidə əkinçiliyin və heyvandarlığın inkişafı üçün şərait yaratmışdır. Ehtimal olunur ki, ərazinin düzəngah relyefi, okean səviyyəsindən aşağı hündürlükdə yerləşməsi, ərazidə axan Kür və Araz çayının məcrasının tez-tez dəyişməsi burada qədim fundamental tikililərin qorunub saxlanması üçün şərait yaratmışdır. Buna baxmayaraq V-XV əsrlərə aid tarixi abidələrin qalıqları indi də rayon ərazisində saxlanmaqdadır.

Ələt-Bəhrəmtəpə şosesinin sağında 1,5 km məsafədə yerləşən Muxur təpə yaşayış yeri XI-XIV əsrlərə aid edilir. Burada küp qəbirlər mədəniyyətinə aid çoxsaylı qəbirlər, məişət əşyaları aşkar edilmişdir.

Bəhrəmtəpə-Biləsuvar yolunun 17-ci kilometrliyində yerləşən Qalaca qalıqları XII-XIII əsrlərə aid edilir. Bəhrəmtəpə qəsəbəsindən 2 km şimal-qərbdə yerləşən dəyirman yerli şəhərgahı adlanan tarixi abidə IX-XIII əsrləri əhatə edir. Rayonun Qızılkənd kəndi ətrafında orta əsrlərə aid edilən Qızıltəpə yaşayış yeri, Yeddi oymaq kurqanı, Qaradonlu kəndindən 1 km şimal-şərqdə IX-XIII əsrlərə aid yaşayış

yeri, Aranlı kəndinin cənubunda ilk orta əsrlərə aid yaşayış yeri, şimalında isə Abıştəpə adlanan tarixi abidələr mövcuddur.

1981-ci ildə İmişlinin tarixini əks etdirən Tarix-Diyarşünaslıq muzeyi təşkil olunub. Hazırda bu muzeydə 3600-dən artıq eksponat saxlanılır. Toplanmış eksponatlar əsasən XI-XX əsrləri əhatə edir. Eksponatların xeyli hissəsi qazıntılar zamanı toplanmış məişət əşyalarından, qədim arxeoloji abidələrin qalıqlarından ibarətdir. 1985 - ci ildə təşkil edilmiş Döyüş şəhəri muzeyində 1941-1945-ci illər Böyük Vətən Müharibəsi, Əfqanıstan müharibəsi və Qarabağ döyüşləri zaman İmişli rayonundan olan döyüşçülər barəsində geniş məlumatlar toplanmışdır.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin Respublika rəhbərliyinə birinci gəlişindən sonra Azərbaycanın digər bölgələrində olduğu kimi İmişli rayonunda da geniş abadlıq işləri aparılmış, bir sıra memarlıq incəsənət abidələri tikilib istifadəyə verilmişdir. İmişli şəhərində 1984-cü ildə tikilib istifadəyə verilmiş Tarix-Diyarşünaslıq muzeyi, 1985-ci ildə tikilmiş Şahmat məktəbi, 1941-1945-ci illər Xatirə kompleksi, 1987-ci ildə tikilmiş Mədəniyyət sarayı, 1988-ci ildə tikilmiş mərkəzi kitabxana binası, 1994-cü ildə inşası başa çatmış Vəliyyuləsr məscidi, fontanlar, Qaradonlu kəndindəki «Ana-qadın» kompleksi rayonun görkəminə xüsusi gözəllik verir.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## İsmayıllı rayonu

**Yaranma tarixi - 21.11.1939**

**Ərazisi - 2,07 min kv. km**

**Əhalinin sayı - 87,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 42 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 105**

**Qəsəbələrin sayı – 2**

**İsmayıllı rayonu ilə Bakı arasında olan məsafə - 185 km**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **İsmayıllı rayonu** | 79330 | 100,0 | 39390 | 49,9 | 39940 | 50,1 |
| şəhər əhalisi | 17321 | 21,83 | 8716 | 22,13 | 8605 | 21,54 |
| kənd əhalisi | 62009 | 78,17 | 30674 | 77,87 | 31335 | 78,46 |

**Ümumi məlumat**

İsmayıllı rayonu 1931-ci ilin noyabr ayının 21-də mərkəzi İsmayıllı kəndi olmaqla yaradılmışdır. Rayon təşkil edilənədək onun ərazisinin böyük bir hissəsi Göyçay qəzasının, bir hissəsi Şamaxı qəzasının, kiçik bir hissəsi isə Şəki qəzasının tərkibində olub.

Rayonun ərazisi Azərbaycanın bütün şimal torpaqları kimi, hələ miladdan əvvələ IV yüzillikdən mövcud olan Alban dövlətinə mənsub idi. Sasanilər nəslindən olan Mehran Girdimanda, hətta öz knyazlığını yaratmışdı. Alban hökmdarları Varaz Qriqor və onun oğlu Cavanşir (616-681) də mehranilər nəslindən idi. 638-670-ci illərdə Girdiman dövlətinə Albaniyanın ən görkəmli hökmdarı Cavanşir başçılıq etmişdir. Onun Talıstan kəndindən 4 km şimalda Ağçayın üstündə tikilmiş iqamətgahının qalıqları indi də «Cavanşir» qalası kimi xalq arasında məşhurdur.

Mərkəzi İsmayıllı şəhəridir. Rayon şimaldan Quba, şərqdən Şamaxı, cənub-şərqdən Ağsu, cənubdan Kürdəmir, cənub-qərbdən Göyçay və qərbdən Qəbələ rayonları ilə həmsərhəddir.

Rayona İsmayıllı şəhəri, Basqal, Lahıc qəsəbələri və Sumağallı, Ərəkit, Namazgah, Kənyə, Bağəli, Ənən, Ximran, Qoydan, Duvaryan, Hacıhətəmli, Mollaisaqlı, Kürd Eldarbəyli, Güdəyli, Həftəsov,

Çəndahar, Zarat, Burovdal, Diyallı, Güyüm, Sədiyan, Zərnava, Aşağı Zərnava, Sərdəhar, Müşkəmir, İvanovka, Külüllü, Qalagah, Soltankənd, Uştal, Uştalqışlaq, Qalacıq, İstisu, Çayqovuşan, Qalıncaq, Mücühəftəran, Xanəgah, Göytəpə, Keyvəndi, Mingə, Şəbiyan, Pirəbülqasım, Bəhliyan, Bilistan, Kəlbənd, Kirk, Yenikənd, Şükürçü, Qoşakənd, Ağbulaq, Tubikənd, Kənzə, Qubaxəlilli, Çərmədil, Quşəncə, Zoğallıq, Balik, Enişdibi, Kürdənaşı, Aşıqbayramlı, Talış, Qarakolluq, Hapıtlı, Mican, İsmayıllı, Qəzli, Müdri, Nanıc, Mulux, Dahar, Pirəqanım, Vaşa, Mədrəsə, Cülyan, Ruşan, Vəng, Sulut, Kələzeyvə, Sərsurə, Qıçatan, Tağlabiyan, Kəlfərəc, Mücü, Talıstan, Cülyan, Təzəkənd, Birinci Yeniyol, İkinci Yeniyol, Qaraqaya, Gəndov, Köhnədaxar, Qərsələ, Tircan, Bizlan, Maçaxı, Zərgəran, Topçu, Qurbanəfəndi, Şirvanmeşə, Buynuz, Xankəndi, Kürdüvan, Zeyvə, Gəraybəyli, Əyyubbəyli, Xəlilli, Keşxurt kəndləri daxildir.

Rayonun relyefi əsasən dağlıqdır. Yer səthinin hündürlüyü Şirvan düzündə təqribən 200 *m*-dən Baş Qafqaz silsiləsində 3629 *m*-ədək (Babadağ) dəyişir. Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı, mineral bulaqlar (Diyallı, Qalacıq, Bədo və s.) var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıqda soyuqdur. Orta temperatur yanvarda -6°C-dən (yüksək dağlıqda) 1°C-yədək (düzənlik və dağətəyi hissədə), iyulda müvafiq olaraq 15°C-dən 25°C-yədəkdir. İllik yağıntı 500-1000 *mm*-dir. Çayları (Girdiman, Göyçay, Axox, Əyriçay, Sulut) Kür hövzəsinə aiddir. Şabalıdı və açıq şabalıdı, dağ tünd-şabalıdı, dağ boz-qəhvəyi, qəhvəyi dağ-meşə, allüvial çəmən-meşə, qonur dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Yüksək dağlıqda subalp və alp çəmənlikləri, c. hissədə dağ meşələri, kollu və seyrək meşəli çəmənliklər vardır. Heyvanları: nəcib maral, dağkeçisi, köpgər, ayı, meşə pişiyi, canavar, yenot, cüyür, çöldonuzu və s. Quşları: ular, kəklik, qırqovul və s. İsmayıllı Dövlət qoruğu və yasaqlığı rayonun ərazisindədir.

Rayonun cəmi torpaq fondu 215875 hektar, bundan 22058 hektarı qış, 13555 hektarı yay otlağıdır. Kənd təsərrüfatının istifadəsində olan torpaqlar 96630 hektar, o cümlədən yararlı sahə 36463 hektardır.

Ərazisinin 66799 hektarı meşə örtüyündən ibarətdir. Rayon ərazisinin bir hissəsi Şahdağ Milli Parkına daxil edilmişdir.

Rayonun bir sıra yaşayış məntəqələri, xüsusilə Lahıc və Basqal qəsəbələri, İvanovka, Qalacıq, Talıstan, Diyallı kəndləri özünün qədim tarixi və əsrarəngiz gözəlliyi ilə fərqlənir. Lahıc və Basqal tarix və mədəniyyət qoruqları elan edilmişdir.

Rayon ərazisində bir çox qədim tarixə malik abidələr var.

Hazırda rayonda turizmin inkişaf etdirilməsi məqsədilə geniş tədbirlər həyata keçirilir.

İsmayıllı şəhəri 1959-cu ilə qədər kənd, 1967-ci ilə qədər şəhər tipli qəsəbə olmuş, sonra şəhər adını almışdır.

İsmayıllı respublikanın kənd təsərrüfatında özünəməxsus yeri olan bir rayondur. 1970-ci illərə qədər bütün sahələrdə geridə qalan rayon həmin dövrdən sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin diqqət və qayğısı sayəsində coşqun inkişaf yolu keçmişdir. Müdrik rəhbərin 3 dəfə rayona gəlməsi (1981-ci ilin iyul ayında, həmin ilin noyabrın sonunda və dekabrın əvvəlində baş vermiş

zəlzələdən sonra və 2002-ci ildə) İsmayılının tarixinə qızıl hərflərlə yazılmışdır. Heydər Əliyevin sadə zəhmət adamları ilə görüşləri, keçirdiyi müşavirə və yığıncaqlar, verdiyi tövsiyə və tapşırıqlar rayonun simasının dəyişməsində əsaslı rol oynamışdır. İsmayıllıda zəlzələnin nəticələrini aradan qaldırmaq məqsədilə onun təşəbbüsü ilə Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı qəbul edilmiş və qərarlar qəbul olunmuş, 2 nəfərə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Heydər Əliyev rayonda inşa olunmuş bir sıra obyektlərə baş çəkmiş, İsmayıllı şəhərində «Zəka» kitab evinin açılışında qırmızı lenti kəsmişdir.

Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışı bütün ölkədə olduğu kimi, İsmayıllının iqtisadiyyatında baş vermiş tənəzzülün qarşısını almış və rayon yeni inkişaf dövrünə qədəm qoymuşdur. Rayonda aqrar islahatların birinci mərhələsi müvəffəqiyyətlə başa çatdırılmışdır.

İsmayıllıdan 150 nəfər Vətənimizin müstəqilliyi və bütövlüyü uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmış, 2 nəfər Milli Qəhrəman adına layiq görülmüşdür.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

«Girdiman» ictimai-siyasi qəzeti 2002-ci ilin oktyabr ayından buraxılır. Rayonda yerli qəzetin buraxılmasına 1934-cü ildən başlanıb. Qəzet 1934-cü ildən 1966-cı ilə kimi «Yeni İsmayıllı», 1966-cı ildən 1991-ci ilə qədər «Zəhmətkeş», 1991-ci ildə isə «Cavanşir yurdu» adlanıb.

Rayon radio verilişləri redaksiyası 1993-cü il fevralın 10-da fəaliyyətə başlamışdır. Şənbə və bazar günlərindən başqa hər gün 30 dəqiqə yayımlanır. Rayon icra hakimiyyətinin orqanıdır. Əvvəllər yerli qəzetin nəzdində 10 dəqiqəlik xəbərlər bülleteni kimi fəaliyyət göstərib.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən keçən dövlət əhəmiyyətli yolları:

1. Muğanlı-İsmayıllı avtomobil yolu (17-40 km) 23 km - IV dərəcəli asfalt-beton örtüklü.
2. Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolu (2-46 km) 44 km - III dərəcəli asfalt-beton örtüklü.
3. Lahıc qəsəbəsində giriş avtomobil yolu (0-19) 19 km - IV dərəcəli asfalt-beton örtüklü - 2 km, qara örtüklü - 5 km, çınqıl örtüklü - 12 km.
4. Yerli əhəmiyyətli avtomobil yolları - 350 km - V dərəcəli asfalt-beton örtüklü - 45 km, çınqıl örtüklü - 288 km, qara örtüklü - 7 km.

Rayon ərazisindən dəmir yolları keçmir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

1. Girdiman qalası - XI-XII əsrlər, Lahıc qəsəbəsi.
2. Fit dağı (Qırxotaq) - XII əsr, Sulut kəndi.
3. Türbə - XIX əsr, Zeyvə kəndi.
4. Məscid, «Bədövün» - XVIII əsr, Lahıc qəsəbəsi.

5. Məscid - XVII əsr, Basqal qəsəbəsi.

6. Məscid, «Aşağı Ərəgit» - XIX əsr, Ərəgit kəndi.

7. Məscid, «Yuxarı Ərəgit» - XIX əsr, Ərəgit kəndi.

8. Hacı Qurban mülki, 2 mərtəbəli 72 otaqlı bina - XIX əsr, Lahıc qəsəbəsi.

9. Günbəz - XIX əsr, Pirəbədil kəndi.

10. Cavanşir qalası - VI-VII əsrlər, Talıstan kəndi.

11. Qız qalası - VIII əsr, Xanagah kəndi.

12. Xan qalası - XVIII əsr, Xankəndi.

13. Qasımxan qalası - IX-XIV əsrlər (bəzi mənbələrdə III-IV əsrlər), XVIII əsrdə Şamaxı xanı Mustafa xanın əmisi Qasım xan tərəfindən bərpa edildiyi üçün Qasımxan qalası adlanır - Qalacıq kəndi.

14. Yaşayış yeri - I-V əsrlər, Qalacıq kəndi.

15. Küp, təknə qəbirlər - I-V əsrlər, Qalacıq kəndi.

16. Qədim Qəbiristanlıq - e. ə. III-I əsrlər, Mollaisaqlı kəndi.

17. Qədim yaşayış yeri - e. ə. III-I əsrlər, Mollaisaqlı kəndi.

18. Qədim Qəbiristanlıq - e. ə. II-I əsrlər, Qubaxəlilli kəndi.

19. Qədim Qəbiristanlıq - e. ə. I əsr, Hacıhətəmli kəndi.

20. Qədim Qəbiristanlıq - I əsr, Gənzə kəndi.

21. Yaşayış yeri - e. ə. I əsr, Şəbiyan kəndi.

22. Məscid - XIX əsr, İsmayıllı kəndi.

23. Məscid - XIX əsr,Tağlabiyan kəndi.

24. Məscid - XIX əsr,Diyallı kəndi.

25. Məscid - XIX əsr, Topçu kəndi.

26. Məscid - XIX əsr, Yeniyol kəndi.

27. Məscid - XIX əsr, Mican kəndi.

28. Məscid - 1923-cü il, Aşıqbayram kəndi.

29. Məscid - 1912-ci il, Gilyan kəndi.

30. Nəzrə qəbiristanlığı - VII-VIII əsrlər, İsmayıllı kəndi.

31. Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə - 1975-ci il, İsmayıllı kəndi.

32. İsmayıllı rayon uşaq və gənclər kitabxanası və uşaq ədəbiyyatı klassiklərinin barelyefi - 1982-ci il, İsmayıllı şəhəri.

33. 20 Yanvar abidəsi - 1990-cı il, İsmayıllı şəhəri.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Kəlbəcər rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 3,05 min kv. km**

**Əhalinin sayı - 73,9 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 38 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 132**

**Qəsəbələrin sayı – 1**

**Kəlbəcər rayonu ilə Bakı arasında olan məsafə - 445 km**




**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Kəlbəcər rayonu** | 80769 | 100,0 | 40528 | 50,0 | 40241 | 50,0 |
| şəhər əhalisi | 10947 | 13,55 | 5485 | 13,53 | 5462 | 13,57 |
| kənd əhalisi | 69822 | 86,45 | 35043 | 86,47 | 34779 | 86,43 |

**Ümumi məlumat**

Kəlbəcər rayonu Kiçik Qafqazın mərkəzi hissəsindədir. Qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir. Mərkəzi Kəlbəcər şəhəridir.

1993-cü ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə imzlaldıqları bəyanata əsasən noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

Rayonda 1 şəhər (Kəlbəcər), 1 şəhər tipli qəsəbə (İstisu) və 128 kənd var.

Rayona Kəlbəcər şəhəri, İstisu qəsəbəsi və Zivel, Keşdək, Nadirxanlı, Taxtabaşı, Həsənriz, Qozlu, Qozlu Körpü, Narınclar, Çərəktar, Lev, Abdullauşağı, Qaraçanlı, Ağyataq, Fətalılar, Mozkənd, Ağdaban, Çayqovuşan, Ağcakənd, Oruclu, Zağalar, Təzəkənd, Yenikənd, Əli Bayramlı, Vəzirxana, Almalıq, Laçın, Əsrik, Çoban Kərəhməz, Çorman, Aşağı Ayrım, Yuxarı Ayrım, Boyaqlı, Bağlıpəyə, Vəng, Bağırlı, Başlıbel, Xallanlı, Əlirzalar, Şahkərəm, Çovdar, Dalqılıçlı, Otaqlı, Dərəqışlaq, Barmaqbinə, Otqışlaq,

Dəmirçidam, Qanlıkənd, Zar, Vəng, Yellicə, Alolar, Kaha, Həsənlər, Armudlu, Təkdam, Zəylik, Hopurlu, Şeyinli, Zülfüqarlı, Qaragüney, Keçiliqaya, İstibulaq, Göydərə, Ağdaş, Qamışlı, Bağırsaq, Comərd, Qaragüney, Nəcəfalılar, Pirilər, Kilsəli, Alçalı, Quşyuvası, Qılıçlı, Quzeyçirkin, Alçalı, Mərçimək, Ağqaya, Çopurlu, Birinci Milli, İkinci Milli, Üçüncü Milli, Günəşli, Allıkənd, Boyur, Alçalı, Orta Qaraşanlı, Baş Qaraşanlı, Tatlar, Aşağı Qaraşanlı, İmambinəsi, Xolazəy Alxası, Sarıdaş, Güneypəyə, Seyidlər, Cəmilli, Susuzluq, Qasımbinəsi, Sınıq Kilsə, Başkənd, Tirkəşəvənd, Zərqula, Qazıxanlı, Qalaboyun, Qaraxancallı, Çaykənd, Kəndyeri, Kilsə, Aşağı Xaç, Mişni, Çəpli, Elyasalılar, Şaplar, Məmmədușağı, Aşağı Şurtan, Orta Şurtan, Yuxarı Şurtan, Soyuqbulaq, Təkəqaya, Babaşlar, Bozlu, Çıraq, Tövlədərə, Məmmədsəfi, Yanşaq, Zallar, Yanşaqbinə, Dovşanlı, Bazarkənd, Hayad, Qızılqaya, Yuxarı Oratağ, Vəngli, Çormanlı, Şahmansurlu, Heyvalı, Dəvədaşı, Yayıcı, İmarət-Qərvənd, Çapar, Zardaxaç, Kolatağ, Damğalı, Çıldıran, Mehmana kəndləri daxildir.

Səthi dağlıqdır (Murovdağ, Şahdağ, Şərqi Göyçə, Mıxtökən, Qarabağ silsilələrinin və Qarabağ yaylasının bir hissəsi). Ən yüksək zirvələri Gamış dağı (3724 *m)* və Dəlidağdır (3616 *m).* Yura, Tabaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik süxurları yayılmışdır. Faydalı qazıntıları: civə, qızıl, polimetal, mineral sular, tikinti materialları və s. Ərazisinin yüksək dağlıq hissəsində qışı quraq keçən soyuq və dağlıq tundra iqlimi üstünlük təşkil edir. Orta temperatur yanvarda -10°C-dən -3°C-yədək, iyulda 5-20°C-dir. İllik yağıntı 700-900 *mm*-dir. Ən böyük çayları Tərtər (yuxarı axını) və onun qollarıdır (Levçay, Tutqunçay və s.). Bazarçay çayı rayonun ərazisindən başlanır. Ərazisində göllər də vardır. Çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları üstünlük təşkil edir. Rayonun mərkəzi və ş. hissəsində enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda isə alp və subalp çəmənlikləri yayılmışdır. Qayakeçisi, qonur ayı, çöldonuzu, daşlıq dələsi, ular, qartal və s. var.

Kəlbəcər, əsasən, kənd təsərrüfatı rayonudur. Heyvandarlıq, tütünçülük və arıçılıq inkişaf etmişdir. Sənaye müəssisələri: İstisu mineral sudoldurma zavodu, Şorbulaq civə zavodu.

Kəlbəcər antik dövrün abidəsi olmaqla, çox zəngin flora və faunası olan bir təbiət muzeyidir. Rayonun «Qaragöl», «Zalxa» gölləri sahillərində, «Ayıçınqıl» və «Pəriçınqıl» dağlarında qayalara həkk edilmiş qayaüstü təsvirləri respublikanın bir çox tədqiqatçı alimləri ilə yanaşı mərhum akademik Mirəli Qaşqay tərəfindən öyrənilmişdir. Məlum olmuşdur ki, dəniz səviyyəsindən 3000 m yüksəklikdə yerləşən bazalt daşlarının üzərinə həkk olunmuş yazılar və rəsmlər ölçü, kompozisiya və çəkilmə texnikasına görə biri-birindən kəskin fərqlənir. Bu abidələrin əksəriyyəti tunc dövrünün əvvəllərinə (e. ə. III minillik) aiddir. Tunc dövrünün sonlarında daha mürəkkəb kompozisiyalı lövhələr yaradılmışdır ki, bu da mədəniyyətin bu yerlərdə başlanması demək idi.

1976-cı ildə Kəlbəcərin qayaüstü təsvirlərin yerləşdiyi ərazidə qədim yaşayış mərkəzi aşkar edilmişdir. Həmin yerdə divarın qalınlığı 2 metrə çatan tikinti və həmin ərazidə tapılan gil qab bir daha təsdiq edir ki, e. ə. III minillikdə Kəlbəcər ilk insanların yaşayış məskəni olmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Kəlbəcər rayonunun bütün kəndlərini televiziya verilişi ilə təmin edən müasir standartlara cavab verən Radio-rele ötürücü stansiyası və 3 yardımçı televiziya ötürücü stansiyaları var idi.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Kəlbəcər rayonunda rayonu respublikanın digər rayonları ilə birləşdirən 60 km uzunluğunda respublika əhəmiyyətli avtomobil yolu olmuşdur. Rayon ərazisində dəmir yolu olmamışdır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Kəlbəcər rayonunun Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Camal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçanlı kəndinə Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı olmuşdur.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Kəlbəcər rayonunun ərazisində olan bütün tarixi və memarlıq abidələri, o cümlədən mədəniyyət ocaqları rayonun işğalından sonra Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılmışdır.

## Kürdəmir rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,63 min kv. km**

**Əhalinin sayı – 118,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 73 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 59**

**Qəsəbələrin sayı – 2**

**Kürdəmir rayonu ilə Bakı arasında olan məsafə - 189 km.**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | fa iz | nəfər | faiz | nəfər | faiz |
| **Kürdəmir rayonu** | 103380 | 100,0 | 51504 | 49,9 | 52356 | 50,1 |
| şəhər əhalisi | 21037 | 20,26 | 10408 | 20,21 | 10629 | 20,30 |
| kənd əhalisi | 82823 | 79,74 | 41096 | 79,79 | 41727 | 79,70 |

**Ümumi məlumat**

Şirvan düzündədir. Mərkəzi Kürdəmir şəhəridir.

Kürdəmir sözünün etimologiyası haqqında bir neçə versiya var.

Kürdəmir – «Kür» və «Dəmir» sözlərindən olduğu ehtimal olunur (Şirvan dialektində «Kür» sözü çılğın, cəsur, igid, qoçaq anlamında, «Dəmir» isə həmin ərazidə məskunlaşmış yeddi yaşayış məskəninin, obanın igidlərinin xası, başçısı, sərkərdəsi olan igid Dəmir, qoçaq Dəmir, cəsur Dəmir mənasında işlənmişdir).

Kürdəmir - «kür dəymir» sözlərindən götürüldüyü ehtimal olunur. Yəni Kür çayı daşarkən daşqından əziyyət çəkməyən (suyun çatmadığı yerlər) sahə Kürdəmir kimi adlanmış, zaman keçdikcə «Y» sammiti assimilyasiya (aşınma) olmuş və «Kürdəmir» şəklində işlənmişdir.

Rayona Kürdəmir şəhəri, Qarabucaq, Karrar qəsəbələri və Xırdapay, Qağacılı, Çöhranlı, Yeni Şıxımlı, Atakişili, Şıxımlı, Topalhəsənli, Qaraqocalı, Şahsevən, Yenikənd, Dəyirmanlı, Mürtülü, Təklə, Qurd Bayram, Qarabucaq, Qocalı, Pirəköçə, Xəlsə, Bəyi, Karrar, Muğanlı, Karıs Əyribənd, Xınıslı, Ərşəli, Cəyli, Şahbəyli, Ucalı, Bala Kəngərli, Carlı, Quşlar, Mollakənd, Ərəbxana, Çərtəyəz, Türkədi,

Ərəbqubalı, Çölqubalı, Məhərrəmli, Muradxan, Sor-sor, Çölərəb, Axtaçı, Dayıkazımlı, Qoçulu, Mehdili, Qarabucaq, Öyləqulu, Köhünlü, Şüşün, Qaramahmudlu, Söyüdlər, Sovla, Böyük Kəngərli, Bağban, İsmayıllı, Pirili, Şilyan, Sığırlı, Qarasaqqal kəndləri daxildir.

Relyefi düzənlikdir. Ərazisinin çox hissəsi dəniz səviyyəsindən aşağıdadır. Antropogen çöküntülər yayılmışdır. İqlimi yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl tiplidir. Orta temperatur yanvarda 1,4°C, iyulda 27,3°C-dir. İllik yağıntı 375 *mm*-dir. Çay şəbəkəsi seyrəkdir (Girdiman və Ağsu çaylarının aşağı axını). Əsasən, boz-çəmən, boz və çəmən-boz torpaqlar yayılmışdır.

Kserofit kolluqlar və tuqay meşələri var. Çöldonuzu, canavar, tülkü, gəmiricilər, gürzə, turac, kəklik və s. məskunlaşmışdır. Bəzgək, dovdaq qışlayır. Baş Şirvan kollektoru rayonun ərazisindən keçir.

Kürdəmir, əsasən, kənd təsərrüfatı rayonudur. Pambıqçılıq, taxılçılıq, üzümçülük, narçılıq, balıqçılıq, quşçuluq və maldarlıq inkişaf etmişdir.

Rayonda "Kürdəmir-Pambıq", "Kürdəmir-Taxıl", "Kürdəmir-Broyler" ATSC-ləri, "Şərq" MMC, çörək zavodu və dəyirman var.

Ərazidə olan ümumi torpaq sahəsinin 116190 hektarı və ya 71,2 %-i rayonun istifadəsində, 46961 hektarı və ya 28,8 %-i isə Qax, Qəbələ, İsmayıllı, Ağsu rayonlarının qışlaq sahələridir.

Kənd təsərrüfatına yararlı 83359 hektar torpaq sahəsinin 52709 hektarı əkin yeri, 1097 hektarı çoxillik əkmələr, 73 hektarı dincə qoyulmuş sahə, 28480 hektarı isə örüş sahələridir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Kürdəmir» yerli qəzeti fəaliyyət göstərir. Qəzet ayda 2 dəfə dərc olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolunun 43 km (III dərəcəli), Ələt - Qazıməmməd-Kürdəmir-Yevlax yolunun 42 km (II dərəcəli), Bakı-Tbilisi baş dəmir yolunun 44 km hissəsi keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonun Şığırlı kəndi ərazisində yerləşən «Qaratəpə» yaşayış yeri və qəbiristanlıq, Ərəbqubalı kəndi ərazisində «Şəhərgah» yaşayış məntəqəsi, Axtaçı ərazi vahidliyində «Qaratəpə» qəbiristanlıq yerləri var.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Qax rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi – 1,49 min kv. km**

**Əhalinin sayı - 58,2 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 39 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 58**

**Qax rayonu ilə Bakı arasında olan məsafə - 345 km.**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Qax rayonu** | 53259 | 100,0 | 25823 | 49,0 | 27436 | 51,0 |
| şəhər əhalisi | 12328 | 23,15 | 5864 | 22,71 | 6464 | 23,56 |
| kənd əhalisi | 40931 | 76,85 | 19959 | 77,29 | 20972 | 76,44 |

### Ümumi məlumat

Qax rayonu 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək Zaqatala rayonuna birləşdirilmiş, 1964-cü ildə yenidən bərpa olunmuşdur. Böyük Qafqazın cənub yamacında yerləşir. Şimal-şərqdən Rusiya Federasiyası, cənub-qərbdən Gürcüstan ilə həmsərhəddir. Mərkəzi Qax şəhəridir.

Rayona Qax şəhəri və Sarıbaş, Cəlayer, İlisu, Ağçay, Qaradolaq, Qax İngiloy, Qaxbaş, Böyük Alatəmir, Kiçik Alatəmir, Meşəbaş, Uzuntala, Xələftala, Keşqutan, Qımırlı, Qaraməşə, Bağtala, Əmircan, Ə-bərçay, Qaratala, Qum, Çinarlı, Suskənd, Fıstıqlı, Ləkit, Ləkit Kötüklü, Ləkit Malax, Zərnə, Güllük, Qapıçay, Tasmalı, Ləpaşa, Qarabaldır, Zəyəm, Ləli, Qındırğa, Qorağan, Şotavar, Almalı, Dəymədağlı, Şıxlar, Turaclı, Marsan, Cudulu, Əlibəyli, İngiloy Kötüklü, İbaxlı, Qıpçaq, Qaysarlı, Amanlı, Oncallı, Baydarlı, Qazmalar, Tanqıt, Ağyazı, Üzümlükənd, Qaşqaçay, Armudlu, Aşağı Malax kəndləri daxildir.

Rayonun şimal və şimal-şərq hissəsi Baş Qafqaz silsiləsinin cənub yamacına, mərkəzi hissəsi Qanıx-Həftəran vadisinə, cənub və cənub-şərq hissəsi Acmohur ön dağlığına daxildir. Ərazisinin hündürlüyü Acınohur gölü sahilində 100 *m*-dən Baş Qafqaz silsiləsinin yal hissəsində 3480 *m*-ədək (Ahvay dağı) dəyişir. Rayonda Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Kvars,

polimetal, inşaat materialları, mineral sular və s. faydalı qazıntılar vardır. İqlimi mülayim isti və yarımrütubətli subtropik, yüksək dağlıqda soyuqdur. Orta temperatur yanvarda -10°C-dən 2°C-yədək, iyulda 5°C-dən 26°C-yədəkdir. İllik yağıntı 300-1600 *mm*-dir. Ərazidən axan Kürmük, Əyriçay və s. çayları rayonun Gürcüstanla sərhədindən axan Qanıx çayı hövzəsinə aiddir. Çimli dağ-çəmən, qonur dağ-meşə, allüvial çəmən-meşə, şabalıdı və açıq şabalıdı, karbonatlı qara torpaqlar yayılmışdır.

Rayonun dağlıq hissəsində alp və subalp çəmənləri və meşələr (palıd, fıstıq, vələs və s.) geniş sahə tutur. Heyvanları: nəcib maral, canavar, dağkeçisi, köpgər, ayı, vaşaq, meşə pişiyi, çöldonuzu, süleysin və s. Quşları: ular, tetra quşu, qırqovul, turac, kəklik və s. İlisu Dövlət Təbiət Qoruğu və Qax yasaqlığı rayonun ərazisindədir.

Qax, əsasən, tütünçülük, heyvandarlıq, meyvəçilik, taxılçılıq və baramaçılıq rayonudur. Rayonda kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan sənaye müəssisələri - "Qax-Taxıl", "Qax-Konserv", "Qax-Tütün", "Qax-İstehsalat" ATSC-ləri fəaliyyət göstərir. "İlham", "Günəş", "Kapital-N" firmaları, "Şahmar" LTD, "Sadiq" MMC mineral və süfrə sularının qablaşdırılması ilə məşğul olur. Rayonda həmçinin, qum-çınqıl kombinatı, meyvə şirəsi istehsalı və fındıq emalı zavodları var.

Qax rayonu Azərbaycanın ən qədim, zəngin tarixi keçmişə malik bölgələrindən biri olmaqla əhalisi Azərbaycanda oturaq əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olan ibtidai tayfaların sıx məskunlaşdığı əsas mədəniyyət mərkəzlərindən biri olmuşdur. Arxeoloji axtarışlar nəticəsində regionda eneolit, tunc, ilk dəmir dövrünə aid çoxlu yaşayış yerləri və kurqanlar qeydə alınmışdır.

Tarixi mənbələrdən məlumdur ki, hələ e. ə. VII əsrin əvvəllərində Qaxın ərazisi Skif çarlığının tərkibinə daxil olmuşdur. Skif çarlığının, onun əsasını qoyan tayfaların « skif, sak tayfalarının izlərinə yaşadığımız Qax rayonunun ərazisində rast gəlinir.

Eramızın əvvəllərində Qafqaz Albaniyasının ərazisində xristianlığın yayılması prosesi başlamışdır. Bu dövrdə Qax rayonunun əhatə etdiyi ərazilərdə bir sıra xristian məbədləri inşa edilmişdir. Ərəb işğalı ilə tənəzzülə uğramış Alban dövlətinin, eləcə də Qax rayonunun indiki ərazisində XI əsrdən başlayaraq oğuz-səlcuq türkləri, sonra isə qıpçaq türkləri məskunlaşmağa başlamışlar. Həmin dövrdə Qaxın ərazisi o zaman mövcud olan Atabəylər və Şirvanşahlar dövlətinin tərkibinə daxil idi.

XIII əsrdə Qaxın ərazisi Hülakilər dövlətinin tərkibinə daxil olduqdan sonra onun cənub torpaqlarına türk-monqol tayfalarının köçü başlamışdır.

1562-ci ildə Səfəvi hökmdarı Şah I Təhmasibin fərmanı ilə Qaxın şimal ərazisi iri feodal, saxurlu Adı Görklü bəyə verilmişdir. Bununla da İlisu sultanlığının əsası qoyulmuşdur.

XVIII əsrin ortalarında İlisu sultanlığının nüfuzu o qədər yüksəlmişdir ki, Osmanlı imperiyası İlisu sultanı Əli Sultan bəyə o dövr üçün yüksək rütbə sayılan «İki Sancıqlı» paşa titulu verərək onu Şəki bəylərbəyi kimi tanımışdır.

1803-cü ildə İlisu sultanlığı Rusiya imperiyasının tərkibinə daxil edilmişdir. Sultanlığın hakimi Daniyal sultan 1844-cü ildə rus hakim dairələri ilə əmələ gələn narazılıqdan sonra üsyan edərək sultanlığın əhalisini ruslara qarşı qaldırmışdır. İlisu kəndi yaxınlığında məğlubiyyətə uğrayan Daniyal

sultan dağlıların milli-azadlıq hərəkatının rəhbəri Şeyx Şamilin tərəfinə keçərək mübarizəni davam etdirmişdir. Ruslar sultanlığın mərkəzi olan İlisu kəndini yandırdıqdan sonra sultanlığın ərazisi mahallara bölünmüş və Car-Balakən dairəsinə tabe edilmiş, çar Rusiyanın müstəmləkəsi olmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

İctimai-siyasi qəzet olan «Şəlalə» 1931-ci ildən çıxır. Qəzet ayda iki dəfə çıxmaqla ildə 24 sayı çap olunur. Azərbaycan və gürcü dillərində çıxan yeganə qəzet - «Şəlalə» qəzeti öz fəaliyyətində respublikamızda və rayonda həyata keçirilən məqsədyönlü tədbirləri və görülən işləri əks etdirir.

Rayonda radio verilişləri redaksiyası 50 ildir fəaliyyət göstərir. 1980-ci illərin əvvəllərindən Azərbaycan və gürcü dillərində verilişlərini təşkil edir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Qax rayonunun ərazisində respublika əhəmiyyətli 104 km uzunluğunda avtomobil yolları mövcuddur. Xaldan-Göybulaq-Zaqatala avtomobil yolunun rayon ərazisindəki uzunluğu 29 km-dir. Yolun örtüyü asfalt betondur, torpaq yatağının eni 12 m gediş-gəliş, hərəkət hissəsi 7 m-dir. Yolda uzunluğu 208,5 m olan 17 ədəd körpü, 536 m olan 41 ədəd su ötürücü boru vardır. Avtomobil yollarından başqa rayonun ərazisindən 1985-ci ildə istifadəyə verilmiş dövlət əhəmiyyətli 27 km uzunluğunda dəmir yolu xətti keçir. Mövcud dəmir yolu xəttinin üzərində 1 əsas stansiya (Qax stansiyası) və 1 sərnişin dayanacaq məntəqəsi fəaliyyət göstərir. Ərazidən keçən dəmir yol xəttində 11 ədəd keçid yeri, 67 ədəd suvarma kanalları keçidləri mövcuddur.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Qax rayonu tarix və memarlıq abidələri ilə zəngindir. Rayonda 56 memarlıq, 10 arxeoloji və 35-ə yaxın qəbirüstü abidələr qeydə alınmışdır. Mövcud abidələr və başqa tikililər əsasən mürəkkəb memarlıq həlli ilə seçilir. Tikililərdə yerli inşaat materiallarından « çay daşı, kirəmit, kərpic, əhəng və sair istifadə olunmaqla bənna, dülgər, şəbəkəçi, xarrat və sair sənətkarların birgə əməyi ilə görülmüşdür. Rayonda ən qədim tarixi və memarlıq incəsənət abidələrindən aşağıdakıları misal göstərmək olar.

- erkən orta əsrlər dövrünə aid edilən ən qədim yaşayış məskəni Əyri çayın Qanıx çayına tökülən ərazisindədir. Bu şəhər xarabalığı elmi ədəbiyyatda «Torpaqqala» adlanır.
- Güllük kəndi yaxınlığında «Pəri» qalası III-IV əsrə aiddir.
- Ləkit kəndi yaxınlığında Alban məbədi.
- Qum kəndində olan Qum məbədi V əsrin sonlarında inşa edilən abidələrdəndir.
- İlisu kəndində olan «Cinli qala», «Sumuk qala», «Həsən xan» qalası, «Qalaça» adlanan abidələr VII - IX və XVII-XVIII əsrlərdə inşa edilmişdir.
- Əmbərçay kəndi ərazisində yerləşən XVIII əsrə aid Kürmük məbədi-kilsəsi. Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Qazax rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 0,70 min kv. km**

**Əhalinin sayı - 96,2 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 137 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 34**

**Qazax rayonu ilə Bakı arasında olan məsafə - 470 km**

### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Qazax rayonu** | 89377 | 100,0 | 43672 | 49,0 | 45705 | 51,0 |
| şəhər əhalisi | 20793 | 23,26 | 10029 | 22,96 | 10764 | 23,55 |
| kənd əhalisi | 68584 | 76,74 | 33643 | 77,04 | 34941 | 76,45 |

**Ümumi məlumat**

1930-cu il avqustun 8-də Qazax rayonu yaradılmış, 1939-cu il yanvarın 24-də bir hissəsi yeni yaradılan Ağstafa rayonuna verilmişdir. 1959-cu il dekabrın 4-də Ağstafa rayonu Qazax rayonundan ayrılmışdır. Respublikanın qərbində Kiçik Qafqazın şimal ətəklərində yerləşir. Şimal-şərqdə Gürcüstan, cənub və cənub-qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir. Mərkəzi Qazax şəhəridir.

Rayona Qazax şəhəri və Aslanbəyli, Aşağı Salahlı, Yuxarı Salahlı, Daş Salahlı, Birinci Şıxlı, İkinci Şıxlı, Qaymaqlı, Kəmərli, Kosalar, Xanlıqlar, Yuxarı Əksipara, Ağköynək, Qarapapaq, Hüseynbəyli, Canalı, Alpout, Abbasbəyli, Aşağı Əksipara, Xeyrimli, Bağanis Ayrım, Barxudarlı, Sofulu, Dəmirçilər, Ürkməzli, Cəfərli, Bala Cəfərli, Quşçu Ayrım, Məzəm, Orta Salahlı, Qazaxbəyli, Fərəhli, Qızılhacılı, Çaylı, Kommuna kəndləri daxildir.

Səthi, əsasən, düzənlikdir (Gəncə-Qazax düzənliyi). Rayonun cənub və cənub-qərb hissəsi alçaq dağlıqdır. Bu hissədə hündürlüyü 1300 *m*-ə (Odundağ) çatır. Məşhur Göyəzən dağı buradadır. Rayonun ərazisində Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: qızıl, seolit, vulkan külü, mişar daşı, bentonit gili, çınqıl, qum, sement xammalı və s. İqlimi mülayim istidir.

Qışı quraq keçir. Orta temperatur yanvarda - 5°C-dən 0°C-yədək, iyulda 18-24,5°C-dir. İllik yağıntı 350-700 *mm*-dir. Kür çayı, İncəsu, Ağstafa və Xram çayları rayonun ərazisindən axır. Ağstafa çayı üstündə su anbarı (Ağstafaçay su anbarı) yaradılmışdır. Əsasən, dağ-şabalıdı, dağ-boz-qəhvəyi, şabalıdı, açıq şabalıdı və qismən karbonatlı qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yovşanlı-şoran-otulu yarımsəhra və çöl bitkiləri, rayonun Kiçik Qafqaza aid olan hissəsində dağ meşələri, Kür çayı sahilində tuqay meşələri var. Heyvanları: ayı, canavar, tülkü, çöldonuzu, boz dovşan, çölsiçanı və s. Quşları: qırqovul, turac, kəklik, göyərçin və s. Qarayazı qoruğu qismən Qazax rayonu ərazisindədir.

Qazax kənd təsərrüfatı və sənaye rayonudur. Rayonun kənd təsərrüfatı üzümçülük, tütünçülük və heyvandarlıq üzrə ixtisaslaşdırılmışdır. Taxılçılıq da mühüm yer tutur. Əsasən, yüngül və yeyinti sənayesi, həmçinin tikinti materialları istehsal edən sənaye müəssisələri var.

Qazax vaxtilə oymaq, sultanlıq, sonralar isə qəza mərkəzi olmuşdur. Qazax 1909-cu ildən şəhər statusu almış, indi rayon mərkəzidir. V. F. Minorskiyə, Z. M. Bünyadova və Ə. K. Əliyevə əsaslanan tarixçi-toponimist T. M. Əhmədov qeyd edir ki, Qazağın əsası VIII əsrdə ərəb sərkərdəsi Mərvan ibn Məhəmməd tərəfindən qoyulmuşdur. Qədim Azərbaycan dilinin tədqiqatçısı Q. Voroşil yazırdı ki, «Elə Qazağın özü də yeni şəhər deyildir, onun 1270 il əvvəl də şəhər kimi mövcudluğu barədə IX-X əsr qaynaqlarında məlumatlar vardır».

Təqribən XV əsrin sonlarında Qazax sultanlığı yaradılmışdır. Səfəvilərin dövründə Qazax sultanlığı Qarabağ bəylərbəyliyinə daxil idi.

Qazax sultanlığının hakimləri sultan titulu və irsi hakimiyyətə malik idilər. XVI əsrin 80-ci illərində Türk ordusunun təzyiqi ilə səfəvilər Azərbaycanı tərk etdikdə Bayat, Qaçaq, Qaramanlı və başqa tayfalardan fərqli olaraq Qazaxlar öz ərazilərini tərk edib İrana getmədilər. Sultanlığın başçısı Nəzər xan türklərin hakimiyyətini qəbul etmiş və bununla da mahalın müstəqilliyini əldə saxlamışdır. İkinci dəfə Azərbaycan, o cümlədən Qazax mahalı yenidən səfəvilərin hakimiyyəti altına keçəndən sonra da Nəzər xan öz hakimiyyətində qalmışdır. Hətta onun xələfi Şəmsəddin xan 1605-ci ildə I Şah Abbasdan xan rütbəsi almışdır. Osmanlılar yenidən hücum edib Qazağı aldıqdan sonra (XVIII əsrin əvvəlləri) Qazaxda inzibati ərazi bölgüsü aparmışlar. Belə ki, Qazax sancaq elan edilərək 4 nahiyəyə bölünmüşdür. Bunlar Axtata, İncə, Türk və Cuvar nahiyələri idi. Qazaxlıların könüllü surətdə osmanlıların tərəfinə keçməsi ilə əlaqədar Sultan III Əhmədin (1703-1730) Fərmanı ilə Qazax Sancaqbəyisi hələ səfəvilərin zamanında Qazax hakimi olmuş Mirəlibəy təyin olunmuşdur. 1728-ci ildə türklərin tərtib etdiyi «Dəftəri müfəssəli əyaləti Tiflis» dəftəri 1046 səhifədən ibarət olub, hazırda İstanbulda Başkanlıq arxivində saxlanılır. Bu dəftərin 63 səhifəsi Qazax sancağına aiddir. Dəftərə görə Qazax sancağında 205 kənd, 10 qışlaq və 5 köçəri tayfa qeydə alınmışdır.

Qazax sultanlığına 3 nəsil rəhbərlik etmişdir. 1-ci nəslə «Qazaxlı», «Alqazaxlı» deyilən Şıxlinskilər tayfası aiddir. Türk sultanı III Əhmədin (1703-1730) dövründə qazaxlılar osmanlıların tərəfinə keçdiyinə görə səfəvilər yenidən Qazağı geri alarkən «Qazaxlı» tayfasını rəhbərlikdən azad etmiş, onların əvəzinə iranlı Sübhanverdi xan adlı sərkərdəni Qazağa sultan təyin etmişlər. Bununla da II feodal sülaləsinə

Sübhanverdi xan başçılıq etmişdir. O vaxtlar Qazax sultanlığı hələ Qarabağ bəylərbəyliyinə tabe idi. 1736-cı ildə Nadir Muğanda özünü şah elan etdi. Lakin Qarabağ bəylərbəyisi Uğurlu xan Ziyad oğlu Nadirin əleyhinə öz etirazını bildirdi. Ona görə də Nadir şahlıq taxtına əyləşəndən sonra Gəncə xanının nüfuzunu zəiflətmək üçün Qazax, Şəmsəddin və Borçalı mahallarını Kaxetiya (gürcü) çarlığına verdi. Bundan sonra Kaxetiya çarı II İraklinin Fərmanı ilə 1774-cü ildə Qazax sultanlığına rəhbərliyə Salahlıda bəylik edən Kosa Mirzalı ağanın nəslindən olan Pənah ağa rəhbər (vəkil) təyin edildi (bu tayfa sonralar Vəkilov familiyasını qəbul etmişdir). Bununla da III feodal sülaləsinin hakimiyyəti başladı. 1752-ci ildə Qazax sultanlığı II İraklini məğlub edən Şəki xanlığına birləşdirildi, Şəki xanı Hacı Çələbinin vəfatından sonra yenidən II İraklinin vassallığına keçdi. 1801-ci ildə Qazax sultanlığı qərbi Gürcüstanın tərkibində Rusiyaya birləşdirildi. 1819-cu ildə Qazax sultanlığı ləğv edilərək distansiyaya çevrildi. 1867-ci il dekabrın 9-da Yelizavetpol quberniyasının tərkibində Qazax qəzasına çevrilmişdir. Qazax qəzasının ərazisi 5908, 24 kvadrat km, əhalisi 1911-ci ildə 130 min nəfər olmuşdur. 1913-cü ilin məlumatına görə Qazax qəzasında 232 sənaye malları, şirniyyat dükanı, 33 su dəyirmanı, 15 qırmızı kərpic zavodu, 1 taxta-şalban, 1 gön-dəri, 17-dən artıq şərab və konyak zavodu, 1 pambıq və 1 sement zavodu olmuşdur. 1929-cu ildə Qazax qəzası ləğv olunmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Qazax rayonunun mətbu orqanı olan «Göyəzən» qəzeti 1932-ci ildən nəşr olunur. Əvvəllər «Kommuna yolu» və «Qalibiyyət bayrağı» adı altında nəşr olunub. Qəzet hazırda ayda bir dəfə nəşr olunur.

1975-ci ildən Qazax Radio Verilişləri Redaksiyası yaradılmışdır. Radio həftənin 5 günü verilişlər hazırlayıb rayon əhalisinə çatdırır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən 64 km II dərəcəli, 38 km III dərəcəli, 66 km IV dərəcəli və 30 km V dərəcəli avtomobil yolları keçir.

Bakı-Qazax dəmir yolunun 30 km-i rayon ərazisindən keçir. Həmin yol II dərəcəli dəmir yoludur. Qazax-Barxudarlı dəmir yolunun 6 km-i Barxudarlı zonasında işğal altındadır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Qazax rayonunun tarixi qədim və zəngin olduğu kimi onun tarix, memarlıq və incəsənət abidələri də qədim və zəngindir.

Rayonda dünya, ölkə və yerli əhəmiyyətli 112 tarixi abidə var. Onlardan 54-ü arxeoloji, 46-sı memarlıq, 7-si monumental-tarixi abidə, 5-i dekorativ-tətbiqi incəsənət abidələridir.

Rayonun məşhur abidələri aşağıdakılardır:

1. Səməd Vurğunun Poeziya evi - Yuxarı Salahlı kəndinə yerləşir. 17 noyabr 1976-cı ildə S. Vurğunun anadan olmasının 70 illiyi ilə əlaqədar açılmışdır. Poeziya evində S. Vurğunun həyat və yaradıcılığını əks etdirən eksponatlar nümayiş etdirilir. Poeziya evi yerli əhəmiyyətli monumental və xatirə abidələri siyahısına daxildir.

2. Tarix-Diyarşünaslıq muzeyi 1984-cü ildə yaradılmışdır. 10 otaqdan ibarət olan muzeyin 1000-dən çox eksponatı var. Muzey Qazağın müxtəlif mərhələləri, etnoqrafiyası, sosial və iqtisadi həyatı, görkəmli adamları barədə məlumatlar verir.

3. Qazax Dövlət Rəsm Qalereyası - Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 13 fevral 1986-cı il tarixli əmrinə əsasən yaradılmışdır. Qalereyada 828 ədəd eksponat var. Qalereyanın əsas vəzifəsi və fəaliyyət istiqaməti əhali arasında müasir, milli və dünya təsviri, dekorativ tətbiqi sənət əsərlərini təbliğ etməkdir.

4. Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin xatirə muzeyi - 1970-ci ildə M. P. Vaqifin xatirə muzeyi kimi yaradılmış və Respublika Nazirlər Kabinetinin 02 avqust 2002-ci il tarixli 122 nömrəli qərarına əsasən M. P. Vaqifin və M. V. Vidadinin xatirə muzeyi adlandırılmışdır. Muzeydə 1160 eksponat nümayiş etdirilir.

5. Qazax Müəllimlər Seminariyasının binası - 1910-cu ildə inşa edilmişdir. 1918-ci ildə Firudin bəy Köçərli Qori Seminariyasının Azərbaycan şöbəsini Qazağa köçürəndə Qazax rayonunun Kosalar kənd sakini Məşədi İbrahim ağa şəxsi mülkü olan həmin binanı təmənnasız olaraq Seminariyaya bağışlamışdır. Qazax müəllimlər seminariyası 1918-ci ildən 1959-cu ilədək fəaliyyət göstərmiş, həmin müddətdə seminariyada 3 minədək kadr hazırlanmışdır.

6. İsrafil ağanın hamamı - XX əsrin birinci onilliyində tikilmişdir. Hamam Qıraq Kəsəmən kənd sakini İsrafil ağa Kərbalayevin şəxsi vəsaiti ilə tikilmişdir. Qoşa kümbəzli bu hamam yerli əhəmiyyətli abidələr siyahısına daxildir.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Yuxarı Əskipara kəndi ərazisindəki «Qatır körpüsü», «Kazım körpüsü», V-VIII əsrlərə aid məbəd, yeraltı su kəməri, XVII əsrə aid qüllə, «Qulucanlı» körpüsü, Qədim hamamın qalıqları, «Koroğlu» qülləsi, türbə, orta əsrlərə aid şəhərin qalıqları, Məzəm kəndində olan «Məzəm körpüsü» hazırda erməni silahlı birləşmələrinin işğalı altındadır. Xanlıqlar kəndi ərazisində olan «Atəşpərəstlər» daxması, Daş Salahlı kəndi ərazisində olan «Qədir körpüsü» minalanmış sahədədir

## Qəbələ rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,55 min kv. km**

**Əhalinin sayı – 108,9 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 70 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər – 1**

**Qəsəbə - 3**

**Kəndlərin sayı – 60**

**Qəbələ rayonu ilə Bakı arasında olan məsafə - 225 km.**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Qəbələ rayonu** | 93652 | 100,0 | 47485 | 51,0 | 46167 | 49,0 |
| şəhər əhalisi | 32064 | 34,24 | 16116 | 33,94 | 15948 | 34,54 |
| kənd əhalisi | 61588 | 65,76 | 31369 | 66,06 | 30219 | 65,46 |

**Ümumi məlumat**

1930-cu ildə Qutqaşın rayonu yaradılmışdır. 1991-ci ilin martında rayonun adı dəyişdirilərək rayon ərazisində yerləşən qədim Qəbələ şəhərinin adı ilə adlanmışdır. Böyük Qafqazın cənub yamacındadır. Şimaldan Rusiya Federasiyası ilə həmsərhəddir. Mərkəzi Qəbələ şəhəridir.

Rayona Qəbələ şəhəri, Vəndam, Nic, Bum qəsəbələri və Küsnət, Əmirvan, Bayramkoxalı, Qəmərvan, Qaymaqlı, Böyük Pirəli, Kiçik Pirəli, Soltannuxa, Bunud, Həzrə, Seyidqışlaq, Məmmədağalı, Hacıalılı, Böyük Əmili, Mamaylı, Çarxana, Şəfili, Şamlı, Ovcullu, Həmzəli, Cığatelli, Xırxatala, Dizaxlı, Sarıhacallı, Yeni Dizaxlı, Zalam, Mollaşıxalı, Kiçik Əmili, Zarağan, Daşca, Aydınqışlaq, Quşlar, Bəyli, Savalan, Kürd, Qaradeyin, Laza, Sırt Yengicə, Məlikli, Bılıx, Siləyli, Mirzəbəyli, Corlu, İmamlı, Mıxlıqovaq, Solquca, Kötüklü, Tikanlı, Abrix, Uludaş, Yemişanlı, Dandıx, Tüntül, Nohurqışlaq, Yengicə, Çuxur Qəbələ, Zirik, Tövlə, Bum, Zərgərli, Yenikənd, Topbağ kəndləri daxildir.

Relyefi, əsasən, dağlıqdır. Ərazisinin şimal hissəsi Baş Qafqaz silsiləsinin cənub yamacına, mərkəzi hissəsi Qanıx-Həftəran vadisinə, cənub hissəsi isə Acmohur öndağlığına daxildir. Ən yüksək zirvələri Bazardüzü (4466 m), Bazaryurd (4126 *m)* və Tufandır (4191 *m).* Ərazisinin şimal hissəsində Yura,

Tabaşir, mərkəzi və cənub hissəsində isə başlıca olaraq Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı və mineral bulaqlar var. İqlimi aşağı hissədə qışı quraq keçən mülayim isti, yüksək dağlıqda isə soyuq və rütubətlidir. Orta temperatur yanvarda -14°C-dən 0°C-yədək, iyulda 2°C-dən 24°C-yədəkdir. İllik yağıntı 500-600 *mm*-dir. Əsas çayları Türyan və Dəmiraparandır. Çimli dağ-çəmən, qonur dağ-meşə, allüvial çəmən-meşə və s. torpaqlar yayılmışdır. Şimalda alp və subalp çəmənlikləri, dağ meşələri (palıd, fıstıq, vələs), mərkəzi hissədə kollu və seyrək meşəli çəmənliklər, cənubda isə yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra bitkiləri, kserofit seyrək meşəliklər geniş sahə tutur. Heyvanları: nəcib maral, vaşaq, meşəpişiyi, dələ, süleysin, yenot, canavar, tülkü, boz dovşan, çöldonuzu və s. Quşları: ular, qırqovul, kəklik, turac, göyərçin və s. Qəbələ yasaqlığı rayonun ərazisindədir.

Rayonun iqtisadiyyatının əsasmı heyvandarlıq, taxılçılıq, tütünçülük və meyvəçilik təşkil edir. Rayonda iri dövlət müəssisələri - "Qəbələ-Tütün", "Qəbələ-Kəndkimya", "Qəbələ-Sənaye-İstehsal", "Qəbələ-Aqrotexservis" ASC-ləri, Qəbələ balıqyetişdirmə zavodu, Qəbələ Meşə Mühafizəsi və Bərpası İdarəsi, Qəbələ Suvarma Sistemləri İdarəsi, Qəbələ telekommunikasiya qovşağı, özəl müəssisələr və s. var.

Qəbələ rayonu indiki rayon mərkəzindən 20 km cənub-qərbdə yerləşən IX əsrdə Qafqaz Albaniyasının paytaxtı olmuş Qədim Qəbələ şəhərinin adını daşıyır. Qədim Qəbələ dünyanın Babil, Troya, Pompey kimi qədim və məşhur şəhərlərilə müqayisə ediləcək dərəcədə mühüm, siyasi-iqtisadi və ticarət mərkəzlərindən biri olmuşdur. Qədim şəhərin qala və giriş darvazalarının, bəzi binaların qalıqları indi də qalmaqdadır. Antik dövrə aid böyük binaların qalıqları, qala divarları və maddi mədəniyyət abidələri Qəbələnin çox möhtəşəm bir şəhər olduğunu sübut edir.

Qədim Qəbələ eramızdan əvvəl IV əsrin sonu III əsrin əvvəllərində şəhər kimi meydana gələrək eramızın XVIII əsrinin ortalarına qədər yaşamışdır. Bu müddət ərzində şəhərin həyatında böyük dəyişikliklər baş vermişdir. Müxtəlif tarixi hadisələrlə əlaqədar şəhər bir neçə dəfə dağıntılara məruz qalmışdır.

Eramızdan əvvəl 60-cı illərdə Roma qoşunları Albaniyaya hücum etsələr də, Qəbələni işğal edə bilməmişlər. Sasanilər dövründə Qəbələ çox böyük ticarət və sənətkarlıq mərkəzi olmuşdur. Xilafət dövründə də Qəbələ ticarət və sənətkarlıq mərkəzi kimi əhəmiyyətini qoruyub saxlamışdır. XIII əsrdə Monqolların hücumu zamanı Qəbələ tənəzzülə uğrasa da, sonralar yenidən dirçəlmişdir. XVIII əsrin ortalarında Qəbələ öz əvvəlki əzəmət və əhəmiyyətini itirmiş, əhali tədricən buradan köçmüşdür.

XVIII əsrin ortalarında Qəbələ ərazisində kiçik feodal dövləti olan Qutqaşın sultanlığı yaradılmışdır. Qutqaşın sonralar mahal kimi Şəki xanlığının tərkibinə daxil olmuş, Şəki xanları tərəfindən təyin olunan naiblər tərəfindən idarə edilmişdir.

Şəki xanlığının süqutundan sonra Qutqaşın mahal kimi Şəki qəzasının tərkibinə daxil olmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Qəbələ» adlı qəzet nəşr olunur.

«Qəbələ» qəzeti 1933-cü ildən nəşr olunur. Qəzet əvvəllər «Bolşevik mübarizi» (1933 -1952), «Mübariz» (1953 -1962), «Yeni həyat» (1963 -1965), «Qalibiyyət» (1966 -1990) adları ilə buraxılmışdır. 27 noyabr 1990-cı ildən qəzet «Qəbələ» adı ilə nəşr olunur. «Qəbələ» qəzetinin təsisçiləri Qəbələ Rayon İcra hakimiyyəti və redaksiya kollektividir. Qəzet ayda iki dəfə nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Qəbələ rayonunun ərazisindən keçən III kateqoriyalı Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun uzunluğu 48 km, III kateqoriyalı Ağdaş-Zarağan avtomobil yolunun uzunluğu isə 33 km-dir.

Beləliklə, Qəbələ rayonunun ərazisindən keçən avtomobil yolları III kateqoriyalı olmaqla ümumi uzunluğu 81 km-dir.

1. Qaraməryəm-İsmayıllı-Şəki - 47-94 km. III kateqoriya 48 km.
2. Ağdaş-Zarağan -11-43 km. III kateqoriya 33 km.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü»ndə Qəbələdə olan 93 tarix, memarlıq, mədəniyyət, incəsənət abidəsinin adı, yeri və tarixi barədə məlumatlar vardır.

Bunlardan biri - Qədim Qəbələ şəhəri, antik dövr, dünya əhəmiyyətli, 61-i respublika əhəmiyyətli, 31-i yerli əhəmiyyətli tarix və mədəniyyət abidələridir.

Qədim Qəbələ şəhəri e. ə. IV əsrdən b. e. V əsrinədək (900 il) Azərbaycanın, - Qafqaz Albaniyasının, - birinci paytaxtı olmuşdur.

Qədim Qəbələ haqqında yunan, Roma, ərəb, fars, türk, erməni, gürcü mənbələrində məlumat vardır. Roma müəllifi Böyük Plini (I əsr) Qəbələni Kabalaka, yunan coğrafiyaşünası Ptolemey (II əsr) Xabala, ərəb tarixçilərindən Balazuri (IX əsr) Xəzər adlandırmışlar.

1959-cu ildən müntəzəm qazıntı aparan Qəbələ arxeoloji ekspedisiyası şəhərin daha qədim və böyük hissəsini aşkara çıxardı və buranın e. ə. IV - b. e. I əsrlərinə aid olduğunu müəyyənləşdirdi.

Arxeoloji tədqiqatlar zamanı Qəbələ ərazisində böyük tikililərin qalıqları, qala bürcləri, ocaq və təndir qalıqları, müxtəlif dövrlərə aid gil qabları, tunc, gümüş, qızıl, sədəf və sümükdən bəzək əşyaları, şüşə məmulatı, tikinti materialları, kərpic döşəmələr, şəhəri bulaq suyu ilə təchiz etmək üçün istifadə olunmuş tünglər və s. aşkar edilmişdir.

Qədim Qəbələdən tapılmış arxeoloji materialların dörd minə qədəri Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyində mühafizə, tədqiq və nümayiş etdirilir.

Rayonun Həzrə kəndində, meşə içərisindəki sahəsi 3,5 hektara yaxın, orta əsr qəbiristanında tariximiz üçün çox maraqlı olan abidələr qalmaqdadır. Bu abidələr Şirvan-Abşeron memarlıq məktəbinə aid

türbələrdən və sənduqələrdən ibarətdir. Türbələrin portallarında və sənduqələrin üzərində nəfis işlənmiş kitabələr həkk olunmuşdur. Qəbiristanda dörd türbə vardır:

1. Şeyx Bədrəddin türbəsi (1446-cı il);
2. Şeyx Məhəmməd türbəsi (XV əsr);
3. Şeyx Mənsur türbəsi (XVI əsr);
4. Türbə (XVI əsr).

Qəbiristandakı sənduqələr də diqqəti cəlb edir. Həkkak və xəttatlar ərəb əlifbasının xüsusiyyətlərindən istifadə edərək sənduqə və başdaşlarına vurduqları naxışlarla yanaşı abidələrin bəzəyində haşiyə, qaytan və cürbəcür xalçalar şəklində kitabə motivləri də işlənmişdir.

Müasir Qəbələ şəhərində Azərbaycanın realist nəsrinin banilərindən və ilk azərbaycanlı generallarından olan Hacı İsmayılbəy Qutqaşınlının (1806 -1869) qəbirüstündəki başdaşı, üç yerdə abidəsi, xatirə ev-muzeyi vardır.

XVII əsrin sonlarında tikilən səkkizguşəli məscid Bum kəndindəki Came məscidi (1882), xristianlığa dair ilk dini ocaqlardan olan Kilsədağ məbədi, IX əsrə dair «Qovur qalası» (Bum), VIII-IX əsrlərə aid edilən hamam binasının qalıqları, Came məscidi (müasir Qəbələ) tarixinin qədimliyindən xəbər verir.

Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyinin həyətində mühafizə olunan Sarkofaq (daş qəbir - e. ə. IV - III əsrlər), daş qoç fiquru (XV əsr), Sənduqələr (XIII-XIX əsrlər), Sütunaltıları (e. ə. II-I əsrlər) maraq doğurur.

11 dekabr 2004-cü ildə şəhərin mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əzəmətli heykəlinin açılışı olmuşdur.

# Qobustan rayonu

**Yaranma tarixi - 24.04.1990**

**Ərazisi - 1,37 min kv. km**

**Əhalinin sayı – 47,0 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 34 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 31**

**Qəsəbələrin sayı – 1**

**Qobustan rayonu ilə Bakı arasında olan məsafə - 101 km.**




**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu ilin məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Qobustan rayonu** | 40112 | 100,0 | 19879 | 50,0 | 20233 | 50,0 |
| şəhər əhalisi | 8086 | 20,16 | 4064 | 20,44 | 4022 | 19,88 |
| kənd əhalisi | 32026 | 79,84 | 15815 | 79,56 | 16211 | 80,12 |

**Ümumi məlumat**

Mərəzə rayonu 1920-ci ildən 1930-cu ilə qədər Azərbaycanın inzibati ərazi vahidi kimi fəaliyyətdə olmuşdur. 1930-cu ildə Şamaxı rayonu təşkil edildikdə Mərəzə rayonu da onun tərkibinə birləşdirilmişdir. 1943 - cü ilin oktyabr ayında Mərəzə rayonu Şamaxı rayonundan ayrılaraq 01.01.1960-cı ilə qədər ayrıca rayon kimi fəaliyyət göstərmişdir. Sonuncu dəfə isə Mərəzə zonası 1990-cı ilin aprel ayında Şamaxıdan ayrılmış, Qobustan rayonu təşkil olunmuşdur. Böyük Qafqazın cənub-şərq qurtaracağındadır. Mərkəzi Mərəzə qəsəbədir.

Rayona Mərəzə, Üzümçü qəsəbələri və Nərimankənd, Dərəkənd, Şıxzərli, İlanlı, Ceyrankeçməz, Cəmcəmli, Damlamaca, Nabur, Cəngi, Bəklə, Təklə, Çuxanlı, Ərəbşalbaş, Təklə-Mirzəbaba, Ərəbqədim, Göydərə, Nardaran, Qurbançı, Çay Qurbançı, Ərəbşahverdi, Qaracüzlü, Bədəlli, Sündü, Cəyirli, Çalov, Poladlı, Dağ Kolanı, Xilmilli, Şıxlar, Yekəxana Təsi, Sədəfli kəndləri daxildir.

Relyefi alçaq dağlıqdır. Ərazinin şimalında Tabaşir, qalan yerlərdə, əsasən, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Neft, qaz və yanar şist yataqları, çoxlu palçıq vulkanı var. Müxtəlif tikinti materialları ilə zəngindir. Mülayim isti yarımsəhra və quru çöl iqlimi üstünlük təşkil edir. Şimalda

iqlimi mülayim istidir. Yanvarda orta temperatur -l,5°C-dən 3°C-yədək, iyulda 27°C-yədəkdir. İllik yağıntı şimal-qərbdə təqr. 500 *mm*, cənub-şərqdə 150 *mm* və daha azdır. Yayı quraq keçir. Ən seyrək çay şəbəkəsi olan ərazilərdəndir. Qərbində Pirsaatçay, şimalında Qozluçay axır. Burada daimi axarı olan çay yoxdur. Şabalıdı və açıq şabalıdı, boz-qonur, şorakətvarı boz-qonur torpaqlar yayılmışdır. Dağ kserofitləri, yarımsəhra və quru çöl bitkiləri geniş yer tutur. Heyvanları: tülkü, canavar, boz dovşan, çölsiçanı, ilan, kərtənkələ və s. Quşları: kəklik, göyərçin və s.

Qobustan, əsasən, taxılçılıq və heyvandarlıq rayonudur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda İcra Hakimiyyətinin orqanı olan "Qobustan" və YAP rayon təşkilatının orqanı olan "Qobustanın səsi" aylıq qəzetləri nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Qobustan rayonu dağlıq Şirvan regionuna daxil olmaqla respublikanın qərb arteriyasını təşkil edən Bakı-Qazax avtomobil yolu üzərində yerləşir. Ərazi mürəkkəb coğrafi relyefə malik olduğundan digər nəqliyyat kommunikasiyaları istisnalıq təşkil edir.

Bakı-Qazax avtomobil yolunun 56-111-ci kilometrlik hissəsi asfalt beton örtüklü olmaqla II-tikinti kateqoriyasına aiddir. 1970-86-cı illərdə əsaslı təmir olunmuşdur.

Bundan başqa rayon ərazisində uzunluğu 23 km olan Mərəzə-Hilmilli, 20 km uzunluqda Sabir-Hilmilli yolları mövcuddur. Bu yollar IV tikinti kateqoriyasına aiddir. Hissə-hissə çınqıl və qara örtüklüdür. Yaşayış məntəqələrini əlaqələndirən yerli yolların uzunluğu 127,8 kilometrdir. Bunlar çınqıl və qrunt yollardır.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Diri baba türbəsi, 1402-ci il, Mərəzə qəsəbəsi;

Qobustan yaşayış yeri, İlk orta əsrlər, Mərəzə qəsəbəsindən şimalda;

Kolanı yaşayış yeri, antik dövr, Poladlı kəndi;

Şərar nekropolu, antik dövr və ilk orta əsrlər, Poladlı kəndi;

Küp qəbirləri nekropolu, antik dövr, Bəklə kəndi

Qəbiristanlıq, antik dövrü, orta əsrlər, Çalov kəndi;

Çalov yaşayış yeri, ilk orta əsrlər, Çalov kəndi;

Cəyirli yaşayış yeri, ilk orta əsrlər, Cəyirli kəndi;

Şıxzahırlı kurqanı, ilk orta əsrlər, Şıxzahırlı kəndi;

Qədirtəpə kurqanı, Tunc dövrü, Sündü kəndindən 2 km şimal qərbdə;

Kolanı yaşayış yeri, İlk orta əsrlər, Kolanı kəndi;

Qalacıq istehkamı, ilk orta əsrlər, Kolanı kəndi;

Yaşayış yeri, ilk orta əsrlər, Cəmcəmli kəndi;

Karvansaray, XVII əsr, Mərəzə qəsəbəsi;

Qala, Nabur kəndi;

Məscid, X əsr. Sündü;

Karvansaray, XV əsr, Hilmilli kəndi;

Cavanşir qalası, Şıxlar kəndi;

Sıxbirgi yaşayış yeri, orta əsrlər, Poladlı kəndi;

Hacılı yaşayış yeri, orta əsrlər, Poladlı kəndi;

Pir xanəgahı, orta əsrlər, Poladlı kəndindən cənubi-şərqdə;

Köhnə qəbiristanlıq, orta əsrlər, Təklə kəndindən 500 m qərbdə;

Şıxzəyirli qəbiristanlığı, orta əsrlər, Şıxzahırlı kəndi;

Köhnə qəbiristanlıq, orta əsrlər, Sündü kəndindən şimalda;

Quyulu mağaralar (2 ədəd), orta əsrlər, Südü kəndinin cənubunda Qəhlə dağında;

Mağaralar (8 ədəd), orta əsrlər, Sündü kəndinin cənubunda Qəhlə dağında;

Qəzənfər quyulu mağaraları (2 ədəd), orta əsrlər, Sündü Qəzənfər dağının cənub tərəfindən;

Mağaralar (4 ədəd), orta əsrlər, Sündü kəndindən 8 km cənubda;

Qədirtəpə yaşayış yeri, orta əsrlər, Sündü kəndindən 2 km qərbdə;

Qəbiristanlıq, son orta əsrlər, Təsi kəndi.

## Quba rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 2,61 min kv. km**

**Əhalinin sayı - 170,2 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 65 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 149**

**Qəsəbələrin sayı – 7**

**Quba rayonu ilə Bakı arasında olan məsafə - 168 km.**

### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| **Ərazi** | **Cəmi** | | **Kiş;** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Quba rayonu** | 152452 | 100,0 | 76885 | 51,1 | 75567 | 48,9 |
| şəhər əhalisi | 37952 | 24,89 | 19039 | 24,76 | 18913 | 25,03 |
| kənd əhalisi | 114500 | 75,11 | 57846 | 75,24 | 56654 | 74,97 |

**Ümumi məlumat**

1930-cu ildə Quba Azərbaycanın inzibati rayonlarından birinə çevrildi. Böyük Qafqazın şimal-şərq yamacındadır. Mərkəzi Quba şəhəridir.

Rayona Quba şəhəri, Qonaqkənd, Qırmızı qəsəbə, Gənclər, Zərdabi qəsəbələri və Əski İqriq, Dağlı, Cimi, Xaşı, Gömürdəhnə, Puçuq, Qaravulustü, Ördüc, Əlik, Cek, Buduq, Dağüstü, Zeyid, Yalavanc, Xınalıq, Qalayxudat, Rük, Adur, Qarxun, Söhüb, Dalıqaya, Zıxır, Yerfi, Nohurdüzü, Qayadalı, Dərk, Talış, Güləzi, Kunxırt, Dalaqo, Xanagahyolu, Xırt, Aydınkənd, Afurca, Fırıq, Rucuq, Atuc, Xaltan, Nütəh, Utuq, Çarxaçu, Mucu, Alpan, Kürkün, Uzunmeşə, Amsar, Ərməki, Digah, Alıc, Zərqava, Qorxmaz-oba, Aspərəsti, Xaspolad, Kələnov, Çayqışlaq, İsnov, Qasımqışlaq, Mahmudqışlaq, Çiçi, Raziyələr, Qənidərə, Sırt Çiçi, Səbətlər, Təngəaltı, Rustov, Xanəgah, Məckəxacə, Bad, Qalagah, Bağçalı, Kələbağ, Yekdar, Hacıağalar, Qam-qam, Sofikənd, Püstəqasım, Dəhnə, Güneyməhlə, Alekseyevka, Zizik, İqriq, Qacarzeyid, Timiryazev, Birinci Nügədi, Qaraçay, Mirzəqışlaq, Vladimirovka, Əlibəyqışlaq, Ağbil, Mirzəməmmədkənd, Dəlləkli, Küpçal, Qələdüz, Üçgün, Qımıl, Küsnət, Dağlı, Talabıqışlaq, Küçeyi, Cağacuq, Talabı, Şuduq, Növdün, Aşağı Tüləkaran, Yenikənd, Yuxarı Tüləkəran, Tülər, Möhüc, Gültəpə,

Xucbala, Digah, Çartəpə, Aşağı Xuc, Orta Xuc, İkinci Nügədi, Pirvahid, Qəçrəş, Qımılqazma, Küsnətqazma, Hacıhüseynli, Ərməkiqışlaq, Hacıqayıb, Mirzəqasım, Küpçalqışlaq, Novonikolayevka, Davudoba, Əliməmmədoba, Qımılqışlaq, Vəlvələ, Bərğov, İsnovqışlaq, Gədikqışlaq, İdrisqışlaq, Yergüc, Bağbanlı, Barlı, İspik, Susay, Gəray, Aşağı Atuc, Susayqışlaq, Qrız, Haputlu, Qrızdəhnə, Gürdəh, Rəngdar, Cindar, Cadari, Xaruşa, Töxmar, Amsarqışlaq, Paşaoba kəndləri daxildir.

Səthi, əsasən, dağlıqdır. Şimal-şərq hissəsi Qusar maili düzənliyi və Samur-Dəvəçi ovalığında yerləşir. Cənub-qərb sərhədi Baş Qafqaz silsiləsinin yal hissəsindən keçir. Ərazisinin hündürlüyü 100 *m*-dən (ovalıqda) 4191 *m*-ədəkdir (Tufan dağ). Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: yanar şist, mərmər, çınqıl, qum, gil. Mineral bulaqları var. İqlimi düzənlik və dağətəyi hissədə yayı quraq keçən mülayim isti, yüksək dağlıqda soyuq və rütubətlidir. Orta temperatur yanvarda -4°C-dən l°C-yədək, iyulda 2°C-dən 24°C-yədəkdir. İllik yağıntı 300-1500 *mm*-dir. Çayları (Qudyal, Qaraçay, Vəlvələ və s.). Xəzər dənizi hövzəsinə aiddir. Əsasən, çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi torpaqlar yayılmışdır. Dağlıq sahədə alp və subalp çəmənləri geniş sahə tutur. Bundan aşağılarda enliyarpaqlı dağ meşələridir (palıd, fıstıq, vələs). Heyvanları: dağkeçisi, canavar, köpgər, ayı, vaşaq, meşə pişiyi, daşlıq dələsi, meşə dələsi və s. Quşları: ular, kəklik və s.

Quba, əsasən, kənd təsərrüfatı rayonudur. Əsas təsərrüfatı meyvəçilik və heyvandarlıqdır. Burada konsentrat sexi, 4 meyvə emalı sexi, soyuducu qurğular və s. sənaye müəssisələri var.

Yaşı ilk orta əsrlərə gedib çıxan Qubanın tarixi haqqında qədim Alban və Ərəb mənbələrində, Avropanın müxtəlif coğrafiyaşünaslarının əsərlərində bu və ya digər şəkildə bəhs olunmuşdur. Belə ki, Peyğəmbərimizin Məkkə şəhəri ətrafında tikdiyi ilk məscidin adı Quba adlanır.

XI əsrdə Azərbaycan hakimi Anuşirəvanın tikdirdiyi qalanın adı «Bade-Firuzqubat» idi, XII əsrə aid ərəb mənbələrində Quba «Kuba» kimi göstərilirdi, XIII əsrdə ərəb alimi Həməvinin coğrafiya lüğətində Azərbaycan şəhərləri arasında «Kubba» da vardır, XVI əsrin səfəvi qaynaqlarında isə Quba «Qübbə» kimi verilmişdir.

Quba şəhərinin ilk təməl daşı XIV əsrdə qoyulmuşdur.

XVIII əsrin ortalarında Quba xanlığı yaradılmış, onun mərkəzi əvvəl Xudat, sonra isə Quba şəhəri olmuşdur. Hüseynəli xanın oğlu Fətəli xanın (1758-1789) dövründə Quba xanlığının mövqeyi artmışdır. 1806-cı ildə Quba xanlığı Rusiyaya birləşdirildi və əyalətə çevrildi. Yenidən təşkil olunmuş Quba qəzası 1840-cı ildə Dərbənd quberniyasına, 1860-cı ildə isə Bakı quberniyasına daxil edildi.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Quba rayonunda 2 özəl teleşirkət «Qütb» və «Xəyal», eləcə də müstəqil «Şəfəq», dağ yəhudiləri icmasının «Birlik» qəzetləri fəaliyyət göstərir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən 40 km uzunluğunda Respublika əhəmiyyətli, 26 km rayonlararası və yerli əhəmiyyətli yollar keçir ki, bundan 16 km Quba - Xaçmaz istiqamətində, 10 km isə Quba - Qusar istiqamətindəki yollardır. 64 km uzunluğunda yerli əhəmiyyətli yol olmaqla Quba - Qəçrəş, Quba - Qonaqkənd istiqamətindəki yollardır.

Rayonun ərazisindən dəmiryol xətti keçmir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Qədim tarixə malik olan Quba abidə və etnoqrafik mənbələrlə zəngindir. Rayonda 134 tarixi-arxeoloji abidə mövcuddur. Avropanın ən uca dağ kəndi sayılan Xınalıq kəndində IX əsrə aid Atəşpərəstlər məbədi, Ağbil kəndində XVI əsrə aid türbələr, Quba şəhərində XIX əsrə aid Səkinə xanım, Hacı Cəfər və Cümə məscidləri, Gümbəzli hamam vardır.

Quba şəhərində dövlət xadimi, mütəfəkkir A. A. Bakıxanovun büstü, böyük şair Səməd Vurğunun, V. Mayakovskinin, Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə həsr edilmiş «Naməlum əsgər»in heykəlləri ucaldılmışdır.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Qubadlı rayonu

**Yaranma tarixi - 14.03.1933**

**Ərazisi - 0,80 min kv. km**

**Əhalinin sayı – 37,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 46 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 93**

**Qubadlı rayonu ilə Bakı arasında olan məsafə - 403 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Qubadlı rayonu** | 35630 | 100,0 | 17660 | 50,0 | 17970 | 50,0 |
| şəhər əhalisi | 8046 | 22,58 | 3987 | 22,58 | 4059 | 22,59 |
| kənd əhalisi | 27584 | 77,42 | 13673 | 77,42 | 13911 | 77,41 |

**Ümumi məlumat**

Qubadlı rayonu 1933 ildə təşkil edilmişdir. Kiçik Qafqazın cənub-qərbində yerləşir. Qərbdən 120 km məsafədə Ermənistan Respublikası ilə, şimaldan Laçın rayonu, Xocavənd rayonu, şərqdən Cəbrayıl rayonu, cənubdan isə Zəngilan rayonu ilə həmsərhəddir. Mərkəzi Qubadlı şəhəridir.

Rayona Qubadlı şəhəri və Gödəklər, Əliquluuşağı, Mahmudlu, Sarıyataq, Xanlıq, Qayalı, Ləpəheyranlı, Abdalanlı, Dondarlı, Diləli Müskənlı, Saray, Mirlər, Dəmirçilər, Poladlı, Fərcan, Göyyal, Hərtis, Zor, Aşağı Xocamusaqlı, Yuxarı Xocamusaqlı, Mehrili, Hal, Qəzyan, Məmər, Mollalı, Ballıqaya, Cərəli, Boyunəgər, Saldaş, Qaralar, Kavdadıq, Hüseynuşağı, Ulaşlı, Altınca, Əbilcə, Tatar, Qaraqoyunlu, Qiyaslı, Zilanlı, Kürd Mahrızlı, Seləli, Mahrızlı, Alaqurşaq, Muğanlı, Həmzəli, Çaytumas, Əfəndilər, Yusifbəyli, Xocahan, Tinli, Qılıcan, Yuxarı Mollu, Aşağı Mollu, Mollabürhan, Xocik, Mərdanlı, Bala-soltanlı, Padar, Qaramanlı, Qaracallı, Qarağac, Qarakişilər, Başarat, Milanlı, Hat, Deşdahat, Armudlu, Çardaqlı, Tarovlu, Xələc, Əyin, Göyərçik, Bəxtiyarlı, Göyər Abbas, Cılfır, Seytas, Novlu, Gürcülü, Dovudlu, Qədirli, Məzrə, Eyvazlı, Teymur Müskanlı, Balahəsənli, Xıdırlı, Aşağı Cibikli, Yuxarı Cibikli, Xəliloba, Muradxanlı, Həkəri, İşıqlı, Xəndək, Məlikəhmədli, Qundanlı, Mahmudlu kəndləri daxildir.

Səthi, əsasən, dağlıqdır. Qarabağ yaylasının cənub-şərq qurtaracağı olan Yazı düzü (Bazarçay və Həkəri çayları arası) burada 450 *m*-ədək alçalır. Ərazidə Qarabağ silsiləsi maili və dalğalı İncə düzünə keçir. Yura-Antropogen çöküntüləri yayılmışdır. Əqiq və inşaat materialları yatağı var. İqlimi, əsasən, mülayim isti quru subtropikdir. Orta temperatur yanvarda -4°C-dən l°C-yədək, iyulda 14- 26°C-dir. İllik yağıntı 400-600 *mm*-dir. Çayları Bazarçay, Həkəri və onların qollarıdır. Əsasən, qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Əsas bitki örtüyü kollu və seyrək meşəli çəmənlərdir. Heyvanları: canavar, tülkü, boz dovşan, süleysin, oxlu kirpi, müxtəlif qumsiçanı və s. Quşları: boz kəklik, turac, qır-qovul, göyərçin və s. Qubadlı yasaqlığı rayonun ərazisindədir.

Qubadlı kənd təsərrüfatı rayonudur. Əsas təsərrüfatı tütünçülük, taxılçılıq, üzümçülük, baramaçılıq və heyvandarlıqdır.

Qubadlı qədim insan məskənlərindəndir. Bu ərazi arxeoloji cəhətdən kifayət qədər öyrənilməsə də buradakı təbii mağaralarda, sığınacaqlarda insan əlinin fəaliyyətinin izləri qalmaqdadır. Keçilməz qayalar, sərt sıldırımlar üzərində ucaldılan müdafiə istehkamları və keşikçi qalalarının qalıqları müasir dövrə qədər gəlib çatmışdır.

Qədim pirlər, ibadətgahlar bu yerlərdə hələ islamdan çox-çox qabaq daimi məskunlaşma yerlərinin mövcudluğunu göstərir. Bunu həm də tarixi bilinməyən qədim qəbiristanlıqlar, ayrı-ayrı yaşayış məskənləri yaxınlığından tapılmış maddi məişət nümunələri, əmək alətləri də təsdiq edir. Tapılmış maddi mədəniyyət nümunələri bu yerlərdə qədimdən əkinçilik və heyvandarlıqla məşğul olunduğunu göstərir.

Qubadlı şəhəri ərazisində aşkar olunmuş «Xırman yeri», Əliquluuşağı kəndində aşkar olunmuş «Qalaça», «Koroğlu qalası», Muradxanlı kəndi ərazisində «Mal təpə» abidələri mütəxəssislər tərəfindən son tunc, ilk dəmir dövrünə aid edilir.

Saray, Poladlı, Xocamsaxlı, Çardaxlı kəndləri ərazisində keçilməz sıldırım qayalar üzərində son dövrə qədər qalan istehkam qalaçalar ayrı-ayrılıqda VII-IX əsrlərə aid edilsə də, əslində bu istehkam qalaçalar b. e. ə. I yüzillikdə Atropatena və Albaniya dövlətlərini ayıran sərhəd boyunca vahid keşikçi-gözətçi məntəqələri sisteminin tərkib hissəsidir.

Ötən əsrdə Qubadlı dəfələrlə Erməni işğalçı qüvvələrinin hücumlarına məruz qalmışdır. (1915, 1918, 1920) Bu dövrdə bütövlükdə Zəngəzurla birlikdə Qubadlının kəndləri yandırılmış, dinc əhaliyə divan tutulmuşdur. Bununla belə bütün çətinliklərə və əzab-əziyyətlərə baxmayaraq hər dəfə işğalçı erməni qoşunları torpaqlarımızdan qovulmuşdur.

1988-ci ildən başlayaraq Ermənistanla (120 km) və Dağlıq Qarabağla (45 km) sərhəddə yerləşən Qubadlı rayonuna hər iki tərəfdən təcavüzkar hücumlar başlanmış, dinc əhaliyə qarşı terror törədilməsi sistemli şəkildə davam etdirilmişdir.

1993-cü il avqust ayının sonunadək davam edən 5 illik müharibə zamanı Qubadlı rayonundan 238 nəfər şəhid olmuşdur. Onlardan 9 nəfəri ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Laçın, Ağdam, Füzuli, Cəbrayıl rayonları işğal olunduqdan sonra faktiki yarımmühasirə vəziyyətinə düşən Qubadlı rayonu 1993-cü il avqust ayının 30-31-də erməni təcavüzkarı qüvvələrinin işğalına məruz qalmışdır. Rayonun 1,2 milyard ABŞ dollar dəyərində (1993-cü ilin qiymətləri ilə) şəxsi və ictimai mülkiyyəti erməni işğalçıları tərəfindən talan və məhv edilmişdir.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Qubadlı şəhəri və rayonun 41 kəndi işğaldan azad edilmişdir.

Qubadlı Azərbaycan tarixinə görkəmli şəxsiyyətlər vermişdir. Azərbaycanın xalq qəhrəmanlarından ikisi Qaçaq Nəbi, və Həcər Qubadlı rayonundandır.

Son əsrdə Azərbaycan elminə, hərb sənətinə, ədəbiyyatına sanballı töhfə vermiş, yüksək ad san qazanmış akademik Möhbalı Əmiraslanov, General Valeh Bərşadlı, Sosialist Əməyi Qəhrəmanı, xalq yazıçısı Süleyman Rəhimov Qubadlı torpağının yetirmələridir.

Azərbaycanın mədəni həyatında müəyyən yer qazanan ziyalıların yetişməsində hələ XIX əsrdən Qubadlıda açılan dünyəvi məktəbin böyük rolu olmuşdur. El arasında Həsən bəyin məktəbi adlandıran 2 sinifli rus-tatar məktəbi Qubadlıda 1882-ci ildə açılmışdır. (Həsən bəy əslən Qubadlıdandır, cavan yaşlarında dünyasını dəyişib).

İlk təhsilini rayonun məktəblərində alan yüzlərlə alim və tədqiqatçı, şair və yazıçı, müxtəlif sahələrin yüksək ixtisaslı mütəxəssisləri bu gün müstəqil Azərbaycan Respublikasının inkişafı və möhkəmləndirilməsi, qüdrətinin artırılması istiqamətində ümummilli liderimiz Heydər Əliyev cənablarının müəyyənləşdirdiyi strateji xəttin həyata keçirilməsi yolunda əllərindən gələni edir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

İşğaldan əvvəl rayonda kəndləri də əhatə edən mərkəzləşmiş yerli radio qovşağı vardı. Rayon qəzeti «Bərgüşad» nəşr olunurdu. Azərbaycan televiziyası ötürücü stansiyalar şəbəkəsinə daxil olan bir ötürücü stansiya mövcud idi.

«Bərgüşad» qəzetin fəaliyyəti 2004-cü ildən yenidən bərpa olmuşdur. Redaksiya Sumqayıt şəhərində yerləşir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən keçən dəmir yolu olmamışdır. Qubadlı ərazisində 151 km dövlət yolu vardır. Bunlar Həkəri-Laçın, Zəngilan-Qubadlı, Xanlıq-Qubadlı, Qubadlı-Gorus yollarıdır. Bu yollar 3-cü - 4-cü kateqoriyalı yollara aiddir

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Laləzar körpüsü, 1867-ci il;

Türbə, XVII əsr;

1 №-li türbə, XIV əsr;

2 №-li türbə, XIV əsr;

Xırman yeri-yaşayış yeri, Son tunc, ilk dəmir dövrü;

Koroğlu qalası, Son tunc, ilk dəmir dövrü;

Qalaca, Son tunc, ilk dəmir dövrü;

Sığınacaq, IV əsr;

Mal təpəsi, Son tunc, ilk dəmir dövrü;

Sığınacaq, IV əsr;

Sığınacaq, IV əsr;

Qara-Qaya sığınacağı;

Qəbiristanlıq, XIV əsr;

Mağara məbədi;

Mağara məbədi, IV əsr;

Bulaq, XIX əsr;

Bulaq;

"Qalalı" qalası;

"Qalalı" qalası (yeraltı keçidlə), V əsr;

Şirin bulaq;

Bulaq, XIX əsr;

Mədət bulağı, XIX əsr;

Məscid, XIX əsr;

Məscid, XIX əsr;

Hacı bədəl körpüsü, XIX əsr;

Cavanşir türbəsi, XIV əsr;

"Qalacıq" qalası;

Türbə, XVIII əsr;

Məscid, XVIII əsr;

Türbə, XVIII əsr;

Məscid, XVIII əsr;

Məscid, XVIII əsr;

Məscid, XVIII əsr;

Məscidin qalıqları, XV-XVI əsr;

Məbəd;

Məscid, XIX əsr;

Körpü, XIX əsr;

Daş qoyun fiquru, XV əsr;

Daş sandıq;

“Ağ hasar”;

“Pir”;

“Öyrətmə” daşı-inanc yeri;

Bulaq abidə, 1983;

Bulaq abidə, 1984;

Bulaq abidə, 1984;

Şəhidlər abidəsi (20 yanvar), 1990 fevral.

**Qeyd:** Ermənistanın işğalı nəticəsində Qubadlı rayonunun ərazisindəki tarixi-memarlıq və mədəniyyət abidələrinin hamısı dağıdılmışdır.

## Qusar rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,50 min kv. km**

**Əhalinin sayı – 102,3 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 68 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər -1**

**Kəndlərin sayı - 88**

**Qəsəbələrin sayı – 1**

**Qusar rayonu ilə Bakı arasında olan məsafə - 180 km**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Qusar rayonu** | 87857 | 100,0 | 43477 | 49,9 | 44380 | 50,1 |
| şəhər əhalisi | 18520 | 21,08 | 8982 | 20,66 | 9538 | 21,49 |
| kənd əhalisi | 69337 | 78,92 | 34495 | 79,34 | 34842 | 78,51 |

**Ümumi məlumat**

Azərbaycan Respublikasının şimal-şərqində yerləşən Qusar rayonu 1930-cu ildə təşkil olunmuşdur. 1929-cu ildə Quba qəzası ləğv olunaraq rayonlara bölünmüş və mərkəzi Hil kəndi olmaqla indiki Qusar rayonu yaradılmışdır. 1934-cü ildə rayon mərkəzi Qusara köçürülmüş və 1938-ci ildən bura şəhər statusu verilmişdir. Böyük Qafqazın şimal-şərq yamacındadır. Şimal-qərbdə Rusiya Federasiyası ilə həmsərhəddir. Mərkəzi Qusar şəhəridir.

Rayona Qusar şəhəri, Samur qəsəbəsi və Qayakənd, Aşağı Ləgər, Yuxarı Zeyxur, Yuxarı Tahircal, Əniq, Hil, Yasab, Yeni Tahircal, Avaran, Xürəl, Əcəxur, Böyük Muruq, Əcəxuroba, Bala Qusar, Bədirqala, Həsənqala, Köhnə Xudatqazmalar, Gədəzeyxur, Bədişqala, Gündüzqala, Gilah, Xuluq, Nəcəfkənd, Aşağı Qələnxur, Gilahoba, Hacatala, Nəcəfkəndoba, Düztahir, Gican, Zindanmuruq, Kuzun, Caqar, Çətgün, Laza, İmamqulukənd, Aşağı İmamqulukənd, Suduroba, Qalacıq, Yeni Həyat, Ləngi, Minaxür, Köhnə Xudat, Əvəcük, Kuzunqışlaq, Zindanmuruqqışlaq, Atlıxan, Cağarqışlaq, Avaranqışlaq, Mucuq, Ukur, Əlix, Yerği Kek, Palasa, Çiləgir, Urvaoba, Həzrə, Girik, Ləcət, Xuray, Suvacal, Mucuğoba, Uzuntaxta, Sudur Palasa, Yuxarı Ləgər, Şirvanovka, Qullar, Kufoba, Üzdənoba, Salahoba,

Torpaqkörpü, Qaratoba, Zuxuloba, Mucuqoba, Zuxul, Yuxarı Qələnxur, Quxuroba, Çubuqlu, Əniqoba, Xuluqoba, Hiloba, Ləgərqışlaq, Yasaboba, Gicanoba, Piral, Cibir, Sudur, Quturğan, Kənarçay, Quxur, Arçan kəndləri daxildir.

Qusar rayonunun cənub-qərb hissəsi dağlıq (Baş Qafqaz silsiləsinin şimal-şərq yamacı, Yan silsilə), mərkəzi maili düzənlik (Qusar maili düzənliyi), şimal-şərq kənarı ovalıqdır (Samur-Dəvəçi ovalığı). Rayonun cənub-qərb sərhədi Baş Qafqaz silsiləsinin suayrıcından keçir. Ərazisinin hünd. 100 *m*-dən (ovalıqda) 4466 *m*-ədəkdir (Bazardüzü dağı). Heydər zirvəsi də (3755 *m)* buradadır. Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıqda soyuq və rütubətlidir. Orta temperatur yanvarda yüksək dağlıqda -14°C, düzənlikdə 1°C, iyulda müvafiq olaraq 2°C və 24°C-dir. İllik yağıntı 350-1500 *mm*-dir. Çayları (Qusar və Samur) Xəzər dənizi hövzəsinə aiddir. Torpaqları, əsasən, çimli dağ-çəmən, qonur dağ-meşə, tipik və karbonatlı dağ-meşə, qəhvəyidir. Dağlıq sahənin əsas bitki örtüyü alp və subalp çəmənləridir. Maili düzənlikdə enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs və s.), çəmən və kolluqlar geniş sahə tutur. Heyvanları: dağkeçisi, köpgər, ayı, canavar, vaşaq, meşə pişiyi, daşlıq dələsi, meşə dələsi və s. Quşları: ular, tetra quşu, göyərçin və s. Rayonda Qusar yasaqlığı yaradılmışdır.

Qusar mühüm kənd təsərrüfatı - bitkiçilik (taxılçılıq, tərəvəzçilik, kartofçuluq, meyvəçilik), heyvandarlıq (maldarlıq, qoyunçuluq) və quşçuluq rayonudur.

Rayon daxilində ən qədim dövr çöküntülərinin (Tahircal çayının yuxarı orta axınlarında) yaşı 135-145 milyon ilə çatır.

Qusar toponiminin mənşəyi haqqında müxtəlif mülahizələr mövcuddur.

M. M. İxilov «Narodı lezginskoy qruppı» əsərində bu toponimin ləzgi dilində «Allah» mənasında işlənən ğutsar sözündən törəndiyini göstərib.

Qusar coğrafi obyekt adının rus dilində vaxtilə «macar forması geymiş süvari əsgər» mənasında işlənmiş «qusar» sözü ilə bağlı olması haqqında mülahizə də mövcuddur. Fərziyyəyə görə Rusiyada 1783-1784-cü illərdə təşkil edilmiş Qusar Süvari alayı Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra rayon ərazisində yerləşdirilmiş və həmin yer bu qoşun növünün adı ilə adlandırılmışdır.

Digər bir mülahizəyə görə Qusar qus/quz (qədim türk tayfasının adı) və ar (adam, kişi, ər) hissələrindən formalaşmış və quzlardan olan kişi, ər mənasında işlənmişdir.

Qusar sözünə A. Bakıxanovun «Gülüstani-İrəm» əsərində də rast gəlinir. Əsərdə 1602-ci ildə baş vermiş hadisələrdən bəhs edən hissədə Qusar kəndinin adı çəkilir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonun mətbu orqanı olan «Qusar» qəzeti müxtəlif adlarla («Sosializm tempi», «Qızıl Qusar») 1932-ci ildən nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Qusar rayonu ərazisindən II və III dərəcəli, ümumi uzunluğu 67 km olan respublika əhəmiyyətli, ümumi uzunluğu 359 km olan rayon əhəmiyyətli avtomobil yolları keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Qusar rayonu ərazisində həyatın e. ə. II minillikdən etibarən mövcud olması güman edilir. Burada mövcud olan qədim yaşayış məskənləri kimi e. ə. I minilliyə aid Mahmudtəpə (Gədəzeyxur), Minsar təpələri, Gövduşan təpələri (Bədirqala), tunc dövrünə aid Qəflə təpələri, orta əsrlərə aid Qızılgül və Ağaxan təpələri (Aşağı Ləyər), Qələxur təpələri (Həzrə) və sairlərini göstərmək olar.

Rayon ərazisində bir sıra tarixi abidələr də mövcuddur. Rayonun Əniğ kəndində XIII əsrə aid qala divarlarının qalıqları, Həzrə kəndindəki 1460-cı ildə Şirvanşah I Xəlilullahın qoşunları ilə vuruşmada həlak olaraq burada dəfn olunmuş Ərdəbil şeyxi Şeyx Cüneydin qəbri üzərində 1544-cü ildə tikilmiş türbə, XVIII əsrə aid Köhnə Xudat, Xuray, XIX əsrə aid Hil, Gündüzqala və Həsənqala kənd məscidləri bu günədək mühafizə edilən qədim tarixi abidələrdəndir.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Laçın rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,84 min kv. km**

**Əhalinin sayı - 75,7 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 41 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 125**

**Qəsəbələrin sayı – 1**

**Laçın rayonu ilə Bakı arasında olan məsafə - 414 km**




**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Laçın rayonu** | 69087 | 100,0 | 34332 | 50,0 | 34755 | 50,0 |
| şəhər əhalisi | 11690 | 16,90 | 5802 | 16,90 | 5888 | 16,94 |
| kənd əhalisi | 57397 | 83,08 | 28530 | 83,10 | 28867 | 83,06 |

**Ümumi məlumat**

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər rayonu, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, cənubdan Qubadlı, qərbdən isə Ermənistan Respublikası ilə həmsərhəddir.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili ilə əlaqədar Şuşa qəzası ləğv olunmuş və əvəzində Ağdam qəzası təşkil edilmişdir.

1923-cü ildə Respublika Mərkəzi İcraiyyə Komitəsinin qərarına uyğun olaraq Qubadlı, Kəlbəcər və Laçın torpaqları vahid qəza halında birləşdirilərək Kürdüstan qəzası yaradılmışdır. Qəza mərkəzi əvvəlcə Pircahan, sonra Minkənd, daha sonra isə Laçın təsdiq edilmişdir.

Laçın şəhərinin yerini Tağı Şahbazi Simurğ seçmiş və bu adı da ona o özü vermişdir.

Laçın rayonu 1930 ildə təşkil edilmişdir. Respublikanın cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Mərkəzi Laçın şəhəridir.

Rayona Laçın şəhəri, Qayğı qəsəbəsi və Ağbulaq, Alxaslı, Əhmədli, Hacılar, Güləbird, Cağazur, Quşçu, Minkənd, Mirik, Mişni, Sadınlar, Şeylanlı, Ağcakənd, Arduşlu, Ağcayazı, Aşağı Fərəcan,

Fərəcan, Bozlu, Qalaca, Bülündüz, Ayıbazar, Birinci İpək, Vaqazin, Bozgüney, Kalafalıq, Hacıxanlı, Qovuşuq, Budaqdərə, Hoçaz, Mollalar, Uludüz, Avazlar, Daşlı, Vəlibəyli, Narışlar, Hətəmlər, Kaha, Cicimli, Aşağı Cicimli, Qazıdərə, Zabux, Sus, Qızılca, Bəylik, İrçan, Çəmbərxaç, Xumarta, Qarabəyli, Lələbağırlı, Korcabulaq, Zerti, Xırmanlar, Ağbulaq, Birinci Tığik, İkinci Tığik, Qarıqışlaq, Soyuqbulaq, Qılıçlı, Zeyvə, Köhnəkənd, Qışlaq, Əyrik, Alıcan, Qozlu, Fingə, Qorçu, Zağaaltı, Qoşasu, Alpout, Bülövlük, Kürdhacı, Ərikli, Hacısamlı, Qarasaqqal, Kamallı, Çıraqlı, Qarakeçdi, Katos, Malxələf, Mazutlu, Məlikpəyə, Malıbəy, Ağoğlan, Hüsülü, Ziyrik, Mığıdərə, Dəyirmanyanı, Tərxanlı, Dəyhan, Baldırğanlı, Oğuldərə, Ağalaruşağı, Pircahan, Seyidlər, Əliqulu, Qaraçanlı, Piçənis, Xaçınyalı, Köhnə Corman, Sonasar, Mayıs, Təzəkənd, Haqnəzər, Ərdəşəvi, Səfiyan, Xanalılar, Suarası, Türklər, Fərraş, Nurəddin, Fətəlipəyə, Ağanus, Unannovu, Ərəb, Turşsu, Şəlvə, İmanlar, Dambulaq, Şamkənd, Ələkçi, Bozdağan, Çorman, Nağdalı, kəndləri daxildir.

Səthi dağlıqdır. Rayonun şərq hissəsi Qarabağ silsiləsinin cənub-qərb yamacında, şimalı Mıxtökən silsiləsinin cənub-şərq yamacında, cənub-qərbi Qarabağ yaylasındadır. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594 *m).* Yura-Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: civə, polimetal, tikinti materialları və s. Narzan tipli mineral bulaqları var. Ərazinin çox yerində qışı quraq keçən mülayim isti və soyuq iqlim üstündür. Orta temperatur yanvarda -10°C-dən 0°C-yədək, iyulda 10-22°C-dir. İllik yağıntı 600-900 *mm*-dir. Çayları Həkəri və onun qollarıdır. Əsasən, çimli dağ-çəmən, qəhvəyi dağ-meşə və karbonatlı dağ-qara torpaqları yayılmışdır. Bitki örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs, fıstıq), sub-alp və alp çəmənliklərindən ibarətdir. Heyvanları: qayakeçisi, cüyür, çöldonuzu, sincab, süleysin, çölsiçanı və s. Laçın yasaqlığı təşkil edilmişdir.

Laçın şəhərinin böyüyüb inkişaf etməsində ilk addımları Tağı Şahbazi Simurğ, Hüsü Hacıyev, İsmayıl Şərifov, Canbaxış Abdullayev və onlarca başqaları atmış, onların çox böyük fədakar xidmətləri olmuşdur.

İkinci dünya müharibəsi illərində 3660 nəfər Laçın rayon sakini cəbhəyə yollanmış, onlardan 2426 nəfəri geri qayıtmamışdır.

Şose yol Laçına 1950-ci illərin əvvəllərindən çəkilməyə başlamışdır.

Respublikanın paytaxtı Bakı şəhəri ilə şose yolla ara məsafəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə ara məsafəsi isə 60 km olmuşdur.

1962-ci ildən sonra isə əvvəlcə şəhərin, sonra isə kəndlərin elektrikləşdirilməsi, radiolaşdırılması və telefon xətlərinin çəkilişi işinə başlanmışdır.

Rayonun cəmi torpaq sahəsi 166488 hektar olmuşdur ki, ondan da 75781 hektarı kənd təsərrüfatına yararlı, 12102 hektarı isə əkin yeri idi. Həmin torpaqlardan 1515 hektarı sututar torpaqlardan ibarət idi.

Rayon ərazisinin 927 hektarını həyətyanı, 33205 hektarını meşə, 72000 hektarını yaylaq sahələri təşkil edirdi.

Rayonun iqtisadiyyatının əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin «Dağ rayonlarının iqtisadiyyatını daha da yüksəltmək tədbirləri haqqında», «Laçın rayonu zəhmətkeşlərinə mədəni-məişət xidmətlərini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» 16 noyabr 1971-ci il və Azərbaycan KP MK-nın bürosunun «Laçın şəhərinin 50 illiyi barədə» 6 avqust 1974-cü il tarixlərdə qəbul olunmuş qərarlar rayonun sosial-iqtisadi və mədəni həyatının, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına çox böyük güclü təkan vermiş, təsərrüfatların maddi-texniki bazası xeyli möhkəmlənmiş, orta məktəb məzunlarının güzəştlə ali məktəblərə qəbuluna xüsusi yer verilmişdir. Şəhər və kəndlər abadlaşdırılmış, şəhərlərdə 1000 nömrəlik avtomat-telefon, televiziya ötürücüsü stansiyaları qurulmuş, bütün kəndlər başdan-başa telefonlaşdırılmış, radiolaşdırılmış, elektrikləşdirilmiş, Laçın şəhərinə və rayonun 53 kəndinə təbii qaz çəkilmişdir.

Ulu öndərimizin diqqət və qayğısı sayəsində onlarla təhsil, mədəniyyət, məişət, səhiyyə obyektləri, heyvandarlıq kompleksləri və sair sosial-mədəni və kənd təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir. Kəndlərə şose yollar çəkilmiş, Şuşa-Laçın yolu əsaslı surətdə yenidən tikilmiş, asfalt zavodları, daş karxanaları, əhəng, pemoksol, yerli sənaye, toxuculuq sexləri istifadəyə verilmiş, Sumqayıt Alüminium və maşınqayırma zavodlarının, Bakı 1№-li tibb texnikumunun filialları açılmış, mərmər yataqları istifadəyə verilmiş, ticarət, ictimai-iaşə, mədəniyyət, rabitə və kommunal xidmətlərin şəbəkələri xeyli genişləndirilmişdir.

1992-ci ilin mayın 18-də Laçın rayonu xəyanətin qurbanı olmuş və erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Laçının işğalı ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.

264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır.

2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə imzaladıqları bəyanata əsasən dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda yerli «Laçın» qəzeti və radio verilişləri qovşağı fəaliyyət göstərirdi.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Dağlıq Qarabağı Ermənistan Respublikasının Gorus rayonu ilə birləşdirən Respublika əhəmiyyətli şose yolun uzunluğu Laçın şəhərindən Gorus rayonuna kimi 54 km, Şuşa rayonuna isə 40 km, cəmi 94 km-dir.

Respublika əhəmiyyətli Laçın-Qubadlı yolu 77 km-dir.

Rayon üzrə cəmi 2130 km uzunluğunda Respublika və yerli əhəmiyyətli yol, 92 ədəd körpü vardır.

Respublikanın paytaxtı Bakı şəhəri ilə şose yolla ara məsafəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə 60 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Laçın rayonu Azərbaycan Respublikasının qərbində Ermənistanla sərhəddə yerləşir. Rayonda bir şəhər, bir qəsəbə və 125 kənd vardır. Rayonun ərazisində 200-ə yaxın tarixi, mədəniyyət və memarlıq abidələri, onlarla kurqan, qala tipli arxeologiya baxımından faydalı olan abidələr, çoxlu sayda qəbirüstü abidələr, stellalar, at, qoç fiqurları, süjetli daşlar, eləcə də bu ərazi çoxlu təbii sərvətləri, qiymətli mineral suları ilə zəngindir.

Bu ərazidə olan abidələrin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Alimlərimizin verdiyi məlumata əsasən bu ərazidə olan Qafqaz Albaniyası dövrü abidələrinin bir çoxu bizim eranın xristianlıqdan əvvəlki dövrünə aiddir.

Bu yerlərin mürəkkəb relyefi, sərt iqlimi bir çox çay keçidlərində, yolların keçilməz hissələrində körpülərin inşasına səbəb olmuşdur. Onlar əsasən birtağlı və yaxud ikitağlı körpülərdir.

Rayonun ərazisində aşağıda adları çəkilən abidələr rayon ərazisində olan abidələrin yalnız 70%-ə qədərini təşkil edir.

1. Abdallar (Bəylik) kənd ərazisində: Həkəri çayı üzərində körpü XVIII əsr, daş qutu-dəmir dövrü, qəbiristanlıq.

2. Zabux kəndi ərazisində: Sümüklü qəbiristanlığı, XVI əsrə aid Xallanlı qəbiristanlığı.

3. Malıbəy kəndi ərazisində: qədim qəbiristanlıq.

4. Kosalar kəndi ərazisində IX əsrə aid Ağoğlan qəsri, qədim qəbiristanlıq.

5. Soltanlar (Hüsülü) kəndi ərazisində: 1761-ci ilə aid Soltan Əhməd sarayı, XIV əsrə aid qədim qəbiristanlıq.

6. Zeyvə kəndi ərazisində Soltanbaba türbəsi, Şeyx Əhməd türbəsi, Türbə, qədim qəbiristanlıq.

7. Qaraqışlaq kəndi ərazisində XI əsrə aid məscid, Dəmirovlu Pir-Məbəd.

8. Sadınlar kəndinin mərkəzində XVII əsrə aid məbəd.

9. Hacılar kəndi ərazisində: qədim qəbiristanlıq, bulaq (abidə).

10. Vağazin kəndi ərazisində məbəd.

11. Quşçu kəndi ərazisində XV əsrə aid Uşaq qalası, böyük Bulaq, Korca bulaq, Sadınlar qalacığı.

12. Mirik kəndi ərazisində XV əsə aid qala, məbəd.

13. Bozlu kəndi ərazisində qəbiristanlıq, Xaçın yalı ərazisində XV əsrə aid Xaçın daşı.

14. Əhmədli kəndi ərazisində XVII əsrə aid məbəd «Vəng» qəbiristanlığı.

15. Minkənd kəndi ərazisində XV əsrə aid Minkənd çayı üzərində ikitağlı, Abaxeyir ərazisində bir tağlı körpü. Məbəd.

16. Şeytanlı kəndi ərazisində Birtağlı körpü.

17. Qaragöl ərazisində məscid, qəbiristanlıq.

18. Hoçaz kəndi ərazisində mağara, məbəd.

19. Soyuqbulaq kəndi ərazisində Bulaq (abidə), Məbəd.

20. Zabux kəndi ərazisində körpü (1988-ci ildə dağıdılıb).

21. Güləbird kəndi ərazisində XV əsrə aid Qız qəbri abidəsi, dəmir dövrünə aid Kurqan, Qız qəbri (kurqan), orta əsrə aid Qədim qəbiristanlıq, Bayatı ustadı Sarı Aşığın qəbri.

22. Cicimli kəndi ərazisində XVI əsrə aid Məlik Əjdər türbəsi, XVII-XVIII əsrlərə aid türbə, orta əsrlərə aid Çoban daşı və qədim qəbiristanlıq.

23. Malxələf kəndi ərazisində XVII əsrə aid Xəlifə türbəsi, qədim qəbiristanlıq. Sınıq körpü.

24. Aşağı Fərəcan kəndi ərazisində X əsrə aid məbəd, Fərəcan Güləbird yolunda körpü, qədim qəbiristanlıq.

25. Sus kəndi ərazisində XVII əsrə aid bulaq.

26. Seyidlər kəndi ərazisində XVII əsrə aid bulaq, qədim qəbiristanlıq, Pircançay üzərində qədim körpü.

27. Pircahan kəndi ərazisində XVII əsrə aid bulaq, XI əsrə aid Qovur qalası.

28. Korcabulaq kəndi ərazisində məbəd.

29. Ziyrik kəndi ərazisində dəmir dövrünə aid Rizvan meşəsində kurqan.

30. Ərikli kəndi ərazisində XVI əsrə aid Qarasaqqal türbəsi, araxışda türbə və qədim qəbiristanlıq.

31. Piçəniş kəndi ərazisində məbəd.

32. Şəlvə kəndi ərazisində məbəd.

33. Qorçu kəndi ərazisində məbəd.

34. Laçın şəhərində (1941-1945-ci illər) Böyük Vətən müharibəsində həlak olanların xatirə kompleksi.

1924-cü ildən sonra rayonda inşa olunmuş körpülər, bulaqlar, abidələr və abidə kompleksləri və s.

**Qeyd:** Ermənistan silahlı qüvvələrinin işğalı zamanı rayonda mövcud olan bu tarixi, mədəni və dini abidələr dağıdılmışdır.

# Lerik rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,08 min kv. km**

**Əhalinin sayı – 86,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 80 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 161**

**Lerik rayonu ilə Bakı arasında olan məsafə - 323 km**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Lerik rayonu** | 74522 | 100,0 | 36851 | 49,8 | 37671 | 50,2 |
| şəhər əhalisi | 7301 | 9,80 | 3603 | 9,78 | 3698 | 9,82 |
| kənd əhalisi | 67221 | 90,20 | 33248 | 90,22 | 33973 | 90,18 |

**Ümumi məlumat**

1938-ci ilədək Zuvand rayonu adlandırılmışdır. Mərkəzi Lerik şəhəridir.

Lerik rayonunun ərazisi Talış silsilə dağlarının əhatəsindədir. Cənub və cənub-şərqdə İran İslam Respublikası, cənub-qərbdə Yardımlı, şimal-şərqdə Lənkəran, şimal-qərbdə Masallı, cənub-şərqdə Astara rayonları ilə həmsərhəddir.

Rayona Lerik şəhəri və Hıramo, Orand, Bilabənd, Sinəbənd, Lüləkəran, Osnağaküçə, Xəlfəküçə, Ambu, Barzavu, Bürsülüm, Ləkər, Vov, Vənədi, Nosovyədi, Zeynəko, Bobla, Əncəqov, Veri, Babaküçə, Axunahiran, Küsəkəran, Əliabad, Qələbin, Vizəzəmin, Cəngənəvud, Körnədi, Qıncvo, Spyereqon, Peştətük, Təbrizli, Almu, Bibiyoni, Hamar-meşə, Şifəkəran, Haran, Qosmalyan, Həveri, Tatoni, Şonacola, Divağac, Çökərə, Digah, Lələkəran, Qələsər, Hivəri, Dəstər, Dızdipok, Hamarat, Bradi, Kirəvud, Ordahal, Ərdəbilə, Boykəndil, Aran, Lələdulan, Musavar, Burğu, Livədirgə, Qədimküçə, Nüsomurya, Yuxarı Bilnə, Əvilə, Murya, Mastail, Mistan, Digov, Digovdərə, Pirəsora, Xəlifəkənd, Qələbin, Rəzgov, Monidigah, Pendi, Jindi, Nisli, Həzovi, Noda, Bilnə, Günəşli, Babagil, Nüvədi, Rəzəvül, Vistən, Qırxıncı km, Brkandul, Nücü, Lərmərud, Vamazqon, Davidonu, Naftonu, Nüravud, Zərdəbərə, Soruşçay, Köhnə

Orand, Osyedərə, Bülüdül, Xanəgah, Gəndov, Bilavər, Şivlə, Keskon, Kekonu, Pirəsora, Büzeyir, Siyov, Akuşapeştə, Xəlifəhonu, Hovil, Qılqlov, Zardoni, Təndül, Nisə, Dico, Davaradibi, Nücü, Tikəbənd, Coni, Vıjaker, Qışlaq, Tülü, Hübi, Loda, Qəvoy, Yuxarı Velik, Çayrud, Andurma, Piyəkücə, Rvarud, Anzovlu, Təngəbin, Şingədulan, Durğan, Laman, Koman, Ağqışlaq, Zenoni, Cəngəmiran, Pirzəkücə, Züvüc, Arta, Çeşman, Zövnə, Əliabad, Camanşəir, Kürdəsər, Soru, Kələxan, Aşağı Amburdərə, Gövdərə, Hilədərə, Hüseynabad, Xocadoy, Kəlvəz, Qışlaq, Məhləabad, Yuxarı Amburdərə, Piran, Qışlaq, Zərigümaco, Molalan, Sorus kəndləri daxildir.

Lerik rayonu Talış, Peştəsər və Burovar silsilələrinin bir hissəsini və Zuvand çökəkliyini əhatə edir. Ən yüksək zirvələri Talış silsiləsindəki Kömürköy (2492 *m)* və Qızyurdudur (2433 *m)*. Əsasən, Paleogenin vulkanogen-çökmə süxurları yayılmışdır.

Yayı quraq keçən mülayim isti iqlim üstündür. Orta temperatur yanvarda -4°C-dən l°C-yədək, iyulda 12-22°C-dir. İllik yağıntı 300-800 *mm*-dir. Əsas çayları Lənkəran və Şərətükdür. Dağ-sarı, qonur dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Bitki örtüyü kollu və seyrək meşəli çəmənlərdən və dağ meşələrindən (palıd, vələs, fıstıq) ibarətdir. Heyvanları: tülkü, çaqqal, canavar, ayı, meşəpişiyi, süleysin və s. Zuvand Dövlət Təbiət Yasaqlığının bir hissəsi Lerik rayonu ərazisindədir.

Qədim tarixə malik olan Lerik rayonu ərazisində daş dövrünə aid olan əşyalar tapılmışdır. Büzeyir mağarası Azərbaycan ərazisində daş dövrünə aid olan ən qədim yaşayış məskənlərindəndir.

XVIII-XIX əsrlərdən başlayaraq məşhur fransız arxeoloqu Jak de Morqan, K. Şaffer və qardaşı Henri ilə apardığı arxeoloji qazıntı zamanı buranı «arxeoloji cənnət» adlandırmış, qiymətli tarixi eksponatları aparmışdır.

Görkəmli arxeoloq H. Hümmel Lerikdə tapılan maddi-mədəniyyət nümunələrini neolit (yeni daş) dövrünə aid etməklə Azərbaycan paleolit dövrü adamlarının Lerik ərazisində məskunlaşmasını təsdiq edir.

Arxeoloq, professor Əsədulla Cəfərov Lerik rayonu ərazisində elmi tədqiqat işləri aparmış, ilk dəfə olaraq Büzeyir mağarasında orta paleolit dövrünə dair qədim insan düşərgəsi aşkar etmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Respublika televiziyası və radiosunun proqramlarının yayımına xidmət edən Barzavu teleötürücü stansiyası bütün cənub regionuna xidmət edir.

Rayonda «Lerik» qəzeti fəaliyyət göstərir. Çox az tirajla, ayda bir dəfə nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

1. Respublika əhəmiyyətli avtomobil yolları - 68 km, III kateqoriyalı.

O cümlədən:

asfalt-beton - 54 km

qara örtüklü - 3 km

çınqıl örtüklü - 11 km

2. Yerli əhəmiyyətli avtomobil yolları - 550,5 km, IV-V kateqoriyalı.

O cümlədən:

asfalt beton - 3 km

qara örtüklü - 27 km

çınqıl örtüklü - 316 km

qrunt yollar - 204,5 km

Rayon ərazisindən dəmir yolu keçmir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Lerik rayonu ərazisində 134 tarixi abidə, türbə, ziyarətgah qeydə alınmışdır. Bunların dördü ölkə əhəmiyyətlidir və ciddi qorunur. Son illər iki türbə - Babagil və Mir Məryəm ziyarətgahları ictimaiyyətin köməyi ilə təmir edilmişdir.

Rayonun Mistan, Cəngəmiran, Hiveri, Veri, Şingədulan, Əvilə, Vistan, Nüvədi, Orand, Babagil, İyov və s. kəndlərindəki qəbiristanlıqlar Sənduqələr, qoç fiqurları, insan başına bənzər heykəllər, küp qəbirlərlə zəngindir.

Qalalar Lerikin nadir tarixi abidələrindəndir. Bunlar mühafizə məqsədilə tikilmişdir.

Qız qalası Kekonu kəndi yaxınlığındadır. Yerdən hündürlüyü 150 metrə çatır. Qalanın zirvəsinə çıxmaq yalnız bir tərəfdən mümkündür. Zivəsində bürclər var.

Oğlan qalası Qız qalasının yaxınlığında yerləşir. Qız qalasından bir vaxtlar saxsı borularla Oğlan qalasına boru çəkilib. Abidənin tarixi hələ mükəmməl öyrənilməmişdir.

Rayonun ayrı-ayrı kəndlərində 30 türbə qeydə alınmışdır. Babagil türbəsi (XIV-XVI əsrlər) Lerik-Lənkəran yolu üstündədir, ölkə əhəmiyyətli tarixi abidədir. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Babagil böyük nüfuza malik müdrik bir şəxsiyyət olub və burada dəfn olunub.

Xoca Seyid türbəsi XIV əsrə aid tarixi abidədir. Xanagah kəndində yerləşir və ətrafında nadir ağaclar bitmişdir. Türbədə yazılı daşlar qorunur.

Lənkəran kəndində məscid XIX əsrə aid tikintidir. Divarları qırmızı kərpicdən hörülmüşdür. Üstünə qımızı kirəmit vurulmuşdur. Məsciddəki minbər qoz ağacından hazırlanmış nadir əl işdir. Məscid ölkə əhəmiyyətli abidə kimi ciddi mühafizə olunur.

Büzeyir mağarası qədim insan məskənidir. Burada insanlar e. ə. çox-çox əvvəl yaşamışdır. İndinin özündə də qışlaqdan yaylağa qayıdan çobanlar bəzən sürünü burada saxlayıb «daş çarpayılar»da gecələməli olurlar.

Mistan kəndindəki mağara dəniz səviyyəsindən 1300-1400 m hündürlükdədir. Talış dağlarının cənubunda, Ərdəbilə gedən yolun üstündədir. Kahada əşyaları qoymaq üçün yerlər də var.

Rayonda olan tarixi memarlıq incəsənət abidələri rayon mədəniyyət şöbəsi tərəfindən qorunur.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Lənkəran rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,54 min kv. km**

**Əhalinin sayı - 227,5 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 148 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər – 2**

**Kəndlərin sayı - 83**

**Qəsəbələrin sayı – 8**

**Lənkəran rayonu ilə Bakı arasında olan məsafə - 268 km**

**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Lənkəran rayonu** | 205726 | 100,0 | 102195 | 49,7 | 103531 | 50,3 |
| şəhər əhalisi | 82807 | 40,25 | 40347 | 39,48 | 42460 | 41,01 |
| kənd əhalisi | 122919 | 59,75 | 61848 | 60,52 | 61071 | 58,99 |

**Ümumi məlumat**

Respublikanın cənub-şərqində Xəzər dənizi sahilində yerləşir. Mərkəzi Lənkəran şəhəridir.

Rayona Lənkəran, Liman şəhərləri, Nərimanabad, Gərmətük, Hirkan, Aşağı Nüvədi, Haftoni, İstisu, Balıqçılar qəsəbələri və Boladı, Şağlaser, Cil, Xarxatan, Gəgiran, Diryan, Tüədo, Köhnəgəgir, Girdəni, Havzava, Vilvan, Kərgəlan, Lüvəsər, Darquba, Mamusta, Daştalığcar, Xolmili, Şıxəkəran, Səpnəkəran, Yuxarı Nüvədi, Mikolan, Şürük, Tütəpəştə, Türkəkəravı, Biləsər, Alazəpin, Aşağı Apu, Rvo, Narbağı, Əşlə, Mollakənd, Qrumba, Təngivan, Zövlə, Tükəvilə, Vel, Veravul, Göyşaban, Osakücə, Tatoba, Pambahi, Sinovli, Moloja, Bəliton, Türkəncil, Şağlakücə, Bəlləbur, Sütəmurdov, Şilavar, Digah, Ləj, Talışlı, Kosalar, Kənarmeşə, Şilim, Küvənil, Viyən, Qumbaşı, Bürcəli, Sərinbulaq, Parakənd, Bala Şürük, Velədi, Moğonojoba, Rəzvan, Şivlik, Qodəsə, Səbir, Haftaruon, Xanlıqlı, Şovu, Separadi, Siyablı, Siyavar, Səpnəkəran, Şirinsu, Ürgə, Günəhir, Jidi, Horavenc, Daştatük, Seliqavol, Vıy, Xanbulan kəndləri daxildir.

Azərbaycanın ən gözəl guşələrindən biri olan Lənkəran respublikanın cənub-şərqində əlverişli fiziki coğrafi şəraitdə yerləşir. Lənkəran Azərbaycan Respublikası daxilində mövcud olan beş təbii coğrafi

vilayətdən biridir. Lənkəranın ərazisi $38^0$24-$39^0$24 şimal və $47^0$58 şərq coğrafi en dairəsində yerləşir, şimaldan Kür-Araz ovalığı, şərq və cənub-şərqdə Xəzər dənizi ilə hüdudlanmışdır. İnzibati baxımdan Lənkəran Astara, Masallı, Lerik inzibati rayonları ilə əhatə olunmuşdur. Relyefinə görə ərazisi əsasən düzənlik və müəyyən qədər dağlıq hissədən ibarət olmaqla cənuba doğru getdikcə ensizləşir. Hündür dağətəyi sahədə 200 metr hündürdə, Xəzər dənizi sahilində okean səviyyəsindən 28 metr aşağıda yerləşir.

Lənkəranın iqlimi rütubətli, subtropikdir. Bu iqlim qışı mülayim, yayı quraq keçən, isti və payızı çox yağıntılı olması ilə fərqlənir. Günəş radiasiyası 125-134 kkal/$sm^2$ çatır. Havanın orta illik hərarəti 25,$1^0$ C-dir. Ən isti ay iyul ($40^0$C), ən soyuq ay isə yanvardır (3-$4^0$C). Yağıntının illik miqdarı 1400-1600 mm-dir. Rütubətli, subtropik şəraitinə görə ərazidə sarı torpaqlar geniş yayılmışdır. Lənkəranın iqlim şəraiti ərazinin bir sıra özünəməxsus cəhətləri ilə fərqlənir. Vilayətin şərq və cənub-şərq qurtaracağının Xəzər dənizi ilə sərhədlənməsi və cənubda dağlıq ərazilərin kəskin şəkildə sahilboyu zolağa enməsi Xəzərin üzərindən gələn su buxarının kondensasiyası üçün əlverişli şərait yaratmışdır.

Lənkəran çay şəbəkəsinin nisbətən sıx olması ilə digər regionlardan fərqlənir. Lənkəranın böyük çayları Lənkərançay, Veravulçay, Boladıçay və digər çaylar yağış, qar, yeraltı sular ilə qidalanır və Xəzər dənizinə tökülür. Çaylar yaz və payız fəsillərində gur axır. Çayların suyundan suvarmada istifadə etmək üçün Xanbulançay su anbarı və suvarma şəbəkələri yaradılmışdır.

Lənkəran özünün təbii ehtiyatları ilə zəngindir. Ərazisi çay daşı, qum, gil, çınqıl, Xəzərin sahillərində balıqqulağı çöküntüləri ilə örtülmüş, Talış dağlarında isə vulkan mənşəli suxurlar yayılmışdır. Rayonda müalicəvi əhəmiyyətli termal və mineral su mənbələri mövcuddur ki, həmin sulardan müalicə məqsədi ilə istifadə olunur.

Lənkəran rütubətli subtropik iqlim qurşağında yerləşir. Bu iqlimin ərazidəki torpaq tiplərinin yaranmasında mühüm rolu olmuşdur. Rayonun ərazisində aşağıdakı torpaq tipləri vardır: qırmızı torpaq, sarı torpaq, podzollaşmış sarı torpaq, bataqlıq torpaqları. Torpağın qırmızı və sarı olması onların tərkibində dəmir birləşmələrinin olması ilə əlaqədardır. Qırmızı torpaqlar ağır gillicəli və gilli mexaniki tərkibə malik olmaqla fizioloji turş xassəlidir. Bu torpaqlarda əsasən sitrus və tərəvəz bitkiləri becərilir.

Lənkəran rayonu ərazisində 22675 hektar təbii meşə sahəsi və 850 hektar meşə fonduna daxil olmayan yaşıllıqlar mövcuddur. Meşələr I qrup meşələr olmaqla dağlıq və dağətəyi ərazilərdə yerləşir. Zəngin bitki örtüyünə malikdir. Meşə örtüyünün əsasını Qırmızı kitaba daxil edilmiş ağac və kol cinsləri təşkil edir. Zəngin flora və faunası ilə məşhur olan Hirkan Milli Parkı və Qızılağac qoruğu Lənkəranın zəngin təbiət muzeyidir.

Lənkəran aqrar-sənaye rayonudur. Tərəvəz və çay istehsalına görə respublikada birinci yerdədir. Rayonda heyvandarlıq, taxılçılıq, balıqçılıq, üzümçülük, meyvəçilik və sitrus bağçılığı inkişaf etmişdir. Burada tərəvəz emalı zavodu, tərəvəz konserv kombinatı, balıq kombinatı, cihazqayırma zavodu, tikiş fabriki, mebel fabriki, balıq konserv zavodu, kərpic zavodu, süd zavodu, çayçəkici və bükücü fabrik, çayın ilkin emalı və istehsalı fabrikləri var.

Rayonun ərazisində 20 ölkə əhəmiyyətli arxeoloji, 53 yerli əhəmiyyətli memarlıq, 2 monumental, 2 daş-heykəltaraşlıq və 9 yerli əhəmiyyətli arxeoloji abidələr vardır. Ən maraqlı tarixi abidələr: Mayak, Dairəvi Qala (Zindan), Lənkəran qalası, Həzi Aslanovun ev-muzeyində, Böyük və Kiçik bazarda olan məscidlər, Alman kilsəsi, Yəhudi sinaqoqu, Mir Əhməd xanın evi, Bəlləbur qalası, Sığın qəbiristanlığı, Şeyx Zahid və Seyid Xəlifə türbələridir. Son vaxtlar Rayon Tarix - Diyarşünaslıq muzeyində bərpa işləri aparılmışdır. Muzey yeni ekspozisiya planı əsasında qurulmuşdur. Burada Heydər Əliyev idarəçilik məktəbi təşkil edilmiş, müstəqilliyimizlə bağlı geniş guşə yaradılmışdır. Mərkəzi kitabxanada "Regional İnternet Mərkəzi" fəaliyyət göstərir. Mədəniyyət müəssisələrində əlamətdar və tarixi günlər, dövlət bayramları qeyd olunur, yazıçı və şairlərin yubileyləri, əyləncəli, şoular, ədəbi-bədii gecələr, disputlar, müharibə veteranları ilə görüşlər, musiqi kollektivlərinin iştirakı ilə konsertlər, teatrlaşdırılmış mədəni-kütləvi tədbirlər keçirilir.

Lənkəran şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.



Lənkəran Azərbaycanın çox qədim yaşayış məskənlərindən biridir. Bölgə ərazisində aparılmış arxeoloji qazıntılar bu yerlərdə hələ tunc dövründən, yəni eramızdan əvvəl III-II minilliklərdə insanların yaşadığını təsdiq etmişdir. Əlverişli iqtisadi-coğrafi mövqeyi, füsunkar təbiəti, qədim dünyanın qüdrətli dövlətləri ilə əlaqələri, Qərblə Şərqi birləşdirən əsas karvan yollarının qovşağında və Xəzər dənizi sahillərində yerləşməsi onun inkişafını xeyli sürətləndirmişdir.

Lənkəran XVIII əsrə qədər kiçik yaşayış məntəqəsi olmuşdur. O vaxtlar burada cəmi 200-ə yaxın ev varmış. 1747-ci ildən Lənkəran Talış xanlığının mərkəzi şəhərinə çevrilmişdir. Münbit torpaqları, bol suyu və mülayim iqlimi olan Lənkəranda əhalinin ən qədim məşğuliyyəti əkinçilik, maldarlıq, bağçılıq, balıqcılıq, ipəkçilik və arıçılıq olmuşdur. Lənkəranda dəmirçilik, misgərlik, dulusçuluq və başqa sənətlər geniş yayılmış, xanlığın iqtisadi inkişafında ticarət mühüm rol oynamış, İran, Türkiyə, Rusiya, Orta Asiya dövlətləri ilə, Cin, Pakistan, Hindistanla ticarət əlaqələri yaradılmışdır.

1828-ci il Gülüstan sülhü ilə Şimali Azərbaycan Rusiyaya qatıldıqdan sonra Lənkəran rus imperiyasının ucqarlarındakı əsas şəhərlərindən birinə çevrilmişdir. Şəhərdə taxta, kirəmit, kərpic zavodları, şəkər qamışından qənd, üzüm, balıq məhsulları istehsal edən sənaye müəssisələri yaradılmışdır. XVIII-XIX əsrlərdə Lənkəran xarici ölkələrə düyü, kətan, ipək, tərəvəz, meşə materialları, balıqçılıq məhsulları ixrac etmişdir. Bu məhsullar əsasən Rusiyaya ixrac olunmuşdur. Azərbaycanda sovet hakimiyyəti illərində Lənkəran iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə böyük uğurlar qazanmışdır.

Tarixi-memarlıq abidələrindən qala, hamamlar (XIX əsr), məscid (XVIII əsr) və s. qeydə alınmışdır. Həzi Aslanov, Nizami Gəncəvi və başqalarına abidələr qoyulmuşdur.

Lənkəran Dövlət Universiteti 1992-ci ildən fəaliyyətə başlamışdır.

## Masallı rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi 0,72 min kv. km**

**Əhalinin sayı - 226,7 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 315 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 100**

**Qəsəbələrin sayı – 2**

**Masallı rayonu ilə Bakı arasında olan məsafə - 232 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Masallı rayonu** | 197147 | 100,0 | 98908 | 50,0 | 98239 | 50,0 |
| şəhər əhalisi | 30969 | 15,71 | 15860 | 16,04 | 15109 | 15,38 |
| kənd əhalisi | 166178 | 84,29 | 83048 | 83,96 | 83130 | 84,62 |

**Ümumi məlumat**

Respublikanın cənub-şərqində Xəzər dənizi ilə Talış dağları arasında yerləşir. Mərkəzi Masallı şəhəridir.

Rayona Masallı şəhəri, Boradigah, Meşəkənarı, Masallı qəsəbələri və Seybətin, İsgəndərli, Dadva, Digah, Ərkivan, Göyəçöl, Qızılağac, Təzəkənd, Xıl, Şıxlar, Köhnə Alvadı, Musaküçə, Babaser, Mollaoba, Banbaşı, Kosagül, Binə Xocavar, Böyük Xocavar, Bədəlan, Çayqıraq, Aşurlu, Dəmirçi, Böyük Kolatan, Bala Kolatan, Bağıroba, Həsənli, Köcəkli, Məmmədxanlı, Təkdam, Güllütəpə, Tatyanoba, Yolağac, Yeni Zuvand, Köhnə Zuvand, Yeyənkənd, Allahyarlı, Xəlfələr, Abasbəyli, Birinci Yeddioymaq, İkinci Yeddioymaq, Qasımlı, Kalinovka, Öncəqala, Hüseynhacılı, Qarğalıq, Kürdəbazlı, Qədirli, Xallıcalı, Dəlləkli, Əminli, Şəhriyar, Qodman, Əzizabad, Məmmədrzaküçə, Qızılavar, Dəlləkoba, Mahmudavar, Rudəkənar, Molalan, Lürən, Pircana, Yusifii, Sərçuvar, Sirəbil, Təzə Alvadı, Əhmədli, Sığdaş, Xanaliyan, Babakücə, Ninəlov, Təklə,Ləngan, Mollahəsənli, Sığıncaq, Xoşçobanlı, Tüklə, Məmmədoba, Birinci Tiyəqani, Türkoba, Şatıroba, Qəzvinoba, Hişgədərə, Müşkəmi, Xırmandalı, Hacıtəpə, Ərəb, Çaxırlı, Kəbləhüseyinli, Sarıcəfərli, İmanlı, Bala Təklə, Şərəfə, Ağakişibəyli, Birinci

Səmədxanlı, İkinci Səmədxanlı, Alışanlı, Ətcələr, Miyanku, Kubin, Nəzəroba, Qəriblər, İsi, Şıxlar, Dəmbəlov, Vəlioba kəndləri daxildir.

Səthi, əsasən, düzənlikdir (Lənkəran ovalığı), qərbdə qismən dağlıqdır (Burovar silsiləsi). Ərazisinin maksimal hündürlüyü 917 *m*-ədəkdir. Paleogenin vulkanogen-çökmə və Antropogen çöküntüləri yayılmışdır. Mineral su və gil yataqları var. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temperatur yanvarda 2,5°C, iyulda 25,6°C-dir. İllik yağıntı 600-800 *mm*-dir. Əsas çayı Viləşdir. Podzollaşmış və sarı dağ-meşə, allüvial-çəmən, bataqlıq-çəmən torpaqları yayılmışdır. Ovalıqda çəmən bitkiləri, dağlıq və dağətəyi hissədə enliyarpaqlı (palıd, fıstıq, vələs) və Hirkan meşələri (dəmirağac, şabalıdyarpaq palıd və s.) üstündür. Heyvanları: oxlu kirpi, bataqlıq qunduzu, çölsiçanı və s. Quşları: turac, qırqovul, vağ, sultan toyuğu, qaşqaldaq, göyərçin və s.

Masallı aqrar-sənaye rayonudur. Kənd təsərrüfatı, əsasən, taxılçılıq, tərəvəzçilik, çəltikçilik, tütünçülük, kartofçuluq, üzümçülük, qismən çayçılıqdan ibarətdir. Heyvandarlıq və balıqçılıq təsərrüfatları da var.

Sənayesi, əsasən, kənd təsərrüfatı məhsulları emal edən müəssisələrdir (konserv zavodları, süd emalı sexləri, dəyirmanlar, su və şirəli içki sexləri). Mebel fabrikləri, kərpic zavodları, metal konstruksiyalar hazırlayan sexlər, ağac emalı müəssisələri, tikinti materialları müəssisələri və s. var.

Respublikanın cənubunda yerləşən Masallı rayonu Azərbaycanın ən səfalı və füsunkar guşəsidir. Bu ərazi Lənkəran, Lerik, Yardımlı, Cəlilabad, Neftçala rayonları ilə həmsərhəddir. Bakı-Astara yolunun 232-ci kilometrliyindədir. Masallı qədim qalaları, Yanardağı, İstisuyu, nadir ağaclarla zəngin meşələri, büllur bulaqları ilə diqqəti cəlb edir.

Masallının çox qədim tarixi var. Aparılan arxeoloji qazıntılar, elmi və yazılı mənbələr göstərir ki, Masallı ərazisində qədim insanlar 15-20 min il bundan əvvəl yaşamışlar. Böyük Azərbaycan tarixçisi Abbasqulu Ağa Bakıxanovun «Gülüstani-İrəm» (1841), Mirzə Seyidəli Kazımbəy oğlunun «Cavahirnameyi Lənkəran» (1896), salnaməçi Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun «Əxbarnamə» (1882) əsərlərində, həmçinin bir sıra Avropa və rus səyyahlarının yol xatirələrində və qeydlərində Masallının tarixinə dair qiymətli məlumatlar verilmişdir.

«Masallı» coğrafi adının meydana gəlməsi haqqında bu vaxta qədər bir çox mülahizə və rəvayətlər söylənilmiş, tarixi mənbələrdə bu toponim «məsəlli-məsəl çəkilən yer, məsəl çəkənlər» mənasında səciyyələndirirlər. Masallı sözünün «Mosullu» sözündən yaranmasını ehtimal edənlər də var.

Toponimika ilə məşğul olan alimlərimizdən R. Yüzbaşov və Ş. Sədiyevin birgə yazdığı «Azərbaycanın coğrafi adları» kitabında «Masallı-Masal nəslinə mənsub» şəklində qeyd olunmuşdur. Bakı Dövlət Universitetinin dosenti, coğrafiya elmləri doktoru N. Məmmədov isə bu yaşayış yerinin yaranmasını Masal bəy adlı bir şəxslə əlaqələndirir. Bəzi tarixi mənbələrdə qeyd olunur ki, yaşayış məntəqəsinin sakinləri İranın «Masal» əyalətindən köçüb gəldiklərindən bu yer Masallı adlandırılmışdır. Beləliklə, «Masallı» toponimində «Masal» yer, ərazi, «lı» isə məkan bildirən şəkilçidir.

Masallı antik dövrdə Midiya, Midiya-Atropatena, sonralar Qafqaz Albaniyasının Kaspiana vilayətinin, XVI-XVIII əsrin ortalarına qədər Səfəvilər dövlətinin, XVIII əsrin ortalarından talış xanlığının tərkibində olmuşdur. XIX əsrin ortalarında Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarının ərazisi Lənkəran qəzası adlanırdı. 08 avqust 1930-cu ildə Masallı inzibati rayonu yaradıldı və Masallının adı respublika xəritəsinə rayon mərkəzi kimi daxil oldu.

Qədim tarixə, zəngin mədəniyyətə malik, intellektual səviyyəsi yüksək olan Masallıya maraq tarixin müəyyən dövrlərindən artmağa başlamışdır. Görkəmli siyasi xadimlərin, dövlət və mədəniyyət adamlarının Masallıya gəlişi məhz belə bir münasibətin ifadəsi idi. 1274-cü ildə Səfəvilər sülaləsinin banisi Şeyx Səfiəddinin, 1501-ci ildə Şah İsmayıl Xətainin Ərkivan kəndində, görkəmli dövlət xadimi, yazıçı N. Nərimanovun 1922-ci ildə Masallıda və onun bir sıra kəndlərində olması barədə çoxlu əsərlərdə yazılara rast gəlmək olur. Doktor N. Nərimanov Masallıda olarkən bu ərazinin təbii imkanları və üstünlüklərindən danışmaqla yanaşı, həm də taxılçılığı və çəltikçiliyi inkişaf etdirməyi vacib saymışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev iki dəfə Masallıda olub. Prezident İlham Əliyev bir neçə dəfə Masallıya səfər etmişdir.

Masallı tarixinin güzgüsü 1952-ci ildən rayonun Hişkədərə kəndində fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyidir. Muzeyin paleontologiya, etnoqrafiya, numizmatika, arxeologiya şöbələrində 19 mindən çox qiymətli eksponat toplanmışdır. Rayonun Ərkivan, Hişkədərə, Boradigah, Tatyan, Hacıtəpə, Şəhriyar, Xırmandalı, Mahmudavar, Bambaşı, Çaxırlı, Ərəb, Qızılağac, Qəriblər, Öncəqala, Köhnə Alvadı kəndlərinin yaxınlığında qədim şəhər, qala kurqanı, türbə məqbərə yerləri aşkar edilmişdir. Bu ərazilərdən tunc, dəmir, antik və orta əsrlər dövrünə aid xeyli miqdarda maddi-mədəniyyət nümunələri toplanmışdır. Bütün bunlar Masallı (Hişkədərə) Tarix-Diyarşünaslıq muzeyində mühafizə olunur. Muzeyin yaradıcısı mərhum əməkdar müəllim Rəhim Tağıyev olmuşdur.

Masallı ərazisi 168 qədim, sirli abidələr, qalalar, saraylar, ziyarətgahlar, hamamlar, bulaqlar, məskənidir. Bunlardan 51-i tarix və memarlıq, 70-i arxeoloji, qalanları isə XX əsr abidələridir.

1941-1945-ci illərdə müharibəyə getmiş 10914 nəfər Masallının vətənpərvər oğullarından 4248 nəfəri qayıdıb, 1573 nəfəri itkin düşüb, 5 mindən çoxu həlak olub. Qarabağın azadlığı uğrunda 5 min nəfərə yaxın cəsur oğlumuz vuruşub. Onlardan 150 nəfəri şəhid olub, 30 nəfəri itkin düşüb, 500 nəfərdən çoxu yaralanıb. Onlardan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Səfərəli Məmmədov, Elşad Hüseynov, Elşad Əhədov, Səfa Axundov bütün Masallıların andıdır. 3 nəfər Masallı döyüşçüsünə «Azərbaycan Bayrağı» ordeni verilmişdir.

XX əsrdə Masallı Azərbaycana və dünyaya 230-dan çox elmlər doktoru, elmlər namizədi, 6 general, 100-ə yaxın yazıçı və şair, müxtəlif sahələrdə çalışan nüfuzlu şəxslər bəxş edib. İqtisadiyyat sahəsindəki uğurlarına görə müxtəlif illərdə 50 nəfərdən çox Masallı Sosialist Əməyi Qəhrəmanı fəxri adına Lenin ordeninə layiq görülmüşdür.

Rayonun 721 kvadrat km ərazisi vardır. Masallıda 1 kvadrat km-ə 254 nəfər əhali düşür ki, bu da dünya əhalisinin sıxlığından 7 dəfə, respublikadan 3 dəfə çoxdur. Masallı rayonu hər kvadrat km-ə düşən əhalinin sayına görə dünyada ən sıx əhalisi olan Çin Xalq Respublikasını belə ötüb keçmişdir.

Rayonda 10-dan çox millətin nümayəndəsi, həmçinin 466 nəfər məcburi köçkün və qaçqın yaşayır.

Viləşçayı subtropik zonasının yeganə iri dağ çayıdır. Tarixi mənbələrdə Viləşçayın adı e. ə. minilliklərdə çəkilir. Eramızın 90-168-ci illərində yaşamış Yunan coğrafiyaşünası Ptolemey Xəzər dənizinin xəritəsini çəkərkən Viləşçayın Qızılağac körfəzinə töküldüyünü göstərmişdir. Mənbəyini Yardımlı və Lerik rayonlarının ərazisindən, Talış silsilə yamaclarından götürür. Uzunluğu 115 km, hövzəsinin sahəsi 935 kv. km-dir. 1976-cı ildə müdrik Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Masallıda Viləşçay su dəryaçasının bünövrəsi qoyulmuşdur. Viləşçay dəryaçası bu gün Heydər Əliyevin adını daşıyır.

Masallı torpağı durna gözlü bulaqlarla da məşhurdur. Təkcə «dünya bulaqlarının muzeyi» sayılan Ərkivan kəndində 37 bulaq vardır. Hər bulağın öz adı, öz dadı, öz tarixi vardır.

Masallı yeraltı və yerüstü sərvətlərlə də zəngindir. Onun İstisuyu əsrarəngiz gözəllik guşəsidir. Ana təbiətin memar əli ilə yaradılmış İstisu möcüzəsi ulu keçmişimizin bizə yadigar qoyduğu ən qiymətli sərvətlərdən biridir. Masallı istisuyu yel, oynaq əzələ, əsəb sistemi, bir çox dəri, habelə mədə-bağırsaq və qadın xəstəliklərinin əvəzsiz loğmanıdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda 1936-cı ildən «Yeni həyat» və 1993-cü ildən «Cənub xəbərləri» qəzeti və «Dan ulduzu» jurnalı çıxır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən keçən avtomobil yollarının ümumi uzunluğu 330,2 kilometrdir. Bunlardan II dərəcəli yollar -11 km, III dərəcəli yollar 102,4 km, IV dərəcəli yollar 66,8 km, V dərəcəli yollar 150 km-dir.

Rayon ərazisində olan dəmir yollarının uzunluğu 36,2 kilometrdir. Bunun 9,2 kilometri qalan dəmir yoludur.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Masallı rayonunda aşağıdakı tarixi və memarlıq incəsənət abidələri mövcuddur

1. XIV əsrə aid Hişkədərə kəndində Nəzirə Xanım türbəsi;
2. III « IX əsrlərə aid Mahmudavar kəndində türk yaşayış yeri arxeoloji abidə;
3. IX « X əsrlərə aid «Ərkivan qalası»;
4. orta əsrlərə aid Qarğalıq ərazisində Şəhriyar yaşayış yeri;
5. XIX əsrə aid Masallı şəhər Cümə məscidi;

6. XIX əsrə aid Boradigah məscidi;

7. XIX əsrə aid Qızılavar məscidi;

8. XIX əsrə aid Masallı şəhərində hamam;

9. XIX əsrə aid Güllütəpə kəndində Əmir türbəsi;

10. XIX əsrə aid Ərkivan kəndində Mehti bulağı;

11. XIX əsrə aid Sığdaş kəndində Mirsəli ocağı;

12. XVI əsrə aid Mahmudavar kəndində Baba Seyidağa türbəsi;

13. XIX əsrə aid Şıxlar, Qodman, Mahmudavar, Yeddioymaq və Hüseynhacılı kəndlərində dağ-qoç fiquru;

14. Tunc dövrünə aid Hişkədlərə kəndində Qaraxantəpə, Qoşatəpə, Allahqulutəpə və Mirzətəpə kurqanları;

15. Tunc və Dəmir dövrlərinə aid Təzə Alvadı kəndində Məmmədtəpə, İstiottəpə, Alıtəpə kurqanları;

16. XXI əsrə dair Ərkivan kəndində Mir Seyid Sadiq Ağa məqbərəsi;

17. Hişkədərə kəndində iyirmi minə yaxın eksponatı olan Tarix-Diyarşünaslıq muzeyi;

18. orta əsrlərə dair Ninalov kəndində Səhhət qalası;

19. XX əsrə dair Ərkivan kəndində Şəhsəfi bulağı.

## Mingəçevir şəhəri

**Yaranma tarixi - 1948**

**Ərazisi - 0,14 min kv. km**

**Əhalinin sayı - 102,9 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 735 nəfər (1 yanvar 2024-cü il)**

**Bələdiyyə - 1**

**Mingəçevir şəhəri ilə Bakı arasında olan məsafə 323 km**




**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| Mingəçevir şəhəri | 96304 | 100,0 | 46492 | 48,9 | 49812 | 51,1 |

**Ümumi məlumat**

Mingəçevir - Azərbaycan Respublikasında şəhər. Bakıdan 323 *km*, Mingəçevir dəmir yolu stansiyasından (Bakı-Tbilisi dəmir yolu) 17 *km* aralıdır. Mingəçevir su anbarının cənub-şərq sahilindədir. İqlimi mülayim istidir. Orta temperatur yanvarda 2,7°C, iyulda 27,6°C-dir. İllik yağıntı 304 *mm*-dir.

Mingəçevir ərazisi yaşayış məntəqəsi kimi çox-çox qədimdir. 5 min il bundan əvvəl Mingəçevirdə kiçik şəhər kimi qaynar həyat mövcud olmuşdur. Yerli əhali əkinçilik, sənətkarlıq, balıqçılıq, atçılıq və s. sahələrlə məşğul olaraq özlərinin maddi və mənəvi aləmini yaratmışlar. Sonra gələn minilliklərdə, xüsusilə antik dövrdə də ulularımız özlərinin alban tarixi və mədəniyyətini, ədəbiyyatını yaratmışlar. Bu baxımdan Mingəçevirdə tapılan maddi-mədəniyyət qalıqlarından alban yazıları və kitabə (Mingəçevir-Sudağılan epitafiyası) böyük əhəmiyyət daşıyır.

İlk dəfə burada 1871-ci ildə həvəskar arxeoloq F. S. Bayer tərəfindən səthi tədqiqat işləri aparılmış, o, Mingəçeviri dirəklər üzərində qurulmuş şəhər kimi təsvir etmişdir. Bundan sonra Mingəçevir uzun illər arxeoloqların diqqət mərkəzində olmamışdır. Yalnız 1935-ci ildə professor Y. A. Paxomovun rəhbərliyi altında qazıntılara başlanmış, iki qədim yaşayış məskəni və müxtəlif qəbir növləri aşkar edilmişdir.

Mingəçevir ərazisinin sistemli və planlı tədqiqi Böyük Vətən Müharibəsindən sonra burada Su-elektrik stansiyasının tikintisi ilə əlaqədar Respublika EA-nın Rəyasət heyətinin qərarı ilə 1946-53-cü illərdə mərhum tarixçi alim S. M. Qazıyevin rəhbərliyi altında Boz dağ silsiləsinin cənubunda, Kür

çayının hər iki sahilində aparılmış və daha 2 yaşayış yeri və 4 böyük qəbiristanlıq aşkar edilmişdir ki, bu da cənubi Qafqazda ən iri arxeoloji kompleksdir.

Arxeoloji qazıntılar zamanı eneolit dövründən başlayaraq (b. e. ə. III minillikdən XVII əsrədək) ayrı-ayrı tarixi dövrləri özündə ardıcıl əks etdirən 20 mindən artıq, (bəzi mənbələrdə 40 min) maddi-mədəniyyət nümunələri tapılmışdır. Bunların arasında torpaq, kurqan, katakomba və küp qəbirləri, istehsal vasitələri, məişət və bəzək əşyaları, pul sikkələri, tuncdan düzəldilmiş müxtəlif silah növləri, ticarət mübadiləsi yolu ilə uzaq ölkələrdən gətirilmiş məmulatlar və s. olmuşdur.

Mingəçevir şəhər kimi orta əsrlərdə daha da inkişaf etmişdir. XVII əsr türk səyyahı Övliya Çələbi «Səyahətnamə»sində Mingəçevir haqqında məlumat verərkən, onu Kür çayının sağ sahilində Boz dağın yaxınlığında yerləşən böyük yaşayış məntəqəsi kimi adını çəkir və burada ipək istehsal edən emalatxanalar, sənətkarlıq məhəllələri, mədrəsə və məscidlərin olduğundan xəbər verir.

Mingəçevir Alban dövlətinin inkişaf etdiyi dövrlərdə ən mədəni bir mərkəz kimi tanınmışdır. Alban hökmdarı Arsvahanın və yerli nüfuzlu ruhani Beniaminin təşəbbüsü ilə «Alban əlifbası tərtib edildikdən, ölkədə məktəblər açıldıqdan sonra» Mingəçevir daha da inkişaf etmişdir.

Qədim Mingəçevir İpək yolunun aparıcı qollarından biri olmaqla minilliklər boyu Kür çayı vasitəsilə qayıqlarla Gürcüstana, oradan Rioni çayı ilə Qara dəniz sahil şəhərlərinə müxtəlif çeşidli mallar daşınmışdır. Eləcə də, yaxın Şərq ölkələrinə, Azərbaycanın qədim şəhərlərinə mühüm karvan ticarət yolu buradan keçmişdir.

Arxeoloji qazıntılar zamanı bəzəkli şüşə məmulatları, qızıl və gümüşdən qablar, bəzək əşyaları, bir sıra qədim Şərq ölkələrinin sikkələrinin tapılması Mingəçevirin ticarət, sənətkarlıq, mədəni əlaqələrinin yüksək səviyyədə olmasından xəbər verir. Böyük ticarət yolu üzərində yerləşən Mingəçevir Kür çayında ən münasib keçid kimi XVIII-XIX əsrlərdə, hətta XX əsrin əvvəllərində öz əhəmiyyətini itirməmişdir.

Qədim Mingəçevirlə bağlı faktlara Plutarxın, Strabonun, Ptolomeyin və başqa dünya şöhrətli tarixçi, coğrafiyaşünasların əsərlərində də rast gəlmək olur.

«Mingəçevir» toponimin necə yaranması barədə müxtəlif ehtimallar mövcuddur. Burada e. ə. I əsrdə məşhur Roma sərkərdəsi Pompey və alban çarı Oris arasında döyüş olmuşdur. Tarixçilərin təsvirinə görə albanlar məhz indiki bəndin ərazisində Pompey qoşunlarını gözləmişlər. Oris ordusunun bir hissəsini ayrı-ayrı manqalara bölüb, ehtiyatda saxlamış və lazım gəldikdə «Manqaça vur» sözləri ilə əmr etmişdir.

«Mingəçevir» toponiminin meydana gəlməsində ərəblərin Azərbaycanda olmalarının da müəyyən təsiri olmamış deyil. Elxanilər hərəkatının yatırılması üçün Azərbaycana göndərilmiş ərəb sərkərdəsi Məniçöhrün qızı döyüşlərin birində həlak olur və atası onu yadigar qılıncı və atı ilə birlikdə Kürün sahilində dəfn edir. Ehtimal var ki, «Mingəçevir» sözü Məniçöhrün adı ilə bağlıdır.

Mərhum akademik Z. Bünyadov «Mingəçevir» adını 839-cu ildə xilafətə qarşı çıxmış Babək üsyanını yatırmaq üçün Azərbaycana göndərilmiş ərəb sərkərdəsi Mingəçevir Əl-Fərqaninin adı ilə bağlayır.

Ehtimallardan biri də toponimin «Min.gəl.çevril.» olmasıdır. Şəhər gözəl olsa da, burada yaşamaq qorxulu idi. Gur və sərt axan Kür çayı tez-tez məcrasından çıxaraq böyük tələfatlar törədirdi. (Qayığa min gəl, amma burada yaşama, çevril get).

Professor T. Hacıyev Azərbaycanın qədim dövləti Midiyanın Mannanın xarabalıqları üzərində, məhz onun əsasında yarandığını qeyd edir. T. Hacıyevin fikrincə albanların «mik» tayfası qədim mak (manq-manna) tayfa birliyinin davamıdır. «Mik» sözü «mak» sözünün fonetik variantıdır və bu sözün əsli ehtimal ki, «minq» şəklində olmuşdur. Ona görə də T. Hacıyev «manna» sözünün mənbələrdə göstərilən «minni» variantını «mingi» (minqe) şəklində görməyi doğru sayır və «Mingəçevir» adının «minki» və «savir» tayfa adlarının birləşməsindən yarandığını bildirir. Minkisavir - Minkicavir - Mingəçevir.

Savirlər tarixən Qafqazda yaşamış və Azərbaycan xalqının soykökündə iştirak etmiş qədim türk tayfasıdır.

Tanınmış alim Əjdər Fərzəli Qorqud «bu yerlərin qədim yaşayış məskəni Sevit torpağı “Mingəsi” adını daşıdığını bildirir. Mingə qədim türk qəbiləsinin adı olub»

Beləliklə “Sevit Mingə” adı zaman keçdikdə “Mingə Sevit”, nəhayət, bugünkü Mingəçevir şəklinə düşmüşdür.

Mingəçevir su anbarı və Su Elektrik Stansiyasının (SES) tikilməsi 1953-cü ildə tamamlanıb. Su elektrik stansiyasının ümumi tutumu 15,6 mln metr kvadrat su olan bəndi Avropadakı sulama vasitəsilə quraşdırılan ən hündür bəndlərindən biridir. Hövzənin uzunluğu 70 km, eni 3 km-dən 18 km-ə qədər, ən dərin yeri 75 m və ümumi ərazisi 605 kv. km-dir.

Kür çayından ayrıca olaraq hövzə iki kanalı su ilə təchiz edir: - 172 km uzunluğundakı Yuxarı Qarabağ Kanalı və 123 km uzunluğundakı Yuxarı Şirvan Kanalı. Bu kanallar Mil, Muğan, Şirvan düzlərindəki min hektara yaxın ərazinin suvarılmasında istifadə edilir. Varvara su anbarı və Varvara su elektrik stansiyası Kür çayında yerləşən Mingəçevir su anbarından 20 km şərqdə yerləşir. Varvara su elektrik stansiyasının enerji bloklarının tezliyi 16 MV-dır.

Azərbaycanın müxtəlif rayonlarından Mingəçevir su elektrik stansiyasının quraşdırılmasıyla əlaqədar olaraq böyük sayda insan gəlib, ümumilikdə isə bu stansiyanın tikilməsində 20.000 insan iştirak edib. 1940-cı illərin sonlarına doğru 10.000-ə yaxın alman hərbi əsirləri bu stansiyanın quraşdırılmasına cəlb edilib. Ölkənin ən təcrübəli mütəxəssisləri tikinti meydançasının - postsovet məkanının ən böyük su elektrik stansiyasının quraşdırılmasına cəlb edilib.

Bugünkü Mingəçevir şəhəri su elektrik stansiyasının tikilməsiylə əlaqədar olaraq qurulub və 1948-ci ildə şəhər statusu alıb. Şəhərin ərazisi 139,53 kvadrat km-dir. Mingəçevir 55 metr dəniz səviyyəsindən yüksəkdə, Bozdağ dağ silsiləsinin cənub-şərq yamacında, mərkəzi Azərbaycanın Kür-Araz ovalığındakı Mingəçevir su anbarının kənarında yerləşir. Şəhər mülayim və isti zonada tikilib, isti və quraq keçən yayı olmasıyla bərabər mülayim qışa sahibdir. İllik temperatur ortalaması isə +14 -15$^0$ C, ən yüksək temperatur isə +42$^0$ C(iyun-avgust) və ən aşağı temperatur isə (yanvar-fevral) - 10$^0$ C olur. Bura düşən ortalama illik yağıntı isə 250-300 mm arasında dəyişir.

Şəhər Kür çayının - 1515 km uzunluğundakı Cənubi Qafqazda ən böyük və ən uzun olan çayın hər iki sahilində yerləşir. Mingəçevir respublikanın paytaxtından 280-300 km qərbdə yerləşir.

Qurulduğu vaxtdan bəri Mingəçevir sürətli inkişaf yolu keçmişdir. Mingəçevir həm iqtisadi cəhətdən, həm də əhalinin sayına görə ölkənin dördüncü böyük şəhəri olub, enerji, sənaye, elm və təhsil baxımından respublikanın inkişaf etmiş şəhərlərindən biridir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Mingəçevir şəhərində özəl «Mingəçevir Teleradio Şirkəti», Azərbaycan Dövlət Teleradio Şirkətinin Mingəçevir Radio Verilişləri Redaksiyası, Mingəçevir Şəhər İcra Hakimiyyətinin təsis etdiyi «Səda», özəl «İnam» və «Mingəçevir işıqları» qəzetləri fəaliyyət göstərir.

Bunlardan əlavə, şəhərdə Mingəçevir televiziyasının verilişləri Mingəçevir şəhərinə və ətraf rayonların yaxınlıqdakı yaşayış məntəqələrinə yayımlanır. Ötürücünün gücü 100 vatdır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

1. Avtomobil yolu şəhərin şərq tərəfindən Yevlax rayonu ərazisindən daxil olaraq Kür çayı üzərində metal konstruksiyadan quraşdırılmış, asfalt dəmir beton örtüklü 150 metr uzunluqda avtomobil nəqliyyatı üçün nəzərdə tutulmuş körpüdən keçərək şəhərin qərb tərəfində Yevlax rayonunun ərazisinə daxil olur.

-uzunluğu - 9,9 km

-kateqoriyası - II

2. Dəmir yolu şəhərin şərq tərəfindən Yevlax rayonunun ərazisindən daxil olur Kür çayı üzərində metal konstruksiyadan quraşdırılmış uzunluğu 250 metr olan dəmir yolu körpüsündə qurtarır.

-uzunluğu - 4,5 km

-kateqoriyası - II

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsünün təsdiq edilməsi haqqında» 2 avqust 2001-ci il tarixli qərarına əsasən Mingəçevir şəhəri ərazisində ölkə əhəmiyyətli 5 abidə və yerli əhəmiyyətli 2 abidə qeydiyyata alınmışdır.

Mingəçevir Dövlət Dram teatrının binası ölkə əhəmiyyətli memarlıq abidəsidir. Bina 1952-ci ildə energetiklərin mədəniyyət sarayı kimi tikilmişdir. Bina iki mərtəbəli olmaqla 500 yerlik tamaşa zalı vardır. Binanın əsas fasadı milli memarlıq üslubunda tikilmiş binalarla əhatə olunmuş meydana baxır. 1968-ci ildə Dram Teatr yaradılan zaman bina həmin teatrın istifadəsinə verilmişdir.

Mingəçevirin ilk şəhərsalma dövründə tikilmiş Mədəniyyət və İstirahət bağı, bağ-park, monumental xatirə abidəsi kimi qeydiyyata alınmışdır. Sonrakı dövrlərdə bağın memarlıq həllində bir çox dəyişikliklər

edilmişdir. Bağa giriş orijinal memarlıq üslubunda həll edilmiş və 1986-cı ildə orada xalq şairi Səməd Vurğunun abidəsi ucaldılmışdır.

Şəhər ərazisində üç arxeoloji abidə qeydiyyata alınmışdır. Bunlar ilk və orta tunc dövrünə aid yaşayış yeri, son tunc və ilk dəmir dövrünə aid yaşayış yeri və e. ə. III-I əsrlərdən e. I-III əsrlərinə aid küp qəbirləri nekropoludur.

Mingəçevir şəhərində qeydə alınmış iki yerli əhəmiyyətli abidələrdən biri şəhərin Nizami prospektində yerləşən faşizm üzərində qələbənin 30 illik yubileyi münasibətilə ucaldılan «Ana Vətən» abidəsi, digəri isə şəhərin cənub-qərbində yerləşən orta əsrlərə aid edilən arxeoloji abidə yaşayış yeridir.

Yuxarıda qeyd olunanlardan əlavə son zamanlar Mingəçevir şəhərində bir neçə abidə tikilmişdir.

2001-ci ildə «Şəhidlər Xiyabanı» kompleksində «Azərbaycanlıların soyqırımı və deportasiyası» abidəsi ucaldılmışdır ki, bu abidə ölkəmizdə bu mövzuda ucaldılmış ilk abidədir. Abidənin hündürlüyü 13,5 metrdir. Səkkiz tərəfi prizma şəklində ucalan əsas element yanan şamı göstərir. Abidənin arxa divarlarında xalqımızın zaman-zaman məruz qaldığı soyqırımı və deportasiyası tarixi kitabə şəklində verilmişdir.

Ölkəmizdə ana dilinə ilk dəfə abidə Mingəçevir şəhərində ucaldılmışdır. 2002-ci ildə ucaldılmış bu abidənin hündürlüyü 9 metrdir. Abidənin mərkəzi elementi olan ana dili kitabı çevrə ilə haşiyəyə alınmışdır. Kitab üzərində dilimizin qədimliyini göstərən lələk həkk olunmuşdur.

2003-cü ildə şəhərimizdə daha iki abidə ucaldılmışdır. Bunlar «İstiqlal» və «Mingəçevir qədim yaşayış məskənidir» abidələridir.

«İstiqlal» abidəsinin hündürlüyü 10,5 metrdir. Səkkiz guşəli ulduzun iti daxili tinləri arasından dalğalanaraq ucalan bayraq müstəqilliyimizin çətinliklə qazanıldığını bildirir.

«Mingəçevir qədim yaşayış məskənidir» abidəsi şəhərin girəcəyində ucaldılmışdır və hündürlüyü 19 metrdir. Abidənin aşağısında Mingəçevirin qədimliyini özündə əks etdirən elementlər verilmişdir. Oturacaq üzərində Mingəçevir şəhərində tapılan V-VI əsrlərə aid olan alban mədəniyyətindən xəbər verən arxeoloji eksponatın (qəbir daşı) üzərindən götürülmüş təsvirin relyefi həkk olunmuşdur. Təsvirdə qarşı-qarşıya dayanmış iki simurq quşları əks olunmuşdur.

Oturacağın üstündə isə neolit dövründən xəbər verən 3,5 metr hündürlüyündə simvolik küp qoyulmuşdur.

Mingəçevir Arxeoloji Kompleksi Bozdağ silsiləsinin cənub ətəklərində, Kürün hər iki sahilində Tunc dövründən (e.ə. 3-cü minillikdən) son orta əsrlərədək (XVII əsrədək) dövrü əhatə edən abidələrdən -4 yaşayış yeri və 4 böyük qəbiristanlıqdan ibarətdir.

Mingəçevirin bu gününü, sabahını özündə əks etdirən və su elektrik stansiyalarının simvolu olan 15 metr hündürlüyündə iki obelisk ucaldılmışdır. Həmin obelisklərin baş hissəsində Mingəçevir şəhərinin işıq şəhəri olduğunu özündə əks etdirən element bərkidilmişdir.

Şəhərin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Naftalan şəhəri




**Yaranma tarixi – 28.04.1967**

**Ümumi ərazi -0.04 kv. km**

**Əhalinin sayı -8,6 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı -1 km$^2$ 215 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 2**

**Naftalan şəhəri ilə Bakı arasında olan məsafə - 338 km**

### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| Naftalan şəhəri | 8869 | 100,0 | 4309 | 49,0 | 4560 | 51,0 |
| şəhər əhalisi | 7697 | 89,79 | 3724 | 86,42 | 3973 | 87,13 |
| Kənd əhalisi | 1172 | 13,21 | 585 | 13,58 | 587 | 12,87 |

**Ümumi məlumat**

Bakıdan 338 *km* qərbdə, Goran dəmir yolu stansiyasından 18 *km* aralı, dağətəyi düzənlikdədir. Yayı isti (orta temperatur iyulda 26,7°C), qışı yumşaqdır (orta temperatur yanvarda 2,1°C). İllik yağıntı 250-300 *mm*-dir. Dəniz səviyyəsindən isə 210-270 metr yüksəklikdə yerləşir. Küləyin hərəkət sürəti 4 m/san, şəhərin ümumi sahəsi 518 hektar, əhalisi isə 8 min nəfərdir.



«Naftalan» sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə, hələ qədimdən təbii şəkildə çıxan «Nafatalan» neftinin müalicəvi əhəmiyyətini bilən xüsusi adamlar onu tuluqlara doldurub dəvə karvanları ilə müxtəlif yerlərə apararaq, satmışlar. Naftalan (neft alan) adının da elə buradan yarandığı ehtimal olunur. Naftalan neftindən müalicə məqsədi ilə istifadə olunmasına dair ilk yazılı məlumat XII-ci əsrə aiddir. Naftalan neftinin texniki istismarına isə XIX əsrin 70-ci illərindən başlanmışdır.

XIX əsrin axırlarında Azərbaycanda sənaye neftinin çıxarılmasının sürətlə inkişafı dövründə, yəni 1892-ci ildə alman mühəndis-konssioneri Y. İ. Eger ilk dəfə Naftalan çıxarmaq üçün buruq quyuları qazdırmışdır. Hətta o, Naftalan neftindən Naftalan mazı almaq üçün şəhərdə kiçik zavod tikdirmişdir. Həmin zavodda «Naftalan» və «Kojelon» adlı preparatlar hazırlanırdı. Hazırlanan dərman preparatları isə Almaniyanın vasitəçiliyi ilə Yaponiyaya, Amerikaya, İngiltərəyə, Hollandiyaya və başqa kapitalist ölkələrinə satılırdı. Eyni zamanda o illərdə Almaniyada Naftalanla bağlı 2 səhmdar cəmiyyət – «Maqdenbuq-Naftalan», «Drezden-Naftalan» cəmiyyətləri fəaliyyət göstərirdi ki, onlar da Naftalan neftindən dərman preparatları hazırlayırdılar. Naftalan neftinin reklamı ilə əlaqədar məşhur Alman dermatoloqu P. P. Unna 1903-cü ildə demişdir: «Kimin Naftalanı varsa, onun hər şeyi var». Eləcə də tarixi faktlardan məlumdur ki, 1904-1905-ci illərdə Rus-Yapon müharibəsi zamanı əsir düşən Yapon əsgərlərinin təcili yardım çantalarında Naftalan mazı ilə dolu bankalar tapılmışdır. Bu da onu göstərir ki, Naftalan neftinin dünyada analoqu olmadığı üçün o, unikal müalicəvi əhəmiyyətə malikdir.

Azərbaycanda neft sənayesi 1920-ci ildə milliləşdirildikdən sonra Naftalan neftinin qazma yolla çıxarılmasına başlanmışdır. Eyni zamanda 1928-ci ildən etibarən Azərbaycanda Naftalan neftinin müalicəvi əhəmiyyətini öyrənmək üçün tədqiqat işləri aparılmışdır.

Həmçinin 1938-ci ildə Azərbaycan Elmi-Tədqiqat tibbi bərpa və təbii amillərlə müalicə institutunda Naftalan eksperimental laboratoriyası yaradılmış və Naftalan neftinin bioloji və müalicəvi təsiri öyrənilməyə başlanmışdır. Eləcə də 1965-ci ildə Naftalan kurortunda Elmi-Tədqiqat laboratoriyası yaradılmışdır.



Azərbaycanda Naftalan neftinin tərkibinin öyrənilməsində akademik Y. Q. Məmmədəliyevin, professor T. H. Paşayevin, S. Ə. Quliyevanın və tibb elmləri doktoru T. H. Hüseynovun böyük xidmətləri olmuşdur.

Kurort şəhəri olan Naftalan 1967-ci ilə qədər müxtəlif dövrlərdə Goranboy və Yevlax rayonlarının tərkibində qəsəbə kimi fəaliyyət göstərmişdir. Naftalan kurortu isə əsasən 1935-ci ildə yaradılmışdır. 1967-ci ildə keçmiş Sovetlər İttifaqının ən böyük sağlamlıq ocaqlarından biri olduğuna görə respublika hökumətinin qərarı ilə ona respublika tabeliyində şəhər statusu verilmişdir.

Naftalan kurortunun əsas inkişafı 1970-1980-ci illərdə olmuşdur. O dövrdə ölkə rəhbəri işləmiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Naftalan kurortu daha da inkişaf etmiş və böyük şöhrət qazanmışdır. 19 fevral 1982-ci ildə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin və Azərbaycan Həmkarlar İttifaqı Şurasının "Naftalan kurortunun daha da inkişaf etdirilməsi haqqında" birgə qərarı olmuşdur. Məhz bu qərarın nəticəsində Naftalan kurort şəhəri kimi daha da böyümüşdür.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikamızda apardığı quruculuq işləri sayəsində Naftalan şəhəri daha da inkişaf etmişdir. Belə ki, Naftalan şəhərində yeni xiyabanlar salınmış

və çoxmərtəbəli yaşayış binaları tikilmişdir. Eləcə də həmin dövr ərzində əhaliyə məişət xidməti kombinatı, 400 yerlik kinoteatr binası, hava limanı, avtovağzal, dördmərtəbəli Telekommunikasiya qovşağı və doqquzmərtəbəli mehmanxana binası tikilib istifadəyə verilmişdir.

Eyni zamanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Naftalan kurortunun maddi texniki bazası daha da möhkəmləndirilmiş və şəhərdə 480 yerlik "Mil", 480 yerlik "Şirvan", 560 yerlik "Çinar", 800 yerlik “Goran” sanatoriyası tikilmişdir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Şəhərin ərazisindən heç bir magistral avtomobil və dəmir yolu keçmir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Naftalan şəhəri 1967-ci ilə kimi Goranboy və Yevlax rayonlarının tərkibində qəsəbə kimi fəaliyyət göstərmişdir. Lakin, 16 iyun 1967-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin Qərarı ilə Naftalan şəhərinə respublika tabeli şəhər statusu verilmişdir. Hazırda 1941-1945-ci il Böyük Vətən müharibəsində və «20 Yanvar» faciəsində həlak olanların xatirəsinə ucaldılmış abidələr, eləcə də N. Gəncəvinin heykəli, N. Nərimanovun və S. Vurğunun büstləri şəhərin park və meydanlarını bəzəyir.

Şəhərin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Neftçala rayonu

**Yaranma tarixi - 11.02.1940**

**Ərazisi - 1,45 min kv. km**

**Əhalinin sayı – 87,3 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 60 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 48**

**Qəsəbələrin sayı – 3**

**Neftçala rayonu ilə Bakı arasında olan məsafə - 176 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Neftçala rayonu** | 79525 | 100,0 | 38067 | 49,1 | 40458 | 50,9 |
| şəhər əhalisi | 37849 | 47,59 | 18617 | 47,65 | 19232 | 47,54 |
| kənd əhalisi | 41676 | 52,41 | 20450 | 52,35 | 21226 | 52,46 |

**Ümumi məlumat**

Neftçala rayonu Azərbaycan SSR-də inzibati rayon kimi ilk dəfə 1940-cı ilin fevralın 11-də təşkil olunmuşdur. O vaxta qədər Salyan rayonunun, cəmi bir il isə 24 yanvar 1939-cu ildə yaranan Xıllı rayonunun tərkibində olmuşdur. Neftçala sırf sənaye rayonu olmuşdur. 1959-cu ilin dekabrında ləğv edilib Salyan rayonuna qatılmışdır. 4 ildən sonra 1963-cü ildə Salyan rayonundan ayrılaraq Neftçala sənaye zonası olmuşdur. Belə bir qarışıq idarəetmə sistemi özünü doğrultmadığından 1965-ci ildə ləğv edilmiş Neftçala yenidən Salyan rayonunun tərkibinə daxil olmuşdur. 7 ildən sonra 1973-cü ilin aprelin 27-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yenidən müstəqil rayon olmuşdur. Neftçala rayonu Kür-Araz ovalığının şərqində yerləşir. Şərqdən Xəzər dənizi ilə əhatələnir. Mərkəzi Neftçala şəhəridir.

Rayona Neftçala şəhəri, Bankə, Xıllı, Xəzər, Həsənabad qəsəbələri və Kürkənd, Aşağı Surra, Qırmızıkənd, Aşağı Qaramanlı, Astanlı, Qədimkənd, Birinci Qaralı, Kür Qarabucaq, Boyat, Ballıcalı, Dördlər, Cəngan, Qaraqaşlı, Bala Surra, Ərəbqardaşbəyli, Beştalı, Şorkənd, Yenikənd, 1 №-li Mayak, 2 №-li Mayak, Qırmızı Şəfəq, Sübh, Şirvanlı, Qoçaqkənd, Xanməmmədli, Ramazanlı, Qazaxbərəsi,

Sarıqamış, Yeniqışlaq, Mikayıllı, Qızqayıtdı, Haqverdilər, Dalğalı, Kürdili, Sahil, Tatarməhlə, Abasalılı, Mirzəqurbanlı, Uzunbabalı, Xol Qarabucaq, Dördlər, Xol Təzəkənd, Xol Qaraqaşlı, Mürsəqulu, Yuxarı Qaramanlı, Pirəbbə, İkinci Qaralı kəndləri daxildir.

Səthi düzənlikdir (Cənub-Şərqi Şirvan və Salyan düzləri, qismən Muğan düzü). Ərazisi dəniz səviyyəsindən 22 *m* aşağıda yerləşir. Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, qaz, yod, brom, xörək duzu və s. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur yanvarda 3°C-yədək, iyulda 25-36°C-dir. İllik yağıntı 300 *mm*-dir. Kür çayı, Bala Kür kanalı, Mərkəzi Muğan kollektoru rayonun ərazisindən keçir. Boz-çəmən, karbonatlı allüvial-çəmən və çəmən bataqlıq torpaqları var. Şoranlıqlara rast gəlinir. Bitki örtüyü səhra və yarımsəhra tiplidir. Tuqay meşələri var. Heyvanları: çöldonuzu, Kiçik Asiya qumsiçanı, qırmızıquyruq qumsiçanı və s. Çoxlu quş (dovdaq, bəzgək və s.) və sürünən (su ilanı, tısbağa, gürzə) var. Şirvan Milli Parkının bir hissəsi buradadır.

Rayonun iqtisadiyyatının əsasmı pambıqçılıq, taxılçılıq, yemçilik və heyvandarlıq təşkil edir.

Rayonda "Anşad-Petrol" Müştərək Neft və Qazçıxarma Müəssisəsi, Neftçala Balıq Kombinatı, "Neftçala-pambıq", "Neftçala-taxıl", "Neftçala yod-brom", "Neftçala-ət", "Neftçala-süd", "Oryad-balıq", "Neftçala-aqroservis", "Neftçala-kəndkimya", "Neftçala-mexaniki təmir", "Neftçala-təmirtikinti" ASC-ləri və Xıllı, Kürağzı, Kür təcrübi nərə balıqartırma zavodları var.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda 1973-cü ildən çıxan «Oktyabr bayrağı» qəzeti 11 oktyabr 1990-cı ildən «Gündoğar» qəzeti kimi fəaliyyət göstərir

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon daxilində dövlət əhəmiyyətli 50 km uzunluğunda III dərəcəli Neftçala-Salyan, 60 km uzunluğunda Neftçala-Xolqaraqaşlı-Şorsulu, yerli əhəmiyyətli 54 km uzunluğunda IV dərəcəli Salyan-Bankə-Neftçala və 155 km uzunluğunda yerli əhəmiyyətli yollar var. Rayon mərkəzindən Bakı şəhərinə şose yolu ilə 176 km-dir.

Neftçala-Salyan dəmiryol xətti var. Kür çayında nəqliyyat vasitələri hərəkət edir. Çay üzərində Neftçala-Bankə (1980-ci il), Qaralı-Yuxarı Qaramanlı (1992-ci il) yaşayış məntəqələrinin və magistral yollar birləşdirən körpülər var.

Rayonda özəl avtovağzal fəaliyyət göstərir. Dəmir yolu stansiyası var.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonda 34 məscid var. Xıllı qəsəbəsində XIX əsrə aid Fatimeyi Zəhra məscidi, Bankə qəsəbəsində 1898-ci ildə inşa edilmiş Balıq Kombinatının inzibati binası, XIX əsrə məxsus (Z. O. Qoltuq) kilsə, 1894-cü ilə aid Heydər Almazov türbəsi (şəhər qəbiristanlığında) tarixi abidələr kimi qorunub saxlanılır.

Bundan başqa Neftçala şəhərində 1941-1945-ci il abidə kompleksi (1985-ci il), Xıllı qəsəbəsində naməlum əsgər abidəsi, Bankə qəsəbəsində Ana abidəsi, Aşağı Qaramanlı, Xolqarabucaq, Tatarməhlə kəndlərində Böyük Vətən Müharibəsinə həsr olunmuş abidə kompleksləri, şəhər mərkəzində «20 Yanvar» şəhidləri şərəfinə ucaldılmış abidə (1998), rayon şəhidləri şərəfinə ucaldılmış monument, Bankə qəbiristanlığında 1918-ci ildə şəhid olmuş türk əsgərlərinin şərəfinə ucaldılmış monument (2004), Neftçala Rayon Mərkəzi xəstəxanasının həyətində ucaldılmış Heydər Əliyev abidəsi (dekabr, 2004) tarixi abidələrdir.

750 yerlik şəhər Mədəniyyət sarayı, Tarix-Diyarşünaslıq muzeyi, Şahmat məktəbi, Bankə qəsəbəsində XIX əsrə məxsus balıq kombinatının inzibati binası, rayon şəhidləri şərəfinə ucaldılmış monument, türk əsgərləri şərəfinə ucaldılmış monument tarixi memarlıq və incəsənət nümunələridir.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Oğuz rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,08 min kv. km**

**Əhalinin sayı – 44,5 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 41 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 33**

**Oğuz rayonu ilə Bakı arasında olan məsafə - 268 km**




## Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Oğuz rayonu** | 40284 | 100,0 | 20172 | 50,0 | 20112 | 50,0 |
| şəhər əhalisi | 6891 | 17,11 | 3358 | 16,65 | 3533 | 17,57 |
| kənd əhalisi | 33393 | 82,89 | 16814 | 83,35 | 16579 | 82,43 |

**Ümumi məlumat**

Oğuz rayonu Vartaşen adı ilə 1930-cu il avqust ayının 8-də yaradılıb. Rayon mərkəzi Vartaşen 1961-ci ilə qədər kənd olub, 1961-1968-ci illərdə ona şəhər tipli qəsəbə, 1969-cu ildə rayon tabeliyində şəhər statusu verilib. 1991-ci ilin fevral ayında Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında rayonun və şəhərin adı dəyişdirilərək Oğuz, Vardanlı kəndinin adı isə Kərimli qoyulmuşdur. Oğuz rayonu Böyük Qafqazın cənub yamacındadır. Şimalda Rusiya Federasiyası ilə həmsərhəddir. Mərkəzi Oğuz şəhəridir.

Rayona Oğuz şəhəri və Bayan, Calud, Bucaq, Muxas, Baş Daşağıl, Qumlaq, Hallavar, Şirvanlı, Tayıflı, Xalxal, Xalxalqışlaq, Ərmənət, Kərimli, Qarabaldır, Padar, Dəymədərə, Yemişanlı, Yaqublu, Yenikənd, Top, Zərrab, Böyük Söyüdlü, Qarabulaq, Astraxanovka, Vladimirovka, Sincan, Tərkeş, Dəymədağlı, Mollalı, Xaçmaz, Xaçmazqışlaq, Abdallı, Filfilli kəndləri daxildir.

Rayonun şimal hissəsi Baş Qafqaz silsiləsinin cənub yamacına, mərkəzi hissəsi Qanıx-Həftəran vadisinə, cənub hissəsi isə Acınohur öndağlığına daxildir. Ərazidə Baş Qafqaz silsiləsinin maksimal hünd. 3876 *m*-dir (Malqamud dağı). Rayonun şimal hissəsində Yura və Tabaşir çöküntüləri, mərkəzi və

cənub hissəsində isə, əsasən, Antropogen və qismən Neogen çöküntüləri yayılmışdır. Gil yatağı və mineral bulaq var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti və yarımquru subtropik, yüksək dağlıq yerlərdə soyuqdur. Orta temperatur yanvarda -10°C-dən 2°C-yədək, iyulda isə 6°C-dən 26°C-yədəkdir. İllik yağıntı 450-1600 *mm*-dir. Çayları: Əyriçay, Əlican, Qalaçay (Filfilli) və s. Dağ-çəmən, dağ-meşə və allüvial-çəmən torpaqları yayılmışdır. Alp və subalp çəmənləri var. Meşələrində palıd, fıstıq, vələs və s. geniş yer tutur. Heyvanları: maral, cüyür, dağkeçisi, meşəpişiyi, canavar, ayı, çöldonuzu, tülkü, dovşan və s. Quşları: qırqovul, kəklik və s.

Oğuz, əsasən, kənd təsərrüfatı rayonudur. Əkinçilik, heyvandarlıq, meyvə-tərəvəzçilik, arıçılıq və baramaçılıq inkişaf etmişdir. Kiçik emal və istehsal müəssisələri var. Burada rayon telekommunikasiya qovşağı, kommunal təsərrüfat idarəsi, rayon meşə mühafizəsi və bərpası müəssisəsi, rayon suvarma sistemləri idarəsi, "Oğuz-Nəqliyyat", "Oğuz-Tikinti-Mexanizasiyası" ATSC-ləri, kəndli-fermer təsərrüfatları var.

Oğuz qədim və zəngin tarixə malik olan bir bölgədir. E. ə. I əsrdə yaşamış 17 kitabdan ibarət «Coğrafiya» əsərinin müəllifi yunan tarixçisi Strabon Qafqaz Almaniyası haqqında konkret məlumat vermiş və görsətmişdir ki, Oğuzun da daxil olduğunu indiki Şəki-Zaqatala zonası 20-25 əsr ondan əvvəl (deməli 2500 il bundan əvvəl) abad və əhalisi sıx olan yaşayış yerləri olmuşdur.

Görkəmli arxeoloq, Oğuzun yetirməsi olan Saleh Qazıyevin 1956-1959-cu illərdə rayonun ərazisində apardığı tədqiqatlar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri təsdiq edir ki, bu ərazidə neolit və eneolit dövrlərində (yəni 6-7 min il bundan əvvəl) insanlar toplu şəkildə məskunlaşmışlar.

Saleh Qazıyev 1948-ci ildə rayonun Vardanlı (indiki Kərimli) və Qarabaldır kəndlərindən cənubda qazıntı işləri aparmış, qədim yaşayış yeri və qəbiristanlıq aşkarlamışdır.

Böyük alim qədim qəbirlərdən, Daş qutu abidələrdən 2500-3000 il bundan əvvələ aid edilən aşağıdakı maddi-mədəniyyət nümunələrini taparaq elm aləminə bildirmişdir: tunc bıçaq, xəncər, nizə ucluğu, əsa başlıqları, daş qadın fiquru, qil sacayaq, çoxsaylı bəzək əşyaları (kəmər, qolbaq, üzük, muncuq və s), keramika nümunələri və s. Bunlardan bəzilərinin 500 il tarixi var. Rayonun Filfilli və Baş Daşağıl kəndlərinin şimalında yaşı bilinməyən, tədqiq olunmamış, müasir qəbirlərdən öz uzunluğu ilə fərqlənən qədim Oğuz tayfalarına məxsus, «Kitabi-Dədə Qorqud» dastanının boylarında adı çəkilən Oğuz (etnos) qəbirləri bu gün də qalmaqdadır. Rayonun Kərimli, Qarabaldır, Calud kəndlərinin, Oğuz şəhərinin ərazisindəki qədim dövrlərə aid nekropollar, VII əsrin yadigarı olan Xaçmaz Govur qalası, IX əsrdə tikilmiş Muxas qülləsi, Oğuz şəhəri və Calud kəndi ərazisindəki ilkin orta əsrlərdən qalan alban ibadətgahları da rayonun ulu keçmişindən soraq verir. Vartaşen, Oğuz, Maza, Vəngey, Padar, Sazur, Şahra və s. toponimlərin mənşəyi isə 12-14 min il bundan əvvələ gedib çıxır, «Avesta» ilə səsləşir, rayonun ərazisinin ulu Zərdüşt Vətəninin bir hissəsi olduğunu təsdiqliyir.

Bugünkü Oğuz rayonunun ərazisi tarixin müxtəlif dövrlərində Qəbələ mahalının, Şəki xanlığının, Nuxa qəzasının tərkibində olmuşdur. XVIII əsrin ortalarında Şəki xanlığı 8 mahala bölünürdü ki, bunlardan ikisi - Padar və Xaçmaz mahalları indiki Oğuz rayonunun ərazisini əhatə edirdi.

Ziya Bünyadov «Azərbaycan VII-XI əsrlərdə» əsərində ərəb müəllifi Bəlazuriya istinadən Filan şahlığının adını çəkir.

Firidun Qədirov isə «Azərbaycanın şimal müdafiə istehkamları» adlı kitabında İbn əl-Fəqihə istinadən yazır ki, sasanilər xəzərlərin hücumlarından qorunmaq məqsədilə Dərbənd və Dəryal dərəsi arasında 360-a qədər qala tikdirmişlər ki, bunların da əksəri Filan və Sahib-əs Sərir torpaqlarında yerləşmişdir. F. Qədirov daha sonra V. F. Minorskiyə əsaslanaraq bildirir ki, Filan torpağı Şəkinin şərq tərəfində yerləşirdi. V. F. Minorski Filan torpağından danışarkən etnik əlamətlərə əsaslanan Fil, Filfili, Fili-Dzax və s. adlardan İstifadə etmişdir. Bu faktlar sübut edir ki, eramızın VII-VIII əsrlərində ərəb işğalları ərəfəsində və işğal dövründə Qafqaz Albaniyasının şimal əyalətlərindən biri Filan şahlığı olmuşdur ki, bu xırda feodal dövlətinin ərazisi Oğuz rayonundakı bugünkü Filfilli kəndinin və onun yaxın-uzaq ətrafındakı kəndlərin ərazisini əhatə etmişdir.

Rayonun Padar (1883) Xaçmaz (1883) kəndlərində və indiki rayon mərkəzində (1887) fəaliyyətdə olan məktəblər Azərbaycanın ən qədim təhsil ocaqlarındandır. Xaçmaz kənd məktəbində görkəmli maarifçilərdən Rəşid bəy Əfəndiyev 1890-1892-ci illərdə müəllimlik etmişdir.

Oğuz rayonu tarixən etnik zənginliyi ilə də seçilmişdir. Yunan alimi Strabon, alban tarixçisi Musa Kalankaytuklu və digər müəlliflər öz əsərlərində yazırdılar ki, Qafqaz Albaniyasında (bugünkü Oğuzun ərazisi də həmin dövlətin ərazisinə daxil idi) eramızın I əsrində 26 tayfa yaşayırdı. Bu 26 tayfanın sırasında olan utilər (udilər) və leqlər (ləzgilər) bu gün də öz etnik varlığını Oğuzda saxlayırlar. Aparıcı tayfa olan albanlar və digər türksoylu tayfalar müasir Azərbaycan xalqının (həm də oğuzluların) etnoqenezində əsas rol oynayaraq onu formalaşdırmışlar. Hazırda Oğuz rayonunda azərbaycanlılarla yanaşı aşağıdakı millətlərin nümayəndələri də yaşayırlar: ləzgilər, axıska türkləri, ruslar, yəhudilər, utilər (udilər), tatarlar, ukraynalılar, kürdlər, avarlar, gürcülər və s. (cəmi 26 millətin nümayəndəsi).

**Kütləvi informasiya vasitələri haqda məlumat**

İctimai siyasi qəzet olan "Oğuz Yurdu" rayonun yeganə mətbu orqanıdır. İlk nömrəsi 1934-cü ildə "Vartaşen kolxozçusu" adı ilə çıxmışdır. 1965-ci ildən 1990-cı illədək "Lenin bayrağı" adı ilə nəşr olunmuşdur. 1990-cı ildən "Oğuz Yurdu" adı ilə nəşr edilir. Hazırda qəzet ayda iki dəfə çıxır və Mingəçevir Poliqrafiya Müəssisəsində ofset üsulu ilə çap edilir. Təsisçi Oğuz rayon İcra Hakimiyyəti və redaksiyanın yaradıcı kollektividir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Oğuz rayonu üzrə ümumi avtomobil yollarının uzunluğu 375 kilometrdir. Bunun 30 kilometri dövlət əhəmiyyətli Qaraməryəm-Balakən şose yolunun Oğuzun ərazisindən keçən hissəsidir. Bu yol I kateqoriyaya aiddir. Yolların 120 kilometri II kateqoriyalı olub respublika əhəmiyyətli, 225 kilometri isə yerli əhəmiyyətlidir.

Oğuz rayonunun ərazisindən dəmir yolu keçmir. Rayon mərkəzi olan Oğuz şəhəri Yevlax dəmir yolu stansiyasından 80 km, Şəki dəmir yolu stansiyasından isə 48 km məsafədədir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Oğuz rayonunun ərazisində aşkar edilmiş və qeydə alınmış 39 arxeoloji və memarlıq abidəsi mövcuddur. Bunların əksəri erkən orta əsrlərə və orta əsrlərə aid abidələrdir. 31 abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarı ilə ölkə və yerli əhəmiyyətli memarlıq və arxeoloji abidələr siyahısına daxil edilmişdir. Ölkə əhəmiyyətli abidələr (16 abidə) bunlardır: Surxayxan qalası (XVIII əsr), Qalasisik (Qala) piri (VII əsr), Vartaşen (Oğuz) qalası (V-VI əsrlər), Qədim qəbiristanlıq (Nekropol) (tunc və ilk dəmir dövrü), Qalasisik (Qala) yaşayış yeri (VI-VIII əsrlər), Qədim kurqanlar (Nekropol) (e. ə. I minilliyin əvvəli), Qala yeri (V-VIII əsrlər), Qədim qəbiristanlıq (Nekropol) (e. ə. IV-I əsrlər), Molla qoruğu (I-IV əsrlər), Qədim qəbiristanlıq (Nekropol) (son orta əsrlər), Böyük və kiçik qalalar (antik dövr), Tikanlı qoruq yaşayış yeri (III-VIII əsrlər), Calud yaşayış yeri (orta əsrlər), Pir (erkən orta əsrlər), Xaçmaz Govur qalası (VII əsr), Balaşum yaşayış yeri (XI-XII əsrlər).

Abidələrin 8-dən bu gün də istifadə olunur. Onlar aşağıdakılardır: Oğuz şəhərində rayon tarix-diyarşünaslıq muzeyinin yerləşdiyi alban ibadətgahı (XVII əsr), 1941-1945-ci illər müharibəsində həlak olmuş həmvətənlərin xatirə abidəsi (1975), Məscid (Sinaqoq) (1849), Xaçmaz kəndində Daşüz (Hacı Rəşid) körpüsü (XIX əsr), Cümə məscidi (XIX əsr), Xaçmaz məscidi (XIX əsr), Sincan kəndində Məscid və minarə (XIX əsr) və Kərimli kəndində Türbə (XV əsr).

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Saatlı rayonu




**Yaranma tarixi – 25.05.1943**
**Ərazisi - 1,18 in kv. km**
**Əhalinin sayı - 110,5 min nəfər (1 yanvar, 2024-cü il)**
**Əhalinin sıxlığı – 1 kv. km 94 nəfər (1 yanvar 2024-cü il)**
**Şəhər - 1**
**Kəndlərin sayı – 43**
**Saatlı  rayonu ilə Bakı arasında olan məsafə - 182 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Saatlı rayonu** | 92572 | 100,0 | 46553 | 50,0 | 46019 | 50,0 |
| şəhər əhalisi | 17442 | 18,84 | 8681 | 18,65 | 8761 | 19,04 |
| kənd əhalisi | 72130 | 81,16 | 37872 | 81,35 | 37258 | 80,96 |

**Ümumi məlumat**

Muğan düzünün mərkəzində, Araz çayının hər iki sahilində yerləşən Saatlı Azərbaycan Respublikasında inzibati rayondur. 1943-cü il may ayının 25-də Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 30/21 nömrəli qərarına əsasən Saatlı müstəqil rayon kimi təşkil edilmişdir. 1963-cü ildə Sabirabad rayonuna birləşdirilən Saatlı rayonu 1965-ci il yanvarın 14-də yenidən müstəqil rayon statusu almışdır. Saatlı rayonu Kür-Araz ovalığının mərkəzi hissəsində yerləşir. Mərkəzi Saatlı şəhəridir.

Rayona Saatlı şəhəri və Azadkənd, Varxan, Qarayevkənd, Mircəlal, Nəsimikənd, Şirinbəyli, Fətəlikənd, Xanlarkənd, Əlisultanlı, Potubəyli, Hacıqasımlı, Kamallı, Qaracalar, Gömuşçu, Seyidoba, Qara-Nuru, Qazanbatan, Qıraqlı, Bəylik, Mustafabəyli, Yeni Novruzlu, Məmmədabad, Əliabad, Genişkənd, Nərimankənd, Dəllər, Novruzlu, Musalı, Sarıcalar, Cəfərxan, Əbilkənd, Mollavazlı, Sımada, Günəşli, Bəylər, Dədə Qorqud, Heydərabad, Əhmədbəyli, Qaralar, Məzrəli, Naharlı, Soltanabad, Çolpı kəndləri daxildir.

Saatlı rayonunun ərazisi düzənlikdir və dəniz səviyyəsindən 28 *m* aşağıdır. Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temperatur yanvarda 1,4°C, iyulda 26,2°C-dir. İllik yağıntı 300 *mm*-dir.

Ərazisindən Araz çayı, şimal sərhədindən Kür çayı, Sabir adına və Aşağı Muğan suvarma kanalları, Mil-Muğan kollektoru keçir. Sarısu gölünün bir hissəsi rayonun ərazisindədir.

Rayonda boz-çəmən, boz, şorakət, bataqlıq-çəmən torpaqları yayılmışdır. Bitkiləri, əsasən, yarımsəhra və səhra tiplidir. Heyvanları: çöl donüzü, qumsiçanı, su qunduzu, canavar, tülkü, dovşan, ilan, çaqqal və s. Quşları: bəzgək, turac, dovdaq və s.

Saatlı, əsasən, kənd təsərrüfatı rayonudur, pambıqçılıq, taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və s. mühüm yer tutur. "Saatlı Pambıq" ATSC-nin emal zavodu, "Şəki İpək" ASC-nin pambıqçılıq idarəsi və pambıq qəbulu məntəqəsi, "Pambıq" kiçik müəssisəsi, şirə emalı müəssisələri, 16 un dəyirmanı, 2 üzlük plitə sexi, quşçuluq-broyler sexi və s. var.

Saatlı etnonimi XIV əsrin sonunda Arpaçayın aşağı axarı və Araz çayının sağ sahilində yerləşən Çuxur Səəd adlı əyalətdə yaranmışdır. Əvvəllər Arpaçayın aşağı axarı və Arazın sağ sahilində yaşayan saatlıların xeyli hissəsi XV əsrin 30-cu illərindən qonşu ərazilərə köçmüşlər. Saatlıların bir qismi Qazax zonasında, 1795-1798 - ci illərdə isə saatlıların bir hissəsi Qarabağda məskunlaşmışdılar. Saatlı tayfasının adı Çuxur Səəddə yaşayan tayfanın, yaxud Əmir Səədin adını daşıyan və qədimdən Ağrıdağ vadisində yaşamış Azərbaycan türklərinin - Saadlı tayfasının etnik adıdır.

Yayı quraq keçən mülayim isti, yarımsəhra və quru çöl iqlimi olan Saatlı rayon ərazisində qədim dövrə aid yaşayış məskənlərinin olduğu sübut edilmişdir. Azadkənd, Fətəlikənd, Cəfərxan, Varxankənd, Əlisoltanlı kəndlərində e. ə. II-III minilliklərə aid arxeoloji abidələr, o cümlədən saxsı qabların qalıqları tapılmışdır.

Saatlı rayonunun Muğan düzünün mərkəzində yerləşməsi, Araz çayının bol suyu bu ərazidə əhalinin məskunlaşmasına, əkinçilik, heyvandarlıq və quşçuluqla məşğul olmalarına əlverişli şərait yaratmışdır. Saatlı rayonunun hazırkı Cəfərxan kəndində hələ XX əsrin əvvəllərində yaradılmış təcrübə stansiyası, sonralar "Muğan-təcrübə meliorasiya stansiyası" adını almış məntəqənin Muğan düzündə torpaqların şorlaşmasının qarşısının alınmasında, meliorasiya işlərinin elmi-nəzəri əsaslarla aparılmasında böyük rolu olmuşdur. Xüsusən XX əsrin 50-ci illərindən sonra bu stansiyanın fəaliyyəti genişlənərək bölgədə əsl elmi bazaya çevrilmişdir. Görkəmli tədqiqatçı alimlərimiz C. Ə. Əliyev, S. X. Hüseynzadə, V. P. Valabuyev və digərləri uzun illər həmin Cəfərxan Muğan-təcrübə meliorasiya stansiyasında səmərəli elmi tədqiqat işləri aparmışlar.

Saatlı rayonunun təşkil edilməsi 1941-1945-ci illər müharibəsi dövrünə düşmüşdür. Həmin illərdə rayondan 1600 nəfər cəbhəyə göndərilmiş və onlar 77-ci, 223-cü, 402-ci, 416-cı diviziyalarda şərəflə döyüşmüşlər. Onlardan 533 nəfər həlak olmuşdur. 1949-cu ildə Ermənistan SSR-in bir sıra rayon və kəndlərindən zorla qovulmuş azərbaycanlı əhalinin xeyli hissəsi, 1953-cü ildə Mərkəzi Komitənin xüsusi göstərişi ilə İranla sərhəd ərazidən köçürülən Cəlilabad rayonunun 7 kəndinin əhalisi, 1958-1959 və

1989-cu illərdə Orta Asiya Respublikalarından Axıska türkləri, 1988-1989-cu ildə başlanan Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qərbi Azərbaycandan dədə-baba torpaqlarından didərgin salınan soydaşlarımızın müəyyən hissəsi Saatlı rayonunda məskunlaşmışdır.

Ermənistanın respublikamıza təcavüzü nəticəsində başlanan müharibədə Saatlı rayonunun gəncləri də qəhrəmancasına döyüşmüşlər. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə Saatlı 116 nəfər şəhid vermişdir. Şəhidlərimizdən 1 nəfəri Hüseynov Elşən İbrahim oğlu 1995-ci ilin mart hadisələrində igidcəsinə həlak olmuş Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Azərbaycan Respublikasının digər bölgələri kimi Saatlı rayonunun da sosial-iqtisadi və mədəni-siyasi həyatının bütün sahələrində dirçəliş və inkişaf, əhalinin həyat səviyyəsinin yüksəldilməsi 1970-ci ildən sonra başlanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdə 3 dəfə - 1974, 1976 və 1980-ci ildə, müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə isə 1998-ci ildə Saatlı rayonunda olmuş, rayonun iqtisadiyyatının dirçəldilməsi, əhalinin həyat səviyyəsinin və rifah halının yaxşılaşdırılması üçün tapşırıq və tövsiyələrini vermişdir.

70-80-ci illərdə Saatlı rayonunda 19 məktəb binası, 390 çarpayılıq mərkəzi xəstəxana, 450 yerlik mədəniyyət sarayı, 11 kənd həkim məntəqəsi, musiqi məktəbi, 450 yerlik məktəbəqədər müəssisələr, 32 mənzilli beşmərtəbəli 2 yaşayış binası, ikimərtəbəli univermaq, universam, bir sıra idarə və müəssisələr üçün yeni inzibati binalar, pambıq təmizləmə və süd zavodları, çörəkbişirmə kombinatı tikilərək rayon əhalisinin istifadəsinə verilmiş, çoxsaylı sənaye, nəqliyyat və xidmət təşkilatları yaradılmışdır.

Müstəqillik illərində rayonda tikinti-quruculuq, abadlıq işləri geniş vüsət almışdır. Həmin illərdə Araz çayı üzərində uzunluğu 238 və 320 metr olan iki böyük körpü, 800 yerlik "Came" məscidi, 2030 yerlik 8 yeni məktəb binası, 750 yerlik iki şadlıq sarayı, şəhidlərin xatirəsinə abidə kompleksi, 31 mart azərbaycanlıların soyqırımı xatirə kompleksi, "Heydər" parkı, "Muğan" və "Fəvvarələr" parkları, 5 yeni həkim məntəqəsi, stadion, idman meydançaları, quşçuluq broyler fabriki, çoxsaylı sosial obyektlər və özəl istehsalat müəssisələri tikilərək əhalinin istifadəsinə verilmişdir.

2004-cü ildə Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan meydanda böyük öndər Heydər Əliyevin əzəmətli büstü qoyularaq abidə kompleksi ucaldılmışdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Saatlı rayonunda televiziya verici stansiyası 1998-ci ildən televiziya proqramlarını rayon ərazisinə yayımlayır.

1954-cü ildə Azərbaycan KP Saatlı rayon komitəsi və Saatlı rayon Xalq Deputatları Sovetinin icraiyyə komitəsinin orqanı olan "Dönüş" qəzeti nəşr olunmağa başlamışdır. 1991-ci ildən isə "Dönüş" qəzeti öz fəaliyyətini müstəqil ictimai-siyasi qəzet kimi göstərir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Saatlı rayonunun ərazisində III və IV kateqoriyalı avtomobil yolları vardır. Bütövlükdə avtomobil yollarının uzunluğu 241 kilometr təşkil edir. Bundan III kateqoriyalı Qazıməmməd-Qaratəpə-Bəhrəmtəpə avtomobil yolu 25 kilometr, III kateqoriyalı Qalaqayın-Aqrobaz avtomobil yolu 25 kilometrdir. IV kateqoriyalı yerli əhəmiyyətli yollar isə 191 kilometr təşkil edir.

Saatlı rayon ərazisindən Ələt-Naxçıvan dəmiryolu xətti keçir ki, bu II kateqoriyalıdır. Qeyd olunan bu dəmiryol xəttinin Cəfərxan kəndindən Becar yaşayış məntəqəsinə qədər əhatə edən 80-109-cu kilometrləri Saatlı rayonu ərazisindədir.

Dəmiryol xəttinin 80-109-cu kilometrlərinin əhatə etdiyi həmin sahədə 2 dəmiryolu stansiyası - Sarıcalar və Saatlı dəmiryol stansiyaları yerləşir. Saatlı dəmir yolu stansiyasının yaxınlığında Araz çayı üzərindən keçən əsrin əvvəllərində tikilmiş dəmiryol körpüsü mövcuddur.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Azərbaycanın əlverişli iqlimi və təbii şəraiti Araz çayı ətrafında insanların hələ qədim daş dövründən məskən salmasına şərait yaratmışdır. Odur ki, Saatlının arxeoloji abidələri Araz çayının hər iki sahilindən tapılmaqla yaşayış yerləri və qəbir abidələrindən ibarətdir.

Arxeoloji abidələrin əsasını isə XX əsrin əvvəllərində tədqiqatçılar tərəfindən aşkar edilmiş nekropollar təşkil edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarı ilə təsdiq edilmiş aşağıda adları qeyd olunan arxeoloji abidələr mühafizə olunur.

1. Cəfərxan nekropolu - antik dövrü əhatə edir, Sarıcalar kəndi ərazisindədir.
2. Keçiqıran küp qəbirləri nekropolu - e. ə. I minilliyi əhatə edir, Azadkənd kəndi yaxınlığındadır.
3. Azadkənd nekropolu - e. ə. II-I əsrləri əhatə edir, Azadkənd kəndi ərazisindədir.
4. I Qaralar nekropolu - e. ə. III-I əsrləri əhatə edir, Qaralar kəndi ərazisindədir
5. II Qaralar nekropolu - e. ə. III-II əsrləri əhatə edir, Qaralar kəndi ərazisindədir.
6. III Qaralar nekropolu - e. ə. IX-XVII əsrləri əhatə edir, Qaralar kəndi ərazisindədir.
7. Muğan nekropolu - e. ə. VI-I əsrləri əhatə edir, Muğan kanalının yaxınlığındadır.
8. Abasbəyli nekropolu - e. ə. II-III əsrləri əhatə edir, Sarısuçay-Cərgəlana çay töküldüyü yerdədir.
9. Məmmədabad nekropolu - e. ə. II-III əsrləri əhatə edir, Məmmədabad kəndi ərazisində yerləşir.

Qədim yaşayış yerləri:

1. Araz düşərgəsi - Araz çayının sahillərində indiki Qıraqlı kəndi yaxınlığında daş dövrünə aid edilən düşərgə izi olmaqla neolit dövrünə aid edilir.
2. Qaralar tunc dövrü yaşayış yeri - Qaralar kəndi yaxınlığında aşkar edilməklə e. ə. III-II minilliklərə aid edilir.
3. Abasbəyli yaşayış yeri - indiki Nərimankəndin şərq tərəfində aşkar edilmişdir - bu abidə XI-XIII əsrlərə aid edilir.

4. Muğan yaşayış yeri - rayonun Azadkənd kəndi ərazisində aşkar edilməklə insanlar tərəfindən əsrlər boyu qışlaq kimi istifadə olunmuşdur.

5. Məmmədabad yaşayış yeri - buradan tapılmış materiallar əsasında yaşayış yerini X-XVI əsrlərə aid edirlər.

6. Sarısu yaşayış yeri - buradan tapılmış saxsı qablar IX-XII əsrlər üçün səciyyəvidir.

7. Əlisoltanlı və Bəylər orta əsr yaşayış yerləri - tapılmış məişət əşyaları XII-XVI əsrlərə aid edilir.

## Sabirabad rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,47 min kv. km**

**Əhalinin sayı - 180,5 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 123 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 74**

**Sabirabad rayonu ilə Bakı arasında olan məsafə - 170 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Sabirabad rayonu** | 151713 | 100,0 | 75019 | 49,0 | 76694 | 51,0 |
| şəhər əhalisi | 28281 | 18,64 | 13785 | 18,38 | 14496 | 18,90 |
| kənd əhalisi | 123432 | 81,36 | 61234 | 81,62 | 62198 | 81,10 |

**Ümumi məlumat**

Sabirabad rayonu Azərbaycanı yaradan bir neçə torpaq hissəsindən biri olan Muğan düzənliyinin şimalında Kür və Araz çaylarının qovuşduğu düzənlikdə yerləşir. Sabirabad rayonu 1930 ildə təşkil edilmişdir. Mərkəzi Sabirabad şəhəridir.

Bakı şəhərindən 170 km məsafədə, dəniz səviyyəsindən 28, okean səviyyəsindən 16 m aşağıda yerləşir. Rayon şimaldan Kürdəmir rayonu ilə 30 km, şimal-şərqdən Şamaxı rayonu ilə 5 km, şərqdən Şirvan şəhəri ilə 24 km, cənub-şərqdən Salyan rayonu ilə 48 km, cənubdan Biləsuvar rayonu ilə 18 km, qərbdən Saatlı rayonu ilə 136 km və İmişli rayonu ilə 8 km qonşudur. Şimaldan-cənuba 66 km, qərbdən-şərqə 24 km məsafədə uzanır. Rayonun ərazisinin bir hissəsi Kür çayının sağ sahilində Şirvan düzündə yerləşir.

Rayona Sabirabad şəhəri və Ulaclı, Bulduq, Mürsəlli, Şıxlar, Qalaqayın, Balakənd, Surra, Qaralı, Balvar, Axısxa, Qaralar, Qəfərli, Əsədli, Məmişlər, Kürkəndi, Suqovuşan, Bulaqlı, Yastıqobu, Qara-təpə, Nərimankənd, Əhmədabad, Yolçubəyli, Türkədi, Narlıq, Həşimxanlı, Ətcələr, Azadkənd, Poladtoğay, Xankeçən, Çığırğan, Nizami, Nəsimi, Rüstəmli, Qardaşkənd, Hacıbəbir, Çöldəllək, Güdəcühür,

Qaratoğay, Minbaşı, Qarağac, Beşdəli, Yaxadəllək, Muğangəncəli, Cəngən, Salmanlı, Çiçəkli, Moranlı, Sarxanbəyli, Çölbeşdəli, Zalqarağac, Şıxsalahlı, Osmanlı, Şəhriyar, Xələfli, Qaragüney, Dadaşbəyli, Əliləmbəyli, Çölağaməmmədli, Quruzma, Qaraqaşlı, Qəzli, Yenikənd, Kovlar, Qasımbəyli, Əsgərbəyli, Axtaçı, Muradbəyli, Cavad, Əlicanlı, Həsənli, Zəngənə, Axtaçı, Bala Həşimxanlı, Axtaçı Muğan kəndləri daxildir.

Sabirabad rayonunun ərazisi düzənlikdir və dəniz səviyyəsindən 16 *m* aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. Rayonda yerli əhəmiyyətli qum və gil faydalı qazıntı yataqları vardır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur yanvarda 1,8°C, iyulda 26,5°C-dir. İllik yağıntı təqr. 300 *mm*-dir. Əsas çayı Kürdür. Sarısu göllərinin bir hissəsi Sabirabad rayonundadır. Baş Şirvan kollektoru rayonun şimal hissəsindən keçir. Küryanı kollektorlar Sabirabad rayonu ərazisindən başlanır. Əsasən boz-çəmən torpaqları yayılmışdır. Yarımsəhra bitkiləri üstünlük təşkil edir. Kür çayı sahilində tuqay meşələri mövcuddur. Heyvanları: çöldonuzu, bataqlıq qunduzu, qumsiçanı və s. Su və bataqlıq quşlarının qışlaqları var.

Sabirabad iri pambıqçılıq, taxılçılıq, heyvandarlıq və bostançılıq rayonudur.

Rayondakı yerli əhəmiyyətli qum, gil faydalı qazıntılarından tikintidə istifadə edilir. Bölgədə otlaq və su ehtiyatlarının olması nəticəsində qədim zamanlardan maldarlıq və heyvandarlığın inkişafı üçün təbii imkanlar mövcud olmuşdur. Məhz həmin imkanlar Muğan ərazisində otlaq əkinçi tayfalarının məskunlaşmasına şərait yaratmışdır. Muğan torpağının bərəkəti artdıqca bu yerlərə xarici işğalçıların qalaya çevirərək bu yerə Qalaqayın (möhkəm qala) adını vermişdir.

XIX əsrin axırlarında Kür və Araz çaylarının sahillərində Petropalovka adlanan kənd salınmağa başlanmışdır. 1887-ci ildə Ukraynalı kəndlilər Muğana köçürülərək bu məntəqədə məskunlaşdırılmışdır. 1901 - ci ildə bu ərazidə cəmi 87 təsərrüfat olmuşdur. Keçən əsrin əvvəllərində Qalaqayın adlanan Sabirabadın iqtisadi inkişafı başlanmışdır. 1913-cü ildə burada pambıqtəmizləmə zavodu, iki kustar sənaye müəssisəsi-dəyirman işə salınmışdır. 1920-ci ildən sonra Petropalovka adlanan məntəqə iqtisadi inkişafına görə böyüyərək 1930-cı il avqustun 8-də yeni təşkil edilmiş rayon mərkəzinə çevrilmişdir. 1931-ci il oktyabr ayının 2-də şəhər böyük Azərbaycan şairi M. Ə. Sabirin şərəfinə Sabirabad adlandırılmışdır. 1952-ci il noyabrın 7-də rayona şəhər tipli qəsəbə, 1959-cu il dekabrın 4-də isə şəhər adı verilmişdir.

Sabirabad ərazisi müxtəlif dövrlərə aid qədim, orta yaşayış yerləri və qəbir abidələri ilə zəngindir. Suqovuşan, Surra, Qalaqayın, Cavad, Qaratəpə, Şəhərğah, Qaradaşlı yaşayış yerləri, Baba-Səmid piri (XIV əsr), köhnə hamam (1900-cü il), şəhər məscidi (1903-cü il) bu qəbildən olan abidələrdəndir. Bu bölgədə arxeoloji qazıntılar nəticəsində iki şəhər qalığı aşkar edilmişdir. Qalıqları indiki Cavad kəndi yaxınlığında yerləşən Cavad şəhəri və Sabirabadın Zəngənə kəndi yaxınlığında aşkar edilmiş Şəhərğah Azərbaycanın orta əsr şəhərlərindən olmuşdur. Maddi mədəniyyət qalıqları hər iki şəhərin Muğan zonasının iri iqtisadi və ticarət mərkəzi olduğunu sübut edir.

Sabirabad rayonu Ermənistan dövlətinin ölkəmizə qarşı apardığı işğalçı müharibədə 210 nəfər şəhid verməklə 2 Milli Qəhrəman, 3 Azərbaycan Bayrağı ordenli igid əsgərlər yetişdirmişdir.

Sabirabadın yenidən qurulması və inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. O, 14 dəfə Sabirabadda olmuşdur. Rayona təbii qaz xəttinin çəkilişi, əhalinin içməli su ilə təmin edən Qrup su kəmərinin tikilməsi, Kür çayı üzərində salınmış körpünün, Rabitə evinin, Mədəniyyət sarayının, inzibati binaların, çoxmərtəbəli yaşayış evlərinin, 16542 yerlik 30 məktəbin tikilib istifadəyə verilməsi ümummilli liderimizin adı ilə bağlıdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda radio və televiziya verilişləri ötürücü stansiya vasitəsilə yayımlanır, «Muğanın səsi» qəzeti nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Sabirabad rayonunun ərazisindəki avtomobil yollarının uzunluğu 481 kilometrdir. Ondan 123 km respublika əhəmiyyətli, 358 km isə yerli əhəmiyyətli yollar hesab olunurlar.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonun ərazisində 4 (dörd) tarixi memarlıq abidəsi mövcuddur. Bu abidələr qeydiyyata götürülmüş və onların üzərinə qoruq lövhələri vurulmuşdur.

Rayonun Şıxlar kəndi ərazisində yerləşən «Baba Samit» abidəsinin üzərindəki daş kitabəyə əsasən onun 993-cü hicri ilinin Zülqəddə ayında (1585-ci miladi ili) inşa olduğunu bildirilir. Abidə tarixi memarlıq tikintisi kimi görkəmini saxlayır.

Rayonun Qalaqayın kəndindəki «Qalaqayın» məscidində saxlanılan daş kitabədə onun 1247 hicri qəməri tarixində Hacı Zeynalabdin tərəfindən təmir olunduğu göstərilir. Məsciddə köhnə tikilidən yalnız həmin kitabə saxlanılmışdır.

Rayonun Q.Namazəliyev küçəsi, dalan 1-də yerləşən «Şamaxı məscidi» 1903-cü ildə inşa edilmişdir. Məsciddə yenidənqurma işləri görülsə də tarixi memarlıq baxımından görkəmi qorunub saxlanılmışdır.

Rayonun Fizuli küçəsində «Köhnə hamam» tarixi memarlıq abidəsi 1900-cü ildə inşa edilmişdir. Abidə öz görkəmini saxlamışdır.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Salyan rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,60 min kv. km**

**Əhalinin sayı -139,6 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 87 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 48**

**Qəsəbələrin sayı – 2**

**Salyan rayonu ilə Bakı arasında olan məsafə - 126 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Salyan rayonu** | 121871 | 100,0 | 60338 | 49,1 | 61553 | 50,9 |
| şəhər əhalisi | 40830 | 33,50 | 19715 | 32,67 | 21115 | 34,31 |
| kənd əhalisi | 81041 | 66,50 | 40623 | 67,33 | 40418 | 65,69 |

**Ümumi məlumat**

Cənub-Şərqi Şirvan və Salyan düzlərində yerləşir. Şərqdən kiçik sahədə Xəzər dənizi ilə hüdudlanır. Mərkəzi Salyan şəhəridir.

Rayona Salyan şəhəri, Kürsəngi, Qaraçala, Aydıngün, Yolüstü, Aşağı Kürkəndi, Düzənlik, Peyk, Qırxçıraq qəsəbələri və Xıdırlı, Çadırlı, Pambıqkənd, Bəşirbəyli, Arbatan, Aşağı Noxudlu, Yuxarı Noxudlu, Xurşud, Birinci Varlı, İkinci Varlı, Yenikənd, Şəkərli, Həsənli, Qardili, Qarabağlı, Təzəkənd, Kərimbəyli, Gomuşçu, Kolanı, Qızılağac, Bəydilli, Alçalı, Quyçu, Kür Qaraqaşlı, Beştalı, Cəngan, Ərəbqaradaşbəyli, Xocalı, Marışlı, Seyidsadıqlı, Sarvan, Dayıkənd, Seyidlər, Xələc, Abadkənd, Çuxanlı, Piratman, Gəncəli, Parça Xələc, Seyidan, Şorsulu, Borankənd kəndləri daxildir.

Səthi düzənlikdir. Şərqdə tirə və təpəliklər (Hərəmi, Mişovdağ və s.) vardır. Ərazisinin çox hissəsi dəniz səviyyəsindən 28 *m*-ədək aşağıda yerləşir. Neogen və Antropogen çöküntüləri yayılmışdır. Palçıq vulkanları (Qalmas, Mişovdağ və s.) var. Faydalı qazıntıları: neft, qaz. Yayı quraq keçən mülayim isti yarım-səhra və çöl iqliminə malikdir. Orta temperatur yanvarda 2,5°C, iyulda 26,2°C-dir. İllik yağıntı 250-350 *mm*-dir. Ərazisindən Kür çayı axır. Boz-qonur, boz-çəmən, çəmən-bataqlıq, şoran torpaqlar

yayılmışdır. Bitki örtüyü yarımsəhra və səhra tiplidir. Ceyran, qırmızı-quyruq qumsiçanı, Kiçik Asiya qumsiçanı, gürzə, turac və s. var. Şirvan Milli Parkı və Bəndovan yasaqlığı rayon ərazisindədir.

Salyan, əsasən, kənd təsərrüfatı rayonudur. Əkinçilik və heyvandarlıq inkişaf etmişdir. "Salyan Oyl" LTD şirkəti, "Salyan-Pambıq" ATSC, "Salyan Qida Məhsulları" istehsalat kommersiya şirkəti, "Plastik Kütlə Emalı" ASC, "Salyan-Taxıl" ATSC, telekommunikasiya qovşağı, Kürsəngi Qazma İşləri İdarəsi, Neft məhsulları bazası, rels qaynaq qatarı, lokomotiv deposu, "Salyan-Çörək" ATSC, xalça sexi və s. sənaye müəssisələri var.

«Salyan» sözü etimologiyası haqqında müxtəlif mülahizələr vardır. Elmi tədqiqatlara əsasən demək olar ki, türkdilli tayfaların içərisində «sal» tayfası olmuşdur. Onlar bir zamanlar Volqaboyu sahillərdə yaşamış, həmin ərazidəki düzənliklərdən biri «Sal» düzənliyi olmuşdur.

Bundan əlavə Şərqi Avropa düzənliklərindən axan Don çayının qollarından biri Sal çayı adlanır. Salyan yaşayış məntəqəsi keçmişdə bu ərazidə məskən salmış «sal» tayfasının adını daşıyır.

Bir fakta əsasən Bizans tarixçisi Menandr 558-ci il hadisələrindən bəhs edərkən sal adlı tayfanın avar adlı türk tayfa birləşməsi ilə Cənubi Rusiya çöllərində müharibələr apardığını yazır. Güman ki, salların müəyyən hissəsi avarlarla Azərbaycana gəlib məskunlaşmışdır. Bunu XIV əsr tarixçisi Həmdullah Qəzvinin Kür çayının mənsəbində bir şəhərin «Abar» şəhər adlandığı qeyd edilir.

Salyan hələ XIII əsrdə diqqəti cəlb edəcək dərəcədə böyük yaşayış məntəqəsi olmuşdur. Nə vaxtdan salındığı dəqiq məlum deyil. Lakin bir məntəqə kimi XV əsrin ortalarına aid edilir.

Şirvanşahların Muğan, Təbriz, İran şəhərləri ilə ticarət əlaqələri Salyandan keçmişdir. XVII-XVIII əsrlərdə İran, Şimali Qafqaz, Türküstan və Rusiya ilə ticarət yolları uzun müddət Salyandan keçmişdir. Salyandan bu şəhərlərə satmaq üçün balıq, kürü, tənbəki, ağ və zolaqlı bez aparılırdı.

XVIII əsrdə Salyanda Zərbxana olmuş və burada gümüş, miss pullar kəsilmişdir.

1795-ci ildə Ağa Məhəmməd Şah Qacarın 12 minlik qoşunu Şamaxıya hücum edərkən müqavimət göstərdiyi üçün Salyanı talan edib, dağıtmışdır.

1868-ci ilin fevralında Bakı quberniyası daxilində Cavad qəzası yaradılanda Salyan bu qəzanın inzibati idarəçilik və mədəni mərkəzi oldu. XX əsrin əvvəllərində burada gücü 3-4 min tona çatan 3 xırda pambıqtəmizləmə müəssisəsi, kiçik istilik-elektrik stansiyası, 4 ibtidai məktəb və kitabxana yaradılmışdır.

Belə ki, 1863-cü il kameral siyahıya alınmadan aydın olur ki, şəhərdə 1292 ev, 10634 nəfər sakin olmuşdur.

Bu vaxt şəhərdə bez istehsal edən 20 kiçik toxucu müəssisə, 200 dükan, 5 ticarət bankı, 3 karvansara, gəmi körpüsü, poçt stansiyası, karantin gömrükxana, 11 mədrəsə fəaliyyət göstərmişdir.

Bütün Cənubi Rusiyada və Qafqazda ilk dəfə olaraq 1894-cü ildə Salyanda metereoloji stansiya yaradılmışdır.

Salyan həm də İpək yolu üstündə yerləşən bir ticarət mərkəzi olmuşdur. Hələ e. ə. II əsrdən etibarən Çin və Hindistandan gələn tacirlər indiki Türkmənbaşından (keçmiş Krasnovodsk) dəniz yolu ilə üzərək Kürün Xəzərə töküldüyü yerdən (indiki Bankə qəsəbəsi) Kürə keçib, üzərək bütün Azərbaycan

ərazisindən, yəni həm də Salyandan keçərək Gürcüstandakı Rioni çayını keçir, buradan isə Qara dənizin sahilindəki Poti limanına çatmaqla Qara dənizə, oradan da Aral dənizinə keçirlərmiş.

Salyan uzun müddət Muğanın və cənub-şərqi Muğanın maarif, mədəniyyət mərkəzi olmuşdur.

1881-ci ildə şəhərin ümumi torpaq sahəsi - 800 desyatin olmuşdur.

Salyan XIX əsrdə Cavad qəzasının, bütünlükdə Muğan-Salyan zonasının inzibati idarəçilik və mədəni mərkəzi olmuşdur.

Salyan 1916-cı ildən şəhər hesab olunur.

1916-cı ildən 1930-cu ilə kimi qəza mərkəzi olmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Qələbə» ictimai-siyasi qəzetin redaksiyası yerləşir. Qəzet həftədə bir dəfə dərc edilir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Cümə məscidi - 1965-ci il.

Ərəb Bəbirxanlı məscidi - XIX əsrin II yarısı

Hacı Tağı məscidi - 1906-cı il.

Şili məscidi - 1914-cü il.

Hacı Səməd məscidi - 1907-ci il.

Ağa Mirəşrəf məscidi - 1910-cu il.

Hacı Səməd məscidi - 1914-cü il.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Samux rayonu

**Yaranma tarixi - 18.02.1992**

**Ərazisi - 1,45 min kv. km**

**Əhalinin sayı - 58,6 min nəfər (1 yanvar 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 40 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhərin sayı - 1**

**Kəndlərin sayı - 28**

**Qəsəbələrin sayı – 6**

**Samux rayonu ilə Bakı arasında olan məsafə - 362 km**




## Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Samux rayonu** | 53708 | 100,0 | 26573 | 50,0 | 27135 | 50,0 |
| şəhər əhalisi | 20358 | 37,90 | 10078 | 37,93 | 10280 | 37,88 |
| kənd əhalisi | 33350 | 62,10 | 16495 | 62,07 | 16855 | 62,12 |

**Ümumi məlumat**

Samux rayonu Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 18 fevral 1992-ci il tarixli 72 saylı qərarı ilə mərkəzi Səfərəliyev şəhər tipli qəsəbəsi olmaqla keçmiş Səfərəliyev rayonunun ərazisində təşkil edilmişdi. Milli Şuranın 31 dekabr 1992-ci il tarixli qərarı ilə Səfərəliyev qəsəbəsinin adı dəyişdirilərək Nəbiağalı qəsəbəsi olmuşdur.

Səfərəliyev rayonu Azərbaycan SSRİ Ali Sovetinin 24 yanvar 1940-cı il tarixli 11 saylı qərarı ilə Kirovabad şəhər rayonlarının tərkibindən çıxarılaraq Respublika rayonlarının tərkibinə daxil edilmişdir. 1948-ci ildən başlayaraq Mingəçevir Su Elektrik Stansiyasının tikintisi ilə bağlı ərazisinin çox hissəsi su altında qalmış keçmiş Samux rayonu 28 yanvar 1954-cü il tarixdə ləğv edilərək Səfərəliyev rayonuna birləşdirilmişdir.

Azərbaycan SSR Ali Sovetinin 4 dekabr 1959-cu il tarixli qərarı ilə Səfərəliyev rayonu müstəqil rayon kimi ləğv edilərək Gəncə şəhərinə birləşdirilmişdir. 1963-cü ilin yanvar ayından etibarən keçmiş Səfərəliyev rayonunun ərazisi Göygöl rayonunun tərkibinə daxil edilmişdir. Mərkəzi Nəbiağalı qəsəbəsidir.

Rayona Nəbiağalı, Qarayeri, İnstitut, Qaraarx, Alabaşlı, Qırmızı Samux qəsəbələri və Kolayır, Yenikənd, Çobanabdallı, Qarabağlar, Sərkar, Füzuli, Əhmədbəyli, Yuxarı Ağasıbəyli, Aşağı Ağasıbəyli, Seyidlər, Sarıqamış, Lək, Hacallı, Əlibayramlı, Qovlarsarı, Ziyadlı, İstixana, Poylu, Qarabağlı, Salahlı, Kəsəmən, Zazalı, Əliuşağı, Tatlı, Qiyaslı, Lüksemburq, Burunqovaq, Hadılı, Yenibağ, Bağbanlar, Qaraarx kəndləri daxildir.

Rayon əhalisi əsasən azərbaycanlılardan ibarətdir. Bundan əlavə rayon əhalisinin 0,22 faizini ruslar, 1,2 faizini türklər, 1,74 faizini isə kürdlər və s. təşkil edir.

Samux rayonu Gəncə-Qazax bölgəsinə və Orta-Kür iqtisadi rayonuna daxildir.

Rayonun ərazisi Gəncə şəhəri, Göygöl, Şəmkir, Tovuz, Qax, Yevlax, Goranboy rayonları və Gürcüstan Respublikası ilə həmsərhəddir.

Samux rayonunun ərazisi əsasən düzənlikdir. Ərazinin bir hissəsi Kür çökəkliyinə, Ceyrançöl fiziki-coğrafi sahəsinə, Boz dağ massivinə düşməklə şimalda Alazan vadisi ilə əhatə olunmuşdur. Şimalda və şərqdə alçaq dağlıqdır. Neogen, Antropogen çöküntüləri yayılmışdır. İqlimi mülayim kontinental, mülayim isti, yarımsəhra və quru çöl tiplidir. Orta temperatur yanvarda 1°C, iyulda 25°C-dir. İllik yağıntı 250 *mm*-dir. Çayları Qabırrı, Qanıx, Gəncə və Qoşqardır. Mingəçevir su anbarının şimal-şərq hissəsi buradadır. Rayonun Ceyrançöl sahəsində, Kür çökəkliyində və Bozdağ massivində adı "Qırmızı kitab"a düşmüş ceyran və turacla yanaşı vaşaq, çölpişiyi, qaban, kəklik, qırqovul, meşə xoruzu kimi nadir heyvan və quşlar məskunlaşmışdır. Eldar şamı, əsasən, Samux rayonu ərazisində bitir. Eldar Şamı Dövlət Təbiət Qoruğu rayon ərazisindədir.

Samux rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edir. Rayonda 2 toxumçuluq müəssisəsi, bitki mühafizə stansiyası, suvarma sistemləri idarəsi, baytarlıq idarəsi, Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu, regional milli hidrometeorologiya müəssisəsi, asfalt-beton, qum-çınqıl zavodları, süd emalı müəssisəsi, şərab zavodu, günəbaxan yağı istehsalı sexi, pambıq emalı zavodu, qənnadı sexi var.

Samux rayonunun mərkəzi Nəbiağalı qəsəbəsində 5 hektar sahədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan Mərkəzi İstirahət Parkı salınmışdır. Parkın ən hündür yerində Ulu Öndərimizin portreti ucaldılmışdır. Parkda əhalinin istirahəti üçün hər cür şərait yaradılmışdır.

Rayon mərkəzində Heydər Əliyevin adını daşıyan prospekt, 17 küçə və 4 döngə vardır.

Tarix elmləri namizədi Arif Məmmədovun «Samux mahalının tarixi-arxeoloji tədqiqinə dair» kitabında qeyd edildiyi kimi, Samux mahalının adı, xarabalıqları qalın Samux meşələrində hələ XX yüzilliyin başlanğıcında qalmaqda olan Samux şəhərinin adındandır. Bu şəhərin ərazisi Kürün hər iki sahilində Qazanın dağlarının ətəklərini Qanlı Qobu ilə Qabırrı vadisi arasında olan ərazini əhatə edirdi.

Samux sözünün mənasına gəldikdə isə bu haqda müxtəlif fikirlər vardır. Belə ki, R. Yüzbaşov «Samux» sözünü yayda ərazidən keçən isti küləklə əlaqələndirir.

Bəzi tədqiqatçıların əsərlərində Samux toponiminin alban sözü olub, meşəlik, ov yeri mənasını bildirdiyi əsaslandırılır.

«Azərbaycan dilinin onomastikası» adlı əsərdə Samux adının - zoonim mənşəli söz olub, at adı ilə əlaqədar olduğu bildirilir.

Bir qisim məlumatda isə adın birinci hissəsinin «Sam» - öküzün boyunduruğuna keçirmək üçün düzəldilən ağac mənasını, Samux sözünün isə belə ağacların çoxlu bitdiyi ərazi kimi işlədildiyi haqqında nəticəyə gəlinir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayon ərazisində 1992-ci il 22 iyul tarixdən «Yeni Samux» qəzeti redaksiyası fəaliyyət göstərir. Qəzetin təsisçisi Samux rayon İcra Hakimiyyəti və «Yeni Samux» qəzetinin jurnalist kollektividir.

Bir ədəd radio qovşağı 2004-cü ildən efirə çıxır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

1. Respublika əhəmiyyətli yollar:

1. Gəncə-Yenikənd-Poylu - 60 km - III-IV dərəcəli yollar Bundan: 26 km - asfalt beton, 21 km - qara örtüklü, 13 km - çınqıl örtüklüdür.

2. Yerli əhəmiyyətli yollar:

1. Qırmızı Samuxa giriş - 11 km, IV dərəcəli - qara örtüklü.
2. Gəncə-Qarayeri-Üçzoz - 15 km, III-IV dərəcəli. Bundan 13 km asfalt beton, 2 km qara örtüklü.
3. Zazalı - Az ETPİ - Lək - 21 km, III-IV dərəcəli. Bundan 14 km - asfalt beton, 7 km - qara örtüklü.
4. Alıuşağı-Ağasıbəyli - 28 km. III-IV dərəcəli. Bundan 8,2 km asfalt beton, 19,8 km qara örtüklü.
5. Kolayır-Alıncalı-Sərkar - 4 km. III dərəcəli. Asfalt beton örtüklü.
6. Şose Gəncə-Sərkar - 4 km. III dərəcəli. Asfalt beton örtüklü.
7. Sərkar-Ziyadlı-Qovlarsarı - 6,5 km. III dərəcəli. Asfalt beton örtüklü.
8. Şose Gəncə-Ziyadlı giriş - 3 km, III dərəcəli. Asfalt beton örtüklü.
9. Qovlarsarı-Qarayeri-Qaraarx - 10 km. III-IV dərəcəli. Bundan 3 km asfalt beton, 7 km qara örtüklü.
10. Qarayeri-Seyidlər-Qədili - 12 km. IV dərəcəli, qara örtüklü.
11. Kür şose - Sarıqamış - 3,5 km. IV dərəcəli, qara örtüklü.
12. Nəbiağalı-Füzuli - 2 km. IV dərəcəli, qara örtüklü.
13. Kəsəmən-Burunqovaq - 35 km. IV dərəcəli, qurunt yol. Cəmi: 214,5 km.

Samux rayonu ərazisində dəmir yolunun ümumi uzunluğu 111000 metrdir.

O cümlədən:

Əliuşağı kəndi ərazisində - 3850 metr

Zazalı kəndi ərazisində - 4640 metr

Alabaşlı qəsəbəsində - 2610 metr

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Kolayır kəndində 1300 yaşlı «Dül-dül» çinarı, Çobanabdallı kəndi ərazisində Çoban Abdal körpüsü, Çoban Abdal ocağı, Kür sahilində Sirəcəddin Ağanın türbəsi, almanlar tərəfindən tikilmiş Qarayeri qəsəbəsindəki zirzəmilər, Nəbiağalı qəsəbəsində Hacıalar məscidi və s. abidələr vardır. Əhali «Dül-dül» çinarı, Çoban Abdal ocağını, Sirəcəddin Ağanın türbəsini inam, etiqad yeri kimi ziyarət edir, sınanmış ocaq kimi nəzir-niyaz aparır, niyyət edirlər.

Rayonun Lək kəndində mədəniyyət evinin qarşısında M. F.Axundovun büstü ucaldılmışdır.

«Samux mahalının tarixi-arxeoloji tədqiqinə dair» kitabında qeyd edildiyi kimi, Samux rayonunun ərazisində qeydə alınmış arxeoloji və tarixi abidələr əsasən aşağıdakılardan ibarətdir:

Şəhərburnu yaşıyış yeri (Qarasaqqal kəndində);

Türbə (Qarasaqqal kəndində);

Kurqanlar (Nəbiağalı kəndində);

Məscid (Nəbiağalı kəndində);

Məscid (Əhmədbəyli kəndində);

Dəyirman (Əhmədbəyli kəndində);

Körpü (Çobanabdallı kəndində);

Qəbiristanlıq (Hacıalılı kəndinin girəcəyində, solda);

Türbə (Füzuli kəndində);

Koroğlu qalası;

Elləroyuğu;

İmamzadə Türbəsi (Gəncə şəhərinin tabeçiliyində olsa da Samux rayonunun ərazisində yerləşir);

Zirzəmi (Qarayeri qəsəbəsində 1895-ci ildə almanlar tərəfindən tikilib);

Şəhər tipli yaşayış yeri (Çobanabdallı kəndində).

Rayonun 9 kənd və qəsəbələrində 1941-1945-ci il müharibəsinin qələbəsinin 50 illiyində inşa edilmiş abidələr (Nəbiağalı, Qarayeri qəsəbələrində, Kolayır, Sərkar, Ziyadlı, Çobanabdallı, Lək, Ziyadlı, Əhmədbəyli kəndlərində) və 20 yanvar şəhidlərinin xatirəsinə tikilmiş abidələr (İnstitut qəsəbəsində, Kolayır, Sərkar kəndlərində) vardır.

Arxeoloji qazıntılar zamanı tapılan tarixi abidələrdən III-V əsrlərə aid olan «Liman» Samux qəsəbəsi Kür çayının sağ sahilində tapılmışdır. Bu baxımdan Samux qəsəbəsinin Cənub tərəfində tapılan «Gil tikintisi» XIII-XV əsrlərə aid edilir. Son Tunc dövrünə aid olan «Kurqanlar» Çobanabdallı kəndində aşkar edilmişdir. XV əsrə aid olan «Dinaraq» yaşayış yeri Çobanabdallı kəndində olmuşdur. Bundan başqa həmin kənddə olan «Narlı qoruq» yaşayış yeri XIII əsrə aiddir. Arxeoloji qazıntılar zamanı Çobanabdallı kəndində bir çox arxlar, Zazalı kəndində isə kəhrizlər aşkar edilmişdir ki, bunlar aşağıda adları qeyd olunanlardır: Kor arxı XIV, Qızıl Hacılı arxı - XIV, Xan arxı - XVI, Balabəhmən - XV, Xan arxı - XV (bu ikinci Xan arxıdır), Karxana arxı - XV, Arazbar - XV, Şatır arxı - XVI, Xanlıq - XVI,

Çölək arxı - XVI əsrlərə aid edilmişdir. Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Siyəzən rayonu

**Yaranma tarixi – 02.04.1992**

**Ərazisi - 0,70 min kv. km**

**Əhalinin sayı – 41,8 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 60 nəfər (1 yanvar, 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 32**

**Qəsəbələrin sayı – 1**

**Siyəzən rayonu ilə Bakı arasında olan məsafə - 103 km**




**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Siyəzən rayonu** | 37654 | 100,0 | 18512 | 49,9 | 19142 | 50,1 |
| şəhər əhalisi | 24703 | 65,61 | 12070 | 65,20 | 12633 | 66,00 |
| kənd əhalisi | 12951 | 34,39 | 6442 | 34,80 | 6509 | 34,00 |

**Ümumi məlumat**

Siyəzən rayon kimi ilk dəfə 11 fevral 1940-cı ildə təşkil olunmuş və 1959-cu ildə ləğv edilərək Dəvəçi rayonunun tərkibinə verilmişdir.

2 aprel 1992-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarı ilə Siyəzən rayonu 1959-cu il sərhədləri daxilində yenidən bərpa olunmuşdur. Siyəzən rayonu Samur-Dəvəçi ovalığında, Xəzər sahilindədir. Mərkəzi Siyəzən şəhəridir. Siyəzən rayonu Azərbaycanın şimal zonasında respublikanın paytaxtı Bakı şəhərindən 100 km məsafədə Xəzər dənizinin sahilində yerləşməklə iki tərəfdən Xızı və Şabran rayonları ilə həmsərhəddir.

Rayona Siyəzən şəhəri, Gilgilçay qəsəbəsi və Yenikənd, Tağay, Kolanı, Böyük Həmyə, Kiçik Həmyə, Zarat, Çahandar, Eynibulaq, Məşrif, Qalaaltı, Qozağacı, Qərəh, Daşlı Calğan, Orta Calğan, Sədan, Çarxana, Sağlocan, Mükülqazma, Beşdam, Qara Siyəzən, Dərəzarat, Nardaran, Dağquşçu, Əlməkolu, Ərziküş, Yuxarı Ələz, Yanıq Ələz, Hacışəkər, Köhnəquşçu, Qaragöz, Künövşə, Qalaşıxı kəndləri daxildir.

Relyefi cənub-qərbdə alçaq dağlıq, şimal-şərqdə düzənlikdir. Dəniz sahili hissəsi dəniz səviyyəsindən 28 *m* aşağıdadır. Neogen və Antropogen çöküntüləri yayılmışdır. Neft, təbii qaz, əhəngdaşı, çınqıl, gil və s. faydalı qazıntıları var. Müalicə əhəmiyyətli mineral su çıxır (Qalaaltı). İqlimi ovalıq və dağətəyi yerlərdə mülayim isti quru subtropikdir. Orta temperatur yanvarda 1,5°C, iyulda 23-25°C-dir. Yayı quraq keçir. İllik yağıntı 200-400 *mm*-dir. Çayları (Gilgilçay, Ataçay və s.) Xəzər hövzəsinə aiddir. Dağlıq hissədə şabalıdı və açıq şabalıdı, ovalıqda şorakətvarı boz-qonur torpaqlar yayılmışdır. Əsas bitki örtüyü yovşanlı və yovşanlı-şoranotulu yarımsəhralardan və dəniz sahili qumluq bitkilərindən ibarətdir. Heyvanları: tülkü, boz dovşan, çölsiçanı və s. Quşları: göyərçin, qaraqarın bağrıqara, su quşları və s.

Rayonun iqtisadiyyatının əsasını neft sənayesi təşkil edir. Həmçinin əkinçilik, heyvandarlıq, balıqçılıq, meyvə-tərəvəzçilik inkişaf etdirilir. Rayonda "Siyəzən-neft" NQÇİ, "Siyəzən-Broyler" ATSC, kərpic zavodu və s. istehsal müəssisələri var.

Rayonda 96 qaçqın və məcburi köçkün ailəsi məskunlaşmışdır. Respublikamızın ərazi bütövlüyü uğrunda erməni qəsbkarlarına qarşı müharibədə 71 nəfər şəhidlik zirvəsinə yüksəlmiş, 48 nəfər əlil olmuşdur.

Ölkəmizi qonşu Rusiya Federasiyası ilə birləşdirən dəmir yolu, Bakı Quba avtomobil yolu, Samur-Abşeron kanalı, birinci və ikinci Bakı su (şollar) kəmərləri rayon ərazisindən keçir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda «Çıraq» adlı ictimai-siyasi qəzet 1992-ci ildən fəaliyyət göstərir.

Qəzetin təsisçiləri Siyəzən Rayonu İcra Hakimiyyəti aparatı və redaksiyanın jurnalist kollektividir. 1992-1993-cü illərdə Azərbaycan nəşriyyatında, 1994-2000-ci illərdə isə rayon mətbəəsində çap olunmuşdur. 2002-ci ildən başlayaraq yenidən Azərbaycan nəşriyyatında çap olunur. Hal-hazırda qəzet ayda bir dəfə nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Azərbaycan Respublikasını Rusiya Federasiyası ilə birləşdirən avtomobil və dəmir yolları Siyəzən rayonu ərazisindən keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

***Dünya əhəmiyyətli abidələr:***

1. Beşbarmaq paralel müdafiə səddi - IV-VII əsrlərə aiddir. Bu istehkam Beşbarmaq dağının ətəklərindən Xəzər dənizinə qədər uzanırdı. Səddin bir hissəsi qalıb. Dağın ətəyində daşlardan, düzənlikdə iri çiy kərpicdən sədd bir-birindən 200 m aralı iki divardan ibarət idi. 2. Gilgilçay müdafiə istehkamlar kompleksi - V əsrə aiddir. Abidə Siyəzən rayonunun Yenikənd, Kolanı, Eynibulaq, Daşlı Calğan, Qalaaltı kəndlərindən keçərək Çıraq qala ilə birləşir.

***Ölkə və yerli əhəmiyyətli abidələr:***

1. Pir Xəlil Türbəsi - XVIII əsr. Türbə Gilgilçay qəsəbəsində yerləşir. Hazırkı dövrə qədər salamat qalmışdır.

2. Qala qalıqları - Dindar qalası - orta əsrlər. Qala rayonun Sədan kəndindən təxminən 3 km qərbdə dağın zirvəsində yerləşir. Bu qalanın bürclərindən birinin yalnız qalıqları qalmışdır.

3. Şeyx Heydər türbəsi - XV əsr. Türbə qədim Şıxlar kəndinin qalıqlarından qərbdə kənd qəbiristanlığının içərisindədir. Türbə uçulub dağılmışdır.

4. Karvansaray qalıqları - XV-XVII əsrlər. Bakı-Şabran şose yolunun 87 km sağ tərəfində yerləşir.

5. Şəhərgah - orta əsrlər. Siyəzən şəhərinin şimal hissəsində yerləşir.

6. Su ovdanı - 1906-cı il. Zarat kəndinin yaxınlığında yerləşir.

7. Daş mağara. Bu mağara rayonun Dib kəndində yerləşir.

8. Dəmiryol vağzalı - 1898-ci il. Gil-gilçay stansiyası.

9. Dəmiryol vağzalı - 1913-cü il. Zarat stansiyası.

10. Su kəməri - 1906-cı il. Siyəzən şəhərinin yaxınlığında yerləşir.

11. Dəmiryol vağzalı - 1913-cü il. Qızılburun stansiyası.

12. Su anbarı - 1913-cü il. Qızılburun stansiyasının yaxınlığında yerləşir.

***Xatirə abidələri:***

1. C. Cabbarlının heykəli.

2. M. Müşfiqin heykəli.

3. 1941-1945-ci illər müharibəsinə aid abidə kompleksi.

4. 20 Yanvar abidə kompleksi.

5. «Neftçi şəhidlər» abidə kompleksi.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Sumqayıt şəhəri

**Yaranma tarixi - 22.11.1949**

**Ərazisi - 0,09 min kv. km**

**Əhalinin sayı - 427,0 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 3558 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı – 2**

**Sumqayıt şəhəri ilə Bakı arasında olan məsafə - 31 km**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Sumqayıt şəhəri** | 309446 | 100,0 | 151769 | 48,0 | 157677 | 52,0 |

### Ümumi məlumat

Sumqayıt şəhəri Bakıdan 35 *km* şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində, Sumqayıt çayının mənsəbində, düzənlikdədir. Böyüklüyünə görə respublikanın 3-cü şəhəridir. H. Zeynalabdin və Corat qəsəbələri Sumqayıt şəhərinin tabeliyindədir.

İqlimi quru, subtropikdir. Orta temperatur yanvarda 3,1°C, iyulda 24,9°C-dir. İllik yağıntı 185 *mm*-dir. Sumqayıt üçün şimal küləyi - xəzri və cənub küləyi - gilavar səciyyəvidir.




Sumqayıt miqyasına görə Azərbaycan Respublikasının ikinci iri sənaye mərkəzidir. Şəhərin iqtisadiyyatı kimya və neft-kimya, qara və əlvan metallurgiya, istilik energetika, maşınqayırma və qayırma, tikinti materialları və məmulatları, yüngül və yeyinti sənayesinin müəssisələrindən ibarətdir. Sonrakı dövrdə şəhərdə infrastrukturaya malik olan əsas və köməkçi müəssisələrdən ibarət sənaye kompleksi yaradılmışdır. Şəhər sənayesinin əsasını "Azərboru" Açıq Səhmdar cəmiyyətinin "Sumqayıt alüminium" sahəsi, "Sumqayıt - Məişət kimyası", "Sumqayıt-Superfosfat", "Sumqayıt Aşqarlar", "Sumqayıt-Kompressor" Açıq Səhmdar Cəmiyyətləri, Etilen-polietilen, sintetik-kauçuk, üzvi sintez, Səthi Aktiv

Maddələr zavodları təşkil edir. Şəhərdə "Neftqazavtomat" Elmi istehsalat birliyi, "Xəzər" Səhmdar Cəmiyyəti (şüşə istehsalı üzrə), " Sumqayıt – üst trikotaj", "Sumqayıt-xovlu iplik", "Sumqayıt-toxucu" və "Sumqayıt çörək" Açıq Səhmdar Cəmiyyətləri fəaliyyət göstərir. Sənaye müəssisələrinin əksəriyyəti özəlləşdirilmişdir. Şəhərdə inkişaf etmiş bank sektoru mövcuddur.

**Tarixi haqqında qısa məlumat**

1949-cu il noyabrın 22-də Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Sumqayıta şəhər statusu verilib.

1939-cu ildə Sumqayıtın əhalisi 6400 nəfər olmuşdursa, 1949-cu ildə əhalinin sayı 17200 nəfərə qədər artıb.

1952-ci ilin yeni il axşamı, Boru prokat zavodunun birinci "Stan-140" sexində ilk boru məhsulu alınıb.

1952-ci ildə neft kimya sənayesinin ilki - Sintetik kauçuk zavodu işə başlayıb və bu müəssisədə həmin ilin avqust ayında neft məhsulundan ilk dəfə olaraq etil spirti, həmin ilin sentyabrında sintetik kauçuk istehsal edilib.

1953-cü il 23 oktyabrında Boru prokat zavodunun marten sexi ilk polad ərintisini verib.

1955-ci il 8 mart tarixində Zaqafqaziyada əlvan metallurgiyanın ilki olan Sumqayıt Alüminium zavodu işə başlayıb və zavod ilk məhsulunu verib.

1957-1959-cu illərdə Sumqayıtda sənaye müəssisələri ilə yanaşı, bir sıra elmi-tədqiqat müəssisələri, yaraşıqlı və çoxmərtəbəli yaşayış binaları, mədəni-məişət ocaqları, məktəb və uşaq bağçaları tikilib istifadəyə verilib. O cümlədən:

- 1952-ci ildə Azərbaycan dilində "Sosialist Sumqayıtı" qəzetinin ilk nömrəsi nəşr edilib;
- 1957-ci ildə "Neftkimyaavtomat" elmi-tədqiqat layihə institutu fəaliyyətə başlayıb;
- 1958-ci ildə M.Əzizbəyov adına sənaye institutunun filialı açılıb;
- 1958-ci ildə Sumqayıt-Bakı dəmiryolu işə salınıb;
- 1958-ci ildə S. Vurğun adına mədəniyyət sarayı inşa edilib;
- 1959-cu ildə Rabitə evi istifadəyə verilib;
- 1959-cu ildə birinci tramvay xətti işə düşüb;
- 1959-cu ildə ATS-in birinci növbəsi istifadəyə verilib;
- 1959-cu ildə Sumqayıtda ilk radio verilişləri fəaliyyətə başlayıb.

1954-cü ildə Sumqayıtın baş plan layihəsi təsdiq olunub və bu layihədə şəhər əhalisinin 1970-ci ildə 85000 nəfər olacağı nəzərdə tutulub. Lakin 1970-ci ildə şəhərin əhalisinin sayı 135100 nəfərə qədər artıb.

1960-cı ildə Avropada ən iri neft kimya kombinatının tikintisinə başlanılıb. Kombinat işə buraxıldıqdan sonra burada müxtəlif adda neft kimya məhsulları istehsal edilməyə başlanıb.

1961-1968-ci illərdə Sumqayıtda bir-birinin ardınca yeni müəssisələr işə düşməyə başlayıb. O cümlədən:

- 1961-1964-cü illərdə Superfosfat zavodu işə düşüb;
- 1966-cı ildə 2-ci İEM - ilk sənaye cərəyanını verib;
- 1968-ci ildə polimer-tikinti materialları kombinatı işə başlayıb;

Sumqayıtın yaranmasından ötən müddət ərzində şəhərdə bir sıra mədəniyyət evləri tikilib istifadəyə verilib, geniş istirahət parkları salınıb, Azərbaycan xalqının görkəmli dövlət xadimlərinə abidələr qoyulub. O cümlədən:

1951-ci ildə C. Cabbarlı adına, 1958-ci ildə S. Vurğun adına və 1985-ci ildə Ü. Hacıbəyov adına mədəniyyət evləri tikilib, 1966-cı ildə M. Hüseynzadə adına stadion istifadəyə verilib, müxtəlif vaxtlarda Nəsimi adına dənizkənarı istirahət parkı, şəhər parkı, Sumqayıtda qardaşlaşmış şəhər olan Lüdviqshafen şəhəri ilə dostluq əlaqələrinin rəmzi kimi "Lüdviqshafen" parkı, "Heydər park" salınıb. Şəhərlərin görkəmli yerlərində müxtəlif vaxtlarda Azərbaycan xalqının görkəmli xadimləri N. Nərimanova, C. Cabbarlıya, C. Məmmədquluzadəyə və İ. Nəsimiyə abidələr qoyulub. Şəhərin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.



Sumqayıtda 1969-cu ildən H. Ərəblinski adına Musiqili Dövlət Dram Teatrı fəaliyyət göstərir. Teatrda 170 - dən çox tamaşa hazırlanıb. Respublikanın görkəmli sənətkarlarından Afaq Bəşirqızı, Mərahim Fərzəlibəyov (rejissor) Sumqayıt teatrının yetişdirmələridir. Hazırda teatrda 1 nəfər Xalq artisti, 3 nəfər əməkdar artist çalışır.

Şəhərdə Sumqayıt Dövlət Universiteti, Müəllimlərin Təkmilləşdirmə İnstitutunun Sumqayıt filialı, Dövlət Texniki Kolleci, Tibb məktəbi, Musiqi Texnikumu, Pedaqoji Seminariya və musiqi məktəbləri fəaliyyət göstərir.

Şəhərin mənzil fondu 1,8 mln kvadrat metrdir və 1225 yaşayış binasından, 13 yataqxanadan ibarətdir. Mənzil fondunun 60 %-dən çoxu əhali tərəfindən özəlləşdirilmişdir.

Şəhərin bağlar zonasında 10,6 min bağ sahələri var.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

1. Sumqayıt şəhərinin emblemi - 1964, Sumqayıtın 15 illiyinə həsr olunub.
2. N. Nərimanovun büstü - 1964, müəllif - M. Mirqasımov, İ. İsmayılov və F. Leonyev.
3. C. Cabbarlının büstü - 1968-ci, 1-ci mikrorayon, Gənclik klubu qarşısında. Müəllif - heykəltəraş E. Hüseynov, memar - Y. Rəhimzadə.
4. Sülh göyərçini - 1978, Sülh küçəsində yerləşir, müəllif - V. Nəzirov.
5. Corat qəsəbəsində hamam - XVI əsr.
6. Corat qəsəbəsində hamam - XVII əsr (dənizkənarı).

7. Corat qəsəbəsində məscid - XVII əsr.

8. Corat qəsəbəsində məscid - XVII əsr.

9. Şəhidlər xiyabanı 1988-ci ildə yaranıb.

10. Şəhidlərin xatirəsinə ucaldılmış monument - 1988-1990.

11. 20 Yanvar şəhidlər ansamblı, müəllif - G. Babayev, İ. Məmmədxanov.

12. Poeziya guşəsi - 1970. 5-ci mikrorayon, S. Vurğun və C. Cabbarlının barelyefləri. Müəllif - V. Nəzirov, A. Quliyev.

13. Mozaika - 1977, 36-cı məhəllə, müəllif - V. Nəzirov, M. Qafarov.

14. M. Müşfiqin büstü - 13-cü mikrorayon, 34 saylı məktəbin həyəti. 1993, müəllif - A. Quliyev.

15. "Qarabağ" kinoteatrının fasadında mozaika. 1990, 10-cu mikrorayon, müəllif - V. Nəzirov, Y. Mehdiyev.

16. N. Gəncəvinin, N. Nərimanovun, S. Vurğunun, C. Cabbarlının şərəfinə vurulmuş memorial lövhələr.

17. A. S. Puşkinin, Z. Həsənovanın şərəfinə lövhələr.

18. Dəniz kənarında əbədi məşəl.

19. Şəhərin hər bir guşəsində, mikrorayonunda şəhidlərin xatirəsini əks etdirən lövhələr və komplekslər.

20. Corat qəsəbəsində köhnə qəbiristanlıq. Sandıq qəbirlər.

21. H. Zeynalabdin qəsəbəsində - H. Zeynalabdinin şəxsən özü çəkdirdiyi su nasos stansiyası. 1916-cı il.

22. H. Zeynalabdin qəsəbəsində şəhidlər kompleksi.

23. H. Zeynalabdin qəsəbəsində "Dədə Qorqud" kompleksi.

24. C. Məmmədquluzadə küçəsi, C. Məmmədquluzadənin büstü. 25.05.2003, müəllif - V. Nəzirov.

25. Nəsimi parkı - Nəsiminin şərəfinə abidə. 07.10.2003.

26. Heydər Əliyevin prospekti və Heydər Əliyevin abidəsi.

Ağsaçlı Xəzərin sahilində, ildən-ilə böyüyüb gözəlləşən Sumqayıt şəhərinin Adı "Sum qayıt" əfsanəsi ilə bağlıdır. Əfsanəyə görə, günlərin bir günü uzaq ellərdən gələn dəvə karvanı bu yerdən keçir. Onların su ehtiyatı qurtarır, susuzluğa davam gətirə bilməyən karvan sahibləri arasında bir-birini dərin məhəbbətlə sevən Sum və Ceyran adlı iki gənc də var idi. Bir tərəfdən susuzluq, bir tərəfdən isə qızmar günəş altında, qumlu səhrada yerimək, Ceyranı lap taqətdən salmışdır. Sevgilisinin susuzluğa dözə bilmədiyini görən Sum Ceyrana deyir:

- Sən burada məni gözlə, ya ölərəm, ya da sənə su taparam!

Sum karvandan aralanıb gedir. Lakin sevgilisinin fəlakətlə qarşılacağını hiss edən Ceyran onun ardınca qışqırır:

- Sum, qayıt! Sum, qayıt! Sum, qayıt!

Etnoqraf alim A. Hüseyzadənin tədqiqatlarından, onun "Abşeron yarımadasının etnik toponimiyaları haqqında:

Corat, Saray, Sumqayıt" - məqaləsindən aydın olur ki, hələ bu adda şəhər yaranmamışdan əvvəl, Abşeronda Sumqayıt adında 4 müxtəlif xüsusiyyətli coğrafi obyektlər məlum idi: Əhali yaşayan məntəqə, çay, mayak, dəmiryol stansiyası. Başlanğıcını Qafqaz sıra dağlarının cənub yamaclarından götürmüş 3 çay – Gözlüçay, Çikilçay və Əngilənçayın axını Abşeron yarımadasında yeganə şirin su mənbəyi olan Sumqayıt çayı əmələ gətirmişdir.

Ədəbiyyatda Sumqayıt toponomiyanın aşağıdakı variantları məlumdur: Sumqayıt, Suqayt, Sumqay, Sunqayıt, Sukkait.

XIX əsrin 40-cı illərində rus səyyahı İ. Beryözin xalq etnologiyasının toponimiyalarına əsaslanaraq, özünün yol qeydlərində qeyd etmişdir: "Sumqayıtın yaxınlığında çay axır, Sumqayıt və ya Suqayıt çayı."

Orta əsrlərdə isə burada, lap dənizin kənarında böyük ticarət yolu uzanırdı. O dövrün səyyahları bizə Sumqayıt çayının hər iki tərəfində yerləşmiş iki karvan sarayının təsvirini vermişlər. Karvan sarayları XVI - XVII əsrlərə aid ediliblər. Respublikamızda məşhur olan alim B. A. Paxomovun fikrincə isə onları lap uzaq dövrə də aid etmək olar.

Tarixi mənbələrdə ilk dəfə Sumqayıtın adı ingilis səyyahı X. Berrou tərəfindən 1580-ci ildə çəkilmişdir. "Qafqaz şəhəri" kitabında Sumqayıt poçt stansiyasının adını çəkmişdir.

1935-ci ilin iyul ayında SSRİ ağır sənaye xalq komissarlığının kollegiya iclasına bütün müttəfiq respublikaların nümayəndələri dəvət edilib. Onların arasında Azərbaycandan gəlmiş bir dəstə mütəxəssis də var idi. İclasda Milli respublikalardan gəlmiş nümayəndə heyətlərinə öz respublikalarında sənayeni yenidən qurmaq və inkişaf etdirmək barədə əməli göstəriş verilir. Azərbaycandan gəlmiş mütəxəssislərə isə tapşırılır ki, onlar Abşeron yarımadası ərazisində gələcəkdə tikiləcək istilik-elektrik stansiyası və bir neçə ağır sənaye müəssisəsi üçün yerlər müəyyənləşdirsinlər.

Çox keçmir ki, Azərbaycanın yeni sənaye şəhərinin Abşerona salınması üçün ixtisaslaşmış komissiya yaradılır. Komissiyanın üzvləri məsələni xeyli müzakirə etdikdən sonra belə qərara gəlirlər ki, Azərbaycanın yeni şəhəri və onun sənaye obyektləri Bakının şimalında 35-36 km məsafədə yerləşən Sumqayıt dəmiryol stansiyası yaxınlığında tikilsin.

Azərbaycanın yeni sənaye mərkəzi üçün Sumqayıt ərazisinin seçilməsi təsadüfi deyildir. Əvvəla Sumqayıt respublikanın paytaxtı Bakı şəhərinə yaxın idi. Digər tərəfdən isə, Bakı-Rostov-Moskva dəmiryol xəttinin və Nasosnu-Bakı su kəmərinin yaxından keçməsi, Xəzər dənizinin yaxınlıqda olması və s. şərtləri şəhərin salınması işini asanlaşdırır və gələcəkdə daha da inkişaf etməsinə imkan yaradırdı.

Nəhayət 1938-ci ildə indiki Sumqayıt istilik-elektrik stansiyanın tutduğu sahədə Sumqayıt meydana gəldi. Sumqayıt İ. E. S. –nın inşaatçıları və quraşdırıcıları üçün müvəqqəti yaşayış məntəqələrinin tikintisinə başlandı.

1941-ci ilin fevral ayının 13-də Sumqayıt İ. E. S.-nin I generatoru Bakı neft sənayesinə ilk cərəyan verdi. Azərbaycanda ilk İ. E. S.-işə başladı.

1939-1940-cı illərdə kimya, boru yayma, sintetik kauçuk zavodlarının bölmələri tikilməyə başlanıldı. Lakin Böyük Vətən müharibəsinin başlanması ilə Sumqayıt tikinti işləri dayandırılır. Sumqayıt və onun sənaye müəssisələrinin tikintisinin davamı yalnız 1944-cü ildə bərpa olunur.

Ali müdafiə komitəsinin qərarı ilə 17 yanvar 1944-cü ildə "Zaqafqaziya sənaye tikinti" meydana gəldi. Onun əsas vəzifəsi yeni şəhərdə metallurgiya və kimya zavodlarının tikintisi idi.

Bütün bunlar boru-prokatı zavodunun bünövrəsi əsasında torpaq işlərinin sürətlə getməsinə imkan yaradırdı. Bu müəssisə Zaqafqaziyanın sənayesinə boru-prokat verilməsinə əsas mənbə idi.

1952-ci ilin yeni il axşamı birinci və ilk boru verdi, respublikanın qara metallurgiyası işə başladı. 23 oktyabr 1953-cü ildə marten sexi ilk polad ərintisini verdi.

Respublikanın ən iri müəssisələrindən biri olan Sumqayıt Kimya zavodu 1945-ci ildə özünün ilk məhsulunu verir.

Müharibədən sonra sənaye müəssisələrinin tikintisi Sumqayıt qəsəbəsini o qədər genişləndirir ki, artıq onu şəhər kateqoriyasına daxil etmək lazım gəlir.

22 noyabr 1949-cu ildə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin əmri ilə Bakının Sumqayıt rayonu rəsmi şəkildə Sumqayıt şəhəri statusunu alır.

Əgər 1939-cu ildə Sumqayıt əhalisinin sayı 6400 nəfər idisə, artıq 1949-cu ildə bu rəqəm 17 200 nəfər olmuşdu.

Azərbaycan neft-kimya sənayesinin ilk Sintetik kauçuk zavodu 1952-ci ildə işə başladılar. İlk dəfə olaraq 14 avqust 1952-ci ildə bu müəssisədə neft daşlarından etil spirti alınmışdır. Həmin ilin sentyabrında burada ilk Azərbaycan sintetik kauçuku alınır, və bu məhsul Azərbaycan məhsulu adlanır. Çünki bu qiymətli məhsul istehsalının prosesi SK zavodunun özündə aparılır.

Zaqafqaziyada əlvan metallurgiyanın ilki Sumqayıt alüminium zavodu sayılır. O, 1955-ci il 8 mart günündə özünün ilk məhsulunu vermişdir.

Sumqayıtın yeni sənaye müəssisələrini tikilməsi ilə yanaşı yaşayış binaları, mədəni-məişət ocaqları, məktəb və uşaq bağçaları istifadəyə verilmişdir.

-1957–ci ildə "Neftkimya avtomat" elmi tədqiqat layihə institutu yaranmışdır.

-1958–ci ildə M. Əzizbəyov adına sənaye institutunun bünövrəsi qoyulmuşdur.

-1959-cu ildə rabitə evi tikilir.

-1959-cu ildə Tramvay xətti salınır və ilk dəfə Sumqayıtda tramvay işləməyə başlayır.

-Sumqayıtda ilk radio verilişi verilir.

-1952-ci ildə Azərbaycan dilində "Sosialist Sumqayıt" adlı qəzetinin ilk nömrəsi buraxılmışdır.

Sumqayıtın 1954-cü ildə təsdiq olunan baş-plan layihəsində nəzərdə tutulur ki, 1970-ci ildə gənc şəhərin əhalisinin sayı 85 minə çatacaqdır. Lakin işin gedişi mütəxəssislərin layihəsinə düzəliş verdi. 1970-ci ildə Sumqayıt əhalisinin miqdarı 135 min 10 nəfər oldu. Bu da qabaqcadan nəzərdə tutulduğundan 50 min 100 nəfər artıqdır.

Avropada Ən iri neft kimya kombinatının tikintisinə ilk dəfə Sumqayıtda başlanılıb. Kombinat kimya zavodlarının kompleksini təşkil edirdi. Kombinatın tikintisi ümumittifaq zərbəçi-komsomolçu tikintisi kimi qeyd olundu. Kombinatda müxtəlif məhsullar istehsal olunurdu. Yüksək təzyiqli polietilen, fenol, benzol və s. bu kimi məhsullar digər müəssisələr üçün xammal kimi hesab olunurdu.

"Üzvi-sintez" istehsal birliyinin nomenklaturasına 46 adda məhsul daxil idi, müəssisə şəhərə müxtəlif məhsullar verirdi. Müəssisənin xaricdə də istehsalçıları vardı.

Sumqayıtda bir-birinin ardınca yeni müəssisələr işə düşür. 1958-ci ildə kərpic zavodu, 1954-1961-cü illərdə Superfosfat zavodu, kimya kombinatının müəssisələri, kimya zavodunda xlorlu alüminium istehsalı işə düşür. 1966-cı ildə II İstilik Elektrik Stansiyası sənaye cərəyanı verir. 1968-ci ildə polimer tikinti materialları kombinatı işə başlayır.

Sumqayıt şəhərinin - inkişaf dövrü son 30 ilə təsadüf edir. 70-80-ci illərdə ağır sənaye müəssisələri ilə bərabər, sumqayıtda yüngül və maşınqayırma müəssisələrinin – xoflu iplik, üst trikotaj fabrikləri, kompressor zavodu yaradılması keçmiş ittifaqın mühüm sənaye zonası kimi tanınmasına zəmin yaradıb.

Şəhərsalınma planına əsasən hələ 1945-ci ildə 23 hektarlıq dənizkənarı sahil parkının salınması nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, şəhərin tikilməsinin bütün mərhələlərində yaşıllaşdırılması böyük diqqət verilirdi. Yüksək ixtisaslı mütəxəssislərin rəhbərliyi ilə yaşıllaşdırma işi bağbanlar və aqronomlar tərəfindən həyata keçirilirdi. Abşeron yarımadasının iqliminə uyğun olan 169 növ tingdən, 39 növ ağac Sumqayıtın yaşıllaşdırılması üçün seçilmişdir. Sumqayıtın yaşıllıq halqasında əsas yeri eldar və alp şamları, ağcaqayın, sərv, küknar, qarağac, qovaq və s. ağacları tutur. Ağac və kollar burada quraqlığı davamlığına görə seçilib əkilirdi. Şəhər hər bir sakininə düşən yaşıllaşdırma payı 12 kv. m. olduğu halda, 20 kv. m.-dir.

Sumqayıtın dənizkənarı parkı da şəhərin gözəlliyində xüsusi yer tutur. Parkın aşağı hissəsi Xəzər dənizinin sahilini, yuxarı hissəsi isə S. Vurğun küçəsini əhatə edir. Şəhərin yuxarı hissəsinin bütün nöqtələrindən Xəzərin sahili və yaşıllığı qərq olmuş bulvarın görkəmli mənzərəsi açılır. Şəhərin ən böyük idman qurğularından biri olan M. Hüseynzadə adına stadion dənizkənarı parkın ərazisində salınmışdır. Respublikanın başqa şəhərlərindən fərqli olaraq Sumqayıtın dənizkənarı parkının ərazisində, sahilə yaxın əhalinin gündəlik istirahəti üçün çimərlik salınmışdır.

Şəhər əhalisinin sağlamlığının dənizkənarı parkın yaşıllıq əhəmiyyəti böyükdür. Bundan əlavə, yaşıl ağaclar və kollar bədii estetik zövq verir.

Sumqayıt şəhəri sosial obyektlərin, ticarət və xidmət müəssisələrinin inkişaf etmiş şəbəkəsinə malikdir. Sumqayıt dövlət universiteti, Azərbaycan Müəllimlər İnstitutunun filialı və 4 elmi-tədqiqat institutu fəaliyyət göstərir.

Sumqayıt şəhərinin təhsil, səhiyyə, mədəniyyət və idman sahələri dövlətə məxsusdur. Bununla yanaşı şəhərdə bir sıra özəl klinika və təhsil ocaqları da fəaliyyət göstərir.

Şəhərin ticarət və xidmət müəssisələri özəl sektora malikdir.

Şəhərin mənzil fondu 1,8 min metrə bərabərdir ki, bu da 1225 yaşayış binasından, 13 yataqxanadan ibarətdir. Mənzil fondunun əsasını 2, 5 və 9 mərtəbəli binalar təşkil edir. Bu binalar da 51 minə yaxın mənzil vardır ki, bunun da 55 faizi əhali tərəfindən özəlləşdirilmişdir. Şəhərin bağlar zonasının 10,6 min kvadrat metr sahəsi vardır.

Sumqayıt şəhərinin mənzil, kommunal təsərrüfatı, su təchizatı şəbəkəsi, poçt və rabitə sistemi dövlətə məxsusdur. Şəhərin enerji və qaz ilə təchizatı səhmdar cəmiyyətlər tərəfindən həyata keçirilir. Sənaye və məişət tullantılarının yığılması, nəql edilməsi və zərərsizləşdirilməsi Almaniyanın "Ayxer" firmasının iştirakı ilə yaradılmış özəl müəssisəsi tərəfindən həyata keçirilir.

Şəhərdə 620 ha yaşıllıq sahəsi və 4 park mövcuddur.

Şəhərdə "Dalğa" mehmanxanası, dəmir yolu və avtobus vağzalları var.

## Şabran rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,09 min kv. km**

**Əhalinin sayı – 58,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 54 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 68**

**Şabran ilə Bakı arasında olan məsafə - 122 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Şabran rayonu** | 51533 | 100,0 | 25948 | 50,0 | 25585 | 50,0 |
| şəhər əhalisi | 22308 | 43,29 | 11323 | 43,64 | 10985 | 42,94 |
| kənd əhalisi | 29225 | 56,71 | 14625 | 56,36 | 14600 | 56,06 |

### Ümumi məlumat

Şabran 1930-cu ilin avqustun 8-də yaradılmışdır. 1963-cü ildə ləğv edilərək Abşeron rayonuna verilmiş, 1965-ci ildə yenidən təşkil edilmişdir. 1992-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Dəvəçi rayonunun əsasında Siyəzən rayonu təşkil edilmiş, rayonun ərazisinin bir hissəsi yeni yaranan rayona verilmişdir.

Rayona Şabran şəhəri və Çölquşçu, Çayqaraqaşlı, Xəlilli, Sarvan, Liman, Taxtalar, Dağ Bilici, Mumlu, Xəlfələr, Düz Bilici, Yeləkəsən, Zağlı, Çinarlar, Rəhimli, Uzunboyad, Şahnəzərli, Məliklər, Borbor, Təzəkənd, Mollakamallı, Sincanboyad, Vələsli, Ceyranlı, Üzümlü, Ağalıq, Günəşli, Daşlıyataq, Söhbətli, Dəvəçi, Xırdaoymaq, Qaraçaylı, Ağbaş, Təkyə, Uqah, Qızılqazma, Dəhnə, Zöhrabkənd, Gəndob, Aygünlü, Pirəmsən, Ərəblər, Leyti, Pirəbədil, Kilvar, Zeyvə, Qorğan, Bilici-Qorğan, İzmara, Hacıqaraqaşlı, Padar, Meytablı, Qalagah, Ləcədi, Udullu, Güləh, Çarah, Hacıisgəndərli, Kyünçal, Çuxurəzəmi, Çovurah, Zöhramlı, Sumağava, Sumağavaqazma, Gözbabalı, Surra, Qəriblik, Baş Əmirxanlı, Qalaaltı kəndləri daxildir. Mərkəzi Şabran şəhəridir.

Rayon ərazisinin çox hissəsi dağlıqdır. Rayon şərqdən 40 km məsafədə Xəzər dənizi ilə, digər tərəflərdən isə Quba, Xaçmaz, Siyəzən, Şamaxı və Xızı rayonları ilə həmsərhəddir. Dağlıq ərazilərdə və Xəzər boyu düzənliklərdə 27000 hektar meşəlik sahə, rayonun iqlim və təbiətinin zəngin olmasında mühüm rol oynayır. Rayonun ərazisində Şabran və Dəvəçi çayları, şimal və cənub hüdudlarından isə Vəlvələçay və Gilgilçay çayları axaraq Xəzər dənizi hövzəsinə tökülür. Xəzəryanı ovalıq (Samur-Dəvəçi ovalığı) okean səviyyəsindən 28 m-dək aşağıdır. Rayonun cənub-qərbində hündürlüyü 2220 m olan Dübrar dağı yerləşir.

Şabran rayonu Böyük Qafqazın şimal-şərqindədir. Böyük Qafqaz silsiləsinin qolları, yan silsiləsinin cənub-şərq qurtaracağında yerləşir. Ərazidə palçıq vulkanları da vardır. Dağlıq hissədə tabaşir, paleogen və neogen, ovalıqda antropogen çöküntüləri yayılmışdır. Ərazi neft, qaz, çınqıl, qum, gil və digər faydalı qazıntı yataqları ilə zəngindir. Müalicə əhəmiyyətli mineral suları, Qalaaltı sanatoriyası, Xaltan istisuyu əhali tərəfindən müxtəlif daxili xəstəliklərin müalicəsində geniş istifadə olunur.

İqlimi ovalıq və dağətəyi yerlərdə mülayim-isti, quraq-subtropik, dağlıq yerlərdə isə mülayim-soyuqdur. Yayı quraq keçməklə illik yağıntının miqdarı 300-600 mm-dir. Dağlıq sahədə qəhvəyi dağ-meşə, dağ şabalıdı, açıq-şabalıdı, ovalıqda şorankətvari, boz qonur və s. torpaqlar vardır. Dəniz sahilində qumluqlar yayılmışdır. Əsas bitki örtüyü kolluq və seyrək meşəli çəmənliklərdən, yovşanlı və yovşanlı şoran otlu yarımsəhralardan ibarətdir. Heyvanat aləmi və quşlarla zəngindir.

Rayonun iqtisadiyyatında taxılçılıq, tərəvəzçilik və heyvandarlıq əsas yer tutur. Rayonun sənayesinin əsasını emal və toxuculuq sənəti təşkil edir.

Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuş 95 nəfər dəvəçili gəncin xatirəsini əbədiləşdirən «Şəhidlər xiyabanı» kompleksi tikilmiş, məzarüstü abidələr düzəldilmişdir. Dövlətçiliyimizin bütövlüyü uğrunda canından keçmiş dəvəçili Milli Qəhrəmanlar leytenant Roman Yusifov və sıravi Samir Zülfüqarovun adlarını daşıyan Şabran şəhər 2 və 3 saylı orta məktəbində onların büstləri qoyulmuş və «Şöhrət muzeylər»i yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2003-cü il tarixli 1262 saylı və 27 sentyabr 2003-cü il tarixli 1343 saylı sərəncamları ilə «Çıraqqala» tarixi kompleksi və «Şabran şəhəri» tarix və mədəniyyət abidəsi tarixi qoruq elan edilmiş və beynəlxalq turizm marşrutuna daxil olunmuşdur.

Milli Məclisin qərarı ilə 2 aprel 2010-cu il tarixdən Dəvəçi rayonu Şabran rayonu, Dəvəçi şəhəri isə Şabran şəhəri adlandırılmışdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

1932-ci ildə ilk dəfə olaraq rayon partiya və İcraiyyə komitələrinin orqanı olan «Yüksəliş» adlı qəzet nəşrə başlamışdır. «Yüksəliş» qəzeti 1963-cü ilə qədər fəaliyyət göstərmişdir. Sonralar Dəvəçinin Abşeron rayonuna birləşdirilməsi ilə əlaqədar qəzet öz fəaliyyətini dayandırmışdır. 1965-ci ildə Dəvəçi rayonu yenidən bərpa olunmuş, 1966-cı ilin yanvarın 1-dən rayon qəzeti «Qurucu» adı ilə öz fəaliyyətini

davam etdirmişdir. 1991-ci ildən qəzetin adı dəyişdirilərək «Şabran» adlandırılmışdır və o vaxtdan hal-hazıradək bu ad altında nəşr olunur.

Təsisçiləri rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektividir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Şabran rayonunun ərazisindən 32 km uzunluğunda rayonlararası avtomobil yolu keçir. Bu yolun 18 km-i Şabran-Qalaaltı, 14 km-i isə Gəndab-Xaçmaz-Xudat yoludur.

Rayon ərazisindən 18 km dövlət əhəmiyyətli Bakı-Quba-Dağıstan yolu keçir. Rayon ərazisindən 18 km Bakı-Mahaçqala-Rostov dəmir yolu keçir. Dəmir yolunun rayon ərazisində « Şabran » və «Sarvan» stansiyaları fəaliyyət göstərir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

**Dünya əhəmiyyətli memarlıq abidələri**

Çıraqqala, V-VI əsrlər, Şabran rayonu;

**Arxeoloji abidələr**

Şabran, orta əsrlər, Şabran rayonu Şahnəzərli kəndi;

Almastəpə yaşayış yeri, ilk orta əsrlər, Gəndob kəndinin Qərb tərəfində;

Ağmul yaşayış yeri, ilk dəmir dövrü, Baş Əmirxanlı kəndi;

Çaqqallitəpə yaşayış yeri, ilk tunc dövrü, Aygünlü kəndindən cənub qərbdə;

**Ölkə əhəmiyyətli memarlıq abidəsi**

Gülüstani-İrəm, XVIII-XIX əsrlər, Şabran rayonu, Gəndob kəndi;

**Yerli əhəmiyyətli memarlıq abidələri**

Məscid, XIX əsr, Aygünlü kəndi;

Məscid, XIX əsr, Baş Əmirxanlı kəndi;

Məscid, XIX əsr, Zeyvə kəndi;

Məscid, XIX əsr, Ləcədi kəndi;

Kilsə, XIX əsr, Gilvar kəndi;

**Bağ-park, monumental və xatirə abidələri**

Gülüstan-İrəm, XVIII-XIX əsrlər, Şabran rayonu, Gəndob kəndi;

N. Nərimanovun heykəli, Şabran şəhər İcra Hakimiyyəti binasının qarşısında;

M. Nəzirovun büstü, Şabran şəhəri;;

Böyük vətən müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi, Şabran şəhəri;

**Yerli əhəmiyyətli arxeoloji abidələr**

Rustəpə yaşayış yeri, orta əsrlər, Şabran şəhərindən 1 km cənubda;

Gülüstantəpə yaşayış yeri, orta əsrlər, Gəndob kəndinin cənub tərəfində;

Kömürtəpə yaşayış yeri, orta əsrlər, Gəndob kəndinin cənubunda;

Baş Əmirxanlı yaşayış yeri, orta əsrlər, Baş Əmirxanlı kəndi;

Dağbilici yaşayış yeri, orta əsrlər, Dağbilici kəndi;

Kəndin arxa tərəfində yaşayış yeri, orta əsrlər. Çöl Quşçu kəndinin cənub şərqində.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Şamaxı rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,67 min kv. km**

**Əhalinin sayı - 105,7 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 63 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 57**

**Qəsəbələrin sayı – 5**

**Şamaxı rayonu ilə Bakı arasında olan məsafə - 135 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Şamaxı rayonu** | 91605 | 100,0 | 44726 | 49,1 | 46879 | 50,9 |
| şəhər əhalisi | 43307 | 47,28 | 20821 | 46,55 | 22486 | 47,97 |
| kənd əhalisi | 48298 | 52,72 | 23905 | 53,45 | 24393 | 52,03 |

**Ümumi məlumat**

Böyük Qafqazın cənub-şərqində yerləşir. Mərkəzi Şamaxı şəhəridir.

Rayona Şamaxı şəhəri, Mədrəsə, Aşkar, Sabir, Yusif Məmmədəliyev, Şəhriyar qəsəbələri və Əngixaran, Kələxana, Böyük Xınıslı, Pirbəyli, Bağırlı, Ovçulu, Hacıqədirli, Göylər, Dağ-Bağırlı, Çöl-Göylər, Acı Dərə, Yenikənd, Hacılı, Əhmədli, Dədəgünəş, Çağan-1, Çağan-2, Cabanı, Həmyəli, Dəmirçi, Zaratxeybəri, Səfalı, Qəleybuğurd, Keçmədin, Qaladərəsi, Sis, Avaxıl, Lalazar, Mirikənd, Muğanlı, Qaravəlli, Məlcək, Şirvan, Şərədil, Mərzəndiyə, Çıraqlı, Çarhan, Adnalı, Nüydü, Çuxuryurd, Məlhəm, Talışnuru, Qonaqkənd, Məlikçobanlı, Kərkənc, Meysəri, Ərçiman, Birinci Çaylı, İkinci Çaylı, Qızmeydan, Yeni Qızmeydan, İkinci Cabanı, Quşçu, Saqiyan, Sabirli, Nağaraxana, Qurdtəpə kəndləri daxildir.

Səthi, əsasən, dağlıqdır (Baş Qafqaz silsiləsinin cənub yamacı, Nialdağ və Ləngəbiz silsilələri). Ərazisinin maksimal hündürlüyü 2500 *m*-ə çatır. Palçıq vulkanları, Yura-Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: yanar şist, bitum, gil, əhəngdaşı və s. Mineral bulaqları var. İqlimi mülayim istidir. Orta temperatur yanvarda -4°C-dən 2°C-yədək, iyulda 15-25°C-dir. İllik yağıntı 300-800

*mm*-dir. Rayonun ərazisindən Pirsaat, Qozluçay və s. çaylar axır. Çimli dağ-çəmən, qonur dağ-meşə, şabalıdı, boz-qonur, şorakətvarı boz-qonur və s. torpaqlar yayılmışdır. Meşələri (palıd, vələs, ardıc, saqqızağacı və s.) var. Yüksək dağlıqda subalp və alp çəmənləri geniş yayılmışdır. Dağ-çöl və yarımsəhra bitkiləri səciyyəvidir. Canavar, tülkü, boz dovşan, meşəpişiyi, xallı maral, daşlıq dələsi, qumsiçanı, ilan, kəklik, qırqovul, göyərçin və s. məskunlaşmışdır. Pirqulu Dövlət Təbiət Qoruğu buradadır.

Rayonun iqtisadiyyatında üzümçülük, taxılçılıq və heyvandarlıq mühüm yer tutur. Dövlət müəssisələri və özəl müəssisələr bu sahələrin inkişafı və istehsal edilən məhsulların emalı üzrə var.

Baş Qafqaz silsiləsinin cənub-şərq ətəklərində, respublika paytaxtından 118 kilometr məsafədə yerləşən Şamaxı Azərbaycanın ən qədim tarixə malik şəhərlərindən biridir. Təbii ki, bu fikri təsdiqləyən bir çox tarixi mənbə və qaynaqlar çoxdan mövcuddur. İlk dəfə adı yunan coğrafiyaşünası Ptolomeyin əsərində «Samaxeya» və «Kemaxeya» kimi çəkilən Şamaxı haqqında bir çox antik dövr ərəb, fars, türk, rus və orta əsr Avropa müəllifləri geniş məlumatlar vermişlər.

Şamaxı uzun illər ərəb xilafətinə tabe olan bir ərazi olmuşdur. Bu xilafət zəiflədikdən sonra Şamaxıda feodal dövləti, yəni Şirvanşahlar dövləti yaranmışdır. Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan Şirvanşahlar dövləti təxminən 1531-ci ildən 1538-ci ilə kimi mövcud olmuşdur. Şirvanşahlar dövlətinin çiçəklənməsi I Şah İbrahimin dövründə təsadüf edir. Bu dövrü əhatə edən 1382-1417-ci illərdə Şamaxı həm iqtisadi, həm də mədəni cəhətdən sürətlə inkişaf etmiş və bir sıra xarici ölkələrlə böyük ticarət əlaqələri qurmuşdur.

Şirvanşahlar dövləti süqut etdikdən sonra isə bu ərazi bəylərbəyi üsul idarəsi ilə idarə edilmişdir. Buna baxmayaraq Şamaxı yenidən ayağa qalxmış, öz iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirmişdir. Qərbi, şərqi və cənubu birləşdirən bir mərkəz olan Şamaxıda rus tacirlərinin öldürülməsi nəticəsində İran-Rus müharibəsi başlandı. Böyük Pyotr Şamaxı üzərinə yeridi və onu əsl xarabazara çevirdi. XVIII əsrin ortalarında xanlığa çevrilən Şamaxı on doqquzuncu yüzilliyin əvvəllərində Rusiyanın tərkibinə daxil olmuşdur. Bundan sonra Şamaxı qəza və quberniya mərkəzinə çevrilmişdir.

Şamaxı ta qədimdən dünyanın diqqətini cəlb etmişdir. Belə ki, burada dünyanın ən məşhur səyyah və yazıçıları olmuş və öz təəssüratlarını qələmə almışlar. Məsələn, səyyahlardan alman Adam Oleari və türk Övliya Çələbinin verdiyi məlumatlara görə 1643-1650-ci illərdə Şamaxıda 70 məscid, 44 karvansara, 40 mədrəsə, 7 hamam, onlarla meydan və bazar mövcud olmuşdur. Fransız yazıçısı Aleksandr Düma 1858-ci ildə Şamaxıda olarkən demişdir: «Parisdən çox-çox uzaqlarda - Şamaxıda Monteronun, Caffanın, Fontelblonun çəkdikləri portretləri, fransızca danışan adamlar gördüm. Bütün bunlar adama qeyri-adi təsir bağışlayırdı».

1920-ci ildə Azərbaycan rus bolşevikləri tərəfindən işğal edildikdən sonra Şamaxı on il yenə də quberniya mərkəzi olmuşdur. Keçən əsrin 30-cu illərindən sonra Şamaxı rayon kimi fəaliyyət göstərmişdir. Lakin Şamaxının bir rayon kimi fəaliyyətinin əsl intibah dövrü 1970-80-ci illərə təsadüf edir. Şübhəsiz ki, bu, müstəqil Azərbaycan Respublikasının yaradıcısı və qurucusu Heydər Əliyev tərəfindən Şamaxıya göstərilən böyük diqqət və qayğı ilə bağlı olmuşdur. 1978-ci il yanvarın 21-də

Azərbaycan Respublikası başçısının şəxsi tapşırığı və göstərişi ilə «Şamaxı rayonunun iqtisadiyyatını və mədəniyyətini daha da inkişaf etdirmək tədbirləri haqqında» mühüm qərar qəbul edilmişdir. Əslində müasir Şamaxı məhz bu qərardan sonra yenidən tikilib qurulmuş, onun infrastrukturu möhkəmlənmiş, iqtisadi və mədəni inkişafı təmin edilmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Şamaxı rayonunda 1932-ci ildən «Şirvan» qəzeti nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Bakı-Qazax magistral yolunun 110-144-cü kilometrləri Şamaxı rayonunun ərazisindən keçir. 34 kilometr təşkil edən bu yolun 29 kilometri II, 5 kilometri isə I kateqoriyaya aiddir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Şamaxının Azərbaycan mədəniyyəti tarixində xüsusi yeri vardır. Belə ki, Şamaxı rayonunda turistlərin geniş marağına səbəb olan 71 ölkə və yerli əhəmiyyətli mədəniyyət və arxeoloji abidə vardır. Həmin abidələrdən Cümə məscidini (VIII-XIX əsrlər), Gülüstan qalasını (IX-XI əsrlər), Buğurt qalasını (XII-XV əsrlər), Şahxəndan günbəzini (XVII əsr), Yeddi gümbəzi (XV-XVII əsrlər), Kələxana türbələrini (XVII əsr), Pirmərdəkan türbəsini (XIII əsr) və s. göstərmək olar. Tarixi məlumatlara görə Gülüstan qalası Yəzid İbn Məzyədin vaxtında və Şirvanşahlar dövlətinin əsas müdafiəsi məqsədilə ucaldılmışdır. Deyilənlərə görə, I Şah İsmayıl Şirvana hücum edib Şamaxını tutsa da, bu qalanı ala bilməmişdir. Gülüstan qalası xalq arasında Qız qalası adı ilə məşhurdur. Buğurd qalası Şamaxı rayonunun Qəleybuğurd kəndində yerləşir. Arxeoloji qazıntılar bu qalada XI-XIII əsrlərdə yaşayış olduğunu təsdiqləyir. Bu abidə də Şirvanşahlar dövlətinin əsas müdafiə istehkamlarından olmuşdur. Deyilənlərə görə, Şirvanşahların xəzinəsi də Buğurd qalasında saxlanırmış. Səfəvi-Osmanlı müharibələri zamanı osmanlılar bu qalanı ələ keçirib özlərinin dayaq məntəqəsinə çevirmişdilər. Buğurd qalasından XII əsrin axırlarınadək istifadə olunmuşdur. Kələxana türbələri (8 türbədir) XVII əsrdə tikilib. Şamaxıda dini tikililər içərisində qədim Cümə məscidi mühüm yer tutur. O, Xəlifə I Validin qardaşı Əbu Müslümün hökmranlığı dövründə, VII əsrdə tikilmişdir. Deyilənlərə görə, Şamaxıdakı Cümə məscidi Cənubi Qafqazda ən qədim dini tikilidir. Cümə məscidinin indiki görünüşü 1902-ci ildən sonra yenidən bərpa edilmişdir. 1971-ci ilin yayında aparılan qazıntılar zamanı Cümə məscidinin həyətində baş tağın bünövrəsi və mədrəsə aşkar edilmişdir.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Şəki rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 2,43 min kv. km**

**Əhalinin sayı – 184,2 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 76 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 68**

**Qəsəbələrin sayı – 2**

**Şəki rayonu ilə Bakı arasında olan məsafə - 305 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Şəki rayonu** | 170733 | 100,0 | 84556 | 49,1 | 86177 | 50,9 |
| şəhər əhalisi | 65285 | 38,24 | 31464 | 37,21 | 33821 | 39,25 |
| kənd əhalisi | 105448 | 61,76 | 53092 | 62,79 | 52356 | 60,75 |

**Ümumi məlumat**

Şəki Azərbaycanın ən qədim şəhərlərindən biridir. Orta əsrlərə aid mənbələrdə onun adı Şaki, Şəka, Şakki və s. kimi adlandırılmışdır.

Şəki şəhəri uzun müddət Nuxa da adlanmışdır. Qədim müəlliflərdən biri olan Ptoleymey Alban şəhərləri içərisində «Niqa» adlı yaşayış məntəqəsinin olduğunu qeyd etmişdir. A. Bakıxanovun yazdığına görə Nuxa şəhəri yerinin vəziyyətinə görə həmin Naxıya və Nağıya şəhəridir ki, qədim Şirvan şəhərlərindən sayılırdı. A. Y. Krımski Niqanın sonrakı Nuxa olması mülahizəsinə şərik çıxır.

Lakin XIX əsrin başlanğıcında həmin mülahizənin əleyhdarları da var idi. Akademik V. Dorn belə hesab edirdi ki, Niqa Liberiya ilə Alazan arasında olan sahədə yerləşirdi və onu Nuxa ilə eyniləşdirmək olmaz. «Nuxa» sözünün antik dövrdən bəlli olan Niqa məskəni ilə bağlılığı hələ mübahisəli bir məsələdir.

Şəki adı e. ə. VII əsrdə Qara dənizin şimal sahillərindən Dərbənd keçidi vasitəsi ilə Cənubi Qafqazda, oradan da kiçik Asiyaya hərəkət edən sak tayfalarının adı ilə bağlıdır. Onlar Cənubi Qafqazda ən yaxşı torpaqları tutaraq bu yerlərə Sakasena adını verdilər. Sakların məskunlaşdığı ərazilərdən biri də Şəki idi.

Şəki I əsrdə Albdan dövlətinin ən iri şəhərlərindən biri olmuşdur. Qədim Alban məbədi məhz bu ərazidə yerləşirdi. İnzibati cəhətdən Qafqaz Albaniyası 11 vilayətə bölünürdü. Bunlardan biri də Albaniyanın şimal - qərbində yerləşən Şəki vilayəti idi. Ərəb istilası ərəfəsində Şəki Azərbaycanın mühüm siyasi və iqtisadi əhəmiyyətə malik olan şəhərlərindən biri oldu. Ərəb işğalları nəticəsində Şəki əyaləti ərəblərin təşkil etdikləri əmirliklərdən biri olan III əmirliyin tərkibinə daxil oldu. Ərəb xilafətinin zəiflədiyi bir dövrdə Şəkidə müstəqil knyazlıq yaradıldı.

XIV əsrin I yarısında Hülakilər dövləti iflasa uğradıqdan sonra Şirvanşahlar dövləti ilə yanaşı Şəki də müstəqillik qazandı və Orlat nəsli hakimiyyətə gəldi.

1551-ci ildə şah Təhmasib Şəkinin müstəqilliyinə son qoydu. Şəki Səfəvilər dövlətinə birləşdirildi.

1743-cü ildə yaranmış Şəki xanlığı Azərbaycan xanlıqları içərisində ən güclü feodal dövləti idi.

1772-ci ildə Kiş çayının daşması nəticəsində qədim Şəki şəhəri demək olar ki, tamamilə məhv olmuş, şəhər əhalisinin bir qismi tələfata uğramış, bir qismi başqa yerlərə köçüb getmiş, bir qismi indiki şəhərin yerləşdiyi ərazidə məskən salmışdı.

1805-ci il Kürəkçay müqaviləsinə əsasən Şəki xanlığı Rusiyadan vassal asılılığına düşdü. 1813-cü il Gülüstan sülh müqaviləsi ilə ərazi qəti şəkildə Rusiyaya birləşdirildi. 1819-cu ildə Şəkidə xan üsul-idarəsi ləğv olundu. Xanlığın əvəzinə Şəki əyaləti yaradıldı.

1840-cı ildə Kaspi vilayətinin tərkibində Şəki qəzası yaradıldı. Qəza 1846-cı ildən Şamaxı quberniyasının tərkibinə daxil oldu və Nuxa qəzası adlandırıldı.

XIX əsrin II yarısında çar hakimiyyət orqanları şəhəri idarə etmək üçün onu iki məhəlləyə (Şəki və Qışlaq) böldü. Bu dövrdə Qışlağın ərazisi hələ şəhər ərazisi ilə birləşməmişdi. Qala, qala ətrafı, ticarətlə sənaye müəssisələri olan hissələri şəhərin mərkəzi hesab olunur və iki hissəyə bölünürdü: yuxarı və ya ticarət hissəsi, aşağı hissə. Şəhər ətrafı hissələri Yuxarıbaş, Gəncəlibaşı və Nuxa-Qışlaq hesab edilirdi. Yuxarıbaş hələ XVIII əsrin sonu XIX əsrin əvvəllərində, Qaladan şərqə doğru salınmışdı.

Şəki ərazisi getdikcə böyüdüyü üçün çar hökumət orqanları şəhərdə əlavə iki inzibati məhəllə yaratdı və 1860-1865-ci illərdə şəhər artıq iki məhəlləyə deyil, 4 məhəlləyə bölünürdü. Birinci məhəlləyə Qala və onun ətraf yerləri, ikinci məhəlləyə şəhər ətrafları daxil edilmişdi və buranın əhalisi əsasən kənd təsərrüfatı ilə məşğul idi. Üçüncü məhəlləyə dabbağxana daxil idi. Buraya başqa sənətkarlıq sahələri, o cümlədən boyaqçılar daxil idi. Dördüncü məhəllə haqqında sənədlər məlumat vermir. Görünür bu məhəlləyə tacir və sənətkarların yerləşdiyi Baş küçə və onun ətrafları daxil idi.

1859-cu ildə Nuxa qəzası Bakı quberniyasının, 1868-ci ildə isə Yelizavetpol quberniyasının tərkibinə daxil edildi.

1920-ci il mayın 5-də Şəkidə Sovet hakimiyyəti qurulmuşdur.

1930-cu ildə Azərbaycan SSR-in inzibati ərazi bölgüsündə dəyişiklik edildi və Nuxa rayonu təşkil edildi. 1963-cü il yanvarın 4-də Nuxa rayonu ləğv edilərək ərazisi Vartaşen rayonuna verildi, respublika tabeçiliyində Nuxa şəhəri yaradıldı. 1965-ci ildən yenidən müstəqil Nuxa rayonu təşkil edildi. 1968-ci

ildən ərazi Şəki rayonu adlanmağa başladı. Şəki rayonu Böyük Qafqazın cənub-şərq yamacında yerləşir. Şimal-şərqdə Rusiya Federasiyası ilə həmsərhəddir. Mərkəzi Şəki şəhəridir.

Rayona Şəki şəhəri, Turan qəsəbəsi və Böyük Dəhnə, Suçma, Dərəcənnət, Aşağı Küngüt, İbrahimkənd, Fazıl, Çapağan, Cəyirli, Qozlubulaq, Baş Göynük, Baş Şabalıd, Şəki, Orta Zəyzid, Qırxbulaq, Köbər Zəyzid, Qoxmuq, Aydınbulaq, Əliyar, Şirinbulaq, Aşağı Daşağıl, İncə, Zunud, Aşağı Şabalıd, Daşüz, Küdürlü, Daşbulaq, Qudula, Baş Layski, Şin, Cunud, Qumux, Baş Zəyzid, Vərəzət, Şorsu, Qaradağlı, Badaratma, Oxud, Aşağı Göynük, Köndələn, Aşağı Layski, Abbaskənd, Birinci Biləcik, İkinci Biləcik, Baqqal, Qaratorpaq, Sarıca, Bolludərə, Qayabaşı, Çayqaraqoyunlu, Baş Küngüt, Bideyiz, Oraban, Baş Kəldək, Aşağı Kəldək, Cəfərabad, Təpəcənnət, Kəhrizoba, Göybulaq, Çolaqlı, Baltalı, Kiş, Çeşməli, Öryət, Kosalı, Qızılarx, Çələbixan, Cumakənd, Arıçılıq, Kiçik Dəhnə, Aran kəndləri daxildir.

Şəki dünya okeanı səviyyəsindən 500-850 m hündürlükdə yerləşir. Baş Qafqaz silsiləsinin qarlı zirvələrinin yüksəkliyi bəzi yerlərdə 3000-3500 m-ə çatır. Dağlarda Yura, Təbaşir, dağ ətəklərində Neogen və Antropogen çöküntüləri yayılmışdır. Günəşli saatların illik miqdarı 2350 saatdır. Günəşli saatların 40 %-i yay aylarının payına düşür. İl ərzində 1 kvadrat sm səthə 122 kkal günəş radiasiyası düşür. Şəkinin iqliminə siklon və antisiklonlar, müxtəlif hava kütlələri və yerli küləklər təsir edir. Qışda arktik və mülayim hava kütlələrinin əraziyə daxil olması havanın isti keçməsinə səbəb olur. Yayda Şəkidə dağ-dərə yerli küləkləri əmələ gəlir. Buna səbəb dağ ilə dərə arasında təzyiq fərqinin yaranmasıdır. Böyük Qafqaz silsiləsi şimaldan gələn soyuq küləklərin qarşısını kəsir. Buna görə Şəkidə yanvar temperaturu $0{,}5^0$ C olur. Şəkidə orta illik temperatur $12^0$ C-dir. İyun, avqust aylarında orta temperatur $20\text{-}25^0$ C arasında dəyişir.

Güclü küləklər (sürəti 15 m/san çox) Şəkidə seyrək hallarda əsir, il ərzində cəmi 10-12 gün güclü külək olur. Sürəti saniyədə 1 m-dən az olan fəlakətli hava Şəkidə tez-tez müşahidə olunur. Yağıntının miqdarı ilə 730 mm-dir. Bunun yarısı may, iyun, sentyabr, oktyabr aylarında yağır. Ən azı yağıntı avqust (35 mm), yanvar (29 mm) və fevralda (36 mm) olur. Kiş kəndində 775 mm, Xan yaylağında 1000 mm-dən artıq yağıntı düşür. Sel, tufan, güclü dolu kimi təbiət hadisələri Şəkidə və onu əhatə edən dağ və düzənliklər üçün səciyyəvidir.

Sel hadisəsi daha tez-tez müşahidə edilir. Yatağı şəhərin qərb hissəsində yaxın olan Kiş çayı hövzəsi dünyanın ən güclü sel gedən yerlərindən biridir. Quruçay adlanan yerdə Kiş çayının gətirmə konusuna uzun illər boyu dağlardan qum, daş, palçıq toplanmış olduğundan onun mərkəzi hissəsi şəhərin Dodu məhəlləsinə nisbətən hündürdür.

Tufan və dolu. Bu iki atmosfer hadisəsinin sıx əlaqəsi var. Dağlıq relyef, yay aylarında güclü qızma və yüksək buxarlanma Şəkidə dolu hadisələrinin əsas amilləridir. Dünyada ən böyük dolu parçaları Şəki rayonunda 1850-ci ildə qeydə alınmışdır. Hadisə Tbilisidə çıxan Daxili İşlər Nazirliyinin jurnalında təsvir edilmişdir. Jurnalda xəbər verilir ki, ağırlığı 10 kq-a çatan buz parçaları damların üstündə hörülmüş 7 qat qamışı qırıb keçmişdir. Şəkidə dolu olan günlərin orta illik sayı 1,4-dür, yəni 10 ildə 14 dəfə dolu yağır.

Dəniz səviyyəsindən 500-850 m hündürlük, ətrafında olan dağ meşələri şəhərin qızmasının qarşısını alır. Dağ meşələri şəhərin sellərdən qorunmasına imkan verir, şəhərin mənzərəsini daha da gözəlləşdirir.

Şəki rekreasiya obyektlərinin zənginliyinə görə Azərbaycanın başqa kurort yerlərindən fərqlənir. Marxalda, Soyuqbulaqda, Gələrsən-görərsən qalası yaxınlığında yaradılan istirahət və xidmət obyektləri, turist bazası şəhərin rekreasiya imkanlarını daha da artırır.

Çimli dağ-çəmən, qonur dağ meşə, qəhvəyi dağ meşə, çəmən-meşə, boz qonur torpaqlar yayılmışdır. Meşələrdə palıd, fıstıq, vələs ağacları geniş sahə tutur. Heyvanat aləmi zəngindir - nəcib maral, cüyür, yenot, sincab, köpgər, daşlıq dələsi, canavar, tülkü, boz dovşan, çölsiçanı, qırmızıquyruq qumsiçanı, ular, qırqovul, kəklik və s. məskunlaşmışdır. Şəki yasaqlığı yaradılmışdır.

Şəhərin əsas çayları Kiş və Qurcana çaylarıdır. Kiş Əyriçayın çağ qolu olub uzunluğu 33 km, hövzəsinin sahəsi 265 kvadrat km-dir. Baş Qafqaz silsiləsinin cənub yamacından 2900 m yüksəklikdən başlayır. Yuxarı axında Damarçın adlanır.

Şəki rayonunun iqtisadiyyatında taxılçılıq, tütünçülük, heyvandarlıq və baramaçılıq mühüm yer tutur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Şəkidə «Şəki», «Şəkinin səsi», «Təhsil haqqında», «Şəki xəbər», «Region Şəki» qəzetləri, Şəki Radio verilişləri redaksiyası fəaliyyət göstərir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Şəkinin ərazisindən respublika əhəmiyyətli aşağıdakı yollar keçir:

1. II dərəcəli, asfalt-beton örtüklü Xaldan-Zaqatala magistralının 63 km-i;
2. III dərəcəli, asfalt-beton örtüklü Şəkiyə giriş avtomobil yolu - 12 km;
3. III dərəcəli, asfalt-beton örtüklü Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolu - 22 km;
4. I-V dərəcəli, Şəki-Zaqatala avtomobil yolu - 31 km.

Yevlax-Balakən dəmir yolunun 72 km-i Şəkinin ərazisindən keçir.

Şəkidə müasir tələblərə cavab verən Avtovağzal və Dəmir yolu vağzalları var.

Şəkidə həmçinin kiçik həcmli təyyarələrin qəbul edilməsi üçün hava limanı var.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Şəki rayonu ərazisində digər maddi-mədəniyyət abidələri ilə bərabər müdafiə tikililərinin də varlığı bu diyarın böyük strateji əhəmiyyətə, qədim və keşməkeşli tarixə, zəngin tikinti təcrübəsinə malik olduğunu göstərir.

Belə tikililərdən biri də Şəki Narınca qalasıdır. O, şəhərin şimal-şərq hissəsində cənubdan 710 m, şimaldan 750 m dəniz səviyyəsindən yüksəklikdə, səfalı bir ərazidə yerləşir. Qala Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan, Şəki xanı Hacı Çələbinin dövründə (1743-1755) tikilmişdir.

Onun divarlarının xaricdən ümumi uzunluğu 1300 m-dir. Ərazisinin relyefi və müdafiə əhəmiyyəti nəzərə alınaraq qalanın cənubundan hündürlüyü 8 m olduğu halda, şimala doğru 4 m-ə enir. Divarın qalınlığının 2,2 m olması onun möhtəşəmliyini və davamlığını bir daha artırır. Qalanın cənubdan və şimaldan 2 tağlı darvazası, bürcləri və 1000-dən artıq mazğalları vardır.

Şəki xanlığının iqamətgahı olan «Xan sarayı» da qalanın şimal-şərqində yerləşir.

Şəhərdə ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

***Şəki Xan sarayı***

Dünya abidələri siyahısına daxil edilmiş Şəki xanlarının yay sarayı olan bu bina Azərbaycan ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə 1761-1762-ci illərdə istifadəyə verilmişdir. Hüseyn xan eyni zamanda «Müştaq» təxəllüsü ilə şerlər yazdığından bəzi mənbələrdə bu saray «Müştaq imarəti» kimi də qeyd olunmuşdur.



Xan sarayı ikimərtəbəli olmaqla altı otaqdan, dörd dəhlizdən, iki güzgülü eyvandan ibarətdir.

Binanın baş fasadı dünyada analoqu olmayan ən xırda, həndəsi fiqurlara bölünmüş, ağac parçaların aralarına müxtəlif rəngli şüşələr geyindirilmiş şəbəkə pəncərə və qapılardan ibarətdir. Şəbəkələrin hər bir kvadrat metri orta hesabla 5000, mürəkkəb yerləri 14000 ağac və şüşə şəbəkədən ibarətdir. Binada mismar və yapışqandan istifadə edilməmiş, ağac və şüşə parçaları bir-birinə geyindirilmişdir.

Saray divarın ornamentliyi, piştağların genişliyi, naxışlı şəbəkələr, dağlamalar, müxtəlif naxışlar, gəc üzərində oymalar adamı valeh edir.

Binanın daxilində həndəsi naxışlara, nəbatat rəsmlərinə, süjetli və quş rəsmlərinə, döyüş və ov səhnələrinə daha geniş yer verilmişdir. Zövqlə işlənmiş taxçalar, güzgülü buxarılar əsl sənət nümunəsidir.

Saraydakı naxışların zənginliyinə, rəng çalarlarına, stalaktit oymalara, kompozisiyalara baxdıqca ata-babalarımızın qabiliyyətinə, bacarığına, zövqünə və əsrarəngiz əməyinə heyran olursan. Dünya şöhrətli türk şairi Nazim Hikmət saraya baxdıqdan sonra yazmışdır: «Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi».

***Yuxarı Karvansara***

Ərazisində Böyük İpək yolunun keçdiyi Azərbaycanın ən qədim sənətkarlıq, ipəkçilik və ticarət şəhəri olan Şəki karvan yolları vasitəsilə digər xanlıqların və bir çox xarici ölkələrin ticarət mərkəzlərini özündə birləşdirirdi. Əlbəttə ki, belə bir təbii-coğrafi və strateji şəraitə malik şəhərdə karvansaraların olmaması mümkün deyil.

XVIII-XIX əsrlərdə şəhərdə inşa edilmiş karvansara binaları təkcə karvanların və səyyahların qalması üçün deyil, həm də müxtəlif ticarət əməliyyatlarının aparılması üçün də nəzərdə tutulurdu.

Özünün böyüklüyü və ticarət üçün əlverişliyi ilə bütün Zaqafqaziyada məşhur olan Yuxarı Karvansara dövrümüzə qədər gəlib çatmış iki karvansaradan biridir. Ümumi sahəsi 6000 kvadrat metr olan Yuxarı Karvansara Şəki memarlığı üçün səciyyəvi olan kərpic və çay daşının birlikdə işlədilməsi xüsusi kalorit verir.



Tikili relyefə uyğun olaraq küçəyə baxan hissədə 14 m, içəri üzdən isə 8 m hündürlükdə inşa edilmişdir. 300-dən artıq otaq və zirzəmidən ibarət olan karvansaranın 2 giriş darvazası vardır. Bina üçmərtəbəlidir. Tacir öz malını zirzəmiyə yığar, birinci mərtəbədə alver edər, ikinci mərtəbədə yaşayardı.

Darvazaların içəri hissəsinin tavanı kərpicdən tağlı günbəzlərdir. Yaxın Şərqdə ən böyük kərpic günbəzlərdən biri sayılan əsas girişin zəngin bəzənmiş tağı relyefin çox mailliyi üzündən binanın küncündə, üçüncü mərtəbə səviyyəsində inşa edilmişdir.

Sadə həyəti, tağbəndlərlə eyni ölçülü hücrələri, həyət eyvanları, hovuz və onları əhatə edən yaşıllıq karvansaranın ümumi kompozisiyasını tamamlayır.

Bu günə kimi öz gözəlliyini, memarlıq üslubunu qoruyub saxlayan və hazırda mehmanxana kimi istifadə olunan Yuxarı Karvansara Şəkinin zəngin maddi və mənəvi irsə malik bir şəhər olmasının bariz nümunəsidir.

***Aşağı Karvansara***

Şəki Azərbaycanın ən qədim ticarət və sənətkarlıq şəhəri olduğundan burada çoxlu bazar və karvansaralar tikilmişdir.

XVIII-XIX əsrlərdə Şəkidə olan 5 böyük karvansaradan dövrümüzə qədər yalnız ikisi - Yuxarı Karvansara və Aşağı Karvansara gəlib çatmışdır.

Şəki karvansaraları da digərləri kimi karvanların və səyyahların dayanması üçün ayrılmış, özünün funksional xüsusiyyətinə uyğun tikilmişdir. Ancaq bu karvansaralarda yolüstü karvansaralardan fərqli olaraq istirahət otaqları ilə yanaşı müxtəlif ticarət əməliyyatları aparmaq, mübadilə müqavilələri bağlamaq üçün xüsusi otaqlar da inşa edilmişdir.

Buradakı karvansaralar plan quruluşuna, böyük ölçülərinə, istirahət və ticarət üçün rahatlığına görə Şəki memarlığını xarakterizə edir.

Özünün ümumi sahəsinə görə Yuxarı Karvansaradan bir qədər böyük olan Aşağı Karvansara küçəyə baxan hissədə 12 m, şərq və qərb tərəfdə isə 10 m hündürlükdədir.

8000 kvadrat metrlik bir ərazini əhatə edən Aşağı Karvansaranın 242 otağı və dörd giriş darvazası var. Bu karvansara da həmçinin şəkli sənətkarların özünəməxsus memarlıq üslubunu özündə əks etdirir.

Cənub-şərq hissədə üç, həyət tərəfdə isə ikimərtəbəli olan karvansaranın baş fasadı çaya baxır. Bu isə binaya sakitlik və təravət bəxş edir.

Karvansaranın fasadı horizontal bölümlərlə səciyyələnir, onlar divar müstəvisini tağlı pəncərələrlə tərtib olunmuş üç yarusa ayrılır, pəncərələrin tağları şəklinə görə bir qədər fərqlənir.

Tağlı eyvan aşırımları ilə dövrəyə alınmış həyətin mərkəzində hovuz yerləşir.

Karvansaranın tikintisi zamanı uzaq ölkələrdən gələn tacirlərin rahatlığı, özünün və malının təhlükəsizliyi üçün hər şey nəzərə alınmışdır. Darvazalar qonaqpərvərliklə yolçuların və tacirlərin üzünə açılsa da, bağlandıqda alınmaz bir qalaya çevrilir. Bu isə bir daha Şəki sənətkarlarının nə qədər yüksək dünyagörünüşünə, əvəzsiz zövqə, müqayisəsiz memarlıq üslubuna, maddi və mənəvi dəyərlərə malik olduqlarını təsdiqləyir.

***Giləhli məscidi***

Şəkinin qədim tarixi memarıq abidələrindən biri də Giləhli məscididir. XVIII əsrə məxsus olan bu məscid Şəkinin şimal-şərq ucqarında, şəhərin içərisindən axan Qurcana çayının sahilində, onun səthindən təxminən 20 - 25 m yüksəklikdə tikilmişdir.

Sadə yaşayış evlərinə məxsus ənənəvi Şəki memarlıq üslubunda tikilmiş məscid binasının daxili görkəmi Şəki xan sarayını xatırladır. Divardakı naqqaşlığa, rəsmlərə, stalaktitlərə nəzər yetirdikdə belə təsəvvür yaranır ki, sarayla məscidin daxili divarları eyni sənətkarın əlindən çıxmışdır.

Giləhli məscidi uzun müddət baxımsız qalığından və qəza vəziyyətinə düşdüyündən onu bərpa etmək əvəzinə, ateizmin qurbanına çevrilmiş, analoqu olmayan bu məscid yerlə yeksan edilmişdir.

Xoşbəxtlikdən Giləhli məscidinin minarəsi bu günə kimi gəlib çatmışdır. Qülləyə qədər 13,5 m olan minarə yüksəklikdə yerləşdiyindən ərazi buradan çox gözəl görünür. Məscidə üfüqi istiqamətdə söykənən istinad divarı onun möhkəmliyini və dayanıqlığını daha da artırır. Onun istinad divarının qurtaracağına qədər olan hissəsi daşla, ondan yuxarı hissəsi isə bişmiş qırmızı kərpiclə hörülmüşdür. Müəzzinlər üçün nəzərdə tutulan və minarəni tamamlayan sahəyə qalxmaqdan ötrü istinad divarının üzərində iyirmidən artıq daş pilləkən hörülmüş, yağışdan, qardan, çovğundan və günəşdən qorunmaq məqsədi ilə kənarına taxta vurulmuş, üstü örtülmüşdür. Buraya işıq düşmək üçün kiçik pəncərələr də qoyulmuşdur. Pilləkənin qurtaracağında minarəyə daxil olmaq üçün tağlı qapı var.

***Xan məscidi***

Bu məscid 1745-1750-ci illərdə Hacı Çələbi xan tərəfindən tikdirildiyindən xalq arasında «Xan məscidi» adlandırılır.

Məscidin tikintisində yerli inşaat materiallarından - çay daşından, bişmiş kərpicdən, əhəngdən, kirəmitdən, palıd, fıstıq, qovaq ağacından istifadə edilmişdir. Məscidin xarici tağlı qalereyası vardır. Ümumi tutuma daxil edilmiş minarə məscidin memarlıq siması daha da gözəlləşdirir. Binanın iç məkanı sadə həll olunduğundan, rəngli şəbəkəli pəncərə-pannolar interyerə, məscidin həyətindəki çinar ağacları və hovuz isə binaya xüsusi rövnəq verir.

Məscidin yanında üstündə yüksək ustalıqla işlənmiş, oyma naxışlarla bəzədilmiş qəbirüstü daşlar olan qəbiristanlıq var. Burada Şəki xanları, onların ailə üzvləri və yaxın adamları dəfn edildiyindən «Xan qəbiristanlığı» adlanır. Məscid, minarə və qəbiristanlıqda olan günbəzlər, incə və sənətkarlıqla yazılmış, oyma xətkarlıq kitabələri tarixi abidə kimi dövlət tərəfindən mühafizə edilir.

***Ömər Əfəndi məscidi***

XVIII-XIX əsrlərdə tikilmiş Ömər Əfəndi məscidinin fasadı bişmiş kərpic naxışları ilə diqqəti cəlb edir. Fasaddakı kərpic karniz, divar səthindən qabağa çıxan nazik tağlarla işlənmiş pəncərəüstü, bir-birini əvəz edən kərpic və daş hörgü sıralarından ibarət pəncərəarası divarlar onun memarlıq simasını tamamlayır.

Tikintinin əsas tutumuna daxil edilmiş minarənin üzərində kərpiclə işlənmiş bəzək işləri Şəki sənətkarlarının xüsusi memarlıq üslubunu, bacarıq və qabiliyyətlərini özündə əks etdirir.

Binanın tikintisi özünəməxsusluğuna, bədii ifadəliyinə görə Şəki memarlığı ruhunda yerinə yetirilmişdir.

İnteryerin dekor elementi olan mehrabı xüsusi məharətlə işlənmişdir. Dindarlar məscidin həyətindəki hovuzun suyu ilə dəstəmaz alır, geniş və işıqlı salonda ibadət edirlər.

***Cümə məscidi***

XVIII-XIX əsr abidəsi olan Cümə məscidinin tikintisində yerli inşaat materiallarından istifadə edilmişdir. Plan quruluşuna görə tağlı, sütunlu salondan ibarət olub, daş və ağaclarla bölmələrə ayrılaraq binadakı bu böyük aşırımı örtməyə imkan vermişdir.

Alçaq yaşayış evlərinin və yaşıllıqların fonunda özünün hündürlüyü ilə seçilən minarə məscidinin kompozisiyasında mühüm yer tutur. 28,5 m hündürlüyündə olan minarə məscid binasından bir neçə metr aralı, ayrıca dayanan tikilidir. Yuxarıya doğru nazikləşən minarə kərpic hörgülərlə, relyefli naxışlarla bəzədilmişdir. Minarəni tamamlayan şərəfə hissəsi çox məharətlə işlənmişdir.

Məscidin iç məkanı sadə həll olunmuşdur. Buradan ibadət yeri, hücrələrindən isə mədrəsə kimi istifadə olunur. «N» şəklində olan məscid kompleksi ikimərtəbəlidir. Baş fasad kərpic naxışlarla işlənmişdir.

***Rəşid bəy Əfəndiyev adına Tarix-Diyarşünaslıq muzeyi***

Bu muzey 1925-ci ilin sentyabrında Maarif Komissarlığının əmri ilə yaradılıb. 1895-ci ildə kazarma məqsədi ilə tikilmiş bu tarixi abidəyə muzey 1980-ci ildən köçürülmüşdür.

Muzeyin ümumi sahəsi 924 kvadrat kilometrdir. Bunun 724 kvadrat kilometrində ekspozisiya zalları yerləşir.

Muzeydə 5000-ə yaxın tariximizi və mədəniyyətimizi əks etdirən maddi və mədəni abidələr toplanmışdır. Bunlardan 3000-ə yaxını ekspozisiya zallarında nümayiş etdirilir.

Muzeyin eksponatları dəfələrlə xarici ölkələrdə (Madaqaskar, Efiopiya, Pakistan və s.) nümayiş etdirilmişdir.

***Rəşid bəy Əfəndiyevin ev muzeyi***

Şəki şəhər R. B. Əfəndiyevin ev muzeyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 51 saylı qərarına əsasən 31 mart 1991-ci ildən fəaliyyət göstərir.

Muzey yerləşən bina XIX əsrdə, çay daşı və yerli istehsalla hazırlanmış bişmiş kərpiclə milli kaloritdə tikilmişdir. Bina iki mərtəbədən ibarətdir. Aşağı mərtəbə iki otaq və zirzəmidən, yuxarı mərtəbə üç otaq, bir kiçik dəhliz və şöbələrdən ibarətdir.

Muzeydə 2281 eksponat var. Muzey dörd şöbədən ibarətdir. Birinci şöbədə R. B. Əfəndiyevin büstü və yaradıcılığını əks etdirən eksponatlar var. Ədibin Qori Müəllimlə seminariyasında oxuduğu müddətdə müəllimi A. O. Çernayevskinin məsləhəti ilə yazdığı ilk pyesi olan «Qann ocağı» (1879-cu il), «Uşaq bağçası», «bəsirətül-ətfal» kimi dərslikləri, «Saqqalın kəraməti», «Qonşu-qonşu olsa kor qız ərə gedər», «Qızıl gül», «Diş ağrısı», «Tiflis səfəri», «Pul dəlisi» və s. əsərləri bu şöbənin eksponatlarındandır. Həmin şöbədə R. B. Əfəndiyev tərəfindən tərcümə olunmuş Firdovsinin «Şahnamə» əsərindən «Rüstəm və Zöhrab» hekayəsi, Prudonun «Psixologiya» kitabı da saxlanılır.

İkinci şöbədə R. B. Əfəndiyevin ailəsinə məxsus məişət əşyaları saxlanılır. Üçüncü şöbə R. B. Əfəndiyevin iş otağı kimi təqdim olunur. Dördüncü şöbədə R. B. Əfəndiyevin oğlu Məmməd bəy Əfəndiyevə aid dövlət tərəfindən verilmiş fəxri fərmanlar, fotoşəkillər, nəvəsi İzzət Nəbiyevə məxsus kitablar saxlanılır.

***M. F. Axundovun ev-muzeyi***

M. F. Axundovun ev muzeyi onun dünyaya 1812-ci ildə göz açdığı M. F. Axundov küçəsi, 1 salı ünvanda yerləşən binada 1940-cı ildə yaradılmışdır. Bu binanın 1800-cü ildə tikildiyi təxmin edilir. Sonralar M. F. Axundovun ev-muzeyi genişləndirilmiş, onun eksponatlarının bir hissəsi əlavə tikilmiş binada yerləşdirilmişdir. Beləliklə, M. F. Axundovun ev muzeyi 2 binadan: həyat və yaradıcılığına həsr olunmuş ekspozisiya zalından və ədibin anadan olduğu evdən ibarətdir.

Muzeydə 248 ədəd eksponat nümayiş etdirilir.

***Şəki Dövlət Rəsm Qalereyası***

Şəki Dövlət Rəsm Qalereyası 1982-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyinin əmri ilə təşkil olunmuşdur. Şəki Dövlət Rəsm Qalereyası şəhərin Yuxarıbaş məhəlləsində, «Dövlət Tarix Memarlıq qoruğu»nda qala divarları arasında yerləşən keçmiş Çar Rusiyasının kazarması olmuş binada yerləşir. Binanın tikilmə tarixi 100 ildən çoxdur. Şəki Dövlət Rəsm Qalereyası üç zaldan, emalatxana, fond otağı, direktor və köməkçi otaqlarından ibarətdir. Şəki qalereyasının fondunda 327 əsər var. Bu əsərlərdən 244-ü rəngkarlıq, 68-i Sulu boya, qrafika, 15-i isə heykəltəraşlıq işləridir. Fondun əsərlərindən əksəriyyəti

Azərbaycan Dövlət Rəsm Qalereyası tərəfindən 1982, 1984, 1986-cı illərdə Şəki Dövlət Rəsm Qalereyasına verilmişdir. Fondun əsərləri içərisində tanınmış heykəltəraş Sapsayın, tanınmış rəssamlardın Toğrul Nərimanbəyovun, Mehdiyevin, Sadıqzadənin, Saktin, habelə rus rəssamlarının Sulu boya ilə işlənmiş əsərləri var.

Şəki Dövlət Rəsm Qalereyası Şəki rəssamları ilə sıx əlaqə saxlayır və onların əsərlərindən ibarət satış sərgi zalı yaradılmışdır. Şəkidə Azərbaycan Rəssamlar İttifaqının filialı vardır ki, burada 10-15 üzv fəaliyyət göstərir.

Rəssamlar İttifaqının sədri rəssam Tahir Həmidlidir. İttifaqın üzvləri arasında ali təhsilli realist rəssam Qüdrət Məmmədovu, avanqard rəssam Söhrab Ərəbovu, ali təhsilli realist rəssamlar Səbuhi və Asim Məmmədovları, ali təhsilli qrafik rəssam Tahir Həmidlini və başqalarını göstərə bilərik.

Şəki Dövlət Rəsm Qalereyasında ildə 7-8 aktiv sərgi təşkil edilir. Bundan başqa sənətkarlarla görüşlər keçirilir.

***Xalq Tətbiqi Sənəti muzeyi***

Xalq Tətbiqi Sənəti muzeyi 1985-ci ilin iyunun 9-da açılmışdır. Bu muzey qədim Alban məbədində yerləşir ki, buna da el arasında «Dairəvi məbəd» deyilir. Muzeyin yerləşdiyi binanın tarixi haqqında mülahizələr müxtəlifdir. Bu Azərbaycanın Qafqaz Albaniyası dövrünə məxsus xristian memarlıq abidəsidir. Məbədin ilkin formasının VIII əsrə qədər tikildiyi güman edilir. Bu dövr Albaniyada xristianlığın daha geniş yayılmasının II mərhələsinə təsadüf edilir. Məbəddə dəfələrlə təmir-bərpa işləri aparılmışdır. Bəzi tarixi mənbələrə görə hətta Dərviş Məhəmməd, Çələbi xan dövründə də təmir işləri aparıldığı məlumdur.

Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra (XIX əsr) isə vilayətin mərkəzi şəhəri olan Nuxada Dairəvi Məbədə konstruktiv dəyişikliklər edilərək, rus əsgərlərinin kilsəsi kimi istifadə olunmuşdur.

Xalq Tətbiqi Sənət muzeyi Şəki şəhərində məşhur olan, qədimdən bu zamana kimi gəlib çatan sənətlər haqqında və şəhərdə tanınmış sənətkarlar haqqında məlumat verilir. Tətbiqi sənət nümunələri nümayiş etdirilir. Muzey 4 ekspozisiya zalından ibarətdir. I zalda Şəki ərazisində arxeoloji qazıntılar zamanı tapılmış əşyalar nümayiş etdirilir. Burada müxtəlif tipli gil qablar, qadın və kişi qəbirlərindən tapılmış zinət əşyaları, nizə ucluqları var. II əsas zalda isə ümumi sənətkarlıq bölməsi yerləşir. Burada dulusçuluq, xarratlıq, təkəlduz, misgərlik, şəbəkə, memarlıq, papaqçılıq sənət nümunələri nümayiş etdirilir. Bu sənətlərlə məşğul olan ustalar haqqında geniş məlumatlar verilir. III zalda əsasən milli qadın və kişi geyimləri, milli musiqi alətləri, ipəkçiliyə aid olan nümunələr nümayiş etdirilir. IV zal isə «Şəki otağı» adlanır. burada qədim Şəki evlərinin interyeri nümayiş olunur. Milli adətlərə uyğun olaraq evlərimizdə olan rəflər, taxçalar, döşəklər, sandıq, cəhrə, yun darağı və s. nümunələr ekspozisiyanı təşkil edir. Muzeyin ekspozisiyalarında 500-dən çox eksponat nümayiş etdirilir.

***Kiş məbədi***

Bu məbəd Kiş kəndinin məhəlləsində yerləşir. Məbəd ərazisini əhatə dən divarların qalıqları bəzi yerlərdə indi də qalmaqdadır. Bu divar qalıqları məbədin özünün az qala Maflar məhəlləsi boyda bir əraziyə malik olduğunu göstərir. Bütün bunlar onun tarixən müqəddəs dini mərkəz olmasından xəbər verir. Məbədin gülləsi, bu gülləyə bitişik divarlar yerli materialla - şırım daşla hörülmüş və kirəclə suvanmışdır. Qüllənin divarları 3 tərəfdən metal pulları cəzb etmək xüsusiyyətinə malikdir. Bunu nəmlikdə, uzun müddət şam yandığından divarlara parafin qatının çökməsi, güllə daxilində hava cərəyanı ilə izah edirlər. Bu cür magik xüsusiyyətlərinə görə məbəd ocaq, pir və ziyarət kimi müqəddəs yerlərdən biri hesab olunur.

Məbədin şimal-qərb hissəsində, 4-5 m aralı həyətdə uzunluğu 2 metrə qədər, eni bir metrdən çox olan yastı, tava daş vardır. Yeriməyən, dil açmayan və ya digər şikəstliyi olan uşaqları bu daşın üstündə bir gün oturtmaqla onları ruhi və cismani xəstəliklərdən xilas etməyi mümkün sayırlar. Məbədin yerli əhali tərəfindən bu günə qədər qorunub saxlanmasının əsas səbəbi onun müqəddəs sayılmasıdır ki, bu da onun antikliyi ilə üzvü surətdə bağlıdır.

Aparılan kəşfiyyat xarakterli arxeoloji qazıntı məbədin bünövrəsinin kasa şəklində və ya gəminin suda olan hissəsi quruluşunda olduğunu sübut etdi. Çox qəribədir ki, Misir ehramları da bu cür bünövrə üzərində qurulmuşdur.

Tarixi mənbələrdə olduğu kimi, izahatlarda da dolaşıqlıq olmasına baxmayaraq həqiqəti gizlətmək mümkün deyildir. Qafqaz Albaniyasında xristianlığın yayılma tarixindən bəhs edən VII əsr Alban tarixçisi Moisey Kalankatuklu «Albaniya tarixi» əsərində miladın 50-70-ci illərində baş verən hadisələri təhlilə ehtiyacı olan faktlarla təsvir edir. İsa peyğəmbərin sevimli şagirdlərindən olan Faddey şərqə xristian təlimini yaymağa göndərilir. Artazda erməni çarının əli ilə öldürülür. Faddeyin şagirdi müqəddəs Yelisey müəllimini müşayiət etdiyi üçün bu qanlı cinayətin şahidi olur. Qüdsə qayıdıb baş verən hadisələri hamıya söyləyir. İsa peyğəmbərin qardaşı müqəddəs Yakovun (Yaqub) tövsiyəsi ilə Yelisey müqəddəs ruh naminə şərqə şəhid müəllimi Faddeyin missiyasını davam etdirməyə göndərilir. Müqəddəs Yelisey ermənilərin gözündən qaçaraq Samur çayının cənubunda yerləşən Maskuta, oradan da Dərbəndə gəlir. Sonra müqəddəs Yelisey Ağdaşın yaxınlığında yerləşən kiçik Surxarn qalasına, buradan da gəlib Kişə çıxır. Albaniya tarixini tədqiq edənlər onun Şəkinin şimalında yerləşən Kiş kəndi olduğunu təsdiq edirlər.

Vurğulamaq yerinə düşər ki, müqəddəs Yelisey miladın 74-cü ilində şəhid olmuşdur.

***«Gələrsən-görərsən» qalası***

Kişlilər ona Qız, gah da Qızlar qalası deyirlər. Qız alınmazlıq və məğlubedilməzlik anlamını ifadə edir. Bu qala barəsində məlumat verən yeganə mənbələr Kərim ağa Fatehin «Şəki xanlarının müxtəsər tarixi» və Hacı Seyid Əbdülhəmid Əfəndinin «Şəki xanları və onların nəsilləri» əsərlərində bəhs olunmuşdur. Həmin mənbələrdə bu qala «Qız (lar)» adı ilə deyil, Gələrsən-görərsən adı ilə xatırlanır.

Hadisələri diqqətlə izlədikdə «Gələrsən-görərsən» adının Qız (lar) qalasına sonradan, daha doğrusu, 1743-cü il hadisələri ilə əlaqədar olaraq verildiyi anlaşılır. Şah Təhmasibin 1551-ci ildəki məlum hücumundan qorunmaq üçün şəkililərin həm Kişin özündə yerləşən Kiş qalasında, həm də Qız (lar) qalasında müdafiə olunduqlarını hər iki mənbə açıq və aydın şəkildə təsdiq etməkdədir.

Qız (lar) qalası Kiş kəndinin şimal-şərqində Böyük çayın qollarından biri olan Damarçın çayına bitişik, yüksək bir təpə üzərində qurulmuşdur. Arxadan, öndən və çay tərəfdən ona hücum etmək mümkün deyildir. Qız (lar) qalası ilə Kiş kəndi arasındakı ərazi Qala düzü adlanır. Kiş kəndinin şimal-şərq qurtaracağı ilə Qala düzünü ayıran Doğrunca çayı elə orada da Böyük çaya qovuşur.

Mənbələr göstərir ki, Şəki xanı Dərviş Məhəmməd xan 1551-ci ildə Qız (lar) qalasında müdafiə olunmuş və Kiş qalasının aldığını görüncə qaçmağa cəhd etmiş və şahın adamları tərəfindən qətlə yetirilmişdir. Onun kəsilmiş başını Şah Təhmasibin ayaqları altına atmışlar. Yenə həmin mənbələr 1743-cü ildə Nadir şahın hücumu ilə əlaqədar Qız (lar) qalasının adını çəkir. Dərviş Məhəmməd xanın qətlindən sonra Şəki xanlığı ləğv edilmiş və artıq 192 il idi ki, Şəki şahın təyin etdiyi məliklər tərəfindən idarə olunurdu. 1743-cü ildə Hacı Çələbi xan oradakı məliyi və onun adamlarını qətlə yetirib Şəkini müstəqil xanlığa çevirdi. Yenidən Şəki şah ordusu ilə üzləşməli oldu. Nadir şahın qoşunları Qız (lar) qalasını fasilələrlə mühasirədə saxlayır. Mühasirədə yaşamaq şəkili kişilər üçün çətin olsa da, nəticə etibarilə Xorasanda şah öldürüldükdən sonra Hacı Çələbi Şəkini müstəqil xanlığa çevirə bilmişdir.

«Gələrsən-görərsən» adı da bu hadisələrlə bağlıdır. Belə rəvayət edirlər ki, üzbəüz duran qoşunlar uzaqdan-uzağa qışqıra-qışqıra danışa bilirlərmiş. Bir dəfə Nadir şah özü danışığa girir və soruşur: «O necə qaladır ki, onu almaq olmur»«. Ona cavab verirlər: «Gələrsən-görərsən». Elə o vaxtdan etibarən qala iki adla çağırılmağa başlasa da, tarixi ədəbiyyatda bir adla - «Gələrsən-görərsən» adı ilə təqdim edilir. Yerli əhali ona Qız (lar) qalası deyir.

## Şəmkir rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,66 min kv. km**

**Əhalinin sayı - 217,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 131 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 58**

**Qəsəbələrin sayı – 7**

**Şəmkir rayonu ilə Bakı arasında olan məsafə - 399 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Şəmkir rayonu** | 191428 | 100,0 | 96183 | 50,2 | 95245 | 49,8 |
| şəhər əhalisi | 66667 | 34,83 | 33368 | 34,69 | 33299 | 34,96 |
| kənd əhalisi | 124761 | 65,17 | 62815 | 65,31 | 61946 | 65,04 |

### Ümumi məlumat

Şəmkir rayonu (1930-91 illərdə Şamxor rayonu) 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazın şimal-şərq yamacında, Gəncə-Qazax düzənliyində və Acınohur öndağlığında yerləşir. Mərkəzi Şəmkir şəhəridir.

Rayona Şəmkir şəhəri, Dəllər, Zəyəm, Çinarlı, Barlıbağ, Füzuli, Səməd Vurğun, Kür qəsəbələri və Yeni Həyat, İsgəndərli, İrmaşlı, Daşbulaq, Şiştəpə, Ələsgərli, Kamandar, Nərimanlı, Yeni Göyçə, Günəşli, Varlı Həyat, Qaraqoyunlu, Yuxarı Çaykənd, Aşağı Çaykənd, Dağ-Cəyir, Çənlibel, Atabəy, Tatarlı, Düyərli, Zəyəm Cırdaxan, Sabirkənd, Könüllü, Bayramlı, Qasımalılar, Göyməmmədli, Şeidlər, Əhmədli, Hacıalılar, Dəllər-Cəyir, Dəllər-Daşbulaq, Sarıtəpə, Dəllər-Cırdaxan, Qaranüy, Çaparlı, Əliyaqublu, Keçili, Muxtariyyə, Qaracəmirli, Qapanlı, Talış, Qılıncbəyli, Mehrili, Qaraqocalı, Çaylı, Yuxarı Seyfəli, Aşağı Seyfəlli, Abbaslı, Mahmudlu, Yeniabad, Təzəkənd, Məşədhüseynli, Qasım İsmayılov, Qaralar, Miskinli, Yeni Yol, Qarabağlar kəndləri daxildir.

Rayonun şimal-şərq və mərkəzi hissəsi, əsasən, düzənlik, cənub hissəsi isə dağlıqdır. Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: mis, molibden, qızıl, əhəngdaşı, çınqıl, qum və s. Qışı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi üstünlük təşkil edir. Orta

temperatur yanvarda -2°C-dən 2°C-yədək, iyulda 24-25°C-dir. İllik yağıntı 350-600 *mm*-dir. Rayonun ərazisindən Kür çayı və onun qolları (Zəyəm, Şəmkir, Cəhir və s.) keçir. Dağ-qara, qəhvəyi dağ-meşə, dağ-tünd şabalıdı, şabalıdı, açıq şabalıdı və allüvial çəmən-meşə torpaqları yayılmışdır. Kollu və seyrək meşəli çəmənlər, dağ meşələri, yovşanlı-şoranotulu yarımsəhra və çöl bitkiləri, Kür çayı sahilində tuqay meşələri var. Canavar, tülkü, boz dovşan, çöldonuzu, süleysin, qumsiçanı, çölsiçanı, bataqlıq qunduzu, turac, kəklik, göyərçin və s. məskunlaşmışdır. Şəmkir su anbarı və Şəmkir yasaqlığı rayonun ərazisindədir.

Şəmkir, əsasən, üzümçülük rayonudur. İqtisadiyyatında heyvandarlıq da mühüm yer tutur. Dəllər Tikinti Materialları Kombinatı, Zəyəm Kənd Təsərrüfatı Maşınqayırma zavodu, "Şəmkir-Konyak" ATSC, Zəyəm daş karxanası, Balıq zavodu, üzüm emalı müəssisələri, Şəmkir su elektrik stansiyası və s. sənaye müəssisələri var.

Şəmkir toponiminin mənası haqqında müxtəlif mülahizələr mövcuddur. Orta əsr ərəb və fars mənbələrində Şəmkür, türk mənbələrində isə Şəmkür, Şəmkir kimi göstərilmişdir. 1924-cü ildə İstanbulda «Müxtəsər Azərbaycan tarixi» kitabının çap etdirən Zeynaloğlu bu adı aşağıdakı kimi izah etmişdir.

Şəms-Günəş-Kür-Tapınan, yəni Günəşə tapınanlar yurdu deməkdir.

Dilçi alim Cahangirov isə bu adı «Şamkür», yəni «Kür qırağı» kimi izah etmişdir.

Şəmkir erkən orta əsr şəhərlərindəndir. Qədim Şəmkir şəhərinin xarabalıqları Şəmkir çayının sol sahilindədir. Şəhərin qala yerinin sahəsi 20 hektar olmuşdur. Şəhər qala yeri çayın sağ sahilində iki körpü vasitəsilə birləşmişdir. Bu körpünün qalıqları indi də qalmaqdadır.

VII əsrin ortalarında Şəmkir ərəblər tərəfindən işğal olundu. Ərəb xəlifəsi Mütəvəkkilin şərəfinə Mütəvəkkilliyə adlandırıldı. Şəhərin adı sonralar özünə qaytarıldı.

Şəmkir haqqında yazan bütün tədqiqatçıların yekdil fikri belədir ki, şəhərin çiçəklənmə dövrü IX-XII əsrləri əhatə edir. Bu dövrdə Şəmkir səlcuqlar tərəfindən işğal olundu. X-XII əsrlərdə Şəmkir özünün yüksəliş dövrünü keçirirdi. XII əsrdə Eldəgizlərin hakimiyyəti dövründə Şəmkirə xüsusi diqqət yetirildi. XIII əsrdə monqol işğalçılarına qarşı qanlı döyüş gedən Azərbaycan şəhərlərindən biri Şəmkir olmuşdur. Şəhər əhalisi Bəhram hakimiyyətindən işğalçılara qarşı ciddi müqavimət göstərməyi tələb etmişdir.

XVI əsrin əvvəllərindən Şəmkir mahalı Azərbaycanın Zülqədəz tayfa başçısının irsi hakimiyyətinə keçdi. Azərbaycanda xanlıqlar dövründə Şəmkir, Gəncə xanlığının tərkibində olmuşdur. 1803-cü ildə çar qoşunları tərəfindən tutulan Şəmkir Rusiyaya birləşdirildi.

1826-1828-ci illərdə, yəni sonuncu Rusiya-İran müharibəsinin qanlı səhifələrindən biri də Şəmkir yaxınlığında olmuşdur.

1826-cı il sentyabrın 3-də Şəmkir yaxınlığında baş vermiş döyüşdə çar qoşunları İran ordusunu məğlub etdi. XIX əsrin I yarısında çar hökumətinin icazəsi ilə Zaqafqaziyaya köçürülmüş alman kolonistlərindən bir qrupu Şəmkirdə məskunlaşdı. Həmin dövrdən Şamxor Anino adlandırıldı. 1938-ci ildə şəhərin köhnə adı bərpa edildi. 1991-ci ildə isə yenidən Şəmkir şəhəri adlandırılmışdır.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda televiziya, radio kütləvi informasiya mərkəzləri istisna olmaqla "Şəmkir" və "Qərb xəbərləri" qəzetləri çıxır. Şəmkir qəzetinin təsisçisi Şəmkir Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektividir. Qəzet 1931-ci ildən çıxır. "Qərb xəbərləri" ictimai siyasi həftəlik qəzet 19 mart 2004-cü ildən çıxır. Hər iki qəzet rayonda görülən işləri keçirilən ictimai-siyasi tədbirləri müntəzəm olaraq öz səhifələrində dərc edilir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Bakı-Qazax-Gürcüstan magistral yolunun rayondan keçən hissəsinin uzunluğu 42 km-dir. Yol II kateqoriyaya aid edilmişdir. Gəncə-Tovuz yolunun rayondan keçən hissəsinin uzunluğu isə 45 km olmaqla III kateqoriyaya aid edilmişdir.

Bakı-Tbilisi dəmir yolunun rayondan keçən hissəsi 34 km-dir. Yol III kateqoriyaya aid edilmişdir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Şəmkir şəhərində 1975-ci ildə inşa edilmiş Qələbə kompleksi, Düyərli kəndində 1975-ci ildə tikilmiş məscid binası, Çinarlı qəsəbəsində 1980-ci ildə inşa edilmiş Qələbə kompleksi, Şəmkir şəhərində, şəhərin Sərxan hissəsində və Naxırçılar hissəsində 1990-cı ildə qoyulmuş «20 Yanvar» abidələri, 1991-ci ildə şəhərdə ucaldılmış Aşıq Hüseyn Şəmkirlinin heykəli, Əlağa Şıxlinskinin büstü, Keçili kəndində 1992-ci ildə tikilmiş məscid, Muxtariyyə kəndində 1993-cü ildə ucaldılmış Koroğlunun abidəsi, Azərbaycanın Milli Qəhrəmanı Zaur Sarıyevin büstü, Şəhidlər parkı, İrmaşlı kəndində 1998-ci ildə inşa edilmiş məscid, Şəmkir şəhərində 1998-ci ildə inşa edilmiş Heydər Əliyev bulağı, 2001-ci ildə qoyulmuş 31 mart soyqırım abidəsi və Qurtuluş bulağı, Əliyaqublu kəndində 1998-ci ildə tikilmiş məscid, Qapanlı kəndində 2001-ci ildə inşa edilmiş 31 mart soyqırım abidəsi, Dəllər-Cırdaxan kəndində 2001-ci ildə ucaldılmış Yəhyabəy Dilqəmin abidəsi, Çənlibeldə 1997-ci ildə ucaldılmış Aşıq Ələsgərin heykəli kimi memarlıq abidələri var.

Rayon ərazisində IX-XI əsrlərə aid Şəmkir şəhər xarabalıqları, IX-XI əsrlərə aid Şəmkir körpüsü, Şəmkir qalası (Muxtariyyə kəndi), XI-XII əsrlərə aid Baydar şəhər xarabalıqları (Bayramlı kəndi), XI-XII əsrlərə aid Qız qalası (Seyfəli kəndi), XVI-XVII əsrlərə aid məscid (Abbaslı kəndi), XI əsrə aid Qız qalası (Tatarlı kəndi), XVI-XVII əsrlərə aid körpü (Təhnəli kəndi), XVII əsrə aid Divan bürcü (Yeni həyat kəndi), XVI-XVII əsrlərə aid Koroğlu qalası (Şəmkir şəhəri), dəmir dövrünə aid Qalaboynu qalacası (Atabəy kəndi), erkən orta əsrlərə aid Pir (Alman abidəsi) (Dağ-Daşbulaq), 1909-cu ildə tikilmiş Alman kilsəsi (Şəmkir şəhəri), XI-XII əsrlərə aid oğuz qəbiristanlığı (Yeni Seyfəli kəndi), XVI-XVII əsrlərə aid körpü (Zəyəm çayı üzərində) mövcuddur.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Şirvan şəhəri

**Yaranma tarixi – 1954-cü il**

**Ərazisi - 0,07 min kv. km**

**Əhalinin sayı - 85,5 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 1221 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı – 2**

**Şirvan şəhəri ilə Bakı arasında olan məsafə - 113 km**




## Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Şirvan şəhəri** | 77060 | 100,0 | 37698 | 49,7 | 39362 | 50,3 |

**Ümumi məlumat**

Şirvan şəhəri 1938-ci illədək Zubovka adlanıb, 1938-1954-cü illərdə qəsəbə, 1954-cü ildən sonra isə şəhər statusu almışdır. Kür çayının sol sahilində, Şirvan düzündə yerləşir. Hacıqəhrəmanlı və Bayramlı qəsəbələri Şirvan şəhərinin inzibati vahidləridir. İqlimi quru olmaqla qışı mülayim (yanvarda 0-3°C), yayı istidir (iyulda 30°C).

Şirvan sənaye şəhəridir. Ətrafında neft və qaz çıxarılır. Şəhərdə süni dəri, saxsı boru, cihaz və dəzgahqayırma zavodları, yağ-piy kombinatı, çörək zavodu, dəmir-beton evtikmə kombinatı, yeyinti konsentratları zavodu, şirə zavodu, iri sənaye obyekti - Şirvan DRES-i var.




Şirvan şəhəri yerləşən bölgənin keçmişi ilə bağlı bəzi məqamlar tariximizin şanlı səhifələridir. E. ə. II və III minilliklərdən orta əsrlərə kimi Şirvan şəhərinin indiki ərazisindən keçən ən qədim karvan yolları Azərbaycanın bütün bölgələrini birləşdirirdi. Bu bölgəyə yaxın karvansaray və onlarla yaşayış məskənlərinin xarabalıqlarının hazırkı dövrə qədər qalması deyilənlərə sübutdur.

Müxtəlif dövrlərdə bu ərazi Şirvanşahların, Şirvan bəylərbəyiliyinin, Şamaxı xanlığının, qismən Cavad xanlığının, Şamaxı qəzasının və Cavad qəzasının tabeliyində olmuşdur.

Azərbaycandakı cırtdan feodal dövlətləri birləşdirmək, qüdrətli Azərbaycan dövləti yaratmaq üçün ilk səfəri zamanı Şah İsmayıl Xətai 1500-cü ilin II yarısında indiki Şirvan şəhərinin ərazisindən keçən karvan yolu ilə hərəkət edib, qışı Mahmudabad şəhərində keçirmişdir.

Tarixin qaranlıq səhifələrini aşkara çıxarmaq üçün indi də bu istiqamətdə geniş arxeoloji-tədqiqat işləri aparılır.

Çar imperiyasının Azərbaycanı işğal etmək məqsədi ilə ilk təcavüzkar yürüşlərinin izləri bu ərazidə hal-hazıra kimi qalmaqdadır. 1796-cı ilin aprelində II Yekaterinanın məkrli işğalçılıq missiyasını həyata keçirmək üçün general V. Zubov 30 minlik qoşun və Xəzər donanması ilə Azərbaycana hücum edir. Bakını, Salyanı və Dərbəndi ələ keçirir. Kür çayının sol sahilində düşərgə salır. Böyük strateji mövqeyə malik Şirvan şəhərinin indiki ərazisinə yaxın yerdə II Yekaterinanın şərəfinə hətta şəhər salmaq üçün plan hazırlayır. Lakin II Yekaterinanın ölümü, I Pavelin qoşunları geri çağırması Zubovun planlarını alt-üst edir.

Şirvan şəhərinin indiki ərazisində XIX əsrdə sonuncu yaşayış məskəni Ərəbşahverdili kəndi olmuşdur. Bu yaşayış məskəninə sonralar işğalçı generalın şərəfinə «Zubovka» adı verilmişdir.

1902-ci ildə Kür çayı üzərində suvarma stansiyası - bərə istifadəyə verilmişdir.

Bakı-Culfa dəmir yolu 1911-ci ildə çəkilməyə başlanmış, 1917-ci ildə isə Kür çayı üzərində taxta körpü tikilmişdir.

Erməni daşnaklarının hücumu zamanı 1918-ci ildə taxta körpü yandırılmış, 1924-1927-ci illərdə metal tağlı körpü ilə əvəz edilmişdir. Zubovkada istifadəyə verilmiş dəmir yolu stansiyası Papanino adlandırılmışdır. Kür çayının Muğan sahilində 1916-cı ildə bünövrəsi qoyulmuş pambıqtəmizləmə zavodunun tikintisinin 1925-ci ildə başa çatması Zubovkanı xeyli genişləndirdi. 1920-ci ildə ilk ibtidai məktəb fəaliyyətə başladı.

1930-cu ildə Zubovka Salyan qəzasının tabeliyində olmuş, əhalisi artmış, kiçik abadlıq işləri görülmüşdür.

Salyan qəzasının 12 kəndi və iki qəsəbə soveti birləşərək 30 avqust 1930-cu ildə Əli Bayramlı rayonu təşkil edildi. Rayonun mərkəzi Zubovka qəsəbəsində yerləşdirildi.

1938-ci ildə rayon mərkəzi Zubovka qəsəbəsinin adı dəyişdirilərək Əli Bayramlı adlandırıldı.

1941-ci ildə Əli Bayramlı-Qazıməmməd dəmir yolu xətti çəkilir.

XX əsrin II yarısının əvvəllərindən başlanan uğurlu geoloji kəşfiyyat işləri nəticəsində 1955-ci il iyunun 18-də Şirvan yatağının Kürovdağ sahəsində 2 №-li neft quyusu fontan vurdu. Azərbaycanın neft xəritəsinə «Şirvanneft» əlavə edildi.

1959-cu ildə Avropada ilk Açıq Tipli Dövlət Rayon Elektrik Stansiyasının bünövrəsi qoyuldu, ilk blok 1962-ci ildə tam istifadəyə verildi.

1961-ci ildə Əli Bayramlı - Sabirabad avtomobil yolunda Kür çayı üzərindən körpü salındı.

1964-cü il yanvarın 4-də Əli Bayramlı rayonu ləğv edilərək onun tabeliyində olan 100-ə yaxın kənd Salyan, Sabirabad və Şamaxı rayonlarının tabeliyinə verildi, Əli Bayramlıya respublika tabeliyində şəhər statusu verildi. 8 may 2008-ci il tarixindən etibarən Əli Bayramlı şəhərinin adı dəyişdirilərək Şirvan adı verilmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Şəhər həyatının müntəzəm işıqlandırılmasında yerli radio verilişləri redaksiyasının, «İşıq» qəzetinin, Dövlət Teleradio Verilişləri Komitəsinin Şirvan ötürücü stansiyasının müstəsna rolu var.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Respublikanın cənub, cənub-qərb, qərb və şimal bölgələrini birləşdirən avtomobil və dəmir yolları, Kür çayı vasitəsi ilə isə su nəqliyyatı yolu Şirvan şəhərindən keçir. Şəhər ərazisindən keçən avtomobil yollarının ümumi uzunluğu 482 km-dir. Dövlət əhəmiyyətli magistral yollarının uzunluğu 17 km, dəmir yollarının uzunluğu 42 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Şəhərdə «Şəhidlər xiyabanı», «20 Yanvar» abidəsi, «Yanar ürək» kompleksi, Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürovun abidəsi, «Qəmgin ana», «Faşizm üzərində qələbənin 55 illiyinin xatirə kompleksi» var.

Bunlardan əlavə şəhərdə olan Azərbaycan şairləri Məhəmməd Füzulinin və Səməd Vurğunun abidələri, N. Nərimanovun barelyefi, Dədə Qorqud abidə kompleksi, Tarix-Diyarşünaslıq muzeyi şəhər mədəniyyətinin canlı eksponatlarıdır.

## Şuşa rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 0,31 min kv. km**

**Əhalinin sayı – 25,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 87 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər – 1**

**Qəsəbə - 1**

**Kəndlərin sayı – 37**

**Şuşa rayonu ilə Bakı arasında olan məsafə - 373 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Şuşa rayonu** | 28560 | 100,0 | 13934 | 49,9 | 14626 | 50,1 |
| şəhər əhalisi | 21185 | 74,18 | 10285 | 73,81 | 10900 | 74,52 |
| kənd əhalisi | 7375 | 25,82 | 3649 | 26,19 | 3726 | 25,48 |

**Ümumi məlumat**

Şuşa rayonu 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Xankəndi rayonuna (1978 ildən Əsgəran rayonu) verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Kiçik Qafqazda Qarabağ silsiləsi ərazisində yerləşir. Mərkəzi Şuşa şəhəridir.




Rayona Şuşa şəhəri, Turşsu qəsəbəsi və Malıbəyli, Yuxarı Quşçular, Xəlfəli, Dükanlar, Zamanpəyəsi, Şüşülü, Mirzələr, Qaybalı, Laçınlar, Şırlan, Çaykənd, Paşalar, Məmişlər, Xanalı, İmamqulular, Cəmillər, Səfixanlar, Xanlıqpəyə, Allahqulular, Böyük Qaladərəsi, Kiçik Qaladərəsi, Göytala, Onverst, Zarıslı, Nəbilər, Sarıbaba, Daşaltı, Nağılar, Xudaverdilər kəndləri daxildir.

Səthi dağlıqdır. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725 *m*). Əsasən, Yura və Təbaşir çöküntüləri yayılmışdır. Müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu, Şırlan) var.

Ərazisinin əksər hissəsi yayı quraq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tiplərinə aiddir. Orta temperatur yanvarda -4°C-dən -l°C-yədək, iyulda 16-19°C-dir. İllik yağıntı 700-800 *mm*-dir. Ərazisindən Qarqar çayı axır. Torpaqları qəhvəyi dağ-meşə, qonur dağ-meşə, çimli dağ-çəmən tiplidir. Yüksək dağlıq sahələr subalp və alp çəmənləri ilə örtülüdür. Alçaq dağlıq və dağətəyi sahələrdə qırılmış meşələrin yerində çəmənlər və kserofit kolluqlar var. Heyvanları: ayı, canavar, tülkü, boz dovşan, cüyür və s. Quşları: kəklik, göyərçin və s.

Rayonun iqtisadiyyatında heyvandarlıq əsas yer tutur.

Ətraf səfalı meşələr, sərin bulaqlar, havası məsum uşaq qəlbi kimi pak olan Şuşanın yaşı çox deyilsə də tarixi bir şəhərdir. Şuşa şəhərinin binasını Qarabağlı Pənah xan qoymuşdur. Pənah xan 1693-cü ildə Cavanşir elinin Sarıcalı oymağında anadan olmuşdur. Pənah xan gənc yaşlarından İran şahı Nadirin ordusunda xidmət edərək qəhrəmanlıqla ad çıxarmışdır. Onun igidliyini nəzərə alan Nadir şah Pənah xanı ordularından birinə sərkərdə təyin etmişdir. Lakin, Pənah xanın paxıllığını çəkən saray əyanları Nadir şahı inandırdılar ki, guya Pənah xan şahı öldürüb İran taxtına sahib olmaq istəyir. Nadir şah bu yalan xəbərə inanıb Pənah xanın qardaşını öldürür. Vəziyyəti belə görən Pənah xan şah sarayından qaçır.

1747-ci ilin iyunun 19-da saray çəkişmələri nəticəsində Nadir şah Əfşar öz çadırında xaincəsinə öldürüldü. Nadir şahın ölümündən sonra İran dövləti parçalanır. Bu vaxt Azərbaycanda Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqlar yaranır. Pənah xan da Qarabağda Cavanşirlər, Otuzikilər və s. türk tayfalarının köməyi ilə Qarabağ xanlığının əsasını qoydu.

Pənah xan İran tərəfdən gec-tez Qarabağ xanlığına hücum ediləcəyini düşünüb alınmaz bir qala tikməyi qərara aldı. Belə bir qala yeri tapmaq üçün xanın bir neçə nəfər bilici və məlumatlı adamı dağ silsilələrini gəzib indiki Şuşa şəhərinin yerləşdiyi yeri tapırlar.

Beləliklə 1750-ci ildə Qarabağın ən səfalı guşəsində, uca dağ qoynunda yeni qalanın bünövrəsi qoyuldu. Pənah xan Təbriz, Ərdəbil və başqa şəhərlərdən məşhur ustalar gətirtdi və hasarın içərisində yeni binalar və özü üçün saray tikdirdi.

Pənah xan qalanın Şimal və Şərq hissəsini yüksək hasar ilə əhatə etdirdi. Qalanın «İrəvan» və «Gəncə» adlı iki möhkəm qapısı var idi. Qapılar səhərlər açılar, axşamlar isə bağlandıqdan sonra kimsə şəhərə buraxılmazdı. Yerli əhali şəhəri Pənah xanın şərəfinə olaraq «Pənahabad» adlandırdılar. Bu ad ilə də o dövrdə Azərbaycan xanları arasında birinci dəfə olaraq 15 qəpik qiymətində gümüş pul kəsilməyə başladı.

Lakin tarixçilərin dediklərinə görə bu ad sonralar öz əhəmiyyətini itirərək şəhər «Şuşa Qalası» adlandırılmışdır.

Bəzi tarixçilərin dediyinə görə Şuşa şəhəri hündür qayalıqlar üzərində yerləşdiyindən, şəhərin adı da elə buradan - Şiş, uca sözündən götürülüb.

Deyilənə görə Ağa Məhəmməd Şah Qacar Şuşanı mühasirədə saxladığı dövrdə qasidlə İbrahim xana belə bir məktub göndərir: «Fələyin mancanağından fitnə dağı yağırkən, sən axmaqcasına Şişə içərisində

qərar tutmusan». İbrahim xan isə Vaqifin vasitəsilə Qacara belə bir cavab yazır: «Əgər məni himayə edən mən tanıdığımdırsa (yəni Allahdırsa) şişəni daşın fəsadından qoruyacaqdır».

Pənah Əli xanın ölümündən sonra oğlu İbrahim Xəlil xan 1760-cı ildən 1806-cı ilədək Qarabağın hakimi oldu.

1795-ci ildə İran şahı Ağa Məhəmməd şah Qacar Şuşanı işğal etmək məqsədilə yaxın qohumu Süleyman xanın komandası altında Şuşa şəhərinə 8 minlik ordu göndərdi. Süleyman xan Şuşa ətrafında böyük məğlubiyyətə düçar olaraq 20 nəfərlə güclə canını qurtardı.

Bu hadisədən bir qədər sonra, yəni 1795-ci ilin avqust ayında Ağa Məhəmməd şah Qacar 85 minlik ordu ilə Xudafərin körpüsü ilə Araz çayını keçərək Şuşa üzərinə hücuma keçdi. İbrahim xan şəhərin müdafiəsinə özü rəhbərlik edirdi. O, az bir vaxt içərisində 15 min nəfərlik qoşun toplaya bilmişdi. Ağa Məhəmməd şah Şuşaya yaxınlaşaraq onu üzük qaşı kimi mühasirəyə almışdı. Fransız zabitlərinin komandanlıq etdiyi düşmən topları Şuşanı 30 gün atəşə tutdu. Qacarın qoşunu şəhərə bir neçə dəfə hücuma keçdi, nə düşmən toplarının dolu kimi yağdırdığı mərmiləri nə də, sərbazların nizələri şəhərin istehkamlarını dağıda bilmədi. Ağa Məhəmməd şah şəhəri 33 gün mühasirədə saxladısa da xalqın iradəsini qıra bilmədi.



1797-ci ilin yazında Ağa Məhəmməd şah 100 minlik ordu ilə yenidən Şuşa üzərinə hərəkət etdi. Bu dövrdə Qarabağın vəziyyəti çox ağır idi. 2 ildən bəri davam edən müharibə əhalini ağır vəziyyətə düçar etmişdi. İbrahim xanın qoşunu aclığa davam etmir, qaçıb dağılırdı. Belə bir vəziyyətə düçar olan İbrahim xan öz ailəsi və yaxın qohumları ilə birlikdə Avar hakimi Ümma xanın yanına getdi.

Qala başlı-başına buraxıldığından Ağa Məhəmməd şah heç bir müqavimətə rast gəlmədən şəhərə daxil oldu. Elə həmin gecə 12 may 1797-ci il tarixdə şah öz qapıçısı Səfərəli bəy və xidmətçisi Abbas bəy tərəfindən öldürüldü. Bu hadisədən sonra İran ordusu Qarabağdan geri çəkildi. 2 ay sonra isə İbrahim xan yenidən Şuşaya qayıdır. 1806-cı ilin 2 iyun tarixində gecə mayor Lisanoviçin dəstəsi İbrahim xanın yaşadığı mənzilə gəlir və İbrahim xan bir neçə ailə üzvü və yaxın adamları ilə birlikdə qətlə yetirir.

1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində İran şahı ilə Rusiya arasında sülh müqavilənaməsi bağlandı. Həmin sülhün şərtlərinə görə İran hökuməti bir neçə xanlıqlarla bərabər mərkəzi Şuşa şəhəri olmaqla Qarabağ xanlığının Rusiya hakimiyyəti altında qalmasını təsdiq etdi.

XIX əsrin ikinci yarısından başlayaraq Şuşa şəhəri Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafında mühüm rol oynamışdı. Həmin vaxtdan etibarən Şuşa ticarətinə sənətkarlığın və mədəniyyətin inkişafına və əhalisinin çoxluğunda görə Azərbaycanda birinci və Zaqafqaziyada isə Tiflisdən sonra ikinci şəhər sayılırdı. Təsadüfi deyildi ki, o dövrdə Şuşaya «Bala Paris» adı vermişdilər.

Şuşanın inzibati mərkəz olması onun iqtisadi cəhətdən yaxşı inkişaf etməsi, həm də şəhərin füsunkar coğrafi mövqeyi buranın uzun müddət Azərbaycanın elm, poeziya, xüsusilə musiqi mədəniyyəti mərkəzi olmasına böyük təsir göstərmişdir. Azərbaycan xalqının mədəniyyət tarixində ilk dəfə olaraq teatr, sirk tamaşaları, Avropa və Şərq konsertləri, musiqi, elm, maarif və bir çox sənət məclisləri, bundan əlavə mətbəə, kitabxana, «Realnı» uçiliş, «Qorodskoy» uçiliş, seminariya və bir sıra mədəni maarif müəssisələri Şuşada yaranmışdır. Şuşada ilk teatr tamaşaları 1848-ci ildə göstərilmişdir. O zaman teatrda Mirzə Fətəli Axundovun komediyaları oynanılırdı.

Şuşa Azərbaycanın mədəniyyət mərkəzlərindən biridir. Şuşa sağlamlıq şəhəri, istedadlar məskənidir. Şuşanın Azərbaycana verdiyi istedadları heç bir şəhər verməmişdir. Azərbaycan Respublikası Elmlər Akademiyasının topladığı məlumata görə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsvəxənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı dəstəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə və burada inkişaf etdirməkdə böyük rol oynamışlar.

XX əsrdə Şuşanın bir kurort şəhəri kimi inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük əməyi olmuşdur. Belə ki, H. Əliyev Azərbaycan KP MK-nın birinci katibi təyin olunduqdan sonra Şuşanın inkişafı ilə əlaqədar bir sıra qərar və sərəncamlar imzalamışdır ki, (Azərbaycan KP MK və Azərbaycan Nazirlər Sovetinin 360 nömrəli 4 noyabr 1976-cı il tarixli «Şuşa şəhərində kurort kompleksinin daha da inkişaf etdirilməsi sahəsində tədbirlər haqqında» qərarı, Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il tarixli 280 nömrəli «Bakı şəhərində «İçəri şəhər»in və Şuşa və Ordubad şəhərlərinin tarixi hissələrinin tarix-arxitektura qoruqları elan edilməsi haqqında» qərarı, Azərbaycan SSR Nazirlər Sovetinin 10 dekabr 1981-ci il tarixli 629 nömrəli «Şuşa şəhərində Şəkil Qalereyasının yaradılması haqqında» sərəncamı, Azərbaycan KP MK-nın və Azərbaycan Nazirlər Sovetinin 01 noyabr 1978-ci il tarixli 413 nömrəli «1981-1985-ci illərdə görkəmli inqilabçılara, partiya, dövlət xadimlərinə və ictimai xadimlərə və mühüm tarixi hadisələrə həsr olunmuş abidə və obelisklərin qoyulması sahəsində işlərin başa çatdırılması haqqında» Azərbaycan SSR Nazirlər Sovetinin 31 iyul 1978-ci il tarixli 279 nömrəli sərəncamı) bunlar da şəhərin sosial-iqtisadi və mədəni inkişafında mühüm rol oynamışdır.

Lakin bədnam qonşularımız olan erməni millətçilərinin təhriki ilə erməni-rus birləşmələri tərəfində 1992-ci il mayın 8-də Şuşanın işğalı zamanı üç əsr ərzində şəhərdə ucaldılmış tarixi-memarlıq incəsənət və dini abidələr darmadağın edilmiş, şəhər xarabazara çevrilmişdir. Müharibə dövründə 197 şuşalı şəhid olmuş, 300 nəfər isə müxtəlif dərəcələrdə xəsarət alaraq əlil olmuşlar.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Şuşa şəhəri noyabrın 8-də işğaldan azad edilmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

«Şuşa» qəzeti fəaliyyətinə 1932-ci ildə başlamışdır. Həmin dövrdə qəzet Azərbaycan KP Şuşa Rayon XDS İcraiyyə Komitəsinin orqanı olaraq «Kolxoz bayrağı» adı altında nəşr olunmuş, 1969-cu ildən isə «Şuşa» qəzeti adlanmışdır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən 77 km uzunluğunda III dərəcəli, 34 km uzunluğunda IV dərəcəli yollar keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat

1. Qala divarı (uzunluğu 8 km)
2. Qala Divarları üzərində tikilmiş bürclər (17 ədəd)
3. 17 qədim üslubda salınmış məhəllə
4. 17 məscid
5. 17 bulaq
6. 17 hamam
7. Meydan bulağı
8. İsa bulağı
9. Saxsı bulaq
10. Turşsu Qalereyası
11. Karvansaray (4 ədəd)
12. Şahlıq körpüsü
13. Gəncə qapısı
14. Mirzə Həsən qəbiristanlığı
15. Şor bulaq
16. Mirfəseh qəbiristanlığı
17. Rasta bazar
18. Torpaq meydan
19. Zarıslıda Korun karvansarayı
20. Təzə məhəllədə körpü
21. Ü. Hacıbəyovun heykəli
22. Bülbülün büstü
23. H. Hacıbəyovun büstü
24. Cıdır düzü
25. Topxana meşəsi
26. Ağaböyük Xanımın bürcü
27. Malıbəylidə Qızlar məktəbi

28. Un dəyirmanı
29. Kəlba Şəhriyarın bağı
30. Mirfəseh bağı
31. «Həzrət Əli» kahası
32. «Qızıl qaya»
33. Səkili bulağı
34. Qotur bulağı
35. Şəmilin bağı
36. Hacıyevlərin armud bağı
37. Ağabəyim Ağanın qəsri
38. Bəhmən Mirzə Qacarın saray kompleksi
39. Bəhmən Mirzənin hərəmxanası
40. Bəhmən Mirzə Qacarın tikdirdiyi «Bab» hamamı
41. Qacarların məqbərə kompleksi
42. Qulam Şahın malikanəsi
43. Əsəd bəyin malikanəsi
44. Mamay bəyin malikanəsi
45. Şeytana bazar
46. Əfsanəvi Leyli qalası
47. Çuxur məhəllədə 2 minarəli «Şəfa ocağı»
48. Məhəmməd Həsən Ağanın imarəti
49. Qarabağ xanlığının Divan kompleksi
50. «Həzrət Abbas Şəfa ocağı»
51. Dəlik-daş pilləkən kompleksi
52. Qarabaş Qazisinin mülkü
53. Şuşa Ovdan bulağı
54. Vaqif poeziya evi
55. M. P. Vaqifin məqbərəsi
56. M. P. Vaqifin müəllimlik etdiyi bina
57. M. P. Vaqifin büstü
58. M. P. Vaqifin evi
59. Xan qızı Xurşud Banu Natəvanın sarayı
60. Xan qızı Xurşud Banu Natəvanın bulaq kompleksi
61. X. B. Natəvanın büstü
62. X. B. Natəvanın tikdirdiyi «Qarama»
63. X. B. Natəvanın tikdirdiyi həbsxana

64. Aşağı Gövhər Ağa Məscidi
65. Yuxarı Gövhər Ağa Məscidi
66. Malıbəyli Məscidi
67. Qaybalı Məscidi
68. Şırlan məscidi
69. Alban kilsəsi
70. Rus kilsəsi
71. Hacı Qulamın mülkü
72. M. M. Nəvvabın mülkü
73. M. M. Nəvvabın abidə kompleksi
74. Nəcəfqulu Ağanın mülkü
75. Ağa-Əbdürrəhim Ağanın evi
76. Hacı Bəşirin mülkü
77. Cabbar Qaryağdı oğlunun mülkü
78. Mirzə Hüseynin mülkü
79. Mirəlibəyin mülkü
80. Seyid Məcidin mülkü
81. Kəlba Şirinin mülkü
82. Öpənnik Qara Zeynalın mülkü
83. Fərzalı bəyin mülkü
84. Allahverənli Kəlba Şirinin mülkü
85. Çuxur məhəllədə Kal Həsənin evi
86. Təzə məhəllədə Xayatlılar Mehdinin evi
87. Çuxur məhəllədə Kürd uşağının evi
88. Məşədi Qəhrəmanın mülkü
89. Quyruq məhəlləsində Məşədi Teymurun evi
90. Mehmandarovun ev kompleksi
91. Zöhrabbəyovların evi
92. İbrahim xanın mülkü
93. Sadıqcanın qəsri
94. Uluq bəyin evi
95. Quyruq məhəlləsində Sadıq bəyin mülkü
96. Cəlal bəyin evi
97. Nəcəf bəy Vəzirovun mülkü
98. Firudin bəy Köçərlinin mülkü
99. Süleyman Sani Axundovun mülkü

100. İsmayıl bəyin evi
101. Məşədi Şirinin mülkü
102. Gəraf Əsgərovun mülkü
103. Ağamirovların mülkü
104. Hüsü Hacıyevin mülkü
105. Hüsü Hacıyevin büstü
106. Kəlba Hüseynin evi
107. Yusif Vəzir Çəmənzəmənlinin mülkü
108. Mir Həsən Vəzirovun mülkü
109. Qaraşovların mülkü
110. Hüseyn Qayıbovun mülkü
111. Q. B. Zakirin yaşadığı ev
112. Q. B. Zakirin qəbirüstü abidəsi
113. Hacı Dadaşın mülkü
114. Əbdülrəhim bəy Haqverdiyevin evi
115. Hacı Şükürün imarəti
116. Qədimovların mülkü
117. Ü. Hacıbəyovun ev muzeyi
118. Bülbülün ev muzeyi
119. Xalça muzeyi
120. Rəsm Qalereyası
121. Tarix Diyarşünaslıq muzeyi
122. Qarabağ Dövlət tarixi muzeyi
123. Azərbaycanda ilk «realnı uçiliş»in binası
124. Yaşıl aptek
125. Mədəniyyət evi
126. Külli miqdarda gümüş və mis qablar
127. İbrahim Xəlil xanın 1801-ci ildə tikdirdiyi mədrəsə kompleksi (Gövhər Ağanın məscidini həyətində)
128. Qarabağ xanlığının vəziri Mirzə Camal bəy Cavanşirin və onun ailəsinin məqbərə kompleksi
129. Tarixin yaddaşı olan Daş Kitabələr

**Məhəllə adları:**

1. Urudlar
2. Seyidli
3. Culfalar

4. Quyuluq
5. Çuxur
6. Hacı Yusifli
7. Dördlər Qurdu
8. Dörd Çinar
9. Çöl Qala
10. Köçərli
11. Mamayı
12. Merdinli
13. Saatlı
14. Dəmirçilər
15. Hamamqabağı
16. Təzə məhəllə
17. Xocamircanlı

## Tərtər rayonu

**Yaranma tarixi - 27.01.1934**

**Ərazisi – 0,96 min kv. km**

**Əhalinin sayı - 80,5 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 196 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 52**

**Tərtər rayonu ilə Bakı arasında olan məsafə - 332 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Tərtər rayonu** | 97270 | 100,0 | 47689 | 49,0 | 49581 | 51,0 |
| şəhər əhalisi | 29786 | 30,62 | 14503 | 30,41 | 15283 | 30,82 |
| kənd əhalisi | 67484 | 69,38 | 33186 | 69,59 | 34298 | 69,18 |

**Ümumi məlumat**

Tərtər Azərbaycan Respublikasında inzibati rayondur. 1920-ci ilin aprel ayında Cavanşir qəzası yaradılmışdır. Həmin ildə Tərtər sahəsi yaradılmış və 1920-1922-ci illərdə Cavanşir qəzasının tabeliyində olmuş, 1922-ci ildə adı dəyişdirilərək Cavanşir sahəsi adlandırılıb. 7 iyul 1923-cü ildən 1929-cu ilin aprelinə kimi Ağdam qəzasının inzibati tabeliyində, 8 aprel 1929-cu ildən 8 avqust 1930-cu ilə kimi Qarabağ dairəsinin tabeliyində olmuşdur.

8 avqust 1930-cu ildə Tərtər rayonu yaradılıb. 24 fevral 1931-ci ildə Tərtər rayonu ləğv edilərək Bərdə rayonunun inzibati tabeliyinə verilmişdir. 27 yanvar 1934-cü ildə yenidən Tərtər rayonu yaradılmışdır. 5 avqust 1949-cu ildə rayonun adı dəyişdirilərək Mirbəşir rayonu adlandırılmışdır. 4 yanvar 1963-cü ildə Mirbəşir rayonu ləğv edilərək Bərdə rayonunun inzibati tabeliyinə keçirilmiş, 6 yanvar 1965-ci ildə yenidən Mirbəşir rayonu yaradılmışdır. 7 fevral 1991-ci ildə Mirbəşir rayonunun adı dəyişdirilərək yenidən Tərtər rayonu adlandırılmışdır.

Azərbaycan Respublikası Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli 327 saylı qərarı ilə Azərbaycan Respublikasının Ağdərə rayonu ləğv edilərək həmin rayonun Ağdərə qəsəbəsi və 28 kəndi

Tərtər rayonunu inzibati tərkibinə verilmişdir. Ağdərə rayonu ərazisindən verilən yaşayış məntəqələri də daxil olmaqla hazırda rayonda 2 şəhər, 1 qəsəbə və 74 kənd vardır.

1993-cü ildə Tərtər rayonunun 3 kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun keçirdiyi hərbi əməliyyatlar nəticəsində 2020-ci ilin 3 oktyabrında Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, 9 oktyabrda isə Çaylı kəndi işğaldan azad edilmişdir.

Tərtər rayonu Kiçik Qafqazın şimal-şərq ətəklərində və Qarabağ düzündə yerləşir. Mərkəzi Tərtər şəhəridir.

Rayona Tərtər şəhəri və Azadqaraqoyunlu, İlxıçılar, Borsunlu, Qırmızısaqqallar, Burc, Güləbatlı, Bəyimsarov, Qaynaq, Qapanlı, Qazyan, Qarağacı, Qaradağlı, Qapanlı, Təzəkənd, Kəngərli, Dəmirçilər, Cəmilli, Balakəngərli, Evoğlu, İsmayılbəyli, Əksipara, Ələsgərli, Bayandur, Yenikənd, Köçərli, Mamırlı, Poladlı, Sarov, Rəcəbli, Bildirçinli, Kovdadıq, Soyulan, Hacallı, İrəvanlı, Səhləbad, Düyərli, Sarıcalı, Seydimli, Zolgörən, Xoruzlu, Kəbirli, Bayandurlu, Hacıqərvənd, Hüseynli, Ortakənd, Marquşavan, Maralyan, Yuxarı Çaylı, Suqovuşan, Donaşen, Dəstəgül, Güləbürt kəndləri daxildir.

Rayonun səthi şimal-şərqdə düzənlik, cənub-qərbdə dağlıqdır. Dağlıq sahədə Yura-Tabaşir, düzənlikdə Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, daş kömür, tikinti materialları, səpinti qızıl və s. İqlimi yayı quraq keçən mülayim isti yarımsəhra və quru-çöl tipli, qışı mülayim soyuqdur. Orta temperatur yanvarda -2°C-dən 3°C-yədək, iyulda 18-26°C-dir. İllik yağıntı 300-500 *mm*-dir. Rayon ərazisindən Tərtər və İncəçay, cənub sərhədindən isə Xaçın çayı axır. Ərazisi şabalıdı, boz və çəmən-boz torpaqlardan ibarətdir. Yovşanlı-şoranotulu yarımsəhralar, seyrək kollu çəmənliklər, meşələr və subalp çəmənləri yayılmışdır. Heyvanları: tülkü, dovşan, qumsiçanı və s.

Tərtər, əsasən, kənd təsərrüfatı rayonudur. Əkinçilik və maldarlıq inkişaf etmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

1934-cü ilin aprel ayında Maşın Traktor Stansiyasının siyasi orqanı kimi yaradılmış Tərtər rayon qəzeti “Kolxozçuların varlanması yolunda” adı ilə həftədə bir dəfə nəşr edilməyə başlamış, 1937-ci ildən “Qızıl bayraq” adı ilə 3000 nüsxə, Böyük Vətən müharibəsi illərində isə 1000 nüsxə tirajla nəşr edilmişdir. 1963-1965- ci illərdə Tərtər rayonu Bərdə rayonu ilə birləşdiyinə görə “Qızıl Bayraq” qəzeti Bərdə rayonunun “Kommunizm yolu” qəzeti ilə birləşdirilmiş, 1966-cı ildən yenidən “Qızıl bayraq” adı ilə nəşr edilmişdir. 1998-ci ildən 2005-ci ilədək qəzet fəaliyyət göstərməmişdir. Uzun fasilədən sonra 2005-ci ilin avqust ayının 20-dən etibarən Tərtər rayon qəzeti “Yeni Tərtər” adı ilə yenidən nəşr edilməyə başlamışdır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisində Tərtər-İstisu, Tərtər-Hindarx, Tərtər-Goranboy, Yevlax-Ağdam-Laçın, Tərtər dövrələmə, Tərtər kənar avtomobil yolları keçir. Bu avtomobil yollarının uzunluğu 89 km-dir və yollar 3-

cü kateqoriyaya aiddir. Rayon ərazisindən 4-cü kateqoriyaya aid edilən 15 km uzunluğunda Yevlax-Bərdə-Ağdam dəmir yolu keçir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonda 24 tarix və mədəniyyət abidələri var. Onlardan 1 ədədi dünya, 15 ədədi ölkə əhəmiyyətli arxeoloji abidə, 7 ədədi yerli əhəmiyyətli memarlıq, 1 ədədi isə yerli əhəmiyyətli arxeoloji abidədir.

Həmin abidələr Tərtər şəhərində, Buruc, Hacıqərvənd, Evoğlu, Hüsənli, Sarov, Borsunlu, Bəyim Sarov, Xoruzlu, Dəmirçilər kəndlərində yerləşir. Göstərilən ərazilərdə 3 məscid, 15 kurqan, 2 nekropol, 2 yaşayış yeri, 1 buzxana, 1 türbə mövcuddur.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Tovuz rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,94 min kv. km**

**Əhalinin sayı - 176,9 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 91 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 2**

**Kəndlərin sayı - 102**

**Tovuz rayonu ilə Bakı arasında olan məsafə - 439 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Tovuz rayonu** | 157875 | 100,0 | 79078 | 50,1 | 78797 | 49,9 |
| şəhər əhalisi | 26968 | 17,08 | 13198 | 16,69 | 13770 | 17,48 |
| kənd əhalisi | 130907 | 82,92 | 65880 | 83,31 | 65027 | 82,52 |

**Ümumi məlumat**

Qədim insan məskənlərindən olan, ərazisində zəngin tarixi abidələri olan Tovuz rayonu tarixən aborigen tayfa və xalqların nümayəndələrinin yaşadıqları yurd yerlərindən olmuşdur. Tarixdə Şəmşədil, Şəmsəddin, Touş adları ilə tanınan bölgə keçmiş SSRİ üzrə inzibati ərazi bölgüsü əsasında Tovuz rayon kimi 1930-cu il avqustun 8-də təşkil olunmuşdur. Rayon Azərbaycan Respublikasının şimal-qərbində yerləşməklə əlverişli iqtisadi coğrafi mövqeyə malikdir. Ərazisinin ümumi sahəsi 1903 kv. kilometrdir, bu ölkə ərazisinin 2,2 %-nə, Gəncə - Qazax iqtisadi rayonunun isə 15,2 faizinə bərabərdir.

Ermənistan Respublikası ilə 69 kilometr, Gürcüstan Respublikası ilə 23 kilometr sərhədi olan rayon qərbdə Ağstafa rayonu, şərqdə Şəmkir rayonu, cənubda Gədəbəy rayonu, şimalda az bir hissəsi Samux rayonu ilə həmsərhəddir.

Tovuz rayonu Kiçik Qafqazın şimal-şərq yamacında və Orta Kür çökəkliyində yerləşir. Mərkəzi Tovuz şəhəridir.

Rayona Tovuz şəhəri, Qovlar qəsəbəsi və Əlibəyli, Mülkülü, Hacallı, Yuxarı Öysüzlü, Düz Cırdaxan, Cəlilli, Xatınlı, Cilovdarlı, Qaraxanlı, Əlimərdanlı, Hunanlar, Aşağı Quşçu, Dondar Quşçu, Əsrik

Cırdaxan, Koxa Nəbi, Kirən, Mollaayrım, Hacıhəsənli, Xınnakirən, Sofular, Xatıncan, Qalaboyun, Saladınlı, Baqqallı, Ağbulaq, Çataq, Qandallar, Kazımlı, Cirdək, Hacılar, Pələkli, Şıxheybət, Qoşa, Muncuqlu, Çeşməli, Abbasqulular, Papaqçılar, Güvəndik, Həsənli, Məşədivəllər, Böyük Qışlaq, Şamlıq, Mollalar, Səfərli, Qaralar, Düz Qırıqlı, Alakol, Köhnəqala, Məşədilər, Aşırallar, Əyyublu, Yanıxlı, Qoçdərə, Xoşdarlı, Sadıqlı, Əhmədabad, Aran, Qəribli, İsakənd, Aşralar, Qarabağlılar, Ağdərə, Hətəmallar, Dəlləkli, Böyük Şamlıq, Lazılar, Ağbaşlar, Almalıtala, Sarıtala, Dondarlı, Nəmxoş, Yoğunbulaq, Çobansığnaq, Qaraboyunlar, Ağacqala, Bozalqanlı, Abulbəyli, Azaflı, Bayramlı, Vahidli, Ağdam, Aşağı Öysüzlü, Qazıqulu, Qaradaş, Qonaqlı, Qayadibi, Göyəbaxan, Nəsibli, Qarağatlı, Hüseynqulular, Məşədiqulular, Dönük Qırıqlı, İbrahimhacılı, Məsimlər, Kəcavənd, Avdal, Öskən, Aşağı Mülkülü, Bala Şamlıq, Qozdərə, Qədirli, Məşədilər kəndləri daxildir.

Relyefi cənubda dağlıq (Şahdağ silsiləsinin şimal-şərq qolları), mərkəzi düzənlik (Gəncə-Qazax düzənliyi), şimal hissəsi alçaq dağlıqdır (Ceyrançöl öndağlığı). Əsasən, Yura, Tabaşir, Neogen, Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: qızıl, mis, polimetal, tikinti materialları və s. İqlimi şimalda mülayim isti, yarımsəhra və quru çöl tiplidir. Cənuba getdikcə iqlim nisbətən mülayimləşir. Qışı quraq keçir. Orta temperatur yanvarda -4°C-dən l°C-yədək, iyulda 18-25°C-dir. İllik yağıntı 400-700 *mm*-dir. Çayları: Kür, Tovuz, Axınca, Zəyəm, Əsrik.

Əsasən, şabalıdı, açıq-şabalıdı, qəhvəyi dağ-meşə, dağ tünd-şabalıdı, qonur dağ-meşə, dağ qara torpaqlar yayılmışdır. Kür sahillərində allüvial çəmən torpaqlarına rast gəlinir. Bitki örtüyü şimal və mərkəzi hissələrdə, əsasən, çöl və yarımsəhra tiplidir. Cənubda dağlıq sahələrdə palıd və vələs meşələri, subalp və alp çəmənləri, Kür boyunca tuqay meşələri var. Heyvanları: çöldonuzu, daşlıq dələ-si, cüyür, qumsiçanı və s. Quşları: bəzgək, dovdaq, kəklik, turac və s.

Tovuz, əsasən, kənd təsərrüfatı rayonudur. Buğda, kartof, qarğıdalı, bostan bitkiləri, meyvə-tərəvəz və s. yetişdirilir, heyvandarlıq və quşçuluqla məşğul olunur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

1929-cu ildən «Qızıl Tovuz», «Sosializm kəndi», «Həqiqət» adları ilə, hazırda isə «Tovuz» adlı rayon qəzeti nəşr edilir.

Rayonda 1994-cü ildən başlayaraq qısa fasilələrlə, 2002-ci ildən isə müntəzəm şəkildə özəl SM TV (Simurq teleradio kompaniyası) gündəlik 8-10 saat efirə çıxmaq şərti ilə fəaliyyət göstərir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Tovuz ərazisində ümumi uzunluğu 493 km olan avtomobil yolları vardır. Bundan 211 km-i respublika əhəmiyyətli, 282 km-i isə yerli əhəmiyyətli avtomobil yollarıdır. Kateqoriyalar üzrə respublika əhəmiyyətli yollar aşağıdakı qaydadadır:

1. Bakı-Qazax avtomobil yolu - cəmi 26 km - II kateqoriyalı;
2. Gəncə-Tovuz avtomobil yolu - cəmi 20 km - III kateqoriyalı;

3. Tovuz-Əlibəyli avtomobil yolu cəmi - 18 km - III kateqoriyalı;

4. Tovuz - Böyük Qışlaq avtomobil yolu - cəmi 40 km, 15 km - III kateqoriyalı, 25 km - IV kateqoriyalı;

5. Qovlar-Yeni Saratovka avtomobil yolu - cəmi 40 km, 14 km - III kateqoriya, 26 km isə IV kateqoriyalıdır;

6. Tovuz-Ceyrançöl-Ağstafa avtomobil yolu - cəmi 58 km, 18 km - III kateqoriyalı, 40 km - IV kateqoriyalı;

7. Tovuz şəhərinə giriş avtomobil yolu - cəmi 8 km - III kateqoriyalı;

8. Qovlara giriş avtomobil yolu - cəmi 1 km - III kateqoriyalı.

Yerli əhəmiyyətli yollar - cəmi 282 km olmaqla 103 km IV kateqoriyalı, 179 km-i isə V kateqoriyalıdır.

Tovuz rayonu ərazisində Azərbaycan dövlət dəmir yolunun 104-cü km-dən başlayaraq 129-cu km-ə qədər hissəsi yerləşməklə, cəmisi 25 km təşkil edir. Tovuz dəmir yolu stansiyası və Qovlar dəmir yolu stansiyası IV kateqoriyaya aiddir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə təsdiq edilmiş 59 daşınmaz tarixi və mədəniyyət abidələri mövcuddur. Həmin abidələr aşağıdakı qayda üzrədir:

| **İnv.** | **Abidənin adı** | **Tarixi** | **Yerləşdiyi ünvan** |
|---|---|---|---|
| 382 | Məscid | XVII əsr | Yanıqlı kəndi |
| **Arxeoloji abidələr** | | | |
| 1790 | Şiş quzey düşərgəsi | Paleolit Tunc dövrü | Tovuz şəhərindən qərbdə |
| 1791 | Kurqan | | Tovuz şəhərindən 2 km cənub şərqdə |
| 1792 | Birtağlı körpü | X əsr | Tovuz çayının üzərində |
| 1793 | Karvansaray qalıqları | XIV əsr | Tovuz şəhəri |
| 1794 | Torpaqala yaşayış yeri | III-VII əsrlər | Tovuz şəhərindən 12 km aralı<br>Kür çayının sağ sahilində |

| | | | |
|---|---|---|---|
| 1795 | Koroğlu qalası | XVI əsr | Əlibəyli kəndi |
| 1796 | Daş qutusu nekropolu | e. ə. VII-III əsrlər | Bayramlı kəndi |
| 1797 | Küp qəbirləri nekropolu | e. ə. II minillik-e. II əsri | Bayramlı kəndi |
| 1798 | Yaşayış yeri | Son tunc dövrü | Bayramlı kəndi |
| 1799 | Törə təpə yaşayış yeri | Eneolit | Dönük Qırıqlı kəndindən şərqdə |
| 1800 | Məntəctəpə yaşayış yeri | Eneolit | Dönük Qırıqlı kəndindən şimal-şərqdə |
| 1801 | Torpaqqala yaşayış yeri | Antik dövr və orta əsrlər | Mülkülü kəndinin yaxınlığında Kür çayının sağ sahilində |
| 1802 | Nekropol | VI əsr | Çinarlı kəndi |
| 1803 | Kurqanlar | Orta tunc dövrü | Düz Qırıqlı kəndi və |
| 1804 | Kəblə Namaz təpə yaşayış yeri | Eneolit | Zəyəm çayı arasında<br>Düz Qırıqlı kəndinin şərqində |
| 1805 | Kəhriz | XIX əsr | Tovuz şəhəri |
| **Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri** | | | |
| 5178 | 2 mərtəbəli yaşayış evi | 1880-ci il | Tovuz şəhəri |
| 5179 | Suvarma qülləsi | XIX əsr | Tovuz şəhəri |
| 5180 | Yaşayış evi | XIX əsr | Tovuz şəhəri, Kəhriz küçəsi, 40 |
| 5181 | Sement zavodunun binası | 1912-ci il | Tovuz şəhəri |
| 5182 | Kərbaləyi Əsədin yaşayış evi | XVIII əsr | Bozalqanlı kəndi |
| 5183 | Məhəmməd ağanın evi | XIX əsr | Bozalqanlı kəndi |
| 5184 | 8 guşəli türbə | | Qazıqulu kəndi |
| 5185 | 8 guşəli türbə | | Qazıqulu kəndi |

| | | | |
|---|---|---|---|
| 5186 | Dəmiryol körpüsü | 1880-ci il | Qazıqulu kəndi |
| 5187 | Yaşayış evi | 1880-ci il | Qazıqulu kəndinin körpüsünün yanında |
| 5188 | Akveduk | 1880-ci il | Qazıqulu kəndi |
| 5189 | Dəmiryol körpüsü | XIX əsr | Quşçu kəndi. Əsrik çayı üzərində |
| 5190 | Nəsib bəyin yaşayış evi | XIX əsr | Yuxarı Öysüzlü kəndi |
| 5191 | Qala | | Yanıqlı kəndi |
| 5192 | Körpü | XVII əsr | Yanıqlı kəndi, Zəyəm sayı üzərində |
| 5193 | Türbə kompleksi (3 ədəd) | XVII əsr | Yanıqlı kəndi |
| 5194 | Məbəd | | Almalıtala kəndi |
| 5195 | Alı Dədə türbəsi | XIX əsr | Ağdam kəndi |
| 5196 | Məbəd və qala divarının qalıqları | | Əsrik Cırdaxan kəndi |
| 5197 | Məscid | | Böyük Qışlaq kəndi |
| 5198 | Məscid | | Qarabağlar kəndi |
| 5199 | Məscid | XIX əsr | Düz Qırıqlı kəndi |
| 5200 | Sultan körpüsü | XIX əsr | Vahidli kəndi, axınca çayı üzərində |
| 5201 | Məscid və türbə (kompleks) | | Vahidli kəndi (qəbiristanlıqda) |
| 5202 | Məscid | | Çataq kəndi |
| 5203 | Dəyirman | XIX əsr | Yuxarı Öysüzlü kəndi |
| 5204 | Dəyirman | XIX əsr | Yuxarı Öysüzlü kəndi |
| 5205 | Türbə | XIX əsr | Yuxarı Öysüzlü kəndin qəbiristanlığı |
| 5206 | Türbə | XIX əsr | Yuxarı Öysüzlü kəndinin qəbiristanlığı |

| | | | |
|---|---|---|---|
| 5207 | Məscid | XIX əsr | Yuxarı Öysüzlü kəndi |
| 5208 | Məscid | XIX əsr | Əyyublu kəndi |
| 5209 | Yusif bəyin yaşayış evi | 1874 | Yuxarı Öysüzlü kəndi |
| **Arxeoloji abidələr** | | | |
| 6044 | Əvəztəpə qalası | Orta əsrlər | Tovuz şəhərindən 1 km şərqdə<br>dəmir yolunun yanında |
| 6045 | Şəhərgah | Orta əsrlər | Tovuz şəhərindən 4 km cənubda |
| 6046 | Qala düzü | Orta əsrlər | Tovuz-Yevlax dəmir yolunun sağ tərəfində |
| 6047 | Nekropol | XVI - XVIII əsrlər | Tovuz şəhəri |
| 6048 | "Koroğlu evi" qalası | Orta əsrlər | Yuxarı Öysüzlü kəndi |
| 6049 | Qəbiristanlıq | Orta əsrlər | Yuxarı Öysüzlü kəndi |
| 6050 | Şəhərgah | Orta əsrlər | Vahidli kəndi |
| 6051 | Qəbiristanlıq | Orta əsrlər | Əlibəyli kəndi |
| 6052 | Qəbiristanlıq | Orta əsrlər | Yanıqlı kəndindən şimalda |
| 6053 | Qəbiristanlıq | Orta əsrlər | Ağdam kəndi |
| 6054 | Köhnə qəbiristanlıq | Orta əsrlər | Azaflı kəndindən 4 km şimal qərbdə |

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Ucar rayonu

**Yaranma tarixi - 24.01.1939**

**Ərazisi - 0,83 min kv. km**

**Əhalinin sayı - 85,0 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 102 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 29**

**Ucar rayonu ilə Bakı arasında olan məsafə - 234 km**




### Əhalinin sayı

### (1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Ucar rayonu** | 78135 | 100,0 | 38752 | 49,9 | 39383 | 50,1 |
| şəhər əhalisi | 16826 | 21,53 | 8155 | 21,15 | 8671 | 22,02 |
| kənd əhalisi | 61309 | 78,47 | 30597 | 78,96 | 30712 | 77,98 |

**Ümumi məlumat**

Ucar rayonu ilə Bakı şəhəri arasındakı məsafə 234 kilometrdir. Rayonun mərkəzi Ucar şəhəridir.

Ucar rayonu 24 yanvar 1939-cu ildə müstəqil rayon kimi təşkil olunana qədər Göyçay rayonunun tərkibində olmuşdur.

Rayona Ucar şəhəri, Əlikənd, Müsüslü, qəsəbələri və Qazıqumlaq, Məlikballı, Əlikənd, Ramal, Şahlıq, Qaradağlı, Çiyni, Alpout, Qarabörk, Gəraybəyli, Rəstəcə, Qazyan, Lək, Xələc, Boyat, Bağban, Yuxarı Şilyan, Bərgüşad, Müsüslü, Təzə Şilyan, Pirkənd, Qaracallı, Küçəkənd, Ənvər Məmmədxanlı, Türkəci, Güləbənd, Alpı, Bağırbəyli, Çiyni kəndləri daxildir.

Ucar rayonunun səthi düzənlikdir. Ərazisinin ovalıq hissəsi okean səviyyəsindən aşağıda yerləşir. Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temperatur yanvarda 1,4°C, iyulda 27,3°C-dir. İllik yağıntı 300-400 *mm*-dir. Ərazisindən Göyçay, Qarasu çayları və Yuxarı Şirvan kanalı axır. Baş Şirvan kollektoru Ucar rayonunun cənubundan keçir. Boz-çəmən torpaqları yayılmışdır. Bitki örtüyü ovalıq və yarımsəhra tiplidir. Heyvanları: canavar, tarlasiçanı, qumsiçanı, bataqlıq qunduzu və s.

Ucar, əsasən, kənd təsərrüfatı rayonudur. Burada əkinçilik və maldarlıq üstünlük təşkil edir. Əsas sənaye müəssisələri pambıq, konserv, asfalt, metal və ağac məmulatları istehsalı zavodlarıdır.

Rayonun adı, qədim yaranma tarixi haqqında müxtəlif fikirlər söylənilir.

Ərəb coğrafiyaşünası Əl-Sitəkrinin «Məmləkətlərin yolları» kitabında adı çəkilir.

Ucar Azərbaycanda orta əsr şəhəri kimi qeyd olunur.

XV əsrdə yaşamış Azərbaycan şairi Bədr Şirvaninin yazılarında Ucar sözünə rast gəlinir. Bunlardan başqa digər mülahizələrdə rayonun adının Azərbaycan dilindəki «Uçar» sözündən əmələ gəlmişdir.

Bəzi mülahizələrə görə rayonun adı qədim Şirvanda yaşamış «Uçar» tayfasının adından götürülmüşdür. Ucar sözünün «Ucqar» sözündən götürülməsi fikrini söyləyənlər də var. Hazırda Ucar rayonunun respublikamızın mərkəzi hissəsində yerləşməsinə baxmayaraq vaxtı ilə Şirvanşahların paytaxtı Şamaxı şəhərindən ən ucqar ərazidə yerləşdiyinə görə adının «Ucqar» sözündən götürüldüyü də ehtimal olunur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda təsisçisi rayon İcra Hakimiyyəti və redaksiya kollektivi olan «Yeni-söz» rayon qəzeti nəşr olunur. Qəzet 1941-ci ildən nəşr olunur

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən Bakı-Tbilisi dəmir yolu, Bakı-Gəncə-Qazax və Göyçay-Zərdab magistral yolları keçir.

Bakı-Tbilisi dəmir yolunun rayon ərazisindən keçən hissəsi 48 kilometrdir.

Rayon ərazisindən keçən magistral avtomobil yollarının uzunluğu 106 kilometrdir ki, bundan 48 kilometri 2-ci dərəcəli, 58 kilometri isə 3-cü dərəcəli yollardır.

Rayon daxili 4-cü dərəcəli avtomobil yollarının uzunluğu 265 kilometrdir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Ucar rayonunda hal-hazırda 8 abidə qorunub saxlanılır. Bu abidələr rayon mədəniyyət şöbəsi tərəfindən uçota alınıb, Ümumrespublika əhəmiyyətli abidə hesab olunur.

Bunlar aşağıdakılardır:

1. 1941-1945-ci illər Böyük Vətən Müharibəsində həlak olanların xatirəsini əks etdirən abidə. Abidə rayon Mədəniyyət evinin qarşısında ucaldılmış və 1976-cı ildə inşa edilmişdir. Abidənin texniki vəziyyəti normaldır.

2. 1941-1945-ci illər Böyük Vətən Müharibəsində həlak olanların xatirəsini əks etdirən abidə. Abidə Şahlıq, Əlikənd, Ramal kənd İcra nümayəndəliyinin həyatında yerləşir. Abidə 1986-1987-ci illərdə inşa edilmişdir.

3. «Şəhid anası» adlı monumental abidə. Abidə Ucar şəhərində «Şəhidlər Xiyaban»ında ucaldılmışdır. Abidə texniki cəhətdən normaldır. Abidə 1994-ci ildə tikilmişdir.

4. 416-cı Taqanroq Diviziyasının xatirəsinə ucaldılmış abidə. Abidə 3 saylı şəhər orta məktəbinin həyətində yerləşir. Abidə texniki cəhətdən normaldır. 1976-1978-ci illərdə inşa edilmişdir.

5. «Naməlum əsgərin» xatirəsini əks etdirən monumental abidə. Abidə Ucar pambıq təmizləmə zavodunun ərazisində yerləşir. Abidə 1981-1982-ci illərdə inşa edilmişdir. Texniki cəhətdən normaldır.

6. Azərbaycanın böyük yazıçısı, ictimai və siyasi xadimi N. Nərimanovun heykəli Ucar Dəmir Yolu Stansiyasının qarşısında ucaldılmışdır. Abidənin texniki vəziyyəti normaldır. Abidə 1990-1992-ci illərdə tikilmişdir.

7. «Su qülləsi» abidəsi. Abidə Dəmir Yolu vağzalının ərazisində yerləşir. Abidə 1949-1950-ci illərdə inşa edilmişdir və texniki cəhətdən yararlıdır.

8. «Su qülləsi» abidəsi. Abidə şəhərin Ş. Fərzəliyev küçəsində yerləşir. Abidə 1953-1954-cü illərdə inşa edilmişdir və texniki cəhətdən yararlıdır.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Yardımlı rayonu




**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 0,67 min kv. km**

**Əhalinin sayı - 68,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 102 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 87**

**Yardımlı rayonu ilə Bakı arasında olan məsafə - 286 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Yardımlı rayonu** | 58073 | 100,0 | 28991 | 50,0 | 29082 | 50,0 |
| şəhər əhalisi | 6603 | 11,37 | 3467 | 11,96 | 3136 | 10,78 |
| kənd əhalisi | 51470 | 88,63 | 25524 | 88,04 | 25946 | 89,22 |

### Ümumi məlumat

Yardımlı rayonu (1930-38 illərdə Vərgəduz rayonu) - Azərbaycan Respublikasında inzibati rayon 1930 ildə təşkil edilmişdir. Talış dağlarının şimal-qərbindədir. İran İslam Respublikası və Azərbaycan Respublikasının Lerik, Masallı, Cəlilabad rayonları ilə həmsərhəddir. Cənubdan Lerik rayonu ilə sərhədin uzunluğu 40 km, şərqdən Masallı rayonu ilə 11 km, şimal-şərqdən Cəlilabad rayonu ilə 20 km-dir. Şimal, qərbdən və cənub-qərbdə qonşu İran İslam Respublikası ilə dövlət sərhədinin uzunluğu 96 km-dir.

Mərkəzi Yardımlı qəsəbəsidir.

Rayona Yardımlı qəsəbəsi və Ünəş, Əsədabad, Daşkənd, Çayüzü, Dağüzü, Qaraqaya, Avun, Şiləvəngə, Mamulğan, Ökü, Gavran, Cerimbel, Yeni Abidinli, Gilar, Xanbulaq, Perimbel, Avaş, Deman, Peştəsər, Arvana, Kürəkçi, Gərsəva, Alar, Şıxhüseynli, Hamarkənd, Bürzünbül, Anzov, Abasabad, Solqard, Zenqaran, Bozayran, Osnakəran, Dəryavar, Vəlixanlı, Qabaqdibi, Köryədi, Mişkireyin, Sırıq, Alçabulaq, Odrakəran, Arus, Mirimli, Tahirli, Məlikli, Şələ, Horavar, Əfçədulan, Keçələkəran, Vərov, Zəngələ, Əngövül, Vərgədüz, Bilnə, Yolocaq, Horonu, Separadi, Teşkan, Telavar, Şovut, Porsova, Honuba-Şıxlar, Zeynələzir, Honuba, Gügavar, Tilə, Ərsilə, Jiy, Ləzran, Eçara, Şıxlar, Gölyeri, Təzəkənd,

Bərcan, Ləzir, Ze-vin, Çanaxbulaq, Gendərə, Musa, Ostair, Dəlləkli, Nisəqala, Urakəran, Şəfəqli, Fındıqlıqışlaq, Abidinli, Avur, Yuxarı Astanlı, Aşağı Astanlı, Qaravuldaş, Abasallı kəndləri daxildir.

Səthi dağlıqdır (Talış, Peştəsər, Burovar silsilələri). Ən hünd. zirvələri Şahnişin (2490 *m)* və Peştəsərdir (2244 *m).* Ərazisində, əsasən, Paleogen çöküntüləri yayılmışdır. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temperatur yanvarda 2-3°C, iyulda 20-24°C-dir. İllik yağıntı 300-700 *mm*-dir. Əsas çayı Viləşdir. Qonur və qəhvəyi dağ-meşə, qismən çimli dağ-çəmən torpaqları yayılmışdır. Kollu və seyrək meşəli çəmənlər geniş yer tutur. Heyvanları: canavar, çöldonuzu, çaqqal, tülkü, dələ, porsuq, vaşaq, çöl-pişiyi və s. Zuvand Dövlət Təbiət Yasaqlığının bir hissəsi rayonun ərazisindədir.

Rayonun iqtisadiyyatında tütünçülük, üzümçülük, taxılçılıq və heyvandarlıq əsas yer tutur.

Azərbaycanın ilk müstəqillik illərində Yardımlı ərazisi Lənkəran qəzasının tərkibində Vərgədüz rayonu kimi tanınmışdır. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra Milli hökumətin bayrağı bu ərazidə çökdürülmüşdür. Sivdaş bəyləri, Perimbel seyidləri, Bərcanlı Qaçaq Həsənin və Şahverənin dəstələri Qırmızı Orduya qarşı inadla vuruşaraq 1928-ci ilə kimi mübarizəni davam etdirmişlər. Dəstələri tam zərərsizləşdirmək məqsədi ilə Azərbaycan Sovet Respublikasının Dövlət Siyasi idarəsinin rəisi Novruz Rizayev özü xüsusi təyinatlı dəstə ilə əraziyə gəlmiş və 1928-ci ilin yayında qanlı döyüşlər olmuş, qaçaqların başçıları İrana qaçmışlar. Bolşeviklər həmin dövrdə qaçaqlara himayədarlıq edən Bərcan, Şıxlar, Gügəvar, Astanlı, Musalar və Honuba kəndlərində 147 ev yandırmış, kənd sakinlərini pərən-pərən salmışlar.

Azərbaycan Respublikası Xalq Komissarları Sovetinin Vərgədüz rayonundakı vəziyyəti araşdırmaq məqsədilə yaratdığı komissiya 1928-1929-cu illərdə rayonda olmuş və komissiyanın rayon haqqında verdiyi hesabat Xalq Komissarlığı Sovetində 19 oktyabr 1929-cu ildə müzakirə edilərək, buradakı vəziyyətlə əlaqədar qərar qəbul edilmişdir. Qərarda Vərgədüz kəndinin rayon mərkəzinin fəaliyyəti üçün münasib olmaması əsas götürülərək, komissiyanın təklifinə əsasən rayon mərkəzi kimi Yardımlı kəndi seçilmiş və rayon Yardımlı adlandırılmışdır. Həmin qərara əsasən 1930-cu ildən rayon mərkəzi Yardımlı kəndinə köçürülmüşdür.

«Yardımlı» sözünün etimologiyası bu ərazidə atəşpərəstliklə əlaqədardır. Əjdər Fərzəlinin VI-X əsrlər «Dədə Qorqud yurdu» kitabında Yardımlı yaşayış məntəqəsi «Yardam» kimi göstərilmiş və od, günəş mənalarından biri kimi bildirilir. Bu da Odlar yurdunun qədimliyi, keçmişi ilə bağlılıq təşkil edir. Sonradan «Yardam» sözü assimilyasiya olunaraq Yardımlı kimi deyilmiş və bu gün də bu formada istifadə edilir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda yerli mətbuat orqanı olan «Zirvə» qəzeti fəaliyyət göstərir. «Zirvə» qəzeti 1936-cı ildə Yardımlı rayon Partiya Komitəsinin və rayon XDS İK-nin orqanı kimi «Yeni kənd» adı ilə çap olunmağa başlamışdır

1990-cı il noyabrın 28-dən başlayaraq qəzet «Zirvə» adı ilə çap olunmağa başlamışdır. Qəzetin təsisçisi Yardımlı rayon İcra hakimiyyətidir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisində yalnız avtomobil yolları şəbəkəsi mövcuddur. Respublika əhəmiyyətli Masallı-Yardımlı-Deman yolunun uzunluğu 72 km-dir. Bunun 26 km-i III kateqoriyalı, 24 km-i IV kateqoriyalı, 22 km-i isə V kateqoriyalı yoldur. Qalan 362 km yerli əhəmiyyətli kəndlərarası yollar isə V kateqoriyalı avtomobil yollarıdır

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Azərbaycan tarixinin bir hissəsini təşkil edən cənub bölgəsinin tarixi və bölgədə yerləşən Yardımlı ərazisindəki qədim və orta əsr abidələri elmi baxımdan ciddi qiymətləndirilir. Ümumiyyətlə rayon ərazisində 51 ölkə və 48 yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi mövcuddur. Abidələrin böyük əksəriyyəti arxeoloji və dekorativ-tətbiqi sənət nümunələrinə aid edilən memarlıq abidələridir.

Yardımlı rayon tarix-diyarşünaslıq muzeyi 1981-ci il noyabrın 25-də açılmışdır. Muzeyin fondunda 5500 - dən çox muzey əhəmiyyətli eksponat var. Bunların 3110 ədədi əsas fonda daxil olmaqla rayonun tarixi ilə bağlıdır. Əsas fondun materiallarının bir çoxu nəinki Yardımlı rayonunun tarixi, eləcə də Vətənimizin ulu tarixini özündə təcəssüm etdirir. Əsas fonda 10 ədəd rəssamlıq, 25 ədəd heykəltəraşlıq, 126 ədəd tətbiqi - incəsənət məmulatı, 193 ədəd arxeoloji materiallar, 450 numizmatika, 445 ədəd məişət-etnoqrafıq əşyalar, 247 ədəd fotoşəkillər daxildir. Arxeoloji materiallar rayonun ərazisində 2500 il bundan əvvəl mövcud olmuş qədim küp qəbir mədəniyyətin nümunələridir. Bunların içərisində çoxlu saxsı məişət əşyaları, muncuqdan düzəldilmiş qadın zinət əşyaları, müxtəlif serdolik muncuqlar, habelə tuncdan və dəmirdən düzəldilmiş silah, alət nümunələri öz tarixi əhəmiyyəti ilə diqqəti cəlb edir. Muzeyin 450 ədəd numizmatika fondu maraqlıdır. Burada əfsanəvi sasanilər, Abbasilər, Eldənizlər, Qacarlar sülaləsinin, habelə XVII-XIX əsrlər müxtəlif sərhədlərdə zəbt olunmuş qədim sikkələr doğma diyarın keçməkeşli tarixindən xəbər verir. 1980-ci ildə küp qəbirdən tapılmış muzeyin fondunda saxlanılan qədim Bizans epikratik əşyalar bu ərazinin IX-XV əsrlərdə mövcudluğundan maraqlı xəbər verir.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Yevlax rayonu

**Yaranma tarixi - 05.02.1935**

**Ərazisi - 1,47 min kv. km**

**Əhalinin sayı - 129,2 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 88 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 46**

**Qəsəbələrin sayı – 3**

**Yevlax rayonu ilə Bakı arasında olan məsafə - 287 km**




**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Yevlax rayonu** | 117803 | 100,0 | 55535 | 46,1 | 62268 | 53,9 |
| şəhər əhalisi | 64841 | 55,04 | 29552 | 53,21 | 35289 | 56,67 |
| kənd əhalisi | 52962 | 44,96 | 25983 | 46,79 | 26979 | 43,33 |

**Ümumi məlumat**

Ötən əsrin 80-ci illərində stansiya kimi salınan və uzun müddət əhali tərəfindən «Vağzal» kimi tanınan Yevlax XIX əsrin əvvəllərinə aid rəsmi sənədlərdə və mənbələrdə Yelizavetpol quberniyasının Yevlax kəndi, 1920-ci ildən isə Cavanşir qəzasının Yevlax kəndi adlanmışdır.

Azərbaycan SSR MİK-in qərarı ilə 1935-ci ildə Yevlax rayonu təşkil edilmişdir.

1939-cu ilin fevralın 1-də Azərbaycan SSR Ali Sovetinin qərarına əsasən Yevlaxda Şəhər Soveti yaradılmaqla, Yevlaxa şəhər adı verilmişdir.

1962-ci il dekabrın 26-da çağırılmış Azərbaycan SSR Ali Sovetinin X sessiyasının qərarı ilə Yevlax rayonu ləğv edilərək ərazisi Ağdaş, Bərdə və Qasım-ismayılov rayonlarına verilmiş, Yevlax Respublika tabeli sənaye şəhərinə çevrilmişdir.

Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 6 yanvar 1965-ci il tarixli fərmanı ilə Yevlax şəhəri respublika tabeliyində olan şəhərlər sırasına daxil edilmiş və Yevlax şəhərində sənaye müəssisələrinin tikintisinə başlanmışdır.

Mərkəzi Yevlax şəhəridir.

Rayona Yevlax şəhəri, Aran qəsəbəsi və Qaramanlı, Nəmərli, Köyük, Dəlləklər, Hacımahmudlu, Nuralılar, Qoyunbinəsi, Malbinəsi, Kövər, Kolanı, Nemətabad, Yaldili, Duzdağ, Salahlı, Xaldan, Quşçu, Varvara, Balçılı, Ağqıraqlı, Cırdaxan, Ərəbbəsrə, Xanabad, Tanrıqullar, Hürüuşağı, Borçalı, Havarlı, Hacıselli, Əxşam, Marzılı, Yuxarı Bucaq, Aşağı Bucaq, Yenicə, Bəydilli, Gülövşə, Yuxarı Qarxun, Aşağı Qarxun, Ərəş, Meyvəli, Aşağı Salamabad, Qaraoğlan, Əcəmi, Səmədabad, Nərimanabad, İsmayılabad, Bünyadabad, Qaraməmmədli, Rüstəmli, Yuxarı Salamabad kəndləri daxildir.

Səthi düzənlik, şimal və şimal-qərbdə alçaq tirəli-təpəlikdir (Qocaşen, Palantökən, Gəncə Bozdağı silsilələri). Neogen və Antropogen çöküntüləri yayılmışdır. Qışı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temperatur yanvarda 1,7°C, iyulda 27,3°C-dir. İllik yağıntı 300 *mm*-dir. Çayları: Kür, Əlican, Korçay və İncəçay. Mingəçevir su anbarının cənub-şərq hissəsi, Varvara su anbarı Yevlax rayonu ərazisindədir. Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalları buradan keçir. Boz-çəmən, allüvial çəmən-meşə, şorakətvarı boz-qonur və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra tiplidir. Kür çayı sahilində tuqay meşələri var. Heyvanları: canavar, tülkü, boz dovşan, çaqqal və s. Quşları: turac, kəklik və s. Türyançay qoruğunun bir hissəsi Yevlax rayonu ərazisindədir.

Yevlax aqrar-sənaye rayonudur. Kənd təsərrüfatında əkinçilik və heyvandarlıq üstünlük təşkil edir. Sənayesi başlıca olaraq kənd təsərrüfatı məhsullarının emalı müəssisələrindən ibarətdir. "Təmir" ATSC, dəri emalı sexi, tikiş sexi, makaron fabriki, kərpic istehsalı kombinatı var.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda 1935-ci ildən «Yeni Yevlax», «Qələbə», «Mübariz», «Təşəbbüs», 1992-ci ildən isə «Kür» adı ilə qəzet nəşr olunur. Qəzetin təsisçisi Şəhər İcra hakimiyyətidir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Yevlax rayonu ərazisindən beynəlxalq və respublika əhəmiyyətli avtomobil və dəmir yol xətləri keçir.

Yevlax rayonu ərazisindən keçən avtomobil yolunun uzunluğu 161 km olmaqla aşağıdakı kimidir:

II kateqoriyalı Bakı-Qazax yolu - 31 km;

II kateqoriyalı Yevlax-Ağdam-Laçın yolu - 17 km;

III kateqoriyalı Xaldan-Mingəçevir yolu - 17 km;

III kateqoriyalı Xaldan-Göybulaq-Zaqatala yolu - 14 km;

III kateqoriyalı Yevlax-Ağcabədi yolu - 15 km;

III kateqoriyalı Aran qəsəbəsi-Mingəçevir şəhəri - 18 km;

III kateqoriyalı Aran-Bəhrəmtəpə yolu - 25 km;

III kateqoriyalı Yevlax şəhər Dövrələmə avtomobil yolu - 4 km;

III kateqoriyalı Aeroport yolu - 4 km.

Yevlaxdan keçən 85 km uzunluğunda I kateqoriyalı dəmir yolu xətti aşağıdakı kimidir:

Bakı-Tbilsi - 30 km;

Yevlax-Bərdə xətti - 22 km;

Mingəçevir baş-Mingəçevir şəhər xətti - 15 km;

Yevlax-Balakən - 18 km.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Yevlax rayonu ərazisində Yevlaxın qədim yaşayış məskəni olmasını sübut edən bir sıra tarixi abidələr var. E. ə. III minilliyin sonlarına aid olan Qoçtəpə kurqanı rayonun Qaraməmmədli kəndi ilə Rüstəmli kəndi arasındakı ərazidə yerləşir. Kurqana yaxın yerdə vaxtı ilə eyni adlı yaşayış məntəqəsi - Qoçtəpə kəndi olmuş, 1938-ci ildə həmin kənd ləğv edilərək əhalisi Qaraməmmədli kəndinə köçürülmüşdür.

Yevlax rayonunun Şirvan bölgəsində yerləşən ərazi orta əsrlərdə Azərbaycanın iri şəhərlərindən biri olan Ərəş şəhərinin və bu şəhərin adından götürülmüş Ərəş mahalının bir hissəsi idi. Bu şəhərin mərkəzinin indiki Xaldan kəndindən 3 km şərqdə yerləşdiyi ehtimal olunur. Şəhərin qala divarlarının xarabaları Xaldan kəndi yaxınlığında qalır. Xaldan kəndinin ətraf ərazisi bu gün də Ərəş kimi tanınır və qədim şəhərə yaxın kənd Ərəş kəndi adlanır.

Yevlax-Bərdə magistral yolunun 18-ci kilometrliyində torpaqdan ucaldılmış Zərgərtəpə kurqanı yerləşir. Konusvari formada olan kurqanın ətək hissəsinin diametri təxminən 58 m, hündürlüyü 11 m, uzunluğu 120 m-ə yaxındır.

Üçtəpə kurqanının torpaq örtüyü 35 min kub metrə çatır və tədqiqatçılar hesablamışlar ki, bu kurqanın torpaq örtüyü fasilələrlə 3 ilə tökülüb başa çatdırılmışdır.

Xaldan kəndinin 3-4 km-də antik dövrə təsadüf edən Alban sərdabəsi olduğu ehtimal olunan sərdabənin, Marzılı kəndi ərazisində VII əsrə aid edilən və XVI əsrdə Şeyx Həzrə Piri kimi tanınan pirin, Malbinəsi kəndində Qarabağda tikilən qədim məscidlər tipinə aid olan, XVIII əsrdə inşa edilən məscidin qalıqları mühafizə olunur.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Zaqatala rayonu

**Yaranma tarixi - 08.08.1930**

**Ərazisi - 1,35 min kv .km**

**Əhalinin sayı - 130,1 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 96 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı – 60**

**Qəsəbələrin sayı – 2**

**Zaqatala rayonu ilə Bakı arasında olan məsafə - 372 km**




### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Zaqatala rayonu** | 118228 | 100,0 | 58041 | 49,8 | 60187 | 50,2 |
| şəhər əhalisi | 31038 | 26,25 | 14934 | 25,73 | 16104 | 26,76 |
| kənd əhalisi | 87190 | 73,75 | 43107 | 74,27 | 44083 | 73,24 |

**Ümumi məlumat**

Mərkəzi Zaqatala şəhəridir.

Zaqatala rayonu Azərbaycan Respublikasının şimal-qərbində, Böyük Qafqaz sıra dağlarının cənub yamacları Qanıx-Əyriçay vadisində yerləşir. Cənubdan Gürcüstan Respublikası, şimaldan Dağıstan Respublikası, qərbdən və şərqdən Azərbaycan Respublikasının Balakən və Qax rayonları ilə həmsərhəddir. Şəhər dəniz səviyyəsindən 535 metr hündürlükdə Azərbaycan Respublikasının paytaxtı olan Bakı şəhərindən 445 km aralıda, Tala çayının sahilində, Yevlax-Balakən şosesi yolunun üzərində nəhəng İpək yolunun üstündə vaxtı ilə Şərqin ən böyük ticarət mərkəzlərindən (bazarlarından) olan «Əskibazarın» (yer adı tamamilə öyrənilməmişdir) 25-30 km-də Böyük Qafqaz silsiləsinin cənub ətəyində yerləşir.

Rayona Zaqatala şəhəri, Qazangül, Əliabad qəsəbələri və Aşağı Tala, Yeni Suvagil, Mosul, Muğanlı, Yuxarı Çardaqlar, Əlibayramlı, Qalal, Qarqay, Əzgilli, Bəhmətli, Kürdəmir, Göyəm, Çökəkoba, Dardoqqaz, Sumaylı, Gözbaraq, Mamrux, Ələsgər, Cimcimax, Danaçı, Aşağı Çardaqlar, Uzunqazmalar, Car, Kebeloba, Oxoxdərə, Zilban, Dombabinə, Mamqabinə, Bozbinə, Mücəkbinə, Masqarabinə,

Həsənbinə, Xanmədbinə, Yengiyan, Kəpənəkçi, Qandax, Faldarlı, Lahıc, Sabunçu, Maqov, Yolayrıc, Paşan, Voytala, Oytala, Abalı, Fındıqlı, Mazıx, Qəbizdərə, Uzuntala, Bərətbinə, Çiçibinə, Muxax, Zəyəm, Çobankol, Qımır, Bazar, Yuxarı Tala, Mişleş, Çüdülübinə, Laqodexbinə kəndləri daxildir.

Relyefi şimalda və şimal-şərqdə dağlıq, cənub və cənub-qərbdə düzənlikdir. Hündürlüyü düzənlik hissədə təqr. 200-600 m, dağlıq hissədə 3648 *m*-ədəkdir (Quton dağı). Düzənlik hissədə Antropogen, dağlıq hissədə isə Yura və Tabaşir çöküntüləri yayılmışdır. Polimetal və gil yataqları var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıqda soyuqdur. Orta temperatur yanvarda yüksək dağlıq hissədə -10°C-dən, düzənlik hissədə l°C-yədək, iyulda müvafiq olaraq 5-dən 24°C-yədəkdir. İllik yağıntı 600-1600 *mm*-dir. Çayları (Katex, Tala, Muxax və s.) Qanıx çayı hövzəsinə aiddir. Əsasən, allüvial çəmən, qonur, dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Dağlıq hissədə meşələr geniş sahə tutur. Heyvanları: bəbir, nəcib maral, dağkeçisi, köpgər (qarapaça), daşlıq dələsi, meşə dələsi, çöl-donuzu, ayı, canavar, vaşaq, meşəpişiyi və s. Quşları: ular, qartal, qırqovul, tetra və s. Zaqatala Dövlət Təbiət Qoruğunun çox hissəsi rayonun ərazisindədir.

Rayonun iqtisadiyyatında tütünçülük, baramaçılıq, meyvəçilik, taxılçılıq, heyvandarlıq, həmçinin kənd təsərrüfatı məhsullarının emalı üstünlük təşkil edir.

Zaqatala sözünün yaranmasına dair (etimologiyaya görə) bir neçə rəvayət vardır. Müasir Zaqatala adı Sakatala (Sak düzü) adını dəyişilmiş formasını təşkil edir. E. ə. VII əsrin əvvəlində Kimmer « Skit dalğaları ilə Ön Asiyaya düşmüş sak tayfaları Albaniyanın ərazisində də məskən salmışlar və bu ərazi kür çayının sağ sahilindən (Kür-Araz qovşağı daxil olmaqla) Qafqaz dağ ətəklərinə qədərki ərazini tuturdu. Zaqatala rayonu da qədim Qafqaz Albaniyasının ayrılmaz hissəsi olmaqla onun qərbində yerləşirdi.

Zaqatala sözünün yaranmasına dair ikinci bir rəvayət də vardır. Guya qədim zamanlarda bu ərazi sıx meşələrlə örtülmüşdü və Zəkəriyyə adlı bir şəxs meşəni qıraraq Tala açdı və özünə ev tikdi. Həmin ərazini yerli əhali «Zəkəritala» adlandırdı, bu da Zəkəriyyənin talası (düzü) deməkdir. Sonralar Zəkəritala adlı kənd yarandı və zaman keçdikdə bu ad öz toponimiyasını dəyişərək Zaqatala oldu. 1803-cü ildə Zaqatala qəzası Rusiyanın tərkibinə daxil olmuşdur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonun əsas mətbuat orqanı olan «Zaqatala» qəzeti 1923-cü ilin mart ayının 8-də fəaliyyətə başlamışdır. İlk əvvəllər «Zaqatala kəndçisi» adı ilə nəşr olunan qəzet sonralar «Kolxoza doğru», «Kolxozun səsi» «Bolşevik kolxozu uğrunda», 40 ilə yaxın müddətdə «Qırmızı bayraq», 1991-ci ilin oktyabrından isə «Zaqatala» adı altında fəaliyyətini davam etdirir.

Zaqatala rayon yerli radio verilişləri 1950-ci ildən «Qırmızı bayraq» qəzetinin nəzdində fəaliyyət göstərmişdir. 1975-ci ildən müstəqil redaksiya kimi fəaliyyətə başlamış və fəaliyyət bu günə qədər davam edir. Müstəqil «Aygün» televiziyası isə 1994-cü ildən fəaliyyət göstərir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

- Xaldan-Göybulaq-Zaqatala Dövlət əhəmiyyətli avtomobil yolu , 3-cü kateqoriyalı yol;
- Zaqatala-Balakən avtomobil yolu - uzunluğu 7 km dövlət əhəmiyyətli, 3-cü kateqoriyalı yol;
- Zaqatala - Muğanlı avtomobil yolu cəmi uzunluğu 26 km.;
- Dəmir yoluna kimi olan 9 km 3-cü kateqoriyalı dövlət əhəmiyyətli yol;
- Dəmir yolundan - Alazan çayına kimi 17 km 4-cü kateqoriyalı yerli əhəmiyyətli yol;
- Dövlət əhəmiyyətli 3-cü kateqoriyalı Şəki - Zaqatala avtomobil yolu - cəmi uzunluğu 15 km.;
- Dəmir yolu - uzunluğu 22,3 km. Dövlət əhəmiyyətlidir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonun ərazisində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən Dövlət tərəfindən qorunan 100-ə yaxın abidə qeydə alınmışdır.

Bunlardan ən qədimi «Pəri qala»sı, «Cingözqala»sı «Şeytan qala»sı, «Zaqatala qala»sı və başqalarıdır. Rayonun kənd yerlərində VI-VIII əsrlərdən qalmış 10-dan çox Alban abidələri mövcuddur.

Rayonun Mamrux, Mazıx, Muxax, Qəbizdərə, Yuxarı Tala və Yuxarı Çardaxlar kəndlərində VI-VIII əsrlərdən qalmış çoxlu Alban abidələri, qalaları vardır ki, maliyyə çətinlikləri üzündən onların yenidən bərpası mümkün olmasa da qismən də olsa qorunması sahəsində müəyyən işlər görülür. Yerlərdə mövcud olan məscidlərin isə hamısında yenidənqurma, bərpa işləri aparılmış, tarixi abidə kimi onların qorunması təmin edilir.

Zaqatala qalası 1830-cu ildə Zaqatala şəhəri ərazisində tikilmişdir. Qalada toplarla təchiz edilmiş güclü qarnizon saxlanılırdı. Zaqatala qalası Çar hakimiyyətinə qarşı bir sıra kəndli çıxışlarının yatırılmasında əsas dayaq məntəqəsi olmuşdur. Çar hakimiyyəti «Potyomkin» zirehli gəmisinin inqilabçı matroslarını Zaqatalaya sürgün etmiş və onlar Zaqatala qalasında yerləşdirilmişdi.

Zaqatala qalası tarixi abidə kimi dövlət tərəfindən qorunur.

Zaqatala qalasında saxlanılan matrosların inqilabi fəaliyyəti barədə yazıçı Qılman İlkin «Qalada üsyan» romanını yazmış və həmin əsər əsasında «Yenilməz batalyon» bədii filmi çəkilmişdir

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Zəngilan rayonu




**Yaranma tarixi - 08.08.1930**
**Ərazisi - 0,73 min kv. km**
**Əhalinin sayı - 42,7 min nəfər (1 yanvar, 2024-cü il)**
**Əhalinin sıxlığı – 1 kv. km 61 nəfər (1 yanvar 2024-cü il)**
**Şəhər - 1**
**Kəndlərin sayı – 79**
**Qəsəbələrin sayı – 5**
**Zəngilan rayonu ilə Bakı arasında olan məsafə - 385 km**

### Əhalinin sayı

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| Ərazi | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Zəngilan rayonu** | 39362 | 100,0 | 19379 | 49,9 | 19983 | 50,1 |
| şəhər əhalisi | 17673 | 44,90 | 8712 | 44,96 | 8961 | 44,84 |
| kənd əhalisi | 21689 | 55,10 | 10667 | 55,04 | 11022 | 55,16 |

**Ümumi məlumat**

Kiçik Qafqazın cənub-şərqində, Arazın sol sahilində yerləşir. Qərbdə və şimal-qərbdə Ermənistan Respublikası ilə, cənubda və cənub-şərqdə İran İslam Respublikası ilə həmsərhəddir. Mərkəzi Zəngilan şəhəridir.

Rayona Zəngilan şəhəri, Ağ Oyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri, Şərikan qəsəbələri və Malatkeşin, Genlik, Beşdəli, Keçikli, Bartaz, Qarqulu, Ördəkli, Qaragöz, Qaradərə, Çöpədərə, Baharlı, Sobu, Dəlləkli, Rəzdərə, Kolluqışlaq, Şatarız, Məşədiismayıllı, Zəngilan, İçəri Müşlan, Məlikli, Qıraq Müşlan, Üdgün, Yenikənd, Rəbənd, Sarıl, Xumarlı, Hacallı, Şərifan, Muğanlı, Xurama, Məmmədbəyli, Babalı, Zərnəli, Havalı, Aşağı Yeməzli, Orta Yeməzli, Yuxarı Yeməzli, Sarılı Xəştab, Quyudərə Xəştab, İsgəndərbəyli, Ağbiz, Ağakişilər, Vejnəli, Muğanlı, Aladin, Dərə Gilətağ, Şamlı, Mirzəhəsənli, Burunlu, Seyidlər, Şayıflı, Qaragöl, Nəcəflər, Yusiflər, Tağlı, Cahangirbəyli, Turabat, Tiri, Vəliqulubəyli, Ağkənd, Əmirxanlı, Qazançı, Canbar, Günqışlaq, Dərəli, Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Yuxarı Gəyəli, Sarıqışlaq, Birinci Alıbəyli, İkinci Alıbəyli, Böyük Gilətağ, Vənəndli, Aşağı Göyəli, Şəfibəyli, Pirveysli, Kosaqan kəndləri daxildir.

Rayonun relyefi qərbdə dağlıq, şərqdə düzənlikdir. Yura, Tabaşir və Neogen-Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: tikinti daşı, əhəng xammalı, qızıl, qara mərmər və s. Ərazisinin çox yerində qışı quraq keçən mülayim isti iqlim üstünlük təşkil edir. Orta temperatur yanvarda 1°C, iyulda 25,3°C-dir. İllik yağıntı 400-500 *mm*-dir. Çayları (Həkəri, Oxçu və s.) Araz hövzəsinə aiddir.

Düzən və dağətəyi sahədə dağ-şabalıdı, dağ boz-qəhvəyi, dağlıq sahədə qəhvəyi dağ-meşə, çay dərələrində çimli-çəmən torpaqları yayılmışdır. Quru çöl, dağ kserofit bitkiləri, kolluqlar, dağlıq hissədə enliyarpaqlı meşələr (palıd, vələs və s.), Bəsitçayın dərəsində nadir çinar meşəsi (Bəsitçay Dövlət Təbiət Qoruğu) var. Heyvanları: cüyür, çöldonuzu, ayı, tülkü və s. Quşları: turac, kəklik və s.

Şərqlə qərbin qovuşduğu yerdə yerləşən bölgə, ticarətdə əsas əlaqələndirici məntəqələrdən olmuşdur. Bölgənin tarixinin qədimliyini, qalalar, müşahidə məntəqələri, arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi - mədəniyyət abidələri və nümunələri, qədim sikkələr və məişət qabları sübut edir. Rayonun ərazisində 60-cı illərdə təsərrüfat işləri zamanı xeyli küp qəbirlər (küp qəbirlər Azərbaycanda e. ə. II əsrdən eramızın əvvəllərinə kimi mövcud olmuşdur) və e. ə. IV-II aid edilən və əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan onlarla sikkə ərazisinin lap qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir.

XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra yeni ərazi-inzibati bölgüsü aparılır. 1868-ci ildə Yelizavetpol quberniyası yaradılır. Onun tərkibində Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları yaradılır: Yeni bölgüyə əsasən Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilir.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qalib gəldikdən sonra burada Kürdüstan vilayəti təşkil edilir. Bu vilayətə 4 rayon Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları daxil edilir.

Bu dövrdə tərtib edilən xəritədə Zəngilanın ərazisindən yalnız Bartaz və Xanlıq kəndlərinin adı göstərilir.

1925-ci il sənədlərində Zəngilan, Cəbrayıl qəzası tərkibində göstərilir və bu xəritədə Zəngilanın Genlik, Aladdin, Dəlləkli kəndləri qeyd olunur.

Son iki yüz ildə vahid təbii sərhəddə malik olmayan Zəngilan 1930-cu ilin avqustunda müstəqil rayon kimi formalaşır və dəqiq müəyyən olunmuş bir ərazisi olur.

1967-ci ildə Zəngilan qəsəbəsinə şəhər statusu verilmişdir.

1993-cü il oktyabr ayının 29-da rayon erməni təcavüzkarları tərəfindən işğal olunmuşdu. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi işğaldan azad edilmişdir.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

Zəngilan rayonunun ilk və əsas informasiya vasitəsi olan rayon qəzeti 1932-ci ilin sonlarında «Qızıl Zəngilan» adı ilə nəşr olunmuşdur. Bu qəzet 1937-ci ildən «Stalinçi» adlandırılmış, 1956-cı ildən 1961-ci ilədək «Zəngilan kommunisti» adı ilə nəşr edilmişdir.

60-cı illərdə Cəbrayıl Rayon İstehsalat İdarəsi üzrə yaradılan «Kolxozçu» qəzeti Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarını əhatə etmişdir. 1963-cü ilin may ayından Zəngilan Rayon İstehsalat İdarəsinin orqanı olmaqla «Kənd həyatı» qəzeti Qubadlı, Laçın və Zəngilan rayonlarına xidmət göstərmişdir.

1966-cı ildə istehsalat birlikləri ləğv edilmiş, «Kənd həyatı» qəzeti Zəngilan rayon partiya komitəsinin və XDS İcraiyyə Komitəsinin orqanı kimi fəaliyyətini davam etdirmişdir.

1992-ci ildə Zəngilan rayon qəzeti öz tarixində 5-ci dəfə ad dəyişikliyinə məruz qalmış və ilin ikinci yarısında «Zəngilan səsi» adı altında çıxmışdır. O vaxtlar bu qəzetin redaksiyasında 20 nəfərdən artıq yaradıcı və texniki işçi çalışmışdır. Rayon İcra Hakimiyyətinin köməkliyi ilə «Zəngilan səsi» köçkünlük dövründə də öz fəaliyyətini davam etdirir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonun Məmmədbəyli kəndində olan türbə dövrümüzə qədər salamat gəlib çatan abidələrdəndir. Günbəzin yuxarı hissəsi azca dağılmışdır. Türbə piramida günbəzlərlə örtülmüş səkkizguşəli prizmadan ibarətdir. Türbənin əsas qapısı şimal-qərb tərəfdədir. Onun üzü çox sadə işlənmişdir. Üz müstəvilərinin əsas hissələri batıqdır. Buna görə də türbənin küncləri bir qədər çıxıntılıdır. Türbənin qapısı yerdən 1,8 m. hündürlükdədir. Orada yeraltı sərdabədə mövcuddur. Məmmədbəyli türbəsi Azərbaycanın bürcvari türbələrinə bənzəyir. Abidənin karnizi diqqəti cəlb edir. O, qara rəngi daşdan işlənmişdir. Konstruktiv elementlərin mütənasibliyi gözəl memarlıq kompozisiyası türbəyə monumental gözəllik verir.

Əsas tikinti materialı kimi daşdan istifadə edilmişdir. Kərpic tikintilərdə olduğu kimi bu türbənin divarı yükdaşıyıcı kütləyə və üzlüyə bölünmür. Üzlük eyni zamanda divarın əsas hissəsini təşkil edir.

Üst kamera divarının qalınlığı 86 sm olub iki, cərgədən ibarətdir. O, daxili və xarici üzlük daşlardan hörülmüşdür. Onların arası boş saxlanılmış, sonra məhlulla doldurulmuşdur. Bu cür tikintiyə Azərbaycanın başqa türbələrində də rast gəlinir. Türbənin üst günbəzini tikərkən də bu texnikadan istifadə olunmuşdur. Burada da günbəz iki qatdır. Daxili günbəz sferik, xarici günbəz isə piramida formadadır. Onların da arası məhlulla doldurulub.

1975-ci ildə ilk dəfə yeraltı sahə təmizlənmiş və türbənin sərdabəsi üzə çıxarılmışdır. Sərdabə 2,95 x 3,30 m. ölçülü düzbucaqşəkilli plana malikdir. O, 190 sm hündürlükdə çatmatağla örtülmüşdür. Sərdabəyə giriş qərb tərəfdəndir. Qapının eni 76 sm, hündürlüyü isə 88 sm-dir.

İslam qaydalarına görə türbəyə və sərdabəyə girişin hündürlüyü 120 sm-dən artıq ola bilməz. Çünki, bura girən bir qədər əyilməli, mərhuma ehtiramını bildirməlidir. Sərdabənin döşəməsi yaxşı cilalanmış daşlarla hörülmüşdür. Orta əsrlərdə belə türbələr adətən feodal əyanların, maddi durumu yaxşı olan və eyni zamanda tanınmış şəxslərin qərbi üstündə ucaldılırdı. Bu türbənin girişi üstündə olan və nəsx xətti ilə

yazılmış bir kitabə vardır. Bu kitabədə deyilir ki, bu türbə 704-cü ildə Ramazan ayında (1305) Məhəmməd əl-xacənin qəbri üstündə tikilmişdir.

***Şərifan sərdabəsi XII əsr***

1974-cü ildə Azərbaycan EA Tarix İnstitutunun Arxeologiya şöbəsi burada tədqiqat aparmışdır.

«Şəhri Şərifan» və ya Şəhri Xəlifan adı ilə tanınan bir orta əsr şəhərinin xarabalıqları aşkar olunmuşdur.

Məlum olmuşdur ki, bu şəhər cənubu Qafqazdan keçən baş ticarət yolunun üzərində yerləşir.

İlk qazıntılar burada ilk mədəni təbəqənin olduğunu aşkar etdi. Bu burada IX əsrdən insan yaşadığını söyləməyə əsas verir. Şəhərin də elə bu dövrdə yəni IX əsrdə formalaşdığı, əsası qoyulduğu görünür. Şəhər XIV-XV əsrlərə kimi mövcud olmuşdur. Qazıntılar və tapılmış arxeoloji materiallar şəhərdə duluşçuluq və metalişləmə sənətinin inkişaf etdiyini göstərir. Şəhərin iqtisadiyyatında çəltikçilik xüsusi yer tuturdu. Bunun şəhərdə tapılan düyü anbarı sübut edir.

Diqqəti cəlb edən cəhətdən biri də şəhərin memarlıq abidələridir. 3 metr dərinlikdə aşkar edilmiş hamam kompleksi çox maraq doğurur. Əsasən bişmiş kərpicdən Naxçıvan-Təbriz memarlığı üslubunda inşa edilən bu kompleksin su qızdırılan otağı, parxanası və yuyunmaq yeri və hovuzları salamat qalmışdır.

Azərbaycan orta əsr memarlığında ən qiymətli abidə olan bu kompleks XII-XIII əsrə aid edilir.

Zəngilan rayonunda, Həkəri çayının sağ sahilində olan Şərifan kəndində olan türbənin ancaq sərdabə hissəsi bizə gəlib çatmışdır. Türbənin üst hissəsi dağılmışdır. Onun yeraltı hissəsi plana görə çıxıntılara malik kvadrat şəklindədir. Onun ölçüləri 5,4 x 5,4 m-dir. Onun 3 qolu çatmatağla, dördüncü tərəfi isə müstəvi tavanla örtülmüşdür. Sərdabənin cənub divarında dördbucaqlı formada taxçaya oxşar, çox da dərin olmayan mehrab vardır. Onun yan tərəfləri nazik tili sütunlarla bəzədilmişdir.

Tağın arxivoltu prizmatik çıxıntılı formadadır. Onun üstü üçbucaq şəkilli xonçalarla bəzədilmişdir. Divarlar yaxşı cilalanmış daş piltələrdən hörülmüşdür. Onun şərq qolu çatmatağla örtülmüşdür. Həmin qolun qurtaracağında üstü kəsilmiş tağşəkilli qapı yeri vardır. O, müstəvi tağtavanla örtülü dəhlizə açılır. Tikintinin mərkəzi hissəsi günbəzlə örtülmüşdür. Divarlar və tağlar yaxşı cilalanmış Daş piltələrdən hörülmüşdür. Abidənin yerüstü qalıqları onun bürcvari türbələrə oxşarlığını sübut edir.

***Hacallı dairəvi bürcü XIV əsr***

Hacallı kəndindəki dairəvi bürc - bu tarixi memarlıq abidəsi də qorunurdu. Çox təəssüflər olsun ki, onun haqqında bizim əlimizdə nə şəkil, nə də məlumat vardır. Bu abidə Məmmədbəyli və Şərifan türbələrindən fərqli olaraq səkkizguşəli deyil, dairəvi formada olmuşdur. Bu bürcün dəqiq tikilmə tarixi bəlli deyil. Onun da səbəbi mütəxəssis rəyinin və arxeoloji tədqiqatların aparılmasının nəticəsidir. Burada orta əsrlərə aid kəhriz, karvansara qalığı və məscid də mövcud olmuşdur.

***Yenikənd sərdabəsi***

Həkərinin sağ sahilində olan Yenikənd kəndində də XIV əsrə aid sərdabə mövcud idi. Onun da üst hissəsi uçmuş ancaq alt hissəsi dövrümüzə gəlib çatmışdır. Bu abidə də vaxtında tədqiq olunmadığından onun haqqında ətraflı məlumat vermək imkanımız yoxdur.

***Zəngilan şəhərində məscid***

Rayon mərkəzində olan bu məscid XVII « XVIII əsrlərə aid edilir. Məscidin Səfəvilər dövründə tikilməsi güman edilir. Onun ölçüləri 12 x 20 m. idi. İçərisində mehrab və taxça var idi. Tikintidə əsasən yerli əhəng daşından istifadə olunmuşdur. Divarlar üzlənməmişdir. Məscidin qapısı günçıxana açılırdı. Qapı tağformalı olmuşdur. Onun üst tərəfində kitabəsi var idi.

Rayonda bundan başqa məscidlər də var.

Rayonun Bartaz, Sobu, Baharlı, Qıraq Müşlan, Malatkeşin-Şəfibəyli kəndlərində, Mincivan qəsəbəsində də məscidlər var idi. Təəssüflər olsun ki, bu müqəddəs yerlərdən anbar kimi istifadə olunurdu. Onların heç biri öz funksiyasını yerinə yetirmirdi.

Rayon ərazisində tapılmış qoç heykəlləri və at fiqurları da uzaq keçmişimizdən xəbər verirdi.

***Bartaz qız qalası***

Rayonun Bartaz kəndi ilə Vejnəli kəndi arasında hündür bir dağın üstündə xalq arasında Qız qalası adlanan bir qala da var idi. Qala əsasən müşahidə məntəqəsi rolunu oynamışdır. Çünki, yoldan xeyli aralı və yüksəklikdə olan və bir o qədər də böyük olmayan belə bir qala nə sığınacaq, nə də müdafiə istehkamı rolunu oynamayıb.

Orta əsr müdafiə qalaları və sığınacaqlar hündür və geniş bir ərazidə inşa edilir və onun ətrafı ya təbii şəraitlə qorunurdu, ya da ki, qalanın ətrafına hündür divar çəkilir və müəyyən məsafələrdən bir bürclər inşa edilirdi. Burada biz onlara təsadüf etmirik. Bunlara əsasən deyə bilərik ki, Bartaz qız qalası müşahidə məntəqəsi rolu oynamışdır.

Rayonun Yeməzli və Bartaz kəndlərində qədim alban kilsələri var idi.

**Muzeylər**

***Tarix diyarşünaslıq muzeyi:***

Muzey rayon mərkəzində idi. Onun yüzlərlə eksponatı var idi. Onlar xalqımızın uzaq keçmişindən bu günümüzə qədər olan həyat tərzini, məişət və mədəniyyətini əks etdirdi.

***Daş heykəllər muzeyi:***

Ağ oyuq deyilən yerdədir. Burada müxtəlif dövrlərə aid daş abidələri vardır.

Koroğlu daşı

Xalq qəhrəmanı Koroğlunun adı ilə hallandırılan bir daş əslində ondan xeyli əvvəllər mövcud olmuşdur. Bu daş ağ rəngdədir və onun nisbətən baş tərəfinə bir oyuq var. Həmin daşın yerləşdiyi yerə Ağ oyuq deyirlər. Bu ərazinin belə adlanması bu daşla əlaqədardır. Ağ (daş) oyuq (yenə daşda) sözləri hər şeyin adını göstərir.

Daşın üzərindəki oyuqda qədim türklər, atəşpərəstlər od qalayardı. Bu oyuqda da çox güman ki, şam yanardı, müxtəlif ayinləri icra edərdilər.

Daşın üzərində qəribə yazılar da vardır. Bunlar qədim türk yazılarına bənzəyirdi. Çox güman ki, bunlar Orxan-Yenisey yazılarıdır. Bu əraziyə bəzən «Yazı düzü» də deyirlər. Bu ad da həmin daşla, onda olan yazılarla əlaqədar yaranmışdır. Həmin ərazi rayon mərkəzindən Bakıya gedən yolun üstündə, hündür bir yerdədir. Son zamanlar burada daş abidədən ibarət bir muzey yaradılmışdı.

Daşın ölçüləri təxminən 90 sm x 40 sm x 20 sm-dir. O yonulmuş haldadır. Neçə əsrdir günün və yağışın altında qalmasına baxmayaraq öz keyfiyyətini itirməmişdir.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Rayon 29 oktyabr 1993-cü il tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur.

İşğal nəticəsində təqribi hesablamalara görə rayona 1 milyard 390 milyon ABŞ dolları məbləğində zərər dəymişdir.

Həmçinin qiymətləri milyonlarla dollar məbləğində ölçülən abidələr dağıdılmışdır. Bu abidələr aşağıdakılardır:

1. Məmmədbəyli türbəsi XIII əsr
2. Şərifan sərdabəsi XII əsr
3. Hacallı dairəvi bürcü XIV əsr
4. Yenikənd kənd sərdabəsi XIV əsr
5. Bartaz Qız Qalası XIII əsr
6. Tarix-Diyarşünaslıq muzeyi
7. Daş heykəllər muzeyi
8. Koroğlu daşı
9. Xalqlar dostluğu muzeyi
10. Rayonun 14 kəndindəki məscidlər
11. Rayonun Şatarız və Qarababa kəndlərindəki Alban kilsələri
12. Xanazur abidə piri və sairə

1. Şərifan kəndində arxeoloji qazıntı nəticəsində XI əsrə aid olan qədim hamam kompleksi.
2. Məmmədbəyli, Babaylı, Ağalı, Yenikənd və Malatkeşin kəndlərinin ərazisində yerləşən, XIV-XV əsrlərə aid olan türbələr.
3. Zəngilan kənd, Malatkeşin və Qıraq Muşlan kəndlərində yerləşən, XVII-XVIII əsrə aid olan məscidlər.

4. Bartaz kəndində və Keçikli kəndində yerləşən VI-VII əsrə aid olan «Şükrataz» və «Əsgülüm» qalaları.

5. XIII-XIV əsrə aid olan Bartaz kəndinin ərazisində yerləşən «Xanazur», Malatkeşin kəndinin ərazisində yerləşən «Dağdağan» və Gəyəli kəndinin ərazisində yerləşən pirlər.

6. VII-VIII əsrlərə aid olan rayonun «Yazıdüzü» ərazisində yerləşən, at dırnaqlarının dərin izi düşmüş, diametri 1 m 85 sm olan «Koroğlu daşı» deyilən Daş.

7. Zəngilan şəhər ərazisində XVIII əsrə aid 1 məscid, Tağlı qalası, Pirçivan dəvə piri, Səgülümqalası mövcud olmuş, rayonun minillik tarixini əks etdirən zəngin arxeoloji tapıntılarla təchiz olunmuş Dövlət Muzeyi.

8. Gilətağ ərazisində XVI-XVII əsrə aid olan Sarı ağlıqla bağlı olan Günəş abidə piri olmuş.

9. Rəzdərə ərazisində VII əsrə aid Alban türbə kompleksi, IX əsrə aid Rəzdərə kənd Məscidi, XII əsrə aid Top kəndində Top körpüsü.

10. Vejnəli ərazisində IX-XI əsrə aid Sürtün piri, Yol piri, Qız qalası mövcud olmuş, Böyük ehtiyatda qızıl yatağı mövcuddur.

# Zərdab rayonu




**Yaranma tarixi - 05.02.1935**

**Ərazisi - 0,86 min kv. km**

**Əhalinin sayı - 59,4 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 69 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhər - 1**

**Kəndlərin sayı - 40**

**Qəsəbələrin sayı – 1**

**Zərdab rayonu ilə Bakı arasında olan məsafə - 231 km**

**Əhalinin sayı**

**(1 yanvar, 2009-cu il əhalinin siyahıyaalınması məlumatları əsasında)**

| **Ərazi** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| **Zərdab rayonu** | 52870 | 100,0 | 26341 | 50,0 | 26529 | 50,0 |
| şəhər əhalisi | 11076 | 20,95 | 5414 | 20,55 | 5662 | 21,34 |
| kənd əhalisi | 41794 | 79,05 | 20927 | 79,45 | 20867 | 78,66 |

**Ümumi məlumat**

Zərdab rayonu 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Ucar rayonuna verilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. Şirvan düzünün cənub-qərbindədir. Zərdab rayonu respublikanın paytaxtından 231 *km*-lik bir məsafədə Ucar, Kürdəmir, İmişli, Ağdaş və Ağcabədi rayonları ilə həmsərhəd bir ərazidə yerləşir. Mərkəzi Zərdab şəhəridir. Əhalinin milli tərkibini azərbaycanlılar təşkil edir. Həmçinin rayonda rus, tatar, ukraynalı və digər millətlərin 100 nəfərə qədər nümayəndələri yaşayır.

Rayona Zərdab şəhəri, Bəyimli qəsəbəsi və Bıçaqlı, Yuxarı Seyidlər, Siləyli, Körpükənd, Məlikli, Burunlu, Qoruqbağı, Sarıqaya, Məmmədqasımlı, Gödəkqobu, Yarməmmədbağı, Lələağacı, Pərvanlı, Gəlmə, Salahlı, Hüseynxanlı, Xanməmmədli, Əlibəyli, Allahqulubağı, Çallı, Məlikumudlu, Cülovxanlı, Dəliquşçu, Dəkkəoba, İsaqbağı, Qaravəlli, Böyük Dəkkə, Nəzəralılı, Şıxbağı, Gəndəbil, Ağabağı, Şahhüseynli, Şəftəhal, Aşağı Seyidlər, Əlvənd, Otmanoba, Birinci Əlicanlı, İkinci Əlicanlı, Qoşaoba, Təzəkənd kəndləri daxildir.

Rayonun səthi düzənlikdir. Ərazisinin çox hissəsi dəniz səviyyəsindən aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı var. Yayı quraq keçən mülayim isti və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda 1,8°C, iyulda 26,2°C-dir. İllik yağıntı 335 *mm*-dir. Türyan çayının aşağı axını (Qarasu) Zərdab rayonu ərazisindədir. Rayonun cənub və cənub-qərb sərhədindən Kür çayı axır. Boz-çəmən torpaqları yayılmışdır. Bitkiləri yarımsəhra tiplidir. Kür çayı sahilində tuqay meşələri var. Heyvanları: canavar, tülkü, boz dovşan, ceyran, çöldonuzu, qumsiçanı və s. Quşları: turac, qırqovul, göyərçin və s.

Rayonun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, bostan-tərəvəzçilik, heyvandarlıq və s. əsas yer tutur.

**Kütləvi informasiya vasitələri haqda məlumat**

«Əkinçi» qəzeti 1935-ci ildən nəşr olunmaqla, Həsənbəy Məlikov Zərdabinin böyük əziyyətlə 1875-ci il iyunun 22 - də nəşr etdirdiyi ilk Azərbaycan qəzeti olan «Əkinçi»nin varisidir.

1938-ci ildən «Zərdab staxanovçusu», 1945-ci ildən «Zərdab kolxozçusu», 1954-cü ildən «Kolxozçu», 1969-cu ildən «Pambıqçı», 1983-cü ildən isə «Əkinçi» adı ilə nəşr olunur.

Qəzetin təsisçisi Zərdab rayon İcra Hakimiyyəti və «Əkinçi» qəzetinin kollektividir.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən dəmir yolu keçmir.

Rayon ərazisindən keçən respublika əhəmiyyətli (III dərəcəli) yolun uzunluğu 93 km, yerli əhəmiyyətli (IV dərəcəli) yolun uzunluğu 135 km-dir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayon ərazisində tarixi abidələr yoxdur.

Şəhərin mərkəzində 2 memarlıq incəsənət abidəsi var. Onlardan biri görkəmli maarifçi, pedaqoq, təbiətşünas alim, milli mətbuatımızın və teatrımızın banisi Həsən Bəy Zərdabinin heykəlidir. Digəri isə 1941 - 1945-ci illərdə Böyük Vətən Müharibəsində həlak olmuş zərdablıların xatirəsinə ucaldılmış kompleksdir.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Naxçıvan Muxtar Respublikası

**Paytaxt – Naxçıvan şəhəri**

**Ərazisi - 5,50 min kv. km**

**Əhalinin sayı - 468,6 min nəfər (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı – 1 kv. km 85 nəfər (1 yanvar 2024-cü il)**

**Naxçıvan Muxtar Respublikasının şəhərləri:**

**Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur**

## Ümumi məlumat

1920-1923-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-1990-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.




Şimalda və şərqdə Ermənistan Respublikası (sərhəd xəttinin uzunluğu 246 km), qərbdə və cənubda Türkiyə (15 km) və İran İslam Respublikası (204 km) ilə həmsərhəddir. Naxçıvan MR-in Ermənistan ilə təbii sərhədini, əsasən, Zəngəzur və Dərələyəz silsilələrinin suayırıcıları, Türkiyə və İranla sərhədini isə Araz çayı təşkil edir. Ərazisi şimal-qərbindən cənub-şərqinə doğru 158 km məsafədə uzanır. Muxtar respublikanın şimalında ən ucqar nöqtəsi Saraybulaq silsiləsinin Şərur rayonu ərazisindəki Kömürlü dağı (2064 m), ən uca nöqtəsi isə Arazın sol sahilində 600 m yüksəklikdə yerləşən Zerəni dəmiryolu stansiyasıdır. Şimaldan cənuba doğru ən böyük məsafəsi 75 km-ə bərabərdir. Qədim Azərbaycan torpağı Zəngəzurun 1920-ci ildə “Sovet rəhbərliyi” tərəfindən qanunsuz olaraq Ermənistana verilməsi nəticəsində 44-45 km enində zolaq Araza doğru uzanaraq, Naxçıvan MR-i Azərbaycan Respublikasının qalan ərazisindən ayırmışdır. 1924-cü ildə Naxçıvan MSSR-də 3 qəza və 12 dairə təşkil olunmuş, 1925-ci ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 8-ə endirilmişdi: Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunus, Nərimanov, Culfa, Parağa və Ordubad. 1930-cu ilin birinci yarısında Şahbuz rayonu əlavə edilməklə Şərur, Naxçıvan, Culfa. Ordubad, Əbrəqunus rayonları yaradıldı. 1948-ci ildə Əbrəqunis

rayonu Culfa rayonu ilə birləşdirildikdən sonra Naxçıvan MSSR inzibati cəhətdən beş rayona (Naxçıvan (1978-ci ildən Babək), Şərur, Şahbuz, Culfa və Ordubad) bölünmüşdür. 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanına əsasən Türkiyə ilə həmsərhəd bölgənin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq, Sədərək kəndi və ona məxsus ərazilər əsasında Sədərək rayonu yaradılmışdır. 1929-cu il fevralın 18-də Zaqafqaziya MİK totalitar inzibati-amirlik şəraitində Naxçıvan MSSR-in 9 kəndinin - Şərur dairəsinin Qurdqulaq, Xoçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxəç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, habelə Kilit kənd torpaqlarının bir hissəsinin, əkin sahələri və otlaqları ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdir. Zaqafqaziya MİK-in Naxçıvanın sərhədləri məsələsinə baxması, Moskva müqaviləsi (1921) və Qars müqaviləsi (1921) sənədlərini imzalayan tərəflərin iştirakı olmadan Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması, Azərbaycan xalqına qarşı əsl xəyanətkarlıq və cinayət idi.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min $km^2$-dir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur) bölünmüşdür; 4 şəhəri (Azərbaycan Respublikası tabeliyindəki Naxçıvan şəhəri, Naxçıvan MR tabeliyindəki Ordubad və Culfa şəhərləri, rayon tabeliyindəki Şərur şəhəri), 4 şəhər tipli qəsəbə (Babək, Şahbuz, Parağaçay, Heydərabad), 207 kənd və qəsəbə var

**Respublika tabeliyində olan şəhərlər**

*Culfa, Naxçıvan, Ordubad*

**Naxçıvan Muxtar Respublikasının rayonları**

*Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur*

**İdarəetmə quruluşu**

Naxçıvan MR Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan MR Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və onun statusu bu Konstitusiya ilə müəyyən edilir.

Naxçıvan MR-də qanunvericilik hakimiyyətini Naxçıvan MR-in parlamenti - Ali Məclisi, icra hakimiyyətini Naxçıvan MR-in Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Muxtar Respublikanın məhkəmələri həyata keçirir.

Konstitusiyaya əsasən, Naxçıvan MR Ali Məclisinin sədri muxtar respublikanın ali vəzifəli şəxsidir. O, Ali Məclisdə seçilir. Naxçıvan MR Ali Məclisi 45 deputatdan ibarətdir. Muxtar respublikanın şəhər və rayon ərazi vahidləri icra hakimiyyətləri tərəfindən idarə edilir. İcra hakimiyyətlərinin başçıları Naxçıvan

MR Ali Məclisi sədrinin təqdimatı ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin olunur. Naxçıvan MR-də yerli idarəetmə orqanları - bələdiyyələr fəaliyyət göstərir.

## Tarixi

Naxçıvan çoxəsrlik tarixə və zəngin maddi-mədəniyyət abidələrinə malik olan ən qədim Azərbaycan torpağıdır. Burada hələ neolit dövründə yerli tayfalar oturaq həyat sürmüş, müxtəlif təsərrüfat və sənət sahələri ilə məşğul olmuşlar. "Naxçuan", "Naxcuan" və ya "Naqşecahan" adlanmışdır.

Bir sıra fars və türk mənbələrində Naxçıvan "Nəqşicahan" kimi göstərilir. Naxçıvan sözünün türk mənşəli olduğunu "Naxçıvan" sözü ilk mənbələrdə müxtəlif şəkildə verilmişdir. Şəhər yunanca "Naksuana", pəhləvicə "Naxçıvan", ərəbcə - "Nəşəva" və ya onu Akçıvan-Naxçıvan-Oğuz ağ ərənlər vətəni kimi mənalandıranlar da vardır. Son tədqiqatlar Naxçıvan sözünün mənşəyini elam dilindəki "Nahhunte" sözü ilə əlaqədar izah edirlər. "Van" toponimik formatının qədimliyini nəzərə aldıqda şəhərin ilk adının Nahhuntevan olduğunu düşünmək olar. Bu adın sonralar yerli türk əhalisi tərəfindən Naxçıvan şəklinə düşməsi mümkündür.

Naxçıvan Yaxın Şərqin ən məşhur qədim şəhərlərindən biridir. Onun 3500 ildən çox yaşı vardır. Naxçıvan haqqında ilk yazılı məlumata Klavdiy Ptolemeyin "Coğrafiya" əsərində rast gəlinir. O, Naxçıvanın hələ miladdan öncə II yüzillikdə şəhər olduğunu xəbər verərək yazmışdır: "Naksuana geniş ərazisi olan Vaspuraqanın mərkəzidir. 37 nahiyədən ibarət olan bu ölkənin bir nahiyəsini də Naksuana təşkil edir". Son tədqiqatlar şəhərin bina edilməsinin miladdan öncə II minilliyin ortalarına (1539) aid olduğunu göstərir.

Böyük karvan yolunun üzərində yerləşən Naxçıvan şəhəri miladın III yüzilliyində sasanilər tərəfindən dağıdılmışdır. Burda VI yüzilliyin birinci yarısından VII yüzilliyin birinci yarısına qədərki dövrdə sasanilərə məxsus zərbxanalarda üzərində "Naxçıvan" sözü yazılmış gümüş pullar kəsilmişdir.

### Səlcuqlar dövründə Naxçıvan

VII yüzilliyin I yarısında Naxçıvan Bizans imperatoru İraklinin hücumuna məruz qalmışdır. 654-cü ildə ərəb əmiri Həbib ibn Məsləmə Naxçıvanı zəbt etmişdir. Şəhər inzibati cəhətdən xilafətin 3-cü əmirliyinə daxil edilmişdir. Bu dövrdə feodal zülmünə, həmçinin yadellilərin əsarətinə qarşı bir sıra çıxışlar olmuşdur. IX yüzilliyin əvvəllərindən ərəblərə qarşı xürrəmilər adlı xalq hərəkatı başlamışdır. Xürrəmilərin əsas dayaq nöqtələrindən və hərbi düşərgələrindən biri Naxçıvan şəhəri idi. IX-X yüzilliklərdə Naxçıvan Sacilər və Salarilər dövlətlərinin tərkibində olmuşdur.

XI əsrin ortalarından Naxçıvan səlcuq sultanlarının ixtiyarına verildi. Səlcuq hökmdarı Toğrul bəyin varisi Alp Arslan 1064-cü ildə Naxçıvanı ələ keçirmişdir. Sultan Alp Arslan zamanında Azərbaycan bölgəsindəki digər krallıqlar tamamilə itkisiz hala gətirilmiş və bu üzdən Alp Arslana Ebulfəth ünvanı verilmişdir. Alp Arslan oğlu Məlikşahı və vəziri Nizam ül-Mülkü öz yerinə qoyub Naxçıvanı tərk etmişdi. Məlikşahın hakimiyyəti isə, Azərbaycanın türkləşməsinin son səhifəsini tamamlayır. 1092-ci ildə Məlikşahın ölümündən sonra Səlcuq imperiyası bir neçə müstəqil dövlətlərə parçalandı. Lakin buna

baxmayaraq Naxçıvan şəhəri müəyyən müddət Səlcuq sultanlarından asılı vəziyyətdə qalmışdı. Səlcuqların Azərbaycan üzrə canişini Naxçıvanda yerləşirdi.

**Atabəylər və Elxanilər hakimiyyəti dövründə Naxçıvan**

Gəncədəki Səlcuqlu dövlətinin bir valisi olan Şəmsəddin Eldənizin 1136-cı ildə bölgəyə hakim olması ilə Atabəylər dönəmi, daha doğrusu Eldənizlər dövrü başlamışdır. XII yüzilliyin ortalarında Naxçıvan Eldənizlər dövlətinin tərkibində idi. Bu dövrdə Naxçıvan Atabəylər dövlətlərinin əsas ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdi. Naxçıvan şəhəri XII yüzilliyin 30-cu illərinin sonundan 1175-ci ilədək bu dövlətin paytaxtı olmuşdur.

Naxçıvan həm də iqtisadi və hərbi əhəmiyyətə malik olan şəhər idi. Eldənizlərin ilk və əsas iqamətgahlarından olan Naxçıvan şəhəri xeyli inkişaf etmişdi. Naxçıvanda qiymətli memarlıq abidələri - qalalar, saray, məscid, türbə və s. tikilirdi. Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə Naxçıvan hakimi onun arvadı Zahidə xatun idi. Dövlətin xəzinəsi Əlincə qalasında saxlanırdı.

Naxçıvanda olan fransız səyyahı Vilhelm de Rubruk monqol istilasına qədər Naxçıvanın böyük bir dövlətin paytaxtı, iri və gözəl şəhər olduğunu qeyd edirdi. Şəhər 1221-ci ildə Çingiz ordularının hücumuna məruz qalmış, xeyli dağıntılar olmuşdur.

Monqolların hücumundan sonra Naxçıvan 1225-ci ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Mənqiburinin hakimiyyətinə tabe olur. Lakin şəhər monqolların hücumları zamanı daha böyük təhlükəyə məruz qalır. Hülakü xan zamanında Naxçıvana gələn türkmənlər ilə daha qədimdən burada yaşayan türklər qaynayıb-qarışmışlar. Naxçıvan Elxanilərdən sonra XIV əsrin ikinci yarısından etibarən Çobanilərin, Cucilərin, Cəlairlərin, Müzəffərlərin hücumlarına məruz qalmışdır. 1386-cı ildə Teymurləngin qoşunları Naxçıvana gəlmişlər. Bu hücumda Naxçıvanın təsərrüfat həyatına və maddi mədəniyyətinə ziyan dəymişdir. XV əsr Qaraqoyunluların hakimiyyəti zamanında Naxçıvan daha da inkişaf etmişdi.

**Səfəvilər dövründə Naxçıvan**

XIII yüzillikdə monqolların işğal etdikləri ərazidə kortəbii sufi dərviş təriqəti yarandı. Həmin yüzilliyin sonunda belə dərviş ordenlərindən biri də Azərbaycanın Ərdəbil şəhərində olmuşdu. Ordenin və şeyxlər sülaləsinin adı müqəddəs sayılan Şeyx Səfiəddin Ərdəbilinin (1252-1334) adı ilə bağlı idi. XV yüzilliyin ikinci yarısında Ərdəbil feodal hakimliyinin əhəmiyyəti xeyli artdı. Səfəvilər dünyəvi və ruhani işləri öz əllərində birləşdirdilər. Səfəviyyə təriqəti Şeyx Cüneyd zamanında (1447-1460) tamamilə siyasi bir mahiyyət kəsb etmişdir.

Səfəvi xanədanlığının siyasi yüksəlişi 1501-ci ildə Şeyx İsmayılın Naxçıvanda Ağqoyunlu ordusunu məğlub etməsi ilə başlanır. Şərur düzündə qızılbaşların Ağqoyunluların üzərindəki qələbəsindən sonra Naxçıvan səfəvilərin hakimiyyətinə keçdi. Səfəvi təriqətinin şeyxi şah İsmayılın güclənməsinin ən önəmli səbəbi onun qızılbaş türk tayfalarına güvənməsi ilə əlaqədardır. Təəssüf ki, tariximiz iki türk dövlətinin:

Səfəvi və Osmanlı türk dövlətlərinin qarşı-qarşıya gəldiyini göstərən hadisələrlə doludur. Buna nümunə olaraq, Çaldıran Meydan Müharibəsi (1514) göstərilə bilər. Bu durum Əfşar xanədanlığının quruluşuna qədər davam etmişdir.

**Əfşar və Qacar dövrü**

Adından da göründüyü kimi, Nadir şah Əfşar, əfşarlı türkmənlərinin Kırlu oymağına mənsubdur. 1729-cu ildə II Təhmasibi Səfəvi taxtına çıxaran Nadir şah daha sonra onu da uzaqlaşdıraraq Əfşar xanədanlığını qurmuşdu. O, 1736-cı ildə Səfəvi sülaləsi nümayəndələrinin formal idarə üsuluna son qoyaraq özünü İranın şahı elan etdi. Nadir keçmiş inzibati bölgüləri - bəylərbəyilikləri ləğv etdi. Cüxur-Səd-Naxçıvan bəylərbəyiliyi də ləğv edilərək Azərbaycan adı altında vahid inzibati bölgüyə daxil edildi.

III Əhməd və I Mahmud zamanlarında Azərbaycanın Osmanlı torpaqlarına qatılması dövlətin aparıcı siyasətinə çevrilmiş, ancaq Rusiyanın bu ərazilərə yiyələnmək istəyi və Nadir şahın bacarıqlı fəaliyyəti Osmanlı dövlətinin bunu gerçəkləşdirməsinə əngəl olmuşdur. Daha sonra, Azərbaycanın idarəçiliyi yeni bir türkmən boyu olan Qacarların əlinə keçmişdir (1779).

**Naxçıvan xanlığı**

Naxçıvan 1747-ci ildə Nadir Əfşar sui-qəsd nəticəsində öldürüldükdən sonra Azərbaycanda iyirmiyə qədər müstəqil feodal dövlətlər - xanlıqlar yarandı. Azərbaycan xanlıqları quzey və güneydə iki qrupa bölünürdü:

Quzeydə: Şəki, Quba, Gəncə, Bakı, Dərbənd, Naxçıvan, Şirvan, Talış, İrəvan, Salyan, Qarabağ, Cavad.

Güneydə: Təbriz, Urmiya, Ərdəbil, Xoy, Qaradağ, Sərab, Marağa, Maku. XVIII əsrin ortalarında kəngərli tayfa başçısı Heydərqulu xan özünü Naxçıvanın xanı elan etmişdir. Naxçıvan xanlığına Naxçıvan, Şərur, Ordubad, Mehri, Qafan və başqa əyalətlər daxil idi. 1787-ci ildə Naxçıvanın xanı Kalbalı xan oldu. Xanlıqlar dövründə Naxçıvanda bir qədər dirçəliş baş verdi.

Birinci Rusiya-İran müharibəsi (1805-1813) illərində Naxçıvan xanlığı Gülüstan müqaviləsinə görə İranın hakimiyyəti altında qalmışdı.

İkinci Rusiya-İran müharibəsi (1826-1828) gedişində - 1827-ci ildə rus ordusu Naxçıvanı tutmuşdu. Naxçıvan xanlığının zorla Rusiyaya birləşdirilməsi 1828-ci ildə Rusiya və İran arasında bağlanan Türkmənçay müqaviləsi ilə başa çatdırılmışdı. Naxçıvan 1841-ci ildə qəza mərkəzi oldu. Onun ərazisi 1841-ci ildən Gürcü-İmeretiya, 1850-ci ildən isə əslən azərbaycanlıların idarəçiliyində olan İrəvan quberniyasının tərkibinə daxil idi.

Azərbaycanın digər torpaqları kimi Naxçıvan da rusların hakimiyyəti altına keçdikdən sonra ermənilərin həmin torpaqlarda yerləşdirilməsinə başlanmışdır. Bilindiyi kimi, bu bölgələrdə erməni əhalisi azlıqda qaldığından 1828-ci ildə Güney Azərbaycandan, Təbriz və çevrəsindən, 1829-1830-cu illərdə Ərzurum və çevrəsindən ermənilər köçürülərək Naxçıvan və İrəvan dairəsində yerləşdirilmişdi.

1905-ci ildən başlayaraq Naxçıvanda da ermənilərlə azərbaycanlılar arasında qırğın baş vermişdi. 1917-ci ildən ermənilər Naxçıvana ərazi iddiaları ilə çıxış etmişlər.

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan (1918-1920)**

1917-ci il fevral-burjua inqilabından sonra, aprelin 15-də Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirilmiş, uzun mübahisədən sonra Məhəlli federasiyası yaradılması ideyası qəbul olunmuşdur. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edilmiş və bu hökumət Türkiyə tərəfindən dərhal tanınmışdı.

1917-ci ilin yayında Naxçıvan diyarında müvəqqəti hökumətin yerli hakimiyyət orqanları yaradılmışdı.

1918-ci ilin əvvəllərində erməni daşnaklarının silahlı dəstələri Naxçıvanda qırğınlar törətdilər. Bakı daşnakların və eserlərin əlində olduğu bir şəraitdə Naxçıvan Milli Komitəsi real köməyi yalnız Türkiyədən ala bilərdi. Xəlil bəyin başçılığı ilə türk qoşunları Naxçıvanın köməyinə gəldi.

1918-ci ilin noyabrında Araz Türk Respublikası yarandı. Paytaxtı Naxçıvan şəhəri olan bu Respublikanın ərazisi 16.000 $km^2$-ə, əhalisi isə 1 milyon nəfərə yaxın idi. Hüdudları Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzalarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Meğri və başqa regionları əhatə edirdi.

Türkiyənin birinci dünya müharibəsində məğlubiyyəti Mudros müqaviləsinin (1918) şərtlərinə görə türk qoşunlarının Azərbaycandan, o cümlədən Naxçıvandan çıxarılmasına səbəb oldu. Türkiyənin özündə də vəziyyətin qeyri-sabitliyi, rusların neft və sənaye mərkəzi olan Bakını işğal etməyə cəhd göstərməsi, Avropa ölkələrinin Rusiya təhdidini görə bilməməsi üzündən Azərbaycan 1920-ci il aprel ayının 28-də ruslar tərəfindən işğal edildi.

**Sovetlər Birliyi dövründə Naxçıvan**

Azərbaycanda bolşeviklər hakimiyyətə gəldikdən sonra - iyulun 28-də Naxçıvan Sovet Sosialist Respublikası yaradıldı. Ali orqan olan Naxçıvan İnqilab Komitəsi seçildi. İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi elan etdi. Moskvada bağlanmış Moskva və Qars müqavilələrinə əsasən Naxçıvan ölkəsinin üçüncü bir dövlətə güzəştə gedilməməsi şərti ilə Azərbaycanın himayəsinə verilməsi qərara alınmışdı. Naxçıvanın ərazisinin qorunmasında Moskva və Qars müqavilələrinin mühüm əhəmiyyəti olmuşdur. Sovetlər Birliyi dövründə Naxçıvanın bir sıra ərazisi Ermənistana verilmiş, qonşu Türkiyə Cümhuriyyəti ilə iqtisadi, siyasi və mədəni əlaqələrin qarşısı alınmışdır.

Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR istiqlaliyyət qazanmaq üçün uzun müddət mübarizə aparmışdır. SSRİ-nin dağılma prosesi 1980-cı illərin sonunda Qarabağ hadisələrinin

təkrar alovlandırılmasına və azərbaycanlılarla ermənilərin qarşıdurmasına gətirib çıxartdı. Müstəqillik hərəkatını boğmaq üçün 19 yanvar 1990-cı ildə Sovet Ordusu hissələri Bakıya girərək qanlı qırğın törətdi. Bundan 8 saat əvvəl rus-erməni birləşmələri Naxçıvan MR-in Kərki kəndini işğal etdi, sərhəd boyu intensiv hücuma keçdi. Yüzlərlə Azərbaycanlı şəhid oldu. Sərhədlərinin qorunmasına təminat ala bilməyən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti Moskva və Qars müqavilələrini əsas götürərək SSRİ-nin tərkibindən çıxmaq barədə qarar qəbul etdi. Bu, faktiki olaraq SSRİ-nin süqutunun başlanğıcı idi.

**1990-cı ildən sonrakı siyasi proseslər**

Dağlıq Qarabağ ətrafında başlanan hadisələr Naxçıvanda da öz əks-sədasını tapırdı. Bu dövrdə Naxçıvanın vəziyyəti daha ağır idi. Onu ermənilər tərəfindən işğal təhlükəsi gözləyirdi. 1990-cı il iyulun 22-də möhtərəm Heydər Əliyevin siyasi təqib ucbatından Moskvadan Naxçıvana gəlməsi bu regionu xilas etdi. Fəal siyasətə qayıdan Heydər Əliyev Azərbaycan və Naxçıvan parlamentlərinə deputat, 1991-ci ilin sentyabrında isə Naxçıvan MR Ali Məclisinə sədr seçildi.

Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi sayəsində Naxçıvan parlamenti tarixdə ilk dəfə olaraq milli dövlətçilik ənənəsinin bərpası istiqamətində taleyüklü addımlar atdı. Üç rəngli dövlət bayrağı qəbul olundu. Bayraq və digər müstəqillik atributları barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Ali Soveti qarşısında məsələ qaldırıldı. Ermənistan tərəfindən blokadaya alınan Naxçıvan MR-in yaşaması üçün İran və Türkiyə ilə əlaqələrin yaxşılaşmasına xüsusi diqqət yetirildi. 1992-ci ildə Azərbaycana bağlı Naxçıvan MR ilə Türkiyə və İran arasında protokollar imzalandı, Araz çayı üzərindən körpülər salındı.

Naxçıvan MR-in təhlükəsizliyi ilə əlaqədar konkret tədbirlər görüldü. İlk dəfə olaraq Ermənistanla atəşkəsə nail olundu. Bu, Milli ordu quruculuğu və Naxçıvanın etibarlı müdafiə təminatı üçün zəruri gediş idi. 1993-cü ildə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra respublikada yaranmış siyasi sabitlik Naxçıvana da öz təsirini göstərmiş, bölgədə sabitlik və dirçəliş üçün zəmin yaranmışdır.

## Əhalisi

Naxçıvan MR-in əhalisi (99,1%-i) azərbaycanlılardan ibarətdir. Burada həmçinin ruslar, gürcülər, kürdlər və s. xalqların nümayəndələri də yaşayır. Naxçıvan MR Azərbaycan Respublikasının özünəməxsus demoqrafik inkişaf xüsusiyyətlərinə malik regionlarından biridir.

Muxtar respublikanın 459, 6 min nəfər əhalisi var (1 yanvar, 2020). Əhalinin 229,6 min nəfəri, kişilərdən, 230,0 min nəfəri isə qadınlardan ibarətdir. Naxçıvan MR-in yarandığı 1924-cü ildən keçən dövr ərzində bütünlükdə Azərbaycanda olduğu kimi, burada da əhalinin doğum, ölüm və təbii artım göstəricilərində, həmçinin miqrasiyası prosesində tədricən müəyyən müsbət dəyişikliklər yaranmağa başlamış və bu dəyişikliklər əhalinin artımına zəmin yaratmışdır.

Muxtar respublikanın mövcud olduğu dövrdə əhalinin ən sürətli orta illik artımı bütünlükdə Azərbaycanda əhalinin demoqrafik inkişaf səviyyəsinin ən yüksək göstəriciyə malik olduğu 1960-70 illərə təsadüf etmişdir. 1959-70-ci illərin əhali siyahıyaalınması dövründə Naxçıvan MR-də əhalinin sayı 43% (Azərbaycan SSR-də 38,4%) artmışdır. Həmin dövrdə bütünlükdə Azərbaycan SSR-də əhalinin orta illik artım sürəti 3,5% olduğu halda, Naxçıvan MSSR-də 3,9% təşkil etmişdir. Bu, hər şeydən əvvəl həmin dövrdə muxtar respublikada əhalinin hər 1000 nəfərinə düşən doğum və təbii artım göstəricilərinin Azərbaycan SSR-dəkindən xeyli yüksək olması ilə əlaqədar idi.

Muxtar respublikada 1970-90-cı illərdə əhalinin sayı 48,6% artaraq 205,7 min nəfərdən 305,7 min nəfərə, o cümlədən şəhər əhalisi 99,2% artaraq 51,0 min nəfərdən 101,6 min nəfərə, kənd əhalisi isə 31,9% artaraq 154,7 min nəfərdən 204,1 min nəfərə çatmışdı. 1990-cı illərin sosial-iqtisadi çətinliklərinə baxmayaraq, bu dövrdə burada əhalinin sayı 15,8% artaraq 305,7 min nəfərdən 361,2 min nəfərə çatmışdır. Orta sıxlıq 1 $km^2$-də 66 nəfərdir (2001, 1 yanvar). Şəhərləri: Naxçıvan, Ordubad, Culfa, Şərur. Şəhər tipli qəsəbələri: Babək, Şahbuz, Parağaçay, Heydərabad.

**Əhalinin dinamikası və quruluşu**

| İllər | Cəmi əhali min nəfər | o cümlədən | | Yekuna nisbətən (faizlə) | |
|---|---|---|---|---|---|
| | | şəhər | kənd | şəhər | kənd |
| 1924 | 90,0 | 11,0 | 79,0 | 12,2 | 87,8 |
| 1926 | 104,9 | 14,7 | 90,2 | 14,0 | 86,0 |
| 1939 | 126,6 | 22,5 | 104,1 | 17,8 | 82,2 |
| 1950 | 112,0 | 27,0 | 85,0 | 24,1 | 75,9 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1959 | 141,0 | 38,0 | 103,0 | 27,0 | 73,0 |
| 1970 | 205,7 | 51,0 | 154,7 | 24,8 | 75,2 |
| 1979 | 240,0 | 63,0 | 177,0 | 26,3 | 73,7 |
| 1980 | 248,5 | 66,0 | 182,5 | 26,6 | 73,4 |
| 1985 | 275,5 | 78,0 | 197,5 | 28,3 | 71,7 |
| 1989 | 295,0 | 89,0 | 206,0 | 30,2 | 69,8 |
| 1990 | 307,2 | 90,8 | 216,4 | 29,6 | 70,4 |
| 1993 | 326,1 | 94,8 | 231,3 | 29,1 | 70,9 |
| 1998 | 353,9 | 99,6 | 254,3 | 28,1 | 71,9 |
| 2000 | 359,8 | 96,1 | 263,7 | 26,7 | 73,3 |
| 2009 | 397,4 | 115,5 | 281,9 | 29,0 | 71,0 |
| 2020 | 459,6 | 135,6 | 324, 0 | 29,5 | 70,5 |
| 2021 | 461,5 | 35,4 | 64,6 | 49,9 | 50,1 |
| 2022 | 463,0 | 35,4 | 64,6 | 50,0 | 50,0 |
| 2023 | 465,7 | 35,4 | 64,6 | 50,0 | 50,0 |
| 2024 | 468,6 | 35,5 | 64,5 | 49,9 | 50,1 |

## Təbiəti

Naxçıvan MR Kiçik Qafqazın cənub-qərbində yerləşir. Azərbaycan Respublikası ərazisinin geomorfoloji rayonlaşdırılması bölgüsündə Naxçıvan MR-in ərazisi Kiçik Qafqaz geomorfoloji vilayətinin Arazyanı dağlar və Naxçıvan (Orta Araz) çökəkliyi yarımvilayətlərinə aid edilir. Arazyanı dağlar yarımvilayəti Muxtar Respublika ərazisində Dərələyəz və Zəngəzur silsilələrini, Naxçıvan çökəkliyi geomorfoloji yarımvilayəti isə, əsasən, Arazboyu düzənlikləri əhatə edir. Dəniz səviyyəsindən orta yüksəkliyi 1450 m-dir. Ərazinin üçdə iki hissəsi hündürlüyü 1000 m-dən yuxarı olan dağlıq sahələrdir. Ərazinin üçdə bir hissəsini isə bir-birindən dağ qolları və tirələrilə ayrılan maili Arazboyu düzənliklər (Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Culfa, Yaycı, Kəngərli, Dəstə, Ordubad və s.) tutur. Bu düzənliklərin ümumi sahəsi 10 min ha-a. qədərdir. Arazboyu düzənliklərin ən geniş yeri Şərqi Arpaçayın mənsəb hissəsində olub, bu ərazidə bir tərəfdən tektonik çökmənin, digər tərəfdən isə akkumulyasiya prosesinin getməsi nəticəsində yaranmışdır.

## Relyefi

Muxtar respublika ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və onların Araz çayının dərəsinə doğru uzanan və müasir relyefdə orta və alçaq dağlıq yaradan qolları əhatə edir. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsilələrindəndir; ən hündür zirvəsi Qapıcıq dağı (3906 m) eyni zamanda Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsidir və daimi qar xəttindən 41 m yuxarıda yerləşir. Alt Pliosen yaşlı kiçik intruzivlər və ekstruzivlər silsilənin cənub-qərb yamacında konusvarı, günbəzvarı çıxıntılar yaradaraq, təkrarolunmaz relyef əmələ gətirirlər. Hündür zirvələri: Yağlıdərə dağı. - 3827 m, Qazangöldağ - 3814 m, Sarıdərə dağı. - 3754 m, Dəvəboynu dağı. - 3560 m və s. Dağ aşırımlarının mütləq hündürlüyü 2346 m-lə (Biçənək aşırımı), 3362 m (Ayçonqal aşırımı) arasındadır.

Dərələyəz silsiləsi muxtar respublika ərazisinin şimal-qərb hissəsində yerləşir və Zəngəzur silsiləsinə nisbətən alçaqdır. Naxçıvan MR Kiçik Qafqazın cənub-qərbində yerləşir. Azərbaycan Respublikası ərazisinin geomorfoloji rayonlaşdırılması bölgüsündə Naxçıvan MR-in ərazisi Kiçik Qafqaz geomorfoloji vilayətinin Arazyanı dağlar və Naxçıvan (Orta Araz) çökəkliyi yarımvilayətlərinə aid edilir. Arazyanı dağlar yarımvilayəti muxtar respublika ərazisində Dərələyəz və Zəngəzur silsilələrini, Naxçıvan çökəkliyi geomorfoloji yarımvilayəti isə, əsasən, Arazboyu düzənlikləri əhatə edir. Dəniz səviyyəsindən orta yüksəkliyi 1450 m-dir. Ərazinin üçdə iki hissəsi hündürlüyü 1000 m-dən yuxarı olan dağlıq sahələrdir. Ərazinin üçdə bir hissəsini isə bir - birindən dağ qolları və tirələrilə ayrılan maili Arazboyu düzənliklər (Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Culfa, Yaycı, Kəngərli, Dəstə, Ordubad və s.) tutur. Bu düzənliklərin ümumi sahəsi 10 min ha-a. qədərdir. Arazboyu düzənliklərin ən geniş yeri Şərqi Arpaçayın mənsəb hissəsində olub, bu ərazidə bir tərəfdən tektonik çökmənin, digər tərəfdən isə akkumılyasiya prosesinin getməsi nəticəsində yaranmışdır.

## Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat

Naxçıvanda radio 1932-ci ildə qovşaq kimi fəaliyyət göstərmiş, 1936-cı ildən isə Muxtar Respublikanın ərazisində tam yayımlanmağa başlanmışdır.

Televiziya 1963-cü ildən müstəqil kanal kimi Muxtar Respublika ərazisində və ondan kənarda yayımlanır.

Naxçıvan şəhərində Dövlət Radio və Televiziya Verilişləri Komitəsi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Radio-televiziya Ötürücüsü Mərkəzinin nəzdində isə «Kanal-35» televiziyası fəaliyyət göstərir.

2004-cü il iyulun 14-də yaradılmış «Kanal-35» televiziyası öz verilişlərini səkkiz saat elmi-publisist proqramla muxtar respublika ərazisinə yayımlayır.

2001-ci il sentyabr ayının 19-dan fəaliyyətə başlayan «Naxçıvanın səsi» radiosu 100.6 FM dalğasında on altı saat ərzində Muxtar Respublikanın bütün bölgələrində yayımlanır.

«Şərq qapısı» 1921-ci ildən ictimai-siyasi qəzet kimi dərc olunur. Təsisçisi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabinetidir.

Naxçıvan şəhər İcra Hakimiyyətinin orqanı olan «Nuh yurdu» qəzeti 1996-cı ildən nəşr olunur. Qəzet öz növbəsində Naxçıvan şəhərinin ictimai-siyasi həyatında özünəməxsus rol oynayır.

Bundan başqa, Naxçıvan şəhərində Azərbaycan televiziyasının və radiosunun proqramları, Türkiyənin TRT televiziyası yayımlanır.

Azərbaycan Respublikasının rəsmi qəzetləri olan «Azərbaycan», «Yeni Azərbaycan», «Xalq», «Respublika» qəzetləri, digər mətbu orqanlar («İki sahil», «Ekspress», «525-ci qəzet» və s.) Naxçıvan şəhərində abunəçilərə çatdırılır və yayılır.

## Mədəniyyəti və tarixi abidələri

**Gəmiqaya** - Ordubad rayonu ərazisində, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə dağ, Zəngəzur silsiləsinin suayırıcında zirvə olan Gəmiqayanın hündürlüyü 3725 metrdir. Sıldırım yamaclı, konusvarı formaya malik olan dağ qədim vulkanik süxurlardan təşkil olunmuşdur. Min illər boyu Naxçıvan əhalisinin iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən Gəmiqaya yaylaqlarının ərazisi bir növ müqəddəsləşmiş, hətta burada təbii məbədlər meydana gəlmişdir. Yalçın, şiş qayalı zirvəsi daim qarla, ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda bir növ ümmana baş vurub üzən nəhəng gəmiyə bənzəyir. Görünür, belə zahiri oxşarlığa əsasən Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıq dağına (3904 m*)* xalq arasında Gəmiqaya adı verilmişdir. Qədim dünyanın müqəddəs panteonlarından sayılan Gəmiqaya özünün əzəmətli, fantastik görünüşü ilə insanı heyrətə gətirir. Burada e. ə. 3-1-ci minilliklərə aid minə yaxın qayaüstü rəsm - piktoqramlar (qədim yazılar) var.



**Fərhad evi** - Şahbuz rayonunun Biçənək kəndindən şərqdə, Batabat yaylağında arxeoloji abidədir. Naxçıvan-Laçın-Yevlax avtomobil yolundan sağda, Zorbulaqdan təqribən 1 km şərqdədir. Liparit tuf qayada külüng tipli metal alətlə qazılmış dörd otaqdan ibarətdir. Onlar bir istiqamətdə gedən düz keçid yolu vasitəsilə birləşirlər. Tavanlar tağ şəkilli, döşəmələr oval planlıdır. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmışdır. Divarların dibində səki düzəldilmişdir; birinci otağın sağ küncündə quyu ocaq yeri var. Giriş qapısının hündürlüyü 2,20 m, eni 1,30 m-dir. Fərhad evinin olduğu qayanın girişinin sağında qaya üzərində uzun saçlı kişi başı, solunda qadın rəsmi həkk olunmuşdur. Naxçıvan şəhərindən Fərhad evinə bir mənzil karvan yolu var. Batabat yaylağında Fərhad evi adı ilə tanınan dayanacaq məntəqəsi yaradılmışdı. Orta əsrlərdə Naxçıvan-Batabat yolunda gediş-gəliş artdığından Fərhad evindən bir qədər şimalda iri karvansara tikilmişdi. Yerli əhali bunu Şah Abbas karvansarası adlandırır. Tədqiqatlar Fərhad evi abidələrinin e. ə. 1-ci minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu söyləməyə imkan verir. Fərhad evi ilə bağlı xalq arasında müxtəlif rəvayətlər yayılmışdır



**Əshabi-kəhf** - Naxçıvan şəhərindən təqribən 12 km aralı, İlandağ ilə Nəhəcir dağı arasındakı təbii mağarada ziyarətgah olan Əshabi-kəhf ərəb dilində "mağara adamları" deməkdir. Eyniadlı yerin Kiçik Asiya və ya Fələstin ərazisində olması haqqında qədim dini ədəbiyyatlarda, o cümlədən Quranda məlumat var. Quranın "Kəhf' ("Mağara") surəsində əksini tapmış əfsanəyə görə isə, Allaha inanan gənclər təqiblərdən yaxa qurtarmaq üçün



bir itlə birlikdə mağarada gizlənmişdilər. Allah onları yatırtmış, bir neçə yüz ildən sonra oyatmış, lakin gənclər özlərinə yad dünyanı görüb, yenidən əbədi yuxuya getmişlər. Naxçıvan ərazisində yayılmış əfsanə də təqribən eyni məzmunludur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı və himayəsi ilə Əshabi-kəhfdə abadlıq-bərpa işləri aparılmış, zəvvarlar üçün şərait yaradılmış, 13 km məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdur.

**Yusif ibn Küseyir türbəsi** - Naxçıvan şəhərində ən qədim memarlıq abidələrindən biridir. Xalq arasında Atababa türbəsi də adlanır. Türbənin üzərindəki kitabədə onun 1162-ci ildə memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikildiyi və orada dəfn olunmuş şəxsin adı (Yusif ibn Küseyir) göstərilmişdir. Abidənin gövdəsindəki frizdə (haşiyə) kufi xətlə Qurandan ayələr yazılmışdır. Türbə yeraltı hissədən və səkkizbucaqlı yerüstü gövdədən ibarətdir. Yeraltı hissə türbənin sərdabəsi, yerüstü hissə isə xatirə abidəsi olub, monumental xarakterlidir. Səkkizüzlü türbənin çıxıntılı dayaqlar şəklində olan tilləri sadə hörgülü kərpicdən yaradılmışdır. Binanın qəfəsəsini təşkil edən bu qurğuların arasındakı sahələr (türbənin səthləri) həndəsi ornamentli tavalarla üzlənmiş, ayrı-ayrı səthlər müstəqil motivli naxışlarla işlənmişdir. Ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, gəc məhlulu ilə tava şəklində səthlərə bərkidilmişdir. Türbənin qərbə baxan səthi digər səthlərdən fərqli olaraq, giriş baştağı şəklində tərtib edilmişdir. Ornament bəzəkləri tikilinin memarlıq formaları ilə həmahəngdir. Abidənin ikiqat örtüyünün daxili günbəzi çatma tağ, xarici günbəzi isə piramida şəklindədir. Sərdabə ilə yerüstü hissə arasındakı günbəz də çatma tağlıdır. Kompozisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii memarlıq nümunəsidir.



**Mömünə Xatun türbəsi** - Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə Xatun türbəsi 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir (memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Möminə Xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Abidənin baştağında kufi xətti ilə bu sözlər həkk olunmuşdur. "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".



Ümumi hündürlüyü 34 m olmuş, sonralar 8 m hündürlüyündə xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi planda 10 bucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin

başçısı Şəmsəddin Eldəniz, onun arvadı Möminə xatun və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabədə dəfn olunanların məzarlarının başdaşıları vaxtilə oğurlanıb aparılmışdır. Sərdabə orijinal quruluşlu olub, bədii baxımdan zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə doğru bir tağ salınmışdır. Türbə sərdabəsindəki bu quruluş sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən 10 guşəli (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Türbə günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Bişmiş kərpicdən tikilmiş Möminə Xatun Türbəsinin bucaqları çıxıntı şəklində, səthləri isə batıq formada həll edilmişdir. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uzunluğu 500 m-ə çatır. Türbə əvvəlki dövrlərə nisbətən mürəkkəb quruluşlu həndəsi ornamentlərlə kompozisiyaya daxil edilmiş firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Türbənin qərb hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ şəklində həll edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilmişdir. Memarın adını və abidənin inşa tarixini göstərən kitabələr baştağdan yuxarıda həkk edilmişdir. Türbənin sadə quruluşlu daxili səthi gəc ilə suvanmış, günbəzin iç tərəfinə 4 medalyondan ibarət bəzək vurulmuşdur. Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir. 19-cu əsrə aid rəsm əsərlərindən və fotoşəkillərdən görünür ki, Möminə xatun türbəsinin yanında monumental tikililər, o cümlədən came məscidi yerləşmişdi. Türbə 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin qayğısı və himayəsi ilə əsaslı bərpa olunmuşdur.

**Qarabağlar türbəsi -** orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi olan Qarabağlar türbəsi Kəngərli rayonunun Qarabağlar kəndindədir. Türbə memarlıq kompleksinə daxildir. Qarabağlar türbəsindən savayı, burada qoşa minarə və onların arasında yerləşən bina qalıqları var. Qoşa minarənin 12-ci əsrin sonu – 13-cü əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə 14 - cü əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatunun adı yazıldığından, onun Quti xatunun şərəfinə tikildiyi güman edilir.



Sərdabə və yerüstü hissədən ibarət Qarabağlar türbəsində qülləvarı türbələrin əsas xüsusiyyətləri əks olunmuşdur. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı Qarabağlar türbəsinin yerüstü kompozisiyasını əmələ gətirir. Çıxıntılar divarın ümumi həcmini azaltmaqla yanaşı, türbəyə qala əzəməti verir. Türbənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülmüşdür. Qarabağlar türbəsinin səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş, həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Türbənin yuxarısındakı

kitabə qurşağı nəsx xətti ilə işlənmişdir. Yerliyi göy kaşıdan olan kitabə ağ hərflərlə yazılmışdır. Qarabağlar türbəsinin kompozisiya xüsusiyyəti 4 baştağlı olmasıdır. Bu baştağlar şimal, cənub, qərb və şərq istiqamətlərində yerləşərək türbəyə 4 fasadlı görkəm verir. Baştağların səthi kaşı ilə örtülmüş, həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Bunlardan ən maraqlısı şimal tərəfdəki əsas baştağdır. Qarabağlar türbəsinin konus şəklində olmuş yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından türbənin tarixini dəqiq təyin etmək mümkün deyildir. Lakin bütün tədqiqatlar türbənin 14-cü əsrin əvvəllərində tikildiyini göstərir. Qarabağlar türbəsi ilə Bərdə türbəsinin oxşarlığına və hər ikisinin 14-cü əsrin əvvəllərində tikilməsinə əsasən bu abidələrin eyni memarlıq abidələri olduğu ehtimal edilir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qayğısı ilə türbə 2003-cü ildə əsaslı bərpa olunmuşdur.

**Gilan türbəsi -** Ordubad rayonunda orta əsrlərə aid memarlıq abidəsidir. 1979-cu ildə Xarabagilan şəhəri yerində aşkar edilmişdir. Şərti olaraq "Gilan türbəsi" adlandırılan bu abidə iri təpənin yamacında



yerləşir. Türbənin üst qülləsi dağılmış, sərdabəsi isə yaxşı qalmışdır. Sərdabənin planı daxildə səkkizbucaqlı, xaricdə isə düzbucaqlıdır. İçərisində sonradan tikildiyi aydın görünən və iç quruluşu ilə uyuşmayan alçaq səki var. Gilan türbəsinin sərdabəsi Azərbaycan və qonşu ölkələrin orta əsr memarlığında geniş yayılmış səkkizüzlü sərdabələrdən giriş qapısı ilə üzbəüz dərin taxçasına və örtük konstruksiyasına görə fərqlənir. Gilan sərdabəsi ətraf qayalardan qopardılmış lay daş parçalarından tikilmişdir. İçərisinə nisbətən bayır üzlərində daşlar daha diqqətlə yonulmuş, hörgü işi səliqəli aparılmışdır. Tavan və döşəmə büsbütün, eləcə də divarların və mərkəzi dayağın hörgü daşlarının arası ağ məhlulla suvanmışdır. Tünd boz daşlar təbii biçimləri və codluğu ilə ağ yerlikdə orijinal dekorativ düzüm əmələ gətirir. Bayırda sərdabə qatının üstündə kubvarı tutumlu gövdə ucaldılmışdır. Uçub dağılmış və indiyədək kiçicik fraqmentləri qalmış üst qüllə tamamilə kərpicdən tikilmiş, üzləri kərpicdən hörülmüş, mürəkkəb həndəsi naxışlarla bəzədilmişdir. Gilan türbəsinin tikilmə tarixini bildirən kitabə qalmasa da, abidənin 12-ci əsrin son rübündə inşa edildiyi ehtimal olunur.

**Gülüstan türbəsi -** orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi olan Gülüstan türbəsi Culfa rayonunun Gülüstan kəndi yaxınlığındadır. Möminə Xatun türbəsinin təsiri ilə 13-cü əsrin əvvəllərində tikilmiş Gülüstan türbəsi Azərbaycanın qülləvarı türbələri qrupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qumdaşıdan, orijinal quruluşlu kürsülüyü (küncləri kəsilmiş kub formasındadır) isə yonulmuş daşdan tikilmişdir. Azərbaycanın digər türbələrindən fərqli olaraq, Gülüstan türbəsinin sərdabəsi yerüstü hissədə yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə bəzədilmiş, dekorativ tağlarla çərçivələnmişdir. Gövdənin oturacaqla birləşən hissəsi,



eləcə də günbəzə keçid yeri stalaktit şəkilli oyma qurşaqla əhatə edilmişdir. Ornamentlərlə digər bəzək elementlərinin üzvi surətdə birləşdirilməsi və əlaqələndirilməsi abidəyə qabarıq və elastik görkəm verir.

**Gülüstan karvansarası -** bu memarlıq abidəsi Culfa rayonunun Gülüstan kəndində, Araz çayının sol sahilindədir. Gülüstan karvansarasının qalıqları 1974-cü ildə çöl-tədqiqat işləri zamanı aşkar edilmiş, 1978-ci ildə binanın planı tam üzə çıxarılmışdır. Bakı-Culfa dəmiryolu xətti çəkilərkən (1939-40) karvansaranın təqribən yarısı dağılmışdır. Tədqiqatlar nəticəsində Gülüstan karvansarasının Azərbaycanda yol karvansaraları içərisində ən görkəmli və möhtəşəm abidə olduğu müəyyənləşdirilmişdir. Ümumi uzunluğu 37 m olan Gülüstan karvansarasının eyni tipi Araz çayının sağ sahilində, demək olar ki, bütünlüklə salamat qalmışdır. Karvansaraların hər iki sahildə üzbəüz yerləşməsi hələ Araz çayı üzərində körpü tikilməzdən əvvəl burada çay bərəsinin işlədiyini göstərir və karvansaraların tikilmə dövrünü XIII əsrin əvvəllərinə aparıb çıxarır. Karvansaralar çaydaşıdan tikilmiş və gəc məhlulu ilə suvanmışdır. Gülüstan karvansarasının aşkar olunmuş hissəsində çoxlu yaşayış otaqları vardır.





**Darkənd türbəsi -** Bu memarlıq abidəsi Ordubad rayonunun Darkənd kəndindədir. Türbə kompozisiyası və dekorativ elementləri ilə fərqlənir. Darkənd türbəsi kərpicdən hörülmüş, orta hissəsi bürcvari türbələr biçimində olub, yuxarı hissədən günbəzlə tamamlanır. Türbənin üzərindəki tünd-bənövşəyi rəngli kaşı və adi bişmiş kərpicdən hörülmüş sadə naxışlar yeganə bəzək elementidir. Üzərində kitabə olmadığından türbənin tarixini dürüst müəyyənləşdirmək mümkün deyildir. Lakin kompozisiya quruluşu, üzərindəki kaşı bəzəklərinin rəngi abidənin Qarabağlar və Bərdə türbələrindən daha sonra tikildiyi mülahizəsini irəli sürməyə imkan verir. Bu mülahizəyə əsasən Darkənd türbəsinin XIV əsrin axırlarında və ya XVəsrin əvvəllərində inşa edildiyi ehtimal olunur.



**İmamzadə türbəsi -** Naxçıvan şəhərinin cənub-şərqi hissəsində İmamzadə kompleksinə daxil olan bu memarlıq abidəsi yerli əhali arasında "Köhnəqala" adlanan ərazidədir. Səkkizbucaqlı "soğanvari" günbəzlə örtülmüş türbə-sərdabə bu sahənin keçmişdə əhəmiyyətli məqbərələr yerləşən ərazi olduğunu ehtimal etməyə əsas verir. İmamzadə türbəsi yaxınlığında Naxçıvan şəhərinin antik və orta əsrlərdə də mövcud olmuş ikinci qala divarının qalığı aşkar edilmiş, sənətkarlıq nümunələri tapılmışdır. 1997-ci ildə əsaslı təmir olunmuşdur.

**Xanəgah türbəsi -** Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində orta əsrlərə aid edilən Xanəgah türbəsi orta əsr Xanəgah yaşayış yerinin mərkəzindədir. Əlincəçay xanəgahı memarlıq kompleksinin tərkibinə daxildir. Türbə binasında qapı yerinin üstündən düşmüş kitabəli daş lövhə Xanəgah məscidində saxlanılır. Türbənin günbəzi dağılmışdır. Giriş baştağının memarlıq elementləri Möminə Xatun türbəsinin ayrıntılarına oxşayır. Türbə sərdabə planında düzbucaqlı formada olub, daş və kərpicdən tikilmişdir. Bərkidici maddə kimi əhəng qatılmış gəc məhlulundan istifadə edilmişdir. İçərisi gəclə suvanmışdır. Türbə yuxarıda tacvarı formada tamamlanmışdır. Uzunluğu 3,5 m, eni 2,85 m, hündürlüyü 2 m-dir. İnşasında firuzəyi kaşıdan da istifadə olunmuşdur. Məşhur mütəfəkkir və şair Fəzlullah Nəiminin məzarı buradadır. 2004-cü ildə əsaslı təmir olunmuşdur.



**Qazançı körpüsü -** Culfa rayonunun Qazançı kəndində tarixi memarlıq abidəsidir. Tikinti texnikasına görə 15-16-cı əsrlərə aid edilir. Biraşırımlı, xalq arasında "Qozbel körpü" adlanan bu abidə nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Qazançı körpüsü yonulmuş, üstəlik hamarlanmış daş parçalarından tikilmişdir. Tağının parapeti (sipər) və arxivoltu (tağı çərçivəyə alan çıxıntılı haşiyə) xalis yonulmuş daşlardan hörülmüşdür. Qazançı körpüsü Azərbaycan Respublikası ərazisində biraşırımlı körpülərin ən yaxşı nümunələrindəndir.



**Naxçıvan Cümə məscidi -** Orta əsrlərə aid olan bu memarlıq abidəsi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış Atabəylər memarlıq kompleksinin monumental tikililərindən idi. XIX əsrə kimi uçulmuş halda mühafizə olunmuşdu. XIII əsrin 20-ci illərində anonim müəllif tərəfindən yazılmış "Əcaib əd-dünya" əsərində adı çəkilir. XIX əsrdə çəkilmiş rəsmlər və foto təsvirlər abidənin plan-məkan quruluşu haqqında aydın təsəvvür yaradır. Məscidin günbəzlə örtülən kubvarı gövdəsinin güney üzündən başqa, qalan üzlərinin hər birində iki sivri aşırım vardı. Naxçıvan Cümə məscidinin məqsurəsi üç yandan yerləşmələrlə dövrələnmişdi.

**Cümə məscidi -** Orta əsrlərə aid bu memarlıq abidəsi Ordubad şəhərinin mərkəzi meydanında ən hündür yerdə ucaldılıb. Məscid möhtəşəmliyi ilə diqqəti cəlb edir. Məscidin memarlıq görkəmi 17-18 ci əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə daşımaqdadır. Cümə məscidinin şərq qapısı üzərindəki daş lövhədə I Şah Abbasın nəsx xətti ilə farsca beş sətirlik fərmanı həkk edilmişdir. 1604-cü ilə aid olan bu fərmanda deyilir: "Ordubad qəsəbəsinin bütün əhalisinin ...Şah Abbas sülaləsinə etimadını, onların şiə məzhəbli olduqlarını nəzərə alaraq sənətkarlardan, əsnaflardan, bağlardan, əkin yerlərindən,

dəyirmanlardan toplanan ixracat, itlaqat, nüzul, əvariz, qonalqa vergilərindən ibarət olan malcəhət və vücuhatı azaldıb (tədricən) ləğv etsinlər, onları Azərbaycan boniçesindən çıxsınlar və divan itlaqatından xaric etsinlər". Bu fərman da Cümə məscidinin son orta əsrlərdə formalaşdığını deməyə əsas verir. 17-ci əsrdə isə məscidin əsaslı şəkildə bərpa edildiyi güman olunur. Məscidin içəri divarlarındakı həndəsi formalı ornamentlər Naxçıvanın qədim abidələrindəki rəsmləri xatırladır. Bəzi mənbələrə görə, 1902-03-cü illərdə məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpicdəki yazıdan onun 12-13 cü əsrlərdə tikildiyi aydın olur. Tədqiqatçılar Cümə məscidinin indiki görünüşünün sonradan edilən əlavələr nəticəsində yarandığını qeyd edirlər. Hazırda məscidin şimal-şərqində mədrəsə, qərbində isə zorxana binaları yerləşir. Məscid və ətraf binalar 1987-ci ildə əsaslı surətdə bərpa olunmuşdur.



**Aza körpüsü** - Ordubad rayonunda, Aşağı Aza kəndində qədim körpüdür. Gilançayın üzərindədir, XVIII əsrə aid edilir. Uzunluğu 46 paqonometrdir. Hindistanı və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən Aza körpüsünün Böyük İpək Yolu ilə əlaqədar olduğu ehtimal edilir. Buradan quru meyvələr, sənətkarlıq malları, ipək ixrac olunurdu. Tarixi hadisələr nəticəsində dəfələrlə dağıdılmış, sonra təmir edilmişdir. 1997-ci ildə əsaslı şəkildə bərpa olunmuş və yenidən qurulmuşdur.

**Qeysəriyyə** – 17-ci əsr Azərbaycan memarlıq abidəsi olan Qeysəriyyə Ordubad şəhərindədir. Böyük günbəzdən və ona bitişik səkkiz kiçik günbəzdən ibarətdir. Gözəl memarlıq üslubunda inşa edilmişdir. İlk vaxtlar örtülü ticarət mərkəzi kimi nəzərdə tutulmuşdu. Sonralar pəhləvanların güləşdiyi yer kimi xalq arasında Zorxana adı ilə tanınmışdır. XIX əsrin ortalarında "Əncaməni-şüəra" ədəbi məclisinin yığıncaqları burada keçirilirdi. 1990-cı ildən Ordubad tarix diyarşünaslıq muzeyi burada yerləşir. Ərdəbil, Təbriz və başqa şəhərlərdə zərgərlik məmulatı satılan örtülü bazarlar da Qeysəriyyə adlanır.



**Zaviyə məscidi** - Naxçıvan şəhərində tarixi-memarlıq abidəsidir. Naxçıvan memarlıq məktəbinə aid edilən məscidin zahiri memarlıq siması, plan quruluşu və özünəməxsus kompozisiyası onun 17-18-ci əsrin zəngin inşaat ənənələrinin məhsulu olduğunu göstərir. 2008-ci ildə əsaslı təmir və bərpa olunmuşdur.

**Behrud körpüsü** - Ordubad rayonu ərazisində, Behrud kəndinin yaxınlığında qədim memarlıq abidəsidir. Gilançay üzərindədir. Üç aşırımlıdır. Uzunluğu 10 paqonometr. 17-ci əsrin sonu – 18-ci əsrin əvvəllərində tikildiyi ehtimal edilir. Behrud körpüsü inşaat texnikasının müstəsnalığını, memarlıq

simasını saxlamışdır. Körpü 1996-cı ildə yenidən qurulmuş, Ordubad rayonunun Parağa-Tivi-Nəsirvaz kəndləri arasında əlaqələr bərpa olunmuşdur

**Xan evi -** Naxçıvan şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsi olan Xan evi Şərq memarlıq üslubunda tikilmişdir. Naxçıvan xanı Rəhim xanın yaşayış evi olmuşdur. Bina zirzəmidən və 8 üst otaqdan ibarətdir. Qədim Qala məhəlləsində, Möminə Xatun türbəsinin 50-60 metrliyində inşa edilmişdir. Bişmiş kərpicdən tikilmiş, pəncərələrdə şəbəkə üslubundan, otaqlarda qədim Naxçıvan yaşayış evlərinə xas taxça formalarından geniş istifadə olunmuşdur. Binanın yüksək təpə (Xan diki) üzərində inşa edilməsi onu son dərəcə əzəmətli və gözəl göstərir. "Əcəmi seyrəngahı" istirahət kompleksinə daxil olan və 2003-cü ildə əsaslı təmir olunan Xan evində hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Xalça Muzeyi yerləşir. Muzeydə həmçinin Naxçıvan xanlığının tarixinə həsr olunmuş iki guşə vardır.



**Şərq hamamı -** XVIII əsrə aid Azərbaycan memarlıq abidəsi Naxçıvan şəhərində, Azadlıq prospektində, "Təbriz" mehmanxanasının qarşısındadır. Vaxtilə Naxçıvan şəhərinin içərisindən axan Bazar çayının yaxınlığında inşa edilmişdir. Şərq hamamları üslubunda tikilən bina giriş, xidmət zalı, çarhovuzlu çimərlik, xəzinə (su çəni) və ocaqxanadan ibarətdir. Kəhriz suları vasitəsilə işləmişdir. Uzun müddət təsərrüfat işləri məqsədilə istifadə olunmuşdur.



Hazırda əsaslı təmir və bərpa edilmişdir. Tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

**Nehrəm İmamzadəsi -** Babək rayonunun Nehrəm kəndində 18-ci əsrə aid memarlıq abidəsidir. Bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək qalmışdır. Planının kvadrat formasında olması, divarlarındakı oyuqlar və mərkəzi otağın günbəzlə örtülməsi abidənin ilk məscid tiplərinə aidliyini göstərir. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən Nehrəm imamzadəsi türbə, məscid, təkyə və s. yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sənduqə formasında olub gəclə örtülmüş, üzərinə qara örtük salınmışdır. Zəvvarlar qəbri ziyarət edir, nəzir verir, qurban kəsirlər. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Əhali arasında yayılan rəvayətə görə qəbirdə şiələrin yeddinci imamı Museyi-Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Türbənin daxilində, divarlarda, mehrabın cənub, baş və sağ tərəfində günbəzvarı çərçivələrdə dini xarakterli kəlamlar verilir və türbə daxilindəki xəttatlıq işlərinin Mehdi adlı sənətkara məxsus olduğu göstərilir. Kompleks ətraflı tədqiq edilməmişdir.

**Naxçıvan buzxanası** - Azərbaycan Respublikasında ən böyük buzxanalardan biridir. Naxçıvan



şəhərində, İmamzadə kompleksinin yaxınlığında yerləşir. Planda düzbucaqlı formada olan buzxananın uzunluğu 20 m, eni 9 m, indiki halda hündürlüyü 9,6 m-dir. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan buzxanasının səciyyəvi cəhətlərindəndir. Təxminən hər 3 m - dən bir qurulan çatmavari tağlararası boşluq çatma tağbəndlə örtülmüşdür. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilmişdir. Binanın örtük hissəsinin dağılmasına baxmayaraq, kərpic hörüklərindən görünür ki, tağların yuxarı hissəsində tağbəndlərin konstruksiyası dəyişir və çox güman ki, balaca tağbəndlərlə tamamlanır. Bu balaca tağbəndlər binanın əsas oxu boyu yerləşdirilmişdir. Naxçıvan buzxanasının yüksək memarlıq həlli bu abidənin Naxçıvan memarlıq məktəbinin inkişafı dövründə (12-14-cü əsrlər) tikildiyini göstərir.

# Naxçıvan Muxtar Respublikasının rayon və şəhərləri

## Rayonlar

| | | |
|---|---|---|
| Babək | 08.08.1930 | 23.10.1978-ci islədək Naxçıvan rayonu adlanmışdır. |
| Culfa | 08.08.1930 | - |
| Kəngərli | 19.03.2004 | - |
| Ordubad | 08.08.1930 | 04.01.1963-cü ildə ləğv edilib Culfa rayonuna verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil olunmuşdur. |
| Sədərək | 29.08.1990 | - |
| Şahbuz | 08.08.1930 | 04.01.1963-cü ildə ləğv edilib Babək rayonuna verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil olunmuşdur. |
| Şərur | 08.08.1930 | 26.05.1964-cü ilədək Noraşen, 07.02.1991-ci ilədək İliç rayonu adlanmışdır. |

## Naxçıvan şəhəri

### Ümumi məlumat

**Ümumi ərazi – 0,19 min.kv.km**

**Əhalinin ümumi sayı – 97,2 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sixlığı - 1 kv. km 512 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı - 1**

**Kəndlərin sayı - 5**

Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biridir. Aparılan arxeoloji tədqiqatlar nəticəsində Naxçıvanda e. ə. II-I minilliklərə aid maddi mədəniyyət nümunələri tapılmışdır. Yaxın Şərqin qabaqcıl mədəniyyət mərkəzləri ilə coğrafi yaxınlıqda olan Naxçıvan mədəniyyəti buradakı tayfaların həyatına çox böyük təsir göstərmiş, ərazidə erkən şəhər mədəniyyəti və sinifli cəmiyyətin əlamətləri daha tez meydana çıxmışdır.



Naxçıvan şəhəri haqqında yazılı mənbələrdəki ilk məlumatı tarixçi İosif Flaviy (e. ə. I əsr) və yunan coğrafiyaçısı Klavdi Ptolemey özünün «Coğrafiya» əsərində vermişdir. Həmin əsərdə Naxçıvanın adı «Naksuana» kimi qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, Naksuana Naxçıvan sözünün fonetik variantı deyil. Yunan və romalıların dilində fışıltılı səslər ç, c, s, j olmadığından onlar Naxçıvanı Naksuana adlandırmışlar.

Şəhər haqqında orta əsr ərəb və fars mənbələrinə görə (İbn Xordadbeh, Əl-Biruni, Bakuvi və b. tərəfindən) şəhərin adı Nəşavə, Nəqçuvan şəklində işlənmişdir. Bəzi mənbələrdə isə (Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Övliya Çələbi və b.) arasında mövcud olan, lakin elmi əsası olmayan mülahizələrə görə Naxçıvan toponiminin mənası əfsanəvi Nuh peyğəmbərin adı ilə bağlıdır, yəni Nuhçuvan, Nuhun yurdu.

Naxçıvan e. ə. IX-VI əsrlərdə Manna, sonra isə Midiya dövlətlərinin tərkibində olmuş, e. ə. 550-ci ildə Midiyanın süquta uğramasından sonra Əhəmənilər imperiyasının hakimiyyəti altına düşmüşdür. Yaxın və Orta Şərqin ticarət yollarının qovşağında yerləşən Naxçıvan Əhəmənilər imperiyasının dağılmasından sonra e. ə. IV əsrin sonlarından e. ə. I əsrin birinci yarısınadək Atropatena dövlətinin tərkibində olmuşdur. Yaxın və Orta Şərqdə mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzinə çevrilən

Naxçıvanın Kiçik Asiya ölkələri ilə, İranın, Gürcüstanın şəhərləri ilə və Qara dəniz limanları ilə ticarət əlaqəsi var idi.

İran-Bizans müharibəsi zamanı 625-ci ildə Bizans imperatoru İrakli Naxçıvanı tutaraq şəhəri yerlə yeksan etdi. Sonralar bərpa olunan Naxçıvan şəhəri 654-cü ildə ərəblərin əlinə keçdi. Naxçıvan şəhəri ərəb xilafətinin dağılmasından sonra əvvəlcə Sacilər, sonra isə Salarilər dövlətinin tərkibinə daxil olmuşdur. X əsrin sonlarından XI əsrin ortalarınadək Naxçıvan Rəvvadilər dövlətinin tərkibində olmuşdur. 1054-cü ildə Səlcuqların Azərbaycana gəlişi və Rəvvadilər dövlətinin ləğvi ilə Naxçıvan Səlcuqların hakimiyyəti altına düşdü. Səlcuq sultanlığı parçalandıqdan sonra Naxçıvan yeni yaranmış Atabəylər dövlətinin tərkibinə qatıldı. Atabəylər dövlətinin əsas ticarət və sənətkarlıq mərkəzinə çevrilən Naxçıvan şəhəri XII əsrin 30-cu illərinin sonundan 1175-ci ilədək bu dövlətin paytaxtı olmuşdur. XII əsrdə Naxçıvanda təxminən 150-200 min əhali yaşayırdı. Şəhərdə toxuculuq, zərgərlik, dulusçuluq, xalçaçılıq və başqa növ sənətkarlıq sahələri inkişaf etmişdir. 1221-ci ildə monqolların Azərbaycana ilk yürüşü zamanı Naxçıvan şəhəri böyük dağıntılara məruz qalmışdır. 1225-ci ildə Atabəylər dövlətinin zəifləməsindən istifadə edən Cəlaləddin Xarəzmşah Naxçıvanı işğal etdi. 1257-ci ildən Naxçıvan Elxanilər (Hülakulər) dövlətinin tərkibinə qatıldı. Hülakulərin zəifləməsindən sonra Naxçıvan əvvəlcə Çobanilərin, sonra isə Cəlalilər sülaləsinin hakimiyyəti altına düşdü. 1386-cı ildə Naxçıvanı əvvəlcə Qızıl Orda xanı Toxtamış, sonra isə Əmir Teymur işğal etdi. Naxçıvan 1412-ci ildən Qaraqoyunlu, 1468-ci ildən isə Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. Ağqoyunlu - Səfəvi müharibəsi zamanı 1501-ci ildə Şərur düzündə baş vermiş toqquşmada Səfəvilər qalib gələrək şəhəri ələ keçirdilər. Sonrakı mərhələdə Naxçıvan Səfəvi - Osmanlı müharibələrində hərb meydanına çevrildi. I Şah Abbas 1603-cü ildə Naxçıvanı hakimiyyəti altına alaraq buranı hərbi düşərgəyə çevirdi. Səfəvilər dövlətinin apardığı islahatlar nəticəsində Naxçıvan XVI əsrdə Təbriz, XVII əsrdən isə Çuxursədd bəylərbəyliklərinin ərazisinə daxil edilmişdir. XVI-XVII əsrlərdə buranın hakimləri Kəngərli tayfa başçılarından təyin olunurdu. Səfəvilərin süqutundan sonra Naxçıvan XVIII əsrin əvvəllərində Nadir şah tərəfindən tutulmuşdur. 1747-ci ildə Nadir şahın ölümündən sonra Kəngərli tayfasının başçısı Heydərqulu xan özünü xan elan etdi. Naxçıvan xanlığın paytaxtına çevrildi. 1827-ci il iyunun 26-da Naxçıvanı Çar Rusiyasının qoşunları işğal etdi. Rusiya-İran müharibələrinin nəticəsi olaraq 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Naxçıvan Rusiya imperiyasının tərkibinə qatıldı. 1841-ci ildə Gürcüstan - İmeretiya quberniyası tərkibində Naxçıvan qəzası yaradıldı. 1870-ci ildən başlayaraq çarizmin keçirdiyi islahatlar nəticəsində Naxçıvanda ticarət, sənaye, səhiyyə və mədəni sahələrdə irəliləyişlər baş verdi. 1905 - 1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı nəticəsində Naxçıvanda da kütləvi qətllər törədildi. Sonralar bu hadisə 1918-ci ildə təkrarlandı. 1918-ci ildə Naxçıvanda Araz Türk Respublikası yaradıldı. 1919-cu ilin əvvəllərində ingilislərin Naxçıvanı tutması ilə Araz Türk Respublikası süquta uğradı. 1920-ci il iyulun 28-də Naxçıvanda Sovet hakimiyyəti elan edildi. 1921-ci ilin yanvarında keçirilən referendumda əhalinin 90% muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmağa səs verdilər. 16 mart 1921 - ci il Moskva və 13 oktyabr 1921-ci il Qars müqavilələri ilə Naxçıvan Muxtar

Respublikasının statusunun əsası qoyuldu. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edildi və Naxçıvan paytaxt oldu. Hazırda Naxçıvan Muxtar Respublikanın paytaxtıdır.

4 dekabr 2001-ci il Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasının bəzi rayonlarının inzibati ərazi bölgüsünə qismən dəyişiklərin edilməsi haqqında» Qanuna əsasən Naxçıvan Muxtar Respublikası Babək rayonunun Əliabad inzibati dairəsi Naxçıvan şəhərinin tərkibinə verilmişdir. Şəhərdə 1 qəsəbə (Əliabad) vardır. Ərazisi 191,57 km2, əhalisi 95,6 min nəfərdir (01.01.2022-ci il). İqlimi kontinental, orta temperatur yanvarda - 3,8 C, iyulda 26,9 C-dir, illik yağıntı 236 mm.

Naxçıvanın inkişafı ötən əsrin 70-ci illərində möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə başlanmışdır. Naxçıvan XX əsrin 80-ci illərinin sonlarında Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində blokadaya düşmüş, 1991-ci ildən qaz xətti kəsilmiş, 1992-ci ildən dəmir yolu bağlanmışdır.

Müstəqillik əldə etdikdən sonra Naxçıvanda Şahmat məktəbi, Olimpiya İdman Kompleksi, Üzgüçülük Mərkəzi, Naxçıvan Dövlət Universitetinin yeni beşmərtəbəli korpusu, Elektron kitabxana, Hüquq və Sosial idarəetmə fakültəsi üçün korpus, Gömrük Komitəsi üçün yeni bina, Milli Bank, Əlillərin Reabilitasiya Mərkəzi, Heydər Əliyev adına məktəb və bir sıra digər məktəblər, əlillər üçün yeni yaşayış binası tikilmişdir. Naxçıvanda Hüseyn Cavidin məqbərəsi ucaldılmış, onlarla inzibati binalar əsaslı təmir edilmiş, Heydər Əliyev parkı, Əcəmi, Dədə Qorqud seyrəngahları salınmış, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü və Heydər Əliyev adına məktəbin həyətində heykəli, Babəkin, Koroğlunun, Cəlil Məmmədquluzadənin, Əcəmi Naxçıvaninin heykəlləri, sənaye-istehsal kompleksləri yaradılmış, müasir tələblərə cavab verən «Qrand otel» və digər mehmanxanalar, restoranlar tikilmiş, beynəlxalq standartlara cavab verən hava limanı naxçıvanlıların istifadəsinə verilmiş, bir çox quruculuq işləri aparılmışdır. Bütün bunlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı, şəxsiyyəti və siyasi fəaliyyəti ilə bağlıdır.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Naxçıvanda radio 1932-ci ildə qovşaq kimi fəaliyyət göstərmiş, 1936-cı ildən isə muxtar respublikanın ərazisində tam yayımlanmağa başlanmışdır.

Televiziya 1963-cü ildən müstəqil kanal kimi Muxtar Respublika ərazisində və ondan kənarda yayımlanır.

Naxçıvan şəhərində Dövlət Radio və Televiziya Verilişləri Komitəsi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Radio-televiziya Ötürücüsü Mərkəzinin nəzdində isə «Kanal-35» televiziyası fəaliyyət göstərir.

2004-cü il iyulun 14-də yaradılmış «Kanal-35» televiziyası öz verilişlərini səkkiz saat elmi-publisist proqramla muxtar respublika ərazisinə yayımlayır.

2001-ci il sentyabr ayının 19-dan fəaliyyətə başlayan «Naxçıvanın səsi» radiosu 100.6 FM dalğasında on altı saat ərzində Muxtar Respublikanın bütün bölgələrində yayımlanır.

«Şərq qapısı» 1921-ci ildən ictimai-siyasi qəzet kimi dərc olunur. Təsisçisi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabinetidir.

Naxçıvan şəhər İcra Hakimiyyətinin orqanı olan «Nuh yurdu» qəzeti 1996-cı ildən nəşr olunur. Qəzet öz növbəsində Naxçıvan şəhərinin ictimai-siyasi həyatında özünəməxsus rol oynayır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Naxçıvan şəhərinin ərazisindən keçən avtomobil yolu birinci dərəcəli yol olmaqla uzunluğu 7 kilometrdir. Dəmir yolunun uzunluğu isə 1,6 kilometr olmaqla ikinci dərəcəli yoldur.

## Babək rayonu




**Ümumi ərazi – 0,76 min.kv.km**

**Əhalinin ümumi sayı – 77,8 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sixlığı - 1 kv. km 94 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı - 1**

**Kəndlərin sayı - 36**

**Ümumi məlumat**

Babək rayonu 1978-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə təşkil olunmuşdur. Rayon mərkəzi Naxçıvan şəhərindən 6 km cənub-şərq istiqamətində yerləşən Təzəkəndə köçürülür və buraya Babək qəsəbəsi adı verilir. Babək qəsəbəsi şəhər tipli qəsəbədir.

Babək rayonu qərbdə Kəngərli, şimal-şərqdə Şahbuz, şərqdə Culfa rayonları ilə cənubda İran İslam Respublikası, şimal-qərbdə Ermənistanla həmsərhəddir. Mərkəzi Babək qəsəbədir.

Rayona Babək qəsəbəsi və Nehrəm, Çeşməbasar, Güznüt, Qoşadizə, Tumbul, Şəkərabad, Hacıvar, Badaşqan, Yarımca, Qahab, Zeynəddin, Kərimbəyli, Kültəpə, Sirab, Qaraqala, Məzrə, Xalxal, Vayxır, Aşağı Buzqov, Yuxarı Buzqov, Gərməçataq, Paiz, Gülşənabad, Cəhri, Nəzərabad, Didivar, Yuxarı Uzunoba, Aşağı Uzunoba, Xəlilli, Şıxmahmud, Qaraxanbəyli, Hacıniyyət, Araz, Nəcəfəlidizə, Naxışnərgiz, Qaraçuq, Bulqan, Məmmədrza Dizə, Oruc Dizə kəndləri daxildir.

Rayonun relyefi şimalda Dərələyəz silsiləsinin cənub yamacından, cənub-şərqdə Zəngəzur silsiləsindən ayrılmış qollardan olan təpələrdən və yüksəkliklərdən, cənubda Naxçıvan maili düzənliyindən, cənub-şərqdə Gülüstan düzənliyindən ibarətdir. Rayonun ən yüksək zirvəsi Buzqov dağıdır (2475 *m).* Düzənliklərdə Antropogen, dağlarda isə, əsasən, Neogen çöküntüləri yayılmışdır. Rayonun ərazisi faydalı qazıntılarla (daşduz, tikinti materialları və s.) zəngindir. Burada Sirab, Vayxır, Cəhri, Qahab və s. mineral su bulaqları var.

Rayonun iqlimi cənubda yayı quraq keçən isti, qışı soyuq keçən yarımsəhra və quru çöl tiplidir. Şimalda isə yayı quraq keçən isti, qışı soyuqdur. Orta temperatur yanvarda -10°C-dən -3°C-yədək, iyulda 15-28°C, mütləq maks. temperatur 43°C, mütləq min. temperatur -30°C-dir. İllik yağıntı 200-600 *mm*-dir.

Rayonun əsas çayları Araz, Naxçıvançay və onun qolu Cəhriçaydır. Rayonda Araz qovşağının su anbarı, Uzunoba, Nehrəm, Sirab, Cəhri, Qahab su anbarları və suvarma kanalları var.

Boz və çəmən-boz, şimalda, əsasən, dağ-şabalıdı torpaqlar yayılmışdır. Yarımsəhra və səhra, dağlıq kserofit bitki örtüyü inkişaf etmişdir. Heyvanları: canavar, tülkü, ərəbdovşanı, kirpi, kələz, gürzə, əqrəb, büvə. Quşları: dovdaq, Xəzər uları və s. Araz qovşağının su anbarında çoxlu balıq var.

Rayon iqtisadiyyatında emal və sənaye müəssisələri, xörək duzu, mineral su və tikinti materialları istehsalı, taxılçılıq, üzümçülük, meyvəçilik, bostançılıq, tərəvəzçilik mühüm yer tutur.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Rayonda Babək rayon İcra Hakimiyyətinin orqanı olan "Şərqin səhəri" qəzeti 1979-cu ildən nəşr olunur.

Bundan əlavə, rayon ərazisində Azərbaycan Dövlət televiziya və radiosu yayımlanır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Babək rayonu ərazisindən keçən avtomobil yolları respublika əhəmiyyətli və yerli əhəmiyyətli yollara aiddir. Respublika əhəmiyyətli yollar 166,5 km, yerli əhəmiyyətli yollar isə 267,5 km-dir.

Rayon ərazisindən Ordubad-Şərur dəmir yolu keçir. Burada birinci və ikinci Dərəşam, Nehrəm stansiyaları vardır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Babək rayonunun ərazisi tarixi arxeoloji abidələrlə zəngindir. Buranın təbii coğrafi mövqeyi rayonda əkinçi-maldar tayfaların qədim dövrlərdən məskunlaşmasına və uzun müddət yaşamasına şərait yaratmışdır. I Kültəpə və II Kültəpə kimi dünya miqyaslı abidələr Babək rayonu ərazisindədir.

I Kültəpə Babək rayon mərkəzindən 14 km şimalda, Kültəpə kəndi ərazisində, Naxçıvançayın sol sahilində yerləşir. Eneolit - ilk Dəmir dövrünə, e. ə. IV minillik - e. ə. I minilliyin əvvəlinə aid yaşayış yeridir. İlk dəfə 1904-cü ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış, əldə olunmuş materialların bir qismi 1905-ci ildə Tiflis Qafqaz muzeyinə verilmişdir. Qazıntılar sonralar davam etdirilmiş 22,2 m qalınlığında 4 mədəni təbəqə öyrənilmişdir. Qalınlığı təqribən 9 m olan alt təbəqədən Eneolit dövrünə aid dairəvi planlı, bünövrəsi çay daşları və gil məhlulu, divarları möhrə palçıqla hörülmüş yaşayış binaları, təsərrüfat tikililəri, ocaq və qəbirlər aşkar edilmişdir. Burada tək, qoşa və kollektiv dəfn olunmuş qəbirlər aşkar edilmiş, qəbirlərdə məişət avadanlıqları, əmək alətləri, bəzək əşyaları tapılmışdır. Eyni zamanda Yaxın Şərq ölkələrindən gətirilmiş boyalı qablar tapılmış, 9,5 m qalınlığında olan 2-i təbəqədən Tunc dövrünə (e. ə. III minillik) aid yaşayış binaları, alət və avadanlıqlar, yarma naxışlı və cızma bəzəkli cilalanmış boz və qara saxsı qablar, heyvan fiqurları, kömürlənmiş arpa, buğda, darı əldə edilmişdir. Qalınlığı 2 m olan mədəni təbəqədən orta və son Tunc dövrünə aid materiallar əldə edilmiş, qalınlığı 1,5 m olan 4-cü təbəqədən isə ilk Dəmir dövrünə aid nümunələr tapılmışdır. Bütün bu tapıntılar Kür-Araz mədəniyyəti üçün səciyyəvidir. Burada tapılmış Polixram boyalı qablar bədii tərtibatına görə nəinki Azərbaycanın, eləcə də qədim dünyanın ən nadir incəsənət nümunələri sayıla bilər.

II Kültəpə abidəsi Babək rayon mərkəzindən 16 km şimalda, Didivar və Yuxarı Uzunbora kəndlərinin yaxınlığında, Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə yerləşir. Bura e. ə. IV-I minilliklərə aid yaşayış yeridir. Qalınlığı 14 m olan 4 mədəni təbəqə öyrənilmiş, Kür-Araz mədəniyyətinə aid edilmiş alt

təbəqədən dairəvi yaşayış binaları, müdafiə divarı, təsərrüfat tikililəri, daş, tunc, sümükdən əmək alətləri, gil qablar, kömürləşmiş taxıl qalığı, heyvan sümükləri aşkar edilmişdir. 2-ci təbəqədən isə dulusçuluq emalatxanaları, dulus kürələri, metaləritmə sobasının qalıqları tapılmış, metal emalı ilə bağlı alətlər, təsərrüfat alətləri, tikililər üzə çıxarılmışdır. Buradan tapılmış maddi mədəniyyət nümunələri o dövrdə Yaxın Şərq ölkələri ilə iqtisadi, mədəni əlaqələrin olduğunu sübut edir.

Babək rayonu ərazisində, rayon mərkəzindən 28 km şimal-qərb istiqamətində, Payız kəndi yaxınlığında, Cəhriçayın sağ sahilində, təbii cəhətdən əlverişli mövqedə, tunc dövrünə aid Çalxanqala qala abidəsi yerləşir. Qala hündür dağ üstündədir. Çalxanqala abidəsi böyük daş divarlarla əhatə olunmuşdur. Buranın e. ə. II minillikdə təşəkkül tapmış iri tayfa ittifaqının əsas müdafiə qalası olduğu ehtimal olunur. Arxeoloji qazıntılar zamanı xeyli maddi mədəniyyət nümunələri tapılmışdır.

Rayon mərkəzindən 4 km cənub-qərbdə Araz çayı sahilində hərbi istehkam tipli Abbasabad qalası mövcud olmuş, qala 1809-1810-cu illərdə fransız hərbi mütəxəssislərinin layihəsi əsasında tikilmiş, beşbucaq şəklində olan qala bürcləri müdafiə xarakteri daşımışdır. Qala su arxı ilə əhatə olunmuş, dəfələrlə döyüş meydanına çevrilmişdir. Araz su anbarı tikilən zaman qalanın qalıqları su altında qalmışdır.

Bundan başqa rayon ərazisində elmi əhəmiyyətə malik Eneolit, Tunc, Dəmir dövrünə və Antik dövrə aid arxeoloji abidələr, qədim duzdağ yatağı, orta əsrlərə aid yaşayış yerləri, nekropollar, maddi mədəniyyət qalıqları və onlarla digər arxeoloji, tarixi, memarlıq abidəsi, zəngin materiallar aşkara çıxarılmış və tədqiq edilmişdir. Son illər rayonun Çeşməbasar kəndində «Heydər» məscidi, Nehrəm, Qahab, Zeynəbbin, Cəhri, Sirab kəndlərində və Babək qəsəbəsində memarlıq baxımından gözəl məscidlər inşa edilmişdir.

Rayonun mərkəzində Babəkin heykəli, Şəhidlərin abidə kompleksi, Nehrəmdə şəhidlər abidə kompleksi, Çeşməbasarda Şəhid bulağı, Tumbulda Böyük Vətən müharibəsi iştirakçılarının xatirə abidəsi ucaldılmışdır.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

**Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar erməni işğalçılarının 1990-1991-ci illərdə Babək rayonunun Yuxarı Buzqov və Gərməçataq kəndlərinə hücumu zamanı burada olan mədəniyyət müəssisələrinə xeyli ziyan dəymiş, onların binaları uçmuş, kitabxana fondları dağıdılmış və yanmışdır.

Yuxarı Buzqovda kitabxana binası, Aşağı Buzqovda mədəniyyət evi, Gərməçataq kəndində klub və kitabxana binaları dağıdılmışdır.

Bununla yanaşı həmin kəndlərdə əhaliyə məxsus yaşayış evləri və ictimai binalar yandırılmış və top mərmiləri ilə dağıdılmışdır.

## Culfa rayonu




**Ümumi ərazi – 1,00 min.kv.km**

**Əhalinin ümumi sayı – 48,0 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı - 1 kv. km 52 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhərin sayı - 1**

**Kəndlərin sayı - 22**

### Ümumi məlumat

Culfa Naxçıvan Muxtar Respublikasının qədim şəhərlərindən biridir. Tarixi mənbələrdə Culfa şəhərinin salınması bizim eranın VI əsrinə aid edilir.

Ehtimala görə «Culfa» sözü orta əsrlərdə cükki tacir təşkilatının adı ilə əlaqədardır. Culfanın adı bəzi mənbələrdə Culağ kimi də çəkilir. Qədim Culfanın xarabalığı indiki Culfa şəhərindən 3 km aralıdadır. Burada yaşayış binaları, qala divarları, karvansara, bazar və dini binaların qalıqları, qədim qəbiristanlıq aşkar edilmişdir. 1939-1940-cı illərdə Culfa şəhərində aparılan arxeoloji qazıntılar zamanı tunc dövrünə aid monoxrom və polixrom boyalı gil qablar, tunc xəncər, ox və nizə ucluqları, toppuz, bilərzik, boyunbağı və s. tapılmışdır. Tranzit karvan yolu üzərində yerləşən Culfa daim mühüm rola malik olmuş, regionun iqtisadi əhəmiyyəti artmışdır. IX-XII əsrlərdə Culfada sənətkarlıq və ticarət daha da inkişaf etmişdir. XI əsrin ikinci yarısından etibarən beynəlxalq ipək ticarətində mühüm rol oynamağa başlamışdır. Həmin dövrdə Culfada təqribən 3000 ev mövcud idi (15-20 min əhali yaşayırdı). Culfa tacirləri Rusiya, şərq ölkələri, Venesiya, Marsel və s. Avropa şəhərləri ilə ipək ticarəti edirdilər.

Culfa rayonu Naxçıvan Muxtar Respublikasında inzibati rayon kimi 1930 ildə təşkil edilmişdir. Şimal-şərqdə Ermənistanla, cənubda isə İranla həmsərhəddir. Mərkəzi Culfa şəhəridir.

Rayona Culfa ş. və Yaycı, Dizə, Əbrəqunis, Bənəniyar, Ərəzin, Camaldin, Saltax, Göydərə, Xanəgah, Əlincə, Xoşkeşin, Milax, Teyvaz, Qazançı, Nəhəcir, Göynük, Ərəfsə, Ləkətağ, Boyəhməd, Kirnə, Qızılca, Şurud, Gal, Gülüstan kəndləri daxildir.

Rayonun Ermənistan Respublikası ilə sərhədi boyu Zəngəzur silsiləsi uzanır. Silsilə Araz çayına doğru alçalaraq Arazboyu düzənliklərə (Culfa düzənliyi və s.) keçir. Rayonun ən yüksək nöqtəsi Dəmirlidağdır (3364 *m).* Tabaşir-Neogen çöküntüləri geniş yayılmışdır. Faydalı qazıntıları: mərgmüş, gəc, gips və s. Mineral sular (Darıdağ, Nəhəcir və s.) çıxır. Ərazinin çox hissəsində yayı quru isti, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temperatur yanvarda -10°C-dən -3°C-yədək, iyulda 19-28°C-dir. İllik yağıntı 200-600 *mm*-dir.

Rayonun əsas çayları Əlincə və Qaradərədir. Əlincə çayı üzərində faydalı həcmi 13 mln. $m^3$ olan Bənəniyar su anbarı inşa olunmuşdur (1982-87). Bunun hesabına 6 min *ha* sahə əkin dövriyyəsinə daxil

edilmişdir. Rayonun torpaqları, əsasən, dağ-çəmən, qəhvəyi, dağ-meşə, dağ-şabalıdı, boz, çəmən-boz torpaqlarından ibarətdir. Səhra, yarımsəhra, dağ bitkiləri və subalp çəmənləri yayılmışdır. Enliyarpaqlı dağ meşələrinə (palıd, fıstıq, vələs) rast gəlinir. Muflon, qaya keçisi, canavar, tülkü, boz dovşan, ular və s. məskunlaşmışdır.

Culfa, əsasən, üzümçülük və heyvandarlıq rayonudur. Taxılçılıq inkişaf etmişdir. Karbon qazı zavodu, gəc sexi, kənd təsərrüfatı və dəmiryol texnikası təmiri müəssisələri, yüksək gərginlikli elektrik transformatorlarının sarğısı sexi fəaliyyət göstərir.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Culfa Rayon İcra Hakimiyyətinin orqanı olan «Arazın səsi» qəzeti 1935-ci ildən nəşr olunur.

Bundan əlavə, rayon ərazisində Azərbaycan televiziyası və radiosu yayımlanır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Culfa rayonunun ərazisindən keçən dəmir yolunun uzunluğu 85 kilometrdir. Həmin dəmir yolu birinci kateqoriyaya aiddir.

Avtomobil yolunun uzunluğu isə 273 kilometrdir. Ondan 100 kilometri ikinci dərəcəli kateqoriyaya və 9 kilometri isə 3-cü dərəcəli kateqoriyaya aiddir. Avtomobil yollarının 164 kilometri isə rayon daxili yollardır.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

**Memarlıq abidələri**

Gülüstan türbəsi: Gülüstan kəndi yaxınlığında yerləşir. XIII əsrin əvvəllərinə aiddir.

Daş körpü: Ərəfsə kəndindən şimal-şərqdə Əlincəçayın üzərində yerləşir. Orta əsrlərə aiddir.

Ərəfsə piri: Culfa rayonunun Ərəfsə kəndində Əlincəçayın sol sahilindəki təpənin üstündə yerləşir. Orta əsrlərə aiddir.

Əlincəçay Xanəgahı memarlıq kompleksi: Xanəgah kəndində, Əlincəçayın sahilində yerləşir. Orta əsrlərə aiddir.

Xanəgah türbəsi: Xanəgah kəndində, Əlincəçayın sahilində yerləşir. Orta əsrlərə aiddir.

Kırna cümə məscidi: Kırna kəndində yerləşir.

Nəiminin türbəsi: Culfa rayonunun Xanəgah kəndi yaxınlığında yerləşir. Məşhur mütəfəkkir və şair Fəzlullah Nəiminin məzarı üzərində yaradıldığı üçün Nəimi türbəsi adlandırılmışdır. Orta əsrlərə aiddir.

**Tarixi abidələr**

Əshabi-Kəhf: adı Quranda çəkilən bu abidə Culfa rayonu ərazisində İlandağ ilə Nəhəcir dağı arasında yerləşir. Bizim e. ə. VII minilliyə aiddir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tapşırığı

və himayəsi ilə Əshabi-Kəhfdə abadlıq və bərpa işləri aparılmış, zəvvarlar üçün yaxşı şərait yaradılmış, 13 km məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdur.

Qazançı qalası: Culfa rayonunun Qazançı kəndindən şimalda, Əlincəçayın hər iki sahilində yerləşir. E. ə. II-I minilliyin əvvəllərinə aiddir.

Qazançı körpüsü: Culfa rayonunun Qazançı kəndində yerləşir. XV-XVI əsrlərə aiddir.

Şeyx Xorasan Xanəgahı: Xanəgah kəndi yaxınlığında, Əlincə qalasının ətəyində yerləşir. Orta əsrlərə aiddir.

Əlincə qalası: Culfa rayonunun Xanəgah kəndində Əlincəçayın sağ sahilində eyni adlı dağın zirvəsindədir. Tarixi qaynaqlara əsaslanan tədqiqatçılar Əlincə qalasının tikilmə tarixinin III-VII əsrlərə aid olduğunu söyləyirlər.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

# Kəngərli rayonu




**Ümumi ərazi – 0,70 min.kv.km**

**Əhalinin ümumi sayı – 33,5 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sixlığı - 1 kv. km 48 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı - 1**

**Kəndlərin sayı - 10**

## Ümumi məlumat

Kəngərli rayonu qədim Kəngərlililərin məskunlaşdığı ərazidə yaranmışdır.

Azərbaycan ərazisində kəngərli tayfaları Naxçıvanda Şərur rayonunun (Hal-hazırda Kəngərli rayonunun ərazisidir) ərazisində Arazboyu maili düzənlikdə məskunlaşmışlar.

Kəngərlilər qədim türkdilli tayfalardandır. «Kəngər» sözü Aral və Baxış gölləri arasında ortaya çıxmışdır. Kəngərli tayfalarının bir qismi IV-V əsrlərdə Hunların tərkibində Azərbaycana gəlmişdir.

XV-XVI əsrlərdə Naxçıvan diyarı Qaraqoyunlu və Ağqoyunlu feodal dövlətlərinin hakimiyyəti altında olmuş və XVI əsrdə Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil olmuşdur. Bu dövrdə Səfəvi şahları Naxçıvan ölkəsinin idarə edilməsi hüququnun özlərinin ən güclü dayaqlarından olan Kəngərli tayfa başçılarına vermişdilər. Kəngərli tayfa başçıları Naxçıvanın irsi hakimləri olaraq Naxçıvanı XIX əsrin 40-cı illərinə qədər idarə etmişlər.

İndiki Kəngərli rayonu ərazisi Kəngərlilərin yaşadığı qədim ərazi Arazboyu düzənlikdən şimal-qərbdən cənub-şərqə doğru uzanır. Bura Kəngərli düzü adlanır.

Rayon şimal və şimal-şərqdən Dərələyəz dağ silsiləsinin qolları ilə əhatələnərək cənubdan Araz çayına doğru istiqamətlənir.

Kəngərli rayonu ərazisində qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji abidə var. Bu abidələr qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar, kurqanlar və memarlıq abidələrindən ibarətdir.

Kəngərlilər tayfasının Azərbaycan xalqının etnogenezinin formalaşmasında böyük rolu olmuşdur. Səfəvilər dövlətinin dövründə Kəngərlilər dövlətin daxili və xarici siyasətində və işlərində fəal iştirak etmişlər.

XVIII əsrin II yarısında Kəngərli hakimlərinin əksəriyyəti Azərbaycanda yüksək titullar daşımışdır.

Kəngərlilərin tarixini qiymətləndirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gerçəkləşdirdi.

Ölkə Prezidentinin qayğısı ilə 19 mart 2004-cü il tarixdə «Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Kəngərli rayonu cənub və cənub-qərbdə İran, şimal-şərqdə Ermənistanla həmsərhəddir. Mərkəzi Qıvraq qəsəbədir.

Rayona Qıvraq qəsəbəsi və Qarabağlar, Qabıllı, Yurdçu, Şahtaxtı, Çalxanqala, Xok, Yeni Kərki, Böyükdüz, Təzəkənd, Xincab kəndləri daxildir.

Rayonun ərazisi şimal və şimal-şərqdən Dərələyəz silsiləsi ilə əhatələnərək cənubdan Araz çayına doğru uzanır. Arazboyu sahə Kəngərli düzü adlanır. Ərazidəki Keçəltəpə (2744 *m),* Qaraquş (2600 *m),* Anabadgədik (2081 *m)* Qabıllı (1125 *m*), Xok (1063 *m),* Tənənəmdağ (1007 m), Tazıuçan (935 m), Binədüzü (885 *m)* dağları Dərələyəz silsiləsinin zirvələridir.

Tabaşir-Antropogen çöküntüləri yayılmışdır.

Rayon ərazisində bir çox faydalı qazıntı, o cümlədən əhəngdaşı və travertin yataqları vardır. Şahtaxtı-Xok daş karxanaları buradadır.

Rayonun iqlimi kontinentaldır. Orta temperatur yanvarda -6°C-dən -3°C-yədək, iyulda 20-28°C-dir.

Əsas çayları Lizbirt və Cəhridir. Çayların əksəriyyəti yay aylarında quruyur. Araz su anbarı rayonun cənubundadır.

Boz, çəmən-boz və dağ-şabalıdı torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yovşanlıqdan ibarətdir.

Heyvanları: canavar, tülkü, ərəbdovşanı, kirpi, kələz, əqrəb və s. Quşları: dovdaq, ular və s. Araz su anbarında balıq var.

Rayonun təsərrüfatında taxılçılıq, tərəvəzçilik, şəkər çuğunduru istehsalı və heyvandarlıq mühüm yer tutur.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Kəngərli rayon icra hakimiyyəti orqanı olan “Yeni Həyat” qəzeti nəşr olunur.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisində olan avtomobil yollarının ümumi uzunluğu 148,5 km-dir.

O cümlədən, respublika əhəmiyyətli yolların uzunluğu 71 km, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 77,5 km-dir.

Rayon ərazisində yerləşən Azərbaycan Dövlət Dəmir Yolu Naxçıvan Hissəsi 2-ci kateqoriya dəmir yolunun ümumi uzunluğu 30,2 km-dir və aşağıdakı stansiyalar var:

1. Qarğalıq stansiyası 2. Şahtaxtı stansiyası 3. Qıvraq stansiyası 4. Başbaşı stansiyası

**Tarixi və memarlıq abidələri haqda məlumat**

1. Qarabağlar türbəsi - Kəngərli rayonunun Qarabağlar kəndində yerləşir, XIV əsr abidəsidir. Qoşa minarənin XII əsrin sonu, XIII əsrin əvvəllərində tikildiyi güman olunur. Minarəni bir-birinə bağlayan

baştağın üzərində nəsx xətti ilə yazılmış kitabə bu türbənin Elxanı hökmdarı Hülakü xanın arvadı Quti xatunun şərəfinə tikildiyini göstərir. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı Qarabağlar türbəsinin yerüstü kompozisiyasını əmələ gətirir. Türbənin kitabələrinin bəzi hissələri dağıldıqdan onun tarixini dəqiq müəyyən etmək mümkün deyil. Bu nadir memarlıq abidəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayğısı və himayəsi ilə restavrasiya edilmişdir.

2. Qıvraq məscidi və hamamı - Qıvraq məscidi XVIII əsrin əvvəllərində inşa edilmişdir. 300 ilə yaxın tarixi olan bu memarlıq abidəsi kimi bu gün də qorunur.

Hamam - Qıvraq qəsəbəsində XIX əsrin əvvəllərində tikilib inşa edilmişdir.

3. Çalxanqala abidə divarları - Bu divar memarlıq-incəsənət abidələrinin qalıqlarıdır. Tunc dövrünə aid, Cəhri çayının sağ sahilində hündür təpə üzərindədir. İri qaya daşlarından, bərkidici məhlullar işlədilmədən, hörülmüşdür. Tun dövrü siklop tikililərə aid olan Çalxanqalanın dövrümüzədək gəlib çatmış divarlarının uzunluğu 450 metr, hündürlüyü 2,5-3 metr, eni 2,7-3 metrdir. Ehtimal olunur ki, Çalxanqala divarları b. e. ə. II minillikdə təşəkkül tapmış iri tayfa ittifaqlarının əsas müdafiə qalası olmuşdur.

Kəngərli rayonu ərazisində Çalxanqala divarları ən qədim tarixi-memarlıq abidəsidir.

4. Çalxanqala türbəsi - 1978-ci ildə Naxçıvanın arxeoloji ekspedisiyası türbəni (mədəni türbə) aşkar etmişdir. Aşınma nəticəsində mədəni türbə dağıdılmışdır. Tədqiqat zamanı zəngin materiallar üzə çıxarılıb, məlum olub ki, bu türbənin divarları kül qarışıq gil laylarından ibarət olub.

5. Şahtaxtı Govur qalası - b. e. ə. III-I minilliyə aid abidədir. Qalanın tarixi son tunc - ilk dəmir dövrünə aid edilir. Haliyyədə qala divarlarının qalıqları mühafizə olunur.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

## Ordubad rayonu




**Ümumi ərazi – 0,98 min.kv.km**

**Əhalinin ümumi sayı – 50,7 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sixlığı - 1 kv. km 52 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhərlərin sayı - 1**

**Qəsəbələrin sayı - 3**

**Kəndlərin sayı - 43**

**Ümumi məlumat**

Ordubad çox qədim tarixə malik, özünün milli-mənəvi dəyərləri ilə seçilən rayondur. Kiçik Qafqaz sıra dağlarının Qapıcıq zirvəsinin ətəklərində yerləşir. Relyefi əsasən dağlıq, az bir hissəsi dağətəyi, 5-6 faizi isə aran ərazidən ibarətdir. Son dərəcə zəngin bitki florası və faunası vardır. Yaşayış məntəqəsi əsasən dağətəyi ərazidə yerləşir. Əkinçilik üçün su ehtiyatına və içməli su mənbələrinə malikdir.

Cənubdan İran İslam Respublikası, şimaldan və şərqdən Ermənistanla həmsərhəd olmaqla, qərbdən Culfa rayonu ilə qonşudur. Mərkəzi Ordubad şəhəridir.

Ordubadın salındığı dəqiq tarix müəyyənləşdirilməmişdir. Lakin bu ərazi dünyada ən qədim insan məskənlərindən biri, bəşəriyyətin yaranma ocağı sayılır. Ordubad adına ilk dəfə V əsr yazılı mənbələrində təsadüf olunur. Qədim dünyanın ən müqəddəs panteonlarından biri sayılan Gəmiqaya dağı da Ordubaddadır. Dağın üzərindəki təsvirlər və buradakı yurd yerləri Ordubad ərazisində e. ə VII-I minilliklərdə yaşamış qədim əhalinin həyat tərzini və mədəni inkişaf yollarını izləməyə imkan verir. Ordubadın yaşayış məntəqələrindən olan Sabirkənd, Plovdağ və Xaraba Gilan ərazisində e. ə. II-I minilliklərə aid mədəniyyət qalıqları ilə zəngin olan yaşayış yerləri və nekropollar mövcuddur. Bu da Ordubadın 7 min il yaşı olduğunu sübut edir.

XVIII əsrin əvvəllərində Ordubad Səfəvilər imperiyasının tərkibinə daxil idi. 1724-cü ildən Ordubad Osmanlıların, daha sonradan işə Nadir şahın hakimiyyəti altına keçmişdir. XX əsrin əvvəllərində erməni terrorunun qurbanı olan minlərlə Ordubad sakinləri çoxlu işgəncələrə məruz qalmışlar.

Ordubadın möcüzəli təbiəti, sirli aləmi və təbii gözəlliyi XIX-XX əsrlərdə buraya səyahət etmiş bir sıra səyyahların marağına səbəb olmuşdur. Rus alimi İ. Şopen, polyak tədqiqatçı A. Petzold, fransız yazıçısı A. Düma və başqaları öz yazılarında bu gözəlliyi vəsf etmiş, Ordubada heyran qaldıqlarını bildirmişlər.

Ordubad torpağı təkcə əsrarəngiz gözəlliyi ilə deyil, həm də məşhur adamları, sənətkarları, dünya şöhrətli alimləri ilə də seçilib fərqlənmişdir. Məşhur astronom alim, riyaziyyatçı, şair, dövlət xadimi, Nəsrəddin Tusi Məhəmməd ibn Həsənin törəmələri hazırda Ordubadda yaşayırlar. Məşhur dövlət xadimi, şair, I Şah Abbasın baş vəziri olmuş Hatəm bəy Ordubadi də Tusi nəslinə mənsub olmuşdur. XIX əsrdə Nəcəf şəhərində Ayətullah Məhəmməd Əli Gələvi Ordubadinin ərəb dilinin qrammatikasına aid yazdığı kitablar bütün şərq aləmində məşhurdur.

Mühüm ticarət yolu ayrıcında yerləşən Ordubad Yaxın və Orta Şərq ölkələri ilə ticarət əlaqələri saxlamışdır. Vaxtilə rayonda 40 növdə üzüm yetişdirilirdi. Hələ XVI əsrin ikinci yarısından başlayaraq Ordubaddan Venesiyaya, Marsel, Amsterdam və. s. Avropa şəhərlərinə ipək ixrac olunurdu. XX əsrin əvvəllərində keçirilmiş beynəlxalq sərgi və baxışlarda Ordubad ipəyi 13 dəfə qızıl medalla təltif edilmişdir.

Hazırda Şərq aləminin canlı muzeyi hesab olunan Ordubad öz tarixini və dünya mədəniyyətinə bəxş etdiyi töhfələri ləyaqətlə qoruyaraq nəsillərdən-nəsillərə ötürür.

Memarlıq quruluşu və tarixi abidələrinə görə Ordubad 1977-ci ildə qoruq-şəhər elan olunmuşdur.

Tariximizin müxtəlif məqamlarında Ordubad rayonu da başqa ərazilər kimi yadellilərin hücumuna məruz qalmış, ayrı-ayrı dövlətlərin işğalı altında olmuş, lakin bu torpağa məxsus mənəvi dəyərlər itirilməmişdir. Tabeçilik cəhətdən müxtəlif vaxtlarda ayrı-ayrı ərazi bölgüsünə daxil olmasına baxmayaraq rayonun adı dəyişilməmiş, toponiminə xələl gəlməmişdir. Sovetlər birliyinin 30-cu illərində inzibati bölgüdə rayon statusu almış və bu günə qədər öz adını saxlayır. Bu torpağın başqa bir xüsusiyyəti vardır. Adamları emosionaldır. Yeniliyə can atır, dini dəyərləri də möhkəm müdafiə edib nəsildən-nəslə çatdırırlar.

Rayon ərazisində müxtəlif vaxtlarda ayrı-ayrı ekspedisiyalar bu yaşayış məskəninin tarixini, etnoqrafik xüsusiyyətlərini öyrənmək üçün Ordubad şəhərində, Əylis, Unus, Pəzməri, Aza kəndlərində, Xarabagilan ərazisində, Gəmiqaya qədim yaşayış məskənində və digər yerlərdə tədqiqat işləri aparmışlar. Bu tədqiqatlar, arxeoloji axtarışlar bu gün də davam edir. Tədqiqatlar sübut edir ki, Ordubad rayonu zəngin milli dəyərlərə malik olan bir ərazidir. Bu gün də bu rayon özünün yüksək intellektli ziyalıları, zəhmətsevər insanları, dövlətçiliyə sədaqətli əhalisi ilə tanınır. Bu səbəbdəndir ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev Ordubadı Azərbaycanın incisi adlandırmışdır.

Rayona Ordubad şəhəri, Şəhriyar, Parağaçay, Ağdərə qəsəbələri və Nüsnüs, Yuxarı Əndəmic, Aza, Aşağı Əndəmic, Yuxarı Əylis, Aşağı Əylis, Vənənd, Xanağa, Ağrı, Dizə, Vələver, Qoruqlar, Dəstə, Dırnıs, Çənənəb, Üstüpü, Məzrə, Biləv, Behrud, Qoşadizə, Baş Dizə, Parağa, Gilançay, Tivi, Bist, Nəsirvaz, Ələhi, Xurs, Nürgüt, Düylün, Unus, Kələki, Pəzməri, Gənzə, Kotam, Başkənd, Darkənd, Kələntər Dizə, Kilit, Anaqut, Azadkənd, Sabirkənd, Anabad kəndləri daxildir.

Ərazisinin çox hissəsini Zəngəzur silsiləsinin cənub-qərb yamacı tutur. Cənubda Arazboyu düzənliklər (Ordubad düzü və s.) uzanır. Naxçıvan MR-in ən yüksək nöqtəsi olan Qapıcıq dağı (3904 *m)* buradadır. Rayonda Tabaşir-Antropogen çöküntüləri geniş yayılmışdır. Faydalı qazıntıları: polimetallar,

molibden, mis, tikinti materialları və s. Yayı quraq keçən soyuq iqlimi var. Orta temperatur yanvarda -10°C-dən -3°C-yədək, iyulda 10-25°C-dir. İllik yağıntı 300-800 *mm*-dir. Ən böyük çayları: Vənənd, Ordubad və s. İranla sərhəd boyu Araz çayı axır. Boz, çəmən-boz, allüvial-çəmən, dağ-şabalıdı, qəhvəyi dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Arazboyu düzənliklər və qismən alçaq dağlıq sahələr dağ-kserofit bitkiləri, yüksək dağlıq sahələr subalp və Alp çəmənləri ilə örtülüdür. Bəbir, Cənubi Qafqaz muflonu, qayakeçisi, daşlıq dələsi, boz kəklik, ular və s. var.

Ordubad, əsasən, kənd təsərrüfatı rayonudur. Meyvəçilik və maldarlıq mühüm yer tutur.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Rayon İcra Hakimiyyətinin orqanı olan «El həyatı» qəzeti 1932-ci ildən nəşr olunur. 1932-ci ildən «Ordubad fəhləsi», 1941-ci ildən «Ordubad işçisi» adı ilə çıxmağa başlamışdır. 1959-cu ildən 1965-ci ilin sonuna kimi fəaliyyət göstərməmişdir. 1966-cı ildən «Yeni Ordubad», 1990-cı ildən isə «El həyatı» adı ilə nəşr olunur.

Rayon ərazisində Azərbaycan Televiziyası, Naxçıvan Televiziyası, «Kanal-35» televiziyası yayımlanır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisindən keçən dəmir yolunun uzunluğu: I kateqoriya - 45 km, II kateqoriya « 10 km, III kateqoriya - 12 km.

Naxçıvan-Ordubad magistral avtomobil yolunun uzunluğu Culfa rayonundan Ordubad şəhərinədək 25 km-dir.

Rayon ərazisindən kəndlərə gedən avtomobil yolları I kateqoriya üzrə: Ordubad - Nüsnüs-5 km, Ordubad - Gənzə-6 km, Ordubad - Əylis-9 km, Ordubad - Kotam-5 km, Ordubad - Dəstə-11 km, Ordubad - Pəzməri-37 km, Ordubad - Məzrə-33 km, Ordubad - Azadkənd -19 km, Ordubad - Nürgüt-62 km, Ordubad-Parağaçay-54 km, Ordubad - Tivi-50 km.

Kəndarası magistral yollar da tərkibə daxildir. Bundan başqa bir çox kəndlərdə, eləcə də Şəhriyar, Parağaçay, Ağdərə qəsəbələrində II kateqoriyalı keçid yolları vardır ki, bunların uzunluğu birlikdə 240-km-dir. Son illərdə rayon ərazisində avtomobil yollarının abadlığına, yenidən qurulmasına diqqət artırılıb.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayonun ərazisində miqyasına görə irili-xırdalı 100-dən artıq tarixi-memarlıq incəsənət abidələri və arxeoloji abidələr mövcuddur. Onların 30-dan çoxu dövlət tərəfindən qorunur.

Onlardan Ordubad şəhərindəki orta əsrlərə aid «Sərşəhər məscidi», «Anbars məscidi», «Qeysəriyyə», «Cümə məscidi», «Mingis məscidi», «Təkeşiyi məscidi», 48 kəhriz, XVI əsrin tarixi yadigarı olan hamam binası, «Nüsnüs piri», «Vənənd məscidi», XVIII əsrin yadigarı, qədim «İpək yolu»nun üzərində olan Aza körpüsü, XVI əsrin arxeoloji qalıqları olan «Xarabagilan» qoruğu, akademik Y.

Məmmədəliyevin, böyük ədib M. S. Ordubadinin ev muzeyləri, Ordubad rayon Tarix Diyarşünaslıq muzey və s. mövcuddur.

Naxçıvan diyarında qədim insanın məskunlaşdığı əsas bölgələrdən biri olan Ordubad rayonunun ərazisi Daş dövründən başlayaraq orta əsrlərə qədərki abidələrlə zəngindir. Gəmiqaya qayaüstü təsvirləri dəniz səviyyəsində 3907 m yüksəklikdə yerləşən Qapıçıq zirvəsinin cənub və qərb yamaclarındakı Nəbiyurdu, Camışölən və Qaranquş yaylaqlarındadır. Qaya təsvirlərinin toplandığı başlıca bölgə Qaranquş yaylağıdır. Dünya mədəniyyətinin nadir incisi Gəmiqaya ən qədim yaşayış məskənlərindədir. Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Qapıcıq dağının cənub-şərq yamacındakı Qaranquş yaylağı ərazisi Eneolit, Tunc və ilk Dəmir dövrlərində Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri idi. Elə həmin dövrlərdə burada iri qaya parçaları üzərində heyvan rəsmləri, ov və rəqs səhnələri, müxtəlif işarələr və damğalar həkk olunmuşdur. Gəmiqayada aşkar edilmiş (1968) qədim təsviri sənət nümunələri e. ə. VI-I minilliklərdə Azərbaycan ərazisində yaşamış qədim əhalinin həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini, dini-ideoloji və estetik təfəkkürünün inkişafını izləməyə imkan verir. Qaranquş yaylağında, Gilançay vadisində Naxçıvan tayfalarının qədim yurd yerləri, yaşayış məskənləri, nekropollar və ibadətgahlar vardır.

Tədqiqatlar nəticəsində e. ə. II minillikdə Gilançay vadisinin Arazboyu düzənliklərlə qovuşduğu ərazidə əhalinin daha sıx məskunlaşdığı müəyyənləşdirilmişdir. Burada e. ə. II-I minilliklərə aid Sabirkənd, Plovdağ, Xarabagilan, Şomudərə, Xalı-Kaşan, Mərdangöl və s. mədəniyyət qalıqları ilə zəngin yaşayış yerləri və nekropollar mövcuddur. Bu ərazilər Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay və Gilançay vadisində yaşamış qədim əkinçi-maldar tayfaların yaylaq yerləri olmuşdur. Ordubad rayonu ərazisində Gilan, Biləv, Parağa, Tivi, Nəsirvaz, Xurs və s. kəndlərdə də Tunc, ilk Dəmir dövrlərinə, antik dövrə, həmçinin erkən orta əsrlərə aid maddi mədəniyyət qalıqları mövcuddur. Biləv kəndi yaxınlığında, Gilançayın sol sahilində yerləşən abidə xalq arasında Babək qalası, Gəmiqayada Qaranquş yaylağındakı qəbiristanlıq isə babəklilərin qəbirləri kimi tanınır.

Hazırda Tarix-Diyarşünaslıq muzeyi yerləşən Qeysəriyyə memarlıq abidəsi ən nadir incilərdəndir. Özünün arxitektura xüsusiyyəti, ornamenti, kompozisiya quruluşu, tərtibatı ilə seçilən Qeysəriyyə həmişə diqqəti cəlb edən bir obyekt kimi nəzərə çarpıb.

Şəhərdəki XVI əsrin yadigarı abidə-hamam da qiymətli memarlıq incəsənət abidələrindəndir. Şəhərdəki Əfqan qalası görüşünə, tikinti üslubuna görə diqqəti cəlb edir.

Nüsnüs kəndində böyük ziyarətgaha çevrilmiş XVI əsrin yadigarı olan Qırxkimsənə piri son illərdə xeyli abadlaşdırılmışdır. Pirə gedən yollar tam qaydaya salınıb. Respublikamızın bir çox rayonlarından, hətta bəzi xarici dövlətlərdən bu ziyarətgaha gələnlər xoş təəssürat almışlar.

Dəstə, Vənəd, Əylis, Nüsnüs və başqa kəndlərdə olan abidə məscidlər də təkcə dini ziyarətgah baxımından deyil, tikinti arxitektura xüsusiyyətlərinə görə də seçilir. Ordubad şəhərində və Əylis kəndində bir sıra bulaq abidələr vardır ki, onlar da dövlət tərəfindən mühafizə olunan obyektlərdəndir. Şəhərdəki «Qırxayaq», «Nəhər», Əylis kəndindəki «Xan çeşməsi», «Meydan çeşməsi» və «Bazar

çeşməsi» bu abidələr sırasına daxildir. Şəhərdəki «Mingis» qarşısında aşkar edilmiş 50 metr dərinliyi olan çeşmə də abidələr sırasına daxil edilmişdir. Ordubad şəhərində 600-dən yuxarı yaşı olan böyük çinar ağacları bura gələnləri valeh edir.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

***Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat***

1990-1992-ci illərdə Ermənistanın işğalçılığı nəticəsində Ordubad rayonunun Kilit kəndi Ermənistanın Mehri rayonu ərazisindən top atəşinə tutularkən 35 yaşayış evi və çoxlu yardımçı binalar, məktəb, mağaza, məscid və bir neçə tarixi abidə dağılmışdır.

## Sədərək rayonu




**Yaranma tarixi – 28.08.1990**

**Ümumi ərazi – 0,16 min.kv.km**

**Əhalinin ümumi sayı – 23,0 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sixlığı - 1 kv. km 105 nəfər (1 yanvar 2024-cü il)**

**Qəsəbələrin sayı - 1**

**Kəndlərin sayı - 3**

**Ümumi məlumat**

Sədərək rayonu 28 avqust 1990-cı ildə Şərur rayonunun tərkibindən ayrılaraq rayon statusu almışdır.

Mərkəzi Heydərabad qəsəbəsidir.

Sədərək rayonu cənub-qərbdən Türkiyə Cümhuriyyəti ilə (Türkiyə ilə Azərbaycanın həmsərhəd olduğu 15 km məsafə yalnız buradadır), şimal-qərbdən Ermənistan Respublikası ilə 24 km və cənub-şərqdən Şərur rayonu ilə 27 km həmsərhəddir.

Rayonun ərazisi əsasən düzənlikdən ibarət olub «Ucubiz, Əjdəkan, Vəlidağ və Tejqar» dağ silsilələri ilə əhatə olunmuşdur. Türkiyə ilə Sədərək arasında sərhəd boyu Araz çayı axır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1992-ci ildə Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən «Ümid» körpüsü tikildi, Gömrük keçid məntəqəsi yaradıldı. Türkiyədən Sədərəyə yüksək gərginlikli elektrik xətti çəkildi.

Sədərək rayonu Heydərabad qəsəbəsi, Sədərək, Qaraağac və Kərki kənd inzibati ərazi dairələrindən ibarətdir.

Heydərabad qəsəbəsinin əsası 1982-ci ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. 23 mart 2000-ci ildə qəsəbə statusu almışdır. Sədərək rayonunun mərkəzidir.

Qaraağac kəndi 1997-ci ildə Sədərək kəndindən ayrılmışdır. Qaraağac kənd icra nümayəndəliyi yaradılmışdır.

Kərki kəndi 1990-cı ildən işğal altındadır. Əhalisi məcburi köçkün kimi respublikamızın müxtəlif yerlərində məskunlaşmışdır.

1990-1993-cü illərdə erməni silahlı birləşməsi Sədərək üzərinə 14 dəfə güclü hücum etmiş, 1990-cı il yanvarın 16-da Kərki kəndi işğal olunmuş, Qanlı yanvar faciəsinin ilk şəhidləri Sədərəyin müdafiəsi zamanı verilmişdir (1990-1993-cü illərdə Sədərəyin müdafiəsində 108 nəfər şəhid olmuşdur).

Bu müddət ərzində 500 yaxın yaşayış evi, məktəblər, inzibati binalar dağıntılara məruz qalmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvanda yaşayıb, fəaliyyət göstərdiyi dövrdə digər sərhəd bölgələri kimi Sədərək də işğal təhlükəsindən xilas olmuşdur.

Ümummilli liderimiz Sədərəyi Naxçıvanın «Qeyrət qalası» adlandıraraq demişdir: «Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq Sədərəyin üzərinə düşmüşdür. Sədərəkdə vəziyyət tamam başqadır. Burada əsil müharibə gedib, atışmalar olub».

Sədərək rayonunda maili düzənlik Arazboyu düzənliklərdən biridir. Cənub-şərqdən Dəhnə və Vəli dağ yüksəklikləri ilə Şərur düzündən ayrılır. Şimal-qərbdən Ağrı düzənliyi ilə birləşir. Cənub-qərbdə Araza qovuşur. 800-940 metr yüksəkliyə malik olan Sədərək düzü cənuba və qərbdən-şərqə doğru meyillidir. Sədərək düzünün mərkəzi hissəsindən kənd təsərrüfatı məqsədləri üçün istifadə olunur.

Rayon ərazisində düzənlikdə müasir (allüvial-prolüvial), dağlıq hissədə Devon, qismən Tabaşir çöküntüləri yayılmışdır. Burada gil, mərmərləşmiş əhəngdaşı yataqları və təzahürləri, mineral su yataqları vardır. Quru kontinental iqlimə malikdir. Yayı isti, qışı soyuqdur. Ərazidən Qaraçay, Çapan çayı və Türkiyə sərhədi boyunca Araz çayı axır. Əsasən, boz torpaqlar yayılmışdır. Sədərək düzünün Arazyanı hissəsində çəmən-ot bitkiləri inkişaf etmişdir.

Sədərək, əsasən, kənd təsərrüfatı rayonudur. Taxılçılıq, üzümçülük, meyvə-tərəvəzçilik və maldarlıq inkişaf etmişdir.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Sədərək rayon İcra hakimiyyətinin orqanı olan «Oğuz yurdu» qəzeti 2000-ci ildən nəşr olunur. Rayon ərazisində Azərbaycan televiziya və radiosu, Naxçıvan televiziya və radiosu, «Kanal-35» televiziyası və «Naxçıvanın səsi» radiosunun verilişləri yayımlanır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Sədərək rayonundan Vəli dağ dəmir yolu stansiyasına qədər olan dəmir yolunun uzunluğu 15 kilometrdir.

Sədərək rayonunun ərazisindən keçən I kateqoriyalı Naxçıvan - Sədərək avtomobil yolunun uzunluğu 15 kilometrdir.

Sədərək gömrükxanasından Naxçıvan - Sədərək magistral yoluna olan I kateqoriyalı yolun uzunluğu 7 kilometrdir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Eneolit və ilk tunc dövrünə aid edilən «qədim yaşayış yeri» Sədərəyin cənubunda yerləşir.

Orta əsrlərə aid edilən «Sədərək yaşayış yeri» Araz çayının sol sahilində yerləşir.

Son tunc ilk dəmir dövrünə aid edilən «Sədərək qalası» Sədərəyin cənub-şərqində Vəli dağın zirvəsində yerləşir.

Tunc dövrünə aid edilən «Sədərək mağarası» və «Div hörən» qədim tarixi abidələrdəndir.

Orta əsrlərə aid edilən yaşayış məskənlərindən biri də «Qırmızı törə»dir Sədərək kəndinin şimal-şərqində yerləşir.

Sədərək məscidi XVIII-XIX əsrlərə aid memarlıq abidəsidir.

II minilliyə aid edilən Qədim yaşayış yeri və qəbiristanlıq Kərki kəndinin cənub-qərbində yerləşir.

Çapacaq kurqanı (dəfn abidəsi) Vəli dağı silsiləsi üzərində yerləşir.

«Ağ oğlan» ziyarətgahının tarixi də çox qədimlərə aid edilir.

Rayonda Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə xatirə kompleksi tikilmiş, torpaqlarımızın müdafiəsi zamanı şəhid olanların xatirəsinə şəhidlər xiyabanı salınmışdır.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

***Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat***

1990-1993-cü illərdə erməni silahlı birləşmələri dəfələrlə Sədərək rayonuna güclü hücumlar etmiş, 1990-cı ildə Kərki kəndi işğal olunmuş, kənddə 46 ev, mədəni sosial obyektlərdən kənd klubu, kitabxana, feldşer-mama məntəqəsi, orta məktəb binası, kənd qəbiristanlığı dağılmışdır. Qanlı yanvar faciəsinin ilk şəhidləri Sədərəyin müdafiəsi zamanı verilmişdir. Rayonun müdafiəsində 108 nəfər şəhid olmuşdur. Bu müddət ərzində 500-ə yaxın yaşayış evi, məktəb binaları, mədəniyyət evi, onun nəzdində olan kənd klubları, kitabxanaları, xəstəxana binası, məscid binası, transformator yarımstansiyaları, elektrik və telefon xətləri, tikişçilik müəssisəsi, şərab emalı zavodu ciddi zərər çəkmiş, Heydərabad qəsəbəsi, sərhəddə yerləşən şərab zavodu dağıdılmışdır. 500-dən artıq adam yaralanmışdır.

## Şahbuz rayonu




**Yaranma tarixi - 1930**

**Ümumi ərazi – 0,84 min.kv.km**

**Əhalinin ümumi sayı – 25,4 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sıxlığı - 1 kv. km 30 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhərin sayı - 1**

**Qəsəbələrin sayı - 1**

**Kəndlərin sayı - 23**

**Ümumi məlumat**

Naxçıvan Muxtar Respublikasının inzibati ərazi bölgüsünə daxil olan Şahbuz rayonu 1930-cu ildə yaradılmışdır. 1963-cü ildə ləğv edilərək Naxçıvan (1978-ci ildə Babək) rayonuna birləşdirilmişdir. 1965-ci ildə yenidən müstəqil rayon kimi təşkil edilmişdir.

Şahbuz rayonu şərq və şimaldan Ermənistanla həmsərhəddir.

Rayona Şahbuz şəhəri, Badamlı qəsəbəsi və Qarababa, Mahmudoba, Biçənək, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Kükü, Badamlı, Şahbuzkənd, Keçili, Külüs, Kiçik-oba, Daylaqlı, Mərəlik, Sələsüz, Şada, Güney Qışlaq, Qızıl Qışlaq, Ayrınc, Kolanı, Ağbulaq, Nursu, Gömür, Türkeş kəndləri daxildir.

Rayon Kiçik Qafqazın Dərələyəz silsiləsinin cənub və Zəngəzur silsiləsinin qərb yamaclarında yerləşir. Səthi, əsasən, dağlıqdır. Ən yüksək nöqtələri Zəngəzur silsiləsində Salvardı dağı (3160 *m)* və Keçəldağ (3115 m), Dərələyəz silsiləsində Kükü dağıdır (3120 *m).* Biçənək aşırımı (2346 *m)* rayonun şimalındadır. Tabaşir-Neogen çöküntüləri yayılmışdır. Fay-dalı qazıntıları: kükürd, torf, tikinti materialları, məmulat daşları və s. Mineral sular (Badamlı, Biçənək, Batabat, Karvansara və s.) çıxır. Yayı quraq keçən soyuq iqlimi var. Orta temperatur yanvarda -10°C-dən -3°C-yədək, iyulda 10-25°C-dir. İllik yağıntı 400-600 *mm*-dir. Ərazisindən Naxçıvan çayı və onun qolları (Kükü, Şahbuz, Salvardı) axır. Qanlıgöl və Batabat gölündən su anbarları kimi istifadə olunur.

Rayonun torpaqları dağ-çəmən, qəhvəyi dağ-meşə, dağ-tünd şabalıdıdır. Dağ-kserofit bitkiləri, dağ çölləri, sub-alp və alp çəmənləri yayılmışdır. Enli-yarpaqlı dağ meşələrinə (palıd, fıstıq, vələs) rast gəlinir.

Şahbuz, əsasən, heyvandarlıq rayonudur. Arıçılıq və meyvəçilik də inkişaf etdirilir. Badamlı mineral su zavodu fəaliyyət göstərir.

Şahbuz toponimi erkən orta əsrlərdə mövcud olmuş və xarabalıqları qalmış eyniadlı qalanın adı ilə əlaqədardır. Həmin qalanın adı isə Şahbuztəpə dağının adından yaranmışdır.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Rayon İcra Hakimiyyətinin orqanı olan «Oğuz səsi» qəzeti 1936-cı ildən nəşr olunur. 1936-cı ildən «Sosializm maldarlığı», 1966-cı ildən «Qabaqcıl», 1991-ci ildən «Oğuz yurdu», 1992-ci ildən isə «Oğuz səsi» adı ilə nəşr olunub.

Azərbaycan Televiziya və radiosu, Naxçıvan televiziyası, «Naxçıvanın səsi» radiosu Şahbuz rayonu ərazisinə yayımlanır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayonun ərazisindən keçən avtomobil yollarının uzunluğu 282 kilometrdir. Dövlət əhəmiyyətli yolların uzunluğu 109 kilometr, yerli əhəmiyyətli yolların uzunluğu 173 kilometrdir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Rayon ərazisində Eneolit, Tunc, Dəmir dövrlərinə, antik dövrə və orta əsrlərə aid yaşayış yerləri, qəbir abidələri qeydə alınmış və öyrənilmişdir. Kükü çayı vadisində eradan əvvəl III minilliyə aid yaşayış yerləri mövcuddur. Tədqiqatçılar tərəfindən Sarıdərə, Ağbulaq, Kolanı, Kükü, Külüs, Şamlar qədim yaşayış yerləri öyrənilmişdir. Aşkar olunmuş mədəniyyət nümunələri, qəbirlər, Sikkə nümunələri eramızın əvvəllərində ərazidə böyük mədəniyyətin olduğunu sübut edir. Şahbuz qalası eramızın əvvəllərində inşa edilmişdir. Şapur qalası Şahbuz rayonunun eyniadlı kəndi yaxınlığında, hər tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağın üstündədir. Arxeoloji abidə kimi 1990-cı ildə qeydə alınmışdır. Tapıntılar Şapur qalasında həyatın eramızın ilk əsrlərindən XV-XVI əsrlərədək davam etdiyini göstərir. Fərhad qalası Batabat yaylağında arxeoloji abidə kimi qeydə alınmışdır. Tədqiqatlar Fərhad qalasının eramızdan əvvəl I minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu söyləməyə imkan verir.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

***Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat***

1. Batabat rəsədxanası 2. Batabatda televiziya ötürücüsü 3. Batabatda pioner düşərgəsinin 2 binası 4. Şada kəndində şəxsi ev (top düşüb dağıdılıb, Məmmədova Çiçək Mirzalı qızı) 5. Keçili, Kükü, Şada, Güney Qışlaq, Qızıl Qışlaq kəndlərində ictimai və fərdi təsərrüfatlara məxsus mal-qara aparılıb.

## Şərur rayonu




**Yaranma tarixi - 1870**

**Ümumi ərazi – 0,87 min.kv.km**

**Əhalinin ümumi sayı – 113,0 min (1 yanvar, 2024-cü il)**

**Əhalinin sixlığı - 1 kv. km 140 nəfər (1 yanvar 2024-cü il)**

**Şəhərlərin sayı - 1**

**Kəndlərin sayı - 65**

**Ümumi məlumat**

Şərur - Dərələyəz qəzası 1870-ci ildə yaradılmışdır. Mərkəzi indiki Cəlilkənd olan Şərur - Dərələyəz qəzasının sahəsi 1897-ci ilin məlumatına görə 29.723 kv. km, əhalisinin sayı 76.551 nəfər olmuşdur. İran və Türkiyə ilə həmsərhəd olan Şərur-Dərələyəz qəzasının əhalisi əsasən əkinçilik, bağçılıq, üzümçülük, pambıqçılıq və arıçılıqla məşğul olmuşdur. Şərur rayonu 1930-cu il avqust ayının 8-də təşkil olunmuşdur. 28 fevral 1991-ci ildə bu inzibati ərazinin əvvəlki adı özünə qaytarılaraq Şərur adlandırılmışdır. Şimal-şərqdə Ermənistan, cənub-qərbdə İranla həmsərhəddir. Mərkəzi Şərur şəhəridir.

Rayona Şərur ş. və Maxta, Qaraburc, Axaməd, Kərimbəyli, Oğlanqala, Çomaxtur, Siyaqut, Kosacan, Yuxarı Daşarx, Dərəkənd, Aşağı Daşarx, Çərçiboğan, Babəki, Dərvişlər, Qarahəsənli, Arbatan, Vərməziyar, Daşarx, Püsyan, Təzəkənd, Yengicə, Alışar, Xələc, Havuş, Yeni Havuş, Xətai, Cəlilkənd, Mahmudkənd, Günnüt, Yuxarı Aralıq, Aşağı Aralıq, Dizə, İbadulla, Ərəbyengicə, Tumaslı, Vayxır, Diyadin, Şəhriyar, Muğanlı, Dəmirçi, Aşağı Yaycı, Yuxarı Yaycı, Gümüşlü, Qarxun, Məmmədsabir, Muğancıq-Mehrab, Muğancıq-Müslüm, Sərxanlı, Axura, Həmzəli, Tənənəm, Qorçulu, Kürkənd, Kürçülü, Düdəngə, Zeyvə, Şahbulaq, Çəmənli, Danyeri, Ələkli, Xanlıqlar, Oğuzkənd, Qışlaqabbas, Arpaçay, Bəhruz Kəngərli kəndləri daxildir.

Rayonun səthi şimalda və şərqdə dağlıq, Arazboyu hissədə bir-birindən tirə və yüksəkliklərlə ayrılan maili düzənliklərdən ibarətdir. Hündürlüyü 600-700 *m*-dən (Araz çayı sahilində) 2775 *m*-ədək (Dərələyəz silsiləsində) dəyişir. Düzənlik və dağətəyi hissədə, əsasən, Antropogen, dağlıq hissədə Devon, Perm, Trias, Tabaşir çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: polimetal filizlər, travertin, mərmər, mərmərəbənzər əhəngdaşı və s. Yayı quraq keçən soyuq yarımsəhra, quru çöl və qışı quraq keçən soyuq iqlimi vardır. Orta temperatur yanvarda -6°C-dən -3°C-yədək, iyulda 20-26°C-dir. İllik yağıntı 200-400 *mm-dir*. Çayları: Araz, Arpaçay, Qaradərə və s. Arpaçay su anbarı Şərur rayonu ərazisindədir.

Boz və çəmən-boz, şorakətvarı boz-qonur, dağ-şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra bitkilərindən və dağ-kserofitlərindən ibarətdir. Heyvanları: qaya keçisi,

muflon, canavar, tülkü, boz dovşan, çöldonuzu, daşlıq dələsi, çöl siçanı və s. Quşları: qırqovul, kəklik, ular, bağrıqara və s.

Şərur, əsasən, kənd təsərrüfatı rayonudur. Təsərrüfatda bitkiçilik və heyvandarlıq mühüm rol oynayır.

Şərur rayonu Naxçıvan Muxtar Respublikasının ən qədim və ən iri yaşayış məskənlərindən biridir. Şərurun əlverişli təbii coğrafi mövqeyi insanların burada qədim zamanlardan məskən salmasına şərait yaratmışdır. Tədqiqatlar göstərmişdir ki, bu bölgədə insanlar hələ son buzlaşma dövründən məskunlaşmışdır. Gur sulu çaylara, münbit torpaqlara malik olan Şərurun ərazisi xüsusilə əkinçilik mədəniyyətinin inkişafı üçün əlverişli olmuşdur.

Hələ eramızdan əvvəl Şərurda insanların məskunlaşdığı tarixi araşdırmalarla müəyyən edilmişdir. 1300 il bundan əvvəlki dövrlərə aid olan «Kitabi-Dədə Qorqud» dastanlarında «Şərik» kimi xatırlanan Şərur inzibati ərazisindəki qazıntılar zamanı Eneolit, Tunc dövrlərinə, Antik dövrə, orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələri aşkar edilmişdir. Rayon ərazisindəki «Qaratəpə» dağında olan və 40 hektar sahəni əhatə edən «Oğlanqala» yaşayış məskəninin tarixi e. ə. II-I minilliklərə aiddir. Şərurda qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi-mədəniyyət abidələri ilə zəngin xeyli arxeoloji abidələr və yaşayış məskənləri mövcuddur. Bunlar qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar, kurqanlar və memarlıq abidələrindən ibarətdir. 1987-1990-cı illərdə Daş dövrünə (Mustye) aid qazma mağarasından maddi-mədəniyyət qalıqları, o cümlədən çaxmaqdaşı və dəvəgözündən hazırlanmış xeyli əmək aləti aşkara çıxarılmışdır. Orta Tunc dövrünün abidələri, əsasən Araz çayı, Arpaçay və onların qolları üstündə aşkar edilmişdir. (Şortəpə, Xələc dağı, Kültəpə, Cənnətqaya və s.).

Eramızdan əvvəl II minilliyin sonu I minilliyin əvvəllərində Şərur ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin (son Tunc-ilk Dəmir dövrləri) keramikası ilə seçilən abidələr yayılmışdır. Eramızdan əvvəl I minilliyin birinci yarısına aid abidələrin tədqiqi bu əraziyə xarici işğalçıların, xüsusilə Urartu basqınlarının artdığını göstərir. Bölgədə Oğlanqala, Govurqala, Qarasu qalası kimi müdafiə istehkamları inşa edilmişdir. Qədim Şərur ərazisi Küp qəbirlərlə zəngindir. Eramızın I-IV əsrlərində bölgədə quyu qəbirlərlə xarakterizə olunan arxeoloji mədəniyyətin yayılması xüsusi maraq doğurur. Erkən və inkişaf etmiş orta əsrlərdə Şərur ərazisində yaşayış məskənlərinin sayı xeyli artmışdır. (Yaycı, Parçı, Tənənəm, Şahbulaq və s.) XVIII əsrin əvvəllərində Osmanlıların idarəsində olan Şərur nahiyəsində 1728-ci ilin məlumatına görə («İrəvan əhalisinin müfəssəl dəftəri») azərbaycanlılardan ibarət 73 yaşayış məntəqəsi mövcud olmuşdur.

**Televiziya, radio, qəzet və digər kütləvi informasiya vasitələri haqda məlumat**

Şərur rayonunda rayon İcra Hakimiyyətinin orqanı olan «Şərurun səsi» qəzeti fəaliyyət göstərir. «Şərurun səsi» qəzeti ilk dəfə 1951-ci ilin oktyabr ayında «Pambığa doğru» adı ilə nəşr olunmuşdur. 1966-cı ilin yanvar ayında rayon qəzetinə «İşıqlı yol» adı verilmişdir. 1991-ci ildən isə rayon qəzeti «Şərurun səsi» adı altında fəaliyyət göstərir.

Bundan əlavə, Azərbaycan Televiziyası və radiosu, Naxçıvan televiziyası və radiosu, «Kanal-35» televiziyası, «Naxçıvanın səsi» radiosu Şərur rayonu ərazisinə yayımlanır.

**Avtomobil, dəmir yolları haqda məlumat**

Rayon ərazisində respublika əhəmiyyətli avtomobil yollarının uzunluğu 147,5 kilometr və yerli əhəmiyyətli avtomobil yollarının uzunluğu isə 312,5 kilometrdir. Respublika əhəmiyyətli yollar Naxçıvan - Sədərək avtomobil yolunun 29 kilometri, Dizə kəndinə gedən yolun 6 kilometri, Şərur şəhərinə gedən yolun 5,5 kilometri, Kərimbəyli, Dərvişlər və Qarahəsənli kəndlərinə gedən yolun 22 kilometri, Xanlıqlar və Gümüşlü kəndlərinə gedən yolun 35 kilometri, Dizə, Axura, Havuş kəndlərinə gedən yolun 30 kilometri, Şərur-Qıvraq yolunun 20 kilometri aiddir. Yerli əhəmiyyətli yollar isə kəndlər arasındakı yollar təşkil edir.

Şərur rayonu ərazisindən keçən dəmir yolu II qrupa aiddir və rayonun 28 km ərazisini əhatə edir. Bu ərazidə Şərur, Daşarx və Vəlidağ stansiyalarından ibarət 3 stansiya vardır. Şərur dəmir yolu stansiyası birinci sinifə, Daşarx və Vəlidağ stansiyaları isə beşinci sinfə aiddir.

**Tarixi və memarlıq abidələri haqda məlumat**

Şərur rayonu arxeoloji və tarixi memarlıq abidələri ilə zəngindir. Burada daş dövründən başlamış tarixin bütün mərhələlərinə aid abidələr mövcuddur. Şərur ərazisində arxeoloji abidələr içərisində Qazma mağarası xüsusi tarixi əhəmiyyət kəsb edir. Bu mağara Naxçıvan Muxtar Respublikası ərazisində ən qədim insan düşərgəsi olub, orta daş dövrünə - yəni 60-80 min il bundan əvvələ aiddir. Qazma mağarası Tənənəm kəndi ərazisində yerləşir. Mağara 1938 -1939-cu illər arasında tədqiq olunmuşdur.

Şərur ərazisində mövcud olan arxeoloji abidələr sırasında Oğlanqala abidəsi öz möhtəşəmliyinə və əzəmətinə görə daha çox diqqət çəkəndir. Bu abidə Oğlanqala kəndi ərazisində olan Qaratəpə mərmər dağının üzərində yerləşir. Oğlanqala e. ə II-I minilliyə aid olan Şərurun qala - şəhər yeridir.

Qarasu qalası Şərur ərazisində olan qədim yaşayış yerlərindən biridir. Arpa çayın sol sahilindəki hündür təpənin üzərində yerləşir. Qarasu qalası Gümüşlü kəndi ərazisində olub, e. ə II-I minilliyə aid olan qədim qala yeridir.

Qız qalası Arpa çayın sağ sahilindəki Uzun qaya dağ silsiləsinin üzərindədir. Qız qalası e. ə II-I minilliyə aid olub, Aşağı Yaycı kəndi ərazisindədir.

Şərur ərazisində bir sıra tarixi-memarlıq abidələri mövcuddur. Bu memarlıq abidələri içərisində Parçı İmamzadəsi xüsusi əhəmiyyətə malikdir. Abidə təmir olunaraq əvvəlki görkəminə qaytarılıb və bərpa olunmuşdur. Parçı İmamzadəsi Səfəvilər dövlətinin yadigarı olub, gözəl üslubda tikilmiş memarlıq incisidir. Parçı İmamzadəsinin səkkizinci imam Müseyi Kazımın nəvəsi Şahzadə İbrahimə aid olduğu söylənilir. İmamzadə ziyarətgahı XVI əsrə aid olub, (keçmiş Parçı) indiki Xanlıqlar kəndi ərazisində yerləşir.

Şərur ərazisində mövcud olan tarixi-memarlıq abidələrindən biri də Pir Süleyman türbəsidir. XVI « XVII yüzilliyin yadigarı olan Pir Süleyman türbəsi Tənənəm kəndi ərazisində yerləşir.

Şərur ərazisində qeydə alınmış memarlıq abidələrindən biri də Yengicə Kəndindəki Köhnə hamamdır. Bu hamam XVIII əsrin sonu XIX əsrin əvvəllərinə aiddir. Köhnə hamam tarixi memarlıq baxımından gözəl sənət incisidir.

Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

***Ermənistanın işğalı nəticəsində dağıdılmış mədəni abidələr haqda məlumat***

Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkarlıq siyasəti nəticəsində Şərur rayonunun Günnüt kəndi işğal edilmiş, Havuş və Şahbulaq kəndlərində əhaliyə məxsus yaşayış binaları, o cümlədən bir çox sosial obyektlər dağıdılmışdır.

1990-1993-cü illərdə ermənilərin rayon ərazisinə hücumu nəticəsində Havuş kəndində məktəb, klub, kitabxana, tibb müəssisəsi, 38 yaşayış evi, Şahbulaq kəndində məktəb, klub, kitabxana tibb müəssisəsi, 23 yaşayış evi dağıdılmış və meşə zolağı sıradan çıxarılmışdır. Günnüt kəndi işğal edildikdən sonra 32 yaşayış evi, məktəb, tibb məntəqəsi, kitabxana dağıdılmış və əhali rayonun digər yaşayış məntəqələrinə köçürülmüşdür. Günnüt kəndinin qəbiristanlığı və məscid dağıdılmış, Havuş və Şahbulaq kəndlərində olan məscidlər yararsız hala salınmışdır.

2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasında dislokasiya olunmuş Əlahiddə Ümumqoşun Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi işğaldan azad edilib.

### ***Bölmənin materiallarının hazırlanmasında istifadə olunmuş ədəbiyyat:***

**Azərbaycanın statistik göstəriciləri- 2021/ Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.- Bakı, 2021.**

**Azərbaycan Milli ensiklopediyası: 25 cilddə. “Azərbaycan” cildi, Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007.**

**Naxçıvan Ensiklopediyası:2 cilddə. I cild.- Naxçıvan: Naxçıvan Ensiklopediyası, 2005.**

**Naxçıvan Ensiklopediyası:2 cilddə. II cild.- Naxçıvan: Naxçıvan Ensiklopediyası, 2005.**

**Azərbaycanın inzibati-ərazi quruluşu: 1828-2010.- Bakı: "Səma Qrafik" MMC, 2010.**

**Fərhadoğlu Kamil. Bakı: İçərişəhər.- Bakı: Çinar-Çap, 2006, səh. 30-35.**

**Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü: məlumat toplusu.- Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2013**

**Azərbaycanın regionları-2021: statistik məcmuə/ Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.- Bakı, 2021.**

**Azərbaycan rəqəmlərdə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2021.**